

X.Rza: - Yönümüz harayadır, Heydər bəy?

H.Əliyev: - Yönümüz Şərqə olsa da, yolumuz Qərbədir.

X.Rza: - Günəş Qərbdə batır...

H.Əliyev: - Qərbdə batır ki, Şərqdən doğsun...

HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ

Altı cilddə

İKT DÖVLƏTLƏRİ

Beşinci kitab

1154

Azərbaycan Respublikası Prezidentinin
İdarəsinin
KİTABXANASI

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.12.2004-cü il tarixli 898 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

ÇAŞIOĞLU
2005

64

AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏZİZ VƏ NURLU XATİRƏSİNƏ İTHAF OLUNUR

Müəllif-tərtibçilər: ***Qaley Allahverdiyev***
XİN-in müşaviri,
filologiya elmləri doktoru

Vəhdət Sultan-zadə
XİN-in müşaviri

Məsləhətçi-rəyçi: ***Novruz Məmmədov***
Azərbaycan Respublikası Prezidenti Aparatının şöbə müdiri, Fövqəladə və Səlahiyyətli Səfir

Redaktoru: ***Mübariz Qurbanlı***
Milli Məclisin deputatı, tarix elmləri namizədi, dosent

"Tekfen Holding"*in qurucu rəhbərləri* ***Nihat Gökyiqitə, Necati Akçağlılara, Feyyaz Berkerə,*** *prezidenti* ***Erhan Önerə*** *və Azərbaycandakı təmsilçisi* ***Bataçar Baysala*** *"Heydər Əliyev və Şərq" kitabının I-V cildlərinin çapa hazırlanmasında göstərdikləri əvəzsiz köməklik üçün dərin minnətdarlığımızı bildiririk.*

Müəlliflər

H 0803010100-985
082-05

© "Çaşıoğlu" nəşriyyatı, 2003
© "Çaşıoğlu" nəşriyyatı, 2005

TARİXİMİZİN VƏ SİYASƏTİMİZİN BAYRAQDARI

Rəhbəri Heydər Əliyev olan xalq - xoşbəxtdir

İslam Kərimov,
Özbəkistan Respublikasının Prezidenti

Müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, beynəlxalq diplomatik əlaqələrin mötəbər təməli və dinamik təkamülü də möhtərəm Prezidentimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dünyanın ikiqütblü siyasi sisteminin dağıldığı və yenisinin hələ tam şəkildə öz təşəkkülünü tapa bilmədiyi gərgin və qarışıq bir zamanda, qüdrətli dövlətlərin mənafelərinin çarpazlaşdığı və toqquşduğu məqamlarda geostrateji mövqeyinə görə Qərb, Şərq, Şimal və Cənub arasında ideal körpü yaradan, zəngin yeraltı və yerüstü sərvətlərə malik Azərbaycanımıza onun keşməkeşli, mürəkkəb və məsuliyyətli bir tarixi mərhələsində bu görkəmli dövlət xadiminin rəhbərlik etməsi taleyin və Tanrının bizə bəxş etdiyi ən böyük ərməğandır.

Sovet İttifaqı kimi nəhəng bir imperiyanın dağılmasından suiistifadə edərək məkrli və təcavüzkar ermənilərin "Dağlıq Qarabağ oyunu", Azərbaycanı parçalamaq, bölmək, tarixin səhifələrindən silmək üçün xalqın içərisində etnik və vətəndaş qarşıdurması yaratmaq cəhdləri, "sapı özümüzdən olan baltalar"ın xarici ölkələrin mənafeləri naminə canfəşanlığı, dünyanın yeni neft strategiyasının yarandığı bir bölgədə ölkəmizin önəmli mövqe tutmasına qısqanclıq, dövlətçiliyimizin və xarici siyasətimizin hələ kövrək və qayğıya möhtac durumu, keçid dövrünün obyektiv çətinlikləri və bunlara oxşar bir çox faktorların yaratdığı ziddiyyətlər, xaotik və qeyri-sabit proseslər, iqtisadi, mənəvi aşınmalar dünyanın qabaqcıl ölkələrinin ikili standartlarından əziyyət çəkən Azərbaycanın demokratik inkişaf yolunu əngəlləyirdi. Müstəqilliyin əzabla yollarını qət etmək, ölkədə stabillik, əmin-amanlıq yaratmaq, dövlətçiliyi və iqtisadiyyatı dirçəltmək, xalqı düçar olduğu bəladan xilas etmək zərurəti yaranmışdı.

Ölkəmizin və dövlətçiliyimizin ən ağır, şok vəziyyətində xalqın təkidli xahişi və tələbi ilə, yaşının müdriklik çağında o, bir xilaskar

kimi Bakıya qayıtdı. Zəngin təcrübəyə malik siyasətçi və dövlət xadimi Azərbaycanın kəsilmiş və ya pozulmuş beynəlxalq əlaqələrini səhmana salmağa başladı. İnformasiya blokadasına alınmış Azərbaycanın haqq işini, ona qarşı olan ədalətsizliyi ən mötəbər məclislərdə, ən uca kürsülərdə gur səslə dilə gətirdi. Nə qədər müşkül, mümkünsüz görünsə də ali məqsədinə doğru addım-addım irəlilədi.

Azərbaycanı qüdrətli, hüquqi, dünyəvi və demokratik bir dövlətə çevirmək missiyasını öz üzərinə götürdü.

Manna, Midiya, Albaniya, Ərəb xilafəti, Atabəylər, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər, Şirvanşahlar, Rusiya imperiyası və Sovetlər kimi dövlətçilik və siyasət tarixini əxz edən, mənimsəyən Prezident Heydər Əliyev Azərbaycanın tarazlaşdırılmış müstəqil siyasət konsepsiyasının banisidir. Ölkəmizin başçısı böyük qürur hissi və fəxrlə hər bir mötəbər toplantıda və görüşdə "Azərbaycanımızın müstəqilliyi bizim tarixi nailiyyətimizdir" sözlərini bəyan etməyi və bu nailiyyəti daha da möhkəmləndirilməyi özünün ən müqəddəs və ümdə vəzifəsi sayır. Müstəqilliyimizi qoruyub yaşatmaq isə bizim hər birimizin müqəddəs vəzifəsidir. Taleyin ən çətin anında, tarixi intibah və sınaq məqamında xalqımız tərəfindən iki dəfə Prezident seçilən Heydər Əliyev iştirak etdiyi bütün mötəbər beynəlxalq məclislərdə "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir" fikrini dönə-dönə təkrar edərək dünya ictimaiyyətinə bu həqiqəti aşılamaq yolunda əlindən gələni əsirgəməmişdir və əsirgəmir. Onun zəngin dövlət quruculuğu təcrübəsi, beynəlxalq aləmdəki böyük nüfuzu, dünyanın keçmişi və müasir durumu barədə dərin və hərtərəfli biliyə malik olması sayəsində, həmçinin apardığı geniş siyasi fəaliyyət nəticəsində Azərbaycan, əvvəlcə keçmiş SSRİ miqyasında, hazırda isə bütün dünya miqyasında tanınmışdır. Prezidentimiz isə özünün yorulmamazlığı və müdrikliyi ilə, şəxsiyyət kimi cazibədarlığı və dərin intellekti ilə dünyada Azərbaycanın rəmzinə çevrilmişdir. Beynəlxalq aləmdə Prezidentimizin şəxsiyyətinə və diplomatik məharətinə verilən yüksək qiymət Azərbaycanımızı dünyanın sivil dövlətləri sırasına qoyub. Ölkəmiz dünya dövlətlərinin tanıdığı və hesablaşdığı bir dövlətə çevrilib.

Respublikamızın müstəqil siyasi kurs götürməsi, Qafqazda, regionda və dünyada möhkəmlənməsi, öz siyasi dəsti-xəttinin olması, xarici siyasət sistemini qabaqcıl dünya təcrübəsi əsasında qurması, diplomatiyamızın uğurlu addımları Prezident Heydər Əliyevlə bağlıdır. Əlbəttə, düşmənlərimizin Azərbaycanımızın müstəqil bir dövlət kimi yaşamasının qarşısını almaq üçün hər bir hiyləyə əl atdıqları bir vaxtda bu uğurlar heç də asanlıqla əldə olunmur.

"Prezident Heydər Əliyevin Azərbaycan dövlət müstəqilliyini

qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünə layiqli yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır". *(...Novruz Məmmədov, Azərbaycan Respublikası 1991-2001, Bakı, 2001, səh 253)*

XX əsrdə tarix, tale Azərbaycan xalqına iki böyük ərməğan bəxş etmişdir - onlardan biri müstəqilliyimizdirsə, digəri Heydər Əliyev kimi dahi bir şəxsiyyətin mövcudluğu və xalqımıza mənsubluğudur. Onun Yeni Azərbaycan siyasəti və dövlət quruculuğu haqqındakı fikirləri, ideya və düşüncələri ötən dövrün dərslərindən istifadə edilməklə ölkəmizin işıqlı gələcəyinin gerçəkləşməsinə yönəldilmişdir. Prezidentimizin siyasəti Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirir. Onun düzgün, uzaqgörən siyasəti sayəsində bütün çətinliklərə baxmayaraq tezliklə ərazi bütövlüyümüzün bərpa olunacağı, ölkəmizdə sülh və əmin-amanlığın bərqərar olacağı şübhəsizdir və bu istiqamətdə qətiyyətli addımlar atılmaqdadır.

Prezident Heydər Əliyev qlobal düşüncəli siyasətçidir, apardığı xarici və daxili siyasət təsəvvürə gəlməyəcək dərəcədə çoxşaxəli və mürəkkəbdir. O, dünya siyasətini formalaşdıran şəxsiyyətlərlə onların dilində və səviyyəsində danışır. Onun apardığı siyasət sayəsində suverenliyimiz və müstəqilliyimiz möhkəmlənmiş, təmin edilmişdir. Dünyanın ən nəhəng dövlətləri Azərbaycanla hesablaşmağa başlamışlar. Onun bayraqdarı olduğu ardıcıl və məqsədyönlü siyasətimiz bizi "Əsrin müqaviləsi"nə, "İpək yolu"na, Bakı-Ceyhana, Bakı-Supsaya, NATO ilə əməkdaşlığa, ən nəhayət, Avropa Şurasına aparıb çıxartmışdır. Təkcə bu son faktın özü xalqımızın böyük nailiyyəti, dövlət başçımızın apardığı uğurlu siyasətin ən parlaq təzahürü, dövlətçiliyimizin və müstəqilliyimizin təntənəsidir. Avropa Şurası ölkəmizdə mövcud olan problemlərin həllində bizə yaxından yardım edəcəkdir. Coğrafi tellər indi də bizi iqtisadi, siyasi, mədəni tellərlə bağlayacaq, bu Şurada öz sözümüzü deyəcək, qitənin taleyüklü məsələləri müzakirə olunarkən tam bərabərhüquqlu üzv kimi öz mövqeyimizi bildirəcək, strateji planda Prezidentimizin kursunun növbəti mərhələlərini həyata keçirmək üçün geniş imkanlar tapacağıq.

Heydər Əliyev öz siyasətində xalqa arxalanır. Milli ideologiya konsepsiyamızın yaradıcısı olan bu görkəmli şəxsiyyətin məhz xalqla birliyi sayəsində, Azərbaycanı çıxılmaz vəziyyətə salmaq istəyənlərin bütün cəhdləri boşa çıxmışdır və çıxacaqdır. Əsrlər boyu ermənilər öz havadarları ilə birlikdə beynəlxalq aləmdə ölkəmi-

z və xalqımız haqqında mənfi imic yaratmağa, böhtanlar yaymağa çalışmışlar. Bu təxribatın qarşısını alan, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdıran da məhz Prezidentimizin gördüyü işlər, apardığı siyasət olmuşdur. Heydər Əliyevin hərtərəfli, o cümlədən diplomatik fəaliyyəti nəticəsində Azərbaycan əvvəlcə Sovet İttifaqı səviyyəsində, sonra isə beynəlxalq aləmdə tanınmağa, sayılmağa və eşidilməyə başlamışdır.

Çıxışlarının birində "Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir" deyən Heydər Əliyev öz işində hüquqi dövlət quruculuğunu ön plana çəkir ki, bu da xarici siyasətimizin möhkəm hüquqi baza əsasında qurulduğunu göstərir.

Prezident Heydər Əliyev ən ekstremal vəziyyətlərdən çıxış yolunu beynəlxalq təcrübəyə əsaslanan bir siyasətin aparılmasında görür. Şəxsiyyəti bütün dünya ölkələrində birmənalı şəkildə qəbul edilən Prezidentimiz ölkə üçün taleyüklü məsələlərin həlli zamanı belə beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən, dövlətlərarası münasibətlərə hörmətlə yanaşmağa yönəldilən bir siyasət aparır. Bunun nəticəsidir ki, artıq dövlətimiz öz milli dövlət mənafeyinə uyğun olan, dünya dövlətləri siyasəti arasında öz dəsti-xətti görünən bir orbitə çıxmışdır.

Heydər Əliyev azərbaycançılıq ideologiyasının və siyasətinin bayraqdarıdır. O, yüksək mənəviyyatı, geniş mədəniyyəti, ali intellektual səviyyəsi olan bir siyasətçi, mahir diplomat və böyük dövlət xadimidir. "Dahilər öz zamanında dərk olunmur" sözləri onun üçün deyilməmişdir. Xalq, dünya, zaman və tarix artıq ona layiqli qiymətini vermiş - onu Azərbaycanın ləyaqət etalonu, qüruru, varlığının mənəvi təcəssümü etmişdir. "Heydər-xalq, xalq-Heydər" şüarı onunla xalq arasındakı vəhdətin əbədi ifadəsidir. Heydər Əliyev fenomeni, onun dövlətçiliyimiz tarixində müqayisəyəgəlməz xidmətləri bir örnək olaraq öyrənilmiş, öyrənilir və öyrəniləcəkdir. Onun ölkəmizə rəhbərlik etdiyi bu tarixi mərhələ - müstəqil Azərbaycan dövlətinin yaranması, qurulması və inkişafı, dövlət quruluşumuzun hüquqiləşdirilməsi, cəmiyyətimizin demokratikləşdirilməsi, dünya azərbaycanlılarının ümummilli işbirliyinin qurulması, ölkəmizin dünya dövlətləri sırasına çıxması mərhələsidir. Siyasətdə müdriklik, həyatda praqmatiklik, dövlət idarəçiliyində ustalıq Heydər Əliyev siyasətinin ana xəttidir.

Politoloqlar arasında belə bir deyim var ki, "tarix keçmiş siyasətdir, siyasət isə hazırkı tarixdir". Heydər Əliyev müasir siyasətimizi və tariximizi özündə birləşdirən dahi bir şəxsiyyətdir. Bu sə-

bəbdən onun haqqında, onun siyasəti haqqında yazmaq - tarixi qələmə almaq qədər çətin və məsuliyyətlidir. Atatürkün "tarixi yazmaq tarix yaratmaq qədər mühümdür" kəlamı bu fikrin ən səlis və düzgün ifadəsidir.

Məlum olduğu kimi, xarici siyasətin istiqamətini, xarakter və prinsiplərini dövlət başçısı müəyyənləşdirir. O, ölkəsinin çiçəklənərək inkişafını və təhlükəsizliyini təmin etmək üçün onun ətrafında əlverişli beynəlxalq şərait yaradır. Bunun üçün xarici siyasətin bütün vasitələrindən istifadə edərək dövlətlərlə qarşılıqlı-faydalı əməkdaşlığı nizama salır, onların dövlət quruculuğu təcrübələrindən faydalanaraq həm ölkə daxilində, həm də xaricində qarşıya çıxan problemlərin dəf edilməsi üçün müvafiq tədbirlər görür, bu istiqamətdə qonşu dövlətlərin və dünya dövlətlərinin səylərini birləşdirmək üçün lazımi addımlar atır. Dövlətin mənafeyi əsas kimi götürülür və o, imkan daxilində, beynəlxalq birgəyaşayış normalarına uyğun olaraq xarici aləmin maraq və mənafeləri ilə uzlaşdırılır. Dövlətin xarici siyasət konsepsiyası hazırlanır, onun məqsədi, əsas istiqamətləri və prinsipləri müəyyənləşdirilir. 1995-ci ilin noyabr ayının 12-də qəbul edilmiş Konstitusiyanın 10-cu maddəsində göstərilir ki, **"Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur".** *(Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996-cı il, səh 6.)* Bu prinsiplər ATƏT-in "Helsinki aktı"nda və "Paris xartiyası"nda öz əksini tapdığından və beynəlxalq aləm tərəfindən qəbul edildiyindən onları yenidən sadalamağa ehtiyac duymuruq.

Dövlətimizin xarici siyasət konsepsiyasını açıqlayan Prezident Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında aşağıdakıları bildirmişdir: **" Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir... Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini,**

müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsiplər əsasında gedəcəkdir" *(Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s. 205 - 207).* Prezidentimizin andiçmə mərasimində söylədiyi bu nitq xarici siyasətimiz üçün proqram xarakteri daşıyır və onun müddəaları ardıcıl surətdə həyata keçirilməkdədir.

Prezident Aparatının şöbə müdiri cənab Əli Həsənovun çox düzgün olaraq göstərdiyi kimi, dövlətimizin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələri aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

- ölkənin müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx bağlamaq,
- bütün beynəlxalq və regional təşkilatlara üzv olmaq, sivilizasiyalı birgəyaşayış qaydaları ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq, dünyanın siyasi xəritəsində layiqli yer tutmaq, beynəlxalq və regional münasibətlərin həllində layiqincə təmsil olunmaq,
- dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən respublikanın iqtisadiyyatını, elmini və mədəniyyətini inkişaf etdirmək üçün istifadə etmək,
- mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikamızın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək,
- ölkəmizin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqil daxili və xarici siyasət aparılması, kənardan müdaxilə edilmədən dövlət quruculuğunun həyata keçirilməsi üçün dinc beynəlxalq şəraitin bərqərar olmasına çalışmaq,
- əhalinin əsas hüquq və azadlıqlarının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq,
- regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək,
- xarici dövlətlərin respublikamıza göstərdiyi təzyiqlərin qarşısını almaq üçün beynəlxalq himayəyə nail olmaq,
- dövlətimizin bütün beynəlxalq, regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına

çalışmaq,

- düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə etmək,
- xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr və geniş informasiya mübadiləsi mexanizmləri yaratmaq və s. *(Əli Həsənov. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998, s. 12-13).*

Bütün bunlar Prezident Heydər Əliyevin apardığı müdrik siyasət nəticəsində ardıcıl olaraq həyata keçirilməkdədir və bir çox sahələrdə artıq öz konkret nəticələrini vermişdir.

Onun hakimiyyətə gəlməsi ilə xarici siyasətimizdə də dönüş mərhələsi başlandı. Qısa bir zamanda dövlətimiz bir sıra beynəlxalq təşkilatlara, birlik və ittifaqlara üzv seçildi, sayılan beynəlxalq forumlara dəvətlər aldı, onların fəal iştirakçılarından oldu, öz problemləri və regional problemlərlə bağlı məsələləri bu forumların gündəliyinə salınmasına və müzakirə edilməsinə, onlara aid müvafiq qərarlar çıxarılmasına nail oldu.

Ölkəmiz beynəlxalq münasibətlərdə hamı tərəfindən qəbul edilmiş norma və qaydalara, beynəlxalq konvensiya və sazişlərə sadiq olduğu barədə dalbadal bəyanatlar verdi. Ayrı-ayrı dövlətlərlə sazişlər və müqavilələr bağladı, memorandumlar imzaladı. Bu qəbildən olan rəsmi sənədlər vasitəsi ilə həm beynəlxalq normalara riayət edən sivil diplomatiya yoluna qədəm qoydu, həm də demokratik ənənələrə sədaqət və yüksək sivilizasiya nümayiş etdirdi. Azərbaycan MDB-yə, Qara dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatına, İTƏ-ə, GUÖAM-a, Avropa Şurasına, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu, hər il çağırılan məşhur Davos forumunun, BMT-nin sesiyalarının, ATƏT-in, İKT-nin, Türkdilli Dövlətlərin Başçılarının sammitlərinin daimi iştirakçısı oldu. Bununla həm öz strateji müttəfiqlərinin sayını xeyli artıra bildi, həm də bu möhtəşəm beynəlxalq forumlarda öz mövqeyini, Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini beynəlxalq ictimaiyyətə çatdıra bildi.

Xaricidə Azərbaycanın səfirliklərinin və diplomatik nümayəndəliklərinin açılması, 140-a yaxın dövlətlə diplomatik əlaqələrin qurulması, dünyanın bir çox aparıcı dövlətlərinin Bakıda öz səfirliklərini və nümayəndəliklərini açması da bu dövrə düşür.

Keçmiş rəhbərliyin qeyri-sabit, biryönlü siyasəti birdəfəlik kənara atıldı. Reallıqlara əsaslanaraq mövcud münasibətlər bir daha nəzərdən keçirildi, saf-çürük edildi.

Azərbaycanın xarici siyasəti obyektiv reallıqlar üzərində quruldu, regiondakı və beynəlxalq aləmdəki qüvvələr nisbəti hesaba

alınmağa, saf-çürük edilməyə başlandı. Mənafelərin qarşılıqlı surətdə nəzərə alınması tezisinə diqqətlə yanaşılaraq mənafelər arasında tarazlıq yaratmaq xətti diplomatiyamızın təməl daşlarından və əsas qanunlarından biri oldu. Bundan sonra ən yaxın qardaş ölkə, dost ölkə məfhumları aradan çıxmağa başladı, daha ayrı-ayrı dövlət adamlarının və siyasi xadimlərin subyektiv baxışları və emosional mövqeləri meyar kimi götürülmədi və əsas diqqət yavaş-yavaş qarşılıqlı mənafelərin təmin edilməsinə yönəldi. Məsələyə birinci növbədə dövlətçiliyimizin mənafeyi istiqamətindən baxılmağa başlandı və bu da tezliklə öz real səmərələrini verdi. Ətrafımızda bizə qarşı düşmənçilik ruhu ilə dolmuş kəskin ab-hava dəyişərək yumşaldı. Prezident Heydər Əliyevin müdrik siyasəti öz bəhrələrini verməyə başladı. Siyasətimizə uğurlar dövrü gəldi.

Bu uğurlardan biri də o oldu ki, ölkəmiz Prezidentimizin yorulmaz səyləri nəticəsində türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxarıldı. Türk dünyasına məxsus olan, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet respublikaları ilə qonşuluq, dostluq və qardaşlıq münasibətləri bərpa edilərək bəziləri ilə olduqca yüksək səviyyəyə çatdırıldı. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak etmiş, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir. 2000-ci ildə Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur "Bakı bəyannaməsi"nin elan edilməsi ilə başa çatmışdır.

Heydər Əliyev diplomatiyasının müdrik addımlarından sayılan "açıq qapı" siyasəti də uğurlu olmuşdur. Keçici çətinliklərə baxmayaraq Azərbaycanın dünyanın bütün ölkələri (əlbəttə, Ermənistandan başqa) və xalqları üçün açıq ölkə elan edilməsi öz müsbət nəticələrini verməyə başladı. Ölkəmizdəki sabitliyi, plüralizmi, demokratikliyi, qanunların aliliyini öz gözləri ilə görən, işlərində hiss edən xarici ölkə vətəndaşları, siyasətçiləri və iş adamları bir tərəfdən Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına yardım edir, digər tərəfdən isə yeni-yeni investisiyaların qoyulması üçün ən yaxşı reklam və təbliğat rolunu oynayır, Azərbaycanın bütün ölkələr və xalqlarla dost olmaq niyyətini dünyaya car edir, dostlarımızın sayını artırırlar.

Azərbaycan diasporuna göstərilən daimi diqqət də elə bu qəbildən olan uğurlardandır. Hələ ilk səfərlərinin birində, 1994-cü ilin fevral ayının 23-də Böyük Britaniyadakı həmvətənlərimizlə görüşərkən cənab Prezident onlara müraciətlə demişdi: **"Vətəndən kənarda yaşayan soydaşlarımızın ürəyi gərək daim Azərbaycanın nəbzi ilə bir vursun. Harada yaşamasından, vəziyyətinin ağır və**

çətinliyindən asılı olmayaraq, gərək hər kəs öz Ana Vətəni haqqında düşünsün. Azərbaycanlılar artıq bilirlər və daha çox bilməlidirlər ki, indi bizim nəhayət, müstəqil dövlətimiz - Azərbaycan Respublikası var, azərbaycanlılar üçün Ana Vətən var. Bu, müqəddəs Azərbaycan torpağıdır. Deməli harada olursan-ol, hansı ölkədə yaşayırsan-yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən" *(Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, s.432).*

Diasporun təşkilatlanmasını əsas vəzifə kimi bütün azərbaycanlıların və dövlət təşkilatlarının qarşısında qoyan Prezident bunun üçün əlindən gələni əsirgəməmiş və ən nəhayət diasporumuz Prezident Heydər Əliyevin səyləri nəticəsində 2001-ci ilin noyabr ayının 9-10-da Bakıda çağırılan "Dünya azərbaycanlılarının 1-ci qurultayı" adlı forumda öz mütəşəkkilliyini daha da gücləndirmiş və təşkilatlanmış, bununla da uzun illər ərzində gedən bu proses öz müsbət nəticəsini vermişdir.

Hər ilin dekabr ayının 31-ni Dünya azərbaycanlılarının həmrəylik və birlik günü bayramı kimi qeyd etmək haqqında qərar qəbul edilmişdir. Sonra isə bu gün bütün Azərbaycan Respublikasında dövlət bayramı kimi qeyd olunmağa başlandı.

Prezident Heydər Əliyevin apardığı məqsədyönlü və ardıcıl xarici siyasət sayəsində bu sahədə əsaslı dönüş baş verdi. Siyasətdə axtarışlar və araşdırmalar dövrü sona çatdı, yerinə qəti addımlar atmaq mərhələsi gəldi. Xarici siyasətimizin əsas istiqamətləri, prioritetləri müəyyənləşdirildi, qarşı tərəflər müəyyən edildi, qarşılıqlı münasibətlərin dərinləşərək şəxsi və dövləti münasibətlərə çevrilməsi, dövlətlərarası münasibətlərin bəzi anlarda şəxsi dostluq münasibətlərinə dönməsi mərhələsi başlandı. Buna misal olaraq qeyd etmək olar ki, Heydər Əliyev cənabları və Süleyman Dəmirəl arasındakı hələ Sovetlər dövründə baş verən tanışlıq sonradan möhkəm dostluğa çevrildi və mövcud olan türk-Azərbaycan dostluğunun daha da möhkəmlənməsinə böyük yardım göstərdi. Siyasətimizin prioritet istiqamətləri müəyyənləşdirildi və bu vaxt şəxsi əlaqələrlə yanaşı rəsmi səfərlərə də böyük önəm verildi. Zamanın tələblərinə uyğun olaraq əsas prioritetlərimiz dünyanın super dövləti olan ABŞ və Qərb dövlətləri koalisiyası ilə strateji əməkdaşlıq, BMT-nin Təhlükəsizlik Şurasının üzvlərinin tam dəstəyinə nail olmaq, MDB dövlətləri ilə mövcud olan əlaqələrin bərpası və inkişafı, İKT-yə daxil olan bütün dövlətlərin dəstəyini qazanmaq və sıx siyasi-iqtisadi əlaqələr qurmaq, başda Türkiyə olmaqla türkdilli dövlətlərin siyasi-iqtisadi-mədəni inteqrasiyası proseslərində fəal iştirak etmək, bütün qonşu dövlətlərlə mehriban

qonşuluq münasibətləri yaratmaq kimi müəyyənləşdirildi, bunun həyata keçirilməsi məqsədi ilə rəsmi səfərlər təşkil edildi, ölkəmizə səfərlər üçün dəvətlər göndərildi, ikitərəfli görüşlər keçirildi, qarşılıqlı saziş və müqavilələrin hazırlanaraq imzalanması həyata keçirildi ki, bunun da real nəticələri artıq göz qabağındadır. Ölkəmizin nüfuzu günü-gündən artmaqda, əlaqələri genişlənməkdə, qlobal rolu böyüyərək dünya siyasətində öz yerini tutmaqdadır.

Sivilizasiyalı birgəyaşayış qaydalarına və prinsiplərinə riayət devizi altında böyüklüyündən və kiçikliyindən, yaxınlığından və uzaqlığından asılı olmayaraq bütün qonşu ölkələr və xalqlarla, xüsusi ilə də Yaxın və Orta Şərq ölkələri ilə qonşuluq və əməkdaşlıq ab-havası yaradıldı. Hamı ilə mehriban qonşuluq şəraitində yaşamaq istəyimiz nümayiş etdirildi. Prezident Heydər Əliyev tərəfindən dəfələrlə bəyan edildi ki, biz heç kəsə ərazi və torpaq iddiasında deyilik, ölkəmiz sülhsevər bir ölkədir və heç vaxt zorakılıq mənbəyi olmayacaqdır. Torpaqlarımızın 20%-ni işğal edən mənfur erməni qonşularımıza belə biz sülh təklif edir, münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə çözülməsini istəyirik. Prezident Heydər Əliyevin bəyan etdiyi kimi **"... bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq".** *(Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s.205)*

Xarici siyasətimizin ən nəzərə çarpan çəhətlərindən biri də o oldu ki, xarici iqtisadi əlaqələrimiz gücləndirildi və ölkəmizin daxilində gedən islahatlar intensivləşdirildi, demokratikləşdirildi və liberallaşdırıldı.

Ordu quruculuğunda qazandığımız nailiyyətlər də xarici siyasətimizin uğurlarındandır. Bu sahədə aparılan düzgün siyasət nəticəsində indi Azərbaycanın müstəqilliyini qoruya biləcək bir ordumuzun olduğunu fəxrlə söyləmək olar. Bunun nəticəsidir ki, artıq ordumuz beynəlxalq proqramlarda iştirak edir, xarici ölkələrdə (Kosovada) ona tapşırılan beynəlxalq missiyanı yerinə yetirir.

Xarici siyasətin mühüm bir hissəsi olan informasiya siyasəti də uğurla həyata keçirilir. Artıq Azərbaycanın televiziya kanallarına (AzTV.1 və Lider kanalları) süni peyk antenaları ilə dünyanın bir çox dövlətlərində baxmaq olar. Yüzlərlə yeni açılmış internet səhifələri, müxtəlif dillərdə çap olunan qəzet və jurnallar Azərbaycanın informasiya blokadasını çoxdan yararaq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa qadir olduğundan xəbər verir.

Azərbaycan Şərq və Qərbin arasında yerləşdiyinə görə siyasə-

timizin təməl prinsiplərindən biri avropalaşma, Avropaya yaxınlaşma, yenilikçilik, müasirlik, qərbçilik, Avropa mədəniyyətinə qovuşmaq, Qərb dəyərlərindən inkişafımızda yararlanmaq, Şərq və Qərb mədəniyyətlərinin sintezindən ibarət çağdaş mədəniyyət yaratmaq, Şərq və Qərb arasındakı strateji mövqeimizdən istifadə edərək siyasi, iqtisadi, elmi və mədəni körpü olmaq, Avropaya inteqrasiya olmaqdır. Və bu sahədə əldə etdiyimiz müvəffəqiyyətlər artıq göz qabağındadır. Bu barədə qalaq-qalaq kitablar yazılmış, möhtəşəm auditoriyalarda sözlər deyilmiş, lazımi işlər görülmüşdür.

Lakin biz avropalı olduğumuz qədər də şərqliyik. Biz Şərqin göbəyində, Avropanın isə astanasındayıq. Biz unutmamalıyıq ki, şərqlilər Azərbaycanı özlərindən sayır, avropalılar isə bizi periferiya, emosional qafqazlı hesab edirlər. Nə qədər özümüzü sivilizasiyaya yaxın bir xalq, ölkə kimi göstərsək də bütün bunlar qəbul etmək məcburiyyətində qaldığımız həqiqətdir. Bir də, bizim nəzərimizə açıq şəkildə çatdırılmasa da müsəlman - xristian dünyaları arasında müəyyən qədər qarşıdurmanın olduğu danılmaz bir faktdır və hərdən kəskinləşən, hərdən isə səngiyən ziddiyyətlər də mövcuddur. Çox vaxt maraqların və mənafelərin üstün gəlməsinə baxmayaraq bu özünü müəyyən dərəcədə büruzə verir, hərdən gözlənilməyən istiqamətdən meydana çıxır və məsələlərin gedişatına öz təsirini göstərir. Bütün bu reallıqları nəzərə almamaq Heydər Əliyev kimi böyük siyasətçi üçün mümkünsüzdür. Bütün bunları dərindən analiz edən Azərbaycan Prezidenti dövlət rəhbəri kimi çalışdığı ilk gündən qonşu Şərq dövlətləri, ərəb və islam aləmi ilə də sıx əlaqələr qurmaq üçün əlindən gələni əsirgəmədi. İlk növbədə hələ 70-ci illərdə Şərq dövlətlərinin rəhbərləri ilə qurduğu şəxsi əlaqələrdən və təmaslardan yeni yaradılacaq əməkdaşlığın təməlini qoymaq üçün istifadə etməyə başladı.

Məlum olduğu kimi, Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü kimi SSRİ-nin beynəlxalq əlaqələrinin inkişafında fəal surətdə iştirak etmiş, xarici siyasət məsələlərinə dərindən qatılmış və dəfələrlə nümayəndə heyətlərinə başçılıq edərək Avropanın, Asiyanın, Afrikanın və Latın Amerikasının bir çox dövlətlərini ziyarət etmişdir. O, SSRİ-nin Yaxın və Orta Şərq ölkələrinin rəhbərləri ilə apardığı danışıqlarda və siyasi məsləhətləşmələrdə yaxından iştirak edir, çox vaxt bu ölkələrə səfər edən nümayəndə heyətlərinə başçılıq edir. Əslində SSRİ-nin bu ölkələrlə və islam dünyasında apardığı siyasət bir növ Heydər Əliyev tərəfindən formalaşdırılırdı. Onun 1982-87-ci illərdə Misirə, Suriyaya, İordaniyaya, Liviyaya, İraqa, Yəmənə, Pakistana və başqa ölkələrə səfərləri, Kral Hüseyn, Ənvər Sədat, Hafiz Əsəd, Səddam Hüseyn, Benəzir Bhutto və başqa islam dünyası liderləri ilə görüşləri təkcə bu ölkələrdə

deyil, bütün islam aləmində və dünyada aparıcı siyasətçilərdən biri kimi tanınmasına səbəb oldu. O, Azərbaycan Prezidenti seçildikdən sonra Azərbaycanı dünyada tanıtmaq xəttini davam etdirərək bu ölkələrin rəhbərlərinin bir çoxu ilə köhnə əlaqələrini bərpa etdi və yeni əlaqələr yaratdı.

Elə Kasablanka Zirvə toplantısında Asiyanın müsəlman ölkələri adından nitq söyləməyin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə həvalə edilməsi dünya siyasətində ona edilən böyük ehtiramın təsdiqidir. Asiya ölkələri adından Azərbaycan Prezidentinin çıxış etməsi həm də onun başçılıq etdiyi Azərbaycana göstərilən diqqət və münasibətin nəticəsidir.

İslam dünyasının özünün və İslam ölkələrinin başçılarının Prezidentimizin şəxsiyyətinə göstərdikləri böyük maraq haqqında, islam ölkələri liderləri ilə öz şəxsi əlaqələri haqqında Kasablanka Zirvə toplantısından sonra jurnalistlərlə görüşdə cənab Heydər Əliyev belə demişdi: " ...Mən hesab edirəm ki, İslam Konfransı Təşkilatına daxil olan dövlətlərin tam əksəriyyəti Azərbaycanın bu ağır vəziyyətini başa düşür və ona kömək göstərmək əzmindədir. Şübhəsiz ki, indi bu Zirvə toplantısında iştirak etməyimiz, mənim bir çox ikitərəfli görüşlərim olduqca əhəmiyyətlidir. Görüşdüyüm adamların bir çoxu ilə keçmişdən tanışam, çoxları ilə bir vaxtlar görüşlərim olub. Məsələn, Yasir Ərəfatla biz qardaş kimi görüşdük. O məni görəndə sevindiyindən bilmədi ki, nə etsin. Çünki mən onu vaxtilə, daha doğrusu, 70-ci illərin sonunda Bakıda bir neçə dəfə qəbul etmişəm, ondan sonra Moskvada da qəbul etmişəm. Görən kimi dedi: mən çox sevinirəm ki, siz yenidən hakimiyyətə gəlmisiniz. Mənim Yəmən Prezidenti ilə çox görüşlərim olmuşdu - Yəməndə də, Moskvada da. Yaxud başqaları ilə görüşəndə deyirdilər ki, biz sizin haqqınızda oxumuşuq, çox eşitmişik. Bunlar əvvəllər görüşmədiyim adamlar idi...

Şübhəsiz ki, bunlar Azərbaycan üçün çox əhəmiyyətlidir... Budapeştdə 52 dövlət təmsil olunmuşdu. Biz bu bir ay ərzində 104 dövlətlə təmasda olduq. Orada da, burada da Azərbaycan üçün çox əhəmiyyətli qətnamələr qəbul edildi. Mən hesab edirəm ki, bunlar 1994-cü ilin sonu üçün çox yaxşı töhfədir..." *(Müstəqilliyimiz əbədidir, yenə orada)*

Göründüyü kimi, Şərq dünyası və onun başçıları ilə Prezidentimizin əlaqələri hələ 70-ci illərdən qurulmağa və formalaşmağa başlamış, ölkəmiz öz müstəqilliyini qazandıqdan sonra isə indiki real konturlarını almışdır. Şərqi daha yaxından anlamaq, onun Prezidentimizin siyasətindəki yerini və rolunu yaxından başa düşmək üçün burada bu regiona ötəri də olsa nəzər salmağı vacib sayırıq.

ŞƏRQ SİYASƏTİMİZƏ BİR NƏZƏR...

Yaxın və Orta Şərq ölkələrinin yerləşdiyi region haqlı olaraq sivilizasiyanın yarandığı beşik hesab edilir. Dünya tarixində ilk dövlətlərin məhz burada - öz coğrafi miqyasına görə kiçik olsa da, tarixi, siyasi, geostrateji vəziyyətinə və təbii ehtiyatlarına görə isə dünya ictimaiyyəti üçün böyük əhəmiyyət kəsb edən bir regionda yaranması heç də təsadüfi deyildir.

Minilliklərlə bu qədim dövlətlər bütün insan cəmiyyətinə dünya siyasətinin şərtlərini diktə etmiş, uzun tarixi bir müddətə onun əsas istiqamətlərini müəyyənləşdirmişlər.

Ancaq indi tarixin gərdişi elə gətirmişdir ki, dünya siyasətinin mərkəzi artıq Qərbə keçmiş, Şərq dövlətləri isə Qərb ölkələrinin hərbi-siyasi və maliyyə-iqtisadi ekspansiyasının obyektinə çevrilmişlər.

Sona çatmış XX əsr özünün dinamikası ilə Yaxın və Orta Şərq ölkələrinin dövlət sistemində və mədəniyyətində növbəti intibahın yaranması üçün şərait yaratmışdır.

Birinci dünya müharibəsinin başa çatması nəticəsində yaranan beynəlxalq əlaqələrdəki Versal sistemi, o cümlədən Sevr müqaviləsi Osmanlı imperiyasının parçalanmasının əsasını qoydu, San-Remo konfransı isə bu ölkənin keçmiş ərazilərini yeni müstəmləkələrə (İraq, Suriya, Livan, Fələstin, İordaniya və s.) böldü və regionda yarımmüstəmləkələr (İran, Əfqanıstan) yarandı. Yalnız Türkiyə Mustafa Kamal Atatürkün başçılıq etdiyi milli-azadlıq hərəkatı nəticəsində öz beynəlxalq vəziyyətini möhkəmlədərək Qərbi onun maraqları ilə hesablaşmağa vadar edə bildi.

İkinci Dünya müharibəsində Orta Şərqdə yerləşən dövlətlər həm fəal hərbi əməliyyatlara cəlb edilmədi, həm də müharibə iştirakçıları olan böyük Avropa dövlətlərinin zəifləməsi Yaxın və Orta Şərq ölkələrində milli-azadlıq hərəkatına təkan verdi. Bu hərəkat nəticəsində hələ də müəyyən asılılıqların olmasına baxmayaraq, müstəqil dövlətlər yarandı və onlar beynəlxalq hüququn obyektlərinə çevrildilər.

Bütün bunlara rəğmən bu region hələ də böyük dövlətlərin qarşıdurmasının fokusunda qalmaqdadır. Zaman-zaman Varşava blokunun və ya NATO-nun təsir dairəsində fəaliyyət göstərən region ölkələrinin indi demək olar ki, tam əksəriyyəti qərbyönlüdürlər. Onların önündə Türkiyə, Səudiyyə Ərəbistanı, Misir və b. ölkələr gedir. İran özünün həm siyasi quruluşuna və kursuna, həm böyük təbii potensialına, geosiyasi vəziyyətinə görə qərbyönlü Şərq ölkələrindən fərqli və daha müstəqil bir siyasət yeridir. Bir tərəfdən ölkənin iqtisadi və elmi-texniki inkişaf maraqları onu Qərbə tərəf meyl etməyə sövq edirsə də, digər tərəfdən onun Rusiyaya coğrafi yaxınlığı, onunla mövcud olan qarşılıqlı və sərfəli iqtisadi-ticari əlaqələri, bir çox sahələrdə siyasi-strateji maraqlarının üst-üstə düşməsi onu Rusiya ilə çox yaxın əməkdaşlıq əlaqələri qurmağa vadar edir. 1979-cu ildə Şah rejimi devrilənə qədər az-çox balanslaşdırılmış siyasət yeridən İran əvvəlcə nə Şərq,

Azərbaycan Respublikası Prezidenti
İşlər İdarəsinin
KİTABXANASI

nə Qərb siyasəti yürütməyə başladı. Lakin 1988-ci ildə İraqla apardığı qanlı müharibə nəticəsiz başa çatdıqdan sonra onun siyasətindəki radikal meyllər tədricən liberallaşmağa başladı.

Əfqanıstanda 1973-cü ildə monarxiya devrilməndən sonra SSRİ 1979-cu ildə bu ölkəyə müdaxilə edərək orada özünə yaxın bir rejimin qurulması üçün cəhdlər göstərməsinə baxmayaraq sonda bu ölkəni tərk etməli oldu və özündən sonra uzun müddət davam edən vətəndaş müharibəsi miras qoydu. Onun apardığı hərbi kampaniya bir daha təsdiq etdi ki, silah, zor yolu ilə bu ölkə üzərində nəzarəti ələ keçirtmək olduqca çətin bir məsələdir.

Yaxın Şərqdəki çoxsaylı hərbi konfliktlər də öz təsir dairəsini genişləndirmək üçün blokların apardığı mübarizənin nəticəsi idi. İlk mərhələdə əgər yalnız Britaniyanın mandatı altında olan Fələstin torpaqlarında təzə yaradılmış İsrail dövləti Qərbin maraqlarını bu strateji cəhətdən mühüm olan regionda müdafiə edirdisə və bu dövlət Qərb təsirinin yayılması üçün bir qalaya çevrilmişdisə, ərəb dövlətlərini "ərəb milli-azadlıq hərəkatına sosializmin yardımı" (1948-49, 1956, 1967, 1973-cü illər) şüarı altında Varşava paktına daxil olan dövlətlər dəstəkləyirdilər. XX əsrin son 25 illiyində isə ərəb dövlətlərinin bir hissəsi artıq NATO ilə tam əməkdaşlığa keçdi. Bu mənada İsrail və Misir tərəfindən bağlanan Kemp Devid sülh müqaviləsi (1977-ci il) və NATO-nun Küveyti və Səudiyyə Ərəbistanını müdafiə edərək İraqa qarşı hərbi aksiya keçirməsi (1991-ci il) həlledici rol oynadı. Ancaq bu məsələyə başqa bir cəhətdən yanaşsaq, onda "vahid ərəb cəmiyyəti"ndə dərin parçalanmanın olduğunu, Qərbin zəngin ərəb dövlətlərini dəstəkləməsini, kasıb ərəb dövlətlərinə isə başqa - ögey gözlə baxmasını görərik (İraqdan başqa).

Ziddiyyətlərlə və qarşıdurmalarla zəngin olan belə bir regionda yerləşən Azərbaycan Respublikası yaxın tarixi keçmişdə Sovet İttifaqının ayrılmaz hissəsi kimi bu dövlətin xarici siyasət doktrinasının farvaterində gedirdi. Yaxın və Orta Şərqdə sovet geosiyasətinin təsirini daha da genişləndirmək məqsədi ilə Sovet rəhbərliyi Azərbaycana xüsusi diqqət yetirirdi. Lakin Sovet İttifaqının dağılması və siyasi-hərbi qüvvələrin vəziyyətinin beynəlxalq aləmdə köklü şəkildə dəyişməsi bu ölkənin keçmiş ərazisində, yeni müstəqil dövlətlərin yaranmasına gətirib çıxartdı. Azərbaycanın dövlət suverenliyini əldə etməsi onun qarşısında maksimum şəkildə milli dövlət maraqlarına cavab verə bilən özünün xarici siyasət doktrinasını hazırlamaq kimi çətin və çoxtərəfli bir vəzifə qoydu. Bu xüsusi ilə də Azərbaycanla etnik, dini və mədəni sahələrdə yaxın olan Yaxın və Orta Şərq ölkələrinə aiddir.

Müasir mərhələdə dünya siyasətinin başlıca istiqamətlərini və qanunauyğunluqlarını dərk etmədən, ən xırda incəliklərini belə nəzərə almadan Azərbaycan Respublikasının xarici siyasət xəttini qurmaq mümkün deyildir.

Sosialist sisteminin tam şəkildə dağılmasından sonra dünya xəritəsindəki siyasi dəyişikliklər hərbi-strateji paritet kimi məfhumların beynəlxalq əlaqələr praktikasından çıxmasına səbəb oldu. Bu isə öz növbəsində hələ Potsdam konfransında formalaşdırılan və 1975-ci ildə Helsinkidə Avropada təhlükəsizlik üzrə keçirilən məşvərətdə müasir izahı qəbul edilən beynəlxalq həyatın əsas prinsiplərinin ardıcıl şəkildə yerinə yetirilməsinə öz təsirini göstərməyə bilməzdi. Bu hər şeydən əvvəl ərazi bütövlüyü prinsiplərinin azad şəkildə təfsir edilməsi, dövlət sərhədlərinin toxunulmazlığı, dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması kimi fundamental məsələlərlə bağlı idi. Beynəlxalq əlaqələrin inkişafının müasir dövründə hər hansı bir superdövlətin geostrateji maraqlarına uyğun olaraq bu prinsiplər yer kürəsinin bu və ya digər regionunda onlardan heç də az əhəmiyyət kəsb etməyən "xalqların öz müqəddəratlarını həll etmək hüququ", "milli və etnik azlıqların azadlığı" kimi prinsiplərlə qarşı-qarşıya qoyuldu. Məsələnin əsas mahiyyəti ondan ibarətdir ki, Qərbin bəzi dairələri artıq hamı tərəfindən qəbul edilmiş yuxarıda adı çəkilən sənədləri yeni məzmunla zənginləşdirməyə, əslində isə artıq qanun şəkli almış beynəlxalq yaşayış tərzinin həlledici bəndlərini yenidən təftiş etməyə çalışır. Bu, BMT-nin Baş Assambleyasının 1999-cu ilin sentyabrında çağırılan sessiyasında özünü əsaslı şəkildə büruzə verdi. Bu ali yığıncaqda beynəlxalq münasibətlərin aşağıdakı əsas prinsipləri təftiş edilməliydi:

- dövlətlərin suverenliyi;
- dövlət sərhədlərinin toxunulmazlığı;
- başqa dövlətin daxili işlərinə qarışmamaq;
- güc tətbiq etmək və ya güc tətbiq etmək barədə hədə-qorxu gəlmək və s.

Bütün bunlar insan haqlarının aliliyi prinsipinin mütləqləşdirilməsinə qurban verilirdi. Məsələnin belə qoyuluşu, əlbəttə, xarici müdaxilə, milli azlıqların diskriminasiyası və etnik təmizləmələrin həyata keçirilməsi bəhanəsi ilə hər hansı bir dövlətin suverenliyinin pozulmasını mümkün edirdi.

Belə praktika BMT və TŞ-nın rolunun köklü şəkildə dəyişdiyini nümayiş etdirir. Qərarların hazırlanması prosesi və onların razılaşdırılması praktik olaraq BMT-dən başqa bir hakimiyyət mərkəzinin - NATO-nun əlinə keçir. Rusiya və ÇXR kimi TŞ-nın üzvləri faktiki olaraq bu mərkəzdə fəaliyyət göstərməkdən kənarlaşdırılırlar. Bu eyni ilə NATO-ya daxil olmayan, lakin dünya siyasətinin formalaşmasında öz sözü olan başqa güclü dövlətlərə də aiddir. Orta, kiçik və ya lap kiçik dövlətlərin dünya siyasətinin formalaşmasında tam şəkildə kənarda qalması barəsində isə heç söhbət açmağa dəyməz.

Bu mənada Ermənistanla uzunmüddətli ərazi konflikti olan Azərbaycanın vəziyyəti heç də birmənalı deyildir. NATO-nun dövlətlərarası əlaqələrin əsas prinsiplərini yenidən təftiş etmək və dünyanı yenidən qurmaq planları ölkəmizin Dağlıq Qarabağ münaqişəsini daha radikal yollarla həll etmək istəməsi halında ona hər hansı bir müvəffəqiyyət qazanmaq şansı verirmi? NATO-nun şərtlərini qəbul etdiyimiz və onun bazalarını öz ərazilərimizdə yerləşdirdiyimiz halda biz bu blokun konsepsiyasının girovuna çevrilməyəcəyikmi? Əgər ABŞ-ın və NATO-nun Dağlıq Qarabağ probleminin həllində yardım barədə bizə tərəf elə bir xüsusi eyham belə vurmadıqlarını, əksinə 907-ci maddəni illərlə gündəmdə saxladıqlarını və yalnız bu günlərdə məşhur 11 sentyabr hadisələri baş verdikdən sonra müvəqqəti olaraq onun fəaliyyətini dayandırmaq haqqında qərar qəbul etdiklərini, açıq şəkildə Ermənistana və Dağlıq Qarabağa maliyyə yardımı göstərmələrini, "ümumi dövlət" prinsipini qəbul etdirmək üçün Azərbaycana təzyiq göstərmələrini nəzərə alsaq, bütün bunlar NATO - Azərbaycan əməkdaşlığının hərbi-siyasi sahələrdə qlobal şəkildə genişlənəcəyi halda belə Qərbin bu konfliktin həllində birtərəfli olaraq bizi dəstəkləyəcəyi fikri o qədər də böyük optimizm aşılamır. Elə bu yaxınlarda ABŞ dövləti yanında fəaliyyət göstərən Beynəlxalq İnkişaf üzrə agentlik Dağ-

lıq Qarabağa və münaqişə nəticəsində zərər çəkmiş şəxslərə yardım göstərilməsi barədə bir raport yaymışdı. Bu agentlik göstərilən proqramı ABŞ Konqresinin qanunları əsasında həyata keçirir. Bu qanunlar isə ABŞ hökumətinə Dağlıq Qarabağa birbaşa yardım göstərməyi, heç kəs tərəfindən tanınmamış bu qurumun əhalisinin ictimai, fiziki və psixoloji reabilitasiyası üçün proqramlar həyata keçirməyi həvalə edir. Bu raportda Dağlıq Qarabağ müstəqil vahid kimi nəzərə alınır. Bu sənədə görə ABŞ 1998-99-cu illərdə Dağlıq Qarabağ ərazisində proqramların həyata keçirilməsi üçün 11,8 milyon dollar, onunla həmsərhəd olan rayonlardakı işlər üçün isə yalnız 6,7 milyon ABŞ dolları ayırmışdır.

Ancaq mövcud dünya quruluşunun yenidən təftişi layihəsi artıq Rusiya, Çin və Hindistan kimi böyük dövlətlərin müqaviməti ilə rastlaşmışdır. Adı çəkilən sessiyada ÇXR-in Xarici İşlər Naziri Tan Szyasyuan demişdir: " Region hərbi təşkilatı insan haqları və humanizm naminə BMT-ni bir kənara qoyaraq suveren dövlətin əleyhinə hərbi əməliyyat keçirmiş və beləliklə də beynəlxalq işlərdə qorxulu bir presedent yaratmışdır". O, birmənalı şəkildə belə hesab edir ki, "milli suverenitetə hörmət və daxili işlərə qarışmamaq" beynəlxalq əlaqələri müəyyənləşdirən əsas prinsip olaraq qalmalıdır və ondan hər hansı bir yankeçmə "kanonerka diplomatiyasına qayıdış" demək olardı. Hindistanın Xarici İşlər Naziri Casvant Sinqh həmkarını dəstəkləyərək bildirmişdi ki, mahiyyəti və parametrləri hələ də tam şəkildə təyin edilməmiş "humanitar müdaxilə" naminə milli suverenlikdən əl çəkmə böyük bir xəta olardı. Bu ölkələrin mövqeyini dəstəkləyən Sinqapur Xarici İşlər Naziri isə öz fikrini aşağıdakı kimi ifadə etmişdir: " Humanitar müdaxilə doktrinası X1X əsrdən gəlir. Bu dövrdə güclü zəifin ərazisinə daxil olmaq hüququnu elan etmişdi".

Belə vəziyyət beynəlxalq əlaqələrdə kəskin problemlər yaradır. Və bu faktorlar bizim Yaxın və Orta Şərqlə bağlı siyasətimizin araşdırılması və məqsədyönlü şəkildə planlaşdırılması baxımından mühüm rol oynayır. Ümumiyyətlə bütövlükdə bizim regiondakı ölkələr üçün Z.Bzejinskinin verdiyi formul az- çox yararlıdır: "Amerika Avrasiyanın bu hissəsində həlledici rol oynamaq üçün olduqca uzaqdır, lakin bu teatrdakı hadisələrə müdaxilə etməmək üçün olduqca güclüdür... Rusiya region üzərində özünün imperiya hökmranlıq mövqeyini bərpa etmək və ya başqa fəaliyyət göstərən iştirakçıların regionun taleyindən kənarlaşdırılması və Amerikanın maraqlarına etina ilə yanaşmaq üçün olduqca zəifdir". Sözsüz ki, bu kontekstdə bizim dövlətin xarici siyasəti Hindistan və Çin kimi nəhəng dövlətlər arasında yerləşən Nepalın siyasəti kimi elə balanslaşdırılmış olmalıdır ki, bu güclü dövlətlərdən heç biri (bizim halda ABŞ və Rusiya arasında) üçün onun daxili işlərinə qarışmağa bir bəhanə olmasın.

Bəs bu gün üçün Yaxın və Orta Şərq ölkələrinin vəziyyəti necədir?

Bunu əyani şəkildə görmək üçün aşağıdakı diaqramı nəzərdən keçirək:

№	Ölkə	Dövlət təşkilinin forması	Dövlət quruluşu	İqtisadi inkişafın səviyyəsi
1	İran	unitar	İslam respublikası	inkişaf edir
2	Türkiyə	unitar	Parlament respublikası	inkişaf edir
3	İraq	unitar	Respublika	inkişaf edir
4	Əfqanıstan	unitar	İslam respublikası	zəif
5	Kipr	unitar	Prezident respublikası	inkişaf edir
6	Bəhreyn	unitar	Konstitusiyalı monarxiya	inkişaf edir
7	İsrail	unitar	Parlament respublikası	inkişaf edir
8	İordaniya	unitar	Konstitusiyalı monarxiya	inkişaf edir
9	Yəmən	unitar	Xalq demokratik respublikası	zəif
10	Qatar	unitar	Monarxiya	inkişaf edir
11	Küveyt	unitar	Konstitusiyalı monarxiya	inkişaf edir
12	Livan	unitar	Parlament respublikası	inkişaf edir
13	BƏƏ	federativ	Federativ monarxiya	inkişaf edir
14	Oman	unitar	Monarxiya	inkişaf edir
15	Səudiyyə Ərəbistanı	unitar	Monarxiya	inkişaf etmiş
16	Suriya	unitar	Prezident respublikası	inkişaf edir
17	Pakistan	unitar	İslam respublikası	inkişaf edir

Beləliklə, Yaxın və Orta Şərq ölkələrinin 17-dən 4-ü demokratik Qərb modelinin inkişafı yolu ilə, 3-ü qarışıq demokratik və sosialist elementlərinin birləşdiyi respublika yolu ilə, 3-ü islam demokratiyası, 3-ü konstitusiyalı monarxiya, 3-ü tam monarxiya, biri isə bütün dünya üçün analoqu olmayan federativ monarxiya yolu ilə gedir.

Əslində Kipr və İsraildən başqa bu regionun bütün ölkələri, əhalinin təriqətlərinə müxtəlif səviyyədə şiə və sünni mənsub olmasına baxmayaraq islam aləminə aiddir. Onlardan 13-ü inkişaf etməkdə olan ölkələrin siyahısına daxildir. Yəmən zəif inkişaf etmiş dövlətdir. BMT-yə görə Əfqanıstan bu dövlətlərin arasında ən zəif inkişaf etmişdir. İran o biri dövlətlərdən öz inkişafının intensivliyi ilə fərqlənir. Səudiyyə Ərəbistanı neft istehsalına görə dünyada birinci yeri tutduğuna görə (gündə 8,5 mln. barrel) faktiki olaraq regionda yeganə inkişaf etmiş dövlətdir.

Bu regionun ölkələri ilə əlaqədar Azərbaycan öz xarici siyasətini planlaşdırarkən yuxarıda göstərilən parametrləri nəzərə alıb onların əsasında siyasətdə öz taktikasını və strategiyasını qurmalı idi.

Bununla yanaşı, bizimlə coğrafi və siyasi cəhətdən yaxın olan, regionun problemləri ilə hər hansı bir əlaqəsi olan, dünya səviyyəsində geostrateji əhəmiyyəti olan ölkələrlə də Azərbaycan öz siyasətinin istiqamətlərini və aspektlərini konkretləşdirməli idi.

Regionda yerləşən bütün bü dövlətlərlə yaxın əlaqələr saxlamaq, onları inkişaf etdirib möhkəmləndirmək ölkəmiz üçün çox vacibdir. Öz vacibliyinə və bizim üçün strateji əhəmiyyətinə görə onları bir neçə qrupa bölmək olar. Bu qrupun birincisinə ən yaxın qonşularımız olan, tarixi, etnik, din, dil, siyasi və iqtisadi cəhətdən bizim üçün önəmli olan Türkiyə və İran daxil olur. İkinci qrupa regionda və dünya siyasətində söz demək imkanı olan, ona bu və ya başqa cəhətdən təsir etmək gücünə malik olan Səudiyyə Ərəbistanı, Misir, Pakistan və İraq kimi ölkələr girir ki, coğrafi cəhətdən bizə o qədər də yaxın olmasalar da onların dəstəyi və mənəvi yardımı gənc Azərbaycan Respublikasının xarici siyasəti üçün çox önəmlidir. Üçüncü və sonuncu qrupa isə ümumiyyətlə İKT dövlətləri, xüsusilə də yuxarıda adlarını çəkdiyimiz 17-lər qrupuna aid olan region dövlətləri daxildir.

Bütün bu faktorları nəzərə alan Azərbaycan Prezidenti dövlətimizmin xarici siyasətini quraraq bu sahədə, böyuk uğurlar qazanmış, ölkəmizin mövqeyini beynəlxalq aləmdə möhkəmləndirmişdir. Bu uğurlar onun ABŞ və Rusiya arasında apardığı tarazlaşdırılmış siyasətlə yanaşı, qüdrətli qonşularımız olan Turkiyə və İrana, İKT-yə daxil olan ölkələrlə aparılan siyasətlə də yaxından bağlıdır.

Əlbəttə, bu siyasətdə Türkiyə çox mühüm, bəlkə də həlledici rol oynayır. Etnik, dil və din cəhətdən bizə çox yaxın olan bu ölkə ilə əlaqələrimiz strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu ölkə dünya birliyi dövlətlərindən birinci olaraq 1991-ci ilin noyabr ayının 9-da Azərbaycanın suverenliyini tanımış, 1992-ci ilin yanvar ayının 14-də isə diplomatik əlaqələrini yaratmış, ən çətin anlarda arxamızda dayanaraq bizə dayaq olmuşdur. Daha bir müstəqil türkdilli dövlətin dünya xəritəsində öz layiqli yerini tutması üçün əlindən gələni edən bu ölkənin rəhbərliyi və xalqı ən böyük minnətdarlığa layiqdir. Heç vaxt unutmaq olmaz ki, bizim üçün çətin anlarda Türkiyə həmişə Azərbaycanın haqq işini dəstəkləmiş, bəzən öz maraqlarından belə keçərək bizə yardım əlini uzatmaq üçün imkanı xaricində olan addımlar belə atmışdır. Onların bizə verdikləri kreditləri, beynəlxalq təşkilatlarda bizi dəstəklədiklərini, Qarabağ probleminin həlli üçün əllərindən gələni etdiklərini, diplomatik missiyalarımızın açılmasında etdikləri yardımları unutmaq olmaz.

Lakin bu heç də bizim dövlət maraqlarımızın Türkiyənin dövlət maraqları ilə tam şəkildə üst-üstə düşdüyünə dəlalət etmir. Bir şeyi yaddan çıxartmaq olmaz ki, Türkiyə müstəqil dövlətdir və onun öz maraqları var. Dünya siyasətinin bir çox problemləri üzrə mövqelərimizin üst-üstə düşməsinə baxmayaraq, onlarda ziddiyyətli anlar da mövcuddur. Müstəqilliyə yenicə qədəm qoyan gənc dövlətimizin xarici siyasət konsepsiyasını yaradarkən anlaşılmazlıqlara və münasibətlərin korlanmasına yol verilməsin bunlar başa düşülməli, romantik illüziyalar kənara qoyulmalı və xarici siyasətimizdə nəzərə alınmalı idi.

Bilinməliydi ki, Türkiyə bir müttəfiq dövlət kimi öz siyasətində ABŞ-ın, NATO-nun və Avropa Birliyinin Qafqazda və Orta Asiya regionundakı geostrateji maraqlarını da nəzərə almalıdır. Türkiyənin ABŞ-la siyasi, maliyyə və hərbi-texniki cəhətdən bağlılığı, onun qarşısına qoyulan NATO-nun cənub istiqamətini qorumaq tapşırığı, Rusiya Federasiyasının daxilindəki türkmüsəlman regionlarda stabilsizləşdirmə faktoru rolunu oynaya bilmək imkanları, konflikt olarsa Qafqaz və Yaxın Şərq regionunda plasdarm kimi istifadə edilmək üçün yararlı olması, islam təməlçiliyinə qarşı ideoloji və siyasi cəhətdən örnək olması, Orta Asiya ölkələri üzərində nəzarət mexanizmlərinin saxlanılması baxımından istifadəsinin mümkünlüyü və onun müttəfiqlik öhdəçilikləri bu ölkənin hələ uzun müddət daha çox Qərbin maraqlarına cavab verən və müttəfiqlik öhdəliklərini qoruyub saxlamağa yönəldilən bir siyasət yürüdəcəyini göstərir.

Qeyd etdiyimiz kimi, əsas müttəfiqimiz olan Türkiyənin xarici siyasətinin Azərbaycan üçün əhəmiyyətini açıqlamaq, ona burada qısa bir nəzər salmaq yerinə düşərdi.

Türkiyə Respublikasının Beynəlxalq münasibətlər sisteminin ümumi qəbul edilmiş prinsip və normalarına əsaslanan və bu əsaslar üzərində bütün dünya dövlətləri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq əldə edilməsi məqsədi ilə müəyyənləşdirilən xarici siyasət xəttində, ABŞ və Qərb dünyasının başqa aparıcı dövlətləri ilə münasibətlə mühüm yer tutur.

Türkiyə, bu dövlətlərlə münasibətlərini inkişaf etdirməklə, ölkənin iqtisadi-sosial inkişafına, xarici sərmayədarların ölkəyə axınına, güclü müştərək müəssisələrin yaradılmasına, bank-maliyyə sisteminin təkmilləşdirilməsinə, hərbi potensialının artırılması və müasirləşdirilməsinə nail olmuş, ən əsası isə bölgədə əhəmiyyətli nüfuza malik olan inkişaf etmiş bir dövlət halına gəlmişdir. Bu münasibətlərin inkişaf etdirilməsi üçün, Türkiyə ilk növbədə özünün əlverişli geostrateci imkanlarından səmərəli istifadə etmişdir. Xarici siyasətin həyata keçirilməsində məhz geostrateci imkanların mühüm amil kimi səmərəli istifadəsi, bir sıra nüfuzlu dövlətlərlə əldə edilən yüksək səviyyəli münasibətlər dünyada gedən prosesləri yaxından təqib etməyə və mühüm beynəlxalq məsələlərin həllində iştirak etməyə Türkiyə üçün geniş imkanlar açmışdır.

ABŞ və İngiltərə kimi dövlətlərlə qurulmuş xüsusi münasibətlər nəticəsində Türkiyə bu dövlətlərin strateci müttəfiqlərinə çevrilmiş, 1952-ci ildə isə NATO hərbi

blokuna qoşulması və bu blokda ABŞ-ın ən yaxın müttəfiqi olması ilə bölgədə özünün hərbi nüfuzunu xeyli artırmışdır.

Bütün bu münasibətlərdən, Türkiyənin vacib problemlərindən olan PKK terrorizmi ilə mübarizədə, Kipr probleminin həlli prosesində, Avropa Birliyinə üzv olmaq cəhdlərində, Qafqazda, Balkan və Orta Asiya bölgələrində əldə edilmiş mövqelərinin möhkəmləndirilməsində də səmərəli şəkildə istifadə edilir.

BMT, NATO, ATƏT, QDİƏB, İƏT, İKT və digər beynəlxalq təşkilatlarda fəal iştirak etməklə özünün beynəlxalq siyasi nüfuzunun daha da möhkəmləndirilməsinə, qlobal problemlərin həllində yaxından iştirak etməyə nail olan Türkiyənin, ölkə iqtisadiyyatının yüksəlişi məqsədi ilə dünya miqyaslı iqtisadi strateci əhəmiyyət kəsb edən layihələrdə də yaxından iştirak etmək üçün xarici siyasətində fəallıq göstərdiyi müşahidə edilir. Buna misal olaraq, Bakı-Ceyhan neft-boru kəməri, Transxəzər və Transqafqaz neft-qaz kəmərləri vasitəsi ilə karbohidrogen ehtiyatlarının Türkiyə üzərindən Qərbə daşınması layihələrinin, tarixi "İpək yolu"nun bərpası işində iştirakı məsələlərinin müzakirələrində Türkiyə-Azərbaycan, Türkiyə-ABŞ, Türkiyə-İngiltərə, Türkiyə-Qazaxıstan, Türkiyə-Türkmənistan və s. münasibətləri qeyd etmək olar. Türkiyə, bu məsələlərin müzakirələrində məhz özünün ikitərəfli münasibətləri əsasında ABŞ və bir sıra aparıcı Qərb dövlətlərinin dəstəyini əldə etmişdir.

Türkiyə xarici siyasətində Avropa Birliyi ilə münasibətlər əsas istiqamətlərdəndir. Türkiyənin uzun illərdən bəri Avropa Birliyinə üzv olmaq cəhdləri qonşu dövlət olan və Kipr problemi ilə bağlı ikitərəfli münasibətlərdə vaxtaşırı gərginlik Yunanıstan tərəfindən maneələrlə qarşılanır. Lakin, bu təşkilata hələ ki, üzv olmayan Türkiyə, uzun zamandır, "de-fakto" Avropa Birliyinin daxilindədir. Avropada yaşayan 3 milyondan artıq türk Avropa Birliyinə üzv olan dövlətlərin xəzinəsinə hər il təxminən 49,7 milyard ekü gəlir gətirir. Bu amil, Gömrük Birliyinə üzv olan Türkiyə üçün Avropa Birliyinə qəbul olunması prosesində böyük rezondur.

Ankara, Orta Şərqdəki sülh proseslərinin müsbət nəticələnməsinə mühüm əhəmiyyət verməklə yanaşı, bu regionda Türkiyə-İsrail hərbi əməkdaşlığına xüsusi diqqət ayırmaqdadır. İzlədiyi xarici siyasətində strateci maraqlara üstünlük verdiyini bir daha nümayiş etdirərək İsrail dövləti ilə xüsusi münasibətlər yaratmağa nail olmuşdur ki, bu da bir cəhətdən Türkiyənin bu dövlətlə qarşılıqlı faydalı əməkdaşlığına şərait yaratması ilə bərabər Türkiyənin bölgədəki nüfuzunun artmasına yardım etmişdir. Türk ordusunun yeni hərbi texnologiya vasitəsi ilə modernləşdirilməsində İsrailin müvafiq firma və şirkətlərinin iştirakı Türkiyə-İsrail münasibətlərinə güclü təkan vermişdir. Bu əlaqələrin inkişafı ərəb dövlətlərinin narahatçılığına, İslam Konfransı Təşkilatına üzv olan bir sıra ölkələr tərəfindən Türkiyənin tənqid olunmasına səbəb olmuş, lakin Misir və Səudiyyə Ərəbistanı Krallığı kimi islam dövlətləri ilə xüsusi münasibətləri bu təşkilat ilə münasibətlərdəki gərginliyin aradan qaldırılmasına yardım etmişdir.

Türkiyə, Orta Şərq regionunda özünün ənənəvi müttəfiqi olan Misir və İordaniya ilə hərtərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verməkdədir.

İran ilə münasibətlərdə son zamanlar gərginlik getdikcə zəifləməkdədir. Bununla yanaşı modern Tehranda keçirilən İran, Yunanıstan və Ermənistan Xarici İşlər Nazirlərinin toplantısı və bu toplantıda Türkiyənin əleyhinə səslənən iddialar Ankaranın ciddi narahatçılığına səbəb olmuşdur.

Ankaranın, son zamanlar Bağdadın siyasəti nəticəsində bölgədə vaxtaşırı ciddi gərginliyə səbəb olan bu ölkə ilə münasibətləri, İraqın BMT-nin qərar və qətnamələrinə uyğun şəkildə hərəkət etməsi ilə yanaşı, İraqın ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmətdən ibarətdir. Türkiyə İraqın şimalında müstəqil Kürd dövlətinin yaradılması ehtimalından narahatçılığını bildirərək, buna qarşı bütün imkanlarını istifadə edəcəyini bəyan edir.

XX əsrin əvvəllərindən bəri, həm şərq dövlətləri, İslam dünyası ilə ortaq din faktorundan faydalanaraq sıx münasibətlər əldə edən və həm də Qərbə doğru inteqrasiya siyasəti izləyərək bir sıra inkişaf etmiş dövlətlərlə yüksək səviyyəli münasibətlər yaratmağa nail olan Türkiyə, ərəb və islam dünyası ilə sıx əlaqələrini nəinki qoruyub saxlamış, habelə bu münasibətlərin daha da inkişaf etdirilməsinə nail olmuşdur.

Əsrin sonlarında dünyada baş verən geosiyasi prosesləri dərhal qiymətləndirərək özünün xarici siyasətində dinamizm nümayiş etdirən Türkiyə, Rusiya və MDB-yə daxil olan yeni yaranmış müstəqil dövlətlərlə münasibətlərin durmadan inkişafına da mühüm əhəmiyyət vermişdir. Türkiyə xarici siyasətinin bu istiqamətində Azərbaycan və digər türkdilli Orta Asiya Respublikaları ilə, Qafqaz xalqları ilə münasibətlərin xüsusi əhəmiyyəti vardır. Ortaq dil və din birliyinə malik olması onun bu dövlətlərlə münasibətlərinə xüsusi təkan vermişdir. Qafqaz və Orta Asiyanın malik olduğu təbii-coğrafi məkanın əhəmiyyətini düzgün qiymətləndirən Türkiyə, xarici siyasətini bu bölgədə qarşılıqlı maraqların əhəmiyyətindən faydalanmağa, siyasi-iqtisadi və strateci üstünlüyün əldə edilməsinə istiqamətləndirmişdir.

Türkiyənin Rusiya ilə əməkdaşlığı da birmənalı deyildir. Hər iki tərəf ənənəvi tarixi düşmənçilikdən əl çəkərək hazırkı şəraitdə bir-birindən faydalanmağa çalışırlar. Bu ölkələrin bir-biri ilə yaxınlaşmasının son nəticədə bizim üçün faydalı olacağı nəzərə alınmalıdır.

Türkiyə Rusiyaya iki milyard dollaradək, Türkmənistana təqribən 1,5 milyard dollar həcmində sərmayə qoymuşdur.

Yaddan çıxartmamaq lazımdır ki, Türkiyə birinci Dünya müharibəsinin dərslərini yaxşı mənimsəmişdir və Mustafa Kamal Atatürkün qoyub getdiyi "ölkədə sülh - cahanda sülh" prinsipinə ardıcıl olaraq riayət etməkdədir. Hər vəchlə ölkənin müxtəlif konfliktlərə cəlb edilməsinin qarşısını qətiyyətlə almaqdadır. Bunu Türkiyə Respublikasının tarixindəki hadisələrin xronologiyası da sübüt edir. 1923-cü ildən bəri ölkə xaricində Türkiyənin silahlı qüvvələri 1950-ci ildə BMT qüvvələrinin tərkibində Koreyada və 1992-ci ildə Somalidə, 1993-cü ildə NATO qoşunlarının tərkibində Bosniyada, 1998-ci ildə isə Kosovada iştirak etmişlər. Bu qoşunlar istisna hal kimi 1974-cü ildə Kiprə, bir neçə dəfə isə İraqa daxil olmuşlar. Bu halların birincisində ABŞ və SSRİ-nin, ikincisində isə "antiterror" əməliyyatı kimi BMT-nin qərarları əsasında həyata keçirilmişdir. Kipr əməliyyatı ilk dövrlərdə "qara polkovniklərin" hərbi çevrilişinə və "enozis"ə (Kipr əhalisinin yunanlaşdırılması) qarşı yönəldiyinə görə ABŞ və SSRİ rəhbərliyi tərəfindən ona razılıq verilmiş, sonradan bu əməliyyat beynəlxalq ictimaiyyət tərəfindən pislənmiş, onun nəticəsində yaranan Şimali Kipr Türk Respublikası isə tanınmamışdır.

Diqqəti cəlb edən məsələlərdən biri də odur ki, müsəlman əməkdaşlığının

nüfuzlu forumlarından biri olan İKT çərçivəsində də Türkiyə daim bu məclisin iştirakçısı olan ölkələri müasir dünyada gedən inteqrasiya proseslərindən izalə olunmağın təhlükəsindən xəbərdar edir. Dinə isə xalqları bir-birinə yaxınlaşdırmağa yardım edən bir faktor kimi baxmağı tövsiyə edir.

Son vaxtlar Türkiyənin siyasi və işgüzar həyatında Ermənistan ilə iqtisadi əlaqələrin blokadasının açılması və onunla əməkdaşlığın həcminin artırılması üçün edilən səylərin gücləndiyi müşahidə edilməkdədir. Ölkəmiz qətiyyətlə buna qarşı çıxır. Ermənistanla aparılan sülh danışıqları nəticə verdikdən sonra Azərbaycan bu məsələnin nəzərdən keçirilməsinin tərəfdarıdır.

Prezident seçildikdən sonra dövlətimizin başçısı buna münasibət göstərərək özünün ilk müsahibələrindən birində bildirmişdi ki, Türkiyədə bəzi dairələr ticarəti hər şeydən üstün tutur, Türkiyə ilə Ermənistan arasında ticarət bir qazanc gətirəcək deyə, Ermənistanla Türkiyə arasındakı sərhədlərin açılması, sərhəd rejiminin yumşaldılması və başqa bu kimi tədbirlərin görülməsi üçün cəhdlər edirlər. Amma heç bilmirlər ki, ticarət nə nəticə verəcəkdir. Türkiyə tərəfi artıq "H-50" hava yolunun açılmasına, Yerevandan Trabzona təyyarələrin uçuşuna icazə verilməsi kimi xoşniyyətli addımlar atmış, lakin bunlara baxmayaraq Ermənistanın yumşalması baş verməmişdir. Bütün bunlar, Ermənistanla Türkiyə arasında ticarət əlaqələri başlasa belə bu ölkənin mövqeyində hər hansı müsbət dəyişikliyin olacağına heç bir ümid vermir.

Bununla da ölkəmizin başçısı Türkiyə rəhbərliyinin və ictimaiyyətinin diqqətinə çatdırmışdır ki, onlar gələcəkdə də Qarabağ problemi çözülənə qədər Ermənistana belə güzəştlər edilməsinə heç vaxt imkan verməsinlər.

Prezident Heydər Əliyev Türkiyə ilə Ermənistan arasında hərtərəfli əlaqələrin yaradılmasının əsas şərtləri kimi çox düzgün olaraq göstərmişdir ki, "əgər Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxsa və Azərbaycanın 1 milyondan artıq vətəndaşı - sizin bacılarınız, qardaşlarınız türklər öz yerlərinə-yurdlarına qayıtsa, əgər Ermənistan öz torpaq iddialarından, o cümlədən Türkiyəyə olan torpaq iddialarından və genosidi tanıtmaq iddiasından geri çəkilsə, onda şübhəsiz ki, Ermənistanla da bir normal ticarət əlaqələri yaratmaq olar. Mən bunu inkar etmirəm. Hesab etmirəm ki, hər şeyi ömürlük qapamaq lazımdır. Ancaq bir halda ki, Ermənistan bu cür hərəkət edir, onun müqabilində Türkiyə tərəfindən ona münasibəti yumşaltmaq, onu açmaq, orada bir kozır əldə etmək siyasəti nəticəsiz siyasətdir".

Türkiyə ilə Ermənistanın əlaqələrinin genişləndirilməsi məsələsinə yenidən qayıdan Azərbaycan Prezidenti özünün 5-8 may 1997-ci ildə keçirilən rəsmi səfəri zamanı jurnalistlərin suallarına cavab verərkən aşağıdakıları bildirmişdir:

"Son vaxtlar Türkiyə ilə Ermənistanın əlaqələri genişlənibdir. Biz sülhsevər dövlətik və heç bir ölkə ilə düşmənçilik etmək istəmirik. Ermənistana qarşı heç vaxt nə hərbi təcavüz etmişik, nə də bir düşmənçilik hərəkəti etmişik. Ermənistan təcavüzkardır, Azərbaycana təcavüz edibdir. Azərbaycan övladlarının qanını töküb, işğal olunmuş torpaqlarda Azərbaycanın bütün varidatını dağıdıbdır. Əsrlərlə insanların yaratdıqları mülklər, Azərbaycanın mülkiyyəti dağıdılıbdır, o yerlərdə bizim tarixi abidələrimiz, müqəddəs dini abidələrimiz dağıdılıbdır. Yəni Azərbaycana böyük həm maddi, həm də mənəvi zərər vurulubdur. Buna baxmayaraq, görürsünüz ki, biz üç ildir atəşkəs əldə etmişik və məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq bunun şərti var. Şərti də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmalı, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Ermənistanla Azərbaycan arasında sülh yaranmalıdır. Belə olan halda, ümumiyyətlə, bu bölgədə iqlim tamamilə dəyişər və Ermənistan da bölgədəki bütün dövlətlərlə əməkdaşlıq edə, əlaqələrini genişləndirə bilər.

Türkiyə Azərbaycanın yaxın dostu, qardaşı olduğuna görə həmişə Ermənistanın bu təcavüzünün əleyhinə çıxıb və ona dəfələrlə deyibdir ki, siz Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmasanız, təcavüzə son qoymasanız Türkiyə heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəkdir. Biz bunu məmnuniyyətlə qəbul edirik. Məmnuniyyətlə qəbul edirik ki, Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələr yoxdur, heç bir başqa dövlətlərarası əlaqələr yoxdur. Bu, belə də olmalıdır. Çünki Azərbaycanda qırılan insanlar sizin, türklərin bacıları, qardaşlarıdır. Azərbaycan torpağı, Türkiyə torpağı, xalqlarımız bir-biri ilə bağlıdır. Ermənistan gəlib Azərbaycan torpağında qan töküb, insanlarımızı qırıb və Türkiyə Ermənistanla əlaqə saxlasa bu, anlaşılmaz olar, türk xalqı özü buna yol verməz, Türkiyənin ictimai rəyi buna yol verməz, - bunu mən bilirəm.

Ancaq təəssüflər olsun ki, son vaxtlar Türkiyədə bəzi adamlar qazanc əldə etmək, yaxud başqa məqsədlər üçün cürbəcür yollarla Ermənistanla əlaqələr yaratmaq istəyirlər. Bir müddət öncə çox təkid etdilər ki, Ermənistanın "H-50" hava yolu var, ona imkan vermək lazımdır. Biz buna etiraz etdik. Amma Türkiyə hökuməti tərəfindən bizə müraciət etdilər ki, bunu açsaq bəlkə Ermənistan yumşalar, bəlkə belə olar, elə olar. Yaxşı, biz buna razılıq verdik, "H-50" yolu açıldı. Amma Ermənistanın mövqeyində heç bir müsbət dəyişiklik olmadı.

İndi son zamanlar bizə məlumatlar gəlir, sizin qəzetlərdə yazırlar ki, Ermənistanın təyyarələri Trabzona gəlib-gedir. Biz buna etiraz edirik. Hesab edirik ki, bu, Türkiyə-Azərbaycan əlaqələrinə çox zərər gətirər və mən bu barədə fikrimi Türkiyənin dövlət, hökumət başçılarına demişəm. Yaxud da ki, Türkiyənin bəzi adamları Ermənistanla ticarət qurmaq istəyirlər. Məsələn, İqdır vilayətinin valisi Ermənistanı ziyarət edib, hətta orada dini mərkəz var, ibadət edib, yaxud nə edib, - özü bilər, mən bilmirəm, sizin qəzetlərdə var idi. Ermənistan televiziyası da bunu veribdir, - biz Ermənistan televiziyasını izləyirik, seyr edirik. Bəzi tacirlər gedib-gəliblər, guya Ermənistanla ticarət edəndə kimsə nə isə qazanacaqdır. Ola bilər, kimsə nə isə qazanacaq, ancaq Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr qazanc, para üzərində qurulmamalıdır. Bizim ölkələrimizin böyük mənəvi kökləri var, bunları bir-birinə bağlayan milli köklər var. Bu milli, mənəvi mənafeyi ayrı-ayrı şəxslərin qazancına qurban vermək olmaz. Ona görə də mən bu barədə öz fikrimizi və etirazımızı Türkiyənin bütün Dövlət və Hökumət Başçılarına bildirmişəm. Biz bildirmişik ki, buna yol vermək olmaz.

Məsələn, buradan bəzi tacirlər Ermənistana gediblər, sonra gəlib burada təbliğ ediblər ki, Ermənistanla ticarət aparmaq lazımdır. Yaxud da mən dünən, srağagün danışarkən bəzi şəxslər deyirlər ki, bilirsiniz, Türkiyə tacirləri deyir ki, guya iranlılar bizim mallarımızı alır, sərhəddən keçirib Ermənistanda sataraq para qazanırlar. Yaxşı olar, elə özümüz aparıb sataq və paranı da qazanaq.

Birincisi, bu, yanlış fikirdir. İranlılar özləri Ermənistanla çox geniş əlaqə yaradıblar, çox geniş ticarət aparırlar, ona çox yardım edirlər, oraya elektrik, qaz xətti çəkirlər, əməkdaşlıqları çox genişdir. Biz bu barədə İran hökumətinə öz etirazımızı bildirmişik. Ancaq təəssüflər olsun ki, İran hökuməti bizim bu sözlərimizə diqqət vermir və öz ticarətini, iqtisadi əlaqələrini aparır. Əgər Ermənistana getsəniz, - sizin bəzi müxbirlər bəzən Ermənistana gedirlər, türk, yaxud ermənidirlər, bilmirəm, bunu özünüz bilərsiniz, gedirlər, hətta Qarabağa da gedirlər, - əgər ədalətlidirlərsə, onlarda ədalət prinsipi və doğrudan türk qanı varsa, görərlər ki, Yerevanın, Ermənistanın, Dağlıq Qarabağın bütün yollarında İran yük maşınları, avtomobilləri doludur. Yəni İran tacirlərinin Türkiyədən mal alıb, aparıb Ermənistanda satmağa ehtiyacı yoxdur. Onlar öz mallarını satırlar, çalışırlar ki, öz malları üçün xarici bazar tapsınlar. Niyə gəlib Türkiyənin malını alıb Ermənistanda satacaqlar? Sadəcə olaraq Türkiyənin ayrı-ayrı tacirləri gizli surətdə, - bunu bilirik, - Ermənistanla ticarət edir və sizin dövlət adamlarına deyirlər ki, guya bu malları iranlılar gəlib buradan alaraq aparırlar.

Sizə bir şeyi də demək istəyirəm. Biz İranın dövlət adamları ilə danışarkən onlar deyirdilər ki, niyə bizi qınayırsınız ki, mal aparıb Ermənistanda satırıq, gedin Ermənistanın, Yerevanın bazarlarına, görün, nə qədər türk malları var. Bunu bizə iranlılar deyirlər. İndi gəlin araşdırın, türk malları oraya necə gedib çıxır, - iranlılar aparırlar, yoxsa Türkiyə tacirləri özləri gizli olaraq satırlar. Bu fikirlər - guya İran tacirləri aparıb sataraq pul qazanırlar, amma Türkiyə tacirləri qazana bilmirlər, - yanlış, aldadıcı fikirlərdir. Bunları qətiyyən qəbul edə bilmərik. Bir də deyirəm ki, Türkiyə-Azərbaycan, Azərbaycan-Türkiyə əlaqələrinin mənəvi, milli kökləri var, bunları heç bir paraya, heç bir dollara, heç bir lirəyə dəyişmək olmaz. Mən xahiş edirəm, bunu biləsiniz.

Mən Türkiyədə olan insanların belə hərəkətlərini qınayıram, bunlara çox etiraz edirəm və güman edirəm ki, Türkiyədəki qardaşlarımız, türk xalqı özü, Türkiyənin ictimai rəyi gərək belə hallara yol verməsin.

Bəzən belə danışıqlar gedir ki, Ermənistana qapı açaq. Nə üçün qapı açasınız? Qoy, Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxsın, ondan sonra birlikdə oturub fikirləşək ki, qapını haradan açmaq lazımdır. Yaxud, bu yaxınlarda Gürcüstan tərəfindən bizə belə bir məlumat gəldi ki, Türkiyə ilə Gürcüstan arasında iki qapı var, Türkiyədən Gürcüstana təklif olunub ki, üçüncü qapı da açmaq lazımdır. Bizimlə məsləhət edirlər ki, bu işə siz necə baxırsınız? Biz soruşuruq ki, bu qapı haradadır? Bu qapı Gürcüstanda ermənilərin birgə yaşadığı Cavaxeti deyilən yerdədir, demək, onu - üçüncü qapını ermənilər üçün açırlar. Gürcülərdən soruşduq ki, sizə iki qapı yetərlidirmi? Üçüncüyə ehtiyacınız varmı? Dedilər ki, yetərlidir, ehtiyacımız yoxdur. Bəs, kimə lazımdır? Dedilər ki, Türkiyə tərəfindən bizə belə təklif gəlib. Biz buna da etiraz etdik. Çünki bu, Gürcüstan üçün deyildi, Gürcüstanda Cavaxetidə bir yerdə yaşayan ermənilər üçün idi.

Bilirsiniz, mən bunu açıq deyirəm, - bəzən siz jurnalistlər mənə sual verirsiniz ki, burada incimisinizmi, - əlbəttə, belə şeylərdən inciyərəm və dost dostdan, qardaş qardaşdan incimәlidir. Mənə yaxın olmayan başqa bir ölkədən, yaxud xalq-dan incimәyə haqqım yoxdur. Çünki onun mənim qarşımda heç bir öhdəliyi yoxdur, mənim də onun qarşısında heç bir öhdəliyim yoxdur. Amma Türkiyədən, türk xalqından, Türkiyə hökumətindən və Türkiyədə bu işlərə gedən bəzi insanlardan incimәyə haqqım var. Bu, mənim inciməyim deyil, Azərbaycan xalqının inciməyidir, Azərbaycan xalqı bundan çox narahatdır. Ona görə də istərdim ki, bunlardan nəticə çıxarasınız.

Yaxud qəzetlərdən bir müxbiriniz Dağlıq Qarabağa gedib və dünən elə biz burada olanda iki səhifəlik reportac veribdir. Erməni təcavüzkarlarına yaxşı xidmət edirsiniz, eləyin.

Bölgədə sülh təkcə bizim üçün deyil, hamı üçün lazımdır. Türkiyə üçün də lazımdır. Mən bunu Türkiyənin bütün ictimai rəyinə çatdırıram, - qoy Türkiyədə fikirləşməsinlər ki, bütün bu hadisələr Türkiyəyə toxuna bilməz. Əgər Ermənistanda o qədər silah toplanırsa, Türkiyə də düşünməlidir, fikirləşməlidir.

Ona görə də bu bölgədə, Qara dəniz, Xəzər dənizi bölgəsində sülhü təmin etmək üçün bütün vasitələrdən istifadə etmək lazımdır."

Bütün bu xəbərdarlıqlara baxmayaraq son dövrdə Ermənistanla iqtisadi əlaqələrin blokadasının açılması məsələsi bəzi Türkiyə siyasətçilərinin gündəliyində yenə də qalmaqdadır. Yaxınlarda Yerevanda Ankara Yaxın Şərq Texniki Universiteti ilə Yerevan Dövlət Universiteti arasında birgə elmi tədqiqatların aparılması və tələbə mübadiləsi sahəsində əməkdaşlıq barədə türk-erməni müqaviləsi imzalanmış, türk ali təhsil müəssisəsində erməni dili və ədəbiyyatı kafedrasının, ermənişünaslıq mərkəzinin açılması barədə razılığa gəlinmiş, "genosid" məsələsinin araşdırılması üçün hər iki ölkənin sabiq dövlət və iş adamlarından ibarət birgə komissiya yaradılmış və artıq bu komissiya özünün ilk iki iclasını keçirmişdir.

Bütün bunlara baxmayaraq son zamanlar Türkiyə rəhbərliyinin "Ermənistan Azərbaycan torpaqlarını azad etməyincə ölkəmiz onunla heç bir diplomatik və iqtisadi əlaqələr qurmayacaqdır" məzmunlu bəyanatları və bu məsələdə qardaş türk xalqının vahid bir yumruq şəklində israrlı olması belə bir fikrə gəlməyə əsas verir ki, bu dairələrin cəhdləri həmişə olduğu kimi yenə də boşa çıxacaqdır.

Bazar iqtisadiyyatına keçid mərhələsində Türkiyənin iqtisadi inkişaf modelinin Azərbaycanda tətbiqi, Türkiyənin işgüzar dairələrilə Azərbaycanın özəl sektoru arasında təmasların yaradılması, Azərbaycana Türkiyənin maliyyə potensialının cəlb olunması əlaqələrin inkişaf etdirilməsi istiqamətində böyük rol oynamışdır.

Türkiyənin aparıcı ölkələr və ABŞ ilə münasibətləri, Qərb bazarının Azərbaycan üçün açılması, Qərb kapitalının Azərbaycana cəlb olunmasında da əhəmiyyətli faktorlardan olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasını birmənalı şəkildə dəstəkləyən Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolunda atdığı diplomatik addımlar, BMT, ATƏT, NATO və İKT kimi beynəlxalq təşkilatlarda bu məsələyə daha obyektiv mövqenin formalaşmasına təsir göstərmişdir.

Əməkdaşlığın ilk illərindən başlayaraq, iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmış, bir çox sahələrdə saziş, protokol və müqavilələr imzalanmışdır.

1992-ci ilin avqust ayından Ankarada Azərbaycan Respublikasının Səfirliyi, 1993-cü ildən isə İstanbulda Baş Konsulluğu fəaliyyət göstərir.

Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə

heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər.

Bu dövlət regionda və dünyada ən yaxın dostumuz, ən böyük və qüdrətli müttəfiqimizdir. Buna görə də yuxarıdakıları nəzərə almaqla yanaşı, dostluğumuzu və müttəfiqliyimizi qoruyub saxlamaq, daha da gücləndirmək diplomatiyamızın əsas məqsədlərindən və vəzifələrindən biridir.

Bizim ikinci böyük qonşumuz isə İran İslam Respublikasıdır. Elə Azərbaycanın sərhədlərinin ən uzunu da İranladır. Etnik, dini və mədəni baxımdan da İran bizə yaxın ölkə hesab edilir. Qərəzli olaraq azaldılmış statistik məlumatlara görə belə İran əhalisinin az qala yarısını etnik azərbaycanlılar təşkil edir. Təkcə bu fakt regionda və dünyada bizim dövlətlərin qarşılıqlı maraqlarını təmin etməyə yönəldilən siyasi xəttin hazırlanmasını zəruri edir. Dövlətimizin İranla səmərəli əməkdaşlığının xeyirli və zəruri olması şübhəsizdir. Ancaq dövlətlərimiz arasındakı siyasi və iqtisadi ziddiyyətlərin mövcudluğu buna ciddi şəkildə mane olur. Bu isə öz növbəsində bizimlə müharibə vəziyyətində olan Ermənistana İranla əməkdaşlığını artırmaq üçün əlavə imkanlar yaradır ki, bu da heç də bizim dövlət maraqlarımıza xidmət etmir. İranla hərtərəfli əməkdaşlığa münbit şərait yaratmaq, onu özümüzün daimi müttəfiqimiz etmək üçün Azərbaycan öz siyasətinin hazırkı mərhələsində müəyyən addımlar atmaqdadır. Öz maraqları olan İranın da eyni addımlar atması tarixi zərurətdən doğur. Yaddan çıxartmaq lazım deyildir ki, siyasi, iqtisadi, mədəni və elmi-texniki əlaqələrimizin özünəməxsus özəllikləri mövcuddur. Xalqlarımız din, ənənələr, mədəniyyət, mənəvi dəyərlər və dil baxımından bir-birlərinə olduqca yaxın olub müəyyən dövrlərdə uzun zamanlar eyni tarixə malik olmuş, eyni dövlətlərin və imperiyaların tərkibində olmuşlar ki, bu da qarşılıqlı əlaqələrimizin dostluq və qardaşlıq təməli üzərində qurulmasını və bu məsələnin dövlət rəhbərlərimiz tərəfindən daim diqqət mərkəzində saxlanılmasını zəruri edir.

1991-ci ilin 18 oktyabrında Azərbaycan Parlamenti Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı qəbul etdikdən sonra 1992-ci ilin mart ayının 12-də Azərbaycan İran İslam Respublikası tərəfindən rəsmi olaraq tanındı. Az keçmədən ölkəmiz müstəqil dövlət kimi BMT-yə üzv qəbul edildi. Əvvəllər mövcud olan müxtəlif xarakterli əlaqələr və təmaslar daha da konkretləşdi və artıq bir-başa əlaqələr müstəvisinə qalxdı. Təkcə onu qeyd etmək kifayətdir ki, sərhədlər açıldı, gediş-gəliş çoxaldı, iqtisadi və insani əlaqələr intensivləşdi, sərhədlərə və keçid məntəqələrinə nəzarət birdəfəlik hər iki qonşu dövlətlərin nümayəndələrinin əlinə keçdi, ən nəhayət İranın Bakıdakı keçmiş konsulluğu İran İslam Cumhuriyyətinin Bakıdakı səfirliyinə çevrildi və Tehranda da Azərbaycan Respublikasının səfirliyinin açılması üçün hazırlıq işləri görülməyə başlandı. Vəziyyətə müvafiq olaraq Azərbaycan Respublikası bu qonşu və qardaş ölkəyə qarşı öz xarici siyasət konsepsiyasını formalaşdırmağa başladı.

İlk dövrlərdə hakimiyyətə gəlmiş AXC liderlərinin radikallığı bir tərəfdən, digər tərəfdən isə İranda hakimiyyətdə olan və dünyaya "Böyük İslam İnqilabı"nı yaymaq istəyən qüvvələrin də radikallığı və başqa ideyalara qarşı dözümsüzlüyü, rüşeym halında olan bu konsepsiyaya öz dağıdıcı təsirini göstərməyə bilməzdi. İlk dövrlərdə tərəflərin bir-birinə gəl-gəl deməsinə baxmayaraq onların arasında bir-birindən

ehtiyatlanmaq, əlaqələr yaratmaqla bərabər ehtiyatı əldən verməmək xətti də mövcud idi ki, buna da əsasən keçmiş yüzilliklərdən irəli gələn və mövcud vəziyyəti meydana çıxartmış şərait, regionu öz təsiri altına salmaq istəyən qüvvələrin bir-biri ilə mübarizəsi, ən nəhayət, bölgədəki siyasi vəziyyət və oyanmaqda olan milli dirçəliş ideyaları öz dinamik təsirini göstərirdi və göstərməkdə davam etməkdədir.

Bütün bunlar son nəticədə İran tərəfinin din ünsürünün ekspansiyası və dini dövlət üzərində üstqurum etmək təşəbbüsü, Azərbaycan rəhbərliyinin isə "Böyük Azərbaycan" yaratmaq ideyaları və bu haqda edilən yerli-yersiz bəyanatları ilə nəticəsiz bir sonluq, son nəticədə isə hər iki qonşu və qardaş dövlətin əlaqələrinin inkişafının əleyhinə işləyən siyasi bir fon yaratmağa aparır, tərəfləri əməkdaşlıqdan daha çox qarşılıqlı ideya mübarizəsi aparmaq, qarşıdurmada iştirak etmək və irəli sürülən hər bir təşəbbüsə ehtiyatla yanaşmaq istiqamətində iş aparmağa sürükləyirdi.

Heç də təsadüfi deyildir ki, AXC dövründə Azərbaycan-İran əlaqələri demək olar ki, donuq bir vəziyyətə düşmüşdü. Bu dövr haqqında danışdıqda əlaqələrin olmasından daha çox, onların olmamasından danışmaq olar. Siyasətçilərimizin yerli-yersiz bəyanatları da, apardıqları birtərəfli siyasətin özü də qonşuluq əlaqələrinin inkişafına xeyirdən daha çox ziyan gətirirdi. Biz bu dövrdəki əlaqələrin intensivliyinə nəzər salsaq, tərəflər arasındakı soyuqluğu açıq-aşkar görə bilərik.

Əgər Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra İranla ölkəmiz arasında nümayəndə heyətlərinin mübadiləsi, sazişlərin bağlanması və razılıqların əldə edilməsinin şahidi oluruqsa da, bu, Prezident Elçibəyin dövründə demək olar ki, donmuş bir vəziyyətə gəlmişdi. Faktlar da bunu təsdiq edir. 1991-ci ilin iyulunda Azərbaycan Respublikası hökuməti nümayəndə heyəti İrana səfər etmiş və səfər zamanı tərəflər arasında iqtisadi-ticarət, elmi-texniki və mədəni əməkdaşlıq haqqında memorandum imzalanmışdısa, bundan sonra 1991-ci ilin dekabrında İİR o zamankı Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin başçılıq etdiyi İran İslam Respublikasının rəsmi nümayəndə heyəti Bakıya işgüzar səfər etmişdisə və əlaqələrdə müəyyən hərəkət vardısa, AXC dövrünə nəzər salsaq, bir dənə də olsa az-çox yüksək səviyyəli nümayəndə heyətinin sərhədlərimizi keçdiyini görə bilmərik.

Azərbaycan-İran münasibətləri sözün əsl mənasında Prezident Heydər Əliyev hakimiyyətə gəldikdən sonra inkişaf etməyə başladı. Tərəflər arasında nümayəndələr mübadiləsi artdı, iqtisadi əlaqələr sözün əsl mənasında canlandı.

Məlumdur ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Azərbaycanın dövlət quruluşunun təbiətinin dəyişməsi Azərbaycan xalqının müasir dünya ilə qarşılıqlı münasibətlərinin əsaslarını da dəyişdirdi.

İİR ilə ikitərəfli münasibətlərin strategiyasının formalaşdırılmasında Azərbaycan Respublikasının İİR-nin şimal əraziləri ilə iqtisadi-coğrafi oxşarlığı, AR ərazisinin Avrasiyada geosiyasi və geoiqtisadi əhəmiyyətə malik olması, AR-də yaşayan azərbaycanlıların İİR ərazisində yaşayan azərbaycanlılarla tarixi, dini, etnik və mədəni eyniliyi kimi amillər nəzərə alınmağa başlandı.

Avrasiyada yeni geosiyasi vəziyyətin yaranması, eləcə də II minilliyin son onilliyində Mərkəzi Asiya və Qafqazın müstəqil dövlətlərinin formalaşması, Rusiya və İİR arasında türkdilli dövlətlərin meydana gəl-

məsi Avrasiya məkanında mövcud olan geosiyasi vəziyyətin dəyişməsinə gətirib çıxartdı və bu da öz növbəsində Azərbaycan Respublikası ilə İİR arasında mövcud olan ikitərəfli münasibətlərə təsir edən ən mühüm amilə çevrildi.

Bundan əlavə son on il ərzində qərb təmayüllü hərbi, sosial və iqtisadi infrastrukturların yaradılması (TRASEKA, Avropa Şurasına üzvlük, ÖQUAM və s.), böyük karbohidrogen və digər xammal ehtiyatlarının mövcudluğu, habelə bu ölkələrdə yaşayan əhalinin savadlılıq səviyyəsinin yüksək olması, İİR siyasi rəhbərliyinin narahatlığını daha da artırdı.

İİR-in ABŞ, İsrail, Türkiyə, Pakistan, Fars körfəzi ölkələri, Əfqanıstan və İraqla gərgin münasibətlərdə olmasına baxmayaraq, bu ölkə beynəlxalq aləmlə əlaqələrini bərpa etmək üçün xarici siyasət sahəsində səylər göstərməyə başladı. MƏR, Səudiyyə Ərəbistanı ilə aparılan son danışıqlar, eləcə də Avropa dövlətlərindən Fransa və Almaniya ilə yaxınlaşmaq üçün edilən cəhdlər buna misaldır.

Bundan başqa Rusiya, Yunanıstan və Ermənistanın iştirakı ilə İİR Mərkəzi Asiya və Qafqazda formalaşmaqda olan qərb təmayüllü siyasi, hərbi, iqtisadi və sosial infrastrukturların qarşısını almaq məqsədilə bloklar yaradılması üçün səylər göstərməyə başladı və bu sahədə kiçik də olsa bəzi nailiyyətlər əldə etməyə nail oldu.

Bununla yanaşı, Rusiya və İİR arasında mövcud olan münasibətlərin səviyyəsini də olduqca yaxşı hesab etmək olmaz. Belə ki, hər iki tərəf Əfqanıstan problemi və xüsusilə də Xəzər dənizinin statusunun müəyyən edilməsi məsələsində rəqib mövqelərdən çıxış edir.

Regiondakı siyasi vəziyyəti nəzərdən keçirərkən yuxarıda qeyd olunan proseslər nəticəsində Avrasiyada "atlantizm" və "kontinentalizm" doktrinalarının qarşıdurmasında Avropanın İİR-ə böyük geosiyasi əhəmiyyət verdiyini qeyd etmək lazımdır. Şübhə yoxdur ki, son illər Fransa və qismən də Almaniya öz xarici siyasətlərini "kontinentalizm" istiqamətinə yönəldirlər. Fransa parlamentinin "erməni soyqırımı"nı tanıması, Fransanın İİR-də fəallaşması və eyni zamanda Rusiya ilə yaxınlaşması da məsələnin daha aydın şəkildə izah olunmasına imkan verir. Keçmiş Fransa Prezidenti Şarl De Qollun "Atlantikadan Urala qədər Avropa" doktrinası yuxarıda qeyd olunan siyasətin ideoloci əsaslarını təşkil edir.

Beləliklə, Zbiqnev Bzecinskinin təbirincə desək, "Xəzər dənizi hövzəsi və Mərkəzi Asiya sərvətini özündə cəmləşdirən qabın tıxacı" rolunun ayrıldığı Azərbaycan Respublikası Avrasiyada kifayət qədər formalaşmış sistemlərin yaranması prosesində böyük rol oynayır və oynayacaqdır.

İİR siyasi rəhbərliyinin son illər praqmatik mövqedən çıxış edərək, qonşu ölkələrə qarşı konstruktiv siyasət yürütməyə çalışmasına baxmayaraq, onlara münasibətində İslam İnqilabının İxracı doktrinasının (son illərdə ciddi şəkildə dəyişdirilmiş olsa da) izləri görünməkdədir.

Bundan əlavə, Azərbaycan Respublikasının Xəzər dənizinin statusu ilə əlaqədar yürütdüyü müstəqil siyasət, Qərb dövlətləri ilə yaxın münasibətləri, bir sıra beynəlxalq təşkilatlarda üzvlüyü (AŞ, GUÖAM, TRASEKA), Xəzərin Azərbaycan sektorunda neft yataqlarının işlənməsi, Azərbaycanın demokratik, milli-liberal ideyalarının və mədəniyyətinin İİR-də yaşayan azərbaycanlıların özünüdərk prosesinə təsirinin güclənməsi (bu istiqamətdə də proseslər birmənalı xarakter daşımır) iki ölkə arasındakı münasibətlərdə öz əksini tapır.

Eyni zamanda İİR-in şimal və Xəzəryanı bölgələrinin AR-lə iqtisadi-coğrafi bənzərliyi, Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyət göstərməsi, İranın Fars körfəzinə çıxışı, Xəzər dənizində böyük karbohidrogen ehtiyatlarının mövcudluğu İİR-lə əlaqələrin zəruriliyini bir daha sübut edir. Bununla əlaqədar, nəzərə alınmalıdır ki, İranın dini və iqtisadi qurumları Azərbaycanda mövcud olan ictimai-siyasi vəziyyətə ehtimal oluna biləcək sərmayə və maliyyə axını vasitəsilə təsir göstərə bilər.

Azərbaycan Respublikası və İran İslam Respublikası arasındakı ikitərəfli münasibətlər özündə siyasi, iqtisadi və mədəni sahələri əhatə edərək, kompleks xarakter daşıyır. Qeyd etmək lazımdır ki, iki ölkə arasında indiyə qədər 36 müqavilə və saziş imzalanmış, lakin onların əksəriyyəti yalnız kağız üzərində qalaraq icra olunmamışdır.

Dünyada baş verən geosiyasi proseslərin vacibliyini və hazırkı mərhələdə iqtisadi məsələlərin Azərbaycan Respublikası üçün aktuallığını nəzərə alaraq, ikitərəfli münasibətlərdə təbii olaraq iqtisadi sahəyə üstünlük verilir.

Müstəqil Azərbaycan dövlətinin formalaşması İİR siyasi rəhbərliyinin bəzi radikal və milliyyətçi dairələrinin nöqteyinəzərincə, İranın milli maraqlarına təhlükə törədir. Onların fikrincə, tərəqqi yolu ilə irəliləyən, demokratik, iqtisadi baxımdan dinamik inkişaf edən Azərbaycan Respublikası müqayisəli nümunə kimi İranda yaşayan azərbaycanlıların siyasi, iqtisadi və mədəni təfəkküründə təsir göstərir. Bunu ən azı İrandakı mövcud siyasi quruluşu dəstəkləyən və İran Parlamentinin üzvləri olan azərbaycanlı deputatların İran Parlamentində həm iqtisadi, həm də mədəniyyət məsələlərinə toxunan çıxışlarında da bu və ya müəyyən dərəcədə görmək olar.

Ziyalılar, tələbələr, burcuaziyanın nümayəndələri arasında qeyri-mərkəzçi qüvvələrin güclənməsi prosesi heç də birmənalı xarakter daşımır və bu da hakim dairələrin narahatlığına səbəb olur.

Gələcək əlaqələrimizin inkişaf etdirilməsi yollarına gəlincə, hər şeydən əvvəl cəsarətlə qeyd etmək olar ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hərtərəfli, qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Lakin bu siyasət platforması yaradılarkən bir çox məsələlər ölçülüb-biçilməli, ətraflı şəkildə araşdırılmalı, bir çox ağrılı faktorlar nəzərə alınmalı idi ki, son nəticədə düzgün siyasi xətt seçilsin. Bəzisi hamıya qismən aydın olan, bəzisi isə heç görünməyən bu amilləri ölkə başçımız İranla bağlı siyasi xəttimizi formalaşdırarkən dəfələrlə nəzərdən keçirmiş, hərtərəfli təhlillər aparmışdır.

Bu amillərə qısa bir nəzər salsaq, onların rəngarəngliyi, onlarda görünən və görünməyən tərəflərin çoxluğu, hər birinə ehtiyatla yanaşmağın vacibliyi aydın olar. Elə götürək bizim ən yaxın qonşularımızı. Məlum bir həqiqətdir ki, Azərbaycan həmişə üç böyük keçmiş imperiyanın - Rusiya, Türkiyə və İran imperiyalarının həm yaxın qonşusu olmuş, həm əsrlər boyu ayrı-ayrılıqda onların tərkib hissəsi olmuş və onların hər biri ilə yaxınlıqdan həm qazanmış, həm də itirmişdir. Hazırda da Azərbaycan Respublikasıregionun üç böyük dövlətinə çevrilmiş bu ölkələrin demək olar ki, əhatəsindədir. Onlarla yaxın qonşuluq, mehriban dostluq əlaqələri qurmağa, yaxından əməkdaşlıq et-

məyə məcburdur və bunu mövcud beynəlxalq vəziyyət və həyat özü tələb etməkdədir. Bütün bu güclü, müəyyən məsələlərdə təmənnası olan, bəzən "bəlkə də qaytardılar" xülyası ilə yaşayan qüdrətli qonşularımızla, o cümlədən İranla bərabərhüquqlu və yaxın qonşuluq əlaqələri qurmaq, imkan daxilində bütün məsələlərdə qarşılıqlı xeyir verən əməkdaşlığı təşkil etmək günün tələbi idi. Əlbəttə, bu tələbin və istəyin həyata keçməsi və ya keçə bilməməsi öz növbəsində bir çox faktorlardan asılı idi ki, onlara bəzən ən güclü dövlətlər belə hökm etmək qabiliyyətində və imkanında deyillər.

Bundan əlavə, bütün ölkələrlə, o cümlədən İranla qarşılıqlı əlaqələr qurarkən bu ölkənin bizə təsir imkanlarını, hərbi, siyasi və iqtisadi gücünü, hazırda nə istədiyini və gələcəkdə nələrin ola biləcəyini, regiondakı qüvvələr nisbətini, öz siyasətimizin tələblərini, ən nəhayət, bizə təsir edə biləcək ölkələrin bölgədəki reallıqları nə dərəcədə anladığını və hansı istiqamətdə fəaliyyətə önəm verdiklərini, sonuncu olaraq isə bizim İranla əbədi qonşu olduğumuzu, onun və bizim əbədi maraqlara malik olduğumuzu da yaddan çıxartmamalı və mütləq nəzərə almalı idik.

Ermənistanın müxtəlif yollarla İranda yaşayan etnik azərbaycanlıların birləşmək səylərini qabardaraq bizim ölkəmizə qarşı İran siyasətində Azərbaycan əleyhinə olan fikirlərin mütləqləşdirilməsinin də qarşısı alınmalı idi. Elə bu baxımdan həm də Rusiya və İranın birgə olaraq müasir regional siyasətin və iqtisadi əlaqələrin bir sıra problemlərinə görə antiazərbaycan mövqeyində dayanmalarına imkan verilməməli, bu ölkələrdən hər biri ilə ayrıca mehriban qonşuluq əlaqələri daha da gücləndirilməli, müxtəlif sahələr üzrə qarşılıqlı məsləhətləşmələr aparılmalı, bütün sahələrdə bu istiqamətdə müvafiq tədbirlər görülməli idi.

ABŞ və İsraillə saxlanılan iqtisadi və dostluq əlaqələri daim o vəziyyətdə olmalı idi ki, onlar İranın maraqlarına tam şəkildə zidd olmasın. İranın maraqlarına bu və ya başqa dərəcədə zərər vuran siyasi xətt sonda hazırkı İran - Ermənistan iqtisadi əlaqələrini strateci əməkdaşlığa çevirə bilməsin. Nəzərə alınmalı idi ki, Rusiya, İran və Ermənistanın antiazərbaycan mövqeyində birləşməsi Amerika - türk strateci dəstəyinə baxmayaraq vəziyyəti xeyli pisləşdirə bilər. Onu da qeyd etmək lazımdır ki, İranda teokratik islam totalitarizmi şəraitində daxili ziddiyyətlərin kəskinləşəcəyinə ümid bəsləmək əbəsdir. Bunları diqqətdən qaçırmayaraq və İran - Türkmənistan əlaqələrinin necə sıx olduğunu nəzərə alaraq elə onlar kimi tez-tez müxtəlif səviyyədə nümayəndə heyətləri göndərmək, xalq diplomatiyasından istifadə edərək əlaqələrin daha da istiləşməsinə çalışmaq vacib idi.

Azərbaycan neftinin daşınmasında və Xəzərin statusunun həllində də maksimal şəkildə Qərbə meyl edildiyi aşkar şəkildə özünü büruzə verməməli idi. Məlum olduğu kimi, Xəzərin beynəlxalq hüquqi statusu 1921 və 1940-cı illərdə SSRİ və İran arasında bağlanan sazişlərə əsaslanır. Onlara görə 10 millik sahil zonasından başqa azad gəmiçilik və dənizin ehtiyatlarının sahil dövlətləri tərəfindən ümumi istifadəsi nəzərdə tutulub. Əlbəttə, SSRİ-nin dağılmasından sonra dənizin beynəlxalq-hüquqi rejiminə yenidən baxılmalı idi. Belə ki, artıq bu dənizin sahillərində 2 deyil, 5 dövlət yerləşirdi. 6379 kilometrlik sahil xəttinin 500 kilometri İranda yerləşdiyi üçün bu statusun yenidən baxılmasına bu dövlətin həyati maraqları mövcuddur. Məlum olduğu kimi, Xəzər dənizinin statusunun təyin edilməsi məsələsində İranın mövqeyi, keçmiş Sovet Respublikalarının mövqeyindən kəskin şəkildə fərqlənir. Xəzəri milli sektorlara bölmək haqqında ümumi razılığa gələn bu dövlətlər onun 5 bərabər hissəyə bölünməsi barədə İran tərəfindən verilən təkliflə razılaşmaq fikrində deyillər. Lakin regional əməkdaşlıq naminə burada da tərəflərin əks mövqelərdə dayanmasına baxmayaraq milli maraqlarımıza zərər verməyən və başqa dövlətlərlə əməkdaşlığımızda mövcud olan balansı pozmayan bir konsensus tapmaq mümkündür və bu istiqamətdə cəhdlər davam etdirilməli idi. Neftin ixracı və nəqli sahəsində də əməkdaşlığımızın genişləndirilməsi üçün müəyyən addımlar atılmalı idi. Neftin ixracında İranın təcrübəsindən istifadə edilməsi, neft kəmərləri sisteminə yeni istiqamətlərin qoşulması və s. bu qəbildən olan məsələlərdəndir. Elə ARDNŞ-in vitse-prezidenti İlham Əliyevin "Nezavisimaya qazeta"ya verdiyi müsahibədə "Əgər 4-cü boru xəttini, məsələn, İrandan çəkmək barədə bizə təklif verilsə, biz buna səs verəcəyik. Azərbaycanın nə qədər çox alternativ boru kəməri olsa, o qədər yaxşıdır" fikri bu sahədə gərginliyi yumşaldan amillərdən idi.

Yaddan çıxarılmamalı idi ki, ABŞ ilə nisbətən konstruktiv əlaqələrin, Azərbaycanın enerji resurslarının istifadəsi və işlənməsinə olan maraqların mövcudluğu işığında ölkəmiz ABŞ - İran əlaqələrinin sağlamlaşdırılmasında vasitəçi rolunu belə müəyyən mərhələlərdə öz üzərinə götürə bilər. Bu missiyanın həyata keçirilməsində İrandakı çoxmilyonlu Azərbaycan diasporasıdan düzgün, maksimal şəkildə siyasi, iqtisadi sxemlərin hesablanmış şəkildə qurulması halında istifadəsi zamanı o, mühüm alətə çevrilə bilər. Ermənistanın ABŞ - İran əlaqələrini yaxşılaşdırmaq sahəsində aktiv addımlar atdığını nəzərə alaraq bu kontekstdə Ermənistanı qabaqlayıb təşəbbüsü öz əlimizə almaq imkanları yaranır. Əks halda ABŞ İranla əlaqələrini Ermənistan vasitəsi ilə yaxşılaşdırdıqdan sonra regiondakı siyasətinin ağırlıq mərkəzini ermənİran alyansına tərəf istiqamətləndirə bilər. Erməni - rus strateji əlaqələrinin mövcudluğunu da nəzərə alsaq, onda hadisələrin yuxarıda göstərilən ssenari əsasında inkişafı sonda Azərbaycanın geosiyasi cəhətdən izolə edilməsinə gətirib çıxara bilər.

Yuxarıda göstərilənlərdən əlavə, qarşılıqlı iqtisadi proyektlərə də böyük diqqət verilməli, İran sərmayəsi Azərbaycana cəlb edilməli idi.

Bütün bunları və sadalanmayan başqa məsələləri hərtərəfli şəkildə nəzərə alan Azərbaycan Prezidenti İranla dostluq, qardaşlıq və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasət konsepsiyamızı müəyyənləşdirdi.

Ölkələrimiz arasındakı əlaqələr günügündən genişlənməkdə, inkişaf etməkdədir. Elə regionda, ölkəmizdə və İranda baş verən dəyişikliklər də bu prosesə yaxından yardım edir.

Hazırda regionda baş verən hadisələr, İranda baş verən ictimai-siyasi və sosial-iqtisadi dəyişikliklər ölkənin həm daxili vəziyyətini, həm də onun xarici statusunu əsaslı şəkildə dəyişdirə bilər. İranın regional superdövlətə çevrilməsi perspektivləri olduqca realdır. "Mötədil İslam" konsepsiyasının tərəfdarı olan hazırkı Prezident Xatəminin tərəfdarları artıq üç dəfə bu sahədə qələbə qazanmışlar - 1999-cu ildəki bələdiyyə seçkiləri, 2000-ci ildəki ölkənin ali qanunvericilik orqanı olan Milli Məclisə seçkilər və ən nəhayət son Prezident seçkiləri.

İranda gedən son reformaların nəticəsində ölkə iqtisadiyyatının güclü təkan almasına baxmayaraq bir şey yaddan çıxarılmamalıdır ki, dövlət fəaliyyətinin əsas sa-

hələrinin idarə edilməsi mexanizmlərinin bir çoxu hələ də mühafizəkarların əlindədir. İranın Ali Dini Rəhbəri Ayətulla Əli Xamneyi müdafiə xidmətini, məhkəmə sistemini və ölkə iqtisadiyyatının təqribən 80%-ni islam inqilabi fondları vasitəsi ilə öz əlində cəmləşdirmişdir. Bütün bunlara baxmayaraq ölkə əhalisinin 65%-ni təşkil edən İran gəncləri ölkədə gedən reformaları dəstəkləyir ki, onların da böyük əksəriyyəti Prezident Xatəminin auditoriyasını təşkil edir.

Hazırda İran özünü bütün islam dünyasının ideoloji və ruhani lideri rolunda görür. İran ictimai-siyasi və sosial inkişafın xüsusi modelini - islam modelini hazırlayaraq həyata keçirmək üçün cəhdlər edir. Məsələyə bu cür baxış İranı islam ölkələrində Qərbin təsirinin yayılmasına qarşı fəal ideoloji mübarizə aparmağa vadar edir. Bu ölkə açıq şəkildə antiamerikanizmi təbliğ edir, islamın keçmiş sovet respublikalarında yenidən yayılmasına yardım göstərir, islam dünyasını birləşdirmək üçün islamdakı sünni və şiə məzhəblərinin yaxınlaşması siyasəti yürüdür.

İran İslam Respublikasına biz qardaş ölkə kimi baxır, onunla mümkün olan bütün sahələrdə sıx əməkdaşlıq edirik. Sərhədlərin pis qorunması, milli ehtiyatların xaricə daşınması, xarici biznesmenlərin bizim təcrübəsizliyimizdən istifadə etməsi kimi xırda inciklikləri və narazılıqları qətiyyətlə aradan qaldırılır, gələcəkdə onlara bir daha yol verilməməsinə çalışılır. İranla münasibətləri yaxşılaşdırmaq üçün yönəldilən səylər günü-gündən artmaqdadır.

Lakin həmişə nəzərdə tutmalıyıq ki, İranın strateji maraqları Azərbaycanla tam surətdə əməkdaşlıq etməyə imkan vermir və Ermənistanı dəstəkləməyə sövq edir. Açıq şəkildə deməliyik ki, İranın Xəzər siyasəti bizi narahat etməkdədir. İranın Xəzəri öz istədiyi kimi bölmək istəməsi, xarici neft şirkətləri ilə Xəzərin Azərbaycan sektorunun bir hissəsinin də daxil olduğu ərazidə geoloji və geofiziki kəşfiyyatlara dair müqavilə imzalaması, Azərbaycan geofiziki kəşfiyyat gəmisinə provokasiya xarakterli həmlələr etməsi, İran təyyarələrinin və gəmilərinin hava və su sərhədlərimizi pozması, Azərbaycan vətəndaşlarına və diplomatlarına qarşı müxtəlif təzyiq üsullarının və provakasiyaların tətbiq edilməsi, Azərbaycanda çevriliş etməyə səy edən adamların bu ölkədə sığınacaq tapması, dini pərdə altında ölkəmizə qarşı təbliğat kampaniyasının aparılması, radikal islamçı qrupların maliyyələşdirilməsi və himayəsi, açıq şəkildə müxtəlif yollarla təcavüzkar Ermənistanı dəstəkləməsi, son zamanlar Xəzərdəki vəziyyəti daha da gərginləşdirmək cəhdləri, məsul dövlət xadimlərinin məsuliyyətsiz bəyanatları və s. neqativ məsələlər də ölkələrimiz arasındakı əməkdaşlığın tam şəkildə vüsət tapmasına mane olur.

Azərbaycanın Ermənistanla müharibə vəziyyətində olması, İİR-in daxili siyasi vəziyyəti də məsələyə tam aydınlıq gətirilməsinə təsir göstərir. Bilindiyi kimi İran İslam Respublikasında növbəti Prezident seçkilərindən və indiki Prezident Məhəmməd Xatəminin seçkilərdə qələbə qazanmasından sonra siyasi fəallıq İslam Şurası Məclisinə keçmişdir. Seçkiqabağı dövrdə fəal olan mətbuat hal-hazırda istiqamətini Məclisə yönəldərək, birinci səhifələrində Məclisdə gedən müzakirələrə geniş yer verməkdədir.

Seçkilərdə xalqa verdiyi vədləri yerinə yetirmək və nəzərdə tutulan islahatları həyata keçirmək üçün müəyyən orqanlar tərəfindən dəstəyin vacibliyini başa düşən Prezident M.Xatəmi parlamentdə üstünlük təşkil edən tərəfdarlarına arxalanmaq və

parlament vasitəsilə digər orqanlara təsir etmək, öz hüquqlarını genişləndirməklə və əsas təsir vasitələrini ələ almağa çalışır. Seçkilərdən öncə və sonra Məclis tərəfindən qəbul edilən bir çox qanun layihələrinin Nəzarət Şurasından (Şura-ye Negəhban) keçmədiyini və geri qaytarıldığını görən Məclis üzvləri bu Şuraya nüfuz etmək və orada səsə malik olmaq üçün yeni qanun layihəsini ortaya çıxarmışlar.

Məclis artıq bu qanun layihəsini müzakirə edərək qəbul etmişdir.

Beləliklə, ölkənin hakimiyyət eşalonunda ən aparıcı rol oynayan Nəzarət Şurasının hökm və təsirinin azaldılması üçün S.M.Xatəmi Məclisi irəli verməyi və deputatların gücündən istifadə etməyi qərara almışdır.

Qeyd etmək lazımdır ki, İslam Şurası Məclisinin təhlükəsizlik və xarici siyasət üzrə komissiyasının 2001-ci il iyun ayının 26-da keçirilən qapalı iclasında Xəzər dənizi məsələsi gündəliyə çıxarılmış və geniş müzakirə edilmişdir. Bu iclasda xarici siyasət idarəsinin Xəzər dənizinin hüquqi statusunun təyin edilməsi ilə əlaqədar keçirilən görüşlərdə tutduğu mövqe müzakirə edilmiş, bu məsələdə qətiyyət göstərilməsi tələb edilmişdir.

İranın özündə, onun siyasi dairələrində belə qeyri-müəyyənlik mövcuddur və bütün bunlar əlaqələrimizin inkişafına öz təsirini göstərməyə bilməz.

İranın xarici əlaqələrinə gəlincə, İran-İraq müharibəsinin səngiməsindən və 1989-cu ildə Xomeyninin vəfatından sonra strateci məqsədlərə çatmaq metodları dəyişdirilərək sülh metodu ön plana çəkilmişdir. İİR-nın potensial düşmənlərinin təyin edilməsində də dəyişikliklər baş vermişdir. İndi əsas düşmənlər "düzgün olmayan müsəlman recimləri"dir. ABŞ-a, NATO-ya daxil olan digər ölkələrə və İsrailə isə mümkün hücumların potensial iştirakçıları və ideoloci cəhətdən təbliğat aparan düşmən kimi baxılır.

İraqın 1990-91 və 1998-ci illərdə ABŞ və onun müttəfiqləri ilə Fars körfəzində qarşıdurmasından sonra zəifləməsinə baxmayaraq, İran bu dövləti hələ də özünə hərbi-strateci rəqib və birbaşa təhlükə hesab edir.

Bundan əlavə, 1991-ci ildə "Səhrada tufan" əməliyyatında İraqın məğlubiyyətindən sonra BMT-nin qərarına əsasən yaradılan muxtar kürd sektorundan gələn hədələr də artmışdır. Bu akt İranın şimal-şərqində yaşayan kürdlərin hərəkətlərinə Tehran tərəfindən stimul veriləcəyinə işarədir.

Türkiyənin İraqın şimalındakı hərəkətləri də vəziyyətiçətinləşdirir. İran Türkiyənin regional iddialarından ehtiyatlanır. Türkiyənin NATO-nun üzvü və regionda ABŞ-ın müttəfiqi olmasını İran öz sərhədləri üçün təhlükə hesab edir və ölkənin daxili sabitliyinə də təsir edə biləcəyindən qorxur. Son illər Ankara ilə Təl-Əviv arasında əməkdaşlığın genişlənməsi də İranın böyük narahatlığına səbəb olmuşdur. Elə buna görə də İran Türkiyə ilə sərhədlərində yerləşən qoşunlarının sayını get-gedə artırmaqdadır.

İran ərəb ölkələrinin Fars Körfəzi Əməkdaşlıq Təşkilatının ABŞ, İngiltərə və Fransa ilə əməkdaşlığını özü üçün uzunmüddətli təhlükə hesab etməkdədir (Abu Musa, Böyük və Kiçik Tumbul adaları ətrafında BƏƏ ilə olan mübahisə nəzərdə tutulur). İran rəsmilərinin fikrincə, bu əməkdaşlıq nəinki Fars körfəzi, hətta İranın təhlükəsizliyinə də birbaşa zərbədir. Adı çəkilən ölkələrin körfəzdə qoşun yerləşdirməsi və körfəz ölkələrinin sürətlə silahlanması regionda İranın təsirinin zəif-

ləməsi deməkdir.

Xatəmi hökumətinin körfəz ölkələri, o cümlədən üç ada üstündə mübahisəli vəziyyətin yarandığı BƏƏ ilə münasibətlərinin yaxşılaşması üçün atdığı addımlar hələlik heç bir müsbət nəticə verməmişdir. İran daha çox Səudiyyə Ərəbistanı və Küveytin silahlanmasından ehtiyat edir. Ona görə də İraqın indi hərbi əməliyyat keçirə bilməyəcəyini nəzərə alaraq, İran bu silahlanmanı özü üçün birbaşa təhlükə hesab edir. Sovet İttifaqının dağılmasından sonra İranın şimal sərhədlərində yeni müstəqil ölkələrin yaranması da Azərbaycan, Ermənistan və Türkmənistan barədə yeni siyasətin işlənib hazırlanmasına səbəb olmuşdur.

ABŞ-ın Orta Asiyaya "Sülh naminə əməkdaşlıq" proqramı çərçivəsində nüfuz etməsini İran özü üçün xarici təhlükə hesab edir. Orta Asiya ölkələrinin 1997-ci ilin payızında ABŞ və NATO-nun digər ölkələri ilə hərbi manevr keçirməsi İranın kütləvi informasiya vasitələrində böyük narazılığa səbəb olmuşdu. Bu narazılıq regionda güc balansının pozulma ehtimalının artması ilə əlaqədardır.

Azərbaycan Respublikasında NATO bazalarının yerləşdirilməsi məsələsinin ortaya atılması da İranın istər siyasi rəhbərliyində, istərsə də hərbi dairələrində birmənalı qarşılanmır. İran Orta Asiya ölkələrində etnik ixtilafların artmasından ehtiyat edir. Çünki həmin qarışıqlıqların İran ərazisinə keçməsi ehtimalı da vardır. Amma İranla məşğul olan mütəxəssislərin rəyinə görə İranın Orta Asiya və Qafqaz ölkələrinə hücum ehtimalı sıfıra bərabərdir. Çünki İranla Rusiya arasında strateci əməkdaşlığın genişlənməsi üçün adı çəkilən regionlar həyati əhəmiyyət daşıyır.

Əfqanıstandakı hələ tam aydın olmayan vəziyyət də İran üçün təhlükə törədə bilər.

İranın bütün potensial düşmənləri içərisində ən əsas düşmən kimi ABŞ və İsrail hallandırılır.

Bəli, bütün bunlar proqnozlar, fərziyyələrdir. Prezidentimizin siyasi fəaliyyəti isə daim dinamikada olan hərəkətdir. Ona görə də o, hakimiyyətə gələr-gəlməz hərəkətə başladı və bütün qonşularla, o cümlədən İranla mehriban qonşuluq əlaqələri yaratmaq üçün öz gücünü və səylərini əsirgəmədi. Bütün bunlar tezliklə öz bəhrəsini verdi.

Azərbaycan müstəqil müsəlman ölkələri ailəsinə qovuşduqdan sonra onlarla ələlə verərək həm öz problemlərinin, həm islam dünyasının problemlərinin, həm də dünya siyasəti problemlərinin həllində yaxından iştirak etmək üçün İslam Konfransı Təşkilatına üzv olmaq qərarı verdi və bunun üçün dünya səviyyəsində böyük nüfuzu olan bu təşkilata müraciət etdi. 1991-ci ilin dekabrında ona üzv qəbul edildi və ilk andan da bu təşkilatın ən fəal üzvlərindən birinə çevrildi. Bu fəallıq Prezident Heydər Əliyev hakimiyyətə gəldikdən sonra daha da artdı, titanik bir əməyə çevrildi.

Bunun nəticəsində müsəlman dövlətləri və ölkələri arasında qarşılıqlı əməkdaşlığı möhkəmləndirmək, müsəlman xalqlarının əmin-amanlığını və təhlükəsizliyini, sülh şəraitində yaşamasını təmin etmək, onların rifahını yüksəltmək, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, dinimizi, ənənələrimizi və mədəni abidələrimizi qoruyub saxlamaq və daha da inkişaf etdirmək devizini özünə rəhbər tutan bu böyük beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman aləminin və bütün dünya ölkələrinin haqq işimizdə dəstəyinə nail olmaq diplomatiyamızın əsas fəaliyyət prinsiplərindən biri oldu.

Beləliklə yenicə müstəqillik qazanmış gənc Azərbaycan dövləti önündə müsəlman dövlətlərinin həmrəyliyi, maddi və mənəvi köməyi üçün ümidverici geniş imkanlar açıldı.

İKT, o cümlədən ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, İraq, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident Heydər Əliyev tərəfindən müəyyənləşdirildi.

Əlbəttə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Hamıya çoxdan bəllidir ki, bu regiondakı bütün ictimai-siyasi ab-havanı nizama salan və hərəkətə gətirən əsas məsələ - yarım əsr davam edən İsrail - ərəb qarşıdurmasıdır. 1948-ci ildən bəri 5 irimiqyaslı toqquşmaya səbəb olan Fələstin problemi bütün səylərə baxmayaraq hələ də öz son həllini tapa bilməmişdir. Proseslər bu yolla davam etdiyi halda dünyanı sarsıdan 2001-ci il 11 sentyabr hadisəsi belə bu işin tezliklə həllinə heç bir yardım edə bilməyəcəkdir.

Ərəb dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması bu tərəflərə qarşı Azərbaycan Respublikasının həyati maraqlarına cavab verən və elmi-praktiki cəhətdən əsaslandırılan bir siyasi xətt aparılmasının vacibliyini göstərir. Bu siyasi xətt konstruktiv olmalı, birtərəfli xarakter daşımamalıdır. Bir tərəfdən İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstərdiyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateci maraqlarımıza cavab verdiyini nəzərə almalı, digər tərəfdən güclü potensiala malik olan ərəb dünyası ilə islam aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əlaqələrimizin mövcudluğu yaddan çıxarılmamalıdır.

Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə alır.

Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İKT çərçivəsində böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Günü-gündən Misir, Səudiyyə Ərəbistanı, Mərakeş, Küveyt, Suriya, Livan və BƏƏ kimi aparıcı ərəb və başqa müsəlman dövlətləri ilə əlaqələrimiz hərtərəfli möhkəmlənir, genişlənir və dinamik şəkildə inkişaf edir.

Heydər Əliyev

AZƏRBAYCAN - İSLAM KONFRANSI TƏŞKİLATI ƏLAQƏLƏRİ

Bizim mənsub olduğumuz din qüdrətlidir, böyükdür, dünyada öz yerini tutub.

***

25 il müddətində İslam Konfransı Təşkilatı böyük bir yol keçibdir, şübhəsiz ki, onun böyük xidmətləri olubdur. O, dünyada sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi üçün öz töhfələrini verib, öz səylərini göstərib.

***

Müsəlman xalqlarının təhlükəsizliyini və ölkələrimizin ərazi bütövlüyünü təmin etmək, müsəlman azlıqlarının və icmalarının hüquqlarını qorumaq, müsəlman aləminin sabit inkişafını təmin etmək bizim müqəddəs vəzifəmizdir.

Heydər Əliyev

Dövlətimizin başına gəldiyi ilk gündən Prezident Heydər Əliyevin apardığı xarici siyasətin və diplomatik gedişlərin əsas və mühüm istiqamətlərindən biri kimi İslam Konfransı Təşkilatı ilə fəal və səmərəli əməkdaşlıq etmək xətti müəyyənləşdirildi. Və bu addım heç də təsadüfi deyildi. Axı dünyamızda elə bir mühüm və önəmli problem və ya məsələ yoxdur ki, Şərq, Şərq dövlətləri və ümumilikdə müsəlman aləmi olmadan həll edilsin. Müsəlman dünyasının isə ən aparıcı təşkilatı özündə hazırda 58 dövləti birləşdirən və xalq arasında Müsəlman BMT-si də adlandırılan İKT-dir.

Bilindiyi kimi, Atlanta (NATO) və Varşava paktları yaradıldıqdan sonra Səudiyyə Ərəbistanı "islam həmrəyliyi" hərəkatı çərçivəsində İslam paktı adı altında beynəlxalq bir təşkilat yaratmaq təşəbbüsü ilə çıxış etmişdi ki, bu təşkilat islam dünyasının mənafelərini beynəlxalq səviyyədə qoruya bilsin. Beləliklə də 1969-cu ildə müsəlman ölkələrinin Dövlət və Hökumət Başçılarının sentyabr ayında Rabatda (Mərakeş) keçirilmiş konfransında "Müsəlman millətlərinin birliyi" prosesinin əsası qoyulmuş və İKT-nin yaradıldığı elan edilmişdir. Bununla da İslamın yaşıl bayrağı altında təkcə ərəb dünyası deyil, bütün müsəlman aləmi, o cümlədən strateji əhəmiyyət kəsb edən bir sıra iri və güclü Asiya-Afrika dövlətləri bir blokda birləşdirilərək o dövrə qədər ayrıca fəaliyyət göstərən Ərəb Ölkələri Cəmiyyətindən (22 üzv dövlət var) daha güclü və geniş tərkibli bir beynəlxalq təşkilat qurulmuş, burada qeyri-ərəb ölkələrinin də fəal iştirakı üçün müvafiq şərait yaradılmışdı. İlk toplantıya dəvət edilmiş 35 dövlətdən yalnız 10-nu dövlət başçısı səviyyəsində təmsil olunmuşdu ki, bu da ilk dövrlərdə bu təşkilata olan inamsızlığın ifadəsi idi.

Onu da qeyd etmək lazımdır ki, bu təşkilat təkcə müsəlman dövlətlərini deyil, həm də bəzi ölkələrin müsəlman icmalarını, habelə bir sıra beynəlxalq təşkilatları da özündə birləşdirir ki, onların da nümayəndələri təşkilatın nəzdində müşahidəçi statusu almışlar.

İKT ilk gündən Birləşmiş Millətlər Təşkilatı ilə sıx əməkdaşlıq etməyə başladı və 1975-ci ildə BMT yanında müşahidəçi statusu aldı. BMT Baş Məclisinin 36-cı sessiyasında "BMT ilə İKT arasında əməkdaşlıq haqqında" qətnamə qəbul edildi.

İKT-nin ali orqanı üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə görüşü, siyasi orqanı - xarici işlər nazirlərinin konfransıdır. Təşkilatın icraçı orqanı Baş Katibkdir. İqamətgahı Ciddədə (Səudiyyə Ərəbistanı) yerləşir.

İKT-nin üç daimi komitəsi vardır ki, bunlara da təşkilatın üzvü olan ölkələrin dövlət başçıları rəhbərlik edir. İKT-nin bir sıra digər komitələri də fəaliyyət göstərir.

Hazırda İKT öz üzvlərinin sayına və mütəşəkkilliyinə görə dünya siyasətində sözü eşidilən, öz dəst-xətti olan nüfuzlü bir təşkilat sayılır. Dünya siyasətinin mühüm məsələləri barəsində qərarlar qəbul edilərkən onunla hesablaşır, onun mövqeyini nəzərə alırlar. Dini birlik əsasında yaradılan bu təşkilatın əsas məqsədi müsəlman aləmini birləşdirərək onun həmrəyliyini təşkil etmək, dini ayrı-seçkiliyi və yeni müstəmləkəçiliyi önləmək, müsəlman ölkələrinin birliyinə nail olaraq onlar arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığı təşkil etmək, dünya ictimaiyyətinin nəzərini müsəlman dünyasının problemlərinə yönəltmək, sülhü və təhlükəsizliyi dəstəkləmək, müsəlman aləminin müqəddəs yerlərini qoruyub saxlamağa və bərpa etməyə yönəldilən səyləri əlaqələndirmək və birləşdir-

mək, müsəlman xalqlarının ləyaqətini, milli hüquqlarını, müstəqilliyini qorumaq üçün birgə və yekdil fəaliyyət təşkil etməkdir.

Bilindiyi kimi, İslam Konfransı Təşkilatı hazırda 58 müsəlman dövlətini özündə birləşdirir ki, bu dövlətlər də cari siyasi problemlərə yanaşmaq və onları həll etmək baxımından əsasən aşağıdakı dörd qrupa bölünürlər:

1. Mülayim cinah - mühüm beynəlxalq problemlərə müvazinətli yanaşan və əsasən Qərb təmayüllü dövlətlər tərəfindən təşkil edilmişdir. İran körfəzi ərəb ölkələri, Türkiyə, Pakistan, Misir, İndoneziya və islam aləmindəki radikal təməlçilik meyllərini neytrallaşdırmaq məqsədi ilə İKT-dən istifadə edən bir sıra dövlət bu qrupa daxildir. Bu qrupda aparıcı dövlətlər kimi fəaliyyət göstərən ölkə Səudiyyə Ərəbistanıdır.

2. Radikal qrup - radikal ideologiya daşıyıcısı olan azsaylı, lakin fəal dövlətlər qrupundan ibarətdir. Bu qrupun lideri bir sıra müsəlman ölkələrində tərəfdarları olan İrandır.

3. Ucqar ölkələr qrupu - əsasən Afrika ölkələrindən ibarətdir. Bu qrupun siyasi mövqeyi məruz qaldıqları siyasi-iqtisadi problemlərlə səjiyyələnir və onların mövqeyi bilavasitə donor ölkələrin siyasətindən asılıdır.

4. Yeni müstəqil dövlətlər qrupu - keçmiş Sovet İttifaqının tərkibində olmuş 6 müsəlman ölkəsini əhatə edir. Onların İKT çərçivəsindəki siyasəti müstəqillik kursunun qorunması, möhkəmləndirilməsi və MDB üzrə öhdəliklərinə əməl etməyə səy göstərmək kimi təzadla xarakterizə olunur. Azərbayjan və Tajikistanın çıxmaqla bu ölkələr İKT vasitəsilə yalnız sosial-iqtisadi və humanitar problemlərini həll etmək əzmindədirlər.

İKT-yə daxil olan ölkələrin mənafeləri fərqli olan hallarda təşkilat islam aləminin aktual problemlərinə heç də birmənalı yanaşmır. Buna misal olaraq Çeçenistan Respublikasındakı böhran vəziyyətini göstərmək olar. Liviya lideri M. Qəddafinin Rusiyanın Çeçenistandakı hərəkətlərini müzakirə etmək məqsədilə Xarici İşlər Nazirlərinin növbədənkənar konfransını çağırmaq təklifi İKT-yə üzv dövlətlərin əksəriyyəti tərəfindən dəstəklənməmişdir.

İKT çərçivəsində, onun təsis edilməsinin əsas təşəbbüskarı və sponsoru olan Səudiyyə Ərəbistanı böyük nüfuza malikdir. Krallığın İKT-nin büdcəsindəki payı 10%, İslam İnkişaf Bankının (İİB) kapitalındakı payı 25%-dir. İKT, İİB və bir sıra islam təşkilatlarının iqamətgahları Səudiyyə Ərəbistanının Ciddə şəhərində, Krallıq hökumətinin təmənnasız olaraq təqdim etdiyi binalarda yerləşir. Krallıq bundan əlavə öz fəaliyyətlərini həyata keçirmələri üçün İKT və onun ixtisaslaşmış təsisatlarına, müntəzəm maliyyə yardımı göstərir.

Səudiyyə Ərəbistanının İKT-dəki nüfuzu ölkənin islamın tarixi vətəni və islam aləminin İki Müqəddəs Ocağının olduğu yer kimi islam dünyasındakı mövqeyi ilə də izah olunur. Səudiyyə Ərəbistanının bu və digər problemlərə dair İKT-dəki mövqeyi adətən digər ölkələr və ilk növbədə ərəb ölkələri tərəfindən dəstəklənir. Səudiyyə Ərəbistanının, yarandığı ilk günlərdən etibarən İKT-yə göstədiyi siyasi və maliyyə yardımları olmasaydı, təşkilatın hazırkı mövcudluğundan danışmaq mümkün olmazdı.

İKT-də Misir, İran, Türkiyə və Pakistan da böyük nüfuza malik olan ölkələrdir.

Azərbaycanın İKT-yə daxil olmasını ölkənin xarici siyasətindəki mövqeyini möhkəmləndirən amillərdən biri kimi səciyyələndirmək olar. Öz tarixi keçmişi, mədəni və mənəvi dəyərləri ilə islam aləminin ayrılmaz hissəsi olan Azərbaycan Respublikası keçmiş Sovet İttifaqının müsəlman respublikaları arasında birinci olaraq İKT-yə üzv qəbul olunmaq üçün müraciət etmiş və 1991-ci ilin dekabrında bu məqsədinə çatmışdır. Respublikamız İKT-yə üzv olan dövrdən etibarən təşkilatın və onun üzv dövlətlərinin ardıcıl dəstəyini almışdır. Belə ki, bundan təqribən 3 ay sonra Azərbaycan Respublikası hökumətinin müraciətinə cavab olaraq, İKT-nin Baş katibi, doktor Həmid əl-Qabid öz müavini Məhəmməd Möhsinin rəhbərlik etdiyi nümayəndə heyətini Azərbaycana göndərmişdir.

Səfərdə məqsəd Azərbaycandakı ictimai-siyasi vəziyyətlə və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün mövcud imkanlarla tanış olmaq idi. Nümayəndə heyəti respublika rəhbərliyi ilə görüşüb danışıqlar aparmış, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistanda, İranda, Türkiyədə, Rusiyada olmuş, bu ölkələrin xarici işlər nazirliklərinin vəzifəli şəxsləri ilə, eləcə də BMT-nin xüsusi nümayəndəsi Sayrus Venslə məsləhət xarakterli görüşlər keçirmişdir. Heyət geri döndükdən sonra 31 mart 1992-ci ildə İKT Baş katibi, Dağlıq Qarabağda vəziyyətlə əlaqədar bəyanatla çıxış etmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki münaqişə ilə əlaqədar dərin narahatlıq keçirdiyini ifadə etmiş, üzv dövlətlərə və humanitar təşkilatlara Dağlıq Qarabağın müsəlman icmasına yardım göstərilməsi ilə bağlı müraciət etmişdir. Bəyanatda Baş katib tərəfləri atəşi dayandırmağa və ziddiyyətləri aradan qaldırmaq üçün sülh yolunu seçməyə çağırmışdır. Bu bəyanat 1992-ci il aprelin 1-də dünya mətbuatı ilə yayılmışdır.

1992-ci il sentyabr ayının 23-də, Nyu-Yorkda BMT Baş Məclisinin sessiyası çərçivəsində İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin koordinasiya toplantısı keçirilmişdir. Toplantının yekun sənədinə Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar bir maddə salınmışdır. Həmin maddədə Dağlıq Qarabağ məsələsi ilə bağlı Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar dərin narahatlıq hissi qeyd olunmuş və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmiş sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipləri öz əksini tapmışdır. Lakin o dövrdə, respublikamız üçün İKT-nin imkanlarından və ümumiyyətlə islam faktorundan lazımi səviyyədə fayda əldə etmək və Azərbaycanın maraqlarını bu təşkilat çərçivəsində daha səmərəli şəkildə qorumaq mümkün olmamışdı.

1993-cü ilin aprel ayında Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilmiş İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin XXI Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü pislənmiş, erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılması və Ermənistandan Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət etməsi tələb edilmişdir.

1993-cü ilin ikinci yarısından etibarən İKT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başlamışdır ki, bu da Prezident Heydər Əliyevin bu təşkilatla bağlı götürdüyü xarici siyasət kursuna tam uyğun gəlirdi. Prezidentimizin dövlətimizə rəhbərlik etməyə başlamasından qısa bir müddət sonra bu faktor artıq özünü büruzə verməyə başladı. 23 noyabr 1993-cü ildə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin BMT

iqamətgahında keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı son təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək özünün ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etmişdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faizdən çox ərazisini işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan artıq qaçqının meydana çıxması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın son təcavüzünün sülhə və əmin-əmanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin Azərbaycan qaçqınlarına təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişdilər.

Bu hadisədən sonra ölkəmiz ilə bu təşkilat arasında əlaqələr Prezidentin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkilatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İKT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı aramsız hücumu və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənilmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırılmışdır.

Prezident Heydər Əliyevin İKT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İKT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İKT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir.

Hələ 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibyində Azərbaycanın daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İKT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı.

Azərbaycan Respublikasının İKT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Kəbəyə ümrə ziyarəti, islamın İki Müqəddəs Ocağının xadimi, Səudiyyə Ərəbistanı Kralı Fəhd bin Abduləziz Əl-Saudla faydalır danışıqları və İKT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı, Azərbaycanın islam aləminin üzvi bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi.

Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Bilindiyi kimi, münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandırılması, dünya səviyyəsində onun həlli

yollarının və üsullarının araşdırılması baxımından, bu ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi. Məlum olduğu kimi, bu cür siyahılar İKT tərəfindən hər il BMT-yə təqdim edilir.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT-yə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə toplantısında iştirak etdi.

Mərakeşə - İKT-nin Kasablanka Zirvə toplantısına 12 dekabr 1994-cü ildə yola düşərkən Binə hava limanında Azərbaycan Prezidenti jurnalistlərə verdiyi müsahibə də bu nüfuzlu beynəlxalq təşkilatın Azərbaycan üçün önəmliliyini qiymətləndirərək belə demişdir: "Şübhəsiz ki, hər bir Zirvə toplantısı böyük əhəmiyyətə malikdir.... İndi isə Mərakeşdə İslam Konfransı Təşkilatının Zirvə toplantısı olacaqdır. Bu toplantı da çox böyük əhəmiyyət kəsb edir. Çünki İslam Konfransı Təşkilatının 25 illiyi qeyd ediləcəkdir. Şübhəsiz ki, bu təşkilat yaradılarkən onun üzvləri indiki qədər olmayıbdır. Ancaq bu təşəbbüs islam ölkələrinin, islam dünyasının həmrəyliyi və dünyada gedən proseslərin inkişafını təmin etmək üçün çox mühüm bir addım idi. 25 il müddətində İslam Konfransı Təşkilatı böyük bir yol keçibdir, şübhəsiz ki, onun böyük xidmətləri olubdur. O, dünyada sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi üçün öz töhfələrini verib, öz səylərini göstərib. Bu təşkilata da bizim çox böyük hörmətimiz var.

Mən Mərakeş Kralı II Həsən cənablarının dəvətini çox böyük məmnuniyyət hissi ilə qəbul edərək bu Zirvə toplantısına gedirəm. İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümümbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm. Bir də ona görə ki, İslam Konfransı Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir. Biz indi də belə bir qətnamənin qəbul olunmasını gözləyirik.

Bildiyiniz kimi, İslam Konfransı Təşkilatına 52 dövlət daxildir. Bu dövlətlərin başçıları ilə müstəqil Azərbaycanın bilavasitə əlaqələr yaratması baxımından qarşıdakı konfrans əlverişli fürsətdir. Bizim belə əlaqələrə ehtiyacımız var. Çünki Azərbaycanı bütün dünyada tanıtmaq üçün və Azərbaycanın indiki vəziyyətini bütün dünyaya aşkar etmək üçün hələ çox işlər görmək lazımdır. Daxilimizdə bəziləri belə hesab edirlər ki, həyatımızı, Ermənistanın Azərbaycana təcavüzü məsələsini çoxları elə bizim kimi bilir. Amma əslində belə deyildir. Mənə məlumdur və mən bir çox ölkələrdə olarkən siz də müşahidə etmisiniz ki, respublikamızın başına gələn bəlaları çox yerlərdə ya bilmirlər, ya da onun nə qədər dərin, ümumdünya təhlükəsizliyi üçün, xüsusən Azərbaycanın bu günü və gələcəyi üçün təhlükəli olduğunu dərk edə bilmirlər. Ona görə də qarşıdakı toplantıda biz bu məsələləri açıqlayacağıq və eyni zamanda islam ölkələrinin başçıları ilə ikitərəfli görüşlərdə də mən bu barədə geniş söhbət-

lər aparacağam. Bu ikitərəfli görüşlərin Azərbaycan Respublikasının həmin ölkələrlə iqtisadi əlaqələrinin də yaranması və inkişaf etməsi üçün əhəmiyyəti var. Məhz bunlara görə mən bu səfəri çox mühüm bir səfər hesab edirəm. Görək, səfərimiz nə kimi nəticələr verəcəkdir" *(Müstəqilliyimiz əbədidir, 3-cü kitab, Bakı, 1997, səh.9-10).*

Jurnalistlər üçün verilən bu bəyanatdan da göründüyü kimi, Prezidentimiz bu təşkilatın Zirvə toplantısına böyük ümidlərlə gedirdi. Və səfər zamanı Azərbaycan diplomatiyasının qarşısına konkret olaraq aşağıdakı vəzifələr qoyulmuşdu:

1. İKT-nin ümumi potensialından istifadə edərək Azərbaycanın problemlərini dünya ictimaiyyətinin nəzərinə çatdırmaq.

2. Ermənistanın Azərbaycana təcavüzünün mahiyyətini açıqlamaq, dünyanı bu barədə dəqiq informasiya ilə məlumatlandırmaq, Azərbaycan ətrafında mövcud olan informasiya blokadasını yarmaq və Azərbaycan həqiqətlərini dünyaya tanıtmaq.

3. Ermənistanın təcavüzünün pislənməsində islam ölkələrinin tam dəstəyinə nail olmaq.

4. İKT-yə üzv olan 52 dövlətin hər biri ilə Azərbaycanın bilavasitə əlaqələrini yaratmaq.

5. Azərbaycanın siyasi və maliyyə dəstəyinə nail olmaq.

6. İKT-yə üzv olan ölkələrin Dövlət və Hökumət Başçıları ilə ikitərəfli görüşlər aparmaq və bu görüşlərdə həm Azərbaycan həqiqətlərini açıqlamaq, həm də bu ölkələrlə iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi üçün konkret addımlar atmaq.

Dövlət başçımız bu sammiti bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də, orada da, bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi.

Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomatların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İKT-yə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı.

Dövlətimizin başçısı həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə Azərbaycanımızın başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və bu münaqişələrin həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı bu yüksək tribunadan belə bəyan etdi:

"Hörmətli cənab sədr!

Hörmətli dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri!

İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin başçılarının görüşünün çox gözəl təşkil edildiyinə görə mən hər şeydən

əvvəl, Mərakeş məliki, əlahəzrət II Həsənə ürəkdən təşəkkür edirəm.

Azərbaycan xalqı adından sizi - bu mötəbər məclisin iştirakçılarını böyük məmnuniyyətlə salamlayıram. Sizə və xalqlarınıza səadət və firavanlıq arzulayıram, hörmət və ehtiramımı bildirirəm.

Biz haqlı olaraq fəxr edə bilərik ki, islam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir ki, onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir.

Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir: viranedici qlobal müharibələrin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyllər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadırlar və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməliyik, öz səylərimizi göstərməliyik. Bunun naminə biz müsəlman ölkələrinin inkişafına mane olan əngəlləri aradan qaldırmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik.

Biz fəxr edə bilərik ki, İslam Konfransı Təşkilatı da məhz bu nəcib məqsədlərə xidmət edir. Asiyanın, Afrikanın və Avropanın 52 dövlətini birləşdirən bu təşkilat bir milyard nəfərdən çox əhaliyə, böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malikdir.

Ölkələrimiz arasında həmrəylik, hərtərəfli əməkdaşlıq, sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün ədalətə əsaslanan zəruri tədbirlər görülməsi İslam Konfransı Təşkilatının əsas prinsipləridir və onun nizamnaməsində öz ifadəsini tapmışdır.

Ötən 25 il ərzində bizim təşkilatımız dünya siyasətinin mühüm amilinə çevrilmişdir, müasir dünyanın qlobal və regional problemlərinin həllinə sanballı təsir göstərir. Amma etiraf etmək lazımdır ki, biz islam dünyasının və öz təşkilatımızın nəhəng potensialından hələ heç də tam, istənilən səviyyədə istifadə edə bilməmişik. Biz nəinki təkcə öz xalqlarımızın, həm də bütün dünyanın tərəqqisi işində daha sanballı, daha təsirli rol oynaya bilərik və oynamalıyıq.

Hörmətli cənablar!

Bildiyiniz kimi, çoxəsrlik tarixi, zəngin mənəvi və maddi irsi olan Azərbaycan xalqı hələ miladın yeddinci əsrindən islam dünyasının bir hissəsini təşkil edir. Avropa ilə Asiya arasında, Qafqaz ilə Yaxın Şərq arasında mühüm coğrafi-siyasi məkanda yerləşən Azərbaycan, həmişə bir çox dövlətlərin diqqət mərkəzində olmuş, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynamışdır.

XIX əsrin əvvəllərində Azərbaycan uzunmüddətli dövlətlərarası müharibələr nəticəsində öz dövlətçiliyindən məhrum olmuş, sonra isə keçmiş Sovet İttifaqının bir hissəsinə çevrilmişdir. Bu illər ərzində bizim müsəlman məsləkimiz ciddi sinaqlardan keçmiş, Azərbaycan xalqı öz dini hisslərini açıq ifadə edə bilməmişdir. Amma bu hissləri biz içimizdə yaşatmışıq, qoynumuzda saxlamışıq, hətta ən ağır dövrlərdə öz dinimizə etiqad bəsləmişik.

Sovet İttifaqı dağıldıqdan sonra, 1991-ci ildə istiqlaliyyət əldə etməklə biz yenidən öz kökümüzə qayıtmış, din azadlığımıza nail olmuşuq. Elə həmin il Azərbaycan İslam Konfransı Təşkilatına daxil olmuşdur, onun tədbirlərinin fəal iştirakçısıdır və onun bütün strukturları ilə əməkdaşlıq edir.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra mən müsəlmanlıq borcuma əməl edərək, Məkkə və Mədinə şəhərlərinə gedib müqəddəs ziyarətgahlara səcdə qılmışam, ümrə mərasimini yerinə yetirmişəm.

Azərbaycan Respublikasının Prezidenti kimi mən öz qardaşlarımla - müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibətlər yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm. Əminəm ki, Mərakeşdəki Zirvə görüşü Azərbaycanın bütün islam dünyası ilə əməkdaşlığının genişlənməsinə və dərinləşməsinə kömək edəcəkdir.

Hörmətli cənablar!

Sizə məlum olduğu kimi, Azərbaycan xalqı qonşu Ermənistan Respublikasının təcavüzünə məruz qalmış, bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal edilmişdir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasında işğal etdikləri Dağlıq Qarabağ regionunda və ona bitişik yeddi digər rayonda ən qədim mədəniyyət abidələri məhv edilmiş, bütün məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Ən qədim müsəlman sivilizasiyasının bütün izləri yer üzündən silinir.

Mənim həmvətənlərimin 20 min nəfərindən çoxu öldürülmüş, təqribən 100 min nəfər yaralanmış və şikəst olmuş, bir milyondan artıq azərbaycanlı öz doğma yurdundan qovulmuş, onların evləri viran edilmiş və yandırılmışdır. Bu adamlar, o cümlədən uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüş, qohum-əqrəbalarını itirmişlər. İndi isə sərt qış şəraitində çadır şəhərciklərində dözülməz vəziyyətdə yaşayırlar, soyuqdan donurlar, yoluxucu xəstəliklərə tutulurlar, ərzaq, dərman, palpaltar sarıdan korluq çəkirlər.

Öz qətnaməsində Ermənistan Respublikasının müstəqil Azərbaycana qarşı təcavüzünü pisləmiş İslam Konfransı Təşkilatının fəaliyyətini biz yüksək qiymətləndiririk. O bu münaqişənin aradan qaldırılması işində iştirak edən beynəlxalq təşkilatlara müvafiq müraciətlər göndərmişdir. Hesab edirəm ki, belə tədbirləri davam etdirmək lazımdır və biz çox ümidvarıq ki, İslam Konfransı Təşkilatının hər bir üzvü bu tədbirləri dəstəkləyəcəkdir.

Görüşümüzə Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamə layihəsi təqdim edilmişdir. Mən hamınızı bu layihəni bəyənməyə dəvət edirəm.

Son vaxtlar Ermənistan ilə Azərbaycan arasında atəşkəs əldə olunmuşdur. Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair müşavirənin Budapeştdəki Zirvə görüşü çoxmillətli sülhü mühafizə qüvvələrinin təşkil olunub münaqişə zonasına göndərilməsi haqqında mühüm qərar qəbul etmişdir. Bu, Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair müşavirənin iştirakçısı olan dövlətlərin səyləri və bizim onlarla konstruktiv əməkdaşlığımız sayəsində mümkün olmuşdur.

Münaqişənin tamamilə aradan qaldırılması üçün ermənilərin bütün silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasını, qaçqınların doğma yurdlarına qaytarılmasını, Azərbaycanın bütün ərazisi üzərində onun suveren hüquqlarının bərpa edilməsini nəzərdə tutan siyasi saziş bağlanmalıdır.

Lakin Ermənistan Respublikası işğal olunmuş ərazilərin azad edilməsinə dair Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməkdən boyun qaçırır.

Hazırda sülhə nail olmaq üçün beynəlxalq həmrəyliyin, təcavüzkara beynəlxalq səviyyədə təzyiq göstərilməsinin çox böyük əhəmiyyəti var. İslam Konfransı Təşkilatı kimi nüfuzlu təşkilat və onun hər bir üzvü tərəfindən təzyiq göstərilməsi də son dərəcə vacibdir. Ona görə də, hörmətli görüş iştirakçıları, mən sizə üz tutub xahiş edirəm ki, siyasi iradənizi qətiyyətlə bildirəsiniz və Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda bizim ədalətli mübarizəmizə tərəfdar çıxasınız.

Bu mötəbər kürsüdən mən öz qardaşlarıma - Türkiyənin, İranın, Pakistanın, Səudiyyə Ərəbistanının və bir çox başqa ölkələrin, islam xeyriyyəçiliyi təşkilatının rəhbərlərinə təşəkkür edirəm. Onlar xalqımızın müsibətinə öz münasibətlərini dərhal bildirərək qaçqınları ən zəruri əşyalarla təmin etmişlər və bu gün də bizə yardım göstərməkdədirlər.

Mən bizi dar ayaqda tək qoymayanların hamısına minnətdaram. Amma indi ölkəmizin sakinlərinin hər yeddi nəfərindən biri qaçqındır. Humanitar vəziyyət son dərəcə ağırdır, bizim yardıma çox böyük ehtiyacımız var və mən kömək üçün sizə müraciət edirəm.

Altı illik müharibə nəticəsində Azərbaycan Respublikası ağır iqtisadi və sosial böhran keçirməkdədir. Müharibənin xalqımıza və ölkəmizin iqtisadiyyatına vurduğu yaralara, böyük maddi zərərə baxmayaraq, biz sülhə və sabitliyə nail olmaq naminə əlimizdən gələni edirik.

Bu il sentyabrın 20-də biz Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlədilməsi üçün dünyanın bir sıra şirkətləri ilə müqavilə imzalamışıq. Bu, Azərbaycanın xarici investisiyalar, iqtisadi əməkdaşlıq və dünya iqtisadiyyatına inteqrasiya üçün açıq olduğunu nümayiş etdirir. Müharibə ilə əlaqədar yaranmış ağır şəraitə baxmayaraq, biz islahatlar aparmaq, bazar münasibətlərinə əsaslanan iqtisadiyyat yaratmaq yolu ilə əzmlə irəliləyirik, xalqımızın güzəranını yaxşılaşdırmağa çalışırıq.

Zati-aliləri!

Öz çıxışımda mən xalqımın ağrı-acılarından və iztirablarından danışdım. Bununla yanaşı, Bosniya və Herseqovinada, Kəşmirdə, Fələstində, dünyanın bütün qaynar nöqtələrində milliyyətindən və dinindən asılı olmayaraq başqa xalqların da dərdi və iztirabları məni narahat edir. Bosniya və Herseqovinada son vaxtlar yaranmış vəziyyət xüsusi təşviş və ürək ağrısı doğurur. Orada qırğın və dağıntılar dəhşətli miqyas almışdır. Ona görə də biz qanlı qırğının dərhal dayandırılması üçün və bu münaqişənin ədalətlə aradan qaldırılmasına nail olmaq üçün bütün imkanlarımızdan istifadə etməliyik, var qüvvəmizi sərf etməliyik.

Nitqimi bitirərək, mən aramızdakı həmrəyliyə, İslam Konfransı Təşkilatının prinsiplərinə və məqsədlərinə sadiq olduğumu bildirirəm, sülh, sabitlik və tərəqqi naminə hamını öz səylərini birləşdirməyə çağırıram. Mən sizin hamınıza və xalqınıza səadət və əmin-amanlıq arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm"

(Yenə orada, səh.19-23).

Bu hərarətli çıxış böyük diqqətlə dinlənildi. Və sonradan Ermənistanın təcavüzünü pisləyən məşhur qətnamələrin qəbul edilməsində həlledici amillərdən biri oldu.

Ona göstərilən hörmət və diqqətin, böyük ehtiramın nəticəsi kimi İKT katibliyinin və bir sıra dövlətlərin xahişi ilə Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından da nitq söylədi.

Bu nitqdə Azərbaycan Prezidenti toplantıda iştirak edən dövlət başçılarına müraciətlə İslam Konfransı Təşkilatında Asiya

dövlətləri adından söz demək üçün ona imkan yaradılmasından böyük şərəf duyduğunu və bunu yüksək qiymətləndirdiyini qeyd etdi. Göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır. Zirvə toplantısı islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır.

Dövlətimizin başçısı VII Zirvə toplantısında Asiya qitəsindən olan ölkələrin artan fəallığının onların İslam Konfransı Təşkilatında daha geniş təmsil olunması ilə səciyyələndiyini, sonuncu ildə İslam Konfransı Təşkilatının sıralarının 45-dən 52-yə çatmasının deyilənlərə əyani sübut olduğunu toplantı iştirakçılarının diqqətinə çatdırmışdı.

Azərbaycan Prezidenti burada qəbul edilən qərarların bütün islam aləminin, xüsusən Asiya qitəsinin müsəlman ölkələrinin qarşısında duran problemlərin həllinə sanballı töhfə olacağını, Asiya qitəsinin müstəqilliyini yenidən qazanmış bir sıra müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın İslam Konfransı Təşkilatının diqqət və qayğısına böyük ehtiyac duyduğunu söyləmişdi. Bu ölkələrin həm keçmişdən miras qalmış ağır problemlərlə, həm də möhkəmlənməkdə olan müstəqilliklərinin doğurduğu təbii çətinliklərlə üzləşdiklərini, dərinləşməkdə olan iqtisadi böhranların, ictimai-siyasi sistemin dəyişməsi ilə bağlı keçid dövrünün yaratdığı çətinliklərin, bəzi dövlətlərin məruz qaldığı müharibələrin, iqtisadi blokada və müxtəlif siyasi təzyiqlərin də vəziyyətə təsir göstərdiyini bəyan etmişdi.

Tacikistanda və Əfqanıstanda qardaş qanının axıdılması, Kəşmir və Fələstin problemləri, Ermənistanın Azərbaycana qarşı altı ildən bəri davam edən təcavüzü və onlarca digər problemlərin bu gün çox ciddi narahatlıqlar doğurduğunu, Asiya qitəsinin bütün ağır problemlərinin konfransda dərin ürək ağrısı ilə qeyd edilməsinin xeyli təskinlik, həm də onların həlli ilə bağlı nikbinlik doğurduğunu vurğulamışdı.

Bu problemlərin həllinin dost və qardaş müsəlman ölkələrinin iqtisadi və siyasi yardımı ilə xeyli asanlaşa biləcəyini, İslam Konfransı Təşkilatının mövcud gərginliyin aradan qaldırılmasına, müharibə ocaqlarının söndürülməsinə, doğma yurdlarından didərgin düşənlərin el-obasına qayıtmasına kömək edəcəyinə, günahsız insanların qanının axıdılmasına son qoymaq üçün öz nüfuz və səylərini daha da artıracağına ümid etdiyini bildirmişdi..

İştirakçıların diqqətinə çatdırmışdı ki, Asiya regionunun müsəlman dövlətləri, o cümlədən Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində, habelə Zirvə toplantısında qəbul edilmiş qərarların ardıcıllıqla yerinə yetirilməsində öz səylərini durmadan artıracaq, bu təşkilatın nüfuzunun daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməyəcəkdir.

Sonda Azərbaycan Prezidenti İslam Konfransı Təşkilatının VII Zirvə toplantısının uğurla başa çatması münasibətilə üzv dövlətlərin başçılarını bir daha təbrik etmiş, onlara və onların xalqlarına, müsəlman bacı və qardaşlarımıza səadət və əmin-amanlıq arzulamışdı.

Səfər zamanı Azərbaycan Prezidenti İKT rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlərlə bərabər, Azərbaycanla İKT-yə üzv ölkələr arasında olan əlaqələri genişləndirmək və inkişaf etdirmək məqsədilə bir sıra ölkələrin Dövlət və Hökumət Başçıları ilə də ikitərəfli görüşlər keçirmişdi. Bunlardan Küveyt dövlətinin əmiri Şeyx Cabir əl-Əhməd əs-Sabah, BƏƏ-nin Prezidenti Şeyx Zaid bin Sultan ən-Nəhyan, İordaniya Kralı Hüseyn ibn Tələl, Bruney Sultanı Muda Həssən əl-Bolkian Muizəddin Vəddaullah, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Misir Prezidenti Hüsni Mübarək, Malayziyanın Baş Naziri Mahadi Məhəmməd, Fələstin dövlətinin Başçısı Yasir Ərəfat, Maldiv adalarının Prezidenti Məmun Abdul Qəyyum, Pakistanın Baş Naziri Benəzir Bhutto, Səudiyyə Ərəbistanı Kralının qardaşı, Vəliəhd Abdulla ibn Əbdüləziz, İran İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayəti və b. ilə keçirilmiş görüşləri göstərmək olar. Keçirilmiş bu səmərəli görüşlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü faktlar əsasında açıqlanmış, onun mahiyyəti və məqsədləri qarşı tərəfə çatdırılmış, dünya ictimaiyyəti üçün qaranlıq olan bir çox məsələlərə aydınlıq gətirilmiş, ən başlıcası isə Azərbaycan həqiqətləri Prezidentimizin dili ilə müsəlman dünyasının liderlərinin nəzərdiqqətinə çatdırılmışdı. Ölkəmizin başçısı onları Azərbaycana dəvət etmişdi ki, gəlib hər şeyi öz gözləri ilə görsünlər. Qarşılıqlı əlaqələr inkişaf etsin. Sonralar bu görüşlər Azərbaycanla müsəlman ölkələri arasındakı münasibətlərin inkişafına və genişləndirilməsinə böyük təkan vermişdi.

Bu görüşlərdə Azərbaycan Prezidenti hər bir ölkənin başçısına onlarla olan əlaqələrimizin xüsusiyyətindən çıxış edərək müraciətlər etmiş, ölkəmizin istək və arzularını çatdırmış, islam dünyasından nələr gözlədiyini, hər bir ölkə ilə ayrılıqda hansı sahələrdə əlaqələr qurmağın mümkünlüyünü, hansı məsələlərə xüsusi diqqət yetirilməsinin əhəmiyyətini, islam dünyası qarşısında duran vəzifələrin mahiyyətini açıqlamış, bu Zirvə toplantısında onlarla dövlətlə yaxın əlaqələr qurmağa, xoş münasibətlər yaratmağa çalışmışdı.

***

Prezidentimiz Küveyt əmiri Cabir Əhməd əs-Sabah ilə söhbət zamanı bildirmişdir ki, Azərbaycan ilə Küveyt coğrafi baxımdan bir-birinə çox yaxındır. Bizim ulu babalarımız arasında tarixən çox sıx əlaqələr olub. Doğrudur, sonrakı dövrlərdə bu əlaqələr müəyyən qədər kəsilib. Ancaq indi Azərbaycan müstəqil dövlətdir və öz tarixi keçmişini, qədim dostları ilə əlaqələrini bərpa edir.

Azərbaycanda Küveyt səfirliyinin açılması çox zəruridir. Doğrudur, sizin ölkədə belə səfirlik açmağa bizim hələlik imkanımız yoxdur. Ancaq Küveytin Azərbaycanda səfiri olsa, bu, həm sizin, həm də bizim ölkə üçün çox faydalı olar...

Son illərdə Küveytdə baş verən hadisələrə münasibət bildirərn Prezident, bunu öz dərdimiz kimi qəbul etdiyimizi, İraqın Küveytə hücumunu və təcavüzünü həmişə pislədiyimizi qeyd etmiş, Azərbaycan dövlətinin Küveytin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün təmin olunmasına tərəfdar olduğunu bəyan etmişdir.

Sonda Prezident Ermənistanın Azərbaycana hərbi təcavüzünün pislənməsi haqqında qətnamənin qəbul olunmasına tərəfdar çıxmağa çağıraraq Küveytlə dostluq, qardaşlıq əlaqələri yaratmaq və onu inkişaf etdirmək istəyimizi ifadə etmişdir.

***

Azərbaycan Prezidentinin BƏƏ-nin Prezidenti Şeyx Zaid ibn Sultan ən-Nəhyan ilə görüşü də çox maraqlı və səmimi bir şəraitdə keçmişdir. Görüş zamanı dövlətimizin başçısı onun nəzərinə çatdırmışdır ki, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi çox vacibdir.

Dövlətimizin başçısı göstərmişdir ki, indi Azərbaycanın torpaqlarının bir hissəsinin ermənilər tərəfindən işğalı nəticəsində ölkəmiz çox çətin vəziyyətdədir. Çadırlarda yaşayan qaçqınların bir çoxu xəstəliklərə tutulub, yemək-içmək çatmır. Azərbaycan blokada şəraitindədir. Ona görə də ölkəmizə Sizin köməyiniz çox lazımdır.

Müsəlman ölkələrininin Azərbaycana yardımı məsələsinə toxunan Prezidentimiz qarşı tərəfin nəzərinə çatdırmışdır ki, hazırda qonşu müsəlman ölkələrindən Türkiyə və İran azərbaycanlı qaçqınlara kömək edir. Səudiyyə Ərəbistanı da qaçqınlarımızın saxlanılması üçün müəyyən yardım göstərir. Pakistan da kömək edir. Onlar qaçqınların yaşadığı yerlərə, çadır şəhərciklərinə gəlib müəyyən maddi yardım göstərirlər. Amma başqa ölkələrdən hələ bir kömək görməmişik, xüsusilə də hərbi sahədə bizə heç kim kömək göstərmir. Ermənistana isə Rusiya kömək edir. Bizim silah almağa, ordumuzu saxlamağa pulumuz yoxdur. Ermənistan da elə bundan istifadə edərək gəlib torpaqlarımızı işğal edib. Amma biz müsəlmanlar, azərbaycanlılar o qədər də aciz deyilik.Və torpaqlarımızı nə yolla olursa olsun geri qaytaracağıq.

Kasablanka Zirvə toplantısında Ermənistanın Azərbaycana təcavüzünü pisləyən qətnamənin qəbul olunmasının nəzərdə tutulduğunu, bu qətnaməni BƏƏ-nin də müdafiə edəcəyinə əmin olduğunu bildirən ölkəmizin başçısı Şeyx Zaidə müraciətlə demişdir: " Ölkəniz zəngindir və Siz uzun illərdir ki, bu dövlətin başında dayanırsınız. Ona görə də mən əminəm ki, Siz bu məsələlərdə bizə kömək göstərəcəksiniz. Amma onu da bildirməliyəm ki, bu məsələdə gecikmək olmaz. Çünki ola bilər ki, bizim vəziyyətimiz daha da çətinləşsin. Doğrudur, bizim də sizin kimi neftimiz var. Biz Qərbin nüfuzlu neft şirkətləri ilə müqavilə bağlamışıq və onlarla əməkdaşlıq edəcəyik. Amma bu, öz səmərəsini bir neçə ildən sonra verəcək. Siz bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. Ancaq indi bizim neftimiz azdır. Sizin isə neftiniz çoxdur. Bizi sıxışdırmaq istəyirlər. Amma biz öz müstəqilliyimizi qoruyacağıq. Siz bir müsəlman kimi, böyük bir insan kimi, böyük bir Şeyx kimi gərək Azərbaycandakı müsəlman qaçqınlarının vəziyyəti haqqında düşünəsiniz. Axı, onlar yollarda, küçələrdə yaşayırlar. Ona görə də mən istəyirəm ki, Siz ölkəmizə gələsiniz və müsəlmanların necə yaşadığını özünüz görəsiniz. Azərbaycan Qafqazda yeganə müstəqil müsəlman dövlətidir. Biz möhkəm dayanmışıq, öz müstəqilliyimizi qoruyub saxlayacağıq. Ancaq biz Ermənistanın təcavüzünün qarşısını almasaq, torpaqlarımızı azad etməsək ölkəmizin, müsəlmanların vəziyyəti daha da ağırlaşacaq". *(Yenə orada, səh.14-16)*

***

Azərbaycan Prezidenti toplantıda İordaniya kralı Hüseyn bin Tələl ilə də görüş keçirmişdir. Azərbaycanın üzləşdiyi iqtisadi-siyasi problemlərin əsas səbəbinin Ermənistanın təcavüzündən irəli gəldiyini açıqlayan Prezidentimiz bildirmişdir ki, altı ildən çox davam edən bu müharibə Azərbaycanı iqtisadi böhran həddinə, ərazimizin 20 faizindən çoxunun işğalına və qaçqınlar ordusunun yaranmasına gətirib çıxartmışdır.

O, təəssüflə qarşı tərəfin nəzərinə çatdırmışdır ki, son vaxtlara qədər bu təcavüzə lazımi hüquqi-siyasi qiymət verilməmişdir. Son zamanlar ATƏT xətti ilə görülən diplomatik tədbirlər və eləcə də bir sıra İslam dövlətlərinin bu problemə fəal müdaxiləsi nəticəsində Ermənistanın yaratdığı informasiya blokadasını yarmaq və əsl həqiqətləri dünyaya çatdırmaq mümkün olmuşdur. Bununla belə, Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa hələ də böyük ehtiyac vardır. Bu mənada İordaniya kralının dünyada olan nüfuzuna və siyasi təcrübəsinə ölkəmiz böyük ümid bəsləyir. Şübhə yoxdur ki, İordaniya bu problemin sülh yolu ilə həllinə lazımi kömək göstərə bilər. Mübahisəli beynəlxalq məsələlərin həllində kifayət qədər təcrübəsi olan İordaniya kralı Fələstin problemi kimi düyünlü məsələnin açılmasında çox böyük rol oynamışdır. Ona görə də, Qarabağ münaqişəsinin həll olunmasında da Kral Hüseyn yaxından iştirak edə bilər *(Yenə orada, səh.16-17).*

Ölkəmizin başçısı yaranmış gözəl imkandan istifadə edərək başqa Dövlət və Hökumət Başçıları ilə də silsilə görüşlər keçirmiş, fikir mübadilələri aparmış, Azərbaycanımızın nüfuzunu daha da yüksəltməyə, dostlarının sayını artırmağa çalışmışdır.

***

Dövlətimizin rəhbəri Misir Prezidenti Hüsnü Mübarəklə görüşdə Prezidentimizin Zirvə toplantısındakı çıxışı barədə səmimi sözləri üçün ona təşəkkür etmiş və öz çıxışında bizi narahat edən məsələlərə geniş yer ayırdığına görə də minnətdarlığını ifadə etmişdir...

***

Muda Həssən əl-Bolkian Müizəddin Vəddaullah ilə görüşdə isə vurğulamışdır ki, Bruney ilə Azərbaycanın bir-birinə yaxınlaşması, sıx əlaqələr yaranması üçün imkanlar çoxdur. Azərbaycan Respublikası İslam Konfransı Təşkilatının üzvüdür və bütün islam aləmi ilə geniş əlaqələr qurmaq yolundadır. Ölkələrimiz arasında əməkdaşlıq üçün burada, Mərakeşdə faydalı zəmin yaratmaq olar...

Kasablanka toplantısında da Ermənistanın Azərbaycana təcavüzünü pisləyən qətnamə qəbul olunacaqdır. Ona görə də biz çox istərdik ki, Bruney sultanı bu qətnaməni müdafiə etsin. Bruney Sultanlığı Zirvə toplantısında qəbul olunacaq digər bir qətnaməyə - Azərbaycana iqtisadi və humanitar yardım göstərilməsi barədə sənədə də öz müsbət münasibətini bildirsin.

***

Azərbaycan Prezidenti İranın Xarici İşlər Naziri Əli Əkbər Vilayəti ilə də görüş keçirmişdir. Söhbət əsnasında bir daha bildirmişdir ki, Kasablanka Zirvə toplantısının işinə çox böyük əhəmiyyət verir və ümidvardır ki, burada qəbul ediləcək qətnamələr Azərbaycanın haqq işinin müdafiə olunmasında mühüm rol oynayacaqdır. Bu qətnamələr hazırlanarkən Azərbaycanın mövqeyini müdafiə etmək sahəsində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin göstərdiyi səyləri yüksək qiymətləndirdiyini də Azərbaycan Prezidenti müsahibinin diqqətinə çatdırmışdır.

***

Ölkəmizin rəhbəri Fələstin dövlətinin başçısı Yasir Ərəfatla görüşdə göstərmişdir ki, Fələstin dövləti ilə Azərbaycan Respublikası arasında münasibətlər yaradılması üçün yaxşı zəmin vardır.

Fələstin xalqının vəztiyyəti, onun öz milli dövlətini yaratmaq uğrunda mübarizəsi haqqında Prezidentimizin ətraflı məlumatı var. Bugünkü söhbət isə bu məlumatları daha da dərinləşdirdi.

...Təzəcə müstəqillik qazanmış Azərbaycan Respublikası da Ermənistan tərəfindən təcavüzə məruz qalıb. Bu təcavüz nəticəsində Dağlıq Qarabağ regionu və onun hüdudlarından kənarda yerləşən daha yeddi rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bu torpaqlarda yaşayan bir milyondan çox azərbaycanlı isə qaçqına

çevrilərək ağır vəziyyətdə çadırlarda yaşayır.

***

Səudiyyə Ərəbistanı kralının qardaşı Əbdül Əzizlə söhbətdə Prezidentimiz demişdir:

"..Sizdən xahiş edirəm ki, mənim salamlarımı, hörmət və ehtiramımı Səudiyyə Ərəbistanının kralı əlahəzrət Fəhd ibn Əbdül Əzizə çatdırasınız.

Bildirirəm ki, Səudiyyə Ərəbistanının Azərbaycanda səfirliyinin açılması olduqca vacibdir və bu məqsədlə konkret tədbirlər görülməsi vaxtı çoxdan çatmışdır. Səfirliyin açılması ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə bərabər, Azərbaycanın bütün islam dünyası və İslam təşkilatı ilə daha sıx əlaqələr saxlaması üçün mühüm əhəmiyyət kəsb edir" *(Yenə orada, səh.25).*

***

Azərbaycan Prezidenti Pakistanın Baş Naziri, xanım Benəzir Bhutto ilə görüşdə Azərbaycan Respublikasının həm İslam Konfransı Təşkilatı daxilində, həm də digər beynəlxalq təşkilatlar çərçivəsində Pakistanla əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini, bu əməkdaşlığın daha da inkişaf etdirilməli və gücləndirilməli olduğunu, müstəqilliyini yenicə əldə edən, təcavüzə məruz qalan, müharibə ilə əlaqədar dərin böhran vəziyyəti keçirən gənc Azərbaycan Respublikasının böyük və nüfuzlu dövlət olan Pakistanın dəstəyinə həmişə ehtiyacı olduğunu göstərmişdir.

Azərbaycan Respublikasının müharibənin sülh yolu ilə başa çatdırılması üçün BMT, ATƏM çərçivəsində böyük iş apardığını, bu münaqişənin yalnız beynəlxalq təşkilatların iştirakı ilə həll olunmasına üstünlük verdiyini bir daha bəyan etmişdir.

***

Maldiv adalarının Prezidenti Məmun Abdul Qəyyum ilə söhbətdə isə dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələr qurulması üçün bu görüşün böyük əhəmiyyəti olduğunu bildirmiş, Azərbaycanın coğrafi-siyasi vəziyyəti, müasir ictimai-iqtisadi durumu haqqında müfəssəl məlumat vermiş, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın bir qisminin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğunu, bir milyondan çox müsəlmanın qaçqın vəziyyətinə düşdüyünü, hazırda qaçqınların ərzaq məhsullarına, ən adi gündəlik tələbat mallarına və ümumiyyətlə humanitar yardıma çox böyük ehtiyacı olduğunu müsahibinin nəzərinə çatdırmışdır.

***

Malayziyanın Baş Naziri Mahadi Mühəmməd ilə görüşdə espublikamız Ermənistanın Azərbaycana təcavüzünün respublikamızın əhalisi üçün kəskin problemlər yaratdığını, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar Kasablanka Zirvə toplantısında qəbul ediləcək qətnaməyə Malayziyanın da tərəfdar çıxacağına əmin olduğunu qətiyyətlə ifadə etmiş, onu Azərbaycana rəsmi səfərə dəvət etmişdir.

***

Yuxarıda sadalanan bu qısa məlumatlardan da göründüyü kimi, dövlətimizin başçısı bu Zirvə toplantısında bütün gücünü və səylərini ölkəmizin tanınması, çoxtərəfli əlaqələrinin yaradılması və inkişaf elətdirilməsi, problemlərinin həlli yolunda konkret addımlar atılması üçün səylər göstərilməsinə yönəltmiş, toplantının nəticələrindən də göründüyü kimi buna tam amilə nail olmuşdur.

Zirvə konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar çox ciddi və müfəssəl bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistanın təcavüzü hərtərəfli əks etdirilmiş və Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması, qaçqınların öz yurd-yuvalarına qayıtması, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həlli məsələsi qoyulmuş, Şuşa və Laçın rayonlarının azad edilməsi problemi konkret surətdə öz əksini tapmışdı.

Konfransın qəbul etdiyi ikinci qətnamə Ermənistanın təcavüzü nəticəsində bir milyondan artıq qaçqının olması ilə əlaqədar Azərbaycan Respublikasına iqtisadi və humanitar yardım göstərilməsi barədə idi. Qətnamə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarının işğalına son qoyması və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün beynəlxalq birliyi ciddi və təcili addımlar atmağa, üzv dövlətləri, islam institutlarını və beynəlxaq təşkilatları Azərbaycana iqtisadi və humanitar yardım göstərməyə çağırmışdı.

Nəhayət, VII Zirvə toplantısı yekun sənədi qəbul etmiş və bu sənəddə bir çox məsələlərlə yanaşı Ermənistanın Azərbaycana qarşı təcavüzü də öz əksini tapmışdı.

Azərbaycan Prezidenti Zirvə toplantısı başa çatdıqdan sonra mətbuat üçün bəyanatla çıxış edərək orada bildirmişdir:

"Mən Asiya dövlətləri adından Zirvə toplantısının yekunu münasibətilə sözlərimi dedim. Hesab edirəm ki, bu, Azərbaycan Respublikasına, xalqımıza göstərilən diqqət və hörmətdir. Mən bunu belə qəbul edirəm. Çox məmnunam ki, belə bir imkan yarandı və mən Asiya dövlətləri adından burada çıxış etdim...

Burada çox böyük, ciddi qətnamələr qəbul olundu. O cümlədən Azərbaycan ilə əlaqədar üç qətnamə qəbul edildi: birincisi Ermənistanın Azərbaycana təcavüzünün pislənməsi, ikincisi Azərbaycanın düşdüyü ağır vəziyyətlə əlaqədar İKT-nin və onun üzvü olan dövlətlərin respublikamıza iqtisadi və humanitar yardımı haqqındadır, üçüncüsü isə yekun bəyannaməsində Ermənistanın Azərbaycana təcavüzü haqqında geniş bir bölmə var. Həmin bölmədə bu təcavüzün Azərbaycana qarşı zərər vurduğu, insanları həyatından məhrum etdiyi, ərazimizin dağıldığı geniş əks olunmuşdur. Burada eyni zamanda tələb olunur ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etsin. O cümlədən Şuşa və Laçın rayonlarının azad olunması məsələsi də oraya salınıbdır. Bunlar hamısı bizim üçün çox əhəmiyyətlidir...

Bu toplantıda bütün islam aləminə aid olan, qaynar nöqtələrlə əlaqədar bir çox qətnamələr qəbul edildi. Yekun bəyannaməsi də çox böyükdür, çoxbölməlidir. Orada bütün məsələlər öz əksini tapmışdır. Ona görə də mən şübhə etmirəm ki, bu, bütün dünyada böyük əks-səda doğuracaq. Dünya siyasətinə bunun müəyyən təsiri olacaqdır...

Zirvə toplantısı başa çatdıqdan sonra Mərakeş kralı II Həsənlə görüşüm oldu. Biz toplantının yekunları, eyni zamanda Mərakeşlə Azərbaycan arasında ikitərəfli əlaqələr barədə söhbət etdik. Kral II Həsən məni Mərakeşə rəsmi səfərə dəvət etdi. Qeyd etdi ki, bu səfərin Ramazan ayı başa çatandan sonra həyata keçirilməsini çox arzu edərdi. O, bildirdi ki, bu səfər Azərbaycanla Mərakeşin əlaqələrinin inkişaf etdirilməsi üçün çox lazımdır. Bir çox problemlər var və onları müzakirə etmək vacibdir. Mən bu təklifi məmnuniyyətlə qəbul etdim və dedim ki, bu dəvətdən mütləq istifadə edəcəyəm.

Eyni zamanda mən Mərakeş kralını

Azərbaycana rəsmi səfərə dəvət etdim. Bildirdim ki, Azərbaycan ilə onun tanışlığı bizim islam aləmində problemlərin həll olunmasına çox kömək edəcəkdir. O da mənim təklifimi məmnuniyyətlə qəbul etdi və dedi ki, çalışacaq dəvətimi mütləq qəbul edərək Azərbaycana səfər etsin" *(Yenə orada, səh.29-30).*

Beləliklə, Zirvə toplantısı Azərbaycan üçün çox faydalı oldu, o, ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən çox mühüm qərarlar qəbul etdi. Bu toplantının Azərbaycan üçün önəmli cəhəti Azərbaycanın indiki durumu haqqında orada iki qərarın çıxarılması idi. Qərarın birincisində Ermənistanın Azərbaycana təcavüzü 52 müsəlman dövləti tərəfindən pislənmiş, Ermənistanın Azərbaycan ərazilərini işğal etmiş qoşunlarının Laçın və Şuşa rayonları da daxil olmaqla qeyd-şərtsiz çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının təmin edilməsi tələb olunmuşdur. İkinci qərarda isə iqtisadi-siyasi böhran keçirən Azərbaycana İKT-yə üzv olan ölkələr tərəfindən iqtisadi və humanitar yardım göstərilməsi məsələsi öz əksini tapmışdır.

Azərbaycan bu təşkilata üç il bundan əvvəl daxil olsa da, burada ilk dəfə olaraq ölkəmizin problemləri belə geniş işıqlandırılmış, onlara tam aydınlıq gətirilmişdir. Azərbaycanın Zirvə toplantısında iştirak etməsi və öz sözünü deməsi də ölkəmiz üçün çox önəmli idi. İlk dəfə idi ki, müsəlman aləmində Azərbaycanın durumu, vəziyyəti barədə beynəlxalq ictimaiyyətə həm geniş məlumat verilir, həm də onun diqqəti ölkəmizə, Ermənistan - Azərbaycan münaqişəsinə, Ermənistanın bizə qarşı təcavüzünə cəlb edilirdi.

Kasablanka Zirvə toplantısından Bakıya qayıdarkən təyyarədə toplantının nəticələri barədə jurnalistlərin suallarına cavab verən Azərbaycan Prezidenti onlara tam aydınlıq gətirərək demişdir: "Ötən üç ildə Azərbaycan İTK ilə müəyyən əməkdaşlıq etsə də, bu, çox da səmərəli olmayıb. Ona görə də Yeddinci Zirvə toplantısında Azərbaycanın dövlət başçısı səviyyəsində iştirak etməsi, şübhəsiz, Azərbaycan Respublikasının beynəlxalq aləmdəki vəziyyəti və xarici siyasəti ilə əlaqədar böyük hadisədir. Mən bunu belə qiymətləndirirəm. Bu Zirvə toplantısında iştirakı özüm üçün zəruri hesab edirəm.

Şübhə yoxdur ki, başqa beynəlxalq təşkilatların toplantıları kimi, bu Zirvə toplantısı da müəyyən hazırlıq dövrü keçmişdir. Hazırlıq dövründə biz çalışdıq ki, bu Yeddinci Zirvə toplantısında Azərbaycan üçün müəyyən nailiyyətlər əldə edək. Biz buna nail ola bildik. Niyyətlərimiz də ondan ibarət idi ki, birinci növbədə Azərbaycanın bir müstəqil dövlət kimi indiki vəziyyətini islam ölkələrinə, İKT-nin üzvlərinə çatdıraq, onları bundan hali edək, eyni zamanda bu toplantının imkanlarından istifadə edərək, Azərbaycanın vəziyyəti ilə əlaqədar müəyyən qərarlar qəbul edilməsinə nail olaq.

Şübhəsiz ki, bizim üçün beynəlxalq aləmdə ən mühüm məsələ Azərbaycana Ermənistan tərəfindən təcavüz edilməsi məsələsi idi, ötən altı ildən çox müddətdə bu təcavüzün Azərbaycan Respublikasına, Azərbaycan xalqına nə qədər böyük zərər vurduğunu, ölkəmizin nə qədər itkilər verdiyini, onun başına nə kimi bəlalar gəldiyini, Azərbaycan sakinlərinin necə böyük çətinliklərlə qarşılaşdığını dünyaya bildirmək idi. Ona görə də məqsədimiz bu idi ki, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar bir qətnamə qəbul edilsin, Azərbaycan belə ağır vəziyyətdə olduğuna görə İKT və ona daxil

olan dövlətlər ölkəmizə yardım göstərilməsi məsələsinə də baxsınlar.

Hazırlıq zamanı bu qətnamələrin başa gəlməsi asan olmamışdır. Maneçilik törədən amillər də, hətta maneçilik göstərən dövlət də olmuşdur. Bildiyiniz kimi, belə beynəlxalq toplantılarda qərar konsensus əsasında qəbul edilir. Konsensus olmadıqda, yəni dövlətlərdən birinin razılığı olmasa, qərar qəbul edilməyə bilər. Belə bir dövlət vardı və o, Ermənistanın Azərbaycana qarşı təcavüzkar olması fikri ilə razılaşmırdı. Ona görə də biz hazırlıq vaxtı xeyli iş apardıq. Biz Kasablankaya gəldikdə, bu qərarın müəyyən qədər təhlükə altında olduğunu gördükdə fəaliyyətimizi daha da artırdıq. Xarici işlər nazirlərinin görüşündə bu məsələ müzakirə edildi və həmin maneələrin aradan qaldırılmasına nail ola bildik.

Bilirsiniz ki, Zirvə toplantısı ayın 13-də axşam saat 7-də başlandı. Odur ki, bütün gün ərzində dövlət başçıları ilə görüşdüm. Biz həmin məsələni bu görüşlərdə də qaldırdıq. Mən dövlət başçılarına bildirdim ki, belə bir qətnamə var və onun qəbul edilməsinə maneələr ola bilər. Onların qarşısını almaq lazımdır. Biz bu işləri də gördük.

Nəhayət, toplantı öz işinə başladıqda, bizdə belə bir inam yarandı ki, qətnaməmiz qəbul ediləcəkdir. Amma toplantı qurtaranadək yenə də intizarda idik. Şükürlər olsun ki, gördüyümüz işlər hədər getmədi, öz nəticələrini verdi və İKT-nin VII Zirvə toplantısı Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar çox ciddi, müfəssəl bir qətnamə qəbul etdi. Bu qətnamədə Ermənistanın təcavüzü hərtərəfli əks etdirilib və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxması, qaçqınların öz ev-eşiklərinə qayıtması məsələsi qoyulub. Ermənistanla danışıqlarda çətin problemlərdən biri - Şuşa və Laçın rayonlarının azad edilməsi problemi də orada konkret surətdə göstərilib. Ona görə də Budapeştdə yüksək səviyyədə görüşdən qısa bir müddət, 10-15 gün keçdikdən sonra ikinci belə yüksək səviyyəli toplantıda - İKT-nin VII Zirvə toplantısında bu qətnamənin qəbul olunması bizim üçün, şübhəsiz, böyük hadisədir, hesab edirəm ki, tarixi hadisədir və bunun böyük əhəmiyyəti olacaqdır.

İkinci qətnamə - indiki vəziyyətlə, yenə də Ermənistanın təcavüzü ilə, bir milyon nəfərdən artıq qaçqının olması ilə əlaqədar islam dövlətlərinin Azərbaycana yardım göstərməsi haqqında qətnamə də bizim üçün çox əhəmiyyətlidir. Belə düşünürəm ki, bu dövlətlər həmin qətnaməyə əməl edərək bizə kömək göstərəcəklər. Kimin nə qədər kömək edəcəyini demək çətindir, hər halda bunun mənəvi cəhəti maddi cəhətindən daha üstündür. Deməli, bu dövlətlər Azərbaycanın ağır vəziyyətə düşdüyünü dərk edir və bunu nümayiş etdirir, eyni zamanda kömək göstərməyə hazır olduqlarını bildirirlər.

VII Zirvə toplantısının böyük yekun qətnaməsi, qərarı da oldu. Bu qərarda da bir çox məsələlər, yəni müzakirə olunmuş əsas məsələlər öz əksini tapdı. Bununla bərabər, Azərbaycana aid məsələ, Dağlıq Qarabağ, yəni Ermənistanın Azərbaycana təcavüzü məsələsi də yekun sənədində öz əksini tapdı. Ona görə də biz bu toplantıda gözlədiyimiz sənədlərin qəbul edilməsinə nail olduq. Bu, böyük nailiyyətdir. Mən bundan çox məmnunam.

Bu toplantının bizim üçün əhəmiyyəti bir də ondan ibarətdir ki, 52 ölkənin dövlət başçılarının toplaşdığı böyük bir məclisdə mən öz çıxışımda Azərbaycanın vəziyyətini şərh etdim, Ermənistanın təcavüzündən, İKT-də Azərbaycanın yerindən, ölkəmizin

islam dünyasına münasibətindən, islam dövlətləri ilə əlaqələrindən, Ermənistanın təcavüzü ilə bağlı olaraq respublikamızın düşdüyü vəziyyətdən və eyni zamanda bizim konkret təkliflərimizdən danışdım. Onu da qeyd etmək istəyirəm ki, respublikamız artıq dünya miqyasında tanınmışdır, özünə layiq yerini tutmaqdadır və Budapeşt görüşündə olduğu kimi, Kasablanka Zirvə toplantısında da Azərbaycana lazımi hörmət və ehtiramı daim hiss etdik. Eləcə də bu toplantının birinci hissəsində mənə söz verilməsi və çıxışımın böyük diqqətlə dinlənilməsi, bir çox dövlət başçılarının bu çıxış barədə müsbət rəyi, çıxışımın doğurduğu əks-səda onu göstərir ki, artıq Azərbaycan Respublikası özünə layiq olan yeri tutubdur.

Biz İKT-nin bu toplantısında Azərbaycanı təşkilatın üzvü olan dövlətlərə bir daha tanıtdıq. Etiraf etməliyəm ki, bu dövlətlərin başçılarının, yaxud nümayəndə heyətləri rəhbərlərinin bəzilərinin çıxışlarında dünyadakı bir çox münaqişələrdən danışarkən Ermənistanın Azərbaycana təcavüzündən, təəssüflər olsun, söhbət getmirdi. Bu da ondan irəli gəlirdi ki, görünür, indiyədək həmin dövlətlərlə lazımi işlər aparılmayıb, o dövlətlərin başçıları vəziyyətin nə qədər dərin olduğunu dərk etməyiblər. Ona görə də bu toplantıda həm gördüyümüz iş, həm mənim çıxışım, həm qətnamələr, həm də dövlət başçıları ilə ikitərəfli görüşlərimiz, toplantının fasilələrində keçirdiyimiz görüşlər və apardığımız söhbətlər Azərbaycanı islam dövlətlərinin, demək olar, hamısına tanıtdı.

Hətta deyə bilərəm ki, Hind okeanında, Hindistana yaxın bir ərazidə yerləşən Maldiv dövlətinin nümayəndələri çox təkidlə müraciət etdilər ki, onun Prezidenti bizimlə görüşsün. Mən fasilədə vaxt tapıb onunla görüşüb söhbət etdim. Maldiv adaları kiçik, lakin müstəqil bir dövlətdir. Onun başçısı orada 16 ildir Prezidentlik edir və Azərbaycanın vəziyyətinə çox yaxşı bələddir. Mən çox məmnun oldum ki, o, həm Azərbaycanın tarixi keçmişini, həm bu gününü, həm düşdüyü vəziyyəti, həm də Ermənistanın təcavüzünü bilir, elə məni də keçmiş vaxtlardan tanıdığını qeyd etdi.

Demək istəyirəm ki, belələri də var. Bununla yanaşı, elələri də var ki, onlar məsələdən xəbərdardır, amma vəziyyətin bu qədər kəskin olduğunu dərk edə bilmədiklərinə görə öz çıxışlarında bunu qeyd edə bilmədilər. Lakin Azərbaycanın vəziyyətindən hali olan böyük dövlətlərin başçıları öz çıxışlarında Ermənistanın Azərbaycana təcavüzü haqqında sözlərini dedilər və bu təcavüzü pislədilər.

Bu toplantının bizim üçün əhəmiyyəti bir də ondan ibarətdir ki, biz Azərbaycanı bu dövlətlərə daha yaxından tanıtdıq, onlara ölkəmizin vəziyyəti barədə məlumat verdik və onlarla əlaqələr də yaratdıq.

Zirvə toplantısı zamanı mənim bir çox dövlət başçıları ilə ikitərəfli görüşlərim oldu. Yəqin ki, siz bunları müşahidə etdiniz. Bir neçə görüşümüz də toplantının gedişində oldu. Lakin siz içəridə olmadığınıza görə onları əks etdirə bilmədiniz. Onların hamısı çox səmərəli oldu. Məsələn, bizdən çox uzaqda yerləşən Bruney dövlətinin Sultanı ilə görüşü, yaxud Malayziyanın Baş Naziri ilə görüşü qeyd edə bilərəm. Dediyim kimi, onlar bizdən uzaqda yerləşirlər. Bəlkə də bizdə bu ölkələri o qədər də yaxından tanımırlar. Mən Malayziyanın Baş Naziri ilə görüşərkən soruşdum ki, o, Azərbaycanı necə tanıyır. Dedi ki, biz Azərbaycanı Qərb mətbuatında dərc edilən bəzi məqalələrdən tanıyırıq. Halbuki Malayziya Asiyada böyük və əhəmiyyətli dövlətlərdən biridir, müsəlman ölkəsidir, biz onunla iqtisadi əlaqələr yaratmalıyıq. Amma görürsünüzmü, orada Azərbaycanı hələ yaxşı tanımırlar.

İndi burada mən bütün görüşlərimi birbir sadalayıb, vaxt almaq istəmirəm. Qısaca onu deyə bilərəm ki, görüşlərim lap çox oldu, orada çox gərgin işlədik. Keçirdiyimiz görüşlər həm ikitərəfli əlaqələr yaratdı, həm də o ölkələrdə Azərbaycana maraq oyatdı. Bu görüşlərdə mən bir çox dövlət başçılarını Azərbaycana dəvət etdim. Onlar da məni öz ölkələrinə dəvət etdilər. Şübhəsiz ki, biz gələcəkdə bu dəvətlərdən istifadə edəcəyik və onlarla Azərbaycanın beynəlxalq əlaqələrini bütün sahələrdə genişləndirəcəyik. Ona görə də mən bu fikirdəyəm ki, Kasablanka Zirvə toplantısında Azərbaycanın iştirakı bizim üçün olduqca əhəmiyyətlidir.

Mərakeş kralı əlahəzrət II Həsən Azərbaycana çox böyük maraq göstərir. Toplantı qurtardıqdan sonra mənim onunla görüşüm və söhbətim oldu. O, məni Ramazan ayı çıxandan sonra Mərakeşə rəsmi səfərə dəvət etdi. Mən də onu Azərbaycana dəvət etdim. Danışığımızdan bu qənaətə gəldik ki, ölkələrimiz arasında əlaqələr qurmağa imkan var və biz onları qurmalıyıq.

Ümumiyyətlə, belə düşünürəm ki, Azərbaycan islam ölkələrinin imkanlarından daha səmərəli istifadə etməlidir. Biz artıq bir çox ölkələrlə əlaqələr yaratmışıq və mən həmin dövlətlərin başçıları ilə Kasablankada təkrarən görüşdüm. Lakin bir sıra dövlətlərlə əlaqələrimiz yoxdur və biz onlarla da əlaqələr quracağıq.

Mən bu səfərimizi çox uğurlu hesab edirəm. İndi vəzifəmiz ondan ibarət olacaq ki, bu qətnamələrdən istifadə edək, Azərbaycanın mövqelərini dünya miqyasında möhkəmləndirək." (Müstəqilliyimiz əbədidir, Bakı, 1997-ci il, 3-cü kitab, səh.33-41).

Beləliklə də Azərbaycan Prezidentinin rəhbərliyi altında yenicə başa çatmış Büdapeşt toplantısından sonra İKT-nin VII Zirvə toplantısında yenidən böyük uğurlar qazanıldı, Ermənistanın təcavüzkar kimi tanınması barədə böyük addımlar atıldı və müvafiq qətnamələr qəbul olundu.

Bütün bunlar Azərbaycanın mövqelərinin üzv dövlətlər tərəfindən dəstəklənməsi üçün ölkəmizin imkanlarını daha da artırdı, hələ 1994-cü ildə İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına Ermənistan-Azərbaycan münaqişəsi məsələsi də salındı.

Azərbayjan Prezidentinin bu səfəri, orada keçirdiyi görüşlər, apardığı danışıqlar, qazandığı uğurlar öz müsbət nəticələrini verməyə başladı. Bu səfərdən sonra İKT ilə əlaqələrimizdə uğurlar, nailiyyətlər dövrü başlandı.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş VII Zirvə toplantısı və XXII konfransı, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII konfransı, 1996-cı ilin dekabr ayında Cakartada keçirilmiş XXIV konfransı İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəsini müzakirə edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin şəkildə pislədi. Bütün bu konfranslarda qəbul edilən sənədlərdə də erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyulmuşdu.

Dövlətimizin başçısı İKT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müva-

fiq tədbirlər keçirilməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət vermişdir.

1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi.

Bü konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Azərbaycan Prezidenti bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli, mötəbər konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir.

İştirakçılara müraciətlə Prezident demişdir:

"Azərbaycan gənc, müstəiqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi beş il bundan öncə əldə olunubdur. Xalqımız, ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra öz müstəqil yolu ilə gedir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra dünya birliyi tərəfindən tanınıbdır, dünyanın əksər ölkələri ilə diplomatik əlaqələri var, dünyanın bütün beynəlxalq təşkilatlarında təmsil olunubdur. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının və bir çox başqa beynəlxalq təşkilatların üzvüdür, Azərbaycan bütün dünya ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurur, eyni zamanda beynəlxalq təşkilatların, o cümlədən regional təşkilatların işində iştirak edir. Bu baxımdan Azərbaycanın İslam Konfransı Təşkilatının üzvü olması da ölkəmiz üçün çox böyük əhəmiyyətə malikdir...

Bütün beynəlxalq təşkilatlarda, onların toplantılarında, xüsusən Zirvə görüşlərində Azərbaycan daim iştirak edərək, eyni zamanda həm ölkəmizin həyatında baş vermiş dəyişikliklərlə əlaqədar, həm də dünyada gedən proseslərə münasibəti ilə əlaqədar öz fikirlərini, mövqeyini həmişə açıq bildirir. 1994-cü ildə Azərbaycan nümayəndə heyəti Mərakeşdə - Kasablankada İslam Konfransı Təşkilatının Zirvə görüşündə, dövlət başçılarının görüşündə iştirak etmişdir. Mənə həmin konfransda iştirak etmək və nitq söyləmək nəsib olmuşdur. Bu konfransda iştirak etməyimizdən və orada keçirdiyim görüşlərdən çox məmnun olduğumu bildirmək istəyirəm. Həmin konfransın işi nəticəsində Azərbaycanın İslam ölkələri ilə daha sıx əməkdaşlıq etməsi üçün, şübhəsiz ki, yaxşı imkanlar yaranıbdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkənin həyatının bütün sahələrində ciddi dəyişikliklər həyata keçirir. Bildirdiyim kimi, Azərbaycan demokratiya yolu ilə gedir, demokratik proseslər həyata keçirir, ölkəmizdə, hüquqi dövlət gündəngünə formalaşır, inkişaf edir, iqtisadiyyat sərbəstləşdirilir. İqtisadiyyatın bazar prinsipləri əsasında qurulması üçün bir çox işlər görülüb və bundan sonra da görülməsi nəzərdə tutulur.

Bildiyiniz kimi, on illərlə Azərbaycanın iqtisadiyyatı sosialist iqtisadi sistemi prinsipləri əsasında qurulmuş, dövlət mülkiyyəti hakim olmuşdur. İndi biz iqtisadi islahatlar apararaq Azərbaycanı bazar iqtisadiyyatı yoluna keçiririk. İqtisadi islahatlar Azərbaycanda mülkiyyət formalarının dəyişdirilməsini təmin edir. Bundan ötrü Azərbaycan iqtisadi nöqteyi-nəzərdən və ümumiyyətlə bütün ölkələr üçün açıqdır və onlarla sərbəst iqtisadi əlaqələr qurur, bunu daha da genişləndirmək istəyir. İqtisadi islahatların keçirilməsi hazırda iqtisadiyyatımızın əsas yoludur. Bu baxımdan biz mülkiyyətin özəlləşdirilməsi haqqında geniş proqram qəbul etmişik və onu ardıcıl surətdə həyata keçiririk. Kənd təsərrüfatında, yəni aqrar sektorda islahatlar aparmaq üçün xüsusi qanunlar qəbul olunubdur. Onlardan "Torpaq islahatı haqqında" qanun torpağın xüsusi mülkiyyətə verilməsini nəzərdə tutur. Bunların hamısının əsasında Azərbaycan iqtisadiyyatında ciddi dəyişikliklər aparılır.

Biz iqtisadi islahatlar apararkən sahibkarlığın inkişaf etməsinə, təşəbbüskarlığa geniş yer verilməsinə xüsusi əhəmiyyət veririk. Bunun üçün lazımi tədbirlər görür, sahibkarları həvəsləndirməyə çalışır, onların işləməsi üçün qanun çərçivəsində bütün şəraitin yaradılmasını təmin edirik.

Bu baxımdan biz ölkəmizə xarici sərmayənin gəlməsinə xüsusi fikir veririk. Xarici şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsinə şərait yaradırıq. Respublikamızda özəl sektorun inkişaf etməsi, xarici sərmayənin Azərbaycana gəlməsi, ölkənin iqtisadi imkanlarından, təbii sərvətlərindən, iqtisadi potensialından istifadə edərək müştərək iş görülməsi iqtisadiyyat sahəsində apardığımız siyasətin əsas qollarından biridir. İqtisadi islahatlar aparmaq, özəlləşdirməni həyata keçirmək üçün biz lazımi qanunlar qəbul etmişik, yəni iqtisadi dəyişiklikləri aparmaqdan ötrü lazımi normativ-hüquqi baza yaratmışıq. Qəbul olunmuş və bundan sonra qəbul ediləcək qanunlar Azərbaycanın sərbəst iqtisadiyyat yolu ilə getməsi üçün tam imkanlar yaradır və eyni zamanda xarici sərmayənin ölkəmizə gəlməsi, xarici şirkətlərin burada sərbəst fəaliyyət göstərməsi üçün də bütün imkanları yaradır.

Biz artıq bu sahədə bir çox işlər görmüşük. Dünən, sentyabrın 20-də Azərbaycanın dünyanın böyük neft şirkətləri ilə imzaladığı neft müqaviləsinin ikinci ili tamam oldu. Bildiyiniz kimi, bu müqvilə dünyada "Əsrin müqaviləsi" adı alıbdır. Bu müqavilə əsasında Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft yataqlarının dünyanın 11 böyük neft şirkəti ilə müştərək işlənməsi nəzərdə tutulur. Müqavilədə iştirak edən konsorsium üzvlərinin əksəriyyəti Qərb ölkələrinin neft şirkətləridir. Ancaq onların arasında Səudiyyə Ərəbistanının "Delta" şirkəti, Türkiyənin "Türk Petrolları" şirkəti də var. Yəni biz həm Qərb ölkələri, həm də Şərq ölkələri ilə bu sahədə əməkdaşlıq edirik.

Həmin müqavilədən sonra biz Xəzər dənizindəki neft yataqlarından istifadə olunması üçün iki müqavilə də imzalamışıq. Bu müqavilələrdə də həm Rusiya, həm Qərb şirkətləri var. Eyni zamanda bunların birində İran İslam Respublikasının neft şirkəti də iştirak edir. Neft və qaz yataqlarından istifadə olunması sahəsində dünyanın neft şirkətləri ilə danışıqlar aparırıq, bununla əlaqədar qarşıda planlarımız var. Yəqin ki, yeni müqavilələr də imzalanacaqdır. Bunlar hamısı Azərbaycanın iqtisadi cəhətdən açıq ölkə olmasını nümayiş etdirir, eyni zamanda ölkəmizə böyük sərmayə gətirir və burada müştərək işlər görülməsi üçün geniş imkanlar olduğunu göstərir.

Ancaq Azərbaycanın iqtisadi imkanları təkcə neft-qaz yataqlarından ibarət deyildir. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, təbiəti və yeraltı sərvətləri, böyük sənaye,

intellektual potensialı ölkəmizin iqtisadi cəhətdən inkişaf etməsi üçün çox yaxşı əsas yaradıbdır. Eyni zamanda dünyanın, o cümlədən İslam ölkələrinin iş adamları ilə səmərəli əməkdaşlıq etmək üçün yaxşı imkanlar yaradıbdır.

Bütün bu işlər, tədbirlər nəticəsində dünyanın inkişaf etmiş ölkələri ilə Azərbaycanın əlaqələri genişlənibdir. İndi Azərbaycanda, Bakıda bir çox ölkələrin onlarca şirkətinin nümayəndəliyi var. Məsələn, ən şimalda olan Norveçin Azərbaycanda 45 şirkətinin, yaxud Böyük Britaniyanın təxminən 50 şirkətinin, Amerika Birləşmiş Ştatlarının 50-yədək şirkətinin nümayəndəliyi var. Bunlar hamısı Azərbaycanın dünyanın inkşaf etmiş ölkələrlə və başqa ölkələrilə iqtisadi əlaqələrinin genişlənməsini nümayiş etdirir.

Biz iqtisadiyyatda islahatlar aparmaq, onu dünya iqtisadiyyatı ilə sıx bağlamaq üçün dünyanın böyük maliyyə mərkəzləri ilə də çox səmərəli əməkdaşlıq edirik. Məsələn, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığımızı mən çox müsbət qiymətləndirirəm. Keçən il Böyük Britaniyada, Londonda dünyanın çox məşhur institutu olan Adam Smit İnstitutunun təşəbbüsü ilə "Azərbaycanda investisiya imkanları" mövzusunda geniş konfrans keçirildi. Mən bu konfransda şəxsən iştirak edib Azərbaycan haqqında geniş məlumat verdim. Bu gün çox məmnuniyyətlə deyə bilərəm ki, həmin konfransa onlarca ölkənin, 200-dən artıq şirkətin nümayəndələri gəlmişdilər. Hesab edirəm ki, konfransda görülən işlər və Azərbaycan haqqında verilən məlumat nəticəsində həmin ölkələrin respublikamızla iqtisadi əlaqələri daha sürətlə genişlənir. Keçən ilin dekabrında Fransada, Parisdə Dünya Bankının təşəbbüsü ilə bu maliyyə mərkəzi çərçivəsində Azərbaycana həsr olunmuş daha bir iqtisadi konfrans keçirildi. Orada da dünyanın bir çox ölkələrindən çoxlu şirkətlərin nümayəndələri iştirak edirdilər. Biz həmin konfransda da Azərbaycanın iqtisadi imkanları haqqında geniş məlumat verdik.

Bilirsiniz ki, Azərbaycan qədim neft diyarıdır, dünyada neft ölkəsi kimi məşhurdur. Azərbaycanda keçən əsrin ortalarından neft istehsalı başlayıbdır. Ona görə də neft sahəsində Azərbaycanın əldə etdiyi nailiyyətlər, təcrübə dünyada çox yüksək qiymətləndirilir. Dalbadal üç ildir ki, Azərbaycanda may ayında böyük neft-qaz sərgisi keçirilir. Sonuncu sərgidə 150 şirkət öz eksponatları ilə iştirak edirdi. Bu, dünyanın neft şirkətlərinin Azərbaycana marağını göstərir, eyni zamanda respublikamızla həmin şirkətlər arasında olan əlaqələri daha da inkişaf etdirir.

Ancaq bir də qeyd edirəm, Azərbaycanın iqtisadi imkanları, təkcə neft və qazla bağlı deyildir. Azərbaycanda güclü sənaye, kənd təsərrüfatı potensialı var, inkişaf etmiş kimya, maşınqayırma, metallurgiya və başqa sənaye sahələri var və biz bütün bu sahələrdə də geniş əməkdaşlıq edə bilərik. Azərbaycanın zəngin təbiəti, münbit torpaqları, kənd təsərrüfatı məhsulları istehsalı sahəsində də geniş imkanlar yaradır. Bu sahədə indiyə qədər böyük nailiyyətlərimiz var. Amma "Torpaq islahatı haqqında" qanun qəbul olunandan və torpaq xüsusi mülkiyyətə veriləndən sonra hesab edirəm, bu imkanlar daha da genişlənəcək və kənd təsərrüfatı məhsullarının istehsalı, emalı da xarici investisiyalar üçün çox əhəmiyyətli olacaqdır.

Bu məlumatları sizə verərək, mən İslam ölkələrinin iş adamlarının, özəl sektorunun Azərbaycana gəlməsini arzulayıram

və sizi ölkəmizə dəvət edirəm. İslam İnkişaf Bankının burada daha geniş fəaliyyət göstərməsini arzu edir, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra da belə olacaqdır.

Azərbaycan tarixi köklərinə, adət-ənənələrinə, dini mənsubiyyətinə görə İslam ölkəsidir və İslam ölkələri ilə həm coğrafi nöqteyi-nəzərdən yaxın olduğuna görə, həm də adət-ənənələrimiz bir-birinə bənzədiyinə görə daha da səmərəli əməkdaşlıq etmək imkanına malikdir. İslam ölkələri dünyanın elə məntəqələrində yerləşiblər ki, onların iqlimi də, torpaqları da, təbiəti də, insanları da, insanların xasiyyəti, adət-ənənələri də bir-birinə bənzərdir, bir-biri ilə bağlıdır. Bunlar hamısı ölkələrimiz arasında daha sıx əlaqələr saxlanmasını tələb edir və bunun üçün şərait yaradır.

Təsadüfi deyil ki, İslam ölkələri İslam Konfransı Təşkilatı yaradıblar. Bu təşkilat çox sahələrdə fəaliyyət göstərir və onun himayəsi altında İslam İnkişaf Bankı var. Şübhəsiz ki, bunlar çox əhəmiyyətli amillərdir və bizim də vəzifəmiz bunlardan səmərəli istifadə etməkdən ibarətdir.

İslam İnkişaf Bankı ilə Azərbaycanın əməkdaşlığı son illərdə, şübhəsiz ki, müəyyən nəticələr verir. Artıq müəyyən layihələr var, onların üzərində işləyib axıra çatdırmaq olar. Dünən axşam cənab Əhməd Məhəmməd Əli ilə görüşümüz, danışığımız zamanı mən bu barədə öz arzumu və xahişlərimi bildirdim. Bildiyimə görə, bu gün səhərdən bu sahədə əməli iş görülübdür və ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin iş davam etdiriləcək, İslam İnkişaf Bankı Azərbaycana daha çox diqqət göstərəcəkdir.

Bir daha qeyd etmək istəyirəm ki, bugünkü konfransın, sizin toplantınızın Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Burada qeyd olunduğu kimi, 17 ölkədən 160 iş adamı, biznesmen konfransda iştirak edir, Azərbaycana gəlibdir. Güman edirəm ki, onlar ölkəmizlə hətta qısa tanışlıqdan sonra, respublikamızın imkanlarını daha da yaxından öyrəndikdən sonra konfransda iştirak edən, yaxud ümumiyyətlə, islam ölkələrində fəaliyyət göstərən, İslam İnkişaf Bankı ilə əlaqə saxlayan özəl sektorla, iş adamları ilə əlaqələrimiz genişlənəcəkdir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndən sonra çox şərəfli, eyni zamanda çox mürəkkəb, ağır yol keçibdir. Bildiyiniz kimi, Azərbaycan səkkiz il bundan öncə Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıbdır. Bu təcavüz nəticəsində cürbəcür səbəblərdən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana çox ağır zərbələr vurulubdur. Azərbaycan ərazisinin 20 faizi zəbt olunub, indiyə qədər Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, müsəlmanlar yerindən, yurdundan didərgin düşüblər və ağır şəraitdə, qaçqın vəziyyətində, çoxları çadırlarda yaşayırlar.

Azərbaycana qarşı olan bu hərbi təcavüzlə yanaşı, keçmiş illərdə ölkənin daxilində də çox mürəkkəb proseslər getmişdir. Ayrı-ayrı qanunsuz silahlı qüvvələr hakimiyyət uğrunda mübarizə aparmış, keçmiş illərdə hakimiyyət silah vasitəsilə devrilmişdir. 1993-cü ildə, Azərbaycanda vətəndaş müharibəsi baş vermiş, ölkə parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Azərbaycanın daxilindəki gərgin proseslər, şübhəsiz ki, həyatımıza, o cümlədən iqtisadiyyatımıza öz mənfi təsirini göstərmişdir.

Ancaq Allaha şükürlər olsun ki, 1993-cü ilin yayından, yəni iyun ayından Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi sahəsində çox əhəmiyyətli işlər görülmüşdür.

Daxili vəziyyəti sabitləşdirmək, qanunqaydanı bərqərar etmək sahəsində görülən işlər öz nəticəsini vermişdir və nəhayət, indi Azərbaycanda ictimai-siyasi vəziyyət, daxili vəziyyət sabitdir, dövlət bütün Azərbaycanı idarə edir və ölkənin bütün bölgələrinə nəzarət edir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində biz böyük itkilər vermişik. Ancaq ondan öncə də Azərbaycana hərbi təcavüz olmuşdur. Azərbaycan xalqının iradəsini boğmaq, qırmaq üçün 1990-cı ilin yanvarında keçmiş Sovetlər İttifaqının rəhbərləri tərəfindən respublikamıza böyük miqdarda silahlı qüvvə yeridilmiş, günahsız adamlar şəhid olmuşdular. Onlar bu gün sizin ziyarət etdiyiniz Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ermənistanın təcavüzü nəticəsində gedən döyüşlərdə, müharibədə Azərbaycanın dəyərli insanları şəhid olmuşlar, onlar da Şəhidlər xiyabanında dəfn ediliblər. Onların hamısı Azərbaycan xalqının müstəqillik, milli azadlıq yolunda, öz ölkəsinin suverenliyi, ərazi bütövlüyü, torpaqlarının müdafiəsi yolunda verdiyi qurbanlardır.

Bütün bu itkilərə, qurbanlara baxmayaraq, Azərbaycan Respublikası sülhsevər dövlət kimi, bölgədə sülhün bərqərar olmasını, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin sülh yolu ilə həll edilməsini istəyir. Ona görə də iki il bundan öncə, 1994-cü ilin mayında Ermənistan ilə Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş imzalanıbdır və biz ona indiyə qədər riayət edirik. İki ildən artıqdır ki, döyüşlər yoxdur, qan tökülmür, insanlar həlak olmur. Ancaq hələ ki, böyük sülh də yoxdur, qeyd etdiyim kimi, torpaqlarımız Ermənistanın silahlı qüvvələrinin işğalı altındadır.

Azərbaycanla həmrəy olduğunuza görə mən sizə təşəkkür edirəm. Ermənistanın Azərbaycana etdiyi təcavüzlə əlaqədar cənab Əhməd Məhəmməd Əlinin bu gün söylədiyi fikirlərə görə təşəkkür edirəm. Siz Ermənistanın təcavüzkar olduğunu bəyan etdiyinizə görə təşəkkür edirəm. Kasablankada İslam Konfransı Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qətnamə qəbul olunmuş və Ermənistan bir təcavüzkar kimi pislənmişdir. Bunlara görə İslam Konfransı Təşkilatına təşəkkür edir və əmin olduğumu bildirmək istəyirəm ki, ədalətli mübarizədə bundan sonra da bizimlə həmrəy olacaqsınız.

Bütün bu itkilərə baxmayaraq, qeyd etdiyim kimi, biz məsələni sülh yolu ilə həll etmək, torpaqlarımızın sülh yolu ilə azad olunmasına nail olmaq istəyirik. Bizim bu barədə şərtlərimiz məlumdur. Ermənistan ilə Azərbaycan arasında sülh yaranması üçün Ermənistanın silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxmalıdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımız öz elinə-obasına qayıtmalıdır. Dağlıq Qarabağda yaşayan ermənilərə, - orada Azərbaycan vətəndaşı olan yüz minə qədər erməni yaşayır, - bu çərçivədə Azərbaycan dövlətinin tərkibində yüksək səviyyəli muxtariyyət statusu verilməsi mümkündür.

Respublikamızın bu günü, iqtisadiyyatı, daxili və xarici vəziyyəti haqqında sizə məlumat verərək, eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan müstəqil dövlət kimi inkişaf edir, ölkədə ictimai-siyasi vəziyyət sabitdir, biz dünyanın bütün ölkələri ilə əməkdaşlıq etmək əzmindəyik.

Sizi bir daha əməkdaşlığa dəvət edirəm. Bir daha konfransa işində müvəffəqiyyətlər arzu edir, İslam İnkişaf Bankına gələcək fəaliyyətində uğurlar arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, İslam ölkələrinin iş adamları, İslam İnkişaf Bankı ilə Azərbaycanın əlaqələri bundan sonra sürətlə inkişaf edəcəkdir. Sağ olun."

***

İKT ilə əlaqələrimizi nəzərdən keçirərkən onu da qeyd eləmək lazımdır ki, 1996-cı ilin 9-13 dekabr tarixlərində İKT xarici işlər nazirlərinin Cakartada keçirilmiş XXIV Konfransında ilk dəfə olaraq, İKT-nin Ermənistan-Azərbaycan münaqişəsinə dair 1993-cü ildən qəbul etdiyi qətnamələrin adı dəyişdirilərək, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamə adlandırılmışdır.

XXIV Cakarta konfransında qəbul edilmiş "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü" haqqında qətnamənin 16-cı maddəsinə əsasən, İKT-nin Ermənistanın təcavüzünə dair mövqeyi barəsində Baş katibin məktubunun hazırlanması ilə əlaqədar, Azərbaycan tərəfi Baş Katibk ilə müvafiq məşvərətlər keçirmişdir.

İKT xarici işlər nazirlərinin XXIV Konfransı Ermənistan təcavüzü ilə əlaqədar siyasi və iqtisadi qətnamələr qəbul etməklə yanaşı, özünün yekun bəyanatında ATƏT-in Dövlət və Hökumət Başçılarının Lissabon Zirvə görüşünün sənədlərinə daxil edilmiş ATƏT-in İcraçı sədrinin Dağlıq Qarabağ probleminin həlli üzrə 3 dekabr 1996-cı il tarixli bəyanatını dəstəklədiyini bildirmişdir.

XXIV Konfrans Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması, qaçqınların öz yurdlarına qayıtması, Şuşa və Laçın rayonlarının azad edilməsi və s. problemləri əks etdirən siyasi və Ermənistanın təcavüzü nəticəsində bir milyondan artıq qaçqının olması ilə əlaqədar, islam dövlətlərinin Azərbaycana təcili humanitar və iqtisadi yardım göstərməsi haqqında iqtisadi qətnamələr qəbul etmişdir. 1997-ci ildə İKT-nin fəaliyyəti tarixində çox nadir və müstəsna bir hadisə baş vermişdir - bu il ərzində həm İKT Dövlət və Hökumət Başçılarının növbədənkənar Zirvə konfransı, həm də Dövlət və Hökumət Başçılarının növbəti VIII Konfransı keçirilmişdir. Göstərilən tədbirlərdə Respublikamızın ən yüksək səviyyələrdə təmsil edilməsi islam aləmində rəğbətlə qarşılanmışdır.

1997-ci ilin mart ayının 23-də Pakistanın paytaxtı İslamabadda ölkənin müstəqilliyinin 50-ci ildönümünə həsr edilmiş İKT Dövlət və Hökumət Başçılarının növbədənkənar Zirvə konfransı keçirilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələskərovun başçılıq etdiyi nümayəndə heyəti bu toplantıda iştirak etmişdir. Bu konfransın qəbul etdiyi İslamabad bəyannaməsində, Azərbaycan tərəfinin təklifləri də öz əksini tapmışdır.

Bəyannamənin əsas mətninə əlavə olunmuş 10-cu bənd bütövlüklə Azərbaycana aiddir. Orada "Azərbaycana qarşı edilmiş təcavüz ciddi şəkildə pislənilir. Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə çağırılır".

Bütövlüklə əlavə edilmiş 12-ci bənddə isə "Üzv dövlətlərin hər birinin milli suverenliyini, təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaq hüququ" olduğu qeyd edilir.

17-ci bənddə isə ölkəmizin nümayəndəsinin təklifi ilə "hərbi münaqişələr nəticəsində qaçqın və köçkünə çevrilmiş" düzəlişi əlavə edilmişdir.

Ermənistanın ən müasir zirehli döyüş texnikası ilə silahlanması haqqında Azərbaycan Xarici İşlər Nazirliyinin və Rusiya İnformasiya Agentliyinin bəyanatlarının, Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisində yaydığı təftişdənkənar silah və döyüş sursatı haqqında məlumatın, Azərbaycan Milli Məclisinin 14 mart 1997-ci il tarixində Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinə müraciətinin İKT-nin rəsmi sənədi kimi üzv dövlətlər arasında yayılması və daha sonra bu haqda İKT-nin bəyanat verməsi haqqındakı Azərbaycan tərəfinin müraciətləri İKT Baş Katibyi tərəfindən müsbət qarşılanmışdır.

Azərbaycanın Dağlıq Qarabaq bölgəsindəki üzdəniraq "Prezident seçkiləri" ilə əlaqədar, Respublikamızın Milli Məclisini və Dağlıq Qarabağın azərbaycanlı əhalisi tərəfindən verilən bəyanatlar İKT Baş Katibyinə təqdim edilmişdir.

İKT Baş Katibyinin verdiyi 15 sentyabr 1997-ci il tarixli mətbuat bəyanatında bu addım "beynəlxalq hüquq prinsiplərinə zidd bir provokasiya aktı" kimi qiymətləndirilmişdir.

Dövlətimizin başçısı İKT və onun müxtəlif ölkələrdə yerləşən mərkəzləri ilə ölkəmiz arasında əlaqələr yaradılmasını, ədəbiyyat, mədəniyyət və sənət əsərlərimizin islam dünyasında da öyrənilməsini və yayılmasını həmişə mühüm saymış, bunun üçün bütün tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar vermişdir. 8 may 1997-ci ildə İstanbulda olarkən Respublikamız burada yerləşən İKT tarix, kültür və mədəniyyət mərkəzini də ziyarət etmiş, çıxış edərək göstərmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqlarımızın və islamın tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər.

Prezident qeyd etmişdir ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığı və xalqımızın qədim tarixə malik mədəniyyəti ümumtürk və islam tarixində özünəməxsus yer tutur. Türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapmalıdır.

Dövlətimizin başçısı bildirmişdir ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. Yola salmağa hazırlaşdığımız XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş uğurlar isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin "Leyli və Məcnun" poemaları əsasında 1908-ci ildə "Leyli və Məcnun" operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə "Leyli və Məcnun" simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir modern sənət səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə, bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir.

Sözünün sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, bununla bağlı olaraq

İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmaq vacibdir.

4 oktyabr 1997-ci il tarixində BMT Baş Məclisinin 52-ci Sessiyası çərçivəsində BMT iqamətgahında keçirilmiş İKT xarici işlər nazirlərinin Koordinasiya toplantısının yekun bəyanatında islam dünyasının digər problemləri ilə yanaşı Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü də öz əksini tapmışdır.

Toplantı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü pisləmiş və erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb etmiş, ərazilərin güc tətbiq etməklə işğalının yolverilməzliyini bir daha təsdiq etmişdir. Münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırmışdır.

9-11 dekabr 1997-ci il tarixlərində İKT-nin növbəti VIII Zirvə toplantısı İranın paytaxtı Tehranda çağırılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəmizin nümayəndə heyətinin başında bu toplantıda iştirak etmişdir.

Tehrana yola düşməzdən əvvəl səfərin hədəf və məqsədlərindən danışan dövlət başçımız ölkəmizin İKT-nin üzvü olduğunu və təşkilatın Zirvə görüşündə Azərbaycanın dövlət başçısının da iştirak etməsinin zəruriliyini, 1994-cü ildə Mərakeşdə - Kasablankada İKT-nin Zirvə görüşündə bir çox məsələlərin müzakirə edildiyini, təşkilatın Ermənistanın Azərbaycana təcavüzünü pisləyən qətnamələr qəbul etdiyini, keçən il Cakartada İslam Konfransı Təşkilatı ölkələrinin xarici işlər nazirlərinin görüşündə qəbul edilmiş sənədlərdə də Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərin öz əksini tapdığını bildirmiş, ölkəmizin islam aləminin bir hissəsi kimi bu Zirvə görüşünün işində iştirak etmək və öz fikirlərini, təkliflərini bildirmək, islam ölkələrinin həmrəyliyi üçün səylərimizi artırmaq məqsədi ilə Tehrana getdiyini bəyan etmişdir.

Dekabrın 9-da Zirvə görüşünün açılışı oldu. Toplantını təbrik sözü ilə İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Xamneyi açdı. O, 53 müsəlman ölkəsindən və beynəlxalq təşkilatlardan gəlmiş nümayəndələri bu mühüm görüş münasibətilə təbrik edərək onlara uğurlar arzuladı. Beləliklə konfrans öz işinə başladı. Konfransa İran Prezidenti Məhəmməd Xatəmi sədrlik etdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu Zirvə görüşündə çıxış etmişdir.

Prezident Heydər Əliyev öz çıxışında islam ölkələrinin Dövlət və Hökumət Başçılarını fəal əməkdaşlıq etməyə çağırmış, bir sıra ölkələrin qarşılaşdığı problemlərin həlli sahəsində İKT-nin başlıca vəzifələrindən söhbət açmış, Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmizə vurduğu yaralardan ətraflı bəhs edərək İKT-nin rəhbərliyini və üzv ölkələrin Dövlət və Hökumət Başçılarını Azərbaycanın haqq işinə dəstək verməyə çağırmış və ümidvar olduğunu bildirmişdir ki, Tehran Zirvə görüşü Ermənistanın Azərbaycana qarşı təcavüzü barəsində tutarlı qərarlar qəbul edəcək və bir milyon Azərbaycanlı qaçqın müsəlmanlara fəal yardım proqramları təklif edəcəkdir. Dövlətimizin rəhbəri İKT üzvü olan ölkələr arasında əməkdaşlığı genişləndirməyin lazımlılığını qeyd etmiş, müstəqil Azərbaycanın demokratik dövlət

quruculuğu yolu ilə irəlilədiyini bildirmiş, toplantı iştirakçılarının diqqətini Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünə bir daha cəlb etmişdir.

Azərbaycan Prezidenti bəyan etmişdir ki, Azərbaycan öz istiqlaliyyətini bərpa etdikdən sonra 1991-ci ildən İslam Konfransı Təşkilatının üzvüdür və onun çoxtərəfli fəaliyyətində yaxından iştirak edir. Ölkəmiz İslam Konfransı Təşkilatının müsəlman aləmində və beynəlxalq sahədə apardığı işlərə böyük əhəmiyyət verir. Müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmləndirmək, xalqlarımızın əmin-amanlığını təmin etmək, onların rifahını yüksəltmək, dinimizi, ənənələrimizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi qoruyub inkişaf etdirmək İslam Konfransı Təşkilatının ən ümdə vəzifəsidir. Bu müqəddəs amalları həyata keçirmək üçün biz daim çalışmalıyıq. Dövlətimizin başçısı hamını daha da fəal əməkdaşlıq etməyə dəvət etmiş, göstərmişdir ki, müsəlman xalqları və ölkələri dünyada gedən mürəkkəb proseslərlə üzləşirlər. Bir tərəfdən elm və texnika güclü surətdə inkişaf edir, yeni ixtiralar, texnologiyalar yer kürəsinin simasını dəyişdirir. O biri tərəfdən bir çox xalqlar aclıqdan, yoxsulluqdan, cəhalətdən əzab çəkirlər. Ona görə, biz tərəqqi ilə ayaqlaşmalıyıq, inkişaf etmiş ölkələrin səviyyəsinə qalxmalıyıq. O, bəyan etmişdir ki, son illər ərzində Azərbaycanın müsəlman ölkələri ilə siyasi, iqtisadi, ticarət və mədəni əlaqələri xeyli inkişaf etmişdir. Həm İslam Konfransı Təşkilatı, həm də başqa beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımız məhsuldar və faydalı olmuşdur.

Prezidentimiz bəyan etmişdir ki, islam aləminin qlobal miqyaslı məsələlərinin həllində çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün Azərbaycan Respublikası əlindən gələni etməkdədir.

Dövlət başçımız qeyd etmişdir ki, İslam Konfransı Təşkilatının ərəb-İsrail münaqişəsinin sülh yolu ilə həllinə, Cammu və Kəşmir münaqişəsinin ədalətli nizamlanmasına yönəldilmiş bütün addımlarını və səylərini Azərbaycan ürəkdən dəstəkləyir.

Ölkəmizin rəhbəri öz nitqində açıqlamışdır ki, Ermənistan Respublikasının təcavüzünə məruz qalmış Azərbaycan xalqı, bütün müsəlman xalqları kimi Əfqanıstanda, Somalidə, Bosniya-Herseqovinada, başqa dövlətlərdə mövcud olan vəziyyətdən olduqca narahatdır. Müsəlman xalqlarının təhlükəsizliyini və ölkəmizin ərazi bütövlüyünü təmin etmək, müsəlman azlıqlarının və icmalarının hüquqlarını qorumaq, müsəlman aləminin sabit inkişafını təmin etmək bizim müqəddəs vəzifəmizdir. Böyük nüfuza malik olan İslam Konfransı Təşkilatı səylərimizi birləşdirməyə və əlaqələndirməyə hər cür imkanlar yaratmalıdır. Prezidentimiz əmin olduğunu söyləmişdir ki, bu Zirvə görüşü bunun üçün öz töhfəsini verəcəkdir.

Azərbaycan Prezidenti xatırlatmışdır ki, Sovet İttifaqının süqutundan sonra bir çox müsəlman xalqları istiqlaliyyətə nail olmuş, onların qarşısında yeni imkanlar açılmışdır. Bu gün onlar həm dünyanın başqa ölkələri və xalqları ilə, həm də özləri arasında müstəqil əlaqələr qururlar. Milli maraqlardan doğan təbii inteqrasiya get-gedə güclənir və böyük regionları çiçəklənən iqtisadi əməkdaşlıq məkanına çevirmək üçün gözəl zəmin yaradır.

Ölkəmizin başçısı bəyan etmişdir ki, Azərbaycan Respublikası öz müstəqil demokratik dövlətinin quruculuğu yolunda inamla irəliləyir. Əldə etdiyimiz uğurlar göz qabağındadır. Bununla belə, inkişafımıza mane olan, dövlətimizə təhlükə törədən,

hamınıza məlum bir problemimiz də vardır. Bu problem Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü, torpaqlarımızın 20 faizini işğal etməsi və bu təcavüzün nəticəsində bir milyondan çox vətəndaşlarımızın yurdlarından didərgin düşməsi, qaçqın və köçkün olmasıdır.

Dövlət başçımız bildirmişdir ki, İslam Konfransı Təşkilatının bu təcavüzü pisləyən qərarlarını, Azərbaycana dəstək verməsini Azərbaycan xalqı yüksək qiymətləndirir, İslam Konfransı Təşkilatının 1994-cü il Mərakeş Zirvə görüşünün və 1996-cı ildə Cakartada keçirilmiş konfransının qərarlarına böyük əhəmiyyət verir. Xüsusilə ATƏT-in Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair qəbul olunmuş prinsiplərə bu konfransın dəstək verməsinə görə İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin hamısına ölkəmiz və xalqımız təşəkkür edir.

Azərbaycan Prezidenti vurğulamışdır ki, Azərbaycan xalqının müsəlman dövlətlərinin həmrəyliyinə, mənəvi və maddi köməyinə böyük ehtiyacı vardır. İşğalçı Ermənistan öz diasporlarının köməyi ilə həm Amerikadan, həm Avropadan, ələlxüsus Rusiyadan mənəvi, siyasi, iqtisadi, hərbi dəstək alır. 1993-1996-cı illərdə Rusiya Ermənistana qeyri-qanuni, gizli yolla bir milyard dollar dəyərində silah, sursat və hərbi texnika göndəribdir. Bundan əlavə bu, il avqust ayının 29-da Rusiya ilə Ermənistan arasında güclü hərbi əməkdaşlıq bəndləri olan müqavilə bağlanmışdır.

Beləliklə, təcavüzkar Ermənistan dövləti hərbi cəhətdən güclənərək nəinki Azərbaycan üçün, regionumuzun bütün dövlətləri üçün ciddi bir təhlükə yarada bilər.

Ölkəmizin başçısı bəyan etmişdir ki, Azərbaycan Respublikası Ermənistanla münaqişəni sülh yolu ilə həll etməyi qarşısına məqsəd qoyubdur. 1994-cü ilin may ayında müharibəni dayandırmağa və atəşkəs əldə etməyə nail olunmuşdur. ATƏT-in Minsk qrupu çərçivəsində sülh danışıqları aparılır. 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşündə münaqişənin ədalətli həlli prinsipləri 53 dövlət tərəfindən təsdiqini tapmışdır. Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaranıbdır.

Dövlətimizin rəhbəri göstərmişdir ki, ATƏT-in Minsk konfransının həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bu il ərzində gərgin iş aparmış, münaqişəni iki mərhələdə həll etmək barədə yeni təkliflər hazırlayıb tərəflərə təqdim etmişlər: birinci mərhələdə Dağlıq Qarabağın ətrafında Azərbaycanın işğal olunmuş altı rayonunu azad etmək, müharibə nəticəsində dağıdılmış yolları və nəqliyyat vasitələrini bərpa etmək; ikinci mərhələdə Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın hüquqi statusunu təyin etməklə bərabər Laçın və Şuşa rayonlarını işğaldan azad etmək. Bu təkliflər Azərbaycan tərəfindən qəbul edilmişdir... Prezident H.Əliyev bunu da qeyd etmişdir ki, verilən təkliflər Ermənistanın da milli maraqlarına tamamilə cavab verir. Lakin ermənilərin inadkar, qeyri-konstruktiv mövqelərinə görə hələlik müsbət nəticə əldə olunmamışdır. Buradaca Azərbaycan Prezidenti bir daha bəyan etmişdir ki, biz münaqişəni yalnız sülh yolu ilə həllinin tərəfdarıyıq və buna nail olmaq üçün bundan sonra da çalışacağıq.

Ermənistanın təcavüzü nəticəsində yerlərindən didərgin düşmüş və çadırlarda ağır vəziyyətdə yaşayan bir milyondan artıq Azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə Türkiyəyə, İrana, Səudiy-

yə Ərəbistanına, Pakistana, Misirə, Küveytə, Birləşmiş Ərəb Əmirliklərinə dövlət başçımız öz nitqində dərin minnətdarlığımızı bildirmişdir. Dövlətimiz və xalqımız adından onlara və İslam Konfransı Təşkilatının üzvü olan digər dövlətlərə üz tutaraq xahiş etmişdir ki, bu sahədə köməklərini artırsınlar, müsəlman qardaşlarını bu bəladan qurtarmaqda öz imkanlarını əsirgəməsinlər. Göstərmişdir ki, gün olacaqdır ki, Azərbaycan dövləti bu təcavüzdən xilas olacaq, qısa müddətdə inkişaf edib çiçəklənən dövlətə çevriləcək və özü qardaşlarına kömək etmək iqtidarında olacaqdır.

Ölkəmizin rəhbəri yüksək kürsüdən İslam Konfransı Təşkilatının rəhbərliyinə və toplantıda iştirak edən bütün Dövlət və Hökumət Başçılarına üz tutaraq, Azərbaycanın haqq işinə verdikləri dəstəyə görə minnətdarlıq ifadə etmişdir. Ümidvar olduğunu bildirmişdir ki, Tehran Zirvə görüşü Ermənistanın Azərbaycana qarşı təcavüzü barəsində tutarlı qərarlar qəbul edəcək və bir milyon qaçqın Azərbaycanlı müsəlmanlara fəal yardım proqramını təklif edəcəkdir.

Əmin olduğunu bildirmişdir ki, İslam Konfransı Təşkilatı islam ümmətinin tərəqqisi, xoşbəxt gələcəyi, məzlum xalqların rifahı yolunda bütün imkanlarından istifadə edəcəkdir. Bu müqəddəs məqsədlərə nail olmaq üçün Allah-Təalanın köməyi ilə Azərbaycan Respublikası da öz töhfələrini verəcəkdir.

***

Dövlətimizin rəhbərinin dərin zəkası, diplomatik məharəti Tehran Zirvə görüşünün elə birinci iş günündən öz səmərəli nəticələrini vermişdir. İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi, Suriya Prezidenti Hafiz Əsəd, İKT-nin Baş katibi İzzəddin Laraki, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Pakistanın Baş Naziri Nəvaz Şərif, Mərakeşin Kralı II Həsən, Banqladeşin Baş Naziri Şeyx Hasina və başqa dövlət və hökümət başçıları Ermənistanın təcavüzünü qətiyyətlə pisləmiş, öz çıxışlarında Azərbaycanın haqq işini müdafiə etdiklərini bildirmişlər. İKT-nin Baş katibi İzzəddin Laraki işğal olunmuş Azərbaycan torpaqlarından Ermənistan silahlı qüvvələrinin mütləq çıxarılmasının zəruri olduğunu vurğulamış, dünya birliyini bu münaqişəyə ərazi bütövlüyü və sərhədlərin pozulmazlığı prinsiplərinə əməl olunmaqla, ədalətlə son qoymaq üçün səyləri gücləndirməyə çağırmışlar.

Azərbaycan Prezidenti Tehranda olduğu ilk gündən ayrı-ayrı ölkələrin Dövlət və Hökumət Başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlərə geniş vaxt ayırmış, xalqımız üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, Ermənistanın təcavüzkarlığının qətiyyətlə pislənilməsi, qaçqınlara humanitar yardımın artırılması məsələlərini hərtərəfli müzakirə etmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İKT-nin Zirvə görüşündə bir çox ölkələrin KİV nümayəndələrinə müsahibələr vermiş, Ümumdünya Ərzaq Təşkilatının Baş direktoru Corc Byuk, İKT-nin Baş katibi İzzəddin Laraki, Fələstin muxtariyyətinin rəhbəri Yasir Ərəfat, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Naziri Rəşid Abdullah ən-Nueymi, Suriya Prezidenti Hafiz Əsəd, İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Xamneyi, İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi, Ərəb Ölkələri Cəmiyyətinin Baş katibi İsmət Əbdül Məcid, Tacikistan Prezidenti İmaməli Rəhmanov, Livan Prezidenti İlyas əl-Həravi, Livanın Baş Naziri Rafiq əl-Həriri, Səudiyyə Ərəbistanının

şahzadəsi Abdullah ibn Əbdül Əziz əl Səud, BMT-nin Baş katibi Kofi Annan, Misir Ərəb Respublikasının Xarici İşlər Naziri Əmir Musa, İndoneziyanın Xarici İşlər Naziri Əli Alatas, Beynəlxalq Ərzaq Təşkilatının (FAO) Prezidenti Cak Düfu, Türkmənistanın Prezidenti Saparmurad Niyazov, Qazaxıstan Respublikasının İrandakı və Səudiyyə Ərəbistanındakı səfirləri Vyaçeslav İzzətov və Baqdat Amreyev, Təbriz şəhərinin valisi Yəhya Məhəmmədzadə və başqaları ilə görüşlər keçirmişdir. Söhbətlər zamanı tərəflər qarşılıqlı əməkdaşlığın genişləndirilməsi ilə bağlı bir çox məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Azərbaycan Prezidenti Heydər Əliyev həmişə olduğu kimi Zirvə toplantısında iştirak edən Dövlət və Hökumət Başçıları ilə keçirdiyi bu silsilə görüşlərdə, Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticələrini onların diqqətinə çatdırmış, ölkəmizdə gedən proseslər haqqında məlumat vermiş, əməkdaşlıq yollarını araşdırmışdır.

***

Ölkəmizin başçısı Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşdə ikitərəfli əlaqələrdən söhbət açmış, onunla perspektivlərimizi müzakirə etmişdir. Tərəflər İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Tehran görüşünün islam dövlətləri arasında əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayacağına, Zirvə toplantısında Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən çox lazımlı sənədlər qəbul ediləcəyinə əmin olduqlarını bildirmişlər.

***

Prezidentimizin Misir Ərəb Respublikasının Xarici İşlər Naziri Əmir Musa ilə görüşündə Azərbaycan-Misir əməkdaşlığının möhkəmləndirilməsinin hər iki tərəf üçün çox faydalı olduğu bir daha vurğulanmış, bu əlaqələrin sıxlaşdırılması sahəsində həlli vacib olan məsələlər barəsində fikir mübadiləsi aparılmışdır.

***

Azərbaycan Respublikasının Prezidentinin İndoneziyanın Xarici İşlər Naziri Əli Alatas ilə görüşündə İKT-nin 7-ci Zirvə görüşündə müzakirə olunacaq məsələlərin əsasən 1996-cı ildə Cakartada keçirilmiş konfransda həll edildiyini bildirən dövlətimizin başçısı, həmin konfransdan çox məmnunluqla söhbət açmış, həmin konfransda Azərbaycanın problemlərinə aid müzakirə edilən məsələlərin 8-ci Zirvə görüşündə qəbul olunacaq sənədlərdə də öz əksini tapacağına əmin olduğunu söyləmişdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, həmsədrlərin irəli sürdüyü yeni təkliflərdən geniş bəhs olunmuş, Azərbaycan-İndoneziya əlaqələrinin durmadan inkişaf etdirilməsi barədə fikir mübadiləsi aparılmışdır.

***

Prezident Heydər Əliyevin Türkmənistan Prezidenti Saparmurad Niyazovla görüşü zamanı, İslam Konfransı Təşkilatının hazırkı Zirvə toplantısının bu təşkilatın üzvləri arasında münasibətlərin daha da yaxşılaşdırılmasında mühüm rol oynayacağına əmin olduqlarını nəzərə çarpdıran Prezidentlər, tarixi dostluq əlaqələrinə malik olan hər iki gənc müstəqil respublikanın nüfuzlu beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini daim müdafiə etməsinin böyük əhəmiyyət daşıdığını vurğulamışlar.

Azərbaycan-Türkmənistan əməkdaşlığının ardıcıl surətdə genişləndirilməsi üçün, həlli vacib olan məsələlər barədə ətraflı müzakirələr aparılmışdır.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Tehranda Beynəlxalq Ərzaq Təşkilatının (FAO) Prezidenti Cak Düfu ilə də görüşmüşdür. Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşdən məmnun qaldığını söyləyən cənab Düfu Beynəlxalq Ərzaq Təşkilatının fəaliyyəti barədə respublikamızın rəhbərinə məlumat vermişdir.

Cənab Düfu bildirmişdir ki, onun təşkilatı öz fəaliyyətində Dünya Bankının və İslam İnkişaf Bankının köməyinə arxalanır. Hər iki bankın prezidentləri Azərbaycanda görüləcək işləri dəstəkləyirlər. Biz Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə həmişə hazırıq və ümid edirik ki, Avropa ölkələrinə səfərlərinizin birində vaxt tapıb Romaya gələcək, təşkilatımızın üzvləri qarşısında çıxış edəcəksiniz.

FAO Prezidentinin məlumatını diqqətlə dinləyən və Azərbaycanın Beynəlxalq Ərzaq Təşkilatının üzvü olmasından məmnun qaldığını bildirən dövlətimizin başçısı göstərmişdir ki, respublikamızda ərzaq məhsulları istehsalının daha da artırılmasında FAO-nun həyata keçirdiyi proqramlar mühüm rol oynayacaqdır.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Tehranda İslam Konfransı Təşkilatının Baş katibi İzzəddin Laraki ilə də görüş keçirdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən şərəf duyduğunu bildirən cənab Laraki, vaxt tapıb İKT-nin Zirvə görüşünə gəldiyinə görə respublikamızın rəhbərinə təşəkkür etmişdir.

İslam Konfransı Təşkilatının növbəti Zirvə görüşü münasibətilə cənab Larakini təbrik edən Prezident Heydər Əliyev bu toplantıya böyük maraq hissi ilə gəldiyini və orada iştirak etməyə böyük əhəmiyyət verdiyini nəzərə çarpdırmışdır.

İKT-nin işini müsbət qiymətləndirən və onun fəaliyyətini bəyəndiyini vurğulayan dövlətimizin başçısı Heydər Əliyev göstərmişdir ki, cənab Laraki Baş katib seçildikdən sonra bu təşkilatın işi daha da canlanmışdır.

Laraki yeni müstəqillik qazanmış bir sıra ölkələrin, o cümlədən Azərbaycanın İKT-yə üzv qəbul olunmasının bu təşkilatı daha da gücləndirəcəyini söyləmişdir.

Müstəqil Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatının işində daim yaxından iştirak etdiyini vurğulayan Prezident Heydər Əliyev bildirmişdir ki, ölkəmiz İKT-ni islam ölkələrinin problemlərinin həllində və islam dünyasının həmrəyliyinin daha da möhkəmləndirilməsində çox əhəmiyyətli rol oynayan bir təşkilat hesab edir.

Prezidentimiz göstərmişdir ki, bu təşkilatın 1996-cı ildə Cakartada keçirilmiş konfransında Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovulub çıxarılması, qaçqınların ağır maddi vəziyyətdə yaşaması məsələləri müzakirə olunmuş və qərarlar qəbul edilmiş, bu məsələni daha dərindən öyrənib məruzə etmək barədə Baş katibə tapşırıq verilmişdi. Bütün bunlara görə cənab Larakiyə təşəkkür edən respublikamızın rəhbəri daha sonra bildirdi ki, İKT ATƏT-in sədrinə bu məsələ barədə xüsusi məktub göndərmiş və Cakarta konfransının tapşırığına əsasən Baş Katibk tərəfindən məruzə hazırlanılaraq Tehran Zirvə görüşünə təqdim edilmişdir. Məruzənin mətni ilə tanışlıq onun çox dəyərli və ölkəmiz üçün vacib olan bir sənəd olduğunu göstərir. Ölkəmiz ümidvardır ki, cənab Larakinin rəhbərliyi və səyləri nəticəsində

İslam Konfransı Təşkilatının bu Zirvə görüşü də Azərbaycanın probleminə dair xüsusi qərar qəbul edəcək, digər sənədlərdə də bu məsələ öz əksini tapacaqdır.

İKT-nin fəaliyyətinə verdiyi yüksək qiymətə görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirən cənab Laraki göstərmişdir ki, Azərbaycanın qarşılaşdığı problem həmçinin bizim problemimizdir. Hər şeyə dözmək olar, ancaq torpağın qəsbkarlıqla zəbt edilməsinə dözmək olmaz. Siz əmin olun ki, İslam Konfransı Təşkilatı bütünlüklə sizin tərəfinizdədir. Mən nə etmişəmsə, bu, yerinə yetirməli olduğum borcumdur. Əmin ola bilərsiniz ki, İKT-nin bu Zirvə görüşü öz işini məhz bu istiqamətdə aparacaqdır.

Cənab Laraki bu görüşdən sonra curnalistlərin suallarına cavab verərək bildirmişdir davam etdirəcəkdir ki, mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın fəaliyyətinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik.

O qeyd etmişdir ki, cənab Prezidentlə söhbətimiz zamanı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsini də müzakirə etdik. Mən cənab Prezidenti əmin etdim ki, İslam Konfransı Təşkilatı həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir, bu onun xidmətləridir.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Tehranda Fələstin rəhbəri Yasir Ərəfat ilə də görüşmüşdür. Dövlətimizin başçısı ilə köhnə dost kimi mehribanlıqla görüşən Yasir Ərəfat Prezidentimizə müraciətlə bildirmişdir ki, Siz həmişə mənim qəlbimdəsiniz. Problemlərimizə göstərdiyiniz diqqəti biz heç vaxt unutmarıq.

Səmimi sözlərə görə təşəkkür edən respublikamızın rəhbəri Yasir Ərəfatla görüşdən məmnun qaldığını bildirərək xatırlatmışdır ki, keçmiş Sovetlər İttifaqının rəhbərlərindən biri olarkən də, indi Azərbaycanın Prezidenti kimi də mənim bu barədə mövqeyim daimidir. Mən xatırlayıram ki, 16-17 il bundan əvvəl İranda vəziyyət ağır idi. Oraya təyyarə ilə getmək mümkün deyildi. Siz Azərbaycana gəldiniz. Biz İrandakı vəziyyət haqqında xeyli söhbət etdik. Mən Sizi Bakıdan avtomobillə İrana yola saldım, geriyə qayıdanda da qəbul etdim. O vaxt Siz İran ilə İraqı barışdırmaq istəyirdiniz. Mən 1984-cü ildə Moskvada işləyirdim, Siyasi Büronun üzvü idim. O zaman fələstinliləri Livandan çıxarırdılar. Siz Misirə getdiniz, mən Dəməşqə gəldim, Prezident Hafiz Əsədlə saatlarla danışıq apardım ki, Yasir Ərəfatla Hafiz Əsəd barışmalıdırlar.

Yasir Ərəfat həmin günləri çox yaxşı xatırladığını bildirmiş və göstərdiyi diqqətə görə Prezident Heydər Əliyevə minnətdarlıq etmişdir.

Azərbaycanın Fələstinlə dost olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı göstərmişdir ki, müstəqil Azərbaycan Respublikası Fələstin xalqının qəhrəmanlıq mübarizəsini həmişə dəstəkləmiş və bundan sonra da dəstəkləyəcəkdir.

Azərbaycanın dəstəyini həmişə hiss etdiklərini vurğulayan cənab Ərəfat qeyd etmişdir ki, biz bununla fəxr edirik və bun-

dan qüvvət, güc alırıq. Sonra o, Fələstin xalqının hazırkı vəziyyəti barədə Prezident Heydər Əliyevə ətraflı məlumat vermişdir.

Söhbət zamanı azərbaycanlılarla fələstinlilərin tarixi dostluq əlaqələrinin böyük əhəmiyyəti qeyd edilmiş və bu münasibətlərin daha da yaxınlaşdırılmasının vacib olduğu vurğulanmışdır.

Prezident Heydər Əliyev və cənab Yasir Ərəfat İslam Konfransı Təşkilatının Zirvə görüşünün müsəlman dünyası birliyinin daha da möhkəmləndirilməsində mühüm rol oynayacağına əmin olduqlarını bildirmişlər.

***

Azərbaycan Prezidenti Heydər Əliyev Suriya Prezidenti Hafiz Əsəd ilə də toplantıda görüşmüşdür. Dövlətimizin başçısını köhnə dostu kimi mehribanlıqla salamlayan, Prezident Heydər Əliyev ilə görüşdən çox məmnun qaldığını bildirən Hafiz Əsəd Azərbaycanla əlaqələrin möhkəmləndirilməsinə Suriyanın böyük maraq göstərdiyini nəzərə çarpdırmışdır.

Uzun fasilədən sonra cənab Hafiz Əsədlə yenidən görüşündən məmnun olduğunu bildirən, müstəqil Azərbaycan Respublikasının da Suriya ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişləndirilməsini əhəmiyyətli hesab etdiyini vurğulayan Prezident Heydər Əliyev bildirmişdir ki, mən sizi yaxın dostum hesab edirəm. Biz ilk dəfə təxminən 30 il bundan əvvəl Azərbaycanda görüşmüşdük. Sonra bizim Suriyada və başqa ölkələrdə görüşlərimiz olubdur. Mən ötən illərdə həmişə Sizinlə maraqlanmışam və istəmişəm ki, işləriniz yaxşı olsun.

Respublikamızın rəhbəri 1972-ci ildə Suriyada səfərdə olduğunu və Hələb şəhərində dahi Azərbaycan şairi Nəsiminin qəbrini ziyarət etdiyini də xatırlamışdır.

Cənab Hafiz Əsəd Prezident Heydər Əliyevi heç vaxt unutmadığını, onunla görüşlərini həmişə məmnunluqla xatırladığını, Azərbaycanda son illər əldə edilən böyük uğurları diqqətlə izlədiyini və buna ürəkdən sevindiyini bildirmişdir.

Suriya Prezidenti demişdir: Cənab Prezident, Siz Sovetlər Birliyində ən böyük vəzifələrdə çalışanda mən Sizinlə fəxr edirdim, Sizin hər bir müvəffəqiyyətinizə qəlbən sevinirdim. Yaxşı bilirəm ki, Siz Sovetlər Birliyinin rəhbərlərindən biri olan ilk müsəlman idiniz. Mən bu gün də Sizi ən yaxın dostum hesab edirəm və Sizinlə görüşdən çox məmnunam.

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının VIII Zirvə görüşünün müsəlman aləminin birliyinin möhkəmləndirilməsində, bir sıra ölkələrin qarşılaşdığı ciddi problemlərin aradan qaldırılmasında böyük əhəmiyyətə malik olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı Heydər Əliyev, daha sonra Ermənistanın Azərbaycana təcavüzündən ətraflı söhbət açmışdır. Bu münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, həmsədrlərin irəli sürdüyü təkliflərdən bəhs edən respublikamızın rəhbəri bildirmişdir ki, biz istəyirik ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan torpaqları tezliklə azad olunsun, doğma yurdundan zorla qovulmuş, ağır vəziyyətdə yaşayan 1 milyondan çox vətəndaşımız yerlərinə-yurdlarına qayıtsınlar.

Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İKT-nin Zirvə görüşü Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən mühüm sənədlər qəbul edəcəkdir. Ölkələrimiz arasında bütün sahələrdə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsinin vacib olduğunu qeyd edən dövlətimizin başçısı, respublikamızın Misirdəki səfiri İsrafil Vəkilovu həm də Suriyada səfir təyin etdiyini bildirmişdir.

Cənab Hafiz Əsəd bundan məmnun olduğunu və tezliklə Suriyanın Azərbaycanda səfirini təyin edəcəyini söyləmişdir.

Görüş zamanı beynəlxalq aləmdə və MDB çərçivəsində gedən siyasi proseslər barədə geniş fikir mübadiləsi aparılmış, Azərbaycan-Suriya əməkdaşlığının daha da möhkəmləndirilməsi üçün həlli vacib olan bir sıra məsələlər müzakirə edilmişdir.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Livan Prezidenti İlyas Hərəvi ilə də görüş keçirdi. Livan Prezidentini səmimiyyətlə salamlayan, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinin vacib olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı, respublikamızın Xarici İşlər Naziri Həsən Həsənovu məhz bu məqsədlə Livana səfərə göndərdiyini xatırlatmışdır.

Prezident Heydər Əliyev ilə görüşdən məmnun olduğunu bildirən cənab Hərəvi Azərbaycanın Xarici İşlər Naziri ilə Livanda keçirdiyi görüş barədə dövlətimizin başçısına məlumat vermişdir. Respublikamızla əməkdaşlığın sıxlaşdırılmasına Livanın böyük maraq göstərdiyini söyləyən cənab Hərəvi demişdir ki, biz zəngin təbii ehtiyatlara malik olan Azərbaycanla bütün sahələrdə əlaqələrimizin inkişaf etməsini istəyirik.

İKT-nin üzvü olan ölkələrin Zirvə görüşünün bu dövlətlərin qarşılıqlı surətdə faydalı əməkdaşlığının möhkəmləndirilməsi, bir çox məsələlərin həllində səylərin birləşdirilməsi sahəsində böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident Heydər Əliyev respublikamız üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsindən ətraflı söhbət açmışdır.

1988-ci ildən bəri davam edən bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin 20 faizini işğal etdiyini, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovulduğunu bildirən dövlətimizin başçısı, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, həmsədrlərin sülh təkliflərindən bəhs etmiş və əmin olduğunu bildirmişdir ki, İKT-nin üzvü olan ölkələr VIII Zirvə görüşündə bu təcavüzün aradan qaldırılmasına xidmət edən təsirli sənədlər qəbul edilməsinə lazımi dəstək verəcəklər.

Livanın da 17 ildən bəri münaqişə ilə üzləşdiyini xatırladan Prezident Hərəvi, respublikamızın rəhbəri Heydər Əliyevdən xahiş etmişdir ki, bu məsələnin VIII Zirvə görüşünün sənədlərində öz əksini tapmasını dəstəkləsin.

Müstəqil Azərbaycan Respublikasında iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirildiyindən məmnunluqla bəhs edən cənab Hərəvi Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil ediləcək neftin boru kəməri vasitəsilə Aralıq dənizinə çatdırılmasının Livan üçün də əhəmiyyətli olduğunu bildirmişdir.

Respublikamızın Livanla əməkdaşlığın genişləndirilməsinə maraq göstərdiyini qeyd edən Prezident Heydər Əliyev, Azərbaycanın Misirdəki səfiri İsrafil Vəkilovu həm də Livanda səfir təyin etdiyini bildirmiş, cənab Hərəvi də tezliklə Azərbaycana səfir təyin edəcəyini bildirmişdir.

Görüşün sonunda tərəflər bir-birini öz ölkələrinə rəsmi səfərə dəvət etmişlər.

***

Prezident Heydər Əliyev Tacikistan Prezidenti İmaməli Rəhmanov ilə görüşdə, hər iki gənc, müstəqil respublikanın nüfuzlu beynəlxalq

təşkilatlarda bir-birinin mövqeyini daim müdafiə etməsinin zəruriliyini qeyd etmişdir. Tərəflər Azərbaycan-Tacikistan əlaqələrinin inkişaf etdirilməsinin vacib olduğunu vurğulamışlar. Söhbət zamanı qarşılıqlı surətdə faydalı əməkdaşlığın perspektivləri barədə də fikir mübadiləsi aparılmışdır.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Ərəb Ölkələri Cəmiyyətinin Baş katibi İsmət Əbdül Məcid ilə görüşündə ölkəmizin başçısı Azərbaycan ilə Ərəb Ölkələri Cəmiyyəti arasında sıx əlaqələr qurulmasının vacib olduğunu nəzərə çarpdırmışdır. 1988-ci ildən bəri Azərbaycanın Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qaldığını, torpaqlarımızın 20 faizinin işğal edildiyini, 1 milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq çadırlarda ağır şəraitdə yaşadığını bildirən dövlətimizin başçısı, islam ölkələrinin və cəmiyyətlərinin bu münaqişəyə sülh yolu ilə son qoyulması üçün Azərbaycanın mövqeyini qətiyyətlə müdafiyə etmələrinə ehtiyac olduğunu vurğulamışdır.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu həmsədrlərinin irəli sürdüyü son təkliflərdən bəhs edən respublikamızın rəhbəri demişdir ki, biz müstəqil ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, qaçqınların doğma yurdlarına qayıtması üçün beynəlxalq təşkilatların, dünya birliyinin və nüfuzlu dövlətlərin səylərinə ümid bəsləyirik.

Səmimilik və mehribanlıq şəraitində keçən görüş zamanı Azərbaycan ilə Ərəb Ölkələri Cəmiyyəti arasında əlaqələrin janlandırılması imkanları barədə fikir mübadiləsi də aparılmışdır.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qazaxıstan Respublikasının İrandakı və Səudiyyə Ərəbistanındakı səfirləri Vyaçeslav İzzətov və Baqdat Amreyev ilə də görüşmüşdür.

Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşdən şərəf duyduqlarını bildirən diplomatlar, dövlətimizin başçısının müdrik siyasəti nəticəsində Azərbaycanın son illər dünya birliyində layiqli yer tutmasından məmnunluqla söhbət açmışlar. Xarici ölkələrin Azərbaycan ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığa böyük maraq göstərdiyinin şahidi olduqlarını söyləyən diplomatlar, ölkələrimizin Prezidentləri Heydər Əliyevin və Nursultan Nazarbayevin diqqət və qayğısı sayəsində Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın ardıcıl surətdə, müvəffəqiyyətlə inkişaf etməsindən razılıqla bəhs etmişlər.

Prezident Heydər Əliyev Qazaxıstan diplomatları ilə görüşündən məmnun qaldığını vurğulamış və onlara öz fəaliyyətlərində uğurlar arzulamışdır.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Naziri Rəşid Abdulla əl-Nəimi ilə də görüşmüşdür.

Dövlətimizin başçısı ilə görüşdən məmnun olduğunu bildirən cənab əl-Nəimi Prezident Şeyx Zaidin salamlarını, hörmət və ehtiramını Prezident Heydər Əliyevə çatdırmış və bundan şərəf duyduğunu söyləmişdir.

İKT-nin üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının 1994-cü ilin dekabrında Mərakeşdə keçirilən Zirvə toplantısında Şeyx Zaidlə görüşünü, apardığı danışıqları məmnunluqla xatırlayan respublikamızın rəhbəri, onun da salamlarını və xoş arzularını Birləşmiş Ərəb Əmirliklərinin dövlət başçısına çatdırmağı rica etmişdir.

İKT-nin VIII Zirvə görüşünün də yaxşı keçdiyini bildirən Prezident Heydər Əliyev demişdir ki, islam ölkələri Dövlət və Hökumət Başçılarının bir yerə yığışması, müsəlman aləminin problemləri barədə müzakirələr aparması çox əhəmiyyətlidir. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi, xüsusən ticarət əlaqələrinin genişlənməsindən məmnun qaldığını bildirən respublikamızın rəhbəri, bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacib olduğunu qeyd etmişdir.

Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana səfər edən hər bir nümayəndə heyətinə böyük diqqət və qayğı göstərdiyinə görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirən nazir, öz ölkəsinin respublikamızla əlaqələrin sıxlaşdırılmasına xüsusi maraq göstərdiyini nəzərə çarpdırmış və əmin olduğunu bildirmişdir ki, Prezidentlər Heydər Əliyevin və Şeyx Zaidin səyləri nəticəsində ölkələrimiz arasında münasibətlər gündən-günə daha da möhkəmlənəcəkdir.

Cənab əl-Nəimi demişdir: Cənab Prezident, Birləşmiş Ərəb Əmirliklərinin başçısı Şeyx Zaid Sizin rəhbərliyinizlə Azərbaycanda həyata keçirilən tədbirləri diqqətlə izləyir və nailiyyətlərinizdən çox məmnundur. Prezident Şeyx Zaid və biz hamımız Sizin müdrik siyasətiniz və fəaliyyətinizlə fəxr edirik. Məhz Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycanın regional mərkəzə çevrilməsi bizi ürəkdən sevindirir. Prezident Şeyx Zaid Sizi Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfərə dəvət edir. Biz Sizi öz ölkəmizdə görməkdən böyük şərəf duyardıq.

Xoş sözlərə görə cənab əl-Nəimiyə minnətdarlığını bildirən dövlətimizin başçısı Heydər Əliyev, Prezident Şeyx Zaidi Azərbaycana rəsmi səfərə dəvət etdiyini xatırlatmış və cənab əl-Nəiminin də respublikamıza ziyarətə gəlməsini arzuladığını bildirmişdir.

Prezident Heydər Əliyev Birləşmiş Ərəb Əmirliklərinin azərbaycanlı qaçqınlara göstərdiyi humanitar yardıma görə minnətdarlıq etmişdir. Respublikamızın rəhbəri ümidvar olduğunu bildirmişdir ki, Birləşmiş Ərəb Əmirlikləri İKT-nin Zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən sənədlərin qəbul edilməsini dəstəkləyəcəkdir.

***

Ölkəmizin başçısı jurnalistlərlə görüşdə İKT-nin bundan da çox iş görə bilmək imkanlarının mövcudluğunu söyləyərək təəssüflə qeyd etmişdir ki, bu təşkilat ancaq qətnamələr qəbul edir. Üç il bundan öncə Mərakeşdə bir qətnamə qəbul edildi, Ermənistan təcavüzkar kimi pisləndi, məhkum olundu və bu, dünyaya elan edildi. Əlbəttə, beynəlxalq aləmdə ictimai rəy üçün bunun əhəmiyyəti var. Ancaq hesab edirəm ki, bu təşkilat səsini daha da gur çıxara bilər, tələb edə bilər ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal çıxsınlar. Müsəlmanlara qarşı belə təcavüz etməsinlər. İslam ölkələri bir olsalar, bunu edə bilərlər.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev toplantıda Səudiyyə Ərəbistanının şahzadəsi Abdulla ibn Əbdül Əziz əl-Səud ilə də görüşmüşdür.

Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşdən şərəf duyduğunu bildirən şahzadə respublikamızın rəhbərinin Səudiyyə Ərəbistanına səfərini həmişə məmnunluqla xatırladıqlarını bildirmişdir. O, Səudiyyə Ərəbistanının kralı Fəhd ibn Əbdül Əziz əl-Səudun salamlarını, hörmət

və ehtiramını Prezident Heydər Əliyevə çatdırmışdır.

Səmimi sözlərə görə təşəkkür edən dövlətimizin başçısı 1994-cü ilin iyulunda Səudiyyə Ərəbistanına səfərindən, islam dininin müqəddəs şəhərləri olan Məkkəni, Mədinəni, Ciddəni ziyarət etməsindən, kralla və ölkənin digər yüksək vəzifəli şəxsləri ilə görüşlərindən məmnunluqla bəhs edərək, şahzadə ilə 1994-cü ilin dekabrında Mərakeşdə keçirdiyi görüşü, apardığı danışıqları da razılıqla xatırlamışdır. İslam Konfransı Təşkilatının VIII Zirvə görüşünün müsəlman aləminin birliyinin daha da möhkəmləndirilməsində, bu təşkilatın üzvü olan bir sıra ölkələrin qarşılaşdığı çətinliklərin həllində mühüm rol oynayacağına ümidvar olduğunu bildirən Prezident Heydər Əliyev, daha sonra gənc müstəqil Azərbaycan Respublikası üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsindən bəhs etmişdir. Respublikamızın rəhbəri demişdir ki, 1988-ci ildən bəri davam edən bu təcavüz nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan didərgin düşmüşdür. Münaqişənin aradan qaldırılması üçün ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş əsas prinsiplərdən danışan Prezident Heydər Əliyev, Minsk qrupu çərçivəsində gedən danışıqlardan və həmsədrlərin irəli sürdüyü təkliflərdən də söhbət açmışdır. Dövlətimizin başçısı azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə Səudiyyə Ərəbistanının rəhbərliyinə minnətdarlığını bildirmiş, onun salamlarını və xoş arzularını kral Fəhd ibn Əbdül Əziz əl Səuda çatdırmağı rica etmişdir.

Söhbət zamanı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təşkilatlarda qarşılıqlı əlaqələrin daha da canlandırılması barədə fikir mübadiləsi aparılmış, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Səudiyyə Ərəbistanının yaxından iştirakı və bu ölkənin Respublikamızın bir sıra sahələrinə sərmayə qoymasının genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin Baş katibi Kofi Annanla da görüş keçirmişdir.

Ermənistanın Azərbaycana 1988-ci ildən bəri davam edən təcavüzündən söhbət açan dövlətimizin başçısı bu münaqişənin aradan qaldırılması üçün BMT-nin qəbul etdiyi qətnamələri, Təhlükəsizlik Şurasının qərarlarını xatırladaraq Ermənistanın bu mühüm sənədlərə etinasızlıq göstərdiyini bildirmişdir.

Kofi Annan cavabında söyləmişdir ki, BMT hər bir ölkənin, o cümlədən müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır və onun haqq işini dəstəkləyir.

Prezident Heydər Əliyev cənab Kofi Annanı Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olunmuşdur.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Livanın Baş Naziri Rafiq əl-Həriri ilə də görüşmüşdür.

R. əl-Həririni mehribanlıqla salamlayan dövlətimizin başçısı Azərbaycanın Livan ilə əlaqələrə maraq göstərdiyini nəzərə çarpdıraraq respublikamızın Xarici İşlər Naziri Həsən Həsənovu məhz bu məqsədlə Livana səfərə göndərdiyini xatırlatmışdır.

Azərbaycanın Misirdəki səfiri İsrafil Vəkilovu həm də Livanda səfir təyin etdiyini vurğulayan Prezident Heydər Əliyev, ölkələrimiz arasında bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrin inkişaf etdirilməsi üçün bir sıra ikitərəfli sənədlərin imzalanmasının vacib olduğunu bildirmişdir.

Prezident Heydər Əliyevlə görüşündən şərəf duyduğunu nəzərə çarpdıran əl-Həriri Azərbaycanla əməkdaşlığın durmadan möhkəmləndirilməsinə Livanın xüsusi əhəmiyyət verdiyini söyləyərək Xarici İşlər Naziri Həsən Həsənovla Livanda apardığı danışıqlar barədə dövlətimizin başçısına məlumat vermişdir. İKT-nin üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə görüşünün müsəlman aləminin həmrəyliyinin möhkəmləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu bildirən Baş Nazir, nüfuzlu beynəlxalq təşkilatlarda Azərbaycan-Livan əlaqələrinin daha da sıxlaşdırılmasının zəruriliyini qeyd etmiş və Livanın qarşılaşdığı problemlər haqqında söhbət açmışdır.

Ermənistanın Azərbaycana təcavüzündən bəhs edən dövlətimizin başçısı Heydər Əliyev, bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların gedişini və həmsədrlərin irəli sürdüyü təklifləri geniş şərh edərək Ermənistanın qeyri-konstruktiv mövqeyindən hələ də əl çəkmədiyini vurğulamışdır. Nüfuzlu beynəlxalq təşkilatların, dünya ictimaiyyətinin və bir çox böyük dövlətlərin Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasına xüsusi diqqət yetirmələrinin vacibliyini nəzərə çarpdıran Prezident Heydər Əliyev, əmin olduğunu bildirmişdir ki, İKT-nin Zirvə görüşü Ermənistanın təcavüzünü qətiyyətlə pisləyən əhəmiyyətli sənədlər qəbul edəcək və üzv dövlətlər Azərbaycanın haqq işini dəstəkləyəcəklər.

Söhbət zamanı Azərbaycan-Livan əlaqələrinin genişləndirilməsi, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənilməsində əldə edilən nəticələr, beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli münasibətlərin daha da sıxlaşdırılması barədə fikir mübadiləsi aparılmışdır.

Prezident Heydər Əliyev Livanın Baş Nazirini Azərbaycana rəsmi səfərə dəvət etmişdir. O, dəvəti məmnunluqla qəbul edərək 1998-ci ildə mütləq Azərbaycana gələcəyini bildirmişdir.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Pakistanın Baş Naziri Nəvaz Şərif ilə də görüşmüşdür.

Dövlətimizin başçısı Pakistanın Baş Nazirini mehribanlıqla salamlamış, onunla Aşqabaddakı görüşünü məmnunluqla xatırlamış və İslam Konfransı Təşkilatının Zirvə görüşündə Nəvaz Şərifin çıxışını yüksək qiymətləndirmişdir.

Nəvaz Şərif görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşündən şərəf duyduğunu bildirmiş və Pakistanın haqq işini həmişə müdafiə etdiyinə görə respublikamızın rəhbərinə minnətdarlıq etmişdir.

İslam Konfransı Təşkilatının VIII Zirvə görüşünün müsəlman dövlətləri arasında qarşılıqlı surətdə faydalı əlaqələrin daha da möhkəmləndirilməsində, bir çox ölkələrin qarşılaşdığı ciddi problemlərin aradan qaldırılmasında mühüm rol oynayacağına əmin olduğunu bildirən dövlətimizin başçısı Heydər Əliyev, Azərbaycan-Pakistan əməkdaşlığının hazırkı vəziyyətindən razılıqla bəhs etmişdir.

1996-cı ildə Pakistana səfərini məmnunluqla xatırlayan, İslamabadda, Lahorda keçirdiyi görüşləri, apardığı danışıqları, ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün imzalanan sənədləri yüksək qiymətləndirən Prezident Heydər

Əliyev ölkələrimizin tarixi köklərə malik dostluq münasibətlərinin gündən-günə yaxşılaşdırılmasının vacib olduğunu nəzərə çarpdırmışdır.

Ermənistanın Azərbaycana təcavüzünün gənc, müstəqil respublikamız üçün ən ağrılı problem olduğunu söyləyən dövlətimizin başçısı bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, həmsədrlərin irəli sürdüyü təkliflərdən bəhs etmişdir.

Pakistanın da uzun illərdən bəri qarşılaşdığı problemdən söhbət açan respublikamızın rəhbəri, nüfuzlu beynəlxalq təşkilatların toplantılarında Azərbaycanın həmişə Pakistanın mövqeyini dəstəklədiyini vurğulamışdır.

Nəvaz Şərif onun ölkəsinə göstərilən diqqətə görə dövlətimizin başçısı Heydər Əliyevə minnətdarlığını bildirərək demişdir ki, biz Azərbaycanın haqq işini daim müdafiə edirik və Ermənistanın təcavüzkarlığını qətiyyətlə pisləyirik.

Söhbət zamanı Azərbaycan - Pakistan əməkdaşlığının perspektivləri geniş müzakirə olundu. Prezident Heydər Əliyev və Baş Nazir Nəvaz Şərif iqtisadi münasibətlərimizin daha da canlandırılmasının zəruriliyini bildirmiş və qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişaf etdirilməsi üçün, hər iki ölkənin ekspertlərinin tezliklə görüşüb konkret təkliflər əsasında mühüm layihələr hazırlamasının vacib olduğunu qeyd etmişlər.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 9-da Tehranda İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həmişə olduğu kimi, bu dəfə də müxtəlif informasiya agentlikləri müxbirlərinin suallarına ətraflı cavablar vermişdir. O, Xəzərin sektorlara bölünməsi məsələsinə toxunaraq göstərmişdir ki, hər bir ölkənin özünün siyasəti, maraqları var. Ancaq mən ona inanıram ki, gələcəkdə Xəzər dənizinin mineral ehtiyatlarından istifadə etmək üçün onun sektorlara bölünməsinin alternativi yoxdur. Bütün Xəzəryanı ölkələr bu prinsipin üzərində dayanmalıdırlar. Ona görə ki, bu prinsip hər bir ölkə üçün Xəzər dənizinin mineral ehtiyatlarından səmərəli istifadə etməyə ən gözəl şərait yaradan prinsipdir.

Azərbaycan neftinin nəqli üçün kəmərin İrandan keçməsi imkanlarına toxunan dövlət başçımız bildirmişdir ki, biz neft kəmərinin İrandan keçməsi haqqında hələ ki, danışıqlar aparmamışıq. Ancaq Xəzər dənizinin Azərbaycan sektoru üzrə artıq bir neçə müqavilə imzalanıb və gələcəkdə bunlar nəzərdə tutulduğundan da çox neft və qaz əldə etmək perspektivi açıbdır. Ona görə də bir yox, bir neçə kəmər ola bilər. Çünki Azərbaycan sektoru ilə yanaşı, Xəzər dənizinin digər sektorlarında - Qazaxıstan sektorunda da, Türkmənistan sektorunda da, başqa sektorlarda da neft hasil etmək imkanları var. Bir halda ki, Xəzər dənizində bu qədər neft hasil olunacaq, bunu dünya bazarlarına aparmaq lazımdır. Dünya bazarlarına aparmaq üçün də cürbəcür yollardan, ələlxüsus iqtisadi və təhlükəsizlik cəhətdən əlverişli yollardan istifadə olunacaqdır.

***

Beləliklə, VIII Zirvə toplantısı da Prezident Heydər Əliyevin rəhbərlik etdiyi diplomatiyamızın uğuru ilə başa çatmışdır.

Müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmləndirmək, xalqların əmin-amanlığını təmin etmək, dinimizi, ənənələrimizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi qoruyub inkişaf etdirmək məqsədi ilə yaradılmış İslam Konfransı Təşkilatının Tehranda keçirilən Zirvə görüşü, müsəlman dünyası üçün çox əhəmiyyətli olan bir sıra qlobal məsələləri ətraflı müzakirə etmişdir.

O dövrdə 55 ölkəni birləşdirən İslam Konfransı Təşkilatı islam həmrəyliyini möhkəmlətməyi, üzv dövlətlər arasında elm, mədəniyyət, sosial, iqtisadiyyat və həyati əhəmiyyət daşıyan digər sahələrdə əməkdaşlığı genişləndirməyi, ölkələrin birbirinin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə ehtiramla yanaşmasını özünün əsas məqsədi hesab etmiş, bu konfransda da göstərilən məqsədlərə çatmaq üçün müvafiq qərarlar qəbul edilmişdir..

Tehran Zirvə görüşünün qətnaməsində Azərbaycanın ağrılı problemi olan Qarabağ probleminə münasibət öz geniş əksini tapmışdır. Qətnamədə bildirilirdi ki, üzv dövlətlər Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxunun işğal edilməsindən, bir milyondan çox azərbaycanlının qaçqına çevrilməsindən dərin təəssüf hissi keçirərək və bu təcavüzün beynəlxalq sülh və təhlükəsizlik üçün dərin təhlükə yaratdığını, ərazilərin güc tətbiq etməklə işğalının qəbul olunmamasını bir daha təsdiq edərək Ermənistanın təcavüzünü, işğal edilmiş Azərbaycan ərazilərində arxeoloci, mədəni və islam abidələrinin talan və məhv olunmasını qətiyyətlə pisləyir və bunu bəşəriyyətə qarşı cinayət hesab edirlər.

Sənəddə daha sonra deyilirdi ki, İKT BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan silahlı birləşmələrinin işğal edilmiş bütün Azərbaycan ərazilərindən, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını qəti surətdə tələb edir və Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ciddi şəkildə hörmət etməyə çağırır.

Öz qətnamələrinin yerinə yetirilməsi üçün lazımi addımlar atmaq barədə BMT Təhlükəsizlik Şurasına müraciət edən Zirvə görüşü bildirirdi ki, üzv dövlətlər Ermənistana silah və hərbi sursat verməkdən qəti imtina etməlidirlər, onların ərazisindən bu cür yüklərin tranziti üçün istifadə edilməməlidir. Qətnamədə həmçinin qeyd edilirdi ki, İKT-nin üzvü olan dövlətlər Azərbaycanın haqq işini bütünlüklə dəstəkləyir və onunla tam həmrəy olduqlarını bildirirlər.

Azərbaycanlı qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün humanitar yardımların artırılması məsələləri də sənəddə öz geniş əksini tapmışdır.

Zirvə görüşündə Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan Respublikasına iqtisadi yardım haqqında da xüsusi qətnamə qəbul olundu. İKT bütün üzv dövlətlərin, islam təsisatlarının Azərbaycan hökumətinə, xalqına lazımi iqtisadi və humanitar yardım göstərməsini vacib hesab etdi.

Zirvə görüşü 1998-ci ilin payızında Bakı şəhərində Prezident Heydər Əliyevin himayəsi altında Azərbaycan Xarici İşlər Nazirliyi və Elmlər Akademiyası ilə birgə İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırmalar mərkəzinin Qafqazda islam sivilizasiyasına dair beynəlxalq simpozium keçirməsini qərara aldı.

İKT-nin Zirvə görüşünün qəbul etdiyi yekun sənədində - Tehran bəyannaməsində də ölkəmizin ağrılı probleminə xüsusi yer ayrıldı. Bəyannamədə İKT-nin üzvü olan dövlətlərin Ermənistanın Azərbaycana qarşı təcavüzünə mənfi münasibət bəslədiyi bildirilir və Azərbaycanın işğal edilmiş bü-

tün torpaqlarından Ermənistan silahlı qüvvələrinin çıxarılması tələb olunurdu.

Zirvə görüşünün rəsmi məlumatında da bu məsələ öz geniş əksini tapmışdı. Orada deyilirdi: Konfrans Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə aradan qaldırılması haqqında ATƏT-in sədrinin 1996-cı ilin dekabrında Lissabon Zirvə görüşündəki bəyanatında irəli sürülmüş və qəbul edilmiş əsas prinsipləri, habelə ATƏT-in Minsk qrupu həmsədrlərinin Minsk qrupu çərçivəsində aparılan danışıqların əsası kimi irəli sürdükləri, Ermənistan-Azərbaycan münaqişəsinin iki mərhələdə həll edilməsini nəzərdə tutan son təkliflərini dəstəkləyir və bu mövqeni Azərbaycan Respublikasına qarşı təcavüzün ciddi nəticələrinin ləğv olunmasının təminatı kimi qiymətləndirir.

Tehran Zirvə görüşünün iştirakçıları müsəlman dünyasının gələcəyində İKT-nin rolu məsələləri barədə də geniş danışıqlar aparmış, üzv dövlətlər üçün əsas prinsipləri müəyyənləşdirmişlər. Bu prinsiplər üzv dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməkdən, bir-birinə qarşı güc işlətməməkdən və güc işlətməklə hədələməməkdən, sərhədləri qeyd-şərtsiz tanımaqdan və digər müddəalardan ibarətdir.

Beləliklə, Respublikamızın Prezidenti Heydər Əliyevin uzaqgörən siyasəti, dünya ölkələrinin Dövlət və Hökumət Başçıları arasında böyük nüfuzu, gərgin və yorulmaz fəaliyyəti nəticəsində Tehran Zirvə görüşü Azərbaycan diplomatiyasının yeni uğurları ilə əlamətdar oldu.

İKT Dövlət və Hökumət Başçılarının VIII Zirvə Konfransı eyni zamanda ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda, Ermənistan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı və bir milyonadək əhalisinin zorla qovulması ilə müşayiət olunan əməllərini pisləyərək, Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə edərək, İslam Konfransı Təşkilatına üzv dövlətlərə, islam qurumlarına və eləcə də beynəlxalq təşkilatlara müraciət edərək, Azərbaycana lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərilməsi haqqında da qərar qəbul etmişdir.

Tehran Zirvə toplantısından sonra da ölkəmizin İKT ilə sıx əməkdaşlığı davam etmişdir.

***

1998-ci ilin 10-12 fevral tarixində Ciddədə İKT xarici işlər nazirlərinin XXV konfransına hazırlıq məqsədi ilə keçirilmiş Yüksək rütbəli məmurlar toplantısında Azərbaycan tərəfi Baş Katibyin İKT Xarici İşlər Nazirləri konfransının müzakirəsinə təqdim edəcəyi Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə layihəsinə mühüm əlavə və düzəlişlər etməyə nail olmuşdur.

Azərbaycan tərəfinin xahişinə əsasən, 30 dekabr 1998-ci il tarixində İKT Baş katibi İ.İraqi Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü ilə əlaqədar İKT-yə üzv dövlətlərin mövqeyi haqqında ATƏT-in icraçı sədri, Polşanın Xarici İşlər Naziri B.Qeremikə məlumat vermişdir.

***

1999-cu ilin 28 iyun-1 iyul tarixində Burkina-Faso Respublikasının paytaxtı Uaqaduquda keçirilmiş İKT Xarici İşlər Nazirlərinin XXVI konfransı həmin sənədi müzakirə edərək, yekdilliklə qəbul etmişdir.

Konfransın açılış mərasimində BMT Baş katibinin məktubu oxunmuşdur. Məktubda Kofi Annan BMT ilə İKT arasında

əməkdaşlıq məsələlərindən bəhs edərkən Dağlıq Qarabağ problemini də qeyd etmişdir.

İKT Xarici İşlər Nazirlərinin XXVI konfransı Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü ilə bağlı üç mühüm qətnamə qəbul etmişdir:

1.Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə;

2.Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında qətnamə;

3.Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında qətnamə.

12-13 noyabr 2000-ci ildə Qatarın paytaxtı Dohada çağırılan İKT Dövlət və Hökumət Başçılarının IX Zirvə toplantısı da Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü ilə bağlı yuxarıda adları sadalanan üç mühüm qətnamə qəbul etmişdir. Azərbaycanın maraqlarına tam şəkildə uyğun olan həmin qətnamələr, İKT-yə üzv dövlətlərin rəhbərləri tərəfindən yekdilliklə qəbul olunmuşdur.

Fərəhli haldır ki, İslam Konfransı Təşkilatının Zirvə görüşündə ilk dəfə olaraq Ermənistanın təcavüzü nəticəsində ölkəmizin tarix və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması ilə əlaqədar çox mühüm qətnamə qəbul edilmişdir.

İKT Dövlət və Hökumət Başçılarının IX Zirvə toplantısının qəbul etdiyi "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə"də Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü kəskin şəkildə pislənir, Cənubi Qafqazın bu iki dövləti arasında Dağlıq Qarabağ ətrafındakı münaqişəsinin sülh yolu ilə nizama salınması haqqında ATƏT-in 1996-cı ilin dekabrında Lissabon Zirvə görüşündə qəbul edilmiş əsas prinsiplər - Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması və onun toxunulmazlığının təmin edilməsi, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək status verilməsi və Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi və s. bu kimi məsələlər öz əksini tapmışdır.

Qətnamə bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır;

Eyni zamanda, İKT-yə üzv dövlətlərin ərazisinin hərbi təchizatın tranziti üçün istifadə edilməməsi vurğulanır;

İKT-yə üzv dövlətlər və dünya birliyinin digər ölkələri Ermənistanın təcavüzünə və Azərbaycan ərazisinin işğalına son qoyulması üçün bütün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadə etməyə çağırır.

Zirvə konfransı bu siyasi qətnamə ilə yanaşı, "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında qətnamə" qəbul etmişdir. Qətnamədə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək azərbaycanlı əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan zorakılıq aksiyaları pislənir, ölkənin tarixi üçün belə çətin vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə edilir, Azərbaycan xalqının ağrılarını yüngülləşdirmək məqsədi ilə İKT-yə üzv dövlətlərə, islam qurumlarına və eləcə də beynəlxalq təşkilatlara müraciət edilir və respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardımların göstərilməsi tövsiyə edilir.

İKT Dövlət və Hökumət Başçılarının IX Zirvə toplantısı respublikamızla bağlı qəbul etdiyi "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında qətnamə" adlı üçüncü qətnamə geniş və əhatəli preambuladan və 7 bənddən ibarətdir. Qətnamədə "erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətləri" ciddi surətdə pislənir, "aldığı zərərlərə görə Azərbaycanın təzminat almaq hüququnun olduğu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığı" vurğulanır, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məscidlərin, təhsil ocaqlarının, kitabxanaların, muzeylərin İKT-yə üzv dövlətlərin köməyi ilə bərpası üçün İKT-nin bölmələri və ixtisaslaşdırılmış qurumları yardım proqramlarının təşkili imkanlarını araşdırmağa çağırılır, problemə dair İslam Konfransı Təşkilatına üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsi İKT-nin Baş katibindən xahiş edilir.

Zirvə toplantısı İKT Baş katibinin Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair müvafiq hesabatını dinləyərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində islam sivilizasiyasının tam məhv edilməsinə yönəlmiş vəhşi hərəkətlərini kəskin pisləmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və mütləq yerinə yetirilməsini tələb etmiş, münaqişə ilə bağlı İKT-yə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsi İKT Baş katibindən xahiş etmişdir.

Zirvə toplantısında nümayəndə heyətləri başçılarının çıxışları dinlənilmişdir. Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyev konfransda çıxış edərək, Qatar Dövlətinin Əmiri Şeyx Hamad bin Xəlifə əl-Təniyə və toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevin salamlarını və Zirvə görüşünün uğurla keçirilməsi barədə arzularını çatdırmışdır.

Çıxışda Emənistan Respublikasının Azərbaycana qarşı təcavüzü və respublika rəhbərliyinin bu təcavüzün ağır nəticələrinin aradan qaldırılması istiqamətində fəaliyyəti açıqlanmaqla yanaşı, İKT-yə üzv dövlətlərin, ümumiyyətlə islam aləminin bir sıra problemlərinə dair respublikamızın mövqeyi də şərh edilmişdir.

Səudiyyə Ərəbistanı, Türkiyə və Banqladeş nümayəndə heyəti başçılarının çıxışında, habelə İKT-nin VIII Zirvə görüşünün sədri, İİR Prezidenti M.Xatəminin çıxışında və İKT Baş katibinin məruzəsində Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü məsələsinə geniş yer verilmiş və Azərbaycan Respublikasının mövqeyinin dəstəkləndiyi bildirilmişdir.

Zirvə toplantısının işi zamanı Xarici İşlər Naziri V.Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Qatar Dövlətinin əmiri Şeyx Hamad bin Xəlifə əl-Təniyə ünvanlanmış məktubunu Qatarın xarici əlaqələr üzrə Dövlət Naziri Ə.Abdullah Mahmuda təqdim etmişdir.

Konfrans zamanı həmçinin Azərbaycan nümayəndə heyətinin Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Əmir Abdullah bin Əbdül Əziz və Xarici İşlər Naziri Əmir Səud Əl-Feysəl, Küveyt Dövlətinin Baş Nazirinin birinci müavini, Xarici İşlər Naziri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah, İordaniya Haşimiyyə Krallığının Xarici İşlər Naziri Abdullah əl-Xətib, Türkiyə Respublikasının Xarici İşlər Naziri İ.Cem, İran Xarici İşlər Naziri K.Xərrazi, Tunis Xarici İşlər Naziri Həbib bin Yahya, Mərakeş Xarici İşlər və Əməkdaşlıq Naziri Məhəmməd Benaissa, Suriya Xarici İşlər Nazirinin müavini V.Əl-Muallim, İKT Baş katibi İzzəddin İraqi və başqaları ilə görüşləri keçirilmişdir.

Beləliklə, Prezident Heydər Əliyevin sağlam bünövrə əsasında yaratdığı və qurduğu əməkdaşlıq əlaqələri davam etməkdədir. Bu təşkilatın ölkəmizə göstərdiyi siyasi və maliyyə dəstəyi öz konkret nəticələrini vermiş və verməkdədir.

Bütün bu faktlara nəzər saldıqca Azərbaycan Prezidentinin Şərq diplomatiyasında planlaşdırdığı və həyata keçirdiyi strateji xəttin bəhrələrini açıq şəkildə görürsən. Dövlətimizin rəhbəri bu illər ərzində yorulmadan, durmadan, məqsədyönlü şəkildə, addım-addım, pillə-pillə ölkəmizin Şərq siyasətinin bünövrəsini qoyaraq onu indiki möhtəşəm və monolit bir bina halına gətirmiş, ölkəmiz ətrafında onun səsinə səs verən, apardığı siyasəti dəstəkləyən dost dövlətlərdən ibarət bir qala yaratmış, 58 üzvü olan İslam Konfransı Təşkilatı kimi dünya siyasətində öz yeri və nüfuzu olan beynəlxalq bir qurumu sözün əsl mənasında fəth etmişdir.

Heydər Əliyev və Şərq



AZƏRBAYCAN - TÜRKİYƏ ƏLAQƏLƏRİ



(Türkiyə Azərbaycan ilə 14 yanvar 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Azərbaycan ilə Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələri günü-gündən möhkəmlənir, genişlənir və bu dostluq əlaqələri gələcəkdə də inkişaf edəcəkdir. ...Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır.

***

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq.

***

Dəfələrlə dediyimiz "Biz bir millət, iki dövlətik" sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır.

Heydər Əliyev

Prezident Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün bölgənin sülh və sabitliyinin güvəncidir. Onun tez-tez dediyi kimi, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir.

Hikmət Çətin

İki ölkə arasında dostluq son dərəcə möhkəmdir. Azərbaycanın problemi bizim problemimizdir. Böyük Atatürkün söylədiyi sözlər bizim üçün nəsihətdir: Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir.

Süleyman Dəmirəl

Türkiyə üçün Azərbaycan, Azərbaycan üçün isə Türkiyə dövlət siyasətinin məhək daşı, bünövrəsi, əsasıdır. Bu illər ərzində biz bu siyasətə, qardaşlığa, əməkdaşlığa, strateji müttəfiqliyə o qədər öyrənmiş, alışmışıq ki, çoxları üçün bu adi bir məsələ kimi görünür və demək olar ki, heç bir mübahisə doğurmur. Ancaq əslində bu heç də belə deyildir. Hər şey tədricən, yavaş-yavaş, zəmanənin süzgəcindən keçərək, yüzlərlə gözə görünən və görünməyən maneələrlə üzləşərək indiki hala gəlib çatmışdır. Əlbəttə, bunun üçün iki xalq arasında mövcud olan ürəklərdən-ürəklərə gedən yollar, əsrlərdən keçib gələn həsrət, həmişə ürəklərdə və beyinlərdə kükrəyən türklük duyğusu az rol oynamamışdır. Ancaq rəhbərlərimizin və siyasətçilərimizin çəkdiyi cizgilər, qurduqları planlar, keçdikləri keşməkeşli yollar, gecə-gündüz iki qardaş xalqın bir-birinə köməyinin və dəstəyinin istənilən səviyyəyə çatması, dövlətçiliyinin möhkəmlənərək dünya miqyasına çıxması üçün ölkələrimizin liderlərinin - Prezident Heydər Əliyevin və Prezident Süleyman Dəmirəlin gördüyü işlər iki qardaş dövlətin strateji müttəfiqlik mərtəbəsinə gəlib çatması yolunda həlledici rol oynamış və oynamaqdadır.

Harada olurlarsa olsunlar, hansı vəzifədə çalışırlarsa çalışsınlar, liderlərimizin bir-biri ilə yaratdıqları xoş ünsiyyət, bir-birlərinə bəslədikləri inam və qəlblərində daşıdıqları qardaşlıq sevgisi bir bayraq olmuş, aparıcı rol oynayaraq xalqlarımızın daha da yaxınlaşmasına yardım etmişdir. Hələ 1967-ci ildə Bakıda əsası qoyulan əlaqələr onilliklərdən keçərək möhkəmlənmiş, xalqımız müstəqillik qazandıqdan sonra isə üzə çıxmış, həlledici həlqə rolunu oynamağa başlamışdır.

Açıq deməliyik ki, Prezident Heydər Əliyev Türkiyə ilə əlaqələrimizə həmişə önəmli yer vermiş, çətin anlarda bu qardaş ölkədə, onun xalqında dəstək aramışdır.

O, hələ 1992-ci ildə Naxçıvanda olarkən ağır günlərdə üzünü dostu Süleyman Dəmirələ və qardaş türk xalqına tutmuş, kömək diləmişdir.

Məhz onun səyləri nəticəsində məşhur Ümid körpüsü tikilmiş, blokada şəraitində olan Naxçıvan kömək almağa başlamışdır. O günləri Prezidentimiz özü belə xatırlayır:

"Mən də o illəri xatırlayıram. 1990-cı ildə, - mən o vaxta qədər Moskvada yaşayırdım, - yanvarın 20-də Sovetlər Birliyi hökumətinin, Qorbaçov hökumətinin Azərbaycan xalqına etdiyi hərbi təcavüzdən, Azərbaycana böyük ordu hissələri göndərməsindən, Azərbaycanda müstəqillik, azadlıq arzuları ilə meydanlara, küçələrə toplaşmış günahsız insanları qırmasından sonra məndə o hökumətə, uzun illər üzvü olduğum Kommunist Partiyasına böyük nifrət hissi oyandı. Mən getdim, etiraz etdim, sovet hökumətini, sovet hökumətinin başçılarını məhkum etdim, suçlandırdım və Kommunist Partiyasının sıralarını tərk etdim. Bundan sonra Azərbaycana gəldim. Doğma Bakıda yaşamaq mənim üçün mümkün olmadı, Naxçıvana getdim.

O vaxt Naxçıvan ağır vəziyyətdə idi. Ermənistanla Azərbaycan arasında olan münaqişə, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində Azərbaycanın böyük hissəsi ilə, Bakı ilə Naxçıvanın əlaqələri tamamilə qırılmışdı. Naxçıvana kömək lazım idi. **Naxçıvana yardım əlini, kömək əlini məhz Türkiyə, türk xalqı uzatdı, Türkiyənin böyük şəxsiyyəti, türk dünyasının böyük lideri, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl uzatdı. Biz o vaxt Azərbaycanla Türkiyəni bir-birinə bağlaya bilən bir körpünün - Araz çayı üzə-**

rində körpünün tikilməsinə başladıq. Bu körpünü müştərək tikdik, amma bunun bütün zəhməti, əziyyəti, xərci, məsrəfləri Türkiyənin üzərinə düşdü. Qısa bir müddətdə bu körpünü tikdik və 1992-ci il may ayının 28-də bu həsrət, ümid körpüsü təntənəli surətdə açıldı və biz hamımız orada çoxlu insanın toplaşdığı şəraitdə bunu bayram etdik. Bizim xalqımız öz qardaş-bacıları - Türkiyə torpağında yaşayan qardaş-bacıları ilə bir-birinə qovuşdular.

O illərdə, düz altı il bundan öncə - 1992-ci ilin fevral ayında əziz dostum, qardaşım Süleyman Dəmirəl məni Ankaraya dəvət etdi. Yolum Qarsdan düşdü. Mən Qarsa gəldim və Cümhur Başkanı Süleyman Dəmirəlin təyyarəsi Qarsa gəldi, məni oradan götürdü. İlk dəfə Qarsı gördüm. Qars bizim xəyalımızda əfsanəvi bir şəhər, əfsanəvi diyar, qədim türk diyarıdır, bizim üçün doğma bir diyar, doğma yerdir. Biz Qars haqqında on illərlə kitablardan oxumuşduq, tarix kitablarından oxumuşduq. Qars qurtuluş savaşını yaxşı bilirdik. Qarsda türk xalqının göstərdiyi qəhrəmanlıqları yaxşı bilirdik. Nəhayət, Qars müqaviləsi var - 1921-ci ildə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Cümhuriyyəti və Rusiya, Ermənistan Cümhuriyyətləri arasında Qars anlaşması imzalanıbdır. Bu anlaşmaya görə də Naxçıvan Muxtar Cümhuriyyətinin statusu müəyyən olunub və Türkiyə Naxçıvanın təhlükəsizliyinin təminatçısı kimi o anlaşmaya imza atıbdır. Ona görə Qarsın bütün başqa tarixi səbəblərlə yanaşı, bizim üçün belə bir böyük əhəmiyyəti də var. Mən ilk dəfə Qarsa gələndə bunların hamısına görə Qarsı böyük məhəbbət, sevgi hissi ilə ziyarət etdim. Oradan Ankaraya gəldim.

Xatirimdədir, sonra - 1992-ci ilin sonunda İqdır vilayət elan olunanda, orada il elan olunanda əziz dostum, qardaşım İqdıra gəlmişdi. Mən də oraya dəvət olunmuşdum. Bu hadisəni bir yerdə bayram etdik, sonra bərabər Qarsa gəldik. Mən gördüm ki, Türkiyənin Cümhur Başkanı Süleyman Dəmirələ nə qədər böyük hörmət-ehtiram və sevgi, məhəbbət var. İnsanlarla birlikdə görüşdük.

Qars haqqında xatirələrimi bu gün danışmaq mənim üçün çox əhəmiyyətlidir. Amma Qars bələdiyyəsi başkanının da Azərbaycanın son dövr tarixi haqqında bu qədər dəyərli sözlər deməsi, yəni tarixi bu qədər yaxından və düzgün bilməsi, düzgün qiymətləndirməsi məni heyran etdi. Biz Qars haqqında düşündüyümüz, fikirləşdiyimiz kimi, Qarsda da Azərbaycan haqqında düşünürlər, Azərbaycan haqqında fikirləşirlər. Bu, çox gözəl, çox önəmlidir, çox böyük sevinc hissi doğurur. Həqiqətdir."

Xalqlarımız arasındakı əməkdaşlıq əlaqələri və dostluq telləri günü-gündən inkişaf edərək yüksəldiyi kimi, türk xalqının iki böyük oğlu arasında yaranan dostluq da böyüyərək inkişaf etmiş, kristallaşmış, əbədi birliyə çevrilmişdir. Ən başlıcası isə bu dostluq xalqlarımızın birbirinə yaxınlaşmaq istəyini öz arxasınca aparan bir lokomotivə, onları saflaşdıran və kamilləşdirən bir qüvvəyə çevrilmiş, xalqlarımıza xidmətə yönəlmişdir. Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf yollarının və Prezident Süleyman Dəmirəlin bu dövrdə xalqımız qarşısındakı xüsusi xidmətlərini onun 1995-ci ilin 7-9 dekabrında Azərbaycana rəsmi səfəri zamanı ictimaiyyətlə görüşdə Prezidentimiz belə təsvir etmişdir:

"Hörmətli Süleyman Dəmirəlin Azərbaycanın ayrılmaz hissəsi olan, ağır bir şəraitdə yaşayan Naxçıvan Muxtar Respublikasına göstərdiyi qayğı və diqqət haqqında xüsusi olaraq danışmaq istəyirəm. Bunun

çox böyük əhəmiyyəti var. Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişə başlanandan Naxçıvan Muxtar Respublikası blokada şəraitinə düşmüşdü. Orada insanlar çox çətin bir vəziyyətdə yaşayırdılar. Bakı ilə, Azərbaycanın başqa bölgələri ilə nəqliyyat əlaqələrinin, bütün kommunikasiya xətlərinin kəsilməsi Naxçıvan Muxtar Respublikasını, onun vətəndaşlarını çox ağır bir vəziyyətə salmışdı. Belə bir vaxtda, zamanda Türkiyə Cümhuriyyəti Azərbaycana, onun ayrılmaz hissəsi olan Naxçıvana öz kömək əlini uzatdı. Məhz Türkiyə Cümhuriyyətinin səyi ilə Türkiyəni Azərbaycana bağlayan, Türkiyə ilə Naxçıvan arasında qısa bir müddətdə əzəmətli bir körpü tikildi. Bu körpü tikilərkən bütün Azərbaycan ona baxırdı. Xüsusən Naxçıvan Muxtar Respublikasının əhalisi ona həsrətlə, ümidlə baxırdı. Arazın o tayında da bizim qardaşlarımız, soydaşlarımız həsrətlə, ümidlə baxırdılar. Ona görə də körpünün adı "Həsrət körpüsü", "Ümid körpüsü" oldu.

O körpü tikildi və hörmətli Süleyman Dəmirəllə danışıqlarımız nəticəsində məhz Azərbaycanın İstiqlal günü - 1992-ci ilin 28 May günündə onunla bərabər çoxsaylı nümayəndə heyəti, Türkiyənin nazirləri, millət vəkilləri, mətbuat nümayəndələri təyyarə ilə Naxçıvanın hava limanına endilər. Bu, Naxçıvan Muxtar Respublikasının tarixində ilk hadisə, haldır ki, ora başqa bir dövlətin başçısı bu qədər böyük tərkibli nümayəndə heyəti ilə gəlsin. Xatırlayıram, Naxçıvan Muxtar Respublikasının bütün əhalisi ayağa qalxmışdı. Hava meydanından körpüyə qədər, Arazın qırağına qədər - Türkiyəni Azərbaycana bağlayan körpüyə qədər 75 kilometrlik yolun o tərəfində də, bu tərəfində də insanlar çəpər qurmuşdular - insan çəpəri. Naxçıvan Muxtar Respublikasının bütün əhalisi o gün oraya toplaşmışdı.

Bu körpünü böyük təntənə ilə açdıq. O körpü uzun illər - on illərlə Türkiyənin də, Azərbaycanın da arzusu olmuşdur. Nəhayət, bu arzu həyata keçirildi. İndi bu körpü vasitəsilə Azərbaycanla Türkiyə arasında, ərazilərimiz arasında əlaqələr yaranıbdır. İnsanlar bundan istifadə edir və çox böyük fayda görürlər.

Naxçıvanı ağır şəraitdən çıxarmaq üçün qısa bir müddətdə Naxçıvan Muxtar Respublikasına Türkiyədən elektrik xətti çəkildi. Elektrik enerjisi yox idi. Xatirimdədir, qış günlərində türkiyəli qardaşlarımız həmin elektrik xəttini çəkərkən şaxta o qədər şiddətli idi ki, onların əlləri məftillərə yapışırdı. Ancaq onlar işləyirdilər, çalışırdılar ki, üzərlərinə qoyulmuş bu vəzifəni layiqincə yerinə yetirsinlər. Bir bu deyil, 1992-ci ildə Naxçıvan Ermənistan tərəfindən hücuma məruz qaldı. O vaxt biz səsimizi bütün dünyaya qaldırdıq. Hörmətli Süleyman Dəmirəl oradan uca səsi ilə "Naxçıvandan əlinizi çəkin" dedi. Beynəlxalq aləm bu məsələyə qarışdı. Bundan sonra bizim sıx əlaqələrimiz oldu və Naxçıvana Türkiyədən hər cür yardımlar gəldi.

Mən bunu xüsusi deyirəm, ona görə ki, bilirsiniz, Naxçıvan xüsusi statusa malikdi. Vaxtilə məhz Türkiyənin iştirakı ilə məşhur "Qars müqaviləsi" əsasında, məşhur "Moskva müqaviləsi" əsasında Naxçıvan Muxtar Respublikasına xüsusi status verilmişdir və bu statusa görə Naxçıvanın statusunda bir dəyişiklik Türkiyənin icazəsi olmadan ola bilməz. O vaxt məhz Naxçıvan təhlükə altında olduğu zaman, Ermənistan Azərbaycana təcavüzünü şiddətlə həyata keçirdiyi zaman, Naxçıvan da təhlükə altında olduğu zaman biz hörmətli Süleyman Dəmirəllə birlikdə Ankarada "Qars müqaviləsi"nin nə qədər böyük əhəmiyyətli olduğunu bütün dünyaya bəyan etdik. Hamıya

xəbərdarlıq olundu ki, Naxçıvanı qoruyanlar var, Naxçıvandan əllərini çəkməlidirlər.

Bütün bunların hamısı tariximizin səhifələridir. Bütün bu proseslərdə Türkiyə Cümhuriyyətinin, xalqının və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin xüsusi rolunu mən bu gün burada qeyd etməyi özümə borc bilirəm."

Türkiyə ilə ölkəmiz arasındakı əlaqələr Prezident Heydər Əliyev ölkəmizə rəhbərlik etməyə başladıqdan sonra daha geniş vüsət aldı, özünün indiki keyfiyyətlərini qazandı.

Prezidentimizin Türkiyə ilə tanışlığı, bu ölkənin rəhbərləri ilə əlaqələri, əlbəttə, əvvəllər də olmüş, yaradılmışdı. Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra bu əlaqələr iki müstəqil və qardaş ölkənin əlaqələrinə çevrildi, Prezident Heydər Əliyevin səyləri və atdığı addımlar, gördüyü işlərlə daha da canlandı. Onun Türkiyəyə ilk rəsmi səfəri buna ən bariz nümunədir.

1994-cü il fevral ayının 8-11-ndə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Türkiyə Respublikasına dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etdi. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalandı.

Əsrlərlə formalaşan birlik, əsası hələ 70-ci illərdə qoyulan Türkiyə-Azərbaycan dostluğu bu ziyarətdən başlayaraq yeni bir forma kəsb etdi və rasional bazaya əsaslanan bir təməl əsasında inkişaf etməyə başladı.

Səfər zamanı Prezident Heydər Əliyev Türkiyənin Prezidenti Süleyman Dəmirəl, Baş Naziri Tansu Çillər, Xarici İşlər Naziri Hikmət Çətin, TBMM-in başçısı Hüsaməddin Cindoruk, ölkənin əsas aparıcı partiyalarının liderləri Məsud Yılmaz, Dəniz Baykal, Alparslan Türkeş, Büləәnd Ecevitlə, Türkiyə Parlamentinin üzvləri, Türkiyədəki Azərbaycan diasporunun üzvləri ilə, Türkiyədə akkreditə olunmuş diplomatik korpusun başçıları ilə görüşmüş, Ankaranın Höcəttəpə Universitetinin fəxri doktoru diplomuna layiq görülmüş, İhsan Doğramacının qonağı olmuş, "Bosfor deklarasiyası"nın qəbulu ilə başa çatan və müxtəlif ölkələrin din xadimlərinin İstanbulda çağırılan "Sülh və razılıq" konfransının iştirakçıları ilə, Türkiyədə oxuyan tələbələrlə və türk iş adamları ilə görüşlər keçirmişdir.

Hələ 1993-cü ilin iyun ayının 24-də Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə cənab Heydər Əliyevə Ali Sovetin sədri kimi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri verilərkən o bəyan etmişdi ki, "Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir" *(Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, s.15)*. Bu o demək idi ki, bütün dövlətlərlə, o cümlədən Türkiyə ilə qurulmuş əlaqələr ən azı öz əvvəlki səviyyəsində qalacaqdır. Bu bəyanat hər iki xalqı bir növ sakitləşdirdi, sabiq hakimiyyət nümayəndələrinin onlardan sonrakı dövrdə iki qardaş ölkə arasındakı əlaqələrin pisləşməyə doğru yönələcəyi barədəki bəyanatlarının yalan olduğunu, heç bir bazaya əsaslanmadığını göstərdi.

Əlbəttə, bu bəyanatların heç bir əsası olmadığı az-çox siyasətdən baş çıxaranlar üçün gün kimi aydın idi. Heydər Əliyev kimi böyük bir siyasətçi Qarabağ uğrunda ağır döyüşlər getdiyi bir vaxt Qərbə açılan qapımızı öz əli ilə bağlaya, Türkiyə kimi sadiq müttəfiqimizdən ölkəmizi məhrum edə bilməzdi. Hadisələrin sonrakı inkişafı onu göstərdi ki, Prezident Heydər Əliyev verilən bəyanatların əksinə olaraq Türkiyə ilə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində aparılan işləri intensivləşdirmək kursu götürdü. Türkiyənin də daxil

olduğu regional təşkilatlarla qurulan əlaqələrin genişləndirilməsi üçün konkret addımlar atılmağa başlandı. O, Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirərkən 5 iyul 1993-cü ildə İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının II görüşünün iştirakçılarına göndərdiyi Müraciətdə bildirmişdi ki, "... iqtisadi əməkdaşlığın inkişafı regionlarımızın və xalqlarımızın yaxınlığına xidmət edəcək, onlara dinclik, səadət və firavanlıq bəxş edəcəkdir. İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin - Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onların birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir" *(Müstəqilliyimiz əbədidir, I-ci kitab, Bakı, 1997, səh. 18)*.

Öz gücünü milli barışığa, bütün siyasi qüvvələrin sıx birliyinə nail olmağa, Azərbaycan ordusunun yaradılmasına yönəldən Prezident hələ çox əvvəllər yaranmış, o, Naxçıvan Muxtar Respublikasında Ali Sovetin sədri olarkən isə daha da möhkəmlənən Türkiyə və İran Prezidentləri ilə olan şəxsi dostluq münasibətlərindən də bu ölkələrlə daha yaxın əlaqələr qurmaq üçün istifadə etdi. Muxtar Respublikanın Ali Sovetinin sədri kimi Türkiyəyə yol çəkdirən, Araz çayı üstündən körpü saldıran, respublikanın ərzaq və enerji ilə təminatını təşkil etdirən Heydər Əliyev bu işləri qardaş və dost ölkə ilə artıq bütün sahələrdə və bütöv Azərbaycan səviyyəsində etməyə başladı.

Türkiyəyə ilk rəsmi səfərin məqsədlərini aydınlaşdıran Prezident Binə hava limanında curnalistlər üçün verdiyi müsahibədə bildirmişdi ki, bu səfər zamanı Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkə olan Türkiyə ilə ölkəmiz arasında əlaqələrin daha da genişlənməsi və inkişaf edilməsi üçün yeni işlər görüləcək və onlar hər iki ölkə üçün faydalı olacaqdır. Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə aradan qaldırılmasında ABŞ və Rusiya ilə birlikdə Türkiyənin də vasitəçilik etməsi barədə irəli sürülən təşəbbüs də müzakirə obyekti olacaqdır.

Türkiyə Cümhuriyyəti Prezidentinin iqamətgahı "Çankaya" köşkündə rəsmi qarşılanma mərasimində söylədiyi nitqdə isə faktiki olaraq bu ölkəyə münasibətdə təkcə öz hiss və düşüncələrini deyil, bütün Azərbaycan xalqının fikirlərini ifadə edərək belə bəyan etmişdir: "Bizim ölkələrimiz - Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası dost və qardaş ölkələrdir. Xalqlarımızın birliyi, qardaşlığı və dostluğu əsrlərdən əsrlərə keçərək formalaşmış və bu gün özünün yeni mərhələsinə çatmışdır... Azərbaycan Respublikasının müstəqilliyini dünya ölkələri arasında ilk dəfə Türkiyə tanımışdır. Bu isə o vaxt Azərbaycanın dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasında çox böyük addım olmuşdur.

Türkiyə ilə Azərbaycan arasında son illər çox faydalı əməkdaşlıq mövcuddur, əlaqələr gündən-günə inkişaf edir. Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir... Bu çətin və ağır dövrdə Türkiyənin köməyinə həmişə ehtiyacımız olub. Bu köməyi həmişə almışıq. Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr tam dostluq və qardaşlıq əlaqələridir və bundan sonra da qırılmazdır, sarsılmazdır... Bütün bu illərdə Azərbaycanı müdafiə etmək üçün Türkiyənin səsi çox gur gəlib. Türkiyənin köməyi Azərbaycana mənəvi dayaq olub.

Biz bu mənəvi yardımdan, köməkdən bu gün də istifadə edirik... Dost və qardaş Türkiyə Cümhuriyyəti ilə, qardaşlarımızla görüşüb danışıqlar, məsləhətləşmələr aparmağa daim ehtiyacımız olub. Güman edirəm ki, bu səfər, ziyarət vaxtı danışıqlarımızda da Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elmi-texniki, təhsil, humanitar və başqa sahələrdə əlaqələr yaratmaq barədə danışıqlar gedəcəkdir. Biz istərdik ki, bu əlaqələr daha da genişlənsin, inkişaf etsin və dərinləşsin. Şübhəsiz ki, Azərbaycan torpaqlarına erməni təcavüzü haqqında məsələni də burada müzakirə etmək fikrindəyik. Bu barədə Türkiyə Cümhuriyyəti rəhbərlərinin məsləhətlərinə, onların sözlərinə ehtiyacımız vardır" *(Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh.359-361).*

Belə məsləhətləşmələrə daim ehtiyac olduğunu dəfələrlə vurğulayan Prezidentimiz Türkiyə Cümhuriyyətinin banisi, görkəmli siyasi və ictimai xadim Mustafa Kamal Atatürkü bütün türk dünyasının, o cümlədən hər iki ölkənin xalqı və rəhbərliyi üçün ölməz bir örnək sayaraq Ankaradakı "Anıtkabır" məqbərəsindəki xatirə kitabına ilk rəsmi səfər zamanı aşağıdakı ürək sözlərini yazmışdı: **" Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal Atatürkün məzarı önündə, onun ruhu qarşısında hörmətlə baş əyirəm, ona Azərbaycan xalqının hədsiz məhəbbət və ehtiramını ifadə edirəm.**

Unudulmaz Atatürkün müqəddəs adı, solmayan siması min illərdən gələn Türkiyə və Azərbaycan dostluğunun və qardaşlığının gələcək yoluna parlaq işıq saçır.

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti, 8 fevral 1994-cü il".

İrəliyə gedərək onu da qeyd etməliyik ki, türk xalqları üçün Mustafa Kamal Atatürk şəxsiyyətinin nə qədər böyük əhəmiyyət daşıdığını, onların günügündən genişlənən və möhkəmlənən birliyinin mənəvi mənbəyi olduğunu dərindən anlayan Azərbaycan Prezidenti ilk rəsmi ziyarətin bu gözəl akkordlarını bir növ simfoniya halına gətirərək 2001-ci ildə Bakıda Atatürk Araşdırmalar Mərkəzi yaradılması barədə fərman vermiş, bununla da Türkiyə-Azərbaycan dostluğunun əbədiləşdirilməsi yolunda daha bir qətiyyətli addım atmışdır.

Prezidentin fikrinə görə çətinliklərə, müharibələrə və mücadilələrə baxmayaraq, iki xalq arasındakı tarixi köklər heç vaxt qırılmamış və qırılmayacaqdır. Bəzən hər iki xalqın övladları bir-birini görməyə, əlaqə saxlamağa həsrət qalsalar belə, ümidlərini itirməmiş, gələcəyə inamla baxmışlar. O vaxt ürəklər arasında olan körpü indi Azərbaycanın öz müstəqilliyini qazanması sayəsində həqiqətə, reallığa çevrilmişdir. İndi hər bir azərbaycanlı Türkiyədə, hər bir türkiyəli isə Azərbaycanda özünü evində olduğu kimi hiss edir. Lakin indiyə qədər yaranmış əlaqələr yüksək qiymətləndirilməklə yanaşı, gələcək işlər haqqında da düşünülməli, bunun üçün möhkəm bünövrə yaratmaq məqsədi ilə yeni müqavilələr, sənədlər, anlaşmalar imzalanmalı, beləliklə də ikitərəfli əlaqələrimizin yeni səhifələri açılmalı, yeni mərhələsi başlanmalıdır. 8 fevral 1994-cü ildə Ankarada "Çankaya" köşkündə Azərbaycan Prezidentinin şərəfinə verilən ziyafətdə söylənilən bu fikirlər sonralar əlaqələrimizin inkişaf etdirilməsi üçün hədəf seçilən bir mayaka çevrilmiş, irəliyə doğru hərəkətə istiqamət vermişdir.

Səfər zamanı Türkiyə Böyük Millət

Məclisində çıxış edən Azərbaycan Prezidenti Türkiyənin keçdiyi 70 illik yola böyük ehtiram və hörmətlə nəzər salmış, Mustafa Kamal Atatürkün, Turqut Özalın və Prezident Süleyman Dəmirəlin tarixi xidmətlərini, hazırkı dövlət rəhbərlərinin Azərbaycana böyük hörmət və qayğı göstərdiklərini, əlaqələrimizin inkişaf etməsi üçün var qüvvə ilə səy göstərmələrini xüsusi qeyd etmiş, əlaqələrimizə nəzər salaraq demişdir: "Türkiyə ilə Azərbaycan arasında əlaqələrin böyük tarixi var. Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu xalqlarımız bir-birinə oxşayan, yaxud azca fərqlənən adət və ənənələrini, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişlər. Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər. Azərbaycan ilə Türkiyə arasında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir. Bu, keçmişdə də belə olmuşdur və əlaqə saxlamağa imkanımız olmadığı vaxtlarda da qəlbimizdə məhz belə olmuşdur, indi di belə olaraq qalır. Ona görə də tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən çox ayırmağa çalışsalar da, buna müvəffəq olmamışlar. Odur ki, bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir" *(Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh 366.)*

Heydər Əliyev cəbhələrdəki çətin vəziyyətə baxmayaraq türk ordusunun 1918-ci ildə Azərbaycana gəlməsini və ölkəni daşnakların təcavüzündən xilas etməsini yüksək qiymətləndirmiş, hazırkı ordu quruculuğumuzda onun təcrübəsindən istifadə etməyin vacibliyini dəfələrlə vurğulamış, bu yolda qətiyyətli addımlar atılması və hərtərəfli əməkdaşlıq edilməsi üçün əlindən gələni əsirgəməmişdir. Türkiyə Cümhuriyyətində mühüm rol oynayan ordu rəhbərliyi ilə dəfələrlə görüşlər keçirmiş, fikir mübadilələri aparmış, əməli addımlar atılması üçün lazımi göstərişlər vermişdir.

O, həmişə Türkiyədəki dövlət quruculuğu təcrübəsindən istifadə etməyin ən qızğın tərəfdarı olmuş, bunu dəstəklədiyini dəfələrlə bəyan etmişdir. Türkiyədən mənəvi sahədə, dövlət quruculuğu sahəsində, beynəlxalq meydanda və başqa sahələrdə alınan köməkləri səmimi şəkildə etiraf edərək onları yüksək qiymətləndirmiş, onların ölkəmiz üçün ən çətin anlarda verildiyini vurğulayaraq, bunun Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb etdiyini bütün yüksək məqamlarda, KİV qarşısında və xalqın önündə dönə-dönə bildirmişdir.

"Türkiyə dövlətinin xarici siyasəti bizdən ötrü təcrübə məktəbidir və bundan səmərəli istifadə etməyə çalışırıq" deyən Azərbaycan Prezidenti istər Qərb, istərsə də Şərq dövlətləri ilə, o cümlədən qonşu ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmağın bizim üçün prioritet bir istiqamət olduğunu bəyan etmişdir. Ankara Höcəttəpə Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimindəki çıxışında: "Ölkəmiz bütün dövlətlərlə sülh və əmin-amanlıq əlaqələri yaratmaq istəyir. Azərbaycan dövləti öz xarici siyasətini məhz bu istiqamətdə yeridəcəkdir. Buna görə də Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələr yaratmağı xüsusilə önəmli hesab edir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləş-

dirmişdir. Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik və Azərbaycan ilə Türkiyə arasındakı əlaqələr dostluq, qardaşlıq əlaqələri olmaqla yanaşı, həm də iş əlaqələridir. Biz bu əlaqələri daha sürətlə davam etdirəcəyik" *(Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh. 377)* deyən Prezident xarici siyasətimizdə Türkiyənin nə qədər önəmli bir yer tutduğunu aydın şəkildə bildirmişdir.

Dövlətimizin başçısı öz siyasətində Türkiyəyə onun rəhbərliyinə, dövlətinə və xalqına yüksək önəm verir. Müstəqil dövlət quruculuğumuzda bu ölkə bizə örnək rolu oynayır. Onun təcrübəsi əsas kimi götürülür və inkişaf etdirilir. Bu zaman, əlbəttə bizə yaramayan bəzi ünsürlər kənara atılır. Bəziləri daha da müasirləşdirilir, kamilləşdirilir, yerindən və zamanından asılı olaraq dəyişdirilir və yerli şəraitə uyğunlaşdırılaraq tətbiq edilir. Yəni ölkəmizin başçısı bu ölkənin apardığı siyasəti, keçdiyi dövlətçilik yolunu tam şəkildə ideallaşdırmaqdan kənar bir siyasət aparır. Bu təcrübənin Azərbaycan mühitində tətbiqində onu kamilləşdirmək, müasirləşdirmək yolu ilə gedir. Onların səhvlərindən yan qaçır, düzgün hesab etdiyi məsələləri isə dövlət quruculuğumuzda tətbiq edir. Eyni zamanda bu təcrübənin bizə lazımlılığını və gərəkliyini səmimi şəkildə, hər iki xalq qarşısında etiraf edir.

Ölkəmizin başçısının bütün bu məsələlərə səmimi münasibəti əlaqələrimizdə mühüm rol oynayır. Onu da qeyd etmək yerinə düşərdi ki, bu münasibətlər qarşılıqlıdır və bu cür də davam etməkdədir.

Azərbaycan Prezidentinin Türkiyə rəhbərliyinə, dövlətinə və xalqına münasibəti elə onun Türkiyə - Azərbaycan sənədlərinin imzalanması mərasimində söylədiyi nitqdə də çox dolğun şəkildə ifadə olunmuşdur:

"Türkiyəyə səfərimiz zamanı biz burada çox böyük qonaqpərvərlik, insanpərvərlik gördük. Bütün bunlara görə mən və mənimlə gələn bütün nümayəndə heyətinin üzvləri Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə hökumətinə, bütün Türkiyə xalqına təşəkkürümüzü və ehtiramımızı bildiririk. Biz burada özümüzü həqiqətən öz evimizdə, Süleyman bəyin sözləri ilə desək, öz mənzilimizdə hiss edirik. Biz buraya böyük ümidlərlə gəlmişik və ümidlərimiz çin olub. Gözlədiyimizdən də artıq qonaqpərvərlik, dostluq və qardaşlıq münasibəti hiss etmişik, bu hisslərin təsiri altında yaşayırıq və uzun müddət bu hisslərin təsiri altında olacağıq. Çünki ən maraqlı cəhət bundan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir. Bu mərhələ əvvəldən indiyədək görülmüş işlərin üzərində qurulur. Ancaq indiki görüşlərimizin və danışıqlarımızın nəticələri bu işlərin daha da irəliləməsi, iqtisadiyyat, ticarət, mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlığın daha da genişlənməsi, daha da dərinləşməsi və xalqlarımızın, ölkələrimizin bir-birinə daha da yaxınlaşması üçün çox səmərəlidir. Bir sözlə, burada əldə olunan nəticələrdən qəlbən məmnunuq.

Burada olarkən görüşdüyümüz hər bir adam bizə çox böyük hörmət və qayğı göstərir. Xüsusən dostum və qardaşım Süleyman Dəmirəlin böyük qayğısı, xüsusi diqqəti məni heyran etmişdi. Mən bilirəm ki, biz dünən də, bu gün də harada olduqsa, harada görüşdüksə, bunlar hamısı Türkiyə Prezidenti Süleyman bəyin nəzarəti altındadır, onun qayğısı ilə bağlıdır. Bunlar bizim burada olduğumuz günlərdə gördüyümüz

işlərin hamısının müvəffəqiyyətlə başa çatmasına şərait yaratmışdır.

Hazırlanmış sazişlər, müqavilələr, anlaşmalar tarixi sənədlərdir və bizim gələcək əlaqələrimiz üçün yeni yollar, yeni cığırlar açır. Sizi əmin etmək istəyirik ki, biz bu yolla gedəcəyik və bu yoldan dönməyəcəyik.

Bir daha qeyd edirəm ki, Azərbaycan demokratik prinsiplər əsasında dövlət quruculuğu ilə məşğuldur. Azərbaycanda demokratiya, siyasi plüralizm üçün bütün imkanlar yaranır və yaranacaqdır. Biz Türkiyənin təcrübəsindən, inkişaf etmiş demokratik dövlətlərin təcrübəsindən istifadə edərək bu tədbirlərimizi daha da genişləndirəcək və dərinləşdirəcəyik. Əmin ola bilərsiniz ki, Azərbaycan bu yolun yolçusudur və bu yoldan dönməyəcəkdir. Azərbaycan müstəqil dövlətdir və daim bu yolla gedəcəkdir. Heç bir qüvvə onu bu yoldan döndərə bilməz. Müstəqillik Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün əbədidir.

Sizi əmin edirik ki, biz dostluğa və qardaşlığa həmişə sadiq olacağıq və gələcəkdə də bu dostluğun, qardaşlığın inkişaf etdirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Azərbaycanın qarşısında duran əsas problem öz müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələrini çıxarmaqdır. Bu sahədə bizim siyasətimiz dəyişməzdir. Biz bu məsələlərin sülh, barışıq yolu ilə həll edilməsinə çalışacağıq. Rica edirəm ki, Türkiyə bundan sonra da beynəlxalq təşkilatlarda, ATƏT-də və onun Minsk qrupunda və özünün başqa imkanlarından istifadə edərək Azərbaycanın bu probleminin sülh, barışıq yolu ilə həll olunmasına kömək etsin. Əminəm ki, Türkiyə bu köməyi bizdən əsirgəməyəcək. Eyni zamanda biz bütün gücümüzü toplayaraq, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün döyüşəcək, vuruşacaq və Azərbaycanın dövlət müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcəyik.

Əmin ola bilərsiniz ki, bu görüşlərimiz təkcə bizə deyil, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına yeni ruh və ilham verir. Bu ilhamla, bu əhval-ruhiyyə ilə də biz sənədlərin imzalanması mərasiminə gəlmişik. Bu əhval-ruhiyyə ilə də Vətənimizə qayıdacağıq.

Hörmətli Süleyman bəy, Sizə və bütün arkadaşlarınıza bir daha təşəkkür edirəm. Sağ olun!"

(Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh. 374-375).

Əlaqələrimizdəki səmimiliyə şübhə ilə yanaşanlar bəzi məsələlərə birtərəfli qiymət verməyə çalışmış, ölkə başçımızın qonşularla və bizim sabiq tərəfdaşlarımızla xoş münasibətlər yaratmasında belə mənfi axtarıb-tapmaq istəmiş, onların Azərbaycan-Türkiyə əlaqələrinin pisləşməsinə yönəldiyini sübut etməyə cəhd etmişlər. Lakin bütün bunlar həqiqətdən çox uzaqdır. Müstəqilliyimizin ilk illərində Azərbaycanın MDB kimi qurumlara daxil olmasına şübhə ilə yanaşan əleyhdarlarımıza cavab olaraq Heydər Əliyev Türkiyədə səfərdə olarkən qətiyyətlə bildirmişdi ki, Türkiyədəki qardaşlarımızda və dostlarımızda heç bir şübhə olmamalıdır ki, biz Azərbaycanın müstəqilliyini heç vaxt, heç vəchlə əldən verməyəcəyik. Gürcüstan və Ermənistan kimi qonşu ölkələrdə xarici ölkələrin qoşunları və hərbi bazaları var, Azərbaycan torpaqlarını isə yalnız öz ordumuz qoruyur.

Türkiyə ilə olan əlaqələrimizin xüsusi

xarakter daşıyacağını, başqa dövlətlərlə olan münasibətlərdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəyini bildirən Azərbaycan Prezidenti işimizin haqq işi, ədalət işi olduğu, Türkiyə və türk xalqı kimi yaxın dostumuz və qardaşımız olduğu üçün Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, ərazi bütövlüyümüzün təmin olunmasına nail olacağımıza əmin olduğunu Türkiyədəki görüşlərində dəfələrlə bəyan etmiş və alqışlarla qarşılanmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə ilə olan işgüzar əlaqələrimizə də həmişə böyük fikir vermiş və verməkdədir. Hər bir kiçik fürsətdən istifadə edərək iş adamları ilə görüşlər keçirən Prezidentimiz bu səfərində də öz ənənəsinə sadiq qalaraq Türkiyənin iş adamları ilə xüsusi görüş keçirmiş, dövlətlərarası müqavilələrin ilk növbədə iqtisadi əlaqələrimizin genişləndirilməsinə yönəldiyini, iki qardaş ölkənin iqtisadiyyatlarının bir-birinə daha da yaxınlaşması istəyindən irəli gəldiyini, ilk 3-4 ildəki əlaqələrin əsasən ticarət sahəsində olduğunu, indi isə bu əlaqələrin müştərək müəssisələr, sənaye obyektləri yaradılması, yeni iş yerləri açılması müstəvisinə keçməsinin lazım olduğunu bəyan etmiş, sənaye, kənd təsərrüfatı, sosial sahələrdə mükəmməl texnologiyaya malik olan iri və nüfuzlu şirkətləri iş görmək üçün Azərbacana dəvət etdiyini, onlar üçün bütün lazımi şəraitin və imkanların yaradılacağını vəd etmişdir.

Türkiyədə yaşayan azərbaycanlılarla görüş keçirən Prezident onları birliyə çağırmış, ölkəmizdə gedən proseslər haqqında onlara məlumat vermiş, müstəqil Azərbaycanın möhkəmlənməsində öz köməklərini əsirgəməməyə səsləmiş, elə ilk görüşdən Dünya Azərbaycanlılarını ayrılmalara, qruplaşmalara və parçalanmalara son qoyaraq bir təşkilat halında birləşməyə çağırmış, bu çağırışı ilə gələcək Dünya Azərbaycanlılarının I qurultayının (2001-ci il, Bakı) təməl daşını qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev özünün Türkiyəyə olan ilk rəsmi səfərinin sonunda İstanbulda mətbuat mərkəzində jurnalistlər və kütləvi informasiya vasitələri nümayəndələri üçün mətbuat konfransında bəyanatla çıxış etmiş, ilk rəsmi ziyarətin nəticələri barədə ətraflı məlumat vermişdir. Bəyanatda deyilir:

"Türkiyəyə səfərimiz sona çatır. Biriki saatdan sonra biz Türkiyədən ayrılacağıq. Gördüyümüz işlər haqqında, mənim Türkiyəyə səfərimin məqsədi haqqında sizə məlumat vermək üçün görüşünüzə gəlmişəm.

Bilirsiniz ki, Azərbaycan Prezidenti kimi fevralın 8-də mən Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli Süleyman Dəmirəlin dəvəti ilə buraya rəsmi səfərə gəlmişəm. Səfərin məqsədi Türkiyə ilə Azərbaycan arasında əlaqələri daha da genişləndirmək və inkişaf etdirməkdir. Bildiyiniz kimi, son illərdə bu əlaqələr sürətlə inkişaf etmişdir. Türkiyə Azərbaycanın istiqlaliyyətini dünyada tanıyan ilk dövlətdir. Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var. Dəfələrlə demişik və bu gün də qeyd edə bilərəm ki, hətta biz bir kökdən gələn xalqlarıq. Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır. Ancaq biz daim bu əlaqələri daha da inkişaf etdirməyə çalışırıq. Bu məqsədlə də Türkiyə Prezidenti, hörmətli Süleyman Dəmirəlin dəvətini qəbul edərək Türkiyəyə gəldim. Mənimlə birlikdə Azərbaycandan böyük bir heyət də

gəlmişdir.

Burada dörd gün ərzində görülən işlər mətbuatdan sizə məlumdur. Doğrudur, bəzi qəzetlərə baxanda görürük ki, onlar bu barədə çox az və qısa məlumat verirlər. Ola bilər, bu, Türkiyə mətbuatının xüsusiyyətidir. Ancaq mən guman edirəm ki, Türkiyə ictimaiyyəti, Türkiyə xalqı bu dörd gün ərzində Azərbaycan Prezidentinin səfərindən lazımınca xəbərdardır, bizim görüşlərimiz, danışıqlarımız ictimaiyyətə məlumdur.

Burada mən Türkiyə Prezidenti, hörmətli Süleyman Dəmirəllə çox ətraflı, geniş söhbətlər apardım. Türkiyənin Baş Naziri, hörmətli Tansu Çillərlə ətraflı danışıqlarımız oldu. Türkiyə Parlamentinin başçısı, hörmətli Hüsaməddin Cindorukla görüşümüz və çox mənalı söhbətlərimiz oldu. Mənim üçün çox mühüm hadisələrdən biri də Türkiyə Böyük Millət Məclisində millət vəkillərinə xitabən Azərbaycan haqqında, Azərbaycan ilə Türkiyənin əlaqələri haqqında və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında danışmağıma verilən imkan idi. Mən bu hadisəni yüksək qiymətləndirirəm və Türkiyə Böyük Millət Məclisində millət vəkilləri qarşısında çıxış etməyimdən çox məmnunam.

Bütün bu danışıqların, görüşlərin çox əhəmiyyətli nəticəsi olmalıdır. Bu nəticə ondan ibarətdir ki, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq müqaviləsi imzalanmışdır. Həmin müqavilədə çox əhəmiyyətli müddəalar var və bu sənəd gələcək əlaqələrimizin inkişafı üçün çox dəyərli və gərəkli əsasdır. Bununla yanaşı, biz Türkiyə Cümhuriyyətinin dövlət rəhbərləri ilə, nazirlərlə 16-dək müqavilə və protokol imzaladıq. Həmin sənədlərdə də ayrı-ayrı sahələrdə əlaqələrimizin genişləndirilməsi və inkişaf etdirilməsi proqramı öz əksini tapmışdır. Bizim əsas məqsədimiz əlaqələrimizi daha da çoxtərəfli etmək, daha da genişləndirmək, dərinləşdirməkdir.

Danışıqlarımızda bir problem də olmuşdur. Həmin problem ondan ibarətdir ki, indi Azərbaycan ağır müharibə şəraitində olduğuna görə, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarının 20 faizini itirdiyinə görə, işğal olunmuş həmin ərazilərdən 1 milyondan artıq vətəndaşımız qaçqın düşdüyünə görə Azərbaycana Türkiyə Cümhuriyyəti tərəfindən daha kəsərli, tutarlı yardım göstərilməsini Türkiyə Cümhuriyyətinin rəhbərlərindən rica etmişdik. Türkiyə hökuməti bundan əvvəl Azərbaycana 250 milyon dollar kredit vermişdir. Həmin kreditin az bir hissəsindən istifadə olunmuşdur, qalanından da indi istifadə edilməkdədir. Bəzi səbəblərə görə həmin kreditdən istifadə olunmasında çətinliklər yaranmışdır. Bunları aradan qaldırmaq üçün də müvafiq danışıqlar apardıq. Eyni zamanda bizim yeni kreditə ehtiyacımız var. Bir də Azərbaycan əhalisini çörəklə təmin etmək üçün ehtiyatlarımız tükəndiyinə görə və müharibə şəraitində başqa imkanlarımız olmadığına və yaxud bu imkanlar məhdud olduğuna görə Türkiyədən Azərbaycana pulsuz-parasız taxıl verilməsini Türkiyə rəhbərlərindən xahiş etdim.

Məmnuniyyət hissi ilə deyə bilərəm ki, bizə yüz min ton taxıl verilməsi barədə xahişimizə müsbət yanaşılmış, Türkiyənin rəhbərləri həmin xahişin yerinə yetirilməsi üçün müəyyən tədbirlər görüldüyü haqqında bizə məlumat vermişlər. Ümidvaram ki, Azərbaycanın bu dar, çox ağır günündə Türkiyə Cümhuriyyəti Azərbaycan xalqına qardaş köməyini əsirgəməyəcəkdir.

Bizim danışıqlarımızda Azərbaycan

ilə Türkiyənin xarici siyasət sahəsində də fəaliyyətinin əlaqələndirilməsi məsələsinə toxunulmuşdur. Hər iki tərəf belə fikrə gəlmişdir ki, Türkiyə xarici siyasət sahəsində də Azərbaycana kömək edəcək və biz beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrimizdə Türkiyənin dünyadakı nüfuzundan və təsirindən bundan sonra da istifadə edə biləcəyik.

Azərbaycan müstəqillik yoluna çıxmış gənc dövlətdir, biz xarici siyasətdə ilk addımlarımızı atırıq. Ona görə də bütün sahələrdə məsləhətlərə ehtiyacımız var və danışıqlarda bu barədə də razılığa gəlmişik.

İndi Azərbaycanın ən ağır problemi ölkəni erməni təcavüzündən xilas etməkdir. Bildiyiniz kimi, Ermənistan altıncı ildir ki, Azərbaycana qarşı hərbi təcavüz edir. Bunun nəticəsində Azərbaycan torpaqlarının bir hissəsi işğal olunmuş, onun ərazi bütövlüyü pozulmuş, bir milyonadək vətəndaşımız öz yaşayış yerlərindən didərgin düşmüşdür. Onlar Azərbaycanın başqa bölgələrində çox çətin şəraitdə yaşayırlar. Ona görə də Azərbaycanla Ermənistan arasında gedən müharibəyə son qoymaq, respublikamızın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin etmək məsələsi danışıqlarımızda mühüm yer tutmuşdur. Türkiyə Cümhuriyyətinin rəhbərləri Azərbaycan Respublikasının bu sahədə həm diplomatiya yolu ilə gördüyü işlərə, həm də xalqı səfərbər edib torpaqlarımızı qorumaq üçün gördüyü tədbirlərə müsbət qiymət vermişlər. Bu məsələlər ətrafında geniş fikir mübadiləsi aparmışıq və deyə bilərəm ki, mövqelərimiz eynidir.

Ermənistanın Azərbaycana təcavüzü misli görünməmiş təcavüzdür. Bəlkə də dünya miqyasında buna bənzər təcavüz olmamışdır. Azərbaycanın əvvəlki dövlət orqanları ölkənin ərazi bütövlüyünü qoruyub saxlamaq üçün lazımi tədbirlər görə bilmədiyindən, Ermənistan silahlı qüvvələri öz niyyətlərini həyata keçirmiş və qeyd etdiyim kimi, Azərbaycan torpaqlarının bir hissəsini işğal etmişdir. Biz bu məsələ ilə çox ciddi məşğul oluruq. Çünki bu, Azərbaycan üçün ən başlıca problemdir. Şübhəsiz ki, biz bu məsələni sülh yolu ilə, danışıqlar vasitəsilə həll etmək istəyirik. Bu baxımdan biz daim BMT-nin və başqa beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in, onun Minsk qrupunun, böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışırıq.

Bildiyiniz kimi, bir müddət öncə ABŞ, Türkiyə və Rusiya Azərbaycanla Ermənistan arasındakı müharibəyə son qoymaq üçün təşəbbüs göstərmişdilər. Azərbaycan tərəfi bu təşəbbüsü bəyənmiş və qəbul etmişdir. Təəssüf ki, bu təşəbbüs də həyata keçirilmədi. BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Bu sənədlərin hamısında erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması tələb olunur. Ancaq təəssüf ki, Ermənistan Təhlükəsizlik Şurasının bu qətnamələrinə məhəl qoymamışdır və özünün işğalçılıq siyasətini davam etdirir. ATƏT-in Minsk qrupunun rəhbərləri 1993-cü ilin iyulunda Bakıda olmuş və biz çox danışıqlar aparmışdıq. O vaxt erməni silahlı qüvvələrinin işğal olunmuş Kəlbəcər və Laçın rayonlarından çıxması haqqında protokollar hazırlanmışdı. Biz həmin protokolların həyata keçirilməsinə razılıq verdik. Təəssüf ki, erməni tərəfi bununla razılaşmadı. Hətta ATƏT-in, onun Minsk qrupunun fəaliyyətinə hörmətsizlik edərək, Minsk qrupunun sədri, cənab Mario Raffaelli Azərbaycanın Yuxarı Qarabağ və Ağdam bölgələrinə səfər edib gedəndən bir

neçə gün sonra erməni silahlı qüvvələri respublikamızın Ağdam şəhərini işğal etdilər.

Beləliklə, yəqin ki, sizdən ötrü aydındır: Ermənistan tərəfi məsələni zor ilə, güc ilə həll etmək istəyir. Azərbaycan Respublikasını diz çökdürmək, öz iddialarını həyata keçirmək istəyir. Biz isə beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq. Diplomatiya yoluna daha çox üstünlük veririk. Bunları görən kimi erməni silahlı qüvvələri onları dəstəkləyən xarici qüvvələrin və ayrı-ayrı qrupların yardımı ilə Azərbaycanın yeni-yeni ərazilərini işğal etməyə çalışırlar.

Belə bir vəziyyətdə Azərbaycan xalqı öz gücünü, qüdrətini toplamalı idi. Yəni bir halda ki, bizim sülhsevər siyasətimiz nəticə vermir, deməli döyüş yolu ilə torpaqların azad edilməsinə nail olmalı idik. Bunu əvvəl də etmək lazım idi. Təəssüflər olsun, tam qətiyyətlə demək olar ki, əvvəlki illərdə Azərbaycanda sağlam, bir mərkəzdən idarə olunan və güclü ordu olmamışdır. Azərbaycanla Ermənistan arasında gedən müharibədə Azərbaycan tərəfi pərakəndəliyə yol vermiş, ayrı-ayrı siyasi qüvvələr, siyasi qruplar dövlət vəzifələrində olarkən yalnız öz siyasətini yeritmiş, bu isə Azərbaycanı zəiflətmiş, yaxud da ona qüvvələrini toplamağa imkan verməmişdir. Erməni silahlı qüvvələri isə bu fürsətdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə başlamışdır. Təsəvvür edin ki, Azərbaycanın bəzi torpaqları işğal olunarkən heç döyüş də getməmişdir. Erməni silahlı qüvvələrinin bir neçə tankının bölgəyə girməsi və daxildə ayrı-ayrı təxribatçı qrupların hay-küy salması nəticəsində adamlar həmin bölgələrdən qaçmışlar.

Məsələn, indi Kəlbəcər bölgəsində ay yarımdır ki, qanlı döyüşlər gedir. Azərbaycan ordusu işğal olunmuş Kəlbəcər torpaqlarının bir hissəsini geri almışdır. Ancaq bu, asan başa gəlmir, erməni silahlı qüvvələri güclü müqavimət göstərirlər. Azərbaycan ordusunun üstünlüyü nəticəsində erməni qüvvələri böyük itki verərək geri çəkilirlər. Halbuki bir il bundan öncə erməni silahlı qüvvələri heç bir döyüş əməliyyatı aparmadan, asanlıqla Kəlbəcər bölgəsini işğal etmiş və oranın altmış min nəfər əhalisi hay-küyə uyaraq öz yerlərindən qaçıb getmişdi.

Yəni demək istəyirəm ki, Azərbaycan son illərdə ordu yaratmaq üçün lazımi tədbirlər görmədiyinə, öz torpaqlarını etibarlı müdafiə etmək üçün ordusu olmadığına görə erməni silahlı qüvvələri üstünlük əldə etmişlər. Ona görə də biz son aylarda Azərbaycan ordusunun yaradılmasına çox fikir veririk. Şübhəsiz ki, belə böyük iş qısa müddətdə həyata keçirilə bilməz. Ancaq biz müharibə şəraitini nəzərə alaraq gecə-gündüz bu məsələ ilə məşğul oluruq və bu iş ilk nəticələrini verir. Həmin nəticələr isə ondan ibarətdir ki, əvvəlki illərlə müqayisədə indi Azərbaycan xalqında milli şüur, torpaqları müdafiə etmək əhval-ruhiyyəsi, vətənpərvərlik əhval-ruhiyyəsi, döyüş ruhu, qəhrəmanlıq ruhu yüksəlmişdir. İndi Azərbaycan əsgərləri, zabitləri qorxmadan, çəkinmədən döyüşə girir, erməni silahlı qüvvələrinə ağır zərbələr endirərək çox yerlərdə onları geri oturdur və işğal olunmuş kəndləri, qəsəbələri geri almağa çalışırlar.

Tam həqiqəti sizə çatdırmaq üçün bir daha deyirəm ki, bu, çox ağır və çətin məsələdir. Çünki Azərbaycan ordu quruculuğuna biganə münasibət bəslədiyi vaxtlarda Ermənistan tərəfi ordu yaratmağa çox ciddi fikir verirdi. Onlar çox təcrübəli zabitlər, tankçılar, topçular hazırlamışlar. Ona görə

də bizim qısa müddətdə hazırladığımız zabitlər və əsgərlər məhz qəhrəmanlığına, cəsarətinə görə, bəzən təcrübələri az olmasına baxmayaraq, mərdliyi, mətanəti sayəsində çox yerdə erməni silahlı qüvvələrinə qalib gəlirlər. Bu iş davam edir, ancaq açıq demək istəyirəm ki, o qədər də asan iş deyildir. Çünki bildiyiniz kimi, xaricdən Ermənistana kömək edən qüvvələr çoxdur, ayrı-ayrı dövlətlər, maliyyə cəhətdən böyük imkanları olan qruplar, müxtəlif beynəlxalq siyasi qruplar Ermənistana siyasi, maddi və başqa yardım göstərirlər. Bütün bunlar torpaqlarımızı azad etmək uğrunda apardığımız ədalətli müharibəni, şübhəsiz ki, çətinləşdirir.

Ancaq ən önəmli cəhət, ən mühüm cəhət ondan ibarətdir ki, əsgərlərimizin, zabitlərimizin hazırlığı o qədər çox olmasa da, qeyd etdiyim kimi, artıq onlarda güclü vətənpərvərlik hissi yaranmışdır. Məsələn, beş-altı ay bundan əvvəl Azərbaycanda ordudan fərarilik edənlərin sayı çox idi. Bu, böyük bir problemə çevrilmişdi. Təklif edirdilər ki, fərariləri ciddi cəzalandırmaq, hətta güllələmək lazımdır. Əslində bu, haqlı təkliflər idi. Çünki hər bir adam öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Hər bir vətəndaşın ən ümdə borcu orduda xidmət etməkdən, torpağını qorumaqdan ibarətdir. Əlbəttə, mən hərbi xidmətə yararlı olanları nəzərdə tuturam.

Son aylarda gördüyümüz tədbirlər nəticəsində fərarilərin bir qrupunu həbs edərək cəzalandırdıq. Sonra mən Prezident kimi, onları bağışladım. Qalan fərarilərə müraciət etdim, bildirdim ki, fərariliklə özünüzü xalqın gözündən salacaqsınız. Möhlət verdim ki, kim yanvarın onunadək könüllü şəkildə gəlib hərbi komissarlıqlara, hərbi prokurorluğa müraciət edərsə və orduya qayıdarsa, onların günahları bağışlanılır. Təsəvvür edin ki, indi onların əksəriyyəti ordu sıralarına qayıtmışdır, bəziləri cəsarətlə vuruşaraq hətta şəhid olmuşdur. Bu da onu göstərir ki, indi gənclərimiz arasında milli vətənpərvərlik ruhu yüksəlmişdir. Belə vəziyyət bizə imkan verir ki, bütün vasitələrdən - həm sülh danışıqlarından, diplomatik vasitələrdən, həm də ordumuzun, xalqımızın gücündən istifadə edərək Azərbaycan torpaqlarını işğalçılardan təmizləyək, Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin edək.

Mən burada Türkiyə dövlətinin rəhbərləri ilə, rəsmi şəxslərlə danışıqlarda bu sahədə bizim mövqeyimizin, siyasətimizin dəyişməz olduğunu bildirdim. Sizə də bu barədə məlumat verdim.

Son illərdə Azərbaycanın daxilində, ictimai-siyasi həyatında da çox böyük çətinliklər olmuşdur. Həmin çətinliklər indi də davam edir. Bu, nə ilə bağlıdır? Azərbaycanda bir tərəfdən müharibə getdiyi, onun torpaqlarının bir hissəsi erməni silahlı qüvvələri tərəfindən işğal edildiyi halda, bu vəziyyətdən istifadə edən ayrı-ayrı siyasi qruplar, qüvvələr ölkə daxilində hakimiyyət uğrunda mübarizə aparırdılar, torpaqlarımızın qorunmasını isə yaddan çıxarmışdılar. Son beş-altı ildə Azərbaycanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olmuşdur. Sonuncu belə dəyişiklik isə, bildiyiniz kimi, 1993-cü ilin yayında baş vermişdir. Şübhəsiz ki, bütün bu hakimiyyət dəyişiklikləri müstəqil Azərbaycan Respublikasının daxilində ictimai-siyasi proseslərin sivilizasiyalı səviyyədən aşağı olmasından irəli gəlmişdir. Yəni, ayrı-ayrı adamlar öz şəxsi mənafelərini, şəxsi məqsədlərini xalqın, ölkənin, dövlətin mənafelərindən üstün tuturlar. Nəticədə isə xalq böyük zərər çəkir.

Ona görə də son vaxtlar biz bu problemlərlə də məşğul oluruq. Bilirsiniz ki, 1993-cü ilin iyununda Azərbaycanda daxili ictimai-siyasi vəziyyət çox kəskinləşmişdi, artıq vətəndaş müharibəsi başlanmışdı. Gəncədə, Bakının ətrafında qardaş qanı tökülmüşdü. Bu fürsətdən istifadə edən ayrı-ayrı siyasi qruplar, xaricdən olan düşmənlərimiz, deyə bilərəm ki, erməni millətçiləri tərəfindən dəstəklənən qüvvələr Azərbaycanı bir neçə bölgəyə parçalamaq niyyətlərini həyata keçirməyə çalışırdılar. Elə vəziyyət yaranmışdı ki, Azərbaycan doğrudan da parçalana bilərdi. Biz bunun qarşısını almağa nail olduq.

İndi Azərbaycanda dövlət rəhbərliyində müəyyən qədər formalaşma gedir. Biz çalışırıq ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət daha da sabitləşsin. Onu da deyim ki, biz bu işlərin hamısını demokratiya, fikir azadlığı yolu ilə aparırıq və aparacağıq. Azərbaycan müstəqil dövlətdir və bu günlərdə mən dəfələrlə demişəm ki, Azərbaycan xalqı öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Müstəqil respublika kimi Azərbaycan demokratiya yolu ilə gedir. Dünya demokratiyasının təcrübəsindən bəhrələnən Azərbaycan bu təcrübəni öz milli, tarixi ənənələrinə uyğun olaraq həyatına tətbiq etməklə demokratiya yolu ilə irəliləyəcəkdir.

Daxili siyasətimizin əsas prinsipləri Azərbaycanda hüquqi demokratik dövlət qurmaq, cəmiyyət yaratmaqdır. Biz elan etmişik ki, Azərbaycanda milliyyətindən, dinindən, dilindən və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaş eyni hüquqa malikdir. Azərbaycan dövləti vətəndaşların bu hüququnun qorunmasına təminat verir. Biz Azərbaycanda çoxpartiyalı sistem olmasına şərait yaratmışıq. İndi ölkəmizdə qırxa qədər partiya var, mətbuat azadlığı geniş yayılmışdır. Kiçik bir dövlət olan, 7 milyon əhali yaşayan Azərbaycanda 600-ə qədər qəzet, curnal çıxır və hər kəs öz fikrini sərbəst ifadə edə bilir.

Ancaq təəssüf ki, Azərbaycanın daxili həyatında demokratik prinsiplər sahəsində lazımi təcrübə olmadığına görə, bəzən ictimai-siyasi qüvvələrin bir-birinə münasibəti respublikanın ümumi mənafeyinin qorunmasına deyil, bir-biri ilə düşmənçilik etməyə yönəldilir. Ola bilsin, bu, təbiidir. Dediyim kimi, Azərbaycan gənc müstəqil dövlətdir. Demokratik prinsiplər, siyasi plüralizm, fikir ayrılığı onun üçün yeni amillərdir. Bilirsiniz ki, Azərbaycan 70 il kommunist ideologiyası ilə yaşamışdır. Ona görə də insanların birdən-birə demokratik prinsiplərlə yaşamağa keçməsi çətindir. Bəzən də son illər ayrı-ayrı qruplar, təəssüf ki, bu demokratik prinsipləri ləkələmiş, təhrif etmişlər. Adamlar demokratiya bayrağı altında hay-küylə cürbəcür mitinqlər təşkil edərək öz şəxsi məqsədlərini həyata keçirməklə məşğul olmuşlar.

Bunlar hamısı Azərbaycanın daxili həyatının təbii prosesləridir. Mənə belə gəlir ki, biz, dövlətimizin rəhbərləri qətiyyətli yol tutmuşuq və Azərbaycan Respublikası demokratiya yolu ilə, insan hüquqlarının qorunması, siyasi plüralizm yolu ilə gedəcəkdir. Həmin çətinliklər yavaş-yavaş aradan götürüləcəkdir.

İqtisadiyyat sahəsinə gəldikdə isə, Azərbaycan yeni iqtisadi sistemə keçir. Əslində bu, təzə kəşf olunmuş sistem deyil, dünya təcrübəsində öz müsbət nəticələrini vermiş sərbəst iqtisadiyyat sistemi, təşəbbüskarlıq, sahibkarlıq prinsipləri əsasında qurulan iqtisadi sistemdir. Biz bunlar üçün imkan yaratmışıq və gələcəkdə də yaradacağıq. Həm ictimai-siyasi, həm də iqtisadi sahədə islahatlar aparırıq. Azər-

baycanın tam demokratiya yolu ilə getməsinə çalışacağıq. Buna heç kimin şübhəsi olmasın. Azərbaycanın indiki vəziyyəti haqqında ayrı-ayrı qrupların dedikləri, yaxud qəzetlərdə yazdıqları böhtançı fikirlər - Türkiyədə də belə şeylər yazılır - heç kəsi çaşdırmasın.

Türkiyədə də, başqa ölkələrdə də hamı əmin ola bilər ki, Azərbaycan müstəqil dövlətdir və günbəgün bu müstəqilliyi möhkəmləndirəcəkdir, nəyin bahasına olursa-olsun öz ərazi bütövlüyünü təmin edəcək, işğal olunmuş torpaqlarını erməni silahlı qüvvələrindən təmizləyəcəkdir. Kimi hansı məsələlər maraqlandırırsa, Azərbaycana gəlib öz gözü ilə görsün. Hansı məsələlər aydın deyildirsə, bizimlə görüşsün. İstəməzdim ki, Azərbaycanın belə ağır vəziyyətində ayrı-ayrı qüvvələr, şəxslər respublikamıza kömək etmək əvəzinə öz hərəkətləri ilə ona zərər vursun. Guman edirəm ki, onların hərəkətləri zərər vura bilməz, siyasətimizə heç bir ləkə gətirə bilməz.

Mən həm buradakı görüşlərimizin əsas məzmunu haqqında, həm də Azərbaycandakı mövcud vəziyyət barədə, elə bilirəm, yetərincə məlumat verdim. Çıxışımın sonunda demək istəyirəm ki, biz dörd gün ərzində Türkiyədə dostluq və mehribanlıq şəraitində olmuşuq, bizə çox böyük qonaqpərvərlik göstərmişlər. Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl də, ölkənin digər rəhbərləri də, sadə vətəndaşlar da azərbaycanlılara, Azərbaycana dostluq, qardaşlıq münasibəti göstərirlər. Səfər proqramımızın səmərəli şəkildə yerinə yetirilməsi üçün bütün imkanlardan istifadə olunmuşdur. Ona görə də mən Türkiyənin rəhbərlərinə - hörmətli Prezident Süleyman Dəmirələ, hörmətli Baş Nazir Tansu Çillərə, Parlamentin başçısı, hörmətli Hüsaməddin Cindoruka, bizi müşayiət edən nazirlərə və başqa şəxslərə minnətdarlığımı bildirirəm.

Əmin ola bilərsiniz ki, hər biriniz Türkiyədən Azərbaycana gəldiyiniz vaxt həmin dostluq və mehribanlıq şəraitində olacaqsınız. Mən sizi Azərbaycana dəvət edirəm. Gəlin, Azərbaycanı öz gözünüzlə görün".

Mətbuat konfransında "danışıqlarınızın başlıca nəticəsi nədir" sualına cavab verən Azərbaycan Prezidenti bildirmişdi: "ən böyük nəticə odur ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin yeni səhifəsi açıldı, yeni mərhələsi başlandı. Bir daha təsdiq olundu ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri davam edəcək və heç bir qüvvə buna təsir göstərməyəcəkdir." *(Müstəqilliyimiz əbədidir, I kitab, Bakı, 1997, səh. 399 - 410).*

Beləliklə, Prezident Heydər Əliyev dövlət rəhbəri kimi işə başladığı andan Azərbaycan-Türkiyə əlaqələri yüksələn xəttlə inkişaf etdi. İntensiv məsləhətləşmələr dövrü başladı. Prezident Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, "**bir millət, iki dövlət**" prinsipinə əsaslanan əlaqələrimiz heç bir konyunktur maraqlara xidmət etmədən, öz zəruriliyini və təbiiliyini gizlətmədən sabit bir hal aldı. Strateji müttəfiqlik mükəmməlləşməyə, dolğunlaşmağa başladı. Görüşlər və əlaqələr intensiv xarakter aldı.

***

Aradan bir müddət keçdikdən sonra Prezident Heydər Əliyev Belçikadan Bakıya dönərkən bir neçə saatlığa Ankarada oldu və Prezident Süleyman Dəmirəl ilə qısa bir görüş keçirərək məsləhətləşmələr apardı.

***

1994-cü ilin 9-10 iyununda isə ölkəmizin başçısı Türkiyəyə qısamüddətli daha bir işgüzar səfər etdi. Qısa müddət ərzində Prezident Süleyman Dəmirəl, Baş Nazir Tansu Çillər, Baş Nazirin birinci müavini Murad Qarayalçın, Xarici İşlər Naziri Hikmət Çətinlə ölkələrimiz arasındakı əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi məqsədi ilə danışıqlar və məsləhətləşmələr apardı. Bununla yanaşı, dünyanın bir çox ölkələrinin xarici işlər nazirlərinin İstanbulda olmasından istifadə edərək Prezidentimiz iki gün ərzində ABŞ-ın Dövlət Katibi cənab Uorren Kristoferlə, Böyük Britaniyanın Xarici İşlər Naziri Duqlas Herdlə, o dövrdə Minsk qrupuna rəhbərlik edən İsveçin Xarici İşlər Naziri xanım Marqaret af Uqlasla, Avropa İqtisadi Birliyinin sədri, Yunanıstanın Xarici İşlər Naziri Karolos Papuliasla mühüm görüşlər keçirmiş, regionda vəziyyət və Qarabağ probleminin həlli yollarını onlarla müzakirə etmişdir. Türkiyənin qonaqpərvərliklə belə mühüm görüşlərin keçirilməsinə fürsət yaratması təmənnasız qardaşlığa daha gözəl bir hədiyyə oldu.

Səfərin səbəbləri barədə curnalistlərin suallarına cavab verən Prezident Heydər Əliyev bəyan etmişdi ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdiyi indiki şəraitdə, bizim vaxtaşırı görüşməyə, danışıqlar, məsləhətləşmələr aparmağa ehtiyacımız var. Ona görə dostum, qardaşım Süleyman Dəmirəl məni Türkiyəyə dəvət edib. O, İstanbulda olduğu üçün rica edib ki, İstanbula gəlim, orada görüşərək əməkdaşlığımızın davam etməsi ilə əlaqədar bir sıra məsələləri müzakirə edək. Mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm...

Türkiyə və Azərbaycan dost, qardaş, qonşu dövlətdir. Ölkələrimiz arasında əlaqələr son vaxtlar çox sürətlə inkişaf edir. Bu ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olarkən bir çox mühüm müqavilələr, sazişlər imzalamışıq və bunların həyata keçirilməsi ilə hər iki tərəf məşğul olur. Bu yaxınlarda mən Belçikaya səfərdən Bakıya dönərkən də bir neçə saat Ankarada oldum. Türkiyənin rəhbəri ilə görüşdük, söhbətlər etdik, məsləhətləşmələr apardıq. Əmin olduğumu bildirmək istəyirəm ki, indiki qısamüddətli işgüzar səfər zamanı keçiriləcək görüşlər, danışıqlar iki ölkə arasında əlaqələrin inkişafına daha da kömək edəcəkdir.

Əlbəttə, həmişə olduğu kimi danışıqlarda Qarabağ probleminin həlli yolları və iki qardaş ölkə arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə əlaqədar digər məsələlər hərtərəfli müzakirə olunacaqdır.

Bu səfərlər və qarşılıqlı görüşlər elə ilk ildən öz nəticələrini verməyə başladı. Siyasi əlaqələrimizlə yanaşı iqtisadi əlaqələrimiz də inkişaf yoluna qədəm qoydu. İlk birgə obyektlərin təməli qoyulmağa başlandı. Prezidentimiz böyük ruh yüksəkliyi ilə bu mərasimlərdə şəxsən iştirak edir, onların hər iki xalq üçün önəmli olduğunu vurğulayırdı.

Belə tədbirlərin birində - 1994-cü ilin 29 iyulunda Bakıda Diplomatik kompleksin bünövrəsinin qoyulması mərasimində Prezident Heydər Əliyev çıxış edərkən Türkiyənin ayırdığı kreditlə inşa edilən bu binanın "qardaşlıq əlaqələrimizin inkişafının böyük rəmzi" olduğunu bildirmişdi.

***

Türkiyəyə ilk səfərdən sonra Türkiyə Respublikasının Xarici İşlər Naziri M.Soysal 10-11 sentyabr 1994-cü ildə Azərbaycana rəsmi səfər etdi.

***

Azərbaycan-Türkiyə münasibətlərinin

daha yüksək səviyyəyə qalxmasında 20 sentyabr 1994-cü il Azərbaycan Dövlət Neft Şirkəti ilə Qərb dövlətlərinin neft şirkətləri arasında bağlanmış neft müqaviləsinin əhəmiyyəti də böyük oldu və Türkiyə Respublikası tərəfindən bu sənədi imzalayan Dövlət Naziri N.Cevheri müqavilənin hər iki dövlət üçün kəsb etdiyi mühüm əhəmiyyəti xüsusi olaraq vurğuladı. Mərasimdə çıxış edən dövlət başçımız "Əsrin müqaviləsi"nə imza atan dünyanın məşhur şirkətləri içərisində "Türkiyə Petrolleri" şirkətinin də iştirak etməsinin sevindirici bir hal olduğunu göstərdi.

Prezident Heydər Əliyev harada olursa-olsun, Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etdirilməsi üçün hər bir kiçik fürsətdən belə istifadə etmiş, Türkiyə dövlətinin rəhbərləri və türk icmasının nümayəndələri ilə görüşlər keçirmişdir. Belə görüşlərin birində - 1994-cü il sentyabr ayının 26-da BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-da olarkən Nyu-Yorkdakı "Türk evi"ndə Amerikada yaşayan türk və Azərbaycanlı icmalarının nümayəndələri ilə görüşdə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin yeni bir mərhələyə çatdığını, gələrkən İstanbulda dayandığını və orada Türkiyənin Xarici İşlər Naziri Mümtaz Soysal və bir neçə digər dövlət nümayəndəsi ilə görüşdüyünü, elə indiki görüşün özündə belə Mümtaz Soysalın iştirak etdiyini görüş iştirakçılarının nəzərinə çatdırmışdı.

***

ABŞ-dan qayıdarkən Prezidentimiz oktyabr ayının 1-də Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəllə görüşmüş, Amerikada apardığı danışıqların məzmunu ilə Türkiyə Prezidentini tanış etmiş, onunla fikir mübadiləsi aparmışdı. Görüşdən sonra jurnalistlər qarşısında bəyanat verərək bildirmişdi ki, "qoy Türkiyədəki qardaşlarımızın hamısı da bilsin ki, Azərbaycan öz müstəqilliyi uğrunda indiyədək nə qədər mübarizə aparmışdırsa, bundan sonra daha çox mübarizə aparacaqdır" *(Müstəqilliyimiz əbədidir, II kitab, Bakı, 1997, səh.328).*

Sentyabrın 20-də Bakıda imzalanan "Əsrin müqaviləsi"nə toxunan Prezidentimiz onun gələcək əməkdaşlığımız üçün əhəmiyyətini belə açıqlamışdı: "Müqavilənin önəmli bir cəhəti də neft şirkətləri konsorsiumunda Türkiyənin iştirak etməsidir. Bu, bizim üçün çox əhəmiyyətlidir və güman edirəm ki, bunun sayəsində əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir.

Müqavilənin əsas cəhətlərindən biri gələcək neft kəmərinin marşrutu ilə bağlıdır. Şübhəsiz ki, biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini istəyirik. Biz bu istiqamətdə birgə səy göstərəcəyik. Süleyman bəy ilə də bunu müzakirə etmişik. Biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini önəmli sayırıq. Çünki bu, həm kəmərin təhlükəsizliyini təmin edəcək, həm də ölkələrimiz arasındakı əlaqələri daha da möhkəmləndirəcəkdir.

Türkiyənin Azərbaycanı daim müdafiə etməsi, ona diqqət yetirməsi təbiidir. Çünki Azərbaycan üçün Türkiyə ən yaxın dost və qardaş ölkədir. Türkiyə də Azərbaycanı belə bir ölkə və xalq kimi qəbul edir. Dostluğumuz və qardaşlığımız daimi, əbədidir və biz bunun belə olması üçün əlimizdən gələni əsirgəməyəcəyik" *(Müstəqilliyimiz əbədidir, II kitab, Bakı, 1997, səh.328-29).*

***

Bundan sonra 1994-cü il oktyabr ayının 18-19-da Azərbaycan Respublikası Prezidenti, cənab Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyənin İstanbul

şəhərində keçirilən Türkdilli Dövlət Başçılarının II Zirvə toplantısında iştirak etdi. Burada türkdilli xalqların hərtərəfli inkişafı və xüsusi ilə də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən "İstanbul Bəyannaməsi" qəbul edildi. Prezident Heydər Əliyevin digər Prezidentlərlə yanaşı Süleyman Dəmirəllə də yenidən görüşü oldu.

Prezident Heydər Əliyev Zirvə toplantısını bizim xalqımız, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli bir hadisə saymış, türkmənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizin, keçmişimizin canlandırılması və onun əsasında xalqlarımızın daha da yaxınlaşdırılması üçün mühüm bir vasitə hesab etmişdir. Hər hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, aparılan fikir mübadiləsi, türkdilli ölkələrin Prezidentlərinin ünsiyyəti - bunlar hamısı türk dövlətlərinin həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar yaradacağı qənaətinə gətirmişdir.

Zirvə toplantısında o bəyan etmişdi ki, İstanbulda bir kökdən olan, bir mənşədən olan, eyni dilə mənsub olan altı ölkənin başçıları, dövlət başçıları səviyyəsində keçirilən bu toplantı iki il öncə Ankarada keçirilmiş Zirvə toplantısının yaxşı ənənəsinin davamıdır. O, bu toplantının və bu ənənənin davam etməsinin vacibliyini bildirmiş, bu görüşün də Ankaradakı görüş kimi, gələcəkdə əlaqələrimizin inkişaf etməsi üçün yaxşı bir əsas yaradacağına əmin olduğunu söyləmişdi.

Ankara görüşündən iki il keçdiyini, bu müddət ərzində bir çox işlərin görüldüyünü, ancaq Ankara görüşündə əldə olunmuş qərarların hamısının tam yerinə yetirilmədiyini qeyd edən Azərbaycan Prezidenti türkdilli dövlətlərin rəhbərlərini bundan sonra daha çox nailiyyətlər əldə etmək üçün qəbul edilən qərarları yerinə yetirməyə çalışmağa çağırmışdı.

Prezident Heydər Əliyev görüşdə Xəzər dənizi ətrafında olan bütün ölkələri sıx əməkdaşlıq etməyə dəvət edərək göstərmişdi ki, təkcə Xəzər dənizinə bilavasitə çıxan ölkələr yox, başqa ölkələr də indi bu əməkdaşlığa qoşula bilər və ümumiyyətlə, həm Azərbaycanın, həm də digər ölkələrin təbii sərvətlərindən, o cümlədən enerci daşıyıcılarından istifadə edilməsi və onların ixrac olunması, dünya bazarına birgə çıxarılması bizim ölkələrimiz üçün çox əhəmiyyətli ola bilər. Bizim qonşu dövlətlərin bu barədə Azərbaycanın ərazisindən istifadə etmək fikirləri olsa, bu enerci daşıyıcılarını Azərbaycan ərazisindən başqa ölkələrə keçirmək fikirləri olsa, Azərbaycan buna şərait yaradacaqdır və bu barədə əməkdaşlıq etməyə hazırdır. Eyni zamanda Azərbaycanın regionda olan bu təbii sərvətlərdən istifadə olunmasında Türkiyənin ərazisindən istifadə edilməsinə çox üstünlük verdiyini və bu sahədə birgə əməkdaşlığa hazır oldüğünü bəyan etmişdi.

TÜRKSOY kimi proqramların yaranması və həyata keçirilməsini ölkəmizin böyük məmnuniyyətlə qəbul etdiyini bildirmişdi.

Toplantıda Türkiyə, İran, Səudiyyə Ərəbistanı kimi dövlətlərin Azərbaycanda qaçqınlar üçün çadır şəhərcikləri yaratdıqlarını, onların bir qismini öz öhdəliklərinə

götürdüklərini, beynəlxalq təşkilatların, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Qaçqınlara Yardım Komissarlığının, UNİSEF və başqa təşkilatların Azərbaycana kömək göstərdiklərini bildirən Azərbaycan Prezidenti türkdilli dövlət başçılarını da ölkəmizə həm iqtisadi, həm də mənəvi kömək etməyə, Qarabağ probleminin həllində səy göstərməyə çağırmışdı.

***

Dövlətimizin başçısı harada olursa-olsun, necə çətin olursa-olsun Azərbaycanımızın üzləşdiyi problemlərdən danışmaqdan heç vaxt çəkinməmiş, ölkəmizin istək və arzularını bütün böyük beynəlxalq məclislərdə dilə gətirmiş, bununla da Azərbaycan həqiqətlərini həmişə və hər yerdə dünyaya, o cümlədən qardaş türk xalqına çatdırmağa çalışmışdır.

Pezidentimizin bu istəyi hər bir görüşdə, onun hər bir işində özünü açıq şəkildə büruzə verir. O, 1994-cü il 1-2 noyabrda Türkiyədə keçirilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yubiley tədbirlərində vaxt qıtlığına baxmayaraq, burada da bir neçə dəfə, o cümlədən Ankaradakı "Hilton" mehmanxanasındakı iqamətgahında Türkiyə və Azərbaycandakı xarici ölkə səfirlərini qəbul edərək onların qarşısında çıxış etmiş, Ankara yaxınlığındakı Bilkənd Universiteti Şəhərciyində keçirilən yubiley şənliklərinin təntənəli açılışında nitq söyləmiş, Türkiyənin xarici iqtisadi əməkdaşlıq komitəsinin üzvləri - işgüzar dairələrin nümayəndələri ilə, həmçinin Türkiyədə yaşayan azərbaycanlılarla görüşlər, jurnalistlər üçün mətbuat konfransı keçirmiş, Türkiyə Parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulini anma mərasimində, Türkiyə Prezidenti Süleyman Dəmirəlin doğum günü münasibətilə "Çankaya" köşkündə keçirilən görüşlərdə çıxış etmiş, təbrik nitqi söyləmiş, ən nəhayət Türkiyə Böyük Millət Məclisinin sədri Hüsaməddin Cindorukla görüş keçirmişdir. Bütün bu sadalanan görüşlər Prezidentimizin bəzi müxalifət nümayəndələrinin dediyi kimi gəzməyə deyil, Azərbaycanın diplomatik əlaqələrinin genişlənməsi üçün gərgin əmək və zəhmət tələb edən işgüzar səfərlərə çıxdığını, hər səfər zamanı kiçik bir andan və fürsətdən belə istifadə edərək Azərbaycanın daxili və xarici siyasətinin əsas müddəalarını qarşı tərəfə çatdırmaq istəyini aydın şəkildə göstərir.

11-15 dekabr 1994-cü ildə İKT -yə üzv olan dövlətlərin başçılarının Kasablanka Zirvə toplantısında iştirak etmək üçün Mərakeşə gedərkən Prezident Heydər Əliyev İstanbulda dayanmış, jurnalistlərə müsahibə vermiş, görüşlər keçirmişdir. Zirvə toplantısının özündə isə Prezident Süleyman Dəmirəl ilə bir daha görüşərək məsləhətləşmələr aparmışdır.

Beləliklə, əgər təkcə bir ilə - 1994-cü ilə diqqətlə nəzər salsaq, Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsi üçün nə qədər böyük işlərin görüldüyünün şahidi olarıq. Təkcə bu il ərzində dövlət başçımız altı dəfə Türkiyədə olmuş, ölkə başçıları bir-biri ilə ona qədər görüş keçirmiş, rəsmi və ya qeyri-rəsmi danışıqlar aparmışlar. Hələ biz heç onlarla nümayəndə heyətlərinin səfərlərini, vaxtaşırı aparılan telefon danışıqlarını və məsləhətləşmələri, şəxsi nümayəndələrin səfərlərini demirik. Bütün bunlar ona dəlalət edir ki, Prezident Heydər Əliyevin hakimiyyət başına gəldiyi ilk gündən əlaqələrimiz yüksələn xətlə inkişaf etməyə, onun hüquqi əsasları qoyulmağa başlamışdı. Bunların əsasını isə iki Prezidentin yaratdığı dostluq əlaqələri və iki qardaş xalqın bir-birinə daha da yaxınlaşmaq istəkləri təşkil edirdi.

***

Nəhayət, 1994-cü ilə yekun olaraq göstərmək olar ki, Türkiyə Böyük Millət Məclisinin sədri H.Cindoruk 26-28 dekabr 1994-cü il tarixlərində Bakıda rəsmi səfərdə olmuş və bu səfər zamanı hər iki dövlətin parlamentləri arasında əməkdaşlıq haqqında yeni bir sənəd imzalanmışdır.

***

Bu dövrdə iqtisadi əlaqələrin daha da möhkəmlənməsi və genişlənməsi yolunda konkret addımlar atılırdı. Bunun nəticəsi kimi Türkiyə Respublikasının Baş Naziri, xanım T.Çillər və onu müşayiət edən Türkiyə hökumət üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevin dəvəti ilə 12 aprel 1995-ci il Bakıda qısa müddətli işgüzar səfərdə oldu və bu səfər əsnasında Türkiyə Respublikasının Neft Konsorsiumundakı 1,75%-lik payının Azərbaycanın neft payının hesabına 6,75%-ə qədər artırılması haqqında müqavilə imzalandı. Türkiyə Respublikasının payının 6,75%-dək artırılması Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb etdi.

Azərbaycan və Türkiyə Respublikaları arasında neft sahəsində əməkdaşlığa dair sazişin yüksək səviyyədə imzalanması mərasimində çıxış edən Azərbaycan Prezidenti Azərbaycan Dövlət Neft Şirkəti ilə "Türkiyə petrolları anonim ortaqlığı" şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların istifadə olunması üçün sazişin imzalanmasını böyük tarixi hadisə adlandırdı, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənməsində Azərbaycan Respublikasının payına düşən 20 faizin 5 faizini əlavə olaraq Türkiyə Cümhuriyyətinə, bu ölkənin şirkətinin sərəncamına keçməsinə razılığın Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etməsinə yardım edəcəyini bildirdi, Azərbaycan Respublikasına aid bütün məsələlərin həll olunmasında Türkiyənin çox prinsipial mövqe tutduğunu və bizi dəstəklədiyini, Ermənistanın təcavüzünü daim pislədiyini, Ermənistana bir təcavüzkar ölkə kimi öz münasibətini bildirdiyini göstərdi.

O, xüsusi olaraq vurğuladı ki, Türkiyə vəsaitinin Azərbaycan neftinin çıxarılmasına qoyulması və Türkiyənin bu müqavilədə fəal iştirak etməsi iqtisadi cəhətdən həm Azərbaycan, həm də Türkiyə üçün böyük əhəmiyyətə malikdir. Ancaq bunun mənəvi əhəmiyyəti, ölkələrimizin bu günü və gələcəyi üçün, dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi və inkişafı üçün qiyməti əvəzsizdir, bu da imzalanan sazişin əsasını təşkil edir.

İmzalama mərasimində Azərbaycan Prezidenti bir daha bəyan etdi ki, Azərbaycanın neftinin ixracı üçün boru xəttinin Türkiyədən keçməsi hər şeydən üstün və bizim üçün hər şeydən əlverişlidir. Biz bu sahədə də öz fikrimizi demişik və bundan sonra da deyəcəyik. Ölkələrimiz və xalqlarımız arasında olan əlaqələrin gələcək inkişafı üçün atılan bu addımı uğurlarımızdın biri, Prezident Heydər Əliyevin bir il ərzində keçirdiyi görüşlərin konkret nəticəsi hesab etmək olar.

Xanım Tansu Çilləri müşayiət edən Türkiyənin iş adamları ilə görüşdə çıxış edən Heydər Əliyev onları Azərbaycana sərmayə qoymağa dəvət etdi, dövlət çevrilişləri cəhdlərinin qarşısının alındığını, müstəqil Azərbaycan dövlətinin özünü qorumaq üçün, xalqını qorumaq üçün gücü və qüdrəti olduğunu bəyan etdi, Azərbaycana sərmayə gəlməsinə nə mane olursa, onu

aradan qaldırmağa hazır olduğunu qətiyyətlə bildirdi ki, bu da gələcək sərmayə axınları üçün yaşıl işıq yandırmaq demək idi.

***

Bu hadisədən az sonra Türkiyə Respublikasının tanınmış ictimai-siyasi xadimi, 25 ölkənin Tibb Akademiyalarının fəxri üzvü və Azərbaycan Prezidenti, cənab Heydər Əliyevin şəxsi dostu İ.Doğramacı 24-26 aprel 1995-ci il Bakıda səfərdə oldu, Azərbaycan Dövlət Opera və Balet Teatrında görkəmli alimin 80 illik yubileyi keçirildi. Təntənəli gecədə çıxış edən Prezidentimiz onu Azərbaycan xalqı, dövləti, bütün vətəndaşları adından və şəxsən öz adından səmimi qəlbdən təbrik etdi, ona cansağlığı, uzun ömür, gələcək fəaliyyətində böyük uğurlar dilədi, onun gördüyü işlərin və etdiyi xidmətlərin əsrlər boyu unudulmayacağını, onun Türkiyə, Azərbaycan xalqı, respublikamız, dövlətimiz üçün və bütün türkdilli xalqlar üçün böyük iftixar mənbəyi olduğunu, bundan sonra da dünya və türk xalqları üçün, dünyada sülh və əmin-amanlıq, tərəqqi üçün böyük işlər görəcəyinə tam əmin olduğunu söylədi, onun hər yerdə - Türkiyədə də, Avropada da, Amerikada da öz fədakar əməyinə görə, ağlına, dünya mədəniyyətinə, elminə böyük töhfələr verdiyinə görə, onu zənginləşdirdiyi üçün sevildiyini dedi, onun rəsmi çəkilmiş tablonu yubiley münasibətilə ona təqdim etdi. Türkiyə vətəndaşı olan, lakin Azərbaycan xalqı ilə dostluq əlaqələrinin inkişafında böyük xidmətləri olan bu şəxsiyyətin işlərinin və əməyinin belə yüksək qiymətləndirilməsi yüksəlməkdə olan əlaqələrimizin inkişafının bariz təcəssümünə çevrildi.

***

3-4 may 1995-ci il tarixlərində, Türkiyə Respublikasının Xarici İşlər Naziri, cənab E.İnönü Azərbaycana rəsmi səfər etdi. Ölkəmizin başçısı onu qəbul etdi. Səfər əsnasında E.İnönü Milli Məclisin sədri və Xarici İşlər Naziri ilə də görüşdü. Görüşlərdə ikitərəfli və beynəlxalq mövzular müzakirə edildi, iki dövlət arasındakı münasibətlərin inkişafı yüksək qiymətləndirildi, habelə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları nəzərdən keçirildi... Səfərin yekunu olaraq, Azərbaycan və Türkiyə Respublikalarının birgə bəyanatı qəbul edildi və bu bəyanatda bir daha Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan torpaqlarının dərhal və qeyd-şərtsiz azad olunması tələbi əks olundu.

***

Türkiyə Respublikasının Baş Naziri, xanım T.Çillərin başçılıq etdiyi nümayəndə heyəti 1995-ci il iyul ayının 10-dan 12-dək Azərbaycan Respublikasında rəsmi səfərdə oldu. Ölkəmizin başçısı onu qəbul etdi. Səfər əsnasında T.Çillər Baş Nazir, Milli Məclisin sədri, Xarici İşlər Naziri və digər rəsmi şəxslər ilə görüşdü. Dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşlərdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli əlaqələrin vəziyyəti hərtərəfli müzakirə edildi, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadilələri aparıldı. Nümayəndə heyəti Axıxsa türklərinin və Azərbaycan ictimaiyyətinin nümayəndələri və həmçinin Bakıda məskunlaşmış qaçqınlarla görüşlər keçirdi ki, bu görüşlər də hər iki ölkənin KİV-i vasitəsi ilə geniş işıqlandırıldı. Bu da qardaş türk xalqına qaçqınlarımızın çətin vəziyyəti ilə tanış olmağa bir daha geniş imkan yaratdı.

Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev və Türkiyənin Baş Naziri neft şirkətləri konsorsiumu nümayəndələri ilə görüş keçirdilər və Bakıda "Azərtürkbank" müştərək kommersiya bankının təntənəli açılış mərasimində iştirak etdilər.

Türkiyə Cümhuriyyətinin Baş Naziri xanım Tansu Çillər Bakıda olarkən Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında çox səmərəli, məzmunlu, əhəmiyyətli danışıqlar apardı. Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin genişlənməsi, inkişaf etməsi ilə bağlı bir çox məsələlər barəsində, Türkiyənin, Azərbaycanın dünya miqyasında siyasəti, o cümlədən xüsusən Azərbaycan üçün ən ağır problem olan Dağlıq Qarabağ məsələsi, Ermənistanın Azərbaycana təcavüzü haqqında geniş fikir mübadiləsi aparıldı və tərəflər eyni fikirdə olduqlarını bəyan etdilər. Türkiyə Cümhuriyyəti bu məsələlər barəsində Azərbaycanın haqq və ədalət naminə apardığı işi müdafiə etdiyini, ölkəmizin mövqeyini bundan sonra da dəstəkləyəcəyini bildirdi.

Azərbaycanın iqtisadi vəziyyətinin ağır olduğu nəzərə alınaraq, 1992-ci ildə Türkiyə Cümhuriyyətinin Azərbaycanın iqtisadiyyatını canlandırmaq üçün 250 milyon dollar məbləğində ayırdığı kreditin istifadə olunmuş 60 milyon dollarlıq hissəsinin geri qaytarılması məsələsi muzakirə olundu, kreditin ödəniş vaxtının iki il uzadılması haqqında razılığa gəlindi, müvafiq protokollar imzalandı.

Belə bir razılaşma əldə olundu ki, Azərbaycandakı müəssisələrin bəzilərinin müştərək işləməsi üçün buraya müəyyən nümayəndə heyəti göndərilsin. Onlar burada bəzi müəssisələrin vəziyyətini öyrənib proqramlar hazırlasınlar və həmin müəssisələrin müştərək işləməsi üçün lazımi tədbirlər görülsün.

Naxçıvan blokada vəziyyətində olduğu üçün Türkiyənin Naxçıvana hər dürlü kömək etməsi barədə də razılıq əldə olundu.

Danışıqlara öz münasibətini bildirən Türkiyənin Baş Naziri göstərdi ki, Azərbaycanın ödənilməmiş kreditləri var. Bunu həll etmək lazımdır. Bizim tələblərimiz vardı, bu gündən etibarən bunları əfv etdik və sənəd imzalayacağıq. Yeni kredit açılması üçün tələb var idi. Bunu da bu gün sənəd şəklində imzalayacaq vəziyyətə çatdırırıq. Banklarımızın burada iş almaları məsələsi də nəzərdə tutulmuşdu. Bu da həll olundu. "Ziraət bankası" fəaliyyətə başlayır, yaxın vaxtlarda isə "Vakfbank" işə başlayacaqdır. Universitetlərimiz arasında əməkdaşlığın genişləndirilməsi məsələsi var idi. Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi artıq fəaliyyət göstərir.

Türkiyənin Baş Naziri bildirdi ki, neft kəmərinin çəkilməsi ilə bağlı Azərbaycanla əvvəllər də danışıqlarımız olmuşdur. Biz bu kəmərin Türkiyə ərazisindən keçməsini istəyirik. Mən Özbəkistanda səfərdə olarkən Avrasiya avtomobil yolunun Özbəkistana qədər gələrək Azərbaycan ərazisi ilə Türkiyəyə keçməsi fikrini razılaşdırdıq. Bu məqsədlə Amerikanın bizə verəcəyi kreditdən istifadə edilə biləcəyini düşünürük. Neft kəmərinin Türkiyədən keçirilməsini Amerika özünün xarici siyasəti kimi qəbul etmişdir. Azərbaycan da bunu bütünlükdə dəstəkləmişdir. Bunun həyata keçirilməsi üçün digər ölkələrlə də bu cür danışıqlar aparmaq lazımdır. Özbəkistana və Azərbaycana səfərlərim zamanı hər iki dövlətin dəstəyini almışıq. Yaxın vaxtlarda başqa ölkələrə də səfər etməyi düşünürəm.

Daha sonra bu səfərlərin Zirvə görüşünü bəlkə də Türkiyədə təşkil etmək mümkün olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirmək üçün müştərək iş birliyi komissiyasının yaradılması, bu komissiyanın iqtisadi əməkdaşlığa dair məsələlərin dəqiqləşdirilməsi ilə məşğul olacağı barədə də bu görüşlərdə çox mühüm qərar qəbul edildi.

Görüşlər zamanı Türkiyə ilə əlaqələrimizə geniş nəzər salan, Türkiyədə son 75 ildə baş verən siyasi, ictimai və iqtisadi dəyişikliklərin Azərbaycan üçün bir örnək olduğunu bildirən Prezident Heydər Əliyev tarixə nəzər salaraq göstərdi ki, "biz bu gün Türkiyənin həyatına baxarkən çox maraqlı bir mənzərə ilə rastlaşırıq. Bu mənzərəni türk xalqının özü yaratmışdır. Bu gün bu barədə danışarkən Türkiyənin mərhum Prezidenti Turqut Özalı yada salırıq. Onun atdığı addımlar sayəsində Türkiyə Cümhuriyyətində iqtisadiyyat böyük sıçrayış yolu keçmişdir. Türkiyə Cümhuriyyətinin görkəmli siyasi xadimi, əziz dostumuz, hörmətli Süleyman Dəmirəlin böyük fəaliyyəti nəticəsində ölkədə mühüm dəyişikliklər olmuşdur. Bu gün Türkiyə hökumətinə başçılıq edən əziz qonağımız, bacımız, hörmətli Tansu Çillərin dövlət və siyasi fəaliyyəti nəticəsində, hökumətin rəhbəri kimi apardığı böyük siyasətin və iqtisadi islahatların sayəsində Türkiyə Cümhuriyyəti mühüm nailiyyətlər əldə etmişdir. Bu gün burada biz və bütün Azərbaycanlılar türk xalqının, Türkiyə Cümhuriyyətinin əldə etdiyi nailiyyətləri öz uğurlarımız kimi qəbul edir, sevinirik və bu nailiyyətlər münasibətilə öz qardaşlarımızı, Türkiyənin Dövlət və Hökumət Başçılarını ürəkdən təbrik edirik.

Bu illərdə biz Türkiyəyə böyük həsrətlə baxmışıq. Daim Türkiyə ilə maraqlanmışıq, qardaş ölkədə baş verən hadisələri qəlbimizdə hiss etmişik. Onun nailiyyətlərinə sevinmişik, həyatında baş verən faciələrə ağrımışıq, incimişik. Mən bunu deyərkən böyük Mustafa Kamal Atatürkün sözləri yadıma düşür. O deyirdi: "Azərbaycan gülərsə biz də gülərik, Azərbaycan üzülərsə biz də üzülərik". Bu sözlər Türkiyə Cümhuriyyətinin Azərbaycana olan münasibətinin ən parlaq ifadəsidir.

Bu gün burada mən Azərbaycan xalqının iradəsini ifadə edərək deyirəm ki, Türkiyə gülərsə Azərbaycan da güləcək, Türkiyə inciyərsə, sıxılarsa, ağlayarsa Azərbaycan da inciyəcək, sıxılacaq, ağlayacaqdır. Bu sözlər son illərin sınağından keçib gəlmişdir. Azərbaycan Respublikasının başına böyük bəlalar gələn zaman, 1988-ci ildən Ermənistanın torpaqlarımıza təcavüzü başlayan gündən Türkiyə ictimaiyyətində, qardaş ölkənin hər yerində Azərbaycana olan münasibətlər coşmuş, artmış, Türkiyənin ürəyi Azərbaycanla bir döyünmüş, dost ölkədə respublikamızın həyatı ilə daim maraqlanmışlar. O illərdə Türkiyədə keçirilən mitinqlər, toplantılar yaxşı yadımızdadır. Türkiyəli gənclərin küçələrə, meydanlara çıxması, həyəcanlarının coşması, xalqımızla həmrəy olması, Azərbaycan xalqına qarşı edilən hərbi təcavüzə etiraz etmələri - bunların hamısı xalqımızın yaddaşına həkk olubdur. Biz bunları heç vaxt unutmayacağıq.

1990-cı ilin 20 Yanvar faciəsi - Azərbaycan xalqı öz suverenliyi uğrunda mübarizə apararkən, milli azadlığı uğrunda ayağa qalxarkən, müstəqillik qazanmaq üçün çalışdığı zaman Azərbaycana Sovet imperiyasının ordusu tərəfindən hərbi təcavüz oldu. Xalqımıza çox böyük zərbələr vuruldu. Azərbaycan kimi Türkiyə də bu faciəli hadisəyə görə ağladı, sızladı. Eyni zamanda, Azərbaycana edilmiş bu hərbi təcavüzə

qarşı Türkiyənin hər bir guşəsində etiraz çıxışları oldu, qəzetlər bu barədə yazdı, televiziya və radioda bu haqda verilişlər getdi. Yəni Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsinə Türkiyə dəstək verdi.

Ona görə də biz hər bir türk vətəndaşının Azərbaycana olan münasibətini yüksək qiymətləndiririk. Hər bir vətəndaşın münasibətindən Türkiyədəki siyasi partiyaların, Dövlət və Hökumət Başçılarının münasibətləri yaranır. Biz bunları yüksək qiymətləndiririk. Ən başlıcası isə 1991-ci ilin sonunda Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi dünya dövlətləri içərisində birinci olaraq Türkiyə respublikamızın müstəqilliyini tanıdı və həmin dövrdən hər bir addımı atarkən ölkəmizə kömək etdi, yardımçı oldu. Bütün ölkələrin yanında, beynəlxalq aləmdə Azərbaycana əl tutan, kömək duran Türkiyə Cümhuriyyəti, onun səlahiyyətli nümayəndələri oldu. Bunu biz heç vaxt unutmayacağıq.

Yeddi ildən bəri davam edən müharibə zamanı Türkiyə bizimlə bir mövqedə durmuşdur. Ermənistanın bu təcavüzkarlığını pisləmişdir. Türkiyənin bu ölkəyə münasibəti Ermənistanın Azərbaycana olan münasibəti əsasında müəyyənləşdirilmişdir. Xatirimdədir, Parisdə beynəlxalq toplantı olarkən keçirilmiş mətbuat konfransında bir erməni müxbiri Türkiyə Prezidenti, hörmətli Süleyman Dəmirələ sual verdi: "Siz nə üçün Ermənistanla münasibətləri yaxşılaşdırmırsınız, axı biz qonşu ölkələrik?". Süleyman Dəmirəl ona çox dəyərli cavab verərək dedi ki, "Siz nə vaxt Azərbaycan ilə münasibətləri normallaşdıracaqsınızsa, Türkiyə də o vaxt Ermənistan ilə öz münasibətlərini normallaşdıracaqdır".

Biz bunları yüksək qiymətləndiririk. Bu fikirlər bizim dünən və bu gün apardığımız danışıqların əsas mərkəzində dururdu. Türkiyə və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri, onların gələcək inkişaf yolları və istiqamətləri, respublikamızın ağır vəziyyətdən çıxması üçün görüləcək tədbirlər, münaqişənin sülh yolu ilə həll olunması barədə əziz qonağımız, xanım Tansu Çillər öz mövqeyini bir daha qəti bildirdi - bu gün bunu mətbuat konfranslarında da ifadə etdi - və əminəm ki, onun mövqeyi Türkiyə xalqının, Türkiyə hökumətinin mövqeyi kimi daim belə olacaqdır.

Respublikamızın ən böyük problemi Ermənistanın ölkəmizə hərbi təcavüzüdür.

Əminəm ki, bizim bu ədalətli və haqq işimizdə türk xalqı, Türkiyə Cümhuriyyəti və ictimaiyyəti indiyə qədər olduğu kimi, bundan sonra da bizimlə olacaq, bizə dayaq duracaq və bu ağır şəraitdən çıxmağımız üçün əlindən gələni əsirgəməyəcəkdir."

1995-ci ilin iyul ayının 11-də Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Türkiyənin Azərbaycana verdiyi kreditin ödəniş vaxtının təxirə salınması haqqında qarşılıqlı razılığa dair memorandum imzalandı. Səfərin yekunu olaraq, Azərbaycan ilə Türkiyə Respublikası arasında birgə bəyanat qəbul edildi.

***

1995-ci il avqust ayının 28-29-da Azərbaycan Respublikası Prezidenti, cənab Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən Türkdilli Dövlət Başçılarının III Zirvə toplantısında iştirak etdi, həmin toplantıda türkdilli xalqların hərtərəfli inkişafı və Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən "Bişkek Deklarasiyası" qəbul edildi.

Türk dövlətlərinin inteqrasiyasına çalışan, bu yolda əlindən gələni əsirgəməyən

Prezidentimiz bu mötəbər məclisdə də bu haqda öz fikirlərini bəyan etmək fürsətindən istifadə etdi. Azərbaycan xalqı adından söz deyən Prezidentimiz əsası 1992-ci il oktyabrında Ankarada qoyulmuş bu Zirvə görüşlərinin artıq gözəl bir ənənəyə çevrildiyinin çox sevindirici bir hal olduğunu bəyan etdi.

Məlumdur ki, Avrasiya məkanının xeyli hissəsini, böyük iqtisadi insan potenstalını birləşdirən türk dövlətləri təşkil edir.

Çoxəsrlik tarixi boyu dünya sivilizasiyası xəzinəsinə sanballı töhfələr vermiş, coğrafi yaxınlığı ilə, tarixi tale, mədəniyyət, adət-ənənə, din və dil birliyi kimi sarsılmaz tellər ilə bir-birinə bağlı olan bu xalqlar və ölkələr üçün sıx və səmərəli əməkdaşlığa çox geniş imkanlar var.

Onlar türk xalqlarının vacib problemlərinin həll olunması üçün bir-birinə kömək göstərməli, yardım əlini uzatmalı, parçalanmanın və təklənmənin qarşısını almalı, dara düşmüş qardaşlarına birlikdə kömək etməli, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməyə çalışmalıdırlar.

Bütün bunlara görə Azərbaycan Prezidenti belə görüşlərə çox böyük əhəmiyyət verir. Belə görüşlərin daimi xarakter almasını ürəkdən alqışlayır. Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi - bütün bunları bizim strateji əməkdaşlığımızın etibarlı təməli hesab edir.

Axı xalqlarımız min illər boyu sıx əməkdaşlıq etmiş, qarşılıqlı fəaliyyət göstərmiş, bir-birini zənginləşdirmişlər. İndi, yeni dövrdə, yeni şəraitdə bu əməkdaşlığın dirçəldilməsi hamımız üçün böyük əhəmiyyət kəsb edir. Bu köklər, bu əsaslar xalqımızın ən müqəddəs arzularının çiçəklənməsinə geniş imkanlar açır, onların sülhə, tərəqqiyə doğru inamla getməsinə gözəl şərait yaradır.

Bütün bunlardan çıxış edən dövlətimizin başçısı qətiyyətlə bu görüşdə bildirdi ki, mən inanıram ki, bir çox ağır sınaqlardan keçmiş, bu yolda həm itkilərin acısını dadmış, həm də dirçəliş sevincini duymuş xalqlarımız çoxəsrlik ümidlərini həyata keçirəcək, XXI əsrə öz şanlı əcdadlarının layiqli övladları kimi qədəm qoyacaqlar. Bu, bizim ümidimiz, bu bizim vəzifəmiz, bu bizim borcumuzdur.

Azərbaycan Prezidentinin çıxışı Zirvə toplantısında ifadə edilən fikirlərin əsas mahiyyətini təşkil edirdi. Bu türk xalqlarına yönəlmiş bir çağırış - oyanma və hərəkətə keçmə çağırışı idi. Burada göstərilirdi ki, Azərbaycan istəyir ki, bütün türk dövlətləri ilə əlaqələr geniş olsun. Tarixi keçmişimizi, ümumi köklərimizi, bizi bu görüşə toplayan zəmini əsas tutaraq Azərbaycan istəyir ki, bütün türk ölkələri ilə daha sıx iqtisadi, mədəni, elmi-texniki əməkdaşlıq yaratsın və bu inteqrasiyaya daxil olsun.

***

Azərbaycan Prezidenti həmişə Qərb ölkələrinə gedərkən Türkiyəni də ziyarət etmək istəyir, imkan olan kimi yolunu buradan salır. İstanbula, Türkiyə torpağına qardaşlıq salamını, hörmət və ehtiramını yetirir, Türkiyənin rəhbərləri, siyasi xadimləri, iş adamları, KİV nümayəndəsi ilə heç olmasa qısamüddətli görüşlər keçirir və hökmən aktual problemlər barədə fikir mubadiləsi aparır. Bu dəfə də belə oldu. O, 1995-ci ilin oktyabr ayının 20-də BMT-nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak etmək üçün ABŞ-a yola düşərkən İstanbulun Atatürk Hava Limanında

mətbuat konfransı keçirərək Azərbaycan neftinin ixracı yolları, bu barədə Türkiyənin Prezidenti Süleyman Dəmirəl və Türkiyənin Baş Naziri, xanım Tansu Çillərlə apardığı danışıqlar, cənab Bill Klintonun bu barədəki müsbət fikri olduğu barədə jurnalistlərə məlumat verdi, iki boru xətti barədə qərar qəbul olunduğunu - birinin Gürcüstandan Qara dənizə, o birisinin isə Rusiyadan Qara dənizə çəkiləcəyini bəyan etdi və dedi ki, bu qərarı Türkiyə də çox bəyənibdir. Bu, Türkiyənin də maraqlarını təmin edir. Bu qərar Qərbdə də çox bəyənilibdir. Biz də bunu çox əhəmiyyətli qərar hesab edirik. Beləliklə, məsələnin təklif və rəylərdən artıq qərar müstəvisinə keçdiyi barədə məhz Türkiyə torpağında bəyanat verdi.

Azərbaycan Prezidenti Türkiyə ilə dostluq əlaqələrimizin möhkəmləndirilməsi yolunu, birbaşa bu ölkə ilə sıx əlaqələr qurmaqla bərabər, türk dünyasının birliyində, onün dağınıq diasporlarının bir yumruq kimi birləşməsində görür. Bu məqsədlə təkcə Türk Dövlətlərinin Zirvə toplantılarında deyil, hər hansı bir ölkəyə səfər edirsə-etsin, təkcə Azərbaycan diasporunun üzvləri ilə deyil, başqa türk xalqlarına məxsus olan diasporların da üzvləri ilə görüşməyə çalışır və onları həmişə ölkəmiz ilə əməkdaşlıq etməyə, ölkəmizdə işlər görməyə, türk dünyası ilə bağlı problemlərin - o cümlədən Qarabağ probleminin həlli yolunda əməkdaşlıq etməyə, öz nüfuzlarından istifadə edərək bu məsələnin çözülməsində dəstək verməyə dəvət edir. Bu dəfə də belə oldu. Dövlətimizin başçısı ABŞ-da olarkən burada yaşayan azərbaycanlı icmasının nümayəndələri ilə Türk evində görüşdü. Bu görüşün məhz Türk evində təşkil edilməsinin çox səciyyəvi olduğunu bildirərək görüş iştirakçıları qarşısındakı çıxışında Amerikada və Türkiyədə yaşayan bacı və qardaşlarımız, habelə Azərbaycanla bağlı olan adamlara Azərbaycanda gedən proseslər barədə məlumat vermiş, hamımızın bir millət, bir kökə məxsus xalq olduğumuz xüsusi olaraq vurğulamış, Azərbaycanda yaşayanların, Azərbaycandan gəlib Amerika, İran, Türkiyə, İngiltərə və digər ölkələrdə yaşayanların hamısının onun üçün bir olduğunu bəyan etmişdir.

Azərbaycan Prezidenti bildirdi ki, Siz Amerikada yaşayırsınız, yaxşı bilirsiniz ki, hər bir şirkət sərmayə qoymaq üçün o ölkədə ictimai-siyasi vəziyyətin sabit olmasını istəyir. Azərbaycanda müharibə getdiyinə görə və son illər daxili vəziyyət sabit olmadığına görə bir çox şirkətlər ölkəmizə gəlmək istəsələr də, ancaq ehtiyat etmişlər. Bu gün sizə deyə bilərəm ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət tamamilə sabitdir.

Biz bunların qarşısını almışıq. İndi Azərbaycanda sakitlikdir. İnsanlar sərbəst yaşayırlar. Doğrudur, çətin yaşayırlar. İqtisadi vəziyyət ağırdır. Əhalinin bir qismi kasıblıq içərisindədir. Ancaq insanlar mənəvi cəhətdən rahat yaşayırlar, sabit şərait yaranıb. Ona görə də Azərbaycana gəlin. Azərbaycana rahat gəlməyə, qohum-əqrəbalarınızla görüşməyə əvvəlki illərdən indi daha yaxşı şərait yaranıbdır.

Dövlətimizin başçısı iştirakçılara müraciətlə demişdir: Biz burada Türk evindəyik. Türkiyə dost və qardaş ölkəmizdir. Türkiyə bizim öz məmləkətimizdir. Yəni Azərbaycandan Türkiyəyə gələn hər bir adam özünü öz məmləkətində hiss edir. Türkiyədən Azərbaycana gələnlər də özlərini öz məmləkətlərində hesab edirlər.

Nyu-Yorkdakı Türk evinə mən ikinci dəfədir ki, gəlirəm, doğma evimiz kimi gə-

lirəm. Ev sahiblərinin burada Azərbaycan ilə Türkiyə arasındakı dostluğun, qardaşlığın inkişaf etdirilməsi üçün göstərdikləri səylərə, gördükləri işlərə öz hörmət və ehtiramımı bildirmək istəyirəm. Biz dostuq, qardaşıq. Mən buraya gələrkən bu gün bir saat, saat yarım İstanbulda oldum. Orada bir neçə rəhbər şəxslərlə görüşdüm. İki gün bundan əvvəl hörmətli dostumuz Süleyman Dəmirəllə telefonla danışdım. Türkiyənin Prezidenti Süleyman Dəmirəl də sabah buraya gələcəkdir. Onunla da görüşlərimiz olacaq. Yəni bizim aramızda olan dostluq, qardaşlıq əlaqələri tarixi köklər üzərində qurulub. Ancaq yeni dövrdə bu əlaqələr inkişaf edir, böyüyür və hər birimiz bu əlaqələrin inkişaf etməsinə çalışmalıyıq. Azərbaycanın Prezidenti kimi bundan sonra da çalışacağam."

***

Bir məsələni də xüsusi ilə qeyd etmək lazımdır ki, ölkəmizdə keçirilən rəsmi qəbullarda da bir qayda olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə səfirliyinin keçirdiyi bu tədbirlərdə həmişə özü iştirak edərək çıxış edir və il ərzində əlaqələrimizdə baş verən prosesləro bir növ yenidən nəzər salır, onları yekunlaşdırır. Bu, Azərbaycan Prezidentinin Türkiyəyə və türk xalqına bəslədiyi xüsusi hörmət və ehtiramın təcəssümüdür.

Dövlət başçımız 28 oktyabr 1995-ci ildə Türkiyə Respublikasının 72-ci ildönümü münasibətilə Bakıdakı Türkiyə səfirliyinin təşkil etdiyi rəsmi qəbuldakı nitqində ölkələrimiz arasında qurulan əlaqələrə toxunaraq fəxrlə demişdir:

"72 il ərzində Türkiyə Cümhuriyyətinin əldə etdiyi nailiyyətlər, iqtisadiyyatın inkişafında, insanların rifahının yaxşılaşdırılmasında, dövlət quruculuğunun, demokratiyanın inkişafında, demokratik prinsiplərin bərqərar olunmasında qazanılmış uğurlar və Türkiyənin bugünkü mənzərəsi bizim üçün örnəkdir və böyük təcrübə məktəbidir. Biz çalışırıq ki, bu təcrübədən səmərəli istifadə edək və Azərbaycanda müstəqil demokratik, hüquqi dövlət quraq. Bu sahədə Türkiyənin təcrübəsi gərəklidir və bu təcrübə bizə çox kömək edir.

Biz noyabrın 12-də müstəqil Azərbaycanın ilk demokratik parlamentinə seçkilər keçirəcəyik. Bu, Azərbaycanın həyatında böyük tarixi hadisədir. Ümidvaram ki, seçkilər xalqın iradəsini ifadə edəcək və tam demokratik şəkildə keçəcək, bütün insanların, partiyaların hüquqlarının qorunması təmin olunacaq və hər bir kəs bu seçkilərdə ya seçmək, ya da seçilmək hüququndan şübhəsiz ki, istifadə edəcəkdir. Türkiyə Cümhuriyyətində də dövlət quruculuğunda proseslər gedir, yeni hökumət yaranır, vaxtından əvvəl parlament seçkiləri təyin edilibdir. Türkiyədə dekabr ayında parlament seçkiləri keçiriləcəkdir. Biz əminik ki, həm hökumətin qurulması - bu günlərdə yeni hökumət qurulur, - həm də seçkilərin keçirilməsi müvəffəqiyyətlə başa çatacaqdır.

Ölkələrimiz arasındakı əlaqələr bütün sahələrdə təzahür edir: ayrı-ayrı insanların, təşkilatların, şirkətlərin, iqtisadiyyatla məşğul olan nazirliklərin əlaqələri və dövlətlərarası əlaqələr - bütün sahələrdə və bütün mərhələlərdə bu əlaqələr yaranıb və çox uğurla irəliyə gedir. Türkiyənin Dövlət və Hökumət Başçıları ilə biz mütəmadi olaraq əlaqə saxlayırıq, çoxlu məsələlər barəsində məsləhətləşirik. Mən bu əlaqələrdən məmnun olduğumu bir daha bildirmək istəyirəm.

Bir neçə gün bundan əvvəl Amerika Birləşmiş Ştatlarında olarkən mən ABŞ Prezidenti cənab Bill Klintonla görüşdüm və ətraflı danışıqlar apardım. Dünyanın bir

çox ölkələrinin Dövlət və Hökumət Başçıları ilə görüşlərim oldu və bu görüşlərin arasında Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə görüşüm və söhbətlərim xüsusi yer tutur. Belə görüşlər artıq ənənəvi xarakter almışdır və bu görüşlərdən biz - hər iki tərəf əlaqələrimizin inkişaf etdirilməsi üçün və Azərbaycanda demokratik proseslərin həyata keçirilməsi üçün, respublikamızın qarşısında duran ağır problemlərin həll olunması üçün daim məsləhətlər alırıq, bəhrələnirik. Bütün bunlar ölkələrimiz arasındakı əlaqələrin nə qədər geniş, nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir."

***

1995-ci ilin sonunda baş verən görüşlər də Azərbaycan-Türkiyə əlaqələrinin durmadan inkişafından xəbər verir. Bu müddət ərzində 25 nəfərlik Azərbaycan nümayəndə heyəti türkdilli dövlətlərin və icmaların İzmir şəhərində 1995-ci il sentyabr ayının 30-dan oktyabr ayının 2-dək keçirilmiş III "Dostluq və Qardaşlıq" Qurultayında iştirak etmişdir.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Prezidenti S.Dəmirəlin 1995-ci il dekabr ayının 7-dən 9-dək Azərbaycan Respublikasına rəsmi səfəri olmuşdur. Bu səfər Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına yeni bir ab-hava gətirmiş, yeni təkan vermişdir. Səfər zamanı ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və genişləndirilməsi perspektivləri nəzərdən keçirilmişdir. S.Dəmirələ Azərbaycan EA-nın fəxri akademiki diplomu təqdim edilmişdir. Prezident H.Əliyev və S.Dəmirəl birgə bəyanat imzalamışlar. Bəyanatda beynəlxalq əlaqələrdə BMT-nin rolunun gücləndirilməsinin, bölgədəki ixtilafların aradan qaldırılmasının və qlobal problemlərin həlli yollarının araşdırılmasına daha aktiv təsir göstərilməsinin vacib görüldüyünə yer verilmiş və bir daha Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbi əks etdirilmişdir. Səfər əsnasında həmçinin iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafı haqqında Memorandum, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında televiziya yayımları haqqında əməkdaşlıq Müqaviləsi imzalanmış və iki ölkə arasında avtomobil daşımaları haqqında sazişin təsdiq olunması və qüvvəyə minməsi barədə notalar mübadiləsi edilmişdir.

Azərbaycana rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin Binə hava limanında qarşılanması mərasimində bəyanatla çıxış edən möhtərəm Prezidentimiz Süleyman Dəmirəli salamlayaraq: "Sizin bu səfəriniz Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsinə çox böyük xidmət edəcəkdir" demişdir. Bildirmişdir ki, Siz burada Azərbaycan xalqının Türkiyəyə, türk xalqına olan sevgisini, məhəbbətini bir daha hiss edəcəksiniz və sizinlə burada apardığımız danışıqlar, görüşlərimiz, Sizin Azərbaycan xalqı ilə görüşləriniz gələcək əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. Bu gün Azərbaycan dost Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşımız Süleyman Dəmirəlin ölkəmizə rəsmi səfəri münasibətilə əlamətdar tarixi bir gün yaşayır.

Ölkəmiz müstəqil dövlət olandan sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında sıx əlaqələr yaranmışdır. Bu əlaqələr getdikcə inkişaf edir,

yeni nailiyyətlər gətirir, hər iki ölkə üçün faydalıdır və ümumiyyətlə, gələcəkdə daha faydalı olacaqdır.

Azərbaycan Prezidenti göstərmişdir ki, əlaqələrimizin yaranmasında və inkişaf etməsində Türkiyə Prezidenti Süleyman Dəmirəlin xüsusi fəaliyyəti və xüsusi rolu var. Azərbaycan hələ Sovet İttifaqının tərkibində olarkən Süleyman Dəmirəl Azərbaycana nəinki maraq göstərmiş, diqqət yetirmiş, həm də 1967-ci ildə Türkiyənin Baş Naziri kimi Sovetlər İttifaqına ilk dəfə səfər edərkən Azərbaycana gəlmiş, ölkəmizlə tanış olmuş, xalqımıza öz ehtiramını bildirmişdir. Hörmətli Süleyman Dəmirəl ondan sonra da həmişə Azərbaycana diqqətli münasibət bəsləmiş, qayğı göstərmişdir. Azərbaycanın bu ağır dövründə o həmişə Azərbaycanla maraqlanmış və Azərbaycan onun üçün doğma olmuşdur. Azərbaycanın müstəqil dövlət kimi tanınmasında da o vaxt Baş Nazir olan Süleyman Dəmirəlin xüsusi rolu, xüsusi fəaliyyəti olmuşdur. Bu müddətdə Azərbaycanda gedən proseslərin sağlam istiqamətdə həyata keçirilməsi üçün o, bir dost, bir qardaş kimi Azərbaycana həmişə öz doğma münasibətini bildirmişdir.

Respublikamızın rəhbəri qeyd etmişdir ki, Süleyman Dəmirəl Prezident kimi Azərbaycana bizim dəvətimizlə ilk dəfə rəsmi səfərə gəlmişdir. Əvvəlki səfərlərdən bu səfərin fərqi ondan ibarətdir ki, Azərbaycan artıq dörd ildir müstəqil bir dövlət kimi yaşayır... Məhz belə bir zamanda müstəqil Azərbaycan öz tarixində ilk demokratik konstitusiyanı qəbul etdikdən sonra, yeni parlament seçkiləri keçirildikdən sonra və parlament yaradıldıqdan sonra ölkəmizə ilk səfər edən dövlət başçısı əziz dostumuz, qardaşımız Süleyman Dəmirəldir. Bu, bizi çox sevindirir. Bizim sevincimizi Bakı sakinləri nümayiş etdirdilər. Küçələrdə onlar əziz qonağımızı qarşılayarkən öz qəlblərindəki xoş duyğuları bildirməyə çalışdılar. Bizim hər birimiz sevincimizi ifadə etmək istəyirik və mən bütün Azərbaycan xalqının bu sevincini ifadə edərək, ürəkdən deyirəm: əziz dostumuz, qardaşımız, Siz Azərbaycana, öz vətəninizə, öz məmləkətinizə xoş gəlmisiniz, səfa gətirmisiniz! Azərbaycanda xalq sözü var: qədəmləriniz xeyirli olsun, səfəriniz uğurlu olsun! Əminik ki, sizin bu səfərinizdən sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələr daha sürətlə inkişaf edəcəkdir. Bu, bizim qəlbimizdə olan istəklərdir, arzumuzdur. Biz bu yolda çalışmışıq və bundan sonra da çalışacağıq.

Dövlətimizin başçısı göstərmişdir ki, Süleyman Dəmirəl ilə birlikdə buraya böyük nümayəndə heyəti, onu müşayiət edən iş adamları, mətbuat nümayəndələri gəlmişlər. Ümidvar olduğunu bildirmişdir ki, onların hər biri Azərbaycana öz münasibətini əziz dostumuz və qardaşımız, Türkiyənin Prezidenti, dünyanın ən böyük ictimai-siyasi xadimlərindən biri, dünya siyasətində böyük rol oynayan Süleyman Dəmirəl kimi bildirəcəkdir.

Bilindiyi kimi, Türkiyə Ermənistanla münaqişənin ilk günündən Azərbaycan qaçqınlarına yardım etmiş, öz komək əlini üzatmışdır. TBMM-in başçısı Ömər İzgiözünün 2002-ci il fevral ayının əvvəllərində Bakıya rəsmi səfəri zamanı bildirilmişdi ki, Türkiyə bu illər ərzində Azərbaycan qaçqınlarına 18 milyon dollar həcmində yardım göstərmişdir. Türkiyənin ölkəmizə yardımından söhbət açan dövlət başçımız Süleyman Dəmirəl cənablarının qaçqınlarla görüşündə bu məsələni xüsusilə qeyd etmiş, ölkəmizin bu ağır

dövründə daim Azərbaycana dayaq olduqlarına görə, kömək etdiklərinə görə, bu dərdi Azərbaycanla bir yerdə çəkdiklərinə görə Türkiyə Respublikasına, onun xalqına, dövlətinə, Türkiyənin Prezidenti Süleyman Dəmirələ qaçqınlar adından, bütün Azərbaycan xalqı adından minnətdarlıq etmiş və əmin olduğunu bildirmişdir ki, Türkiyə heç vaxt Azərbaycanı tək qoymayacaq, darda qoymayacaqdır və bir gün gələcək, biz yaxşı günləri Türkiyə ilə, türk xalqı ilə bir yerdə bayram edəcəyik.

Azərbaycan Prezidenti Müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında seçilmiş ilk Milli Məclisi qarşısında Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin nitq söyləməsinin ölkəmiz tarixində əlamətdar bir hadisə olduğunu bildirmişdir.

Qeyd etmişdir ki, "bizim üçün Türkiyə Cümhuriyyəti kimi böyük bir ölkənin, dövlət quruculuğu sahəsində, demokratiya sahəsində, iqtisadiyyat sahəsində, cəmiyyətin bütün sahələrində böyük nailiyyətlər əldə etmiş xalqın liderinin, ölkənin Prezidentinin bizim qarşımızda irəli sürdüyü fikirlər Azərbaycan Respublikasının gələcəyi üçün, Milli Məclisin gələcək fəaliyyəti üçün çox gərəklidir, çox əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, Türkiyə Cümhuriyyətinin demokratiya sahəsində böyük nailiyyətləri var. Biz bu gün Türkiyə Cümhuriyyətinin tarixinə nəzər salarkən böyük Mustafa Kamal Atatürkün başçılığı ilə yaranmış Cümhuriyyətin keçdiyi şanlı və şərəfli yola öz hörmətimizi bildiririk. Türkiyə Cümhuriyyətinin əlli il müddətində demokratiyanın inkişafında, iqtisadiyyatın demokratiya prinsipləri əsasında inkişafında, insan hüquqlarının qorunması sahəsində göstərdiyi səylərə, əldə etdiyi nailiyyətlərə öz hörmət və ehtiramımızı bildiririk və bütün bunlara görə, Məclisimizin işə başladığı zaman hörmətli Prezidentin söylədiyi nitq, bir daha qeyd edirəm, bizim üçün çox əhəmiyyətlidir.

...Azərbaycan üçün tarix boyu dost və qardaş olan Türkiyə ilə, türk xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə öz əlaqələrimizi inkişaf etdirəcəyik.

İndiyə qədər əldə edilən nailiyyətlər bizi sevindirir. Ancaq bunlar bizi qane edə bilməz. İmkanlarımız böyükdür. Türkiyə Cümhuriyyəti bizimlə əməkdaşlığı daha da genişləndirmək və inkişaf etdirmək üçün yaxşı təkliflər irəli sürür. Hörmətli Prezident Süleyman Dəmirəlin bugünkü nitqində verdiyi tövsiyələr, irəli sürdüyü təkliflər bizim əməkdaşlığımızın genişlənməsi və inkişaf etməsi üçün çox yaxşı əsaslar yaradır. Biz bunların hamısına görə öz minnətdarlığımızı bildiririk. Bunların hamısından istifadə edərək xalqımızı ağır vəziyyətdən çıxaracağıq, xalqımızı xoşbəxt gələcəyə aparacağıq və müstəqil Azərbaycanı daha da inkişaf etdirəcəyik.

...Mübarizələrimizdə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı həmişə bizimlə olub, həmişə bizə dayaq olub, həmişə bizi müdafiə edib və bu gün Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli Süleyman Dəmirəlin verdiyi bəyanatlar bir də onu göstərir ki, Türkiyə həmişə bizim yanımızda olacaq. Türkiyə bizim bu məsələlərin həll edilməsində bundan sonra daha da fəal iştirak edəcək və biz beynəlxalq təşkilatlarla, sülhsevər qüvvələrlə birlikdə sülhə nail olacağıq.

Hörmətli Prezident, hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirəl. Siz dediniz ki, Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür. Bilirsiniz və yəqin bunu bu gün bir daha hiss edəcəksiniz və hiss edirsiniz ki, Azərbaycanın da qəlbi daim

Türkiyənin qəlbi ilə döyünür. Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir, Türkiyənin daha da inkişaf etməsini istəyir. Böyük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır. Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildir. Çünki bu, içdən gələn, qəlbdən gələn hisslərdir. Türkiyənin Azərbaycana, onun müstəqillik əldə etməsinə və müstəqillik yolunda ağır sınaqlardan çıxmasına etdiyi köməklərə görə mən Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından Sizə, hörmətli Prezident, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına bir daha öz təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm."

Türkiyənin dövlət quruculuğumuzda bizim üçün nümunə olduğunu qeyd edən dövlət başçımız göstərmişdir ki, Türkiyə Cümhuriyyəti indi yeni müstəqillik əldə etmiş bir çox ölkələr üçün, dövlətlər üçün örnəkdir. Belə dövlətlərdən biri də Azərbaycandır. Biz arzu edirik ki, Türkiyə Cümhuriyyəti özünün bu mövqelərini həmişə qoruyub saxlasın və həmişə bizim üçün təcrübə mənbəyi olsun. Bizim arzu və istəyimiz bundan ibarətdir ki, türk dünyası, türkdilli xalqlar, bir kökdən, bir mənsəbdən olan millətlər daha da yaxınlaşsın, daha da birləşsin, bir-birinə kömək etsin, bir-biri ilə daha da mehriban olsun, bir-birinə yardımçı olsunlar. Biz nə qədər çətin və ağır vəziyyətdə olsaq da Azərbaycanda bu hisslərlə yaşayırıq. Bu hisslərlə bütün qardaş ölkələrə öz münasibətimizi bildirirk. Bu hisslərlə də öz məhəbbət və sevgimizi Türkiyəyə, türk xalqına bildiririk.

Azərbaycan Prezidenti qardaş Türkiyənin başçısına müraciətlə söyləmişdi: "Hörmətli Prezident, əziz dostumuz və qardaşımız Süleyman Dəmirəl, güman edirəm ki, Azərbaycanın Milli Məclisi, onun üzvləri, bütün Azərbaycan vətəndaşları sizin bugünkü çox dərin məzmunlu nitqinizi məmnuniyyətlə qəbul edirlər, o nitqdə irəli sürülən fikirlərdən, təkliflərdən, şübhəsiz, istifadə edəcəyik, onlardan bəhrələnəcəyik və müstəqil Azərbaycan Respublikası demokratiya yolunda, dövlət quruculuğu yolunda, konstitusiyada nəzərdə tutulmuş prinsiplər əsasında irəli gedəcəkdir.

Sizi burada, Məclis qarşısında bu böyük nitqiniz münasibətilə bir daha təbrik edirəm, Sizə Məclis adından təşəkkürümü bildirirəm. Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm, Sizə Türkiyə Cümhuriyyətinin Prezidenti kimi böyük məsuliyyətli vəzifənin uğurla həyata keçirilməsində müvəffəqiyyətlər arzu edirəm, cansağlığı və xoşbəxtlik arzu edirəm."

Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Elmlər Akademiyasının fəxri akademiki adına layiq görülməsi münasibətilə təntənəli yığıncaqda da ölkəmizin başçısı iştirak etmişdir. Prezidentimiz görüşdə bildirmişdir ki, Azərbaycanın Elmlər Akademiyası dünyanın böyük ictimai-siyasi, dövlət xadimlərindən biri olan, Türkiyə Cümhuriyyətinin tarixində böyük xidmətləri olan, böyük iz qoymuş, bu gün də Türkiyə Cümhuriyyətinin başında duran hörmətli Süleyman Dəmirələ Azərbaycan Elmlər Akademiyasının fəxri akademiki adı verməsi əlamətdar bir hadisədir.

Göstərmişdir ki, Türkiyə dövlətinin başçısı kimi Azərbaycanın ən yüksək elm mərkəzi olan Elmlər Akademiyasının fəxri üzvü kimi bütün başqa sahələrdə olduğu

kimi, Azərbaycanın elminə də öz qayğınızı, diqqətinizi göstərəcək və Azərbaycan elmi ilə Türkiyə elmi arasında əlaqələrin gələcək inkişafına səylərinizi qoyacaqsınız.

Dövlətimizin başçısı öz çıxışında göstərmişdir ki, Müstəqil Azərbaycan müstəqillik həyatını yaşayan dövrdən respublikamızın elmi müəssisələri, Elmlər Akademiyası ilə Türkiyə Cümhuriyyətinin elm ocaqları, elm mərkəzləri alimləri arasında çox sıx əlaqələr yaranmışdır. Alimlərimizin, elmi müəssisələrimizin, Akademiyanın rəhbərliyinin Türkiyəyə gediş-gəlişi və eyni zamanda Türkiyə Cümhuriyyətindən elm adamlarının Azərbaycana gəlişi indi adi hal olmuşdur. Bu, bizi çox sevindirir. Çünki əgər keçmiş zamanlarda alimlərimiz və bütün xalqımız buna daim can atmışsa, çalışmışsa və qarşıda olan sədləri aşıb keçərək öz əlaqələrini yaratmışsa, indi ölkəmiz müstəqil dövlətdir, sərhədlərimiz açıqdır və bizim üçün ən yaxın dost olan Türkiyə Cümhuriyyəti ilə əlaqələrimiz artıq çoxsahəlidir və genişdir. Ümidvar olduğunu bildirmişdir ki, bu əlaqələr günügündən daha da genişlənəcək, möhkəmlənəcək və sarsılmaz, qırılmaz olacaqdır.

Respublikamızın rəhbəri göstərmişdir ki, bu baxımdan Elmlər Akademiyası tərəfindən Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirələ fəxri akademik adı verilməsi tamamilə əsaslıdır, məqsədəuyğundur.

Dövlətimizin başçısı xüsusi olaraq vurğulamışdır ki, Süleyman Dəmirəlin həyat yolu, onun yaradıcılığı, fəaliyyəti Azərbaycan xalqına yaxşı məlumdur. O, həm mühəndisdir, həm alimdir, həm də ixtiraçıdır. Ancaq onun elm sahəsində ən böyük xidmətləri siyasət sahəsindəki xidmətləridir. Şübhəsiz ki, bütün elmlər cəmiyyət üçün, xalq üçün, bəşər üçün əhəmiyyətlidir. Amma siyasət elmi, deyə biləsən ki, ən çətin bir sahədir. Siyasət sahəsində həm fəaliyyət göstərmək, həm də bu sahədə elmi nailiyyətlər əldə etmək, siyasətin elmi əsaslarını mənimsəmək və siyasəti bu əsaslar üzərində aparmaq böyük məharət, böyük fitri istedad tələb edir. Bunların hamısı da bizim dostumuz, qardaşımız Süleyman Dəmirələ məxsusdur. 35 ildən artıqdır ki, dostumuz, qardaşımız, hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətində, onun siyasi həyatında siyasi fəaliyyət göstərir, dövlətçilik fəaliyyətindədir. Bu dövrdə Türkiyə Cümhuriyyətinin, dövlətinin inkişaf etməsi, demokratiyanın inkişaf etməsi, xalqın səviyyəsinin qalxması və Türkiyə Cümhuriyyətinin dünyada bu qədər görkəmli yer tutması şübhəsiz ki, hörmətli dostumuz Süleyman Dəmirəlin siyasi, dövlətçilik fəaliyyəti ilə bağlıdır və ona borcludur.

Ona görə də hörmətli Süleyman Dəmirəl siyasət sahəsində dünya miqyasında böyük alimdir, böyük ictimai-siyasi xadim, dövlət xadimidir. O, hörmət edib bu gün Azərbaycan Elmlər Akademiyasına gəlib və Azərbaycan alimləri, elm xadimləri, Elmlər Akademiyası ona böyük hörmət, ehtiram göstərərək akademiyanın fəxri akademiki seçibdir. Mən hesab edirəm ki, bu, tariximizdə parlaq səhifələrdən biridir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu hadisə xalqlarımız arasında, dövlətlərimiz, ölkələrimiz arasında olan əlaqələrin daha da inkişaf etməsinə xidmət edəcəkdir və Azərbaycan elmi ilə Türkiyə Cümhuriyyətinin elmini daha da sıx bağlayacaqdır.

Görüşlər zamanı dövlətimizin başçısı Prezident Süleyman Dəmirəli müşayiət edən Türkiyənin iş adamlarını Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi əlaqələrin

bundan sonra irəliyə necə aparılacağı barədə öz sözlərini, fikirlərini deməyə, təkliflərini irəli sürməyə çağırmışdır.

İki Prezidentin bu görüşü ölkəmiz üçün çox mühüm olan birgə bəyanatla sonuclanmışdır.

Bu birgə bəyanat faktiki olaraq Azərbaycan-Türkiyə əlaqələrinin bu səfərə qədərki mərhələsini yekunlaşdırmış və onların perspektivlərini müəyyənləşdirmişdir. Proqram xarakterli bu bəyanatda göstərilir: "Ənənəvi dostluq, qardaşlıq, qarşılıqlı anlaşma və səmimiyyət şəraitində keçən görüşlərdə Azərbaycan və Türkiyə arasında ikitərəfli əlaqələrin inkişafı hərtərəfli müzakirə edilmiş, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır.

Tərəflər, xüsusi olaraq qeyd etmişlər ki, beynəlxalq münasibətlərin dərin transformasiyaya məruz qaldığı bir dövrdə dünyada müsbət dəyişikliklərin, möhkəm sabitliyin mühüm təminatı kimi geniş və çoxtərəfli əməkdaşlığın əhəmiyyəti obyektiv olaraq artır. Onlar dünya işlərində BMT-nin rolunun güclənməsini, regional münaqişələrin aradan qaldırılmasında, qlobal problemlərin həlli yollarının axtarılmasında onun fəal iştirakının vacibliyini qeyd etmişlər. Tərəflərin fikrinə görə BMT öz inkişafının yeni mərhələsində, nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq olaraq, beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq sisteminin möhkəmlənməsində aparıcı rol oynamalıdır və xüsusən Təhlükəsizlik Şurasının strukturu günümüzün tələblərinə cavab verməlidir.

Tərəflər, ATƏT-in yekun aktının və Paris xartiyasının müddəalarına tərəfdar olduqlarını ifadə etmişlər. Onlar öz aralarında və Helsinki prosesinin iştirakçıları olan digər dövlətlərlə bu prosesin inkişafı üçün əməkdaşlıq etmək əzmində olduqlarını bildirmişlər. ATƏT-in müasir Avropada rolu bütün sahələrdə təhlükəsizlik və əməkdaşlığı möhkəmləndirməkdən ibarət olmalıdır ki, bu isə ATƏT mexanizmini daha da təkmilləşdirmək yolu ilə mümkündür.

Tərəflər, beynəlxalq və regional problemlərin həllinin suverenliyə, müstəqilliyə ehtiram, dövlətlərin ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət və daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanmasının gərəkliyini təsdiq etmişlər. Tərəflər, iki ölkə arasında dostluğu və hərtərəfli əməkdaşlığı inkişaf etdirmək, möhkəmləndirmək və dərinləşdirmək əzmində olduqlarını təsdiq etmişlər.

Tərəflər, Ermənistan Respublikasının Azərbaycana hərbi təcavüzünü qətiyyətlə pisləyərək, beynəlxalq birlik tərəfindən tanınmış, sərhədlərin pozulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsiplərini əsas tutaraq, Qarabağın Azərbaycan Respublikasının ayrılmaz hissəsi olmasını təsdiq etməklə, erməni qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən təcili və qeyd-şərtsiz çıxarılmasını, Qarabağ münaqişəsinə dair BMT-nin və ATƏT-in müvafiq qətnamələrinin icrasını, habelə qaçqınların öz doğma torpaqlarına qaytarılmasını nəzərdə tutan bir ümumi nəticəyə gəlmək tələbini bir daha təsdiq etmişlər.

Türkiyə tərəfi, silah gücü ilə işğal edilmiş torpaqların azad edilməsi istiqamətində faydalı addımlar atılmasının sülhə, sabitliyə və bölgədə əməkdaşlığa mühüm təsir göstərəcəyini bildirmiş və bu baxımdan Ermənistan Respublikasının regionda sülhün və təhlükəsizliyin bərqərar edilməsində xüsusi məsuliyyətini qeyd etmişdir.

Tərəflər, ayrıca olaraq, ATƏT-in Ermənistan - Azərbaycan münaqişəsinin həllinə dair sülh prosesi çərçivəsində Minsk qrupunun bütün üzvlərinin bu sülh prosesinin bütün mərhələlərində birgə iştirak etməsinin vacibliyini qeyd etmişlər.

Azərbaycan tərəfi, ATƏT-in Minsk sülh prosesində qəbul ediləcək qərarlarının həyata keçirilməsində Türkiyənin fəal rol oynamaq istəyini məmnuniyyətlə qəbul etmişdir.

Türkiyə tərəfi, Minsk qrupunun digər üzvləri ilə sıx təmaslarını daha da artıracağını bildirmişdir.

Tərəflər, Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi, qaçqın və köçkünlərin öz torpaqlarına qayıtmalarının təmin edilməsi, bölgədə ədalətli və möhkəm sülhün yaradılması üçün lazımi regional və beynəlxalq səylərin artırılmasının vacibliyini qeyd etmişlər. Türkiyənin beynəlxalq səviyyələrdə Azərbaycana haqlı mübarizəsində lazımi dəstək verməkdə davam edəcəyi bir daha vurğulanmışdır.

Tərəflər, ayrıca olaraq, Azərbaycanla Ermənistan arasında olan hərbi münaqişədə 19 aydan bəri atəşkəs rejiminin davam etməsini məmnuniyyətlə qarşılamışlar və bölgədəki problemlərin sülh yolu ilə sürətli həlli üçün beynəlxalq təşkilatlar tərəfindən göstərilən səylərin dəstəklənməsinin bölgədə əməkdaşlığın genişlənməsinə və sabitliyə xidmət edəcəyinə əmin olduqlarını bildirmişlər.

Türkiyə tərəfi, Azərbaycanda qısa bir zamanda iqtisadi, sosial və siyasi sahələrdəki irəliləyişlər, xüsusilə Azərbaycanda sərbəst bir şəraitdə, çoxpartiyalılıq əsasında keçirilmiş parlament seçkilərini, yeni konstitusiyanın qəbul edilməsini məmnuniyyətlə qeyd etdikdən sonra, Türkiyənin bu sahələrdə Azərbaycana indiyə qədər olduğu kimi, bundan sonra da hər cür yardımı və dəstəyi davam etdirəcəyini bildirmişdir.

Eyni zamanda Azərbaycan tərəfi, bu seçkilərin sərbəst bir şəraitdə keçirilməsini müşahidə etmək məqsədi ilə Türkiyədən göndərilmş müşahidəçilər qrupunun fəal və obyektiv iştirakı üçün dərin minnətdarlığını bildirmişdir.

Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorunda, Azərbaycan ilə beynəlxalq neft konsorsiumu tərəfindən imzalanan neft müqaviləsinin həyata keçirilməsinin bölgədə iqtisadi və siyasi sabitliyin bərpası üçün müstəsna əhəmiyyətini xüsusi qeyd etmişlər və Azərbaycanın beynəlxalq iqtisadi sistem ilə bütünləşməsinə onun zəmin yaradacağı barədə fikir birliyini bir daha təsdiqləmişlər.

Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd etmiş və ayrıca olaraq, əsas neft kəmərinin Türkiyə Ceyhan terminalına yönəldilməsi barədə istəklərini təsdiq etmişlər.

Tərəflər, iki ölkə arasında siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin dönməzdən inkişafını təmin elən müqavilə və sazişlərin həyata keçirilməsi mexanizmlərini inkişaf etdirmək və təkmilləşdirmək barədə tədbirlər görülməsinin əhəmiyyətini qeyd etmişlər.

Bu məqsədlə tərəflər, xüsusən iqtisadi əlaqələrin daha yüksək səviyyəyə qaldırılması üçün imkanlar olduğunu qeyd edərək müvafiq nazirlərin rəhbərliyi ilə Türkiyə - Azərbaycan birgə iqtisadi komissiyasının ən qısa bir vaxtda Bakıda toplanması və Türkiyə - Azərbaycan və Azərbaycan - Türkiyə işgüzar adamlar şuralarının daha

da təsirli fəaliyyəti üçün lazımi şəraitin yaradılması haqqında razılaşmışlar.

Tərəflər, iki ölkə arasında ticarətin inkişafını təmin etmək və investisiyaları təşviq etmək məqsədi ilə lazımi tədbirlərin görülməsi və iki ölkənin firma və təşkilatları tərəfindən imzalanan müqavilə və protokolların işgüzar hala gətirilməsi haqqında eyni fikirlərə sahib olduqlarını məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı nəqliyyat və rabitə sahəsində mövcud çətinliklərin tez bir zamanda aradan qaldırılması üçün birgə tədbirlər görülməsinin lüzumluğunu qeyd edərək, Türkiyə və Azərbaycan arasında 1 noyabr 1992-ci il tarixində Ankarada imzalanmış beynəlxalq quru yol nəqliyyatı haqqındakı müqavilənin təsdiq sənədlərinin iki ölkə tərəfindən təkmilləşdirilməsini və bu sənəd əsasında həyata keçirilməsini məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər, iki ölkə arasındakı hava nəqliyyatı sahəsində əməkdaşlığın inkişafı məqsədi ilə, Türkiyə və Azərbaycanın mülki aviasiya təşkilatlarının bu mövzuda imkanlarını qiymətləndirmək üçün qısa müddət ərzində bir görüş keçirmək arzusunda olduqlarını qeyd etmişlər.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı dəmir yolu nəqliyyatı sahəsində imkanları qeyd edərək, 1991-ci ilin mart ayında imzalanmış protokola əsasən Naxçıvan Muxtar Respublikasının Sədərək məntəqəsində Araz çayı üzərindən dəmir yolu körpüsünün tikilməsinin, qısa bir vaxtda Türkiyə ərazisindən dəmiryolu xəttinin çəkilməsinin və gələcəkdə Türkiyə Respublikasının dəmir yollarını istər Azərbaycan ərazisi ilə, istərsə də Orta Asiya respublikaları ilə birləşdirmək imkanlarının əhəmiyyətini vurğulamışlar. Bununla əlaqədar, Bakı sərnişin vaqonları deposunun modernizə edilməsi layihəsinin həyata keçirilməsinin vacibliyini də qeyd etmişlər.

Azərbaycan tərəfi Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olmasını nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası üçün Türkiyədən alınan elektrik enerjisinin gücünün və keyfiyyətinin artırılmasını istəmişdir.

Bununla əlaqədar, tərəflər, 14 iyul 1995-ci il tarixində Antaliyada imzalanmış protokolda qeyd etmişlər və bu protokola göstərildiyi kimi, Azərbaycan - Gürcüstan - Türkiyə enerji sistemlərinin bir-birinə bağlanması layihələrini hazırlamaq üçün tezliklə işçi qrupu yaradılmasının vacibliyini vurğulamışlar.

Tərəflər, ənənəvi dostluq və qardaşlıq münasibətlərini genişləndirmək əzmində olduqlarını bir daha təsdiq edərək, Türkiyə Radio-Televiziya Təşkilatının TRT-1 televiziya proqramının Azərbaycan Respublikasının bütün ərazisində yayılmasını təmin etmək məqsədilə, iki ölkə arasında bu səfər zamanı imzalanan sazişin hər iki ölkə və bu ölkələrin xalqları arasındakı anlaşma və əlaqələrin möhkəmlənməsi yolunda daha faydalı olacağını qeyd etmişlər.

Tərəflər, iki ölkə arasında 28 fevral 1992-ci il tarixli viza haqqındakı sazişi əsas tutaraq 28 noyabr 1995-ci il tarixində məktublar mübadiləsi nəticəsində viza məsələlərinin asanlaşdırılmasını məmnuniyyətlə qeyd etmiş və bu razılaşmanın iki ölkə vətəndaşlarının gediş-gəlişini asanlaşdıracağına ümid etdiklərini bildirmişlər.

Azərbaycan tərəfi, Azərbaycan Respublikasının Ankaradakı səfirliyinə diplomatik şəhərcikdə müvafiq yer ayrılmasını razılıqla qeyd edərək, bunun müqabilində Türkiyə Respublikasının Bakıdakı səfirliyi üçün şəhərin münasib yerində yetərli sahə

ayrılmasını qəbul etmişdir.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı yaxşı münasibətlərin regionun digər ölkələri üçün nümunə olması arzularını təsdiq edərək, bu ölkələri hər sahədə əməkdaşlığı genişləndirməyə dəvət etmişlər.

Türkiyənin Prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Türkiyəyə rəsmi səfərə əvvəlki dəvətini bir daha təsdiq etmişdir.

Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl Azərbaycana ziyarət zamanı ona və Türkiyə heyətinə göstərilən mehribanlıq və qonaqpərvərliyə görə Azərbaycan tərəfinə və bütün Azərbaycan xalqına dərin təşəkkürünü bildirmişdir."

Rəsmi görüşlərin sonunda həmişə olduğu kimi birgə mətbuat konfransı keçirilmişdir. Konfransda Prezidentlər ikitərəfli münasibətlər, həm də beynəlxalq aləmdə gedən proseslər haqqında danışıqlar aparıldığını bəyan etmişlər. Bütün bu danışıqların mərkəzində Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması və bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizindən çoxunun işğal olunması, zəbt edilmiş torpaqlardan bir milyondan çox vətəndaşımızın yurdundan didərgin düşməsi məsələlərinin müzakirəsi durmuşdur. Onlar qeyd etmişlər ki, tərəflər eyni fikirdədirlər ki, bu problem - Azərbaycan üçün ən ağır, çətin problem, eyni zamanda qardaş Türkiyə Respublikasını da həddindən artıq narahat edən problem sülh yolu ilə həll olunmalıdır və onlar sülh yoluna üstünlük verirlər.

Böyük Sülh Sazişinin əldə olunması üçün Türkiyə və Azərbaycanın şərtləri ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmalı, ölkəmizin ərazi bütövlüyü təmin olunmalı, didər-gin düşmüş bir milyondan artıq vətəndaşımız öz yerlərinə qayıtmalıdır. Dağlıq Qarabağ problemini həll etmək üçün bununla yanaşı Azərbaycanın tərkibində, Azərbaycanın ayrılmaz hissəsi olaraq Dağlıq Qarabağa müəyyən status verilməsi məsələsinə də müsbət münasibət göstərilmişdir. Sülhün əldə olunması üçün aparılan danışıqlar sürətlə getməlidir ki, tezliklə nəticə versin. Çünki Azərbaycan "nə sülh, nə müharibə" vəziyyətində üzun müddət qala bilməz.

Danışıqlarda iqtisadi əlaqələrimizin inkişaf etdirilməsi barədə də söhbət aparılmış, onların genişləndirilməsi qərara alınmışdır. Bütün sahələrdə - təhsil, mədəniyyət, insani əlaqələr və bütün başqa sahələrdə münasibətlərimizin yaxşı olması göstərilmiş, ancaq daha da yaxşılaşması üçün cəhdləri artırmaq nəzərdə tutulmuşdur.

Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə Prezident Heydər Əliyev bəyan etmişdir ki, bu günlər Türkiyə - Azərbaycan dostluğu və qardaşlığı yeni bir yüksək zirvəyə qalxıbdır.

Azərbaycan Prezidenti xalqımızın böyük dostü Süleyman Dəmirəl haqqında aşağıdakı ürək sözlərini bildirmişdir: "Hörmətli Süleyman Dəmirəl ilk dəfə Türkiyənin Baş Naziri seçiləndən sonra ilk xarici səfərlərindən birini Sovet İttifaqına etmişdir. Sovet İttifaqını ziyarət edərkən Azərbaycana gəlmişdir. Bu, 1967-ci ildə olmuşdur. Yəni ilk dəfə Baş Nazir olarkən o, Azərbaycana maraq göstərmiş, Azərbaycana gəlmək istəmiş və gəlmişdir. Xatirimdədir, o günlər Azərbaycan vətəndaşları, xalqımız hörmətli Süleyman Dəmirəli öz doğma qardaşı kimi qarşılayır-

dı. Olduqca mehriban, hərarətli bir münasibət var idi. O vaxt bizim ilk tanışlığımız oldu. Mən hiss edirdim ki, hörmətli Süleyman Dəmirəl də Azərbaycana gəlməyindən nə qədər məmnundur və Azərbaycanı görmək onun üçün nə qədər əhəmiyyətlidir.

Sonrakı dövrdə Azərbaycan ilə hörmətli Süleyman Dəmirəl arasında olan münasibətlərdə böyük fasilə dövrü olubdur. Məlumdur ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər İttifaqının tərkibində müttəfiq respublika idi. Azərbaycanın xarici ölkələrlə bilavasitə əlaqə saxlamağa imkanı yox idi. Türkiyənin Baş Naziri nə qədər istəsəydi də, Azərbaycanla əlaqə qurmağa ona da imkan verməzdilər. Nəhayət, bu imkan əldə edildi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyinə nail oldu. Türkiyə Cümhuriyyəti Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk xarici dövlət oldu. Bu da məhz hörmətli dostumuz Süleyman Dəmirəlin fəaliyyəti, onun Azərbaycana münasibəti nəticəsində olmuşdur. Bundan sonra əlaqələr çox yaxın olmuş, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında əlaqələr inkişaf etməyə başlamışdır. Hörmətli Süleyman Dəmirəl Azərbaycana daim diqqət yetirmiş, qayğı göstərmişdir.

1992-ci ildə hörmətli Süleyman Dəmirəl Azərbaycana ikinci dəfə gəlmişdir, bu vaxt Azərbaycan müstəqil dövlət idi. Doğrudur, o vaxt Azərbaycan müstəqilliyinin ilk aylarını yaşayırdı. Azərbaycanda qarmaqarışıq bir vəziyyət var idi, daxili siyasi proseslər çox gərgin idi. Məhz belə bir vaxt, belə bir zamanda hörmətli Süleyman Dəmirəl ölkəmizə gəlməklə bir daha Azərbaycana öz hörmət və ehtiramını bildirmiş və bu da öz faydasını göstərmiş, öz nəticəsini vermişdir.

Nəhayət, dünən biz Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli Süleyman Dəmirəli əziz bir qonaq kimi qəbul etmişik, bağrımıza basmışıq, qucaqlamışıq. İki gündür ki, bərabərik, bir yerdəyik. Güman edirəm ki, bu qısa bir zamanda hörmətli Süleyman Dəmirəl və onu müşayiət edən nümayəndə heyəti, onunla bərabər Azərbaycana gəlmiş türkiyəli qardaşlarımız respublikamızın bu günü ilə tanış ola biliblər. Çox şey görüblər. Yəqin ki, gördükləri haqqında özləri deməlidirlər və nəticə çıxarmalıdırlar. Ancaq bir şeyi mən də qeyd etmək istəyirəm. Harda olmuşuqsa, hansı küçədən, meydandan keçmişiksə, havanın yağışlı olmasına baxmayaraq, insanlar, vətəndaşlar, bakılılar, Bakının sakinləri küçələrə, meydanlara çıxıblar - məhz hörmətli qonağımızı, dostumuzu, Süleyman Dəmirəli görmək, onu salamlamaq, ona öz hörmət və ehtiramını yetirmək, ona əl etmək üçün, ona öz təbəssümlərini, sevinclərini bildirmək üçün. Mən bunların şahidiyəm. Bunlar təbiidir. Çünki bunlar hamısı xalqlarımız arasında olan, əsrlərdən-əsrlərə keçmiş dostluq, qardaşlıq əlaqələrinin ifadəsidir. Bunlar hamısı Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının Türkiyəyə, türk dünyasına və türk dünyasının böyük şəxsiyyəti, böyük lideri Süleyman Dəmirələ olan hörmət və ehtiramının ifadəsidir.

Respublikamız müstəqillik qazanandan sonra hörmətli Süleyman Dəmirəlin Azərbaycana göstərdiyi qayğı və diqqət haqqında, onun etdiyi yardımlar haqqında çox danışmaq olar. Bir sözlə, onu demək istəyirəm ki, o, həmişə Azərbaycan üçün doğma qardaş olubdur və öz qardaşlıq münasibətini daim ifadə edibdir, bildiribdir, göstəribdir, əməli surətdə sübut edibdir."

Prezident Süleyman Dəmirəlin Naxçıvan Muxtar Respublikasının blokada vəziyyətindən çıxarılmasında xüsusi rolunu qeyd edən və ona xalqımız adından öz dərin təşəkkürünü bildirən Prezidentimiz göstərdi ki, bütün bunların hamısı tariximizin səhifələridir. Bütün bu proseslərdə Türkiyə Cümhuriyyətinin, xalqının və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin xüsusi rolunu qeyd etməyi özümə borc bilirəm.

Yaxın tarixi keçmişimizdə də Türkiyənin özü üçün ən çətin anlarda belə Azarbaycana kömək əlini üzatdığından bəhs edən ölkəmizin başçısı o ağır günləri xatırlayaraq demişdir: "...İlk Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərdiyi dövrdə Türkiyə daim Azərbaycana dayaq, kömək olmuş, yardım etmişdir. Bunu bizim xalqımız heç vaxt unutmayıb və unuda da bilməz. O ağır, çətin illərdə erməni silahlı qüvvələri Azərbaycanda - Bakıda, Azərbaycanın başqa bölgələrində, o cümlədən Qarabağ bölgəsində qırğınlar edirdilər. O vaxt türk qardaşlarımız yenə də bizim köməyimizə gəldilər. Türkiyə ordusunun Qafqaz korpusu gəlib həm Naxçıvanda, həm də Azərbaycanın başqa bölgələrində Azərbaycan xalqına öz torpağını, öz hüquqlarını, öz evini, obasını müdafiə etməkdə yardım göstərdi. Biz bunu heç vaxt unutmarıq. Naxçıvanda heç kəs Kazım Qarabəkir bəyi unutmur və unuda bilməz. O cümlədən Azərbaycanda da Ənvər Paşanı, Nuru Paşanı heç kəs heç vaxt unutmur və unuda bilməz. Onların simasında o dövrdə, o çətin dövrdə Azərbaycana gəlib kömək edən türk qardaşlarımızı biz heç vaxt unutmamışıq və unuda bilmərik. İndi də bu dörd illik müstəqillik dövründə bizim bu dostluq, qardaşlıq əlaqələrimiz daha da inkişaf edib, yüksəklərə qalxıb. Artıq biz sərbəst münasibət yaratmaq imkanı əldə etmişik.

70 il ərzində bizim Türkiyə ilə əlaqələrimiz bağlı, qapalı olubdur. Biz böyük həsrətlə Türkiyəyə baxmışıq, Türkiyədə gedən prosesləri izləmişik. Çoxlarının qohum-əqrəbası orada olubdur. Orada yaşayanların qohum-əqrəbası Azərbaycanda olubdur. Bir-birindən ayrı düşüblər. Bəziləri bəlkə də öz arzularını yerinə yetirmədən dünyasını dəyişib. Ancaq nəhayət, bütün bunlar aradan götürüldü. Sərhədlərimiz açılan kimi, Azərbaycan müstəqillik qazanan kimi xalqlarımız dərhal bir-birinə bağlandı. 70 illik bu ayrılıq sanki heç olmamışdır. Bəzən düşünürsən ki, biz elə daim bir yerdə olmuşuq, bir yerdə yaşamışıq. Yəni daxili, mənəvi əlaqələrimiz, hissiyyatlarımız bir-biri ilə o qədər bağlıdır ki, 70 illik ayrılıq bizi heç də ayıra bilməyib və güman edirəm, bundan sonra heç vaxt ayıra bilməz. Çünki artıq Azərbaycan müstəqil dövlətdir. Müstəqil dövlət kimi Azərbaycanın yeni konstitusiyası qəbul olunub. Azərbaycanda ilk demokratik parlament seçkiləri keçirilib, yeni parlament yaranıbdır. Yəni bu dörd il müddətində Azərbaycanda gedən ağır proseslər nəticəsində artıq dövlət-hakimiyyət orqanları formalaşıbdır, bərqərar olubdur, Azərbaycanı idarə etməyə və Azərbaycanın bütün ölkələrlə münasibətlərini yaratmağa qadirdir. Bu münasibətləri yaradarkən biz birinci növbədə Türkiyə ilə olan münasibətlərimizi daha da inkişaf etdirməyə çalışırıq və bundan sonra da inkişaf etdirəcəyik.

Bu gün hörmətli Prezident Süleyman Dəmirəl ilə mən Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsinə həsr olunmuş birgə bəyanat imzaladıq. Bizim ölkələrimiz arasın-

da indiyədək bir sıra sazişlər, müqavilələr, sənədlər imzalanıbdır. Biz onları həyata keçirməliyik. Ancaq bu gün birgə bəyanatı imzalayarkən bir daha təsdiq etdik ki, həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası indiyə qədər imzaladıqları sazişlərə, müqavilələrə sadiqdirlər və bundan sonra da əlaqələrini inkişaf etdirməyə əzmlə çalışacaqlar.

...Türkiyə Cümhuriyyəti, onun neft şirkəti bizim böyük neft müqaviləsinin üzvüdür. Orada Türkiyənin böyük payı var. Biz Türkiyə ilə bu sahədə əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Güman edirəm ki, bu əməkdaşlıq iqtisadiyyatımızda qarşılıqlı surətdə faydalı olacaqdır.

İqtisadiyyatımızın digər sahələrinə də maraq göstərənlər və onlarla tanış olmaq istəyənlər var. Biz hamını dəvət edirik. Bu gün Türkiyənin iş adamlarının böyük bir qrupu ilə aparılan söhbətlər, onların verdiyi məlumatlar onu göstərir ki, artıq Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr inkişaf edir, irəliyə gedir və bu əlaqələrin çox gözəl gələcəyi var."

Nitqində Dağlıq Qarabağ probleminə də toxunan ölkəmizin başçısı bildirmişdir ki, bu ağır, çətin məsələnin, vəzifənin həll olunmasında biz Türkiyə Cümhuriyyətinin, onun rəhbərlərinin və şəxsən hörmətli dostumuz Süleyman Dəmirəlin yardımını, dəstəyini daim hiss edirik. Ümidvar olduğunu bildirmişdir ki, bu iki gün müddətində Azərbaycanla tanış olandan, qaçqınların vəziyyətini görəndən, Azərbaycanın sülhsevər olduğuna bir daha inanandan sonra həm Prezident Süleyman Dəmirəl, həm də Türkiyənin digər rəhbər şəxsləri və Türkiyə Cümhuriyyəti Azərbaycanın bu vəziyyətdən çıxması üçün daha təsirli addımlar atacaqdır.

Beləliklə, dövlət başçımızın göstərdiyi kimi bu səfər tarixi bir ziyarət oldu və əlaqələrimizin inkişafına öz töhfələrini verməyə başladı.

***

1996-cı il də əlaqələrimizdə yeni-yeni irəliləyişlərin meydana gəlməsi ilə səciyyələndi. Hələ yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti Mustafa Kalemli cənablarını Türkiyə Böyük Millət Məclisinin sədri seçilməyi münasibətilə təbrik etdi, 12-16 mart 1996-cı il tarixlərində Naxçıvan Muxtar Respublikası Parlament sədrinin rəhbərliyi ilə Naxçıvanın Parlament və hökumət nümayəndə heyəti Ankarada səfərdə oldu, Türkiyə Respublikasının Prezidenti S.Dəmirəl və Baş Naziri M.Yılmaz Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətini qəbul etdilər.

***

23-26 mart 1996-cı il tarixlərində Ankarada keçirilən IV "Türk dövlətləri və toplumlarının dostluq, qardaşlıq və əməkdaşlıq" qurultayının işində iştirak etmək üçün Azərbaycan Respublikasının 25 nəfərlik nümayəndə heyəti Ankaraya səfər etmişdir.

***

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Baş Naziri M.Yılmaz və onu müşayiət edən nümayəndə heyəti 1996-cı il aprel ayının 14-dən 15-dək Azərbaycan Respublikasında rəsmi səfərdə oldu. M.Yılmaz Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev tərəfindən qəbul edildi. O, digər rəsmi şəxslərlə də görüşlər keçirdi. Səfərin yekunu olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Baş Naziri M.Yılmaz "Azərbaycan-Türkiyə Birgə Bəyanatı"-nı imzaladılar.

Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Türkiyənin Baş Naziri Məsud Yılmazla birgə mətbuat konfransında Azərbaycan Prezidenti bildirdi ki, danışıqlar zamanı biz bir çox məsələləri müzakirə etmişik. Birinci növbədə Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi və genişləndirilməsi haqqında müzakirələr aparıldı. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün müştərək komissiya yaradıldı. Bu komissiyanın sədrləri Azərbaycan tərəfindən Baş Nazirin müavini Abid Şərifov, Türkiyə tərəfindən isə Enerji Naziri cənab Nüsni bəy təyin edildilər. Onlar artıq işə başlayıblar və bir çox müzakirələr aparılır.

Görüşdə Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin bütün sahələrinə nəzər salındı və belə qənaətə gəlindi ki, bu əlaqələr inkişaf etdirilməli, genişləndirilməlidir.

Türkiyə və Azərbaycan üçün çox mühüm məsələ olan Ermənistan - Azərbaycan hərbi münaqişəsi də bizim danışıqların, müzakirələrin mərkəzində oldu. Tərəflər bu barədə də eyni fikirdədir. Türkiyə Azərbaycan Respublikasının haqq və ədalət işini müdafiə edir. Baş Nazir Məsud Yılmaz tərəfindən bu fikirlərin bir daha bəyan edilməsi bizim üçün çox əhəmiyyətli oldu.

Həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi eyni fikirdədir ki, sülh danışıqları Minsk qrupu çərçivəsində və ayrı-ayrı böyük dövlətlərin - ABŞ-ın, Rusiyanın, Türkiyənin vasitəçiliyi ilə davam etdirilməlidir. Bu məsələ sülh yolu ilə həll olunmalıdır.

Bütün bunlarla yanaşı görüşlərdə beynəlxalq məsələlər də gözdən keçirildi. Bölgədəki və dünyadakı vəziyyət müzakirə edildi. Prezident ölkələrimiz arasındakı mövcud dostluq əlaqələrinə toxunaraq çox düzgün olaraq göstərdi ki, "Türkiyə ilə Azərbaycan arasında dostluq əlaqələrinin ən mühüm cəhəti ondan ibarətdir ki, bir çox beynəlxalq məsələlərə də biz eyni münasibət göstəririk. Biz beynəlxalq aləmdə də əməkdaşlıq edirik və beynəlxalq məsələlərin həll olunmasında bir-birimizə yardım edir, dəstək veririk".

Gələcək əməkdaşlıq məsələlərinə toxunan Prezidentimiz göstərdi ki, Azərbaycan ilə Türkiyənin iqtisadi əməkdaşlığının çox gözəl gələcəyi var. Bu əməkdaşlıq sahəsində çox dəyərli addımlar atmışıq. Xüsusən, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından müştərək istifadə olunması üçün biz Türkiyə ilə əməkdaşlıq edirik. Məlumdur ki, 1994-cü ilin sentyabrında imzalanmış böyük neft müqaviləsinin iştirakçılrından biri də Türkiyə Cümhuriyyətinin "Türk Petrolları" şirkətidir. Onu da qeyd etmək lazımdır ki, həmin müqavilə imzalandıqdan sonra biz Türkiyə neft şirkətinin konsorsiumda olan payını 5 faiz artırmışıq və Türkiyə konsorsiumda artıq özünəməxsus yer tutubdur.

İlkin neftin ixracı üçün boru kəmərinin çəkilməsi məsələsinə toxunan dövlətimizin başçısı qeyd etdi ki, bu məsələdə də biz Türkiyə ilə daim əməkdaşlıq etmişik. Nəticədə Azərbaycanın ilkin neftinin ixracı üçün iki boru kəmərinin - Rusiya ərazisi vasitəsilə Qara dəniz sahilindəki Novorossiysk limanına və Gürcüstan ərazisindən keçməklə Türkiyənin Supsa limanına kəmərlərin çəkilməsi haqqında qərarlar qəbul etmişik. Bu qərarları hazırlayarkən, qəbul edərkən Türkiyə Cümhuriyyətinin mənafelərini də nəzərə almış, onunla əməkdaşlıq etmişik və həmin

qərarlar birgə əməkdaşlığımızın nəticəsidir.

Bizim bundan sonra da əməkdaşlıq etməyimiz üçün yaxşı imkanlar var, özü də təkcə neft sənayesi yox, başqa sahələrdə də imkanlar var. Türkiyənin iş adamları Azərbaycana gəlirlər. Azərbaycanda ictimai-siyasi vəziyyət sabitləşibdir. Biz buna tam zəmanət vermişik və Azərbaycanın Prezidenti kimi mən bu gün bir daha zəmanət verirəm. Türkiyənin iş adamlarını ölkəmizdə müştərək iş görməyə dəvət edirəm.

Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, iqtisadi əməkdaşlığımız, elm, mədəniyyət sahəsindəki, bütün başqa sahələrdəki əməkdaşlığımız və xüsusən beynəlxalq aləmdə Türkiyə - Azərbaycan əməkdaşlığı, Qafqazda sülhün, əminamanlığın bərqərar olması üçün etdiyimiz əməkdaşlıq və nəhayət, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək, ölkəmizi xarici təcavüzdən qurtarmaq üçün əməkdaşlıq - bunların hamısı birlikdə Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının gələcəkdə də inkişafını təmin edəcəkdir. Qeyd etdi ki, bizim dostluğumuz, qardaşlığımız böyük sınaqlardan keçib və bu gün də belə sınaqlardan keçir, Çünki bu dostluq və qardaşlığımıza kəm baxanlar, buna qısqananlar, mane olmaq istəyənlər də var. Həm daxildə, həm də xaricdə dostluğumuzu, qardaşlığımızı ləkələmək istəyənlər də var. Amma qoy hamı bilsin ki, heç bir qüvvə, heç kəs buna mane ola bilməyəcəkdir. Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir.

Türkiyə - Azərbaycan əlaqələrini nəzərdən keçirdikdə, elə Prezidentimizin nitqinin məzmununa diqqətlə nəzər saldıqda görürük ki, Azərbaycan Prezidenti həmişə hesab etmişdir ki, Türkiyə ilə bizim dostluğumuzun, qardaşlığımızın böyük gələcəyi var. Ona görə heç də təsadüfi deyildir ki, bir çox problemlərin həllində Türkiyəni ölkəmizə arxa və dayaq hesab edirik. Türkiyədə gedən prosesləri və 70 il müddətində dövlət quruculuğunda əldə olunmuş nailiyyətləri isə özümüz üçün örnək hesab edirik. Bu təcrübədən, əldə olunan nailiyyətlərdən Azərbaycanın xüsusiyyətlərinə uyğun istifadə etməyə çalışırıq. Türkiyədə artıq həyata keçirilən demokratiya, insan azadlığı, sərbəst bazar iqtisadiyyatı, söz azadlığı və s. təcrübələrdən yararlanmağa çalışırıq. Prezidentimizin dəfələrlə bəyan etdiyi kimi, bunların hamısı Azərbaycanda bərqərar olmaqdadır.

Ölkəmizin başçısının qeyd etdiyi kimi, biz indi dünya demokratiyasının əldə etdiyi nailiyyətlərdən istifadə edərək bu prinsipləri daha da möhkəmləndirir və inkişaf etdiririk. Bizim üçün tarixi, milli ənənələrimizə görə çox yaxın olan Türkiyənin təcrübəsindən səmərəli istifadə etməyə çalışırıq. Biz istəyirik ki, Türkiyə gündən-günə möhkəmlənsin, artsın, inkişaf etsin. Türkiyə dünya miqyasında öz nüfuzunu nə qədər qaldıracaqsa, Azərbaycan üçün, bütün türk dünyasına mənsub olan ölkələr üçün o qədər gərəkli olacaqdır. Prezidentimizin dəfələrlə qeyd etdiyi kimi, buna görə də Türkiyənin nailiyyətlərini biz özümüzün doğma nailiyyətimiz hesab edirik və hər bir nailiyyətə, irəliləyişə hər bir türk vətəndaşı kimi sevinirik.

Biz həmişə ümid etmişik ki, Türkiyə Cümhuriyyəti, Türkiyə eliözünə dost, qardaş olan Azərbaycan xalqının, Azərbaycan Respublikasının qayğıları ilə daim yaşayacaq, bu qayğıları öz qayğıları biləcək, Azərbaycanın gələcəyə olan ümidini öz ümidi hesab edəcəkdir.

***

Bu səfər zamanı Türkiyə Respublikasının Baş Naziri Məsud Yılmaza M.Ə.Rəsulzadə adına BDU-nun fəxri doktoru diplomu təqdim edildi. Mərasimdə ölkəmizin başçısı da iştirak edirdi.

Türkiyə Respublikasının Baş Naziri Məsud Yılmaz Sabunçu rayonundakı 6 saylı texniki peşə məktəbinin yataqxanasında yaşayan Füzuli, Cəbrayıl, Zəngilan qaçqınları ilə də görüş keçirdi. Görüşdə çıxış edən möhtərəm Prezidentimiz Türkiyənin roluna önəm verərək demişdir ki, biz Türkiyəni, Türkiyə xalqını, Türkiyə Cümhuriyyətinin rəhbərlərini, başçılarını öz yanımızda, özümüzlə bərabər görürük. Bu, bizim üçün böyük təskinlikdir, dayaqdır, eyni zamanda böyük yardım və köməkdir. Bütün tədbirlərdə, beynəlxalq təşkilatlarda apardığımız danışıqlarda Türkiyə Cümhuriyyətinin nümayəndələri, Türkiyə hökuməti həmişə bizimlə olub, bizimlə birlikdə bütün tədbirlərin aparılmasına çalışıblar... Türkiyə ilə Azərbaycan arasında olan dostluq əlaqələri Azərbaycanın bu vəziyyətdən çıxması üçün çox böyük əhəmiyyətli amildir və Türkiyə bütün bu işlərimizdə bizim üçün dayaqdır.

Beləliklə, qardaş Türkiyənin rəhbərlərindən birinin ölkəmizə səfəri başa çatdı. Bu səfər siyasi əlaqələrimizlə yanaşı iqtisadi əlaqələrimizin daha da genişlənməsi üçün yeni bir impuls oldu.

***

Yeri gəlmişkən onu da qeyd etməyi vacib sayırıq ki, Azərbaycan Prezidenti Türkiyə ilə olan iqtisadi əlaqələrimizə həmişə böyük diqqət və qayğı ilə yanaşmışdır və yanaşmaqdadır. Dövlət başçımız bu əlaqələri inkişaf etdirmək üçün qarşıda gözlənilən perspektivlərin öyrənilməsini də çox zəruri sayır. Buna görə də o, daim Türkiyədə və Azərbaycanda belə tədbirlərin keçirilməsini alqışlayır, onların keçirilməsində bilavasitə iştirak vacib sayır. İqtisadi sahədə əməkdaşlığımızın perspektivlərinin elmi bazasının yaradılmasını gələcək uğurlarımızın əsaslarından biri kimi qiymətləndirir.

Onun göstərişi ilə 30 may 1996-cı ildə keçirilən Azərbaycan - Türkiyə iqtisadi əməkdaşlığının perspektivlərinə həsr olunan konfrans da bu qəbildəndir. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin problemlərinin dərindən araşdırılması, ölkələrimiz arasındakı dostluq, qardaşlıq münasibətlərinin, əsasını, özəyini təşkil edən bu əlaqələrin inkişaf yollarının və istiqamətlərinin müəyyənləşdirilməsi bu konfransın əsas məqsədi, qayəsi idi. O dövrdə başqa sahələrdə əldə etdiyimiz nailiyyətlərlə iqtisadiyyat sahəsində qazandığımız nailiyyətlər müqayisə edilərkən, iqtisadiyyatdakı nailiyyətlərimizin xeyli geridə qaldığı açıq şəkildə müşahidə olunurdu. Bu geriliyin səbəblərini araşdırmaq və onları aradan qaldırmaq üçün tərəflər arasında açıq dialoqun qurulması, hər iki tərəfin bir-birini dinləməsi, buraxılan səhvlərin üzə çıxarılması və onların aradan götürülməsi yollarının müəyyənləşdirilməsi günün tələbi idi. Xarici iqtisadi əlaqələrimizdə Türkiyəyə üstünlük verilməsi həm də xalqın istəyindən doğan bir arzu idi. Və bütün bunlar mütləq nəzərə alınmalı idi. Bu baxımdan ölkəmizin başçısının konfrans iştirakçıları qarşısındakı çıxışı çox səciyyəvidir. Çıxışda bütün bu məsələlərin həm görünən, həm də görünməyən tərəfləri geniş işıqlandırılır, iş adamlarının qarşısına konkret vəzifələr qoyulur, iqtisadiyyatımızın hansı sahələrində investisiya imkanlarının istifadə edilməsinin ölkəmiz üçün lazım olduğu açıqlanırdı. Bu çıxışda deyilirdi:

"...Mən hesab edirəm ki, Türkiyənin həm dövlət dairələri, həm də iş adamları Azərbaycanda iş görməyi yalnız iqtisadi mənfəətlə bağlamamalıdırlar. Şübhəsiz ki, iqtisadi mənfəət olmasa, iqtisadi əlaqələr də olmayacaqdır. Bu, aydındır. Ancaq Azərbaycan ilə Türkiyə arasında olan əlaqələrin xüsusi xarakterini nəzərə alaraq Azərbaycana gələn hər bir iş adamı, respublikamıza sərmayə qoymaq istəyən iş adamı və dövlət dairələrindən ölkələrimiz arasındakı iqtisadi əlaqələri qorumağa məsul şəxslər gərək bilsinlər ki, bu, Türkiyə ilə başqa ölkələr arasında olan iqtisadi əlaqələr deyil, bunun iqtisadi cəhətlərdən çox böyük mənəvi cəhəti var. Bu mənəvi cəhəti heç vaxt unutmaq lazım deyil. Mən demirəm ki, bu mənəvi cəhət həmişə nəzərə alınmalıdır. Ancaq Azərbaycanın iqtisadiyyatı ayaq üstündə durana qədər, respublikamız bu iqtisadi problemlərin həll edilməsi dövründən keçib gedənə qədər gərək bu, Türkiyədə nəzərə alınsın.

Mən açıq danışıram, çünki biz qardaşıq. Qardaş ilə qardaş arasında söhbət tamamilə açıq olmalıdır. Ona görə də mən ərk edirəm və bu sözləri də ərklə deyirəm. Bunu bir də ona görə deyirəm ki, mən bu işləri izləyirəm, görürəm ki, Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr əksərən ticarət əlaqələrindən ibarətdir. Şübhəsiz ki, ticarət də olmalıdır və biz ticarət əlaqələrini bundan sonra da inkişaf etdirməliyik. Bu, necə deyərlər, iqtisadi əlaqələrin başlanğıcıdır. Ticarət əlaqələri olmasa, başqa əlaqələr də olmayacaqdır. Ancaq Türkiyə ilə Azərbaycan arasında əlaqələr təkcə ticarət əlaqələri ilə bitməməli, məhdudlaşmamalıdır. Şübhəsiz ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr respublikamıza sərmayə qoymaq, ölkəmizdə müştərək iş görmək, müştərək işlər nəticəsində həm mənfəət götürmək, həm də Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməkdən ibarət olmalıdır.

Siz bilirsiniz, mən bunu hamıya deyirəm, bu gün isə Türkiyədən gələn qonaqlarımıza müraciət edərək deyirəm ki, indi Azərbaycan öz iqtisadiyyatında, ictimai-siyasi həyatında keçid mərhələsini yaşayır. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Azərbaycanın cəmiyyəti demokratik cəmiyyət, hüquqi dövlət, azad, sərbəst cəmiyyət kimi formalaşır. Azərbaycan keçmiş iqtisadi sistemdən imtina edərək öz iqtisadiyyatını bazar iqtisadiyyatı əsasında qurmağa çalışır, bu barədə tədbirlər görür. Bunun üçün biz iqtisadi islahatlar həyata keçiririk, keçmiş iqtisadiyyat formasından tamamilə imtina edirik. Bunlar hamısı indi Azərbaycanın iqtisadiyyatının keçid dövrünü təşkil edir.

Bu keçid dövrü hər bir ölkədə çətin olur. Türkiyənin bugünkü iqtisadiyyatı elə anadangəlmə belə olmayıb ki! Türkiyə iqtisadiyyatının 20, 30, 40 il bundan əvvəlki vəziyyətini biz bilirik, bunların hamısını təhlil etməyə imkanımız var. Türkiyə də böyük keçid dövrü keçirib. Ancaq iş burasındadır ki, Türkiyədə heç vaxt nə sosialist iqtisadiyyatı, nə də kommunist ideologiyası, quruluşu olubdur. Türkiyənin özünəməxsus cürbəcür sistemləri olubdur. Amma bu sistemlərin hamısında şəxsi mülkiyyət həmişə olubdur. Şəxsi mülkiyyət, sahibkarlıq Türkiyədə heç vaxt yasaq edilməyib. Bunlar hamısı Türkiyədə olub, Türkiyənin həyatında gedən proseslərin də keçmişdə nə qədər çətin, ağır olduğunu biz bilirik. Türkiyənin iqtisadiyyatını bu yüksək səviyyələrə gətirmiş insanlara biz daim hörmət və ehtiramımızı bildiririk. Ancaq istəyirik ki, Türkiyədəki dostlarımız, qardaşlarımız respublikamızın bu keçid

dövrünün nə qədər mürəkkəb, çətin olduğunu daha dərindən duysunlar və bununla əlaqədar olaraq da Azərbaycan - Türkiyə iqtisadi əlaqələrini yaratsınlar.

...İndi Azərbaycanda ictimai-siyasi vəziyyət tamamilə sabitdir, normaldır. Dövlət öz qüdrətini bütün dünyaya nümayiş etdiribdir. Dövlət Azərbaycanın bütün ərazisində hakimdir. Ölkədə dövlət quruculuğu prosesi gedir. Belə bir halda Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlıq daha da geniş olmalıdır. Yəni Türkiyənin iş adamlarının Azərbaycana sərmayə qoyması bizim üçün çox lazımdır. Bu, həm Türkiyə üçün, həm də Azərbaycan üçün iqtisadi cəhətdən çox əhəmiyyətlidir.

Türkiyənin "Qoç qrupu" şirkəti respublikamızda böyük bir supermarket tikib, gözəl ticarət mərkəzi yaradıbdır. Hörmətli Baş Nazir Məsud Yılmaz Azərbaycanda səfərdə olarkən mən özüm də onunla birlikdə həmin ticarət mərkəzinin açılışında iştirak etdim. Amma yenə də, bu, ticarətdir. Bəs istehsal yaratmaq, müştərək iş görmək üçün nə işlər görülüb? Bilirsiniz, mən bunların hamısını ona görə deyirəm ki, Türkiyə böyük iqtisadiyyata malikdir. Türkiyədə iqtisadiyyat, istehsal çox yüksəklərə qalxıb. Bu ölkənin böyük imkanları vardır. Şübhəsiz ki, Türkiyə bu imkanlardan dünyanın hər yerində geniş istifadə etmək istəyir, ancaq bu, Azərbaycanda da həyata keçirilməlidir. Bu işlərə keçmiş vaxtlarda olduğu kimi, ehtiyatla, müəyyən qədər qorxu hissi ilə yanaşmaq halları geridə qalmalıdır.

Biz elan etmişik ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Biz bunu həyata keçiririk. Elan etmişik ki, hər bir şirkət gəlib Azərbaycanda mülk ala bilər, mülk sahibi ola bilər, özəlləşdirmədə iştirak edə bilər. Yaxud mən Azərbaycandakı böyük sənaye müəssisələrinin xarici şirkətlərin idarəsinə verilməsi barədə fərman imzalamışam. Artıq bu sahədə bir neçə təklif var və yenə də təkliflər gəlir. Biz bunları alqışlayırıq. Ancaq bu işlərdə Türkiyə birinci sırada olmalıdır.

Dünya iqtisadiyyatı ilə bizim sıx bağlanmağımızı nümayiş etdirən ən böyük amil ondan ibarətdir ki, 1994-cü ilin sentyabrında Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından müştərək istifadə edilməsi barədə böyük bir müqavilə imzaladıq. Ona "Əsrin müqaviləsi" deyirlər. Bu müqavilədə Türkiyənin neft şirkəti də iştirak edir. Mən bu gün açıq demək istəyirəm ki, Türkiyənin neft şirkəti Azərbaycan öz müstəqilliyini əldə edən zaman, xüsusən burada Xalq Cəbhəsi hakimiyyətdə olduğu vaxt, bu müqavilənin hazırlanmasının ən fəal iştirakçılarından biri olmuşdur. Ancaq bu müqavilədə Türkiyənin yeri nə idi? 1,75 faiz. Ancaq sonradan Türkiyə dövləti başçılarının xahişinə görə Azərbaycanın öz hissəsindən, müqavilə imzalanandan sonra respublikamıza qalmış hissədən beş faiz də Türkiyə dövlətinə, şirkətinə orada yer ayırdıq. Artıq burada Türkiyənin yeri 6,75 faiz idi. Bax, biz bu addımı atdıq ki, ölkəmizə Türkiyənin sərmayəsi gəlsin.

Bilirsiniz, neçə vaxtdır ki, neft kəməri haqqında danışıqlar gedir. Hətta mən 1993-cü ildə buraya işləməyə gələndə, 1994-cü ildə hələ müqavilə imzalanmamış, mənə bir məktub gətirdilər. Bu, bir müqavilə, yaxud kağız idi, orada 15-ə yaxın imza var idi ki, boru xətti Türkiyədən keçəcəkdir. Bağışlayın mən öz keçmişimiz haqqında da deyirəm - amma eyni zamanda bu əlaqələrin keçmişi barədə də deyirəm, bu kağız heç bir hüquqi əsası olmayan bir şey idi. Hamı da imza atmışdı və orda-burda, mət-

buatda da bağırırdılar ki, boru xətti Türkiyədən keçəcək. Amma əgər nefti çıxarmaq, istehsal etmək haqqında müqavilə yox idisə, boru xəttinin haradan keçməsini necə müəyyən etmək olardı? Yəni bu nə iqtisadi, nə hüquqi əsası olmayan bir kağız idi. Bu kağızı hazırlayan insanlar da özlərini özlərini və ictimaiyyəti aldadırdılar. Bunlar hamısı boş şeylər idi.

Ancaq biz bunların hamısını qaydaya saldıq. İlkin neftin ixracı üçün neft kəmərinin haradan keçməsi barədə xeyli mübahisə getdi. Biz öz iradəmizi bildirdik və ilkin neft kəmərlərinin qərb istiqamətində Gürcüstan ərazisindən Türkiyəyə keçməsi haqqında qərar qəbul etdik. Siz bilin ki, bu qərarın qəbul olunması o qədər də asan məsələ deyildi. Bilirsiniz ki, Azərbaycan çox istiqamətlərdə təzyiq altında idi. Ancaq biz bunu etdik. Bundan sonra da addımlar atacağıq.

Bunların hamısını deyərək bildirmək istəyirəm ki, Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələr daha dərin, geniş olmalıdır. Mən indiyədək olan nailiyyətləri yüksək qiymətləndirirəm, ancaq onları yetərli hesab etmirəm. Çünki iqtisadi əlaqələrimiz Azərbaycanın Türkiyə ilə dövlətlərarası ictimai-siyasi sahələrdəki əlaqələri səviyyəsində deyil. Bilirsiniz, dövlətlərimiz arasındakı siyasi əlaqələrlə iqtisadi əlaqələrimiz arasında məsafə çox böyükdür. Bu məsafəni ləğv etmək lazımdır. İqtisadi əlaqələri həmin o əlaqələr səviyyəsin də qaldırmaq lazımdır. Şübhəsiz ki, bunun üçün biz özümüz çox iş görməliyik. Əgər bu məsələni irəli sürürüksə - Azərbaycanın Prezidenti kimi mən bu məsələni bu gün bu konfransda irəli sürürəmsə, müəssisə, şirkət rəhbərlərini, iş adamlarını da buna dəvət edirəm və hətta onların qarşısında bunu vəzifə kimi qoyuram, bunu onlardan tələb edirəm. Amma eyni zamanda mən Türkiyənin həm dövlət, hökumət dairələrinə, həm də xüsusən bu ölkənin işgüzar dairələrinə müraciət edirəm ki, Azərbaycan ilə iqtisadi əlaqələr genişləndirilsin, respublikamıza sərmayə qoyuluşu prosesi inkişaf etdirilsin. Ölkəmizdə müştərək iş görmək və beləliklə həm Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, həm də respublikamızın iqtisadiyyatı ilə Türkiyənin iqtisadiyyatını sıx bağlamaq lazımdır.

Dörd il yarımdır ki, respublikamız müstəqil dövlətdir. Ancaq iqtisadiyyatımız çox çətin vəziyyətdədir. Bunun səbəbləri nədən ibarətdir. Ondan ibarətdir ki, on illərlə, 1920-ci ildən, daha doğrusu, 20-ci ilə qədər də Azərbaycanın iqtisadiyyatı Rusiyanın, Sovetlər İttifaqının başqa respublikalarının iqtisadiyyatı ilə çox sıx bağlı olub. Vaxtilə bunları düşünülmüş şəkildə bir-birinə elə calaşdırıblar ki, ayırmaq mümkün olmasın. Məsələn, 1991-ci ildə Sovetlər İttifaqının qalıb-qalmaması haqqında referendum keçirilərkən çoxları deyirdilər ki, yox, Sovetlər İttifaqını dağıtmaq olmaz. Çünki dağılsa bu respublikaların heç biri müstəqil yaşaya bilməz: onların istehsal müəssisələri və sair bir-biri ilə elə bağlıdır ki, bu, burada məhsulu istehsal edib, ora aparır, o isə istehsal edib bura gətirir. Əgər onlar bu malları bir-birinə verməsə, fabrik-zavodlar necə işləyəcək?

Yenə də deyirəm, bunu belə qurmuşdular, - respublikalar bir-biri ilə bağlı olsunlar ki, heç vaxt ayrıla bilməsinlər. Xatirimdədir, 1970-ci illərdə mən burada respublikaya rəhbərlik etdiyim zaman Azərbaycanda iqtisadiyyatı inkişaf etdirərkən Moskvadan, mərkəzdən bir məhsulu tam şəkildə istehsal etməyə bizə imkan vermirdilər. Yəni həm xammal, həm ilkin istehsal bizimdir, həm də son məhsulun istehsalı

respublikamızda mümkün idi. Lakin buna imkan vermirdilər. Deyirdilər ki, xammal sizdədir, bax, bunu bu dərəcəyədək istehsal edin, sonra onu Voronejə, yaxud Sverdlovska, Moskvaya göndərin, onlar orada ondan son məhsul alsınlar. Bunun iki səbəbi var idi. Birinci səbəbi ondan ibarət idi ki, bağlamaq istəyirdilər ki, ayrılmaq mümkün olmasın. İkinci səbəbi isə - şübhəsiz ki, siz iqtisadçısınız, bunu yaxşı bilirsiniz - xammalın ilkin istehsalından alınan məhsulun qiyməti birdir, amma son məhsulun qiyməti tamamilə yüksəkdir. Son məhsulun xeyiri Rusiyaya gedirdi.

Məsələn, Sumqayıtda böyük kimya kompleksi inkişaf etdirilirdi. Bu inkişaf 1962-ci illərdən başlamışdı. Mən özüm 1969-cu ildə respublikaya rəhbərlik edəndən bu işlə bilavasitə məşğul olmuşam. 1970-ci illərdə Sumqayıtda kimya zavodlarının inkişaf etdirilməsi üçün çox böyük məsələlər qaldırmışdıq və çox böyük işlər gördük. Mən o vaxt çalışırdım, vuruşurdum ki, əgər polietilen istehsal ediriksə, onun son məhsulunu da biz özümüz hazırlamalıyıq. Amma bizi məcbur edirdilər ki, polietileni xammal kimi başqa yerlərə verin.

Respublikada pambıq, mahlıc istehsal edilirdi. Həmin mahlıcı az miqdarda biz özümüz son məhsullara gətirib çıxara bilərdik. Onun demək olar ki, 90 faizi respublikadan kənara gedirdi, orada son məhsul istehsal olunurdu, toxuculuq məmulatı kimi satılırdı. Şübhəsiz ki, toxuculuq məmulatının qiyməti mahlıcın qiymətindən qat-qat artıq idi.

Bunları ona görə deyirəm ki, əgər o vaxt belə siyasət aparıb bizi bir-birimizə bağlamışdılarsa, bu bağlılıqdan indi də əziyyət çəkirik və bu, istehsalın aşağı düşməsinin hazırkı səbəblərindən biridir. İndi Türkiyə və Azərbaycan iqtisadiyyatlarının bir-biri ilə bağlanması ölkələrimizin əlaqələrini sıxlaşdıracaqdır. Mən bunu əlaqələrimizin siyasi, mənəvi cəhətinə gətirib çıxarıram. Bunlar haqqında da düşünməliyik.

İqtisadçı iqtisadçıdır, iş adamı iş adamıdır. Amma iş adamı vətənsiz ola bilməz. Heç bir iqtisadçı öz millətinə biganə ola bilməz. Heç bir iqtisadçı düşünməməlidir ki "pul mənim üçün hər şeydən üstündür". Bəs Vətən, torpaq, millət, mənəviyyat. Bunların hamısı haqqında düşünmək lazımdır.

Azərbaycanda indi böyük iqtisadi islahatlar prosesi gedir. Respublikamızda iş görmək üçün geniş imkanlar yaranır. Bunun üçün biz bir sıra qanunlar qəbul etmişik və edəcəyik. İqtisadiyyatın, idxalın, ixracın sərbəstləşdirilməsi üçün lazımi qanunlar qəbul olunur və bundan sonra da qəbul ediləcəkdir. İqtisadiyyatda Azərbaycanın gələcək yolu müstəqil bazar iqtisadiyyatıdır, azad sahibkarlıqdır, sahibkarlığa geniş imkanlar verilmişdir. Bax, bu yol bizim üçün əbədidir. Xahiş edirəm, Türkiyədən olan həmkarlarımız, bizimlə müştərək iş görən adamlar narahat olmasınlar ki, başqa bir yol da ola bilər. Olmayacaqdır!

Xarici investisiya üçün Azərbaycan açıqdır. Kim bu gün tez gəlib Azərbaycana sərmayə qoysa, o, beş-on ildən sonra udmuş olacaqdır. Mən bunu sizə açıq deyirəm. Azərbaycan daim belə vəziyyətdə qalmayacaqdır. Bir az uzaqgörən olmaq lazımdır. Gərək iqtisadçılar da, iş adamları da uzaqgörən olsunlar. Azərbaycanın qapıları açıqdır və müştərək iş görülməsi üçün biz çox imkanlar verəcəyik.

Hesab edirəm ki, bu konfransın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, iş adamlarımız, istehsalla, iqtisadiyyatla məşğul olan adamlarımız Türkiyənin təcrü-

bəsi ilə daha yaxından tanış olacaqlar. Şübhəsiz ki, Türkiyənin iqtisadiyyatında böyük nailiyyətlər var. Bu ölkə çox uğurlu iqtisadi inkişaf yolu keçib, yüksək iqtisadiyyata, zəngin iqtisadiyyata malikdir. Avropada əldə edilən nailiyyətlərin Türkiyədə tətbiq olunması çox məharətlə həyata keçirilir. Ona görə də Türkiyənin bütün bu təcrübəsindən istifadə etmək Azərbaycanın iqtisadçıları, iş adamları üçün, iqtisadi islahatları həyata keçirmək üçün çox gərəkli, əhəmiyyətlidir. Hesab edirəm ki, Türkiyədən gələn qonaqlarımız bu sahədə öz biliklərini, təcrübələrini ictimaiyyətimizə, konfrans iştirakçılarına çatdıracaqlar və bu barədə bizə öz köməklərini əsirgəməyəcəklər.

Mən hesab edirəm ki, bu konfrans ilk belə konfransdır, hər halda xatirimdə belədir. Bu konfrans Türkiyə - Azərbaycan iqtisadi əlaqələrinin inkişafına çox böyük təkan verəcəkdir. Bunlar hamısı da Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Mən sizi, konfrans iştirakçılarını bir daha salamlayıram. Konfransın işinə uğurlar arzulayıram. Türkiyəli qonaqlarımıza bir daha "xoş gəlmisiniz" deyirəm. Ümidvaram ki, burada onların işləri səmərəli olacaqdır. Ümidvaram ki, bu konfrans yeni iqtisadi əlaqələr qurulmasına kömək edəcək və iqtisadi əlaqələr də əməli işə çevriləcəkdir. Sağ olun."

***

Nəzərdə tutulan tədbirlərin davamı kimi 1996-cı ildə Bakıda yüksək səviyyədə daha bir toplantı keçirildi. İyun ayının 11-dən 13-dək Bakıda keçirilmiş Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlamentlər Assambleyasının VII toplantısında iştirak etmək üçün Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti Azərbaycana gəldi.

***

11 iyun 1996-cı il Bakıda çağırılan Qara dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin VII sessiyası iştirakçılarına müraciətdə Azərbaycan Prezidenti Qara dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlığı Parlament Məclisinin növbəti iclasının kençirilməsini əlamətdar bir hadisə hesab etdi. Ölkələrimizin əməkdaşlığının səmərəli olması üçün bütün istiqamətlərdə, o cümlədən qanunvericilik, qanun yaradıcılığı sahəsində səy göstərilməsi günün tələbi idi.

Azərbaycan Respublikası öz xarici siyasətində dünyanın bütün ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr və münasibətlər yaradılmasına və onların inkişaf etdirilməsinə doğru istiqamət götürmüşdür. Bu baxımdan bir sıra regional təşkilatlar, o cümlədən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələr yaratmaq ölkəmiz üçün vacib idi.

Bu Təşkilatın Xəzəryanı ölkələrlə qarşılıqlı surətdə əlaqələndirilməsi hamı üçün faydalı idi. Xüsusən də qarşılıqlı nəqliyyat kommunikasiyalarının yaradılması, Mərkəzi Asiya, Qafqaz və Qara dəniz ölkələrinin birləşdirilməsi günün tələbi idi. Bu sessiyaya qədər artıq Türkmənistanda nəqliyyat kommunikasiyaları və bu sahədə əməkdaşlıq haqqında Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında saziş imzalanmışdı. Bu saziş Transqafqaz magistralı adlandırılan magistral yaradır və o, Mərkəzi Asiyadan yükləri Xəzər dənizi vasitəsilə Qara dəniz limanlarına və oradan Avropaya, Qara dəniz hövzəsinin digər ölkələrinə və əks istiqamətdə daşımaq üçün çox səmərəli işlədilə bilərdi. Bu toplantı da Qara dəniz iqtisadi əməkdaşlığı çərçivəsində əməkdaşlığı Xəzəryanı ölkələrlə əməkdaşlıqla əlaqələndirilməyin zəruriliyindən doğurdu.

Forumda çıxış edən dövlət başçımız regiondakı vəziyyəti qiymətləndirərək, onun gələcək inkişafını səciyyələndirən və proqnozlaşdıran fikirlərini belə bəyan etdi:

"Mən bu gün bir daha bəyan edirəm ki, biz Ermənistanla əbədi ədavət, düşmənçilik vəziyyətində olmağı təsəvvürümüzə belə gətirmirik. Ermənistanla bizim aramızda böyük sərhəd var, qədim zamanlardan bəri xalqlarımız yan-yana, qonşu kimi yaşayırlar. Regionumuzda, Qafqazda və xüsusən Zaqafqaziyada sülh ancaq onunla təmin edilə bilər ki, Qafqazın bütün ölkələri arasında, Zaqafqaziyada isə Gürcüstan, Ermənistan və Azərbaycan arasında mehriban qonşuluq münasibətləri yaradılsın.

Hazırda Azərbaycanda sabit ictimai-siyasi vəziyyət yaranıbdır. İqtisadi əlaqələri daha da inkişaf etdirmək üçün, iqtisadi inteqrasiya, birgə layihələri həyata keçirmək üçün hər cür şərait və imkan var. Siz bilirsiniz ki, biz dünyanın iri neft şirkətləri ilə - həm Qərb neft şirkətləri ilə, həm də Rusiya neft şirkəti, Türkiyə neft şirkəti ilə neft yataqlarının istismarına dair birgə layihələrin həyata keçirilməsinə başlamışıq. Hesab edirəm ki, bu, bizim iqtisadiyyatımızın iqtisadi əməkdaşlıq üçün açıq olmasını səciyyələndirən misaldır. Ölkəmizdə sabitlik təmin olunubdur, konstitusiya var, birgə iqtisadi fəaliyyətə təminat verən bütün qanunlar var, birgə layihələrin həyata keçirilməsi üçün şərait var. Biz bunu Qara dəniz iqtisadi əməkdaşlığına daxil olan ölkələrlə də, dünyanın bütün başqa ölkələri ilə də edə bilərdik.

Hesab edirəm ki, Qara dəniz Hövzəsi ölkələri çərçivəsində əməkdaşlıq ölkələrimiz, dövlətlərimiz və xalqlarımız arasında dostluq münasibətlərinin bundan sonra da inkişaf etməsi və möhkəmlənməsi üçün gözəl imkandır. Xalqlarımız arasında çox qədim əlaqələr - həm iqtisadi, həm mədəni, həm də insani əlaqələr var. Bu əlaqələr bizi həmişə zənginləşdirib və qarşılıqlı fayda gətiribdir. Biz bu ənənələrə qayğı ilə yanaşmalı və onlardan müasir həyatımız üçün, gələcək nəsillərin həyatının təməlini qoymaq üçün maksimum səmərəli istifadə etməyə çalışmalıyıq.

Ona görə də mən bu gözəl imkandan istifadə edərək, sizi dostluğa, əməkdaşlığa, geniş qarşılıqlı fəaliyyətə dəvət edirəm. Azərbaycan açıq ölkədir. Azərbaycan sülh istəyir və siz Azərbaycanın timsalında həmişə dostluq, əməkdaşlıq üçün, gələcək əlaqələr üçün etibarlı tərəfdaş tapa bilərsiniz. Hörmətli dostlar, hamınıza işinizdə uğurlar arzulayıram. Təşkilatınıza daxil olan bütün ölkələrə və xalqlara uğurlar və tərəqqi diləyirəm, regionumuza sülh, təhlükəsizlik və sabitlik arzulayıram."

***

1996-cı il iyun ayının 9-dan 12-dək Azərbaycan Respublikasının Müdafiə Naziri S.Əbiyev Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargahının Rəisi İ.H.Qaradayının dəvəti ilə bu ölkədə rəsmi səfərdə oldu. Səfər zamanı iki ölkə arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalandı.

***

İyun ayının 24-dən 26-dək isə Azərbaycanın Müdafiə Naziri S.Əbiyevin dəvətilə Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah Rəisi İ.H.Qaradayı Bakıda rəsmi səfərdə oldu. Üç günlük rəsmi səfərində ordu generalı Qaradayı Azərbaycanın dövlət rəhbərləri ilə görüşdü. Qonağı Azərbaycan Respublikası-

nın Prezidenti Heydər Əliyev qəbul etdi.

***

9 iyul 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Türkiyə Respublikasının Baş Naziri Nəcməddin Ərbakanı Türkiyə Respublikasının Baş Naziri seçilməsi münasibətilə təbrik etdi.

***

Azərbaycanda çalışan türk iş adamları tərəfindən Quba şəhərində inşası nəzərdə tutulan təhsil mərkəzinin özülünün qoyulması mərasimində iştirak etmək məqsədi ilə Türkiyə Respublikasının Dövlət Nazirləri N.K.Zeybek və A.Demircan 4-9 oktyabr 1996-cı il tarixində Bakıda səfərdə oldular. Səfər zamanı qonaqlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul olundular və digər rəsmi şəxslərlə görüşlər keçirdilər.

***

21-22 oktyabr 1996-cı il də Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində Türkdilli Dövlət Başçılarının IV Zirvə toplantısı keçirildi. Yığıncaq iştirakçıları "Daşkənd Deklarasiyası"-nı qəbul etdilər. İmzalanmış bəyanatda Zirvə iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin siyasi yolla nizamlanması ilə bağlı beynəlxalq səyləri müdafiə etdilər. Türkdilli Respublikaların Prezidentləri Əmir Teymurun 660 illik yubiley tədbirlərində iştirak etdilər.

***

1997-ci il də əlaqələrimizin inkişafında əlamətdar bir il oldu.

İlk növbədə Azərbaycan Respublikası Milli Məclisinin sədri M.Ələskərovun dəvəti ilə Türkiyə Parlamentinin sədri M.Kalemli 1997-ci il mart ayının 19-da 20-dək Bakıda rəsmi səfərdə oldu.

***

5 aprel 1997-ci ildə Azərbaycan Prezidenti Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirələ və Türkiyə Milliyyətçi Hərəkat Partiyası sədrinin müavini Toğrul Türkeşə Türkiyənin görkəmli siyasi xadimi Alparslan Türkeşin vəfatı münasibətilə başsağlığı verdi.

***

13 aprel 1997-ci ildə Türkiyənin tanınmış müğənnisi Əbru Gündəşin konsertində Azərbaycan Prezidenti iştirak etdi və ailəsi ilə birlikdə onunla söhbət etdi.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 30 aprel 1997-ci il də İstanbulda keçirilmiş Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak etdi.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının dövlət başçıları, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Birləşmiş Millətlər Təşkilatının və bir sıra digər beynəlxalq təşkilatların nümayəndələri, Qərb ölkələrindən, o cümlədən ABŞ-dan iş adamları toplantıda iştirak edirdilər. Konfransda ölkəmiz üçün çox önəmli olan və strateji xarakter daşıyan kommunikasiya layihələri, elektrik enerjisi sistemlərinin, habelə Avropa və Asiya qitələrinin bu cür sistemlərinin birləşdirilməsi və Xəzər dənizindən enerji daşıyıcılarının nəqli məsələləri müzakirə olundu, fikir mübadiləsi aparıldı. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilati İşgüzar Şurasının Türkiyə Respublikası Xarici İqtisadi Əlaqələr Şurası ilə birlikdə təşkil etdiyi "Qara dəniz regionunda yeni imkanlar" biznes konfransında çıxış edən Azərbaycan Prezidenti nəzərdə tutulan bütün regional layihələrin həyata keçirilməsi üçün Azərbaycanın əlindən gələni edəcəyini bildirdi.

***

Türkiyə Respublikasının Prezidenti S.Dəmirəlin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 5-8 may 1997-ci il tarixlərində Türkiyə Respublikasına ikinci dəfə rəsmi səfər etdi. Səfər iki ölkə arasındakı münasibətləri daha yüksək səviyyəyə qaldırdı və müxtəlif sahələri əhatə edən 9 sənəd imzalandı. Bunlardan xüsusi əhəmiyyət kəsb edən və iki qardaş ölkənin gələcək əlaqələrinə təsir göstərən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateci əməkdaşlığın dərinləşməsi haqqında bəyannamə" oldu.

Bilindiyi kimi, ilk rəsmi səfər 1994-cü ildə olmuşdu. Doğrudur, bu müddətdə dövlət başçımız həm Türkiyədə, həm Azərbaycanda, həm də beynəlxalq təşkilatların toplantılarında Türkiyə rəhbərləri ilə çox görüşlər keçirmişdi. Və ikinci rəsmi səfərə qədər dövlətlərarası, hökumətlərarası bir çox sənədlər imzalanmışdı. Ancaq bütün sahələrdə - həm iqtisadi əməkdaşlıq sahəsində, həm də elmi, mədəni və başqa sahələrdə ikitərəfli Türkiyə - Azərbaycan əlaqələrinin daha da genişlənməsi, inkişaf etməsi ilə bağlı geniş danışıqlar aparmağa və bir çox yeni sənədlərin imzalanmasına böyük ehtiyac duyulurdu. Türkiyə-Azərbaycan əlaqələrini daha yüksək səviyyəyə çatdırmaq imkanları, bütün sahələrdə əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək imkanları tam istifadə edilməliydi.

Bunlar nəzərə alınaraq Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bir sənəd - "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında bəyannamə" imzalamaq qərara alınmışdı ki, bu da günün tələbatından doğurdu. Qeyd etmək lazımdır ki, bu sənəd o vaxta qədərki əlaqələrimizin inkişafı yolunda atdığımız addımların ən dəyərlisi və ən mühümü idi.

Səfər zamanı Prezidentimiz "Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə" barəsində bildirmişdir ki, Azərbaycan və Türkiyə Prezidentlərinin imzaladıqları bu sənəd çox böyük əhəmiyyət kəsb edir. Bu, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin yeni bir mərhələyə, səviyyəyə çatdığını göstərir. Ümumiyyətlə, bu görüşlər, danışıqlar, imzalanan sənədlər Türkiyə-Azərbaycan əlaqələri tarixində yeni bir mərhələ, səhifə açır. Ümidvaram ki, biz bu imkanlardan bundan sonra da səmərəli istifadə edəcəyik.

Səfər zamanı Azərbaycan Prezidentinə Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı" təqdim edildi.

Bu mükafat mövcud qarşılıqlı əlaqələrin səmimiliyini və dərinliyini bir daha nümayiş etdirdi. Ölkəmizin başçısının əlaqələrimizi qurmaq, dostluğumuzu möhkəmləndirmək yolunda gördüyü işlərin Türkiyə Cümhuriyyəti, dövləti tərəfindən bu qədər yüksək qiymətləndirilməsi hər iki qardaş xalq tərəfindən böyük məmnuniyyətlə qarşılandı.

Təqdimat mərasimində Azərbaycan Prezidentinin çıxışı ölkələrimiz arasındakı münasibətlərin səmimiliyinin ən bariz nümunəsi idi. Dövlətimizin rəhbəri bu yüksək mükafat barədə öz ürək sözlərini belə ifadə etmişdi: "...Məni sevindirən bir də odur ki, bu mükafat məhz Türkiyə Cümhuriyyətinin mükafatıdır. Bu, böyük öndər Mustafa Kamal Atatürkün ölkəsinin, onun yaratdığı cümhuriyyətin mükafatıdır.

Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün belədir. Ona görə də

Türkiyə, demokratik, Atatürk Türkiyə Cümhuriyyəti bizim üçün doğma bir ölkədir. Biz buranı öz diyarımız, məmləkətimiz hesab edirik.

Mən bu sözləri demişəm, bu gün bir daha təkrar edirəm: biz bir xalqıq, iki dövlətik. Bir xalq olan bir dövlətin başçısının o biri dövlətin yüksək mükafatını alması böyük şərəfdir.

Mən sizi əmin edirəm ki, bu böyük etimadı, şərəfi həyatımın sonuna qədər doğrultmağa çalışacağam. Mən onsuz da bunu edirəm və edəcəkdim. Ancaq bu mükafat mənim üzərimə çox böyük məsuliyyət qoyub, vəzifəmi daha da artırıbdır.

Əmin olun ki, mən bu vəzifəmi layiqincə yerinə yetirməyə çalışacağam. Əmin olun ki, Azərbaycan daim müstəqil olacaqdır. Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı sarsılmazdır, dönməzdir. Əmin olun ki, Azərbaycan demokratiya, azadlıq yolu ilə gedəcəkdir. Azərbaycanın tutduğu yol - demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yolu bizim yolumuzdur. Biz bu yoldan heç vaxt dönməyəcəyik. Bu yolla sona qədər gedib Azərbaycanı dünya birliyində layiqli bir səviyyəyə gətirib çıxaracağıq.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq."

Prezident Heydər Əliyev həmişə olduğu kimi, bu səfər zamanı da iqamətgahları Ankarada yerləşən, eyni zamanda Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkə səfirləri ilə də görüş keçirərək onlara səfərin məqsəd və hədəfləri, Turkiyə-Azərbaycan əlaqələrinin inkişaf yolları barədə məlumat verdi.

Azərbaycan Prezidenti səfər zamanı bəyan etdi ki, Türkiyəyə hər bir ziyarət böyük iftixar hissi doğurur, Türkiyə ilə hər bir görüş böyük məhəbbət hissi doğurur. Bu hissiyyatlarla da biz bu gün buraya gəlmişik.

İndiyə qədər aparılan danışıqlar və imzalanmış sənədlər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin nə qədər möhkəm olduğunu və nə qədər böyük gələcəyə malik olduğunu bir daha nümayiş etdirir...

Biz çox sevinir və fəxr edirik ki, Türkiyə Şərq ilə Qərbin sintezini dünyada təmsil edən bir ölkə olubdur. Türkiyə Cümhuriyyəti öz milli, mənəvi dəyərlərini, ənənələrini, adətlərini qoruyub saxlayaraq, eyni zamanda dünyanın ən qabaqcıl, mütərəqqi, ümumbəşəri dəyərlərindən bəhrələnib, istifadə edib öz ölkəsində yüksək mədəniyyətə, elmə, texnologiyaya, yüksək insani dəyərlərə malik olan bir cəmiyyət, cümhuriyyət yaradıbdır.

İki Prezident tərəfindən imzalanmış Türkiyə-Azərbaycan strateji əməkdaşlığının dərinləşdirilməsi haqqında müqavilə gələcək işlərimiz üçün gözəl proqramdır. İmzalanmış başqa sənədlər də Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradır. Biz bu imkanlardan istifadə etməyə çalışacağıq.

Dövlətimizin başçısı Prezident Süleyman Dəmirəlin təşəbbüsü ilə Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı" ilə təltif edilməsinin onun üçün böyük şəxsi əhəmiyyəti olduğunu gözəl dərk etdiyini, bu mükafatın Türkiyə-Azərbaycan əlaqələrinin, dostluğunun, qardaşlığının möhkəmlənməsi üçün çox böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir. O, hər iki xalqın tarixində qızıl sətirlərlə yazılacaq aşığıdakı sözlərini bəyan etmişdir:

"Hesab edirəm ki, Türkiyənin, böyük

Mustafa Kamal Atatürk Türkiyəsinin bu ali mükafatı tək mənə yox, bütün Azərbaycan xalqına verilibdir. Bu, Azərbaycan xalqının dövlət müstəqilliyi yolunda nə qədər əzmlə çalışdığına verilən qiymətdir, Azərbaycan xalqının dövlət müstəqilliyini indiyə qədər qoruyub saxlamasına verilən qiymətdir, Türkiyə-Azərbaycan dostluğunun bugünkü nailiyyətlərinə verilən qiymətdir. Mən həm öz adımdan, həm də Azərbaycan xalqı, bütün Azərbaycan vətəndaşları adından bu mükafata görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, Azərbaycan xalqı Türkiyə-Azərbaycan dostluğuna həmişə sadiq olacaqdır. Dəfələrlə dediyimiz "Biz bir millət, iki dövlətik" sözləri hər bir Azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır. İndiyə qədər bu fikirlərlə yaşamış millət bundan sonra da həmin fikirlərlə yaşayacaqdır. Azərbaycanda yaşayan bütün Azərbaycanlılar Türkiyədə yaşayan qardaşları ilə indiyə qədər bir olublar və bundan sonra da bir olacaqlar."

Türkiyə - Azərbaycan dostluğunun yeni bir simvolu olan Ankara caddələrindən, küçələrindən birinə Azərbaycan caddəsi, Azərbaycan küçəsi adı verilməsi mərasimində iştirak edən dövlət başçımız xüsusi olaraq qeyd etmişdir ki, bu hadisə həm sizin üçün, həm bizim üçün - hamımız üçün birlikdə çox sevindirici haldır və buraya toplaşanları, Türkiyənin, Azərbaycanın bütün vətəndaşlarını bu münasibətlə ürəkdən təbrik edirəm.

Azərbaycan Prezidenti bu qərarı qəbul etmiş böyük Ankara bələdiyyə başkanına və bələdiyyənin bütün böyüklərinə təşəkkürünü, minnətdarlığını bildirdikdən sonra dostluğumuzu çox gözəl səciyyələndirən aşağıdakı ürək sözlərini söyləmişdir:

"Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Keçmiş zamanlarda, əsrlərdən-əsrlərə xalqlarımız bir-biri ilə sıx bağlı olduğuna görə heç bələdiyyə başkanı olmadan da, hökumətin qərarı olmadan da öz dəyərli yerlərinə, küçələrə, meydanlara öz sevdikləri, bir-birini birləşdirən, bağlayan, bir-birinə daha da yaxınlaşdıran adları veriblər. Bunlar bizim keçmişimizdə xalqlarımızın nə qədər bir olduğunu sübut edir.

Ancaq indi böyük Türkiyə Cümhuriyyəti dünyada özünə layiq yer tutduğuna görə və Azərbaycan xalqı da milli azadlığına, dövlət müstəqilliyinə nail olduğuna görə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr daha da genişlənib və yeni vüsət alıbdır, yeni bir mərhələyə çatıbdır. Buna görə də Azərbaycanda da, Türkiyədə də insanlar, dövlət, hakimiyyət orqanları bu əlaqələrin təsdiqini nümayiş etdirmək üçün belə qərarlar qəbul edirlər.

Mən sizə bildirmək istəyirəm ki, hələ dövlət müstəqilliyi əldə edilmədən, yəni ondan öncə Azərbaycanda xalqımızın Türkiyəyə, Türkiyə Cümhuriyyətinə olan məhəbbəti özünü o qədər büruzə verirdi ki, dövlətin, hökumətin qərarı olmadan insanlar ayrı-ayrı küçələrə Türkiyə ilə əlaqədar adlar verirdilər. Azərbaycanda küçələrin, caddələrin, meydanların bir çoxu böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyır. Bakıda da, Gəncədə də, Naxçıvanda da, Sumqayıtda da, Azərbaycanın başqa şəhərlərində də Türkiyənin rəmzi olan, Türkiyəni nümayiş etdirən adlar geniş yayılıbdır. Bu şəhərlərin əksəriyyətində ən gözəl küçələr indi Mustafa Kamal Atatürkün adını daşıyır.

Bilirsiniz, mən Moskvada yaşayırdım, 1990-cı ildə oradan doğma şəhərim Naxçıvana gələndə keçmişdə Sovetlər Birliyinin böyük şəxsiyyətlərindən birinin adını daşı-

yan ən böyük küçələrdən birinin Atatürk adını daşıdığını gördüm. Mənim ilk addımlarım o küçəyə oldu, oraya gedib Türkiyəyə və onun böyük şəxsiyyəti Atatürkə hörmət və ehtiramımı bildirdim. Belə küçələr Bakıda da, başqa yerlərdə də var. Bunlar təbiidir, çünki insanların qəlbindəki hisslər çox vaxt dövlətlərin, hökumətlərin qəbul etdikləri qərarlardan güclü olur. Çox vaxt dövlətlər, hökumətlər, hakimiyyət orqanları bu qərarları insanların istəyinə, arzusuna görə edirlər. Bəziləri müəyyən bürokratik səbəblərə görə bunu etmək istəməsə də, xalqın təzyiqinə davam gətirə bilmir və bunu edirlər.

Mən çox sevinc hissi keçirirəm ki, bu gün Türkiyənin başkəndində, paytaxtında, bizim üçün çox əziz olan Ankara şəhərində Azərbaycan caddəsi də yarandı, yəni bu caddə var, Azərbaycan adı aldı. Doğrudur, Azərbaycan caddəsi adı Aşqabad, Bişkek, Düşənbə, Daşkənd, Almaata adlarından sonra verilir, ancaq, yəqin ki, bunun da mənası var. Həmişə ən çox hörmətli, istəkli yer son nömrələrə verilir.

Güman edirəm ki, bu qərar, bu hadisə, gözəl mərasim Bakıda, Azərbaycanda böyük sevinc hissi doğuracaqdır. Əminəm ki, bugünkü gün də, indiyə qədər atdığımız addımlar və bundan sonra görəcəyimiz işlər də Türkiyə-Azərbaycan dostluğunu daha da gücləndirəcək, yüksəklərə qaldıracaqdır.

Ankara bələdiyyə başkanının Bakı və Ankara şəhərlərinin qardaşlaşması haqqındakı təklifini məmnuniyyətlə qəbul edirəm. Güman edirəm ki, Bakı şəhərinin başçıları da bu qərarı qəbul edəcəklər. Arzu edərdim ki, tezliklə bu qərarın həyata keçirilməsi də təmin edilsin, Ankara və Bakı şəhərləri əbədi qardaş şəhərlər olsunlar.

...Bundan sonra Ankaraya gələn hər bir azərbaycanlı bu caddəni ziyarət edəcək, burada görüşlər keçirəcək, Azərbaycanın vətəndaşları bu caddədə yaşayan insanlarla daha sıx əlaqələr quracaqlar və bunlar da Türkiyə-Azərbaycan dostluğunun bir zərrəsi kimi bizi daha da irəli aparacaqdır."

***

Səfər zamanı Prezident Heydər Əliyev Azərbaycan Respublikası səfirliyinin yeni binasının təməlinin qoyulması mərasimində də iştirak etmişdir.

O, hamını bu münasibətlə təbrik etmiş və ümidvar olduğunu bildirmişdir ki, Türkiyə-Azərbaycan əlaqələrinin gözəl gələcəyi var və Türkiyədə Azərbaycan səfirliyi əsrlər boyu yaşayacaqdır. Əmin olduğunu bildirmişdir ki, Azərbaycanın Türkiyədəki səfirliyi bu imkanlardan səmərəli istifadə edəcək və bizim aramızdakı əlaqələrin inkişaf etdirilməsi üçün səylərini daha da artıracaqdır.

Xatırlatmışdır ki, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyi, böyük elçiliyi Bakının mərkəzində olan, tarixi-memarlıq abidəsi sayılan bir binada yerləşir. Bu binanın açılışı Türkiyənin Cümhur Başkanı Süleyman Dəmirəlin Azərbaycana ilk səfəri zamanı olubdur və bu, Azərbaycanın həyatında böyük bir əlamətdar hadisə kimi qəbul edilib və tarixə düşübdür.

Türkiyənin Azərbaycandakı səfirliyi genişlənir və biz çox çalışırıq ki, o, daha da geniş olsun, daha da güclü olsun. O bildirmişdir ki, Türkiyənin Azərbaycandakı səfirliyinin fəaliyyəti üçün, istədiyi qədər səmərəli fəaliyyəti üçün Azərbaycanın hər yerində, o cümlədən mərkəzdə, paytaxtımız Bakı şəhərində bütün imkanlar yaradacağıq və o gözəl memarlıq abidəsi olan bina, Bakının ən mərkəzində yerləşən bina ilə bərabər, eyni zamanda Bakının gözəl

bir guşəsində Türkiyə Cümhuriyyəti səfirliyinin yeni binası ucalacaqdır. O gün olacaqdır ki, biz sizinlə birlikdə o binanın təməlini də qoyacağıq və o bina hazır olandan sonra onun açılışında da bir yerdə olacağıq."

***

Səfər zamanı Prezident Türkiyə Quru Qoşunları Məktəbi ilə tanış olmuş, tələbələrlə və Azərbaycan diasporunun nümayəndələri ilə görüş keçirmişdir. Türkiyənin Quru Qoşunları Məktəbində oxuyan Azərbaycan övladlarının necə təhsil alması ilə tanış olmuşdur. Prezident Polis Akademiyasında da olmuşdur.

Görüş zamanı bunların hamısının müstəqillik yolunda ilk addımlarını atan Azərbaycanın bu günü, gələcəyi üçün Türkiyə Cümhuriyyəti tərəfindən respublikamıza göstərilən böyük yardım olduğunu vurğulamış, burada təhsil alan Azərbaycanlı tələbələrə yüksək ixtisas alıb Azərbaycana dönməyi və xalqımıza xidmət etməyi arzulamışdır. Göstərmişdir ki, bizim ordumuzun tələbatı bundan qat-qat artıqdır, bundan daha da çoxdur. Biz bundan sonra da Türkiyənin yüksək hərbi məktəblərindən istifadə edəcəyik. Azərbaycanda milli ordunun, polisin yaradılması, yüksək səviyyəli kadrların hazırlanması üçün sizin yardımınızdan istifadə edəcəyik. Əminəm ki, siz bizə bu yardımı göstərməkdən imtina etməyəcəksiniz.

Sonra üzünü təhsil alan Azərbaycan övladlarına tutaraq demişdir: " Əziz balalarımız, siz burada təhsil alıb Azərbaycana dönəcəksiniz, Azərbaycanın ordusunda, polisində xidmət edəcəksiniz. Əminəm ki, burada aldığınız təhsil gələcəkdə xidmət edəcəyiniz yerlərdə sizə uğurlar gətirəcəkdir. Siz uğurla çalışacaqsınız, xalqınıza, millətinizə və vətəniniz Azərbaycana xidmət göstərəcəksiniz.

Şübhəsiz ki, burada hər bir şeyi öyrənmək lazımdır. Amma Türkiyə xalqından, ordusundan, türk əsgərindən vətəni sevməyi, vətənə sadiq olmağı, milləti sevməyi öyrənmək lazımdır. Mən bunu ona görə deyirəm ki, Türkiyə Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri odur ki, onun çox güclü, qüdrətli ordusu vardır. Bir ona görə yox ki, onun güclü silahı var, çoxsaylı ordusu var. Ona görə ki, türk ordusu, əsgəri yüksək mənəviyyatlı, vətənpərvər, vətəninə, millətinə, cümhuriyyətinə, Atatürkün qoyduğu yola sadiqdir. Bu, Türkiyə ordusunun qüdrəti, Türkiyə ordusunun gücüdür.

İstəyirəm ki, Azərbaycan övladlarımız burada bu qabiliyyəti əldə etsinlər, bu səviyyəyə çatsınlar, Azərbaycanı - vətəni, torpağı canı, qanı qədər sevməyə qadir olsunlar. Burada bu hissiyyatları daha da yüksəyə qaldırmaq üçün çox gözəl şərait vardır.

Mən türk əsgərinin bu yüksək keyfiyyətlərinə heyranam. Türkiyə Cümhuriyyətinin qüdrətini, torpaqlarını, dövlətini, müstəqilliyini qoruyan, şəhid olan türk əsgərinin ruhu qarşısında baş əyirəm. Türkiyə ordusuna, əsgərinə bundan sonra da yeni uğurlar arzulayıram."

Səfər zamanı Azərbaycan Prezidenti Türkiyənin Bilkənd Universitetində də olmuş, burada Türkiyə-Azərbaycan vəqfinin başçısı, dostu professor İhsan Doğramacı, Bilkənddə çalışan Azərbaycanın görkəmli alimləri, sənət ustaları - bəstəkarları, musiqiçiləri, sənətçiləri ilə görüş keçirmişdir. Türkiyə-Azərbaycan vəqfinin yaradılmasını ölkələrimizin əlaqələrində görkəmli hadisə adlandırmış, tarixi addım hesab etmişdir.

***

Azərbaycan Prezidenti Türkiyə Böyük Millət Məclisinin üzvləri ilə də görüş keçirmişdir. Onlara xitab edərək Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında iki Prezident tərəfindən imzalanan bəyannamənin çox mühüm tarixi bir sənəd olduğunu, onun indiyə qədər olan əlaqələrimizi yeni yüksək səviyyəyə çatdırdığını söyləmişdir.

Bildirmişdir ki, Böyük Millət Məclisinin təcrübəsi təkcə Azərbaycan üçün yox, demokratiya, müstəqillik yolu ilə gedən başqa yeni dövlətlər üçün, o cümlədən türkdilli, türk köklü dövlətlər üçün də çox böyük məktəbdir, mənbədir. Onlarla bu təcrübəni paylaşmaq, həm Azərbaycanın, həm də digər ölkələrin parlamentlərinə əllərindən gələn yardımı etmək zəruridir...

Tarixi köklərimizdən söhbət açan Prezident bu köklərin həm türk xalqı üçün, həm də bizim üçün əziz olduğunu söyləmişdir. Göstərmişdir ki, bizim üçün Yunis İmrə də, Dədə Qorqud da, Manas da, Füzuli də, Nizami də əzizdir, XX əsrdə yazıb-yaratmış şəxsiyyətlər də, o cümlədən Tofiq Fikrət də, Rəşad Nuri də və Azərbaycan xalqının XX əsrdə yetirdiyi böyük yazıçılar, şairlər, bəstəkarlar, alimlər də əzizdir. Məhz bunlar - xalqlarımızın qabaqcıl, mütəfəkkir adamları bizi həmişə bir-birimizlə bağlayıb, bir-birimizlə birləşdiriblər.

Azərbaycana xarici sərmayə gətirilməsindən danışan dövlətimizin başçısı 1994-cü ilin oktyabrında imzalanan, "Əsrin müqaviləsi" adı verilən ilk böyük neft müqaviləsindən, bu müqavilə əsasında dünyanın 11 böyük neft şirkətinin 30 il müddətində Azərbaycanda müştərək neft çıxartmaqla məşğul olacağından, müqavilənin artıq işlədiyindən, sonra bağlanılan bir neçə müqavilədə Türkiyənin də iştirakından, "Şahdəniz" neft yatağı haqqında müqavilədə artıq "Türk Petrolları" şirkətinin 9 faiz payı olduğundan, bundan sonra bağlanacaq yeni müqavilələrin hamısında Türkiyənin hökmən iştirak edəcəyindən, çıxarılacaq neftin dünya bazarına çatdırılması üçün yolun Türkiyədən keçəcəyindən, buna yol verməmək üçün ölkəmizə edilən təzyiqlərdən, dünən Türkiyə və Azərbaycan Prezidentlərinin imzaladıqları anlaşmada da böyük neft kəmərinin Bakı-Ceyhan yolu ilə gedəcəyinin yazılmasından söhbət açmişdir.

Bildirmişdir ki, bir neçə gündən sonra Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşü olacaqdır. Ola bilər, orada da bir layihə - Türkmənistandan təbii qazın Xəzər dənizinin altından keçməklə Azərbaycan ərazisi vasitəsilə Türkiyəyə gətirilməsi barədə layihə qəbul edilsin. Belə bir layihə var. Əgər hamımız birlikdə bu layihəni həyata keçirə bilsək, - çünki bizim dostlarımız bəzən söz verir, sonra yerinə yetirmirlər, - çox gözəl iş olacaqdır.

Göstərmişdir ki, Xəzər dənizinin Azərbaycan sektorunda çox zəngin neft yataqları var. Qazaxıstan sektorunda da zəngin yataqlar var. Qazaxıstan Tengizdə "Şevron" şirkəti vasitəsilə neft çıxarır, Rusiya ərazisindən ixrac edir. Amma indi alternativ olaraq ikinci bir yol da Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Qara dəniz sahilinə nəzərdə tutulur. Biz buna imkan vermişik. Beləliklə, bu yolu da Türkiyəyə çıxara bilərik. Azərbaycanın zəngin neft yataqlarının böyük gələcəyindən Türkiyə də bəhrələnəcək, bizim üçün dost, qardaş ölkə kimi biz Türkiyə ilə həmişə əməkdaşlıq edəcəyik.

Bir daha vurğulamışdır ki, Ermənistan bölgədə böyük təhlükə yaradır. Təkcə

Azərbaycan üçün yox, bütün Qafqaz üçün. Siz də buna heç vaxt biganə qalmamalısınız. Mən bu məlumatı, bilgiləri sizə verməyi özümə borc bilirəm. Çünki, yenə də deyirəm, Azərbaycanın problemi həmişə sizin probleminiz olub, ona görə sizə bir daha təşəkkürümü bildirirəm. Amma eyni zamanda baş verən hadisələr və Qafqaz bölgəsində olan ayrı-ayrı dövlətlərin bir-birinə hərbi cəhətdən yaxınlaşması bu bölgədə yeni bir şərait yarada bilər. Ona görə də düşünmək lazımdır. Bu məlumatlardan lazımi nəticələr də çıxarmaq gərəkdir.

Azərbaycan - Türkiyə dostluq əlaqələrinə toxunan Prezidentimiz bir daha bu yüksək məclisdə bəyan etmişdir: "Mən yenə də Türkiyə-Azərbaycan dostluğu haqqında bir neçə söz demək istəyirəm. Bu dostluq əbədidir, sarsılmazdır. Biz bütün gücümüzlə, varlığımızla bu dostluğu qoruyub möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik. Çünki Türkiyə də demokratik cümhuriyyətdir, burada demokratik prinsiplər geniş tətbiq olunubdur. Türkiyənin böyük demokratiya təcrübəsi var. Türkiyənin cümhuriyyət, demokratik dünyəvi dövlət olaraq yaşaması bütün başqa türkdilli dövlətlər üçün örnəkdir. Cümhuriyyət tarixinizdə keçdiyiniz yol da, dövlət quruluşunuz da, demokratiyanız da, qanun-qaydalarınız da bizim üçün örnəkdir. Ona görə də biz Türkiyənin bu yolla getməsini arzulayırıq.

Biz Azərbaycanda ümidvarıq ki, Türkiyə daim bu yolla gedəcək, Mustafa Kamal Atatürkün vəsiyyətlərinə daim əməl edəcək, gündən-günə dünyanın ən qüdrətli, ən inkişaf etmiş, ən dünyəvi dövlətlərindən biri olacaqdır."

Səfər zamanı prezidentimiz hər dəfə olduğu kimi, KİV nümayəndələri ilə silsilə görüşlər keçirmişdir.

Türkiyənin tanınmış jurnalistlərinə verdiyi müsahibədə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə"nin Azərbaycan-Türkiyə əlaqələrinin strateji xarakter daşıdığını təsdiq etdiyini bildirmişdir. Azərbaycan ilə Türkiyənin əlaqələrinin xüsusi xarakter daşıdığını, daimi olduğunu vurğulamış, həm Türkiyənin, həm də Azərbaycanın beynəlxalq aləmdə baş verən məsələlərdə eyni mövqedə olmasını, məsləhətlər aparmasını və bir-birinə dəstək verməsini də nəzərdə tutduğunu qeyd etmiş, buna görə də bu bəyannamənin indiyə qədər imzalanmış sənədlərdən Azərbaycan-Türkiyə əlaqələrini daha da yüksəklərə qaldıran bir sənəd oduğunu açıqlamışdır.

Verilən kreditlər barədə suala cavab verən Prezident demişdir ki, "Eksimbank"ın krediti bizim başımıza bir bəla olubdur. Biz 71 milyon kredit almışıq. Onun da çox hissəsini buğdaya vermişik. Azərbaycanın çörəyə ehtiyacını ödəmək üçün buğda gətirilməli idi. İndi biz o krediti geri qaytara bilmirik. Son iki ildə 7 milyon dollar faiz vermişik. Əgər krediti geri qaytara bilməsək, biz 2000-ci ilədək 20 milyon dollar faiz verəcəyik. Krediti də qaytara bilmirik. Mən o vaxt Azərbaycana gec gəldim. Bu, mənim Azərbaycana rəhbərlik etdiyim vaxtdan əvvəl alınan kreditdir. Mən bilsəydim belə olacaq, heç bu krediti də almazdıq, necə olsa yaşayacaqdıq.

Türkiyənin "Samanyolu" televiziyasına müsahibədə son üç ildə Türkiyə ilə Azərbaycan arasında ticarətin üç dəfə artdığından danışmış, ancaq mütləq rəqəmi götürəndə bunun, o qədər də böyük olmadığını demişdir. Bildirmişdir ki, biz bu artımdan məmnunuq, amma hesab edirik ki,

Türkiyə ilə Azərbaycan arasında iqtisadi iş birliyinin daha böyük imkanları vardır. Bu imkanlardan istifadə etmək lazımdır. Hər iki tərəf bunun üçün çalışmalıdır.

Türkiyənin NTV televiziyasına müsahibədə göstərmişdir ki, Rusiya ilə Ermənistan arasında hərbi iş birliyi təkcə Azərbaycan üçün yox, bütün bölgə, o cümlədən Türkiyə üçün çox təhlükəlidir

Süallara cavab verərkən 1995-ci ilin martında Azərbaycanda ikinci böyük çevriliş cəhdində Fərman Dəmirqol kimi Türkiyə vətəndaşlarının da iştirak etməsinə, Türkiyənin bir sıra vəzifəli şəxslərinin də bu işdə iştirak etməsinə toxunmuş, bunun təəssüf doğurduğunu söyləmişdir.

Səfər zamanı Azərbaycan Prezidentinə "9 Eylül" Universitetinin fəxri doktoru adı verilmişdir.

***


Azərbaycan Prezidenti İzmirdə olarkən keçirilən müxtəlif tədbirlərdə bu şəhər ilə Azərbaycanın paytaxtı Bakı şəhərinin qardaşlıq əlaqələrindən, bu əlaqələrin rəmzi kimi Bakının gözəl guşələrindən birində olan parka "İzmir parkı" adı verilməsindən, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, əlaqələrimizin sürətlə inkişaf etdiyindən və əldə olunan nailiyyətlərdən, qarşıdakı illərdə Türkiyə və Azərbaycanın bir-birinə daha da yaxın olması, dostluğumuz, qardaşlığımızın daha da sıx olması üçün geniş perspektivlərin açılacağından danışmış, zərrələrlə, bizim ümumi Türkiyə-Azərbaycan abidəsini - sarsılmaz Türkiyə-Azərbaycan dostluğunu qurmağın hər iki xalqın övladları üçün başlıca vəzifə olduğunu bildirmişdir.

Azərbaycan Prezidenti İzmirdə "Bakı parkı"nın açılışı mərasimindəki nitqində bu günlərdə Türkiyə və Azərbaycan xalqlarının dostluq və qardaşlığının nə qədər dərin, güclü və möhkəm olduğunu gördüyünü və hiss etdiyini, Türkiyə ilə Azərbaycan arasında İstanbul ilə İzmir, Ərzurumla Qayseri, Adana ilə Diyarbəkr arasında olan fərq qədər fərq olduğunu, ancaq bu fərqin sadəcə, bizim eyni zamanda ümumi mənəvi və mədəni dəyərlərimizin hamısının çoxcəhətli, çoxşaxəli, çoxbudaqlı olmasını, xalqlarımızın böyük bir çinar ağacının budaqlarına bənzədiyini, əsrlər boyu onu nə qədər silkələdilərsə də, yıxmaq istədilərsə də, bizi bir-birimizdən ayırmaq istədilərsə də düşmənlərin bunu bacarmadıqlarını, qəlbimizin, bizi bir-birimizə bağlayan tellərin, mənəviyyatımızın, dostluğumuzun, qardaşlığımızın, birliyimizin sal qaya kimi sarsılmaz olaraq qaldığını, özünü qoruduğunu bir daha bəyan etmişdir.

O, qeyd etmişdir ki, Sovetlər Birliyi dövründə Türkiyə şəhərləri ilə bizim şəhərlərimizin qardaşlaşmasına yol vermirdilər. Bizə zidd olan qüvvələr heç də istəməzdilər ki, bizim bu qardaşlığımız yenidən baş versin. Yəni on iki il bundan öncə İzmir ilə Bakı arasında yaradılmış əlaqələr qardaşlaşma əlaqəsi deyil, - biz doğulandan qardaşıq, ata-babalarımız, ulu babalarımız qardaş olublar, biz doğma qardaşıq. Sadəcə, İzmir ilə Bakı arasında xüsusi əlaqələr yaranması haqqında müqavilə bağlanıbdır. Bizim qardaşlığımız isə qədimdir, dünyada xalqlarımız yaranandan mövcud olan qardaşlıqdır. Bu əlaqələr isə həmin qardaşlığı müəyyən mənada sənədləşdirmək, kağız üzərində əks etdirmək kimi bir tədbirdir.

Azərbaycan Prezidenti vurğulamışdır ki, Türkiyə-Azərbaycan, İzmir-Bakı daim qardaş olublar, bu gün də qardaşdırlar, gələcəkdə də qardaş olacaqlar. Bunun da təzahürü olaraq Bakıda ən gözəl guşələrdən, parklardan birinə "İzmir" adı verilibdir.







REPUBLIC OF AZERBAIJAN
REPUBLIQUE D'AZERBAIJDAN
























8th Islam
8ème C


















AZERBAYCAN
CUMHURİYETİ













Mən çox məmnunam ki, burada, İzmir şəhərində də, bu sahildə parkın gözəl bir hissəsinə "Bakı" adı verilibdir. Bu təşəbbüs, hadisə münasibətilə İzmirin başçılarına, başkanlarına təşəkkürümü bildirir, sizin hamınızı təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü bu törən, mərasim, bayram başqa şəhərlərdə də davam edəcək, biz Türkiyə-Azərbaycan qardaşlığını addım-addım, gündən-günə genişləndirəcək, inkişaf etdirəcəyik.

Türkiyə böyük dövlətdir, dünya miqyasında özünəməxsus görkəmli yer tutubdur. Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Amma bizim əlaqələrimiz qədimdir. Azərbaycanın dövlət müstəqilliyi əldə ediləndən sonra Türkiyə ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr son illərdə çox bəhrələr verib, çox nəticələrə gətirib çıxarıbdır. Məhz bu əlaqələrin nəticəsidir ki, indi Türkiyənin universitetlərində, o cümlədən burada, İzmir universitetlərində Azərbaycanın gəncləri də təhsil alır, müstəqil Azərbaycanın cürbəcür sahələrində işləməyə hazırlaşırlar.

Görürsünüz, biz bir-birimizə nə qədər yaxın oluruq. İzmirdə universitetdə təhsil alan gənc, tələbə nitq söylədi. O, azərbaycanlıdır, naxçıvanlıdır, orada Nehrəm adlı məşhur yer var, o kənddəndir. Ancaq o, təmiz türk ləhcəsində danışdı. Bizim dilimiz birdir, amma sadəcə ləhcələrimizdə fərq var. Mən Azərbaycan ləhcəsində danışıram. O da bir-iki il öncə mən danışdığım ləhcədə danışırdı, amma iki il burada təhsil alandan sonra buranın ləhcəsində danışır. Demək, bu onun buraya, burada aldığı təhsilə, buradakı mühitə nə qədər alışdığını, eyni zamanda Türkiyəyə, İzmirə, bu mühitə nə qədər məhəbbəti, sevgisi olduğunu göstərir. Bu, bizim dostluq, qardaşlıq əlaqələrimizdə bir zərrədir. Amma zərrə-zərrə göl olur, dərya dolur. Bax, bu zərrələrlə biz ümumi Türkiyə-Azərbaycan dostluğunu daha da genişləndirməli, gücləndirməliyik. Biz bunu edəcəyik.

***

İstanbulda mətbuat nümayəndələri ilə görüşdə Prezident Heydər Əliyev bəyanatla çıxış etdi. Səfərin nəticələri barəsində danışan dövlət başçımız göstərdi ki, həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi müəyyən etmişik ki, dostluğumuz, qardaşlığımız indiyə qədər hər iki ölkə üçün faydalı olmuşdur və bu dostluq, qardaşlıq əlaqələrini bundan sonra da irəliyə aparmalıyıq. Bu məqsədlə biz Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə, anlaşma imzalamışıq. Hesab edirəm ki, bu anlaşma çox tarixi əhəmiyyət daşıyır, əlaqələrimizi daha yüksək səviyyəyə çatdırır, onun məzmununu, keyfiyyətini daha da irəli aparır.

Bununla yanaşı, bir neçə başqa müqavilə də imzalamışıq. Bunlar hamısı iqtisadi əlaqələrimizin daha səmərəli aparılması məqsədi daşıyır. İndiyə qədər Azərbaycan ilə Türkiyə arasında çox müqavilələr, anlaşmalar, sazişlər imzalanıbdır. Bu günlərdə imzalanmış sazişlər də Türkiyə ilə Azərbaycan arasında əlaqələr üçün çox geniş normativ-hüquqi baza yaradıbdır. Güman edirəm ki, əməkdaşlığımız üçün normativ-hüquqi sənədlər var, sadəcə olaraq biz əməli işlə bu əməkdaşlığı daha da irəliyə aparmalıyıq.

Bu danışıqların, görüşlərin məqsədi Türkiyə-Azərbaycan əlaqələrini daha yüksəklərə qaldırmaqdır. Biz buna nail olmuşuq. Çünki bu, həm Türkiyə tərəfinin, həm də Azərbaycan tərəfinin istəyi, arzusudur. Bunlar da Türkiyə Prezidentinin və Azərbaycan Prezidentinin imzaladıqları

müqavilədə öz əksini tapıbdır.

Biz bu günlərdə Türkiyədə olmağımızdan, keçirdiyimiz görüşlərdən çox razıyıq.

***

Azərbaycan Prezidentinə "Fatih" Universitetinin fəxri doktoru adı verilməsi mərasimində Azərbaycanın dövlət başçısı universitetə, universitetin rektorluğuna, idarə heyətinə və universitetin bütün kollektivinə ona göstərilən bu hörmət və ehtirama, şərəfə görə, verilən yüksək ada görə təşəkkür etdi və əmin etdi ki, "Fatih" Universitetinin həm fəxri doktoru kimi, həm də onun yaxın dostu kimi universitetin gələcək işlərinin uğurlu olmasına daim öz köməyini göstərəcəkdir.

Dövlətimizin başçısı iştirakçılar qarşısında bir daha bəyan etdi ki, Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət yoxdur. Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur.

***

Türkiyənin "TRT", "TQRT", "Samanyolu", "NTV" televiziya kanallarının rəhbərləri ilə görüşdə Azərbaycan televiziyası ilə Türkiyənin televiziya kanalları arasında əməkdaşlıqdan, onun hələ də istənilən səviyyədə qurulmamasından, ölkəmizdə Türkiyə televiziya kanallarına tamaşa edildiyi kimi, Azərbaycan televiziyasının verilişlərinin də Türkiyənin televiziya kanalları vasitəsilə Türkiyədə yayılmasının Türkiyə üçün də, Azərbaycan üçün də çox xeyirli olacağından danışdı. Türkiyə televiziya kanalları ilə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasının vacibliyindən söhbət açdı.

Telejurnalistlərin suallarına cavab verərkən Azərbaycan Prezidenti daha bir neçə məsələyə, o cümlədən vaxtilə verilmiş kreditlər məsələsinə də toxunaraq mövcud vəziyyəti olduğu kimi jurnalistlərin nəzərinə çatdırdı. O dedi: "İndi siz də deyirsiniz, dünən də dedilər ki, mən incidim. Bilirsiniz, dost dostdan inciyər. Azərbaycanda bir söz var, insan uman yerdən küsər. Bu söz sizdə varmı - uman yerdən küsərlər? Ummayan yerdən mən niyə küsürəm? Küsdüm - küsmədim, onun üçün də, mənim üçün də bunun əhəmiyyəti yoxdur, uman yerdən küsərlər. Azərbaycan Türkiyədən çox şey umur. Bütün xalqımızda, o cümlədən məndə də belə fikir var ki, Türkiyə böyük dövlətdir, böyük imkanlara malik olan dövlətdir. Türkiyə bizim qardaşımızdır, qan qardaşımız, can qardaşımızdır. Qan qardaşı olanda, Azərbaycanda yenə bir söz var, öz boğazından kəsib qardaşına verir. Lazımdır ki, xalqımızın milli adət-ənənələri dövlətlərimizin arasında da olsun.

Yaxşı, 1992-1993-cü illərdə "Eksimbank" 250 milyon dollar kredit ayırıb, onun da cəmi 70 milyon dolları verilib. Bu 70 milyon dollara da o vaxt buğda alıb veriblər, çünki insanlar ac idi, buğda yox idi. Başqa şeyə verməyiblər. Əgər yatırıma veriblərsə, para götürüblərsə, gəl, parasını apar! Dərmana veriblər, - çünki bizim döyüşçülər qan içində idilər, buğdaya veriblər, başqa bir şeyə verməyiblər. İndi Türkiyə boğazımızdan tutub ki, bunu qaytar. Qaytara bilmirəm, 20 milyon dollar da faiz vermişəm. Mən bundan inciməyim?

Bilirsiniz, vaxtilə mən Sovetlər İttifaqının başında duran adam olmuşam. O vaxtlar Sovetlər İttifaqı özünə dost ölkələr yaratmaq üçün, - Asiyanın keçmiş müstəmləkə ölkələri, yaxud Afrika, ərəb ölkələri, - bunlara nə qədər kredit verir, sonra çoxunu da bağışlayırdı. Düzdür, onlarla nə din bir idi, nə məslək bir idi, amma özünə dəstəkli ölkələr yaratmaq istəyirdi.

Sosialist ölkələrindən savayı başqa ölkələr də var idi, "Üçüncü dünya" ölkələri hesab olunurdu, - bilirsiniz də, bloklara qoşulmayan ölkələr, - onlara nə qədər kreditlər verirdi. Elə İraqın Sovetlər İttifaqına, indi Rusiyaya nə qədər borcu var, həddindən artıq borcu var. O vaxtlar verib, çünki İraqla əlaqəsi vardı, indi qaytarmır. İraqa indi silah satır ki, bəlkə bir şey əldə etdi. Axı, mən bu şeyləri görmüşəm, yəni böyük dövlətin kiçik dövlətə yardımını, köməyini görmüşəm. Bunu gördüyümə görə anlaya bilmirəm ki, niyə belədir.

Amerika Birləşmiş Ştatları Ermənistana gecə-gündüz yardım edir. Biz Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı iqtisadi maraqlarını çox genişləndirmişik. Amma 1992-ci ildə, bizim Xalq Cəbhəsi hakimiyyətdə olduğu zaman Amerika Birləşmiş Ştatlarının konqresi qərar çıxarıb ki, - 907-ci maddə var, siz bunu Amerikaya da deməmisiniz ki, nə üçün bu maddəni Azərbaycana tətbiq ediblər, - guya Azərbaycan Ermənistanı blokadaya götürübdür. Ona görə də Azərbaycana Amerikadan yardım göstərilməsi qadağan olunubdur. Mən indiyə qədər vuruşuram, bu qadağanı, 907-ci maddəni götürə bilmirəm. Bir belə şirkətlər gəldi, müqavilələr imzaladıq, Klintonla bir neçə dəfə görüşmüşəm, danışmışam, digərləri ilə də görüşmüşəm. Klinton da deyir ki, bəli, bu, ədalətsizlikdir, amma konqresə təzyiq göstərə bilmirəm.

Baxın, biz Amerikanın şirkətlərinə o qədər böyük imkanlar yaratmışıq, Amerika isə bizə yardım etmir. Amma Amerika keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan ölkələrin hamısına yardım edir. Ən çox da Ermənistana yardım edir - oraya ildə 100 milyon dollardan artıq yardım gedir, amma Amerika bizə yardım etmir.

O vaxtlar ki, buğda yox idi, insanlar ac idi, biz "Eksimbank"ın krediti ilə gedib orada-burada buğda axtarırdıq, Amerika birbaşa Ermənistana buğda göndərirdi. İndi də göndərir. Amerika Ermənistana bu köməyi edir. Amerikada, Fransada, başqa yerlərdə olan erməni diasporu, zəngin adamlar kömək edir, hamı kömək edir. Amma Türkiyə Azərbaycana heç bir kömək etmir, - mən maddi köməyi deyirəm. Bir dəfə kredit verib, indi də tutub boğazımızdan. Üç-dörd ildən sonra krediti də verə bilməyəcəyik, faizi də o kreditə bərabər olacaqdır. Belə də şey olarmı?

Keçmişdə mən bu barədə bir neçə dəfə müraciət etmişdim, eləcə qaldı. İndi bu dəfə də rəhbərlərə müraciət etmişəm. Axı mən bilirəm ki, hansı ölkə hansına nə yardım edir. Azərbaycana heç kəs yardım etmir. Rusiya Ermənistana nə qədər yardım edir. Ermənistanın atom elektrik stansiyası var. Bilirsiniz ki, 1992-ci ildə onu bağladılar. Ukraynadakı Çernobıl atom elektrik stansiyasında böyük qəza, faciə oldu, ona görə Ermənistan stansiyanı bağladı. Amma gördü ki, elektrik enerjisi olmadığından boğulur, Rusiyadan mütəxəssislər gətirdi. Rusiya oraya çox para qoydu, elektrik stansiyasını bərpa etdi, yenidən işə saldı. Rusiya olmasaydı, Ermənistan bunu edə bilməzdi. Rusiyanın parası, mütəxəssisləri, mühəndisləri, alimləri gəlib bunu işə saldılar.

Azərbaycana nə Rusiya yardım edir, nə Türkiyə, nə İran, nə Amerika yardım edir. Torpağımızın 20 faizi işğal altındadır, bir milyon da qaçqın var. Mən bunları deməməliyəm? Başqa şeylər də deyə bilərəm, ancaq bunlar bəsdir."

***

Bütün sahələrdə Türkiyə-Azərbaycan əlaqələrinin dərinləşdirilməsi və inkişaf etdirilməsi haqqında aparılan danışıqlar, yeni normativ-hüquqi sənəd kimi Türkiyə-Azərbaycan strateji əməkdaşlığı haqqında müqavilənin imzalanması əlaqələrimizi keyfiyyətcə daha yüksəklərə qaldırır, həm Türkiyənin, həm də Azərbaycanın üzərinə yeni vəzifələr, eyni zamanda çox böyük məsuliyyət qoyurdu.

Böyük sınaqlardan keçən Türkiyə-Azərbaycan dostluğu bu müqavilə ilə hüquqi şəkildə sonuclanmışdı.

Bütün bunlar siyasi əlaqələrimizə olduğu kimi, iqtisadi əlaqələrimizə də öz təsirini göstərməyə bilməzdi. Buna görə də Türkiyənin iş adamları ilə yenidən görüşmək, onları istiqamətləndirmək, həm ölkəmizdə gedən proseslər haqqında, həm də ölkələrimiz arasında gedən proseslərdən hali etmək lazım idi. Bütün bunları nəzərə alan Azərbaycan Prezidenti işgüzar dairələrlə də görüş keçirdi.

Görüşdə ölkəmizin başçısı Azərbaycanın gənc dövlət olmasından, sülhsevər dövlət olaraq, ölkəmizi inkişaf etdirməyə çalışmağımızdan, daha çox ölkələrlə sıx əlaqələr yaratmaq istəyimizdən, ancaq bu əlaqələrimizin genişlənməsinə və dərinləşməsinə baxmayaraq, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin heç bir başqa ölkə ilə olan əlaqələrə bənzəmədiyindən, yəni onların xüsusi xarakter daşıdığından, xüsusi əhəmiyyət kəsb etdiyindən danışmış, Ermənistan-Türkiyə münasibətlərinin gedişatına toxunaraq Rusiyanın Ermənistana 1 milyard dollar dəyərində silah verməsindən, onların içərisində ağır silahlar - müasir tanklar, toplar, raketlər və başqa dağıdıcı silahlar olmasından söhbət açmış, bunların hamısının Azərbaycan və Türkiyəyə tərəf yönəldildiyini bildirmişdir.

Böyük narahatlıq doğuran bu məsələlər barəsində Türkiyənin Dövlət və Hökumət Başçılarına ölkəmizin fikirlərinin çatdırıldığını göstərən Prezident qeyd etmişdir ki, biz həm də istəyirik ki, Türkiyədə hər bir adam, hər bir türk qardaşımız Azərbaycanın, Qafqazın vəziyyətini və Türkiyənin ətrafında olan vəziyyəti bilsin.Vurğulamışdır ki, iş adamları kimi, siz də öz iqtisadi məsələlərinizlə məşğul olarkən siyasi məsələləri və xüsusən bölgəmizin təhlükəsizlik məsələlərini gərək heç də unutmayasınız.

Bəzən iqtisadçılar, iş adamları deyirlər ki, biz siyasətlə məşğul olmuruq, bizə siyasət lazım deyil, iş adamıyıq, bizimki ticarət, istehsaldır, filandır. Mən bununla razı deyiləm. Çünki siyasət düzgün olmasa, iqtisadiyyat da olmayacaqdır. Təhlükəsizlik olmasa, sülh, əmin-amanlıq, barış olmasa, iqtisadiyyat da olmayacaqdır. Ona görə iqtisadi işlərdə, biznesdə Türkiyəni və Azərbaycanı əhatə edən ölkələrin arasında sülhün və əmin-amanlığın da əhəmiyyətini unutmaq lazım deyildir.

Vurğulamışdır ki, bu baxımdan Qara dəniz iş birliyi, başqa iş birlikləri də lazımdır. Ancaq son zamanlar Türkiyənin bəzi iş adamlarının Ermənistanla iş qurmaq cəhdləri bizi rahatsız edir. Bu, Azərbaycanda çox mənfi qarşılanır, anlaşılmır.

Sonra onlara müraciətlə demişdir: " Nəinki özümün, bütün Azərbaycan xalqının fikrini deyirəm. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir. Bunların hamısının olduğu yerdə gərək Türkiyədə iş adamları, dövlət adamları, adi bir vətəndaş da bilsin ki, Azərbaycanın mənafeyi Türkiyənin mənafeyidir, Azərbaycanın dərdi Türkiyənin dərdidir.

Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O, vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir. Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır! Bu sözləri hələ 30-cu illərdə demişdir. Onda hələ Ermə-nistanla Azərbaycan arasında belə savaş, münaqişə yox idi, qan tökülmürdü. Ancaq o - böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin o erməni millətçilərinin, daşnaklarının Azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Azərbaycanda nə qırğınlar etmişdilər, yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq.

Osmanlı imperatorluğu dağılmışdı, Türkiyənin özü dağılmış vəziyyətdə idi, Türkiyəyə təcavüz olunmuşdu. Türkiyə özünü xilas etməli, saxlamalı idi, qurtuluş savaşı gedirdi. O vaxt Türkiyənin mütəfəkkir adamları Azərbaycanı öz doğma vətəni hesab edirdilər. Qafqaz ordusu Azərbaycana göndərildi. Nuru Paşa, Naxçıvana Kazım Qarabəkir və başqaları gəldilər, Azərbaycanlıları xilas etdilər. Ona görə bunları heç vaxt unutmaq olmaz, tarixi də unutmaq olmaz, keçmişi də unutmaq lazım deyildir.

Ermənilər bütün dünyaya hay salıblar ki, türklər 1915-ci ildə ermənilərı qırıblar. Sizi günahlandırırlar, sizin haqqınızda bütün ölkələrdə yanlış məlumatlar yayırlar. Bu, bizə də aiddir. Onlar Azərbaycanlını, türkü, türkiyəlini bir-birindən ayırmırlar. Bizə də türk deyirlər, sizə necə münasibət bəsləyirlərsə, bizə də elə münasibət bəsləyirlər. İndi siz onlarla bir balaca alver edirsiniz, bir-birinizə "Salaməleyküm, sağ ol, xoş gəldin" deyirsiniz.

Bu məsələni mən bir neçə dəfə demişəm, sizə, iş adamlarına da deyirəm ki, bizim problemimizi biləsiniz. Əlbəttə, biz heç kəsə heç nəyi məcbur edə bilmərik. Türkiyənin də heç bir işinə qarışmırıq və qarışa da bilmərik. Ancaq bu sözləri deməyə bizim qardaşlıq haqqımız var. Qardaş-qardaşa hər bir şeyi açıq deməlidir, nə qədər şirin olsa da, acı olsa da açıq deməlidir. Ona görə də siz çalışın ki, bu əməkdaşlığı, alış-verişi - hamısını gəlin Azərbaycanla edin. Azərbaycanda geniş imkanlar var. Burada çıxış etdilər, Nihat bəy də, Əli bəy də çox təsirli sözlər dedilər. Başqa iş adamları da çıxış etdilər, Azərbaycan-Türkiyə iqtisadi əlaqələri haqqında, Azərbaycanda görülən işlər haqqında danışdılar. Bunlara görə mən təşəkkür edirəm. Həqiqətən Azərbaycan hələ dövlət müstəqilliyini əldə edəndən öncə Türkiyənin iş adamları Azərbaycana maraq göstərirdilər. Azərbaycan hələ Sovetlər İttifaqının tərkibində olan zaman Türkiyənin iş adamları bir balaca imkan düşən kimi Azərbaycana gəlirdilər. Xüsusən, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyənin iş adamları respublikamıza gəldilər. Onları yüksək qiymətləndirdilər. Müəyyən əməkdaşlıq başlandı, müəyyən işlər görüldü. Ancaq təsəvvür edin, bu 7-8 ildə əldə etdiyimiz nailiyyətlər mövcud imkanlarımızdan çox-çox azdır. Bu müddətdə Türkiyənin iş adamları başqa ölkələrdə, yəni bizimlə eyni vaxtda müstəqillik qazanmış ölkələrdə daha çox iş görürlər, nəinki Azərbaycanda, - bu da həqiqətdir. Bilirsiniz, mən sizin başqa ölkələrdə, xüsusən Or-

ta Asiya ölkələrində, - bunlar bizim qardaş ölkələrimizdir, - iş görməyinizə qısqanmıram. Allah xeyirli eləsin, iş görün. Amma əgər sıraya qoysanız - bir, iki, üç, dörd, beş - siz bilirsiniz, Azərbaycan harada qalacaq? Vəziyyəti təhlil etsək, görülən işlər çox azdır...

Biz iki-üç ildir ki, özəlləşdirmə proqramını həyata keçiririk. Torpaq islahatı həyata keçirilməndən sonra Azərbaycanda iqtisadiyyat tamamilə özəl, bazar iqtisadiyyatı yolu ilə, dünya standartlarına uyğun olan yolla gedəcəkdir. Biz bu yolun artıq çox mühüm bir hissəsindəyik. Çoxlu qanunlar qəbul etmişik. Bir tərəfdən daxili imkanlar, digər tərəfdən elmi-texniki potensial, Azərbaycanın təbii sərvətləri, respublikamızın böyük sənaye, kənd təsərrüfatı potensialı göz qabağındadır. Bunlardan müştərək istifadə olunması üçün, hesab edirəm ki, Türkiyənin iş adamları Azərbaycana daha çox gəlməlidirlər.

İndi burada Nihat bəy də dedi ki, ölkələrimiz arasında 250 milyon dollar dəyərində ticarət əlaqəsi olubdur. Doğrudur, bu iki il müddətini götürsək, burada üç dəfə artım var. Amma bu rəqəmin özü də azdır, heç bir şeydir.

İndi Azərbaycana neft sahəsində xeyli sərmayə qoyulur. Görürsünüz, respublikamızda bir balaca imkan olan kimi biz Türkiyəni də oraya gətiririk. Qərb istiqamətində boru kəmərinin tikilməsi üçün keçirilən tenderdə qalib gələn, ad qazanan şirkətlərdən biri də Türkiyənin şirkətidir. Bu şirkətə mənim dostum Nihat bəy rəhbərlik edir. Sizə deyim ki, bu işin müştərisi çox idi. Amma Türkiyə şirkəti bu işdə qazandı, biz də istədik ki, qazansın. Onların qazanmasında bizim də xidmətimiz var.

Burada neft sənayesi haqqında da bir neçə söz dedilər. Mən dörd gündür ki, buradayam. Kiçik də, böyük də, necə deyərlər, məmə yeyəndən pəpə deyənə qədər hamı soruşur ki, Bakı - Ceyhan xətti necə olacaqdır? Bu, mənim üçün aydın məsələdir. Demək, burada təkcə dövlət, hökumət yox, hər bir vətəndaş, gənc insan da istəyir ki, Azərbaycanın bu böyük neft borusu Türkiyədən keçsin. Bunu nə üçün istəyir? Çünki Bakı-Ceyhan xəttinin çox böyük iqtisadi əhəmiyyəti vardır. Yəni əgər biz neft çıxaracağıqsa, oradan böyük fayda əldə ediləcəksə, yəni bu boru ki, Türkiyədən keçirəcəyik, - biz onu mütləq Türkiyədən keçirəcəyik - demək, buradan da çox böyük fayda gələcəkdir. Bu onu göstərir ki, biz imkanımız olan kimi Türkiyənin iş adamlarını, şirkətlərini ölkəmizə gətirəcəyik. Amma bizim hələ o qədər də böyük təcrübəmiz yoxdur. Çünki biz 70 il başqa bir iqtisadi sistemdə olmuşuq. Mən sizə açıq deyim, bizim insanlar çox şeyi hələ bacarmırlar. Bizə kömək etmək, ölkəmizə gəlmək lazımdır. Gəlib oturub bir şeydə kömək etmək lazımdır. Ola bilər, para getsin, amma bil ki, gedən yerdən bir qədərdən sonra on dəfə çox gəlir götürə bilərsiz. Çünki Azərbaycana gələn para heç vaxt batmır. Azərbaycana gətirilən sərmayə mütləq öz nəticəsini verəcəkdir.

İndiyə qədər olan işlərə görə mən məmnun olduğumu bildirmək istəyirəm. Ancaq bu işlərin çoxu ticarətdir. Azərbaycan ilə Türkiyə arasında iş birliyi isə respublikamıza Türkiyənin böyük şirkətlərinin sərmayəsinin gəlməsidir, müştərək istehsalın yaranmasıdır. Məsələn, neft istehsalı sahəsində bizim bir neçə belə müştərək müəssisəmiz vardır və işlər yaxşı gedir, yaxşı da nəticələr olacaqdır. Amma başqa sahələrdə də işlər belə qurulmalıdır. İstehsalı artırmaq, sərmayə qoymaq, şübhəsiz ki, fayda verəcəkdir.

Ona görə də mən bu məsələlərin detallarını izah etmək istəmirəm. Bilirsiniz ki, Türkiyə-Azərbaycan iqtisadi əlaqələrini tənzimləmək üçün biz dövlətlərarası komissiya yaratmışıq. Bu komissiyanın Azərbaycan tərəfindən rəhbəri Baş Nazirin müavini Abid Şərifovdur. Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Əli bəy Yücəlin böyük xidmətləri vardır. O, həqiqətən vətənpərvər bir insandır. O, para, qazanc əldə etmək üçün yox, öz qəlbi ilə yeddi il bundan əvvəl Azərbaycana gəlibdir. O, respublikamıza çətin şərtlər əsasında gəlib-gedir, iş görür, amma mən belə hesab edirəm ki, bir şey qazanmır, əksinə, itirir. Ancaq onun qəlbi torpaqla, xalqla elə bağlıdır ki, onda türkçülük, vətənpərvərlik, milli hiss o qədər yüksəkdir ki, o bu işləri görür. Buna görə də mən də ona çox böyük hörmət və ehtiramla yanaşıram. Hesab edirəm ki, Nihat bəy də, Əli bəy də, Abid Şərifov da, hamısı birlikdə bu görüşdən sonra sizin təkliflərinizə baxacaqlar. Mən Abid Şərifova tapşırmışam ki, bu məsələlərlə məşğul olsun. Onlar dəqiqləşdirəndə ki, bu məsələlər barədə qərar qəbul etməyə hazırıq, onda lazımi qərarlar olacaqdır.

Gəlin biz daha da yaxınlaşaq. Millətlərimiz bir-biri ilə nəinki yaxındır, birdir. Dilimiz, dinimiz, qanımız, canımız birdir. Gəlin iqtisadiyyatda da daha da yaxınlaşaq.

Burada dedilər ki, bəzi iş adamları Bakıda nəsə açmaq, mərasim keçirmək istəyirlər. Məni də oraya dəvət etdilər. Burada mən heç kəsə bir söz deyə bilmərəm. Çünki mən dörd gündür ki, Azərbaycandan çıxmışam. Qarşıdakı günlərdə yəqin işlərim daha çox olacaqdır. Şübhəsiz ki, bir neçə gündən sonra bu təkliflərə baxa bilərəm. Amma indi buradakı dəvətlərinizlə əlaqədar bir söz deyə bilmərəm. Xahiş edirəm, bunu nəzərə alasınız.

Mən sizin hamınıza cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Yaşasın əbədi Türkiyə-Azərbaycan dostluğu! Sağ olun!"

***

Azərbaycan Prezidenti İstanbulda İslam Konfransı Təşkilatının tarix, kültür, sənət mərkəzini də ziyarət etdi. Mərkəzin eksponatları ilə tanış oldu.

***

Beləliklə, Prezident Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri də böyük uğurla başa çatdı. Onun ən başlıca nəticəsi ölkələrimiz arasında strateji əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamədir. Prezident Heydər Əliyevin özünün də qeyd etdiyi kimi, təkcə bu sənəd 50 sənədin imzalanmasına bərabərdir.

Görüşün nəticəsi kimi bundan əlavə daha 8 sənəd imzalanıbdır. Ümumiyyətlə, bu səfər də daxil olmaqla Azərbaycan ilə Türkiyə arasında 50-yə yaxın sənəd imzalanmışdır ki, onlar da iki ölkə, dövlət arasında olan əlaqələrin hüquqi-normativ əsaslarını yaratdılar.

***

Türkiyə Respublikasının Xarici İşlər Naziri İ.Cem Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin dəvəti ilə 7-8 sentyabr 1997-ci il tarixində Dövlət Naziri A.Andican ilə birlikdə Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur. İ.Cem və A.Andican Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev tərəfindən qəbul edilmişlər. Səfər zamanı birgə bəyanat qəbul olunmuşdur.

***

Türkiyə Respublikasının Baş Naziri M.Yılmaz başda olmaqla dövlət nümayəndə heyəti 1997-ci il 12 noyabr də Bakıda "İlkin neftin alınması" şərəfinə təşkil olunmuş bayramda iştirak etmişlər. Nüma-

yəndə heyətinin tərkibində Türkiyə Respublikasının Enerci və Təbii Ehtiyatlar Naziri C.Ersümer də olmuşdur.

***

1997-ci ilin 28 dekabrında Türkiyə Respublikasının 55-ci hökumətinin başçısı M.Yılmaz onu müşayiət edən nümayəndə heyəti ilə birlikdə Türkmənistan da rəsmi səfərdən vətənə qayıdarkən Bakıda qısamüddətli işgüzar səfərdə olmuş, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev tərəfindən qəbul olunmuşdur. Burada aparılmış danışıqlar zamanı tərəflər üçün maraq kəsb edən bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

***

Türkiyə Respublikası Xarici İşlər Nazirliyi ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr zəminində Türkiyə Respublikası Xarici İşlər Nazirinin müşaviri Səfir M.Ə.İrtemçelikin başçılıq etdiyi nümayəndə heyəti 2-4 fevral 1998-ci il də Azərbaycana səfər etmişdir. Səfər əsnasında qonaqlar, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev tərəfindən qəbul edilmiş, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəhbərliyi ilə siyasi məşvərətlərdə iştirak etmişlər.

***

ATƏT-in Minsk Qrupuna Türkiyə tərəfindən xüsusi təmsilçi təyin edilmiş, Səfir A.H.Alp, 4 fevral 1998-ci il də Azərbaycana gəlmiş, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdir. Səfər əsnasında AR Xarici İşlər Nazirliyində məşvərətlər aparılmışdır.

***

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında münasibətlərin bariz göstəricilərindən biri, 1997-ci ilin yekununa görə Türkiyə Respublikasının NTV kanalının apardığı sorğu nəticəsində Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin "Dünyada ilin adamı" seçilməsi olmuşdur.

***

13-14 fevral 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə işgüzar səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevə Türkiyənin "Nərgiz TV" televiziyasının 1997-ci il üçün "Dünyada ilin adamı" mükafatı təqdim edilmişdir.

***

Fevralın 13-də axşam İstanbuldakı Lütfi Kırdar adına Beynəlxalq konfrans və sərgi salonunda "Nərgiz TV" kanalının yaranmasının birinci ildönümünə və mükafatların təqdim olunmasına həsr edilmiş mərasim keçirilmişdir. Mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl iştirak etmişlər. Bundan başqa TBMM-in sədri Hikmət Çətin, Baş Nazir Məsud Yılmaz və digər rəsmi şəxslər də burada idilər.

Mərasimdə çıxış edən Türkiyə Prezidenti bildirdi ki, Azərbaycanın Cümhur Başkanı Heydər Əliyevin NTV televiziyası tərəfindən "Dünyada ilin adamı" seçilməsini böyük bir təqdirlə qarşılayıram. Bunda çox böyük məna vardır. Xalqın fikri öyrənilmiş, xalq etimad göstərmiş və bu seçimi etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev mərasimdə nitq söyləmiş, orada mükafata görə öz təşəkkürünü bildirmiş və bəyan etmişdir ki, **Azərbaycan ilə Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələri günü-gündən möhkəmlənir, genişlənir və bu dostluq əlaqələri gələcəkdə də inkişaf edəcəkdir. ...Heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır.**

Rəsmi görüşlərdən sonra tərəflər bəyanatla çıxış etmişlər. Azərbaycan Prezidenti bir daha bəyan etmişdir ki, Türkiyə Azərbaycana həmişə böyük diqqət göstəribdir. Dövlətimizin başçısı demişdir: **«Mən qardaşım Süleyman Dəmirəlin sözlərini tam təsdiq edirəm və həqiqətən böyük Mustafa Kamal Atatürkün vəsiyyəti həm Türkiyə üçün, həm də Azərbaycan üçün eyni xarakter, eyni əhəmiyyət daşıyır. Türkiyənin dərdi-qəmi Azərbaycanun dərdi-qəmidir, Azərbaycanun dərdi-qəmi Türkiyənin dərdi-qəmidir. Biz belə qardaşlıq, belə dostluq edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əbədi, daimi olacaq, sarsılmaz olacaqdır. Mən də, əziz dostum Süleyman Dəmirəl də bu dostluğu daha da möhkəmləndirmək üçün indiyə qədər çalışmışıq və bundan sonra da çalışacağıq. Mən çox nikbinəm, hesab edirəm ki, bizim qarşımızda nə qədər ağır, çətin problemlər, nə qədər çətin işlər dursa da, biz birgə səylərimiz nəticəsində, dostluq, qardaşlıq, əməkdaşlığımız nəticəsində onların hamısının qarşısını alacağıq."**

Prezident Süleyman Dəmirəl isə öz bəyanatında qeyd etmişdir ki, **iki ölkə arasında dostluq son dərəcə möhkəmdir. Azərbaycanın problemi bizim problemimizdir. Böyük Atatürkün söylədiyi sözlər bizim üçün nəsihətdir: Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir.**

Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevin TBMM-in sədri Hikmət Çətin, Türkiyənin Baş Naziri Məsud Yılmaz, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı İsmayıl Haqqı Qaradayı, Türkiyənin iş adamları ilə görüşlər keçirmişdir.

Azərbaycan Prezidentinə "Dünyada ilin adamı" mükafatı verilməsi Azərbaycan-Türkiyə dostluğunun ən parlaq səhifələrindən biri hesab edilir.

***

Fevralın 14-də Türkiyənin xarici iqtisadi əlaqələr qurumu (DEİK) İntanbulun "Ceylan interkontinental" otelində Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə səhər yeməyi təşkil etdi. Sonra otelin konfrans salonunda Türkiyənin iş adamları ilə görüş oldu. Azərbaycan və Türkiyə Prezidentlərinin iştirak etdikləri görüşə DEİK-in, Türkiyə-Azərbaycan iş birliyinin rəhbərləri, 70-dən çox ticarət və sənaye evlərinin, bankların, şirkətlərin nümayəndələri toplaşmışdılar.

Bu toplantı iqtisadi əlaqələrimizin əsas istiqamətlərini bir daha dəqiqləşdirmək üçün böyük bir fürsət oldu.

Toplantıda Türkiyə Prezidenti bəyan etdi ki, qardaş Azərbaycanın iqtisadiyyatının dirçəldilməsinə Türkiyə Cümhuriyyətinin dövləti, hökuməti, parlamenti, xalqı tərəfindən hər cür dəstək vermək fikri qətidir. Türkiyənin imkanları ilə,- indi Türkiyənin şirkətləri dünyanın bir çox ölkələrində çalışır,- qonşumuz və qardaşımız Azərbaycanın dirçəlməsinə kömək və xidmət göstərmək yalnız iqtisadi deyil, bundan kənara çıxan bir məsələdir. Azərbaycanın onsuz da öz imkanları ilə dirçəlməsi üçün böyük potensialı var. Azərbaycan dünyada Fars körfəzi ilə müqayisə oluna biləcək enerci ehtiyatlarına malikdir. Mən Xəzər və Orta Asiya neftiniqazını bütövlükdə nəzərdə tuturam. Bu ehtiyatlar dünya bazarlarına Azərbaycan və Türkiyə üzərindən çatdırılacaqdır.

Azərbaycan Türkiyə ilə birlikdə enerci terminalı vəzifəsini öz öhdəsinə götürməyə məcburdur. Bu sahədəki əməkdaşlıq indiyə qədər də olmuşdur, bundan sonra da davam edəcəkdir. Görüşdə o, iştirakçılardan Azərbaycana daha çox sərmayə qoymağı, onun sanballı layihələrinə, xalqın rifahına xidmət edəcək istehsalata, işsizliyi aradan qaldıracaq sənaye, turizm müəssisələrinin və digər müəssisələrin yaranmasına kömək göstərməyi xahiş etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev də görüşdə çıxış etdi. O göstərdi ki, Türkiyə böyük iqtisadi potensiala malik bir ölkədir. Türkiyənin, iqtisadiyyatı həm Türkiyənin içində, həm də dünyanın bir çox ölkələrində Türkiyə Cümhuriyyətinin inkişaf etməsinə xidmət edir və burada Türkiyənin iş adamlarının, sənayeçilərinin xidməti çox böyükdür. Mən sizə bu işlərinizdə daha da çox uğurlar diləyirəm.

Azərbaycan ilə Türkiyə arasında yaranmış dostluq, qardaşlıq əlaqələri günügündən inkişaf edir və əminəm ki, bizim gələcək dostluq, qardaşlıq yolumuz da işıqlıdır, aydındır, parlaqdır.

... Artıq Azərbaycana xarici sərmayə gəlir. Xarici sərmayə birinci növbədə bizim neft-qaz sənayemizə gəlir. Məsələn, keçən il, 1997-ci ildə Azərbaycana bir milyard üç yüz milyon dollar xarici sərmayə gəlibdir. Bunun bir milyard dolları neft sənayesinə qoyulubdur. Bilirsiniz ki, biz müqavilələr imzalamışıq. Xəzər dənizinin Azərbaycan sektorunda və Azərbaycan ərazisinin başqa yerlərində böyük neft yataqları xarici dövlətlərin, xarici şirkətlərin müştərək işi nəticəsində gələcəkdə böyük imkanlar açacaqdır. Biz bu sahədə Türkiyə ilə əməkdaşlıq edirik. "Türk Petrolları" şirkəti Azərbaycanda üç müqavilədə iştirak edir. Onun birinci müqavilədə 6,75 faiz payı vardısa, indi 16 faizdən artıqdır. Əziz dostum Süleyman Dəmirəl də mənə müraciət etmişdi. Mən çalışıram yeni müqavilələrdə "Türk Petrolları" şirkətinə yenə də geniş bir yer verək.

O, xüsusi olaraq iş adamlarının nəzərinə çatdırdı ki, Türkiyə ilə bizim neft-qaz sahəsində işimiz təkcə Türkiyə şirkətinin gəlib Azərbaycanda pay alması deyildir. Ən əsas məsələ bütün Xəzər dənizində - Xəzərin təkcə Azərbaycan sektorunda yox, Qazaxıstan, Türkmənistan sektorlarında, Orta Asiyada da çıxarılan, hasil edilən neftin dünya bazarlarına ixrac olunması, Türkiyəyə çatdırılmasıdır.

O vurğuladı ki, Türkiyəyə qaz lazımdır. Türkmənistanın qazı çoxdur və Xəzər dənizindən də çox qaz çıxacaqdır. Amma bu qazı Türkmənistan bir yerə göndərə bilmir. Türkiyə istəyirdi qazı İrandan alsın. Bu, mümkün olmadı. Əziz dostum Süleyman Dəmirələ də öz fikirlərimi demişəm, Baş Nazir Məsud Yılmazla da bu barədə danışmışıq, dünən də danışdıq. Mən hesab edirəm ki, qaz kəmərini də Xəzər dənizindən Türkiyəyə gətirmək lazımdır. Bu həm Türkiyə üçün, həm də Türkiyədən sonra Avropa üçün, digər ölkələr üçün lazımdır.

Transqafqaz magistralı məsələsinə toxunan dövlət başçımız göstərdi ki, 1997-ci ilin may ayında biz Sərəxsdə bu Transqafqaz magistralı barədə müqavilə imzalamışıq. Üstündən bir ilə yaxın vaxt keçibdir. Bu müddət içərisində oradan yüklərin daşınması - Mərkəzi Asiyadan Avropaya Azərbaycan, Gürcüstan üzərindən, Türkiyə, Qara dəniz üzərindən dörd dəfə artıbdır. Əgər ilk dəfə bu müqaviləni dörd dövlət imzaladısa, indi buna bütün Mərkəzi

Asiya ölkələri, Avropa ölkələri - Ukrayna, Rumıniya, Bolqarıstan, Almaniya, Moldova - hamısı qatılıblar. Bunların da yolunun hamısı Türkiyədən gəlib keçir, Qara dənizdən gəlib keçir. Bu, çox böyük gələcəyi olan bir layihədir. Burada da biz yenə iş birliyindəyik. Bunlar böyük, yəni qlobal, dünya miqyasında olan layihələrdir. Amma Türkiyənin iş adamlarının Azərbaycanda sənaye sahəsində, telekommunikasiya, inşaat, ticarət, kənd təsərrüfatı və s. sahələrdə görə biləcəyi çox işlər vardır.

Azərbaycanda gedən özəlləşdirmə prosesinə də toxunaraq göstərdi ki, indi bizdə özəlləşdirmə gedir. Bu özəlləşdirmə prosesində Türkiyənin iş adamları iştirak edə bilərlər. Onların bəziləri iştirak edirlər, bəziləri gəlib yer alıblar. Mən yenə də dəvət edirəm ki, siz gələsiniz. Türkiyənin iş adamları bəzən bizim qanunlar çərçivəsində imkan yaranmadığından şikayət edirlər. Bu şikayətlər ola bilər. Ancaq bilirsiniz, hesab edin ki, biz böyük bir cığır içərisindəyik. Biz bu cığırı, yolu açа-açа gedirik. Əlbəttə, bu cığırı aparanda qarşısına daş da, kəsək də, qaya da çıxacaq, - bunlar olacaqdır. Bunlardan qorxmaq lazım deyil. Əsas odur ki, biz irəliyə gedirik və gedəcəyik. Prezident qətiyyətlə bildirdi ki, bizim əsas tərəfdaşımız Türkiyədir, Türkiyənin iş adamlarıdır. Mən Türkiyənin iş adamlarını Azərbaycana dəvət edirəm.

Məsələn, "Koç" qrupu gəlib Bakıda "Ramstor" kimi böyük mağaza tikibdir. İndi bu, Azərbaycanın ən görkəmli mağazasıdır. Bakıda iki milyondan artıq insan yaşayır. Hamı ora gedir. Onun yanında hansısa bir türk şirkəti yeni bir fransız mağazası tikdi. Mənə dedilər ki, belə bir mağaza Türkiyədə təkcə İstanbulda var, ikincisi də Bakıda açıldı. Çox gözəl. Mən bunun açılışında da iştirak etdim. İndi insanlar bundan istifadə edirlər. Başqa şeylər də tikirlər. Bayraqdar gəlib şəhərin ən gözəl yerində dörd bina tikibdir. O yeri mən 30 il idi qoruyub saxlayırdım. Həmin yeri ona verdim. Süleyman bəylə biz onun təməl daşını qoymuşduq. İndi binalar hazırdır. Bəzən görürəm işıqlar yanır, insanlar da yaşayır. Amma Bayraqdara dedim ki, sən bunu mənsiz etmisən. Evi tikmək istəyəndə gəlib məndən icazə aldın, amma istifadəyə verəndə məndən icazə almamısan. Bunların hamısı olur və olacaqdır.

Sonra iş adamlarının diqqətinə çatdırdı ki, Azərbaycanda insanlar yeni, bazar iqtisadiyyatına qatılırlar. Burada cürbəcür qanun pozuntuları ola bilər. Bəzi insanlar bunu anlamadan vəzifəsindən suiistifadə edə bilərlər. Korrupsiya, rüşvət və s. olur və var. Bunlardan Türkiyə də xilas olmayıbdır, Azərbaycan da xilas olmayıbdır. Bunların qarşısını birlikdə almaq lazımdır. Ona görə də Azərbaycana gələn iş adamları gərək sağlam əlaqələr qursunlar, heç kəs çirkli iş görməsin, Azərbaycandakılar da görməsinlər.

Azərbaycan Prezidenti görüşdə iş adamlarına müraciət edərək dedi: "Azərbaycanda sağlam iş görən adam mənim gözümün üstündədir. Amma gəlib Azərbaycanda haram iş görən adam bu gün də olmasa, yaxud sabah da olmasa, bir neçə vaxtdan sonra aşkara çıxacaqdır. Mən hesab edirəm ki, bizim içimizdə problemlər çoxdur, bu problemləri özümüz həll edirik. Amma bizə kənardan problem gətirmək lazım deyil. Mən sizdən bunu rica edirəm.

Azərbaycanda iş görmək üçün əsas şərtlərdən biri Azərbaycanın içində olan sabitlikdir. Əziz dostum Süleyman Dəmirəl bunu çox gözəl söylədi. Azərbaycan altı il içərisində nə qədər sınaqlardan, ağır yol-

lardan keçdi. Biz iki dəfə dövlət çevrilişinin qarşısını aldıq, silahlı dəstələrin qarşısını aldıq. İndi dövlətimiz yaşayır, anayasamız - konstitusiyamız, parlamentimiz, qanunlarımız var. Azərbaycanda ictimai-siyasi vəziyyət sərbəstdir, sakitdir, sabitlik yaranıbdır. Bütün qanunlar var, bu gün olmayan qanunlar da sabah olacaqdır və birlikdə iş aparacağıq.

Ona görə də mən sizi bir daha Azərbaycana dəvət edirəm. Çəkinməyin, Azərbaycandan uzaqlaşmayın, Azərbaycana yaxınlaşın. Mən o qədər istəyirəm ki, Azərbaycana türk şirkətləri qoy çox gəlsin, birbiri ilə sağlam rəqabət aparsınlar. Kim daha da yaxşı iş görə bilər - o, iş görmək hüququ alsın. Mən bunların hamısını dəstəkləyəcəyəm.

Biz Türkiyədə görülən işlərə daim heyranlıqla, sevgi ilə, məhəbbətlə baxırıq. Türkiyə bizim üçün dost, qardaş ölkədir. Türkiyənin hər bir vətəndaşı bizim üçün əziz insandır. Biz bundan sonra Türkiyəyə daha da yüksəliş arzu edirik, Türkiyə xalqına daha da rifah arzu edirik. Türkiyənin parlaq gələcəyinə inanırıq. **Mən Azərbaycanın Türkiyə ilə dostluğunun, qardaşlığının parlaq gələcəyinə əminəm.** Sizin hamınıza cansağlığı arzu edirəm, bütün işlərinizdə uğurlar arzu edirəm. Sağ olun."

***

Fevralın 14-də İstanbuldakı "Ueylan interkontinental" otelinin konfrans salonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Türkiyənin Qars şəhər bələdiyyəsinin və Türk Sənayeçiləri və İş Adamları Vakfının /TÜSİAV/ 1997-ci ilin insan haqları və "İlin dövlət adamı" mükafatlarının təqdim olunmasına həsr edilmiş mərasim keçirildi.

Prezidentimizə müraciət edən Qars bələdiyyə başqanı dedi ki, **Siz türk dünyasının öndə olan liderlərindən birisiniz və Qafqazda sabitlik və tarazlıq amilisiniz. Azərbaycanın Qafqazda güclü bir dövlət olmasında çox böyük xidmətləriniz var, gecə-gündüz çalışırsınız. Türkiyə-Azərbaycan əlaqələrini zirvələrə qaldırmaq üçün əlinizdən gələni edirsiniz.** Vakfımızın qaydasına uyğun olaraq 40-a qədər seçici üzvlərin seçdiyi "İlin dövlət adamı" mükafatı bu gün sizə təqdim edilir. İnşallah, başqa mükafatlar da təqdim olunacaqdır. Onu da bildiririk ki, idarə heyətimizin qərarı ilə Siz vakfımızın fəxri üzvü seçilmisiniz. Bu barədə sənədi İstanbul şöbəmizin başçısı təqdim edəcəkdir. Sonra dövlətimizin başçısına 1997-ci ilin insan haqları və "İlin dövlət adamı" mükafatları təqdim edildi, Qars bələdiyyəsi adından nəfis xalça hədiyyə olundu.

Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi. Ödülə görə öz təşəkkürünü bildirdi. İştirakçıları əmin etdi ki, sizin bu etimadınızı doğruldacağam və **Türkiyə-Azərbaycan dostluğunu günügündən möhkəmləndirmək, inkişaf etdirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Türkiyə-Azərbaycan dostluğu bizim üçün müqəddəsdir, əbədidir, sarsılmazdır. Biz bu yoldan dönməyəcəyik. Biz bu yolla irəliyə getmişik və irəliyə gedəcəyik.**

***

13-14 aprel 1998-ci il də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah Rəisi, ordu generalı İ.H.Karadayı Azərbaycan Respublikasının Müdafiə Naziri S.Əbiyevin dəvəti ilə Bakıya səfər etmişdir. İki nazir arasında hərbi-müdafiə sahəsində fikir mübadilələri aparılmışdır. Qonaq Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev tərəfindən qəbul

edilmişdir.

***

21 aprel 1998-ci il də Türkiyə Respublikasının Enerci və Təbii Ehtiyatlar naziri C.Ersümer Bakıda işgüzar səfərdə olmuş, səfər zamanı Prezident Heydər Əliyev tərəfindən qəbul edilmişdir. Görüşdə Bakı-Ceyhan neft boru xəttinin çəkilişi barədə müzakirələr aparılmışdır.

***

26 aprel 1998-ci il də Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəlin dəvəti ilə, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev, Trabzon şəhəri yaxınlığında Dərinər su bəndinin inşasının təməlatma mərasimində iştirak etmək məqsədi ilə Türkiyə Respublikasında bir günlük işgüzar səfərdə olmuşdur. Təməlatma mərasimində iştirak edən Azərbaycanın, Türkiyənin və Gürcüstanın Prezidentləri ikitərəfli və üçtərəfli münasibətlərin inkişafına dair müzakirələr aparmış və birgə bəyanat qəbul etmişlər.

Bu, əslində üç qonşu dövlətin başçılarının tarixi görüşü idi. Eduard Şevardnadze də bu görüşdə iştirak edirdi.

Mərasimdə hər üç Prezident, Türkiyənin Baş Naziri Məsud Yılmaz, Türkiyənin Dövlət Su İşləri İdarəsinin Baş direktoru Doğan Altınbilək, Artvin şəhərinin valisi Ömər Böyükkənd, Türkiyənin Enerci və Təbii Qaynaqlar Naziri Cümhur Ərsümər çıxış etdilər.

Azərbaycan Prezidenti Heydər Əliyev öz nitqində Türkiyə Cümhuriyyəti üçün əlamətdar olan bir hadisədə iştirak etdiyini, burada eyni zamanda üç ölkənin rəhbərlərinin bir araya gəlməsinin də çox əhəmiyyətli olduğunu, son illər ölkələrimiz arasında tarixdə görünməmiş dostluq və qardaşlıq əlaqələrinin yarandığını, XX əsrin sonunda bizim üç ölkə - Türkiyə, Gürcüstan və Azərbaycanın bu günü və gələcəyi üçün çox əhəmiyyətli bir mərhələ meydana gəldiyini, bu tarixi hadisənin bir yerdə qeyd edilməsinin də bizim dostluğumuzun, qardaşlığımızın gözəl nümunəsi olduğunu bəyan etmişdir.

Əmin olduğunu bildirmişdir ki, bu dostluq, qardaşlıq əlaqələri böyük gələcəyə malikdir, günü-gündən inkişaf edəcək, əbədi olacaq və sarsılmaz olacaqdır. Türkiyə, Gürcüstan və Azərbaycanın - Qafqazın üç böyük və çox strateci əhəmiyyətə malik olan ölkələrinin bu cür sıx dostluq, qardaşlıq əlaqələrində olması bütün Qafqazda, onun ətrafında sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsi üçün çox önəmli bir amildir. Biz bu dostluğumuzla, əlaqələrimizlə, gözəl əməkdaşlığımızla bir daha sübut edirik ki, Qafqazda, onun ətrafında daim sülh, əmin-amanlıq yaratmaq olar. Buna bizim çox ehtiyacımız vardır.

Bəyan etmişdir ki, biz ölkədə və bütün dünyada, bölgəmizdə hər bir ölkənin ərazi bütövlüyünün təmin olunmasının tərəfdarıyıq. Bu, beynəlxalq hüquq normalarının tələbidir. Biz tələb edirik ki, bütün dövlətlər, ölkələr bu beynəlxalq hüquq normalarına riayət etsinlər. Buna görə də həm Gürcüstanın, həm də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması bu gün gündəlikdə duran əsas məsələdir. Biz yaxşı bilirik ki, Türkiyə Cümhuriyyəti, Türkiyənin hökuməti, dövləti Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün çox səylər qoyur, çalışır və o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün, Gürcüstanda Abxaziya münaqişəsinin həll olunması üçün öz səylərini qoyur. Ona görə də mən bu fürsətdən istifadə edib Türkiyə Cümhuriyyətinə, dövlətinə, hö-

kumətinə təşəkkürümü yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün bundan sonra da öz səylərini əsirgəməyəcəkdir. Bugünkü təntənəli mərasim bir də onu göstərir ki, insanlar sülh istəyir, əmin-amanlıq istəyir, insanlar rahat yaşamaq istəyirlər. Biz bunu təmin etməliyik. Bu, Türkiyədə də təmin olunmalıdır, Gürcüstanda da, Azərbaycanda da, bütün Qafqazda da təmin olunmalıdır. Qafqaz dünyanın çox əhəmiyyətli bir bölgəsidir. Qafqazda dünya ölkələrinin çox böyük maraqları vardır. Bunların hamısını həm Qafqaza maraq göstərən ölkələrin xeyrinə, həm də Qafqazda yerləşən xalqların, ölkələrin, dövlətlərin xeyrinə həll etmək üçün sülh lazımdır.

Prezidentlər bu görüşdə hər üç ölkə üçün mühüm olan, ölkələrimiz arasındakı gələcək əməkdaşlığa yeni yollar açan birgə bəyanatla çıxış etmiş, Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında yaranmış xüsusi dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətlərini bundan sonra da genişləndirməyə və dərinləşdirməyə hazır olduqlarını, bu münasibətlərin maraqların ümumiliyi əsasında sülhə və sabitliyə, bölgə xalqlarının iqtisadi inkişafına və yaxınlaşmasına getdikcə daha çox kömək edən sanballı amilə çevrildiyini bəyanatda göstərmişlər.

Sonra bəyanatda deyilirdi:

"Prezidentlər bölgədə təhlükəsizliyin və sabitliyin təmin olunması sahəsində birgə səyləri həm regional səviyyədə, həm də daha geniş beynəlxalq səviyyədə daha da gücləndirməyin vacibliyini qeyd etmişlər. Onlar dövlət suverenliyinə, ərazi bütövlüyünə hörmət və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında, təcavüzkar separatçılığa və terrorizmin hər hansı təzahürünə qarşı birgə mübarizəni fəallaşdırmaq əsasında bölgədə münaqişələri tez bir zamanda sülh yolu ilə aradan qaldırmağın zəruri olduğunu vurğulamışlar.

Türkiyə Respublikasının Prezidenti, cənab S.Dəmirəl, Azərbaycan Respublikasının Prezidenti H.Əliyev və Gürcüstan Prezidenti E.Şevardnadze cənablarının Tbilisi bəyannaməsində - "Dinc Qafqaz" bəyannaməsində ifadə etdikləri prinsiplərin həyata keçirilməsinə yönəldilmiş səyləri tamamilə dəstəklədiklərini təsdiq etmişdir.

Prezidentlər iqtisadi kooperasiyanı dərinləşdirməyin zəruriliyini, irimiqyaslı regional layihələrin işlənib hazırlanmasında və həyata keçirilməsində birgə səylərin vacibliyini nəzərə çarpdırmışlar.

Prezidentlər Xəzər hövzəsinin enerci daşıyıcılarının nəql olunmasının əsas istiqamətlərindən biri kimi, Transxəzər və Transqafqaz boru kəmərləri şəbəkələrinin daxil olduğu Şərq-Qərb energetika dəhlizinin inkişafına böyük əhəmiyyət verərək bəyan etmişlər ki, onlar Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan marşrutu ilə daşınmasına, habelə Xəzər hövzəsindən təbii qazı Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə çatdırmaq üçün boru kəməri çəkilməsinə dair layihələrin həyata keçirilməsinin sürətləndirilməsi sahəsində əməli addımlar atmağa hazırdırlar.

Prezidentlər tarixi "İpək yolu"nun bərpa olunmasının, TRASEKA Avrasiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsinin üstün əhəmiyyətini vurğulamış və bu məqsədlə, həmin dəhlizin mühüm tərkib hissəsi kimi, Tbilisi-Qars dəmir yolu magistralının inşasını sürətləndirməyin zəruri olduğunu bəyan etmişlər.

Prezidentlər transsərhəd çaylarının, Türkiyə boğazlarının və Qara dənizin sahil dəniz xəttinin təbii mühitinin mühafizəsi sahəsində birgə səylərin əhəmiyyətini vurğulamışlar.

Prezidentlər məmnunluqla qeyd etmişlər ki, Qara dəniz iqtisadi əməkdaşlığı yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu ittifaqın regional beynəlxalq təşkilata çevrilməsi Qara dəniz hövzəsinin dövlətləri arasında iqtisadi əməkdaşlığın güclənməsində onun rolunun yüksəlməsinə şübhəsiz ki, kömək edəcəkdir.

Prezidentlər Qara dəniz və Xəzər dənizi hövzələri dövlətlərinin daha da yaxınlaşması, qarşılıqlı anlaşmanın dərinləşməsi və bunun əsasında həmin bölgələrin xalqları arasında etimadın və qarşılıqlı hörmətin möhkəmlənməsi sahəsində bundan sonra da birgə səylər göstərmək barədə razılığa gəlmişlər.

Üç dövlət arasında tarixi dostluq, mehriban qonşuluq əlaqələrini yüksək qiymətləndirən Prezidentlər ölkələrimizin gündən-günə inkişaf edən qarşılıqlı surətdə faydalı əməkdaşlığından razı qaldıqlarını bildirmişlər. Bölgədə təhlükəsizliyin və sabitliyin təmin edilməsi sahəsində birgə səylərin regional və beynəlxalq səviyyədə gücləndirilməsinin, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə ciddi riayət olunmasının zəruriliyini vurğulayan tərəflər, bölgədə münaqişələrin sülh yolu ilə tezliklə aradan qaldırılmasının vacibliyini qeyd etmişlər. Türkiyə, Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin zəruri olduğunu nəzərə çarpdıran dövlət başçıları bildirmişlər ki, ölkələrimizin əməkdaşlığının daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi böyük əhəmiyyətə malikdir. Onlar Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən nefti dünya bazarına çıxaracaq əsas boru xətti - Bakı-Ceyhan kəməri barədə geniş müzakirələr aparmış və qeyd etmişlər ki, bu istiqamətdə konkret tədbirlər həyata keçirilməsini sürətləndirmək üçün əməli addımlar atmağa hazırdırlar."

Təntənəli mərasim başa çatdıqdan sonra Türkiyənin Dövlət Su İşləri İdarəsinin Baş direktoru Doğan Altınbilək Azərbaycan Prezidenti Heydər Əliyevə, Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə, Türkiyə Prezidenti Süleyman Dəmirələ və Baş Nazir Məsud Yılmaza xatirə hədiyyələri təqdim etmişdir.

Sonra hər üç ölkənin dövlət başçılarının düyməni basması ilə Dərinər su bəndinin təməlinin qoyulması mərasimi icra olunmuş - qayalarda rəmzi partlayış keçirilmişdir.

***

10 may 1998-ci il tarixində Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəl Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin anadan olmasının 75-illik yubileyi ilə əlaqədar Bakıya birgünlük işgüzar səfərə gəldi. İkitərəfli görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

***

1998-ci il iyun ayının 9-da Qazaxıstanın paytaxtı Astana şəhərində Türk dövlətlərinin başçılarının növbəti Zirvə görüşü olmuş, orada Azərbaycan Prezidentinin Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə növbəti görüşü keçirilmişdir.

***

8-9 sentyabr 1998-ci il tarixlərində Azərbaycan Respublikasında beynəlxalq

səviyyədə keçirilmiş tarixi "İpək yolu"nun bərpasına həsr edilmiş və Prezident Heydər Əliyevin sədrlik etdiyi konfransda Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəlin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmiş və ölkələrimiz arasındakı iqtisadi münasibətlərin inkişafında konfransın rolu qeyd edilmişdir.

***

11 oktyabr 1998-ci il də Azərbaycan Respublikasında keçirilmiş Prezident seçkilərində qardaş Türkiyə Respublikasının müxtəlif təşkilatlarından nümayəndələr müşahidəçi kimi yaxından iştirak etmiş və Türkiyə Respublikasının Enerci və Ehtiyatlar Naziri, cənab C.Ersümer 18 oktyabr 1998-ci il də yenidən Prezident seçilən cənab Heydər Əliyevin andiçmə mərasimində iştirak etmişdir.

***

28-31 oktyabr 1998-ci il də Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Respublikasının 75 illiyi münasibəti ilə Türkiyədə keçirilən bayram mərasimlərində iştirak etmişdir. Səfər zamanı Azərbaycan, Qazaxıstan, Gürcüstan, Özbəkistan və Türkiyə dövlət başçıları, habelə ABŞ-ın Enerci Naziri tərəfindən Bakı-Ceyhan neft-boru kəmərinin həyata keçirilməsinin vacibliyini əks etdirən birgə bəyannamə imzalanmışdır.

Türkiyə Uümhuriyyətinin 75 illiyinə həsr olunmuş yubiley tədbirlərində Azərbaycan Prezidenti Heydər Əliyevlə yanaşı Pakistan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Albaniya, Qırğızıstan, İsrail, Tacikistan və Moldovanın Prezidentləri, Bolqarıstan Parlamentinin sədri, Ukraynanın Baş Naziri və digər ölkələrdən gəlmiş hörmətli qonaqlar, Türkiyənin yüksək vəzifəli şəxsləri, dövlət və iş adamları da iştirak edirdilər.

Dövlətimizin başçısı xarici ölkələrin burada iştirak edən yüksək vəzifəli şəxsləri və iş adamları ilə silsilə görüşlər keçirmişdir.

***

Səfər zamanı, Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə də yenidən görüşmüş, ona Azərbaycan xalqının hədiyyəsi kimi böyük öndər Mustafa Kamal Atatürkün Azərbaycan rəssamı tərəfindən muncuqlardan toxunmuş portretini təqdim etmişdir.

Böyük Atatürkün qurduğu Türkiyə Cümhuriyyətinin əbədi olaraq yaşayacağını nəzərə çarpdıran Prezident Süleyman Dəmirəl Cümhuriyyətin 75 illik yubileyi münasibətilə Prezident Heydər Əliyevə xatirə medalı təqdim etmişdir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi, Xəzər neftinin dünya bazarına ixrac olunması, Bakı-Ceyhan marşrutunun həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

***

Azərbaycan Prezidenti Heydər Əliyev yubiley tədbirləri zamanı oktyabrın 28-də Ankarada öz iqamətgahında ABŞ Prezident Bill Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi, səfir Riçard Morninqstarı qəbul etmişdir.

***

Oktyabrın 28-də Türkiyə Prezidenti Süleyman Dəmirəlin adından Çankaya köşkündə Türkiyə Cümhuriyyətinin yubileyində iştirak etmək üçün xarici ölkələrdən gəlmiş ali qonaqların - Dövlət və

Hökumət Başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.

Ziyafət zamanı Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov, Qırğızıstan Prezidenti Əsgər Akayev, Moldova Prezidenti Petru Luçinski, eləcə də tanınmış sənət və iş adamları, xarici ölkələrin Türkiyədəki səfirləri, ölkəmizin rəhbəri Heydər Əliyevə yaxınlaşaraq onu yenidən Azərbaycanın Prezidenti seçilməsi münasibətilə təbrik etmiş, ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi haqqında və qarşılıqlı maraq doğuran digər məsələlər barədə səmimi söhbət aparmışlar.

***

Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 29-da Ankarada Rusiya telekanalının "Vesti" informasiya proqramının Bakı müxbirinə müsahibə vermişdir.

***

Ölkəmizin başçısı oktyabrın 29-da Ankarada Türkmənistan Prezidenti Saparmurad Niyazovla da görüşmüşdür.

***

Oktyabrın 29-da səhər Azərbaycan Prezidenti Heydər Əliyev, yubiley mərasimlərində iştirak edən digər Dövlət və Hökumət Başçıları və nümayəndə heyətlərinin üzvləri Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün xatirəsini yad etmək üçün böyük öndərin uyuduğu "Anıt qəbir" məqbərəsini ziyarət etmişlər.

***

Oktyabrın 29-da Türkiyə Böyük Millət Məclisinin binasında Xəzər regionunun enerci ehtiyatlarının, xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsinin imzalanması mərasimi olmuşdur.

Bu mərasimdə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Böyük Millət Məclisinə gəldi. Dövlətimizin başçısını Türkiyə Parlamentinin sədri Hikmət Çətin və dost ölkənin millət vəkilləri mehribanlıqla və səmimiyyətlə qarşıladılar. Onlar respublikamızın rəhbəri ilə görüşməkdən və cümhuriyyətin 75 illik yubileyində Prezident Heydər Əliyevin iştirak etməsindən şərəf duyduqlarını bildirdilər.

Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış Ankara bəyannaməsini Türkiyə dövləti adından Prezident Süleyman Dəmirəl və Baş Nazir Məsud Yılmaz, Azərbaycan dövləti adından Prezident Heydər Əliyev, Gürcüstan dövləti adından Prezident Eduard Şevardnadze, Qazaxıstan dövləti adından Prezident Nursultan Nazarbayev, Özbəkistan dövləti adından Prezident İslam Kərimov, habelə ABŞ dövləti adından Energetika naziri Bill Riçardson imzaladılar. Ölkəmiz üçün çox mühüm olan bu bəyannamədə göstərilir:

1. Prezidentlər hesab edirlər ki, onların ölkələrindəki karbohidrogen ehtiyatlarının işlənilməsi Xəzər regionu ölkələrinin və qonşu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar həmçinin iqtisadi inkişafın təmin edilməsi, öz xalqlarının həyatının yaxşılaşdırılması üçün iqtisadi və kommersiya cəhətdən əlverişli olan boru kəmərləri vasitəsilə neft və təbii qazın nəql olunmasının zəruriliyini təsdiq etdilər. Prezidentlər daha sonra karbohidrogen ehtiyatlarının sərbəst, sabit şəkildə, ətraf mühitin qorunma-

sının şərtlərinə uyğun olaraq maneəsiz daşınmasını tələb edən Avropa energetika xartiyasının prinsiplərinə sadiq olduqlarını təsdiq etdilər.

2. Prezidentlər karbohidrogen istehsal edən ölkələrin mənafelərini əsas tutaraq qeyd etdilər ki, kommersiya cəhətdən məqbul və ədalətli olan, ayrı-seçkiliyə yol verməyən Şərq-Qərb dəhlizinin, o cümlədən Xəzər boru kəməri şirkətinin, Transxəzər və Transqafqaz boru kəmərləri sistemlərinin yaradılması Xəzər dənizi regionunda və başqa qonşu ölkələrdə hasil edilən karbohidrogenlərin dünya bazarına çıxarılmasını təmin edən son dərəcə mühüm layihədir.

3. Prezidentlər Azərbaycanın əsas ixrac boru kəməri üzrə qərar qəbul etmək ərəfəsində qətiyyətlə bəyan etmişlər ki, onlar Xəzər-Aralıq dənizi (Bakı-Tbilisi-Ueyhan) boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə qəti qərara gəlmişlər.

4. Onlar həm istehsalçı ölkələr, həm də Xəzər dənizinin hər iki tərəfində yerləşmiş tranzit ölkələr üçün boru kəmərinin açıqlığının, habelə bu xəttin lazımi miqdarda məhsul ilə təmin edilməsinin əhəmiyyətini qeyd etmişlər. Prezidentlər bu məqsəd naminə müvafiq hökumətlərlə ətraflı və konstruktiv danışıqlar aparmaq, boru kəmərinin yaradılması üçün əlverişli şərtlər təqdim etmək və zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etmək üçün Xəzər regionunda karbohidrogen ehtiyatlarının işlənilməsində iştirak edən şirkətləri, başqa əlaqədar şirkətləri, habelə beynəlxalq maliyyə təsisatlarını dəvət etmişlər.

5. Prezidentlər dünya bazarlarına enerci ehtiyatlarının nəql olunmasına dair layihələr üzərində işləyən xarici və yerli investorların hüquqlarının müdafiəsi haqqında beynəlxalq qanunlara uyğun olaraq Şərq-Qərb enerci dəhlizinin və bu çərçivədə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması üçün zəruri şəraiti mümkün qədər tez bir zamanda təmin etmək barədə özlərinin müvafiq hakimiyyət orqanlarına göstəriş verəcəklərini öhdələrinə götürdülər. Onlar həmçinin investorlar üçün əlverişli şərait yaradılması məqsədi ilə lazımi tədbirlər görəcəkləri barədə razılığa gəldilər.

6. Prezidentlər Qara dənizin, Aralıq dənizinin sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyətini bir daha vurğuladılar. Prezidentlər həmçinin qeyd etdilər ki, xüsusilə Türkiyə boğazlarında tanker gəmiçiliyinin potensial artımını nəzərə alaraq neftin və təbii qazın dünya bazarlarına nəql edilməsi təhlükə yaratmamalı, ətraf mühitə, insanların həyatına, mülkiyyətinə və təhlükəsiz dənizçiliyə mane olmamalıdır."

Türkiyə Prezidenti Süleyman Dəmirəl və Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə çıxış etmişlər.

Türkiyə Prezidenti Süleyman Dəmirəl öz çıxışında bildirmişdir ki, biz Prezidentlər olaraq, Azərbaycanda əsas neft kəməri ilə bağlı qərarın qəbul ediləcəyi mərhələdə Xəzər neftinin dünya bazarlarına daşınması üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əsas neft kəməri kimi seçilməsi sahəsindəki qətiyyətimizi və iradəmizi bir daha dünyaya bildiririk. Bakı-Tbilisi-Ceyhan layihəsi bölgədə enerci istehsalının uzun vədəli iqtisadi rifahını təmin edən yeganə layihədir. Bu layihə XXI əsrin ən parlaq sülh layihəsi kimi qarşımızda durur.

Sonra dövlətimizin başçısı Heydər Əliyev çıxış etmişdir. O, çıxışında vurğulamışdır ki, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə bayram mərasimləri zamanı Ankarada imzalanan bəyannamə tarixi əhəmiyyət daşıyır. Bu, birinci növbədə bizim ölkələrimizin, xalqlarımızın milli mənafeyinə cavab verir, milli mənafeyindən irəli gəlir. Eyni zamanda dövlətlərimiz, ölkələrimiz arasında iş birliyinin, əməkdaşlığın yeni bir mərhələsini nümayiş etdirir.

Azərbaycan prezidenti qətiyyətlə bildirmişdir ki, mən Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinin böyük gələcəyinə, uğuruna inanıram. Mən inanıram ki, bu neft borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi bizim ölkələrimiz arasında olan dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaqdır. Eyni zamanda, bunlar hamısı ölkələrimizin dövlət müstəqilliyinin nə qədər vacib olduğunu sübut edir. Biz yalnız dövlət müstəqilliyi əldə edəndən sonra öz təbii sərvətlərimizin sahibi olmuşuq, bunlardan sərbəst surətdə istifadə edirik və hasil edilmiş nefti istədiyimiz vaxt dünya bazarlarına çıxarırıq. ...Ümidvaram ki, bizim bu gün gördüyümüz iş XXI əsr, gələcək əsrlər üçün böyük töhfələr verəcəkdir. Xeyirli, uğurlu olsun.

***

Oktyabrın 29-da Ankara bəyannaməsinin imzalanması mərasimindən sonra Türkiyə Prezidenti Süleyman Dəmirəl TBMM sədri Hikmət Çətinin adından ali qonaqların - Türkiyə Cümhuriyyətinin yubileyində iştirak edən dövlət başçılarının və hökumət nümayəndə heyətlərinin şərəfinə nahar vermişdir.

Nahar zamanı Gürcüstan Prezidenti Edurad Şevardnadze, digər ölkələrin nümayəndə heyətlərinin üzvləri, Makedoniyanın, Küveytin, Rusiya Federasiyasının, Çexiyanın Ankaradakı səfirləri, Türkiyənin millət vəkilləri, tanınmış sənət və iş adamları dövlətimizin başçısı Heydər Əliyevə yaxınlaşaraq, onu yenidən Azərbaycanın Prezidenti seçilməsi münasibətilə təbrik etmiş, böyük uğurlar arzulamışlar. Onlar Ankara bəyannaməsinin məhz Prezident Heydər Əliyevin təşəbbüsü ilə imzalandığını xüsusi vurğulayaraq, Xəzər neftini dünya bazarlarına çıxaracaq, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edəcək Bakı-Tbilisi-Ceyhan marşrutunun həyata keçirilməsində bu bəyannamənin əhəmiyyətini yüksək qiymətləndirmişlər. Xarici ölkələrin diplomatları respublikamızın rəhbərinə ən xoş arzularını çatdırmış, ölkələrimiz arasındakı dostluq əlaqələrinin daha da inkişaf etdirilməsinə çalışacaqlarını bildirmişlər.

***

Bundan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin yaradılmasının 75-ci ildönümü münasibətilə oktyabrın 29-da Ankaradakı Atatürk kültür mərkəzinin "Hipodrom"unda - böyük meydanında keçirilən təntənəli bayram şənliyində iştirak etdi.

***

Oktyabrın 29-da Azərbaycan Prezidenti Heydər Əliyev Ankarada öz iqamətgahında - "Hilton" mehmanxanasında ABŞ-ın Energetika Naziri Bill Riçardsonla görüşdü.

***

Oktyabrın 29-da Çankaya köşkündə Türkiyə Cümhuriyyətinin yubileyində iştirak etmək üçün xarici ölkələrdən gəlmiş ali qonaqların - Dövlət və Hökumət

Başçılarının şərəfinə Türkiyə Prezidenti Süleyman Dəmirəlin adından rəsmi qəbul olmuş, Azərbaycan Prezidenti Heydər Əliyev qəbulda iştirak etmişdir.

Oktyabrın 30-da Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəlin iqamətgahından - Çankaya köşkündən xüsusi vertolyotla Ankaranın "Esenboğa" hava limanına gəlmişdir.

Hava limanının şərəf salonunda TBMM-in sədri Hikmət Çətin Cümhuriyyətin 75-ci ildönümü münasibətilə Türkiyə paytaxtında keçirilən bayram şənliklərində Prezident Heydər Əliyevin iştirakını əks etdirən fotoalbomu dövlətimizin başçısına təqdim etmişdir.

Burada Pakistan Prezidenti Məhəmməd Rəfiq Tərar, Hindistanın Vitse-Prezidenti Krişan Xan, Ukraynanın Baş Naziri Valeri Pustovoytenko, İraqın Neft Sənayesi Naziri Əli Rəşid, Türkiyənin Enerci və Təbii Ehtiyatlar Naziri Cümhur Ərsümər Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşüb söhbət etmişlər.

Söhbət zamanı ölkələrimiz arasındakı ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi, Xəzər neftinin dünya bazarlarına ixrac olunması və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Onlar müstəqil Azərbaycanda gedən demokratik prosesləri diqqətlə izlədiklərini və beynəlxalq aləmdə respublikamızın imicinin artdığını xüsusi vurğulayaraq, Prezident Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə yaradılmış ictimai-siyasi sabitliyi yüksək qiymətləndirmiş, yenidən Azərbaycanın Prezidenti seçilməsi münasibətilə ölkəmizin rəhbərini təbrik etmiş, xoş arzu və diləklərini bildirmişlər.

Dövlətimizin başçısı Heydər Əliyev Pakistan Prezidenti Məhəmməd Rəfiq Tərarı Azərbaycana rəsmi səfərə dəvət etmişdir. O, dəvəti məmnuniyyət hissi ilə qəbul edərək imkan tapıb Azərbaycanı ziyarət edəcəyini bildirmişdir.

***

Elə həmin gün Prezident Heydər Əliyev Azərbaycana məxsus təyyarə ilə dost və qardaş ölkənin ən böyük şəhəri olan İstanbula gəlmişdir.

***

Oktyabrın 30-da axşam Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin Baş Naziri Məsud Yılmazla birlikdə Mərmərə dənizi sahilində yerləşən Quruçeşmə limanına gəldi.

Ali qonaqlar Mustafa Kamal Atatürkün adını daşıyan "Savarona" gəmisində gəzintiyə çıxmışlar.

Azərbaycan Prezidenti Heydər Əliyev gəmidə düzəldilmiş Atatürk muzeyini ziyarət etmiş, burada saxlanılan xatirə əşyaları və sənədlərlə tanış olmuşdur.

Prezident Heydər Əliyev muzeyin fəxri qonaqlar kitabına aşağıdakı ürək sözlərini yazmışdır:

"Türkiyə Cümhuriyyətinin banisi, qurucusu, ulu öndər Mustafa Kamal Atatürkün gəmisini Cümhuriyyətin 75-ci ildönümü günü ziyarət etmək mənə nəsib olduğundan böyük qürur duyuram. O böyük şəxsiyyətin parlaq xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. "

Bolqarıstan Xalq Məclisinin sədri Yordan Sokolov və digər xarici ölkələrin burada olan yüksək vəzifəli şəxsləri və Türkiyənin iş adamları gəmidə dövlətimizin başçısına yaxınlaşaraq, onu yenidən Prezident seçilməsi münasibətilə təbrik etmiş, ən xoş arzularını bildirmiş və səmimi söhbət etmişlər.

Sonra "Savarona" gəmisində Türkiyənin Baş Naziri Məsud Yılmazın adından Dövlət və Hökumət Başçılarının şərəfinə rəsmi ziyafət verildi. Türkiyənin incəsənət ustalarının iştirakı ilə bayram konserti olmuşdur.

***

Gəzinti başa çatdıqdan sonra ölkəmizin rəhbəri Heydər Əliyev TRT-1 televiziya kanalının İstanbul bölməsi vasitəsilə Türkiyə xalqına, dost və qardaş ölkəyə Cümhuriyyətin 75-ci ildönümü münasibətilə sülh, əmin-amanlıq, səadət, gələcək illərdə işlərində uğurlar və müvəffəqiyyətlər arzulamış, ən xoş arzu və diləklərini çatdırmışdır.

***

Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 30-da İstanbulun "Hilton" mehmanxanasının ali qonaqlar salonunda Türkiyənin "Mərmərə" qrupunun strateci və sosial araşdırmalar vakfının "Bakı-Ceyhan boru xətti" mövzusunda keçirdiyi mərasimdə və vakfın aylıq hesabat toplantısında iştirak etmişdir.

1985-ci ildə yaradılmış, hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. Bu dəfə "Mərmərə" qrupunun hörmətli qonağı dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev olmuşdur.

Görüşdə çıxış edən Azərbaycan Prezidenti xüsusi olaraq vurğulamışdır ki, dünyada türkdilli millətlər çoxdur. **Biz bir soydanıq. Özbəkistan da, Qazaxıstan da, Türkmənistan da, Qırğızıstan da, Azərbaycan da, Türkiyə də və digərləri də eyni soydanıq. Hamımızın bir kökü, bir soyu vardır, bir dilimiz vardır. Ancaq Azərbaycan ilə Türkiyədə olan dilin bir-birinə yaxınlığı qədər heç bir dilin yaxınlığı yoxdur.**

Ölkəmizin başçısı öz nitqində ölkələrimiz arasında baş verən əlaqələrə, gedən proseslərə ətraflı bir şərh vermiş, hələ də aydın olmayan bəzi məsələləri açıqlamış, strateci əməkdaşlığımızın əsas istiqamətlərinə müəyyənlik gətirmişdir. Öz nitqində o demişdir: "Bugünkü görüş Türkiyə-Azərbaycan dostluğunun yeni bir təzahürüdür. Bilirsiniz, dostluq hissələrdən ibarətdir. İnsanların, ailələrin, qrupların bir-bir ilə dostluğu, əlaqələri xalqların, ölkələrin, dövlətlərin dostluğunu yaradır. Biz bax, beləliklə, belə görüşlərlə dostluğumuzu daha da inkişaf etdiririk, daha da möhkəmləndiririk.

Sizi əmin etmək istəyirəm ki, **Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti Türkiyə ilə dostluğuna, qardaşlığına, əməkdaşlığına xüsusi əhəmiyyət verir. Bu, Azərbaycanın Prezidenti kimi mənim xarici siyasətimin əsas istiqamətlərindən biridir və bundan sonra da belə olacaqdır.** Bu, xalqın ürəyindən gələn hissiyyatlardır. Amma xalqın ürəyindən gələn hissiyyatları dövlət siyasətinə keçirməyin özü də çox əhəmiyyətlidir. Çünki Azərbaycana bir müstəqil dövlət kimi müxtəlif yerlərdən, cürbəcür istiqamətlərdən maraq çoxdur. Soruşurlar ki, Azərbaycan hansı ölkə ilə daha yaxındır, Azərbaycan ən çox hansı ölkəyə önəm, diqqət verir, Azərbaycan hansı ölkə ilə daha yaxın əlaqə qurur. Bunları sual verənlər çoxdur. **Amma dünya da bilir, qoy hamı da bilsin - Türkiyə Azərbaycan üçün ən yaxın ölkədir, türk xalqı ilə Azərbaycan xalqı arasında dostluq,**

qardaşlıq əlaqələri böyük, zəngin tarixə malikdir. Bu gün bir daha bəyan edirəm ki, bu dostluğumuz əbədidir, sarsılmazdır."

Dövlət başçımız Türkiyə-Ermənistan əlaqələrinin yaradılması mövzusuna toxunaraq qeyd etmişdir ki, bəzi iş adamları ticarət naminə sərhədlərin açılması, Qarsdan qapının açılması, İqdırdan qapının açılması və s. məsələləri qoymuşdular. Ancaq bilirsiniz, bizim Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı hər bir ticarətdən alınan gəlirdən qat-qat üstündür. Bizim bu dostluğumuzu, qardaşlığımızı ticarətə qurban vermək olmaz. Bizim xalqımız etiraz etmişdi, qəzetlər yazmışdı ki, bəzi iş adamları Ermənistana getmişdilər, orada iş birliyi yaratmaq istəmişdilər. Sonra mənim dostum Süleyman Dəmirəl bir çox ağıllı, gözəl sözlər dedi. Dedi ki, bu, bizdən asılı deyildir. Bu, Türkiyə xalqından, kamuoyundan asılıdır. Kimsə bunu istəsə, Türkiyə xalqı, Türkiyə kamuoyu buna yol verməz. Biz buna görə minnətdarıq. İnanıram ki, biz bu və bütün başqa məsələlərdə sona qədər bir olacağıq. İnanıram ki, biz birlikdə mücadilə edib, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik. Bütün Qafqazda, bütün bölgədə tam sülhün yaranması bizim üçün də, Türkiyə üçün də, Ermənistan üçün də lazımdır. Ermənistan özü anlamır ki, indi artıq Ermənistan tamam təcrid olunmuş vəziyyətdə qalıbdır.

Prezidentimiz Bakı-Ceyhan boru xətti məsələsinə də toxunaraq göstərmişdir: "Mən Bakı-Ceyhanı 1994-cü ildə bəyan etdim. Yəni bildirdim ki, Azərbaycandan dünya bazarına çıxan neft Bakı-Ceyhan xətti ilə getməlidir. Dörd ildir ki, biz bu Bakı-Ceyhan marşrutunu reallaşdırmaq üçün çalışmışıq.

Türkiyədə də çoxu rahatsızdırlar. Hər dəfə Türkiyənin qəzetçiləri məndən soruşanda - ya buraya gələndə, yaxud da başqa yerdə - birinci sual belə olubdur ki, Bakı-Ceyhan necə olacaqdır? Hər dəfə demişəm ki, Bakı-Ceyhan olacaqdır. Nə vaxt olacaqdır? Demişəm ki, tələsməyin, gözləyin, olacaqdır. Mən bunu bir-iki il bundan öncə İstanbulda demişəm, Bakıda Türkiyənin bütün mətbuat nümayəndələrinin hamısına demişəm. İndi bu gün sizə də deyirəm. Bakı-Ceyhan artıq var.

Dünən bizim imzaladığımız bəyannaməni bir neçə vaxtdır hazırlayırdıq. Şübhəsiz ki, bu bəyannamə birinci növbədə Azərbaycan ilə Türkiyə arasında idi. Amma Gürcüstan olmasa biz Türkiyəyə keçə bilmərik. Demək, Gürcüstan da olmalıdır. Ancaq biz son vaxtlar işlərimizi genişləndiririk və bu işə Qazaxıstan da, Özbəkistan da cəlb olundu. Hətta biz Türkmənistanı da cəlb etməyə çalışdıq, amma o, dünən imza atmadı. Güman edirəm, gələcəkdə atacaqdır.

Beləliklə, əgər dörd il bundan öncə Bakı-Ceyhan haqqında ancaq Azərbaycan və Türkiyə düşünürdüsə, indi, dörd il keçəndən sonra Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan və ABŞ-ın Energetika naziri bu bəyannaməni imzaladı, bunu, Bakı-Ceyhanı dəstəklədi. Bu, artıq real bir şeydir.

...Biz Bakı-Ceyhan boru xətti haqqında bəyannaməni dünən imzaladıq. Mən bunu böyük tarixi hadisə hesab edirəm və bu münasibətlə sizi də təbrik edirəm. Sizin bu işə yüksək diqqət verməyinizi, maraq göstərməyinizi mən qiymətləndirirəm və **əmin ola bilərsiniz ki, Azərbaycanın siyasəti, Azərbaycan Prezidenti Heydər Əliyevin siyasəti**

sabitdir və axıra qədər də sabit olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında olan əməkdaşlıq, iş birliyi genişdir. Mənim dostum artıq bu barədə dedi ki, Azərbaycanda Türkiyənin 10 mindən çox insanı çalışır. Şirkətlər çoxdur. Amma hələ imkanlar da bundan çoxdur.

Mən Prezident seçiləndən sonra oktyabr ayının 18-də andiçmə mərasimində demişəm və bunu burada bir daha bəyan edirəm: biz Azərbaycana xarici sərmayənin, yatırımın gəlməsi üçün daha da əlverişli şərtlər yaradacağıq. Mən bilirəm ki, Azərbaycanda bəzi iş adamlarının iş görməsi üçün ayrı-ayrı məmurlar maneçilik edirlər. Ayrı-ayrı yerlərdə bəlkə qanunlar da o qədər ona imkan vermir. Bilin ki, bunlar bizə çatır. Amma siz də anlayın ki, mən müstəqilliyin yeddi ilinin beş ilində bütün bu mərhələləri keçib gəlməyə məcbur oldum. Bunların hamısını birdən etmək mümkün deyildir. Ancaq biz bunları edirik və edəcəyik. Yəni xarici sərmayənin, o cümlədən Türkiyədən yatırımların, iş adamlarının gəlib Azərbaycanda iş görməsi üçün biz bundan sonra daha da uyğun, əlverişli şərait yaradacağıq.

Mən hesab edirəm ki, bugünkü görüşümüz Türkiyə-Azərbaycan dostluğunun, əməkdaşlığının inkişaf etməsi üçün yeni bir addımdır. Ona görə bu görüşə, mənə göstərdiyiniz bu qayğıya, diqqətə, hörmət və ehtirama görə sizə təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, mən bundan sonra da bu dostluğa, bu qardaşlığa sadiq olacağam."

Görüşün sonunda Türkiyə İslam Kültür Araşdırmalar Mərkəzinin və İslam Konfransı Təşkilatının mədəniyyət işləri üzrə Baş direktoru, professor Əkməleddin İslamoğlu təmsil etdiyi təşkilatın xətti ilə dekabr ayında Bakıda keçiriləcək beynəlxalq konfransın plakatını və xatirə hədiyyəsini, professor Məmməd Saray özünün yazdığı, Atatürkün Azərbaycan haqqında düşüncələrindən və gördüyü işlərdən bəhs edən "İlk tarix Azərbaycandır" kitabını və dövlət bayrağını, Türkiyənin tanınmış "Kantekst" şirkətinin Prezidenti Səlahəddin Şahin isə üzərində şir şəkli olan rəmzi xatirə hədiyyəsini dövlətimizin başçısına təqdim etmişlər.

***

Oktyabrın 31-də Azərbaycan Prezidenti Heydər Əliyev İstanbulun "Hilton" otelində onun üçün ayrılmış iqamətgahda Türkiyənin Baş Naziri Məsud Yılmazla görüş keçirmişdir.

Oktyabrın 31-də İstanbulda Dövlət və Hökumət Başçıları üçün yaradılmış məşhur "Beyti gülər" restoranının şərəf salonunda Türkiyənin Baş Naziri Məsud Yılmazın adından Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.

Respublikamızın rəhbəri Heydər Əliyev burada dünya xalqlarının milli mədəniyyətini nümayiş etdirən nadir eksponatlardan ibarət muzeyi ziyarət etmişdir. Muzeydə saxlanılan eksponatlar arasında diqqəti daha çox cəlb edən eksponat - üzərində Azərbaycanın dünya şöhrətli memarı Əcəmi Naxçıvaninin portreti olan vaza idi.

Oktyabrın 31-də respublikamızın rəhbəri Heydər Əliyev SNN televiziya kanalının müxbiri Ahu Özyurda müsahibə vermişdir.

Oktyabrın 31-də Azərbaycan Prezidenti Heydər Əliyev İstanbulun Atatürk adına hava limanında səfərin yekunları barədə curnalistlər qarşısında bəyanat vermişdir. Bəyanatda deyilir: "Mənim bu

səfərim çox əhəmiyyətli və çox gözəl olubdur. Birinci, ona görə ki, Türkiyə xalqı ilə, Türkiyənin vətəndaşları ilə, Türkiyənin dövləti, hökuməti ilə bərabər və Türkiyəyə gəlmiş başqa ölkələrin nümayəndə heyətləri ilə bərabər Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü bayram etdik. Mən bütün bayram mərasimlərinin hamısında iştirak etdim. Hamısından böyük məmnunluq duyuram və fəxr edirəm ki, Azərbaycanın Prezidenti, dövlət başçısı kimi, mən bu bayramda Türkiyədə Azərbaycan xalqını təmsil etmək imkanına malik oldum və Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının Türkiyə xalqına, vətəndaşlarına xoş arzularını bildirdim.

Burada çox görüşlərimiz, danışıqlarımız olmuşdur. Mən Türkiyəyə gələn gün axşam Türkiyənin Prezidenti, əziz dostum Süleyman Dəmirəllə görüşdüm və bayram təbrikləri ilə yanaşı, bir neçə məsələləri müzakirə etdik. Sonra da bir çox başqa ölkələrin cümhur başqanları, Prezidentləri, hökumət və parlament başçıları ilə görüşdüm. Bunlar hamısı müstəqil Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki biz Azərbaycanın əlaqələrini genişləndirmək əzmindəyik və bunları çox yararlı hesab edirəm.

Düşünürəm ki, burada olduğum günlərdə hamımızın birlikdə gördüyümüz işlərdən ən önəmlisi Cümhuriyyətin qurulmasının 75-ci ildönümü günündə Ankarada Bakı-Ceyhan boru xətti haqqında Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan Cümhur başqanlarının, Prezidentlərinin və ABŞ-ı təmsil edən Energetika Nazirinin imzaladıqları bəyannamə oldu. Bu, bizim, Azərbaycanın Xəzər dənizində olan sektorunda hasil olacaq neftin dünya bazarlarına çıxarılması üçün əvvəldən əsasını qoyduğumuz, ancaq bunun reallaşdırılması üçün dörd il müddətində çalışdığımız Bakı-Ceyhan boru xəttinin artıq siyasi nöqteyi-nəzərdən dövlətlərin, dövlət başçılarının iradəsini ifadə edərək bəyannamə qəbul edilməsidir. Bu, böyük bir tarixi hadisədir. Güman edirəm ki, biz bununla bu layihəni tam reallaşdırdıq.

Doğrudur, indi mətbuatda çox danışıqlar gedir. Bu məlumdur, mən bəyannaməni imzalayan zaman da demişdim ki, neft hasilatı ilə məşğul olan şirkətlərin yaratdığı konsorsium indi Bakı-Ceyhan xəttinin çəkilişinə başlanmasına o qədər də razı deyildir. Çünki bunu iqtisadi nöqteyi-nəzərdən səmərəsiz hesab edir, yəni lazımi səviyyədə səmərəli hesab etmir. Ancaq bunlara baxmayaraq mən hesab edirəm ki, biz tarixi bir iş görmüşük. Bunun iqtisadi cəhətini də konsorsium ilə araşdırırıq və bundan sonra da araşdıracağıq.

Türkiyənin və Azərbaycanın neft sahəsində olan təşkilatları - Azərbaycan Dövlət Neft Şirkəti və Türkiyənin enerci şirkəti indi danışıqlar aparırlar. Bu danışıqlar nəticəsində bəzi məsələlər də müzakirə ediləcəkdir, həll olunacaqdır. Beləliklə, biz böyük bir tarixi işin əsasını qoymuşuq.

Bütün bunların sonu olaraq mən dünən də və bu gün də İstanbuldayam. Burada, İstanbulda olmağımdan da çox məmnunam. Dünən biz gözəl bir tədbirdə olduq. Vaxtilə böyük Atatürkün yaratdığı və ona məxsus olan gəmidə səyahət etdik. Çox gözəl bir bayram konserti verildi. O, Türkiyə Cümhuriyyətinin bugünkü həyatını, reallığını, bugünkü varlığını dünyaya bir daha nümayiş etdirdi. Mən də bu mərasimdə iştirak edirdim və bundan çox məmnunam.

Dünən də, bu gün də apardığımız danışıqların son mərhələsi olaraq Türkiyənin Baş Naziri, hörmətli dostum, cənab Məsud Yılmazla çox əhəmiyyətli danışıqlar aparmışıq. Həm Türkiyə-Azərbaycan əlaqələrinin bu günü və gələcəyi haqqında, həm Bakı-Ceyhan boru xəttinin praktiki olaraq həyata keçirilməsinin yolları haqqında, həm də Azərbaycanın ən ağır problemi olan Ermənistanın təcavüzünün qarşısını almaq, Dağlıq Qarabağ məsələsini həll etmək, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının azad edilməsi və bir milyondan artıq Azərbaycan vətəndaşının öz yerinə-yurduna qayıtması, Azərbaycanın ərazi bütövlüyünün, torpaq bütövlüyünün bərpa olunması - bütün bu məsələləri biz birinci gün həm Uümhur başqanı Süleyman Dəmirəllə, həm də bu gün və dünən Baş Nazir Məsud Yılmazla ətraflı müzakirə etdik. Mən bunları Azərbaycan üçün çox əhəmiyyətli, çox səmərəli hesab edirəm. Ona görə də hesab edirəm ki, mənim bu ziyarətim həm bayram şənlikləri ilə bağlı olubdur, həm də çox gərgin iş olubdur. Yəni iş də görmüşük, bayram da etmişik və şənliklərdə də iştirak etmişik. Bunlar hamısı şəxsən məni sevindirir. Mən bu gün çox böyük sevinc, məmnuniyyət hissi ilə Türkiyəni tərk edirəm və Bakıya, Azərbaycana gedirəm.

Türkiyə Cümhuriyyətinə bundan sonrakı illərdə daha da böyük uğurlar arzulayıram. Türkiyənin vətəndaşlarına, türk xalqına gələcəkdə də Mustafa Kamal Atatürkün yoluna sadiq olmağı arzulayıram. İnanıram ki, Türkiyə bu qədər böyük inkişafın gələcəyini də təmin edəcəkdir və biz gələcəkdə Türkiyənin yeni-yeni böyük qələbələrinin, nailiyyətlərinin şahidi olacağıq.

Biz Türkiyə - Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət veririk. Ona görə də Türkiyədə olan hər bir yeni nailiyyəti biz böyük iftixar hissi ilə qəbul edirik və Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etməsi üçün əlimizdən gələni edirik."

***

Prezident Heydər Əliyev Binə hava limanında onu qarşılayan curnalistlərə səfərin nəticələri barədə müsahibə verərək bildirmişdir ki, mənim bu ziyarətim çox əhəmiyyətli bir səfər idi. Çünki **Türkiyə Cümhuriyyətinin 75 illik yubileyini qeyd etmək Türkiyə üçün əziz olduğu kimi, Azərbaycan Respublikası, xalqı üçün də əzizdir.** Buna görə də mən, birincisi, həmin yubiley mərasimlərində iştirak etməkdən çox məmnunam. Türkiyədə Azərbaycana əvvəllər olduğu kimi, indi də daim çox böyük diqqət, qayğı, hörmət göstərilir. Mən bunların hamısını həm hökumət, dövlət, həm də xalq tərəfindən bir daha hiss etdim. Türkiyə xalqının, vətəndaşlarının Azərbaycana böyük diqqəti, marağı və böyük məhəbbəti vardır. Mən bunu əvvəllər də hiss etmişdim. Bu səfər zamanı çox böyük kütləvi mərasimlər keçirildi, orada çoxlu insan iştirak edirdi. Mən bunları gördüm, hiss etdim.

Ümumiyyətlə, bu bayramlar çox gözəl keçdi, Türkiyə Cümhuriyyətinin 75 illik həyat yolunu yaxşı göstərdi. Dünyanın 75-dən çox ölkəsindən oraya nümayəndələr, bir çox ölkələrdən dövlət, hökumət başçıları gəlmişdilər. Bunlar hamısı Türkiyənin 75 ildə böyük inkişafını dünyaya bir daha nümayiş etdirdi.

Biz Türkiyə ilə dost, qardaş ölkə olaraq bu bayramların belə keçməsinə çox sevinirik. Şəxsən mən çox məmnunam ki, bu tədbirlərin hamısında iştirak etdim.

Bilirsiniz ki, bütün bunlarla yanaşı, orada Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan Prezidentləri Bakı-Ceyhan boru xətti haqqında birgə bəyannamə imzaladılar. Bu bəyannaməni Amerika Birləşmiş Ştatlarının Enerci Naziri cənab Riçardson da imzaladı. Bu da çox tarixi bir hadisədir. Çünki biz 1994-cü ilin sentyabr ayında birinci müqaviləni imzalayandan sonra, həmin müqaviləni imzalayarkən də, hasil ediləcək neftin ən əsas ixrac borusu olaraq Bakı-Ceyhan marşrutunu nəzərdə tutmuşduq. Ancaq bu müddətdə onun əleyhinə çıxanlar, mane olanlar və səmərəsiz olduğunu daim bildirənlər var idi. Çox vaxt belə bir fikir yaradılırdı ki, Bakı-Ceyhan xətti real bir şey deyil. Ona görə də birgə bəyannamənin imzalanması bütün bunların hamısına son qoydu və bəyan etdi ki, Bakı-Ceyhan boru xətti yaranacaqdır.

***

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 1999-cu ilin 17-31 yanvar tarixlərində Ankara Gülhanə Hərbi Tibb Akademiyasında müalicə olunmuşdur.

***

Ölkələrimiz arasındakı əlaqələr durmadan inkişafdadır. Azərbaycan-Türkiyə münasibətlərinin bariz nümunəsi kimi, Türkiyədə qurulmuş 57-ci hökuməti təşkil edən siyasi partiya rəhbərlərinin 1999-cu ilin 28 mayında imzaladıqları koalisiya hökuməti protokolunda əks olunmuş Ermənistanla əlaqələr bölməsini qeyd etmək olar. Protokolun bu bölməsində deyilir:

"Ermənistanla aramızda əlaqələrin yaradıla bilməsi üçün əsas şərt bu ölkənin Azərbaycan torpaqlarındakı işğalçı fəaliyyətinə son qoyması, Türkiyəyə qarşı beynəlxalq aləmdə apardığı düşmənçilik kampaniyasından imtina etməsidir."

Baş Nazir B.Ecevit tərəfindən 4 iyun 1999-cu il tarixdə Türkiyə Böyük Millət Məclisinə təsdiq üçün təqdim olunan 57-ci hökumətin proqramında Ermənistanla əlaqələr paraqrafında isə qeyd olunmuşdur:

"Ermənistanın işğal etdiyi torpaqlardan çəkilərək Azərbaycan ilə sülh yaratması üçün göstərilən səylər və cəhdlər bizim tərəfimizdən dəstəklənməkdədir. Sülh Qafqaz bölgəsi ölkələri arasında hər cür əməkdaşlığa yol açan bir hərəkat olacaqdır."

***

1999-cu il iyul ayının 2-dən 4-nə qədər Türkiyə Respublikasının Pamukkale-Dənizli şəhərində Prezident S.Dəmirəlin himayəsi ilə VII "Türk dövlət və topluluqlarının dostluq, qardaşlıq və əməkdaşlıq" qurultayı keçirilmişdir. Qurultayda milli siyasət məsələləri üzrə dövlət müşaviri H.Orucovun başçılıq etdiyi 25 nəfərdən ibarət nümayəndə heyəti iştirak etmiş, qəbul olunmuş yekun sənədində Dağlıq Qarabağ probleminin həllində bütün türk dünyasının Azərbaycanın haqlı mübarizəsini dəstəklədiyi ifadə edilmişdir.

***

Azərbaycan-Türkiyə münasibətlərinin ən bariz nümunəsi, türk dünyası qarşısında gördükləri xidmətlərə görə, 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevin qardaş Türkiyə xalqı və dövləti tərəfindən Türkiyənin ən ali mükafatı olan "Atatürk" sülh mükafatına, Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəlin isə Azərbaycan dövləti və xalqı tərəfindən ölkəmizin ən ali mükafatı olan "İstiqlal" ordeninə layiq görülmələri olmuşdur.

***

1999-cu ilin avqust ayının 17-də, gecə saat 3 radələrində qardaş Türkiyə Respublikasının ərazilərində baş vermiş dəhşətli zəlzələ xəbəri Azərbaycan xalqını dərindən sarsıtmışdır.

Ertəsi gün, dərhal, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Azərbaycan dövləti və xalqı adından qardaş Türkiyə xalqına başsağlığı verərək, Azərbaycan xalqının hər cür yardım göstərməyə hazır olduğunu bəyan etmişdir. Həmin ayın 18-də Türkiyə xalqına yardım olaraq 1.000 ton avtomobil benzini, 1.000 ton dizel yanacağı, xeyli miqdarda dərman və tibbi ləvazimatlar yola salınmış, AR Baş Nazirinin müavini A.Şərifovun başçılığı ilə həkimlər, yanğınsöndürənlər, xilasetmə dəstələrindən ibarət bir qrup təcili yardım məqsədi ilə Türkiyəyə ezam edilmiş, Azərbaycan xalqı tərəfindən zəlzələdən zərər çəkmiş qardaş Türkiyə vətəndaşları üçün müxtəlif yardım kampaniyalarına başlanılmışdır. Xilasetmə və digər yardım işlərində azərbaycanlı mütəxəssislər böyük səriştə, peşəkarlıq və şücaət göstərmişlər.

***

"Əsrin müqaviləsi"-nin imzalanmasının 5-ci ildönümü münasibəti ilə 20 sentyabr 1999-cu il tarixdə Bakıda təşkil edilmiş mərasimlərdə iştirak edən Türkiyə Respublikasının Dövlət Naziri A.Çay Prezident S.Dəmirəlin Prezident Heydər Əliyevə ünvanladığı təbrik məktubunu oxumuş, bağlanmış müqavilələrin bütün iştirakçı dövlətlər üçün kəsb etdiyi əhəmiyyəti, keçən 5 il ərzində görülən mühüm işlər və Bakı-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsi istiqamətində Azərbaycan ilə Türkiyə rəhbərliyinin səyləri barədə məruzə etmişdir.

***

1999-cu ilin 30 sentyabrında Türkiyə Respublikasının Dövlət Naziri Ş.Düşenmez, yeni inşa edilmiş Bakı hava limanının açılışında iştirak etmişdir.

***

1999-cu ilin sentyabr ayında Türkiyənin "Mərmərə Qrupu" adlanan strateci və sosial araşdırmalar fondu Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevi türk dünyasının problemlərinin həlli yolunda göstərdiyi səylərinə görə "İlin ən dözümlü şəxsi" seçmişdir.

***

1999-cu il oktyabr ayının 18-də Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəlin başçılıq etdiyi və Baş Qərargah Rəisi H.Kıvrıkoğlunun iştirak etdiyi nümayəndə heyəti işgüzar səfərlə Bakıda olmuş və Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev ilə görüşmüşdür. Keçirilən görüşlər zamanı dövlətlər arasında hərbi əməkdaşlıq məsələləri, Bakı-Ceyhan neft-boru kəməri və Dağlıq Qarabağ problemlərinin həlli ətrafında fikir mübadiləri aparılmışdır.

***

1999-cu il 31 oktyabr- 2 noyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə səfərə gəlmişdir. O, İstanbul şəhərində zəlzələdən zərər çəkmiş bölgə sakinlərinə Azərbaycandan gətirilmiş humanitar yardımı təqdim etmişdir.

Türkiyədəki zəlzələdən zərər çəkmiş bölgələri ziyarət edən Azərbaycan dövlətinin başçısı 100.000 ABŞ dolları həcmində yardımı Türkiyə hökumətinə vermişdir.

Səfər əsnasında Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə

"Atatürk adına beynəlxalq sülh mükafatı" təqdim olunmuşdur. Çankayada keçirilmiş təntənəli mərasimdə Türkiyə hökumətinin üzvləri, Ankara ictimaiyyətinin, diplomatik korpusun və KİV nümayəndələri iştirak etmişlər.

***

1999-cu il noyabrın 17-də İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) V Zirvə görüşü keçirilmiş, orada Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etmiş və nitq söyləmişdir.

Xatırladaq ki, QİƏT 1992-ci ilin iyununda yaradılmışdır. O zaman 11 ölkənin - Azərbaycan, Albaniya, Bolqarıstan, Ermənistan, Yunanıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə və Ukraynanın Dövlət və Hökumət Başçıları QİƏT-nin yaradılması haqqında İstanbulda bəyannamə imzalamışdılar. Həmin sənəd üzv ölkələr arasında hərtərəfli əməkdaşlığı təşviq etməyi nəzərdə tuturdu.

Ötən müddət ərzində QİƏT-in nüfuzu xeyli artmışdır, bir çox dövlətlər onun işində müşahidəçi kimi iştirak edirlər. 1998-ci ilin iyununda Yaltada keçirilmiş IV Zirvə görüşündə QİƏT-in nizamnaməsi imzalanmışdır. Nizamnamədə deyilir ki, QİƏT dostluq və mehriban qonşuluq ruhunda fəaliyyət göstərəcək, beynəlxalq hüququn prinsiplərini və normalarını əsas tutmaqla ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da inkişafına və çoxşaxəli xarakter almasına kömək edəcək, iqtisadi əməkdaşlığı elə inkişaf etdirəcəkdir ki, bu, iştirakçı dövlətlərin beynəlxalq öhdəliklərinə zidd olmasın.

Nizamnaməyə əsasən QİƏT ona üzv olmaq istəyən hər bir dövlət üçün açıqdır. QİƏT-in daimi fəaliyyət göstərən və qərarlar qəbul edən orqanı şuradır.

QİƏT üzvü olan ölkələrin Dövlət və Hökumət Başçıları İstanbul bəyannaməsində təşkilatın 1998-ci ildə qəbul olunmuş Yalta bəyannaməsinin müddəalarına sadiq qaldıqlarını təsdiqləmiş və çoxtərəfli iqtisadi əməkdaşlıq vasitəsilə QİƏT regionunda sülh və təhlükəsizlik işinə töhfə vermək əzmində olduqlarını bir daha bəyan etmişlər. Sənəddə deyilir ki, QİƏT ilə ATƏT arasında əməkdaşlığın genişləndirilməsi bütün ATƏT regionunda sabit sülhə və tərəqqiyə xidmət göstərəcəkdir.

Bəyannamədə bildirilir ki, QİƏT cənub-şərqi Avropa üçün sabitliyə dair paktın həyata keçirilməsində iştirak etməyə dəvət olunmasını, BMT baş məclisində müşahidəçi statusu almasını alqışlayır və bunlar təşkilatın beynəlxalq səviyyədə bərabərhüquqlu tərəfdaş kimi çıxış etməsinə imkan yaradacaqdır. Sənəddə göstərilir ki, QİƏT Avropa birliyi ilə başlanmış dialoqun davam etdirilməsinə tərəfdardır, QİƏT regionuna dair hərtərəfli strategiyanın işlənib hazırlanmasına, konkret regional layihələrin tərtibinə və həyata keçirilməsinə kömək göstərmək xahişi ilə Avropa Birliyinə müraciət edir.

Sənəddə daha sonra deyilir ki, yeni mərhələdə konkret birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi QİƏT-in fəaliyyətinin əsasını təşkil etməlidir.

QİƏT-lə yanaşı eyni zamanda ATƏT-in də Zirvə toplantısı İstanbulda keçirilirdi.

Bilindiyi kimi, əsası 1975-ci ilin yayında Helsinkidə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi kimi qoyulmuş ATƏT, ötən təxminən iyirmi beş il ərzində qitəmizin ən mötəbər beynəlxalq təşkilatına çevrilmişdir. O, hazırda bütün bəşəriyyət üçün ən önəmli məsələlər olan Avropada təhlükəsizlik və

əməkdaşlıq problemlərini həll etmək kimi şərəfli bir missiyanı öz üzərinə götürmüşdür və bu yolda az iş görməmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dediyi kimi, ATƏT "yarandıqdan indiyə qədər həqiqətən dünyada həm sülhün, həm təhlükəsizliyin, həm də insan haqlarının qorunması, demokratiyanın inkişafı üçün çox böyük səylər qoyur və bu prinsiplərin həyata keçirilməsi üçün həddən artıq fəaliyyət göstərir".

Yaradıldığı vaxt Avropanın 33 dövlətinin, habelə ABŞ və Kanadanın iştirak etdikləri ATƏT-in nüfuzu getdikcə güclənərək hazırda onun üzvlərinin sayı 54-ə çatmışdır. 90-cı illərin əvvəlində SSRİ-nin dağılması nəticəsində yaranmış yeni müstəqil dövlətlərin bir çoxu, o cümlədən Azərbaycan Respublikası da (1992) ATƏT-ə daxil olmuşdur. Azərbaycan müstəqil dövlət kimi 1994-cü ildən bu mötəbər təşkilatda fəal iştirak edir. Respublikamızın Prezidenti Heydər Əliyevin başçılığı ilə ölkəmizin nümayəndə heyətləri 1994-cü və 1996-cı illərin dekabrında ATƏT-in Budapeşt və Lissabon Zirvə görüşlərində dövlətimizi təmsil etmişdir. Azərbaycan Prezidentinin, ölkəmizin təmsilçilərinin ATƏT-ə daxil olan digər ölkələrin Dövlət və Hökumət Başçıları, nümayəndə heyətləri ilə birlikdə, bərabər hüquqda bu toplantılarda iştirak etməsi xalqımız üçün böyük iftixar mənbəyidir.

Bu qurumun növbəti toplantısı İstanbulda çağırılmışdı.

Azərbaycan Prezidenti Dağlıq Qarabağ probleminə dair geniş şərhlə çıxış etmiş, ATƏT-in Qafqaz və Orta Asiyadakı gələcək fəaliyyətinə və Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Paktının yaradılmasına dair əhəmiyyətli təkliflər irəli sürmüşdür. Sammitin ən əlamətdar hadisəsi isə XX əsrin çox mühüm layihəsi sayılan və mübahisəli müzakirələrə səbəb olan Bakı-Ceyhan neft kəmərinin çəkilişinə dair sazişin imzalanması olmuşdur. Həmin sazişi Azərbaycan Respublikasının Prezidenti, cənab H.Əliyev, Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəl, Gürcüstan Respublikasının Prezidenti cənab E.Şeverdnadze, Qazaxıstan Respublikasının Prezidenti cənab N.Nazarbayev və ABŞ-ın Prezidenti cənab B.Klinton imzalamışlar. Region və bir sıra dünya dövlətləri üçün böyük iqtisadi və geostrateci əhəmiyyətə malik olan bu müqavilənin imzalanmasında Prezident Heydər Əliyevin səyləri və rolu sammit iştirakçıları tərəfindən xüsusi olaraq qeyd edilmişdir.

1999-cu il noyabrın 18-də İstanbulda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitq söyləmiş, orada beynəlxalq birliyin diqqətini Azərbaycanın düşdüyü dözülməz vəziyyətə bir daha cəlb etmiş, altı ildən çox bir müddətdə suveren Azərbaycanın ərazisinin beşdə bir hissəsinin erməni silahlı qüvvələrinin işğalı altında olduğunu, həyata keçirilmiş etnik təmizləmələr nəticəsində bir milyon azərbaycanlının öz doğma yurd-yuvalarından qovulduğunu, Minsk qrupunun həmsədrlərinin Lissabon Zirvə görüşündə qəbul edilmiş prinsiplərin həyata keçirilməsi üçün lazımi fəallıq və ardıcıllıq göstərmədiklərini bildirmiş, regionun problemlərinin həlli üçün Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunmasını təklif etmişdir. Göstərmişdir ki, belə bir pakt dövlətlərarası münasibətləri və münaqişələri aradan qaldırmağın prinsipial əsaslarını təsbit etməlidir. Onun əsasında regiondan xarici

hərbi qüvvələr çıxarılmalıdır. Regionu bölən ayırıcı xətlər aradan qaldırılmalıdır. Təcavüzə, etnik təmizləmələrə, separatçılığa və terrorizmə son qoyulmalıdır. İkili standartlara yol verilməməlidir. Belə bir pakt regionda sülh, sabitlik və təhlükəsizlik yaranmasına, Cənubi Qafqazın suveren, müstəqil, demokratik dövlətlərinin iqtisadi tərəqqisinə və əməkdaşlığına gətirib çıxarardı. XXI əsrin astanasında beynəlxalq birliyin Cənubi Qafqazda uğurlu fəaliyyəti azad, bölünməz və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı.

***

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbul Zirvə toplantısı zamanı Qazaxıstanın, Moldovanın, Ukraynanın, Ermənistanın, Türkiyənin, Fransanın, ABŞ-ın Prezidentləri, Almaniyanın Kansleri, İsrailin Baş Naziri, Avropa komissiyasının sədri Roman Prodi, ATƏT-in Parlament Assambleyasının sədri Helle Deni ilə ikitərəfli görüşlər keçirmişdir.

***

Noyabrın 18-də İstanbuldakı "Çırağan Sarayı"nda Azərbaycan Prezidenti Heydər Əliyevin, Ermənistan Prezidenti Robert Köçəryanın, ATƏT-in icraçı sədri, Norveçin Xarici İşlər Naziri Knut Vollebekin və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin xarici işlər nazirlərinin - ABŞ-ın Dövlət Katibi Madlen Olbraytın, Fransanın Xarici İşlər Naziri Huber Vedrinin və Rusiyanın Xarici İşlər Naziri İqor İvanovun görüşü keçirilmişdir.

Tarixə "İstanbul Zirvə görüşü" adı ilə düşəcək bu sammitin Türkiyədə keçirilməsi qardaş ölkənin bütün dünyanın siyasi həyatındakı yüksək nüfuzunun daha bir təsdiqi olmaqla yanaşı, Türkiyə Respublikası, ümumən türkdilli xalqlar üçün çox böyük, əlamətdar hadisə idi.

54 ölkənin başçılarının təmsil olunduğu bu toplantıda dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının rəhbərləri də iştirak edirdilər.

Zirvə görüşünün başlıca sənədi Avropa təhlükəsizliyi xartiyası idi. Bu sənədin hazırlanmasına hələ 1997-ci ilin dekabrında - ATƏT-in üzvü olan dövlətlərin xarici işlər nazirlərinin Kopenhagen görüşündə başlanmışdı. Xartiya XXI əsrdə ümumavropa təhlükəsizliyi sisteminin konseptual əsaslarını əhatə edir və üzv ölkələrin azad, demokratik və daha çox inteqrasiya olunmuş Avropa yaratmaq əzmini təsdiqləyir. Xatırladaq ki, bu, Helsinki yekun aktından (1975) və Paris xartiyasından (1990) sonra ATƏT-in 25 illik tarixində üçüncü ən mühüm sənəddir. Xartiya altı fəsildən və bir operativ sənəddən ibarətdir. İştirakçı dövlətlər ATƏT-in normaları və prinsiplərinin kobud şəkildə pozulmasının davam etməsini və bunun nəticəsində istər öz dövlətləri daxilində, istərsə də dövlətlər arasında münaqişələrin yaranmasını, habelə terrorizmi, zorakı ekstremizmi, mütəşəkkil cinayətkarlığı və narkotiklərin qanunsuz dövriyyəsini, ekoloci problemləri və ekoloci vəziyyətin pisləşməsini başlıca təhlükə kimi xüsusi vurğulamışlar.

Xartiyada BMT-nin nizamnaməsində, Helsinki yekun aktında, Paris xartiyasında və ATƏT-in qəbul etdiyi bütün başqa sənədlərdə öz əksini tapmış öhdəliklərə iştirakçı dövlətlərin tam sadiq olması ATƏT-in fəaliyyətinin əsası kimi bir daha təsdiqlənmişdir. İştirakçı dövlətlərdən hər hansı birinin bu öhdəlikləri yerinə yetirməməsi bütün digər üzv dövlətlərin dərhal və qanuni narahatlığına səbəb olacaqdır. Sənəd hər bir dövlətin öz təhlükəsizliyini təmin etməsini onun ayrılmaz hüququ kimi təsbit etmişdir. ATƏT-də qərarlar yenə də konsensus əsasında qəbul olunacaqdır. Xartiya sülhün və təhlükəsizliyin qorunub saxlanılmasını BMT Təhlükəsizlik Şurasının başlıca məsuliyyəti kimi tanımış və dövlətlərin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə qarşı zor işlətməmək və ya zor işlətməklə hədələməmək məsələsinə dair öhdəliklər də daxil olmaqla, BMT nizamnaməsinə müvafiq surətdə, dövlətlərin hüquq və öhdəliklərini bir daha təsdiqləmişdir.

Avropa təhlükəsizliyi üçün mövcud olan təhlükələrə və risklərə münasibət bildirilməsi yollarına gəldikdə, xartiyada ATƏT-in başqa təşkilatlarla bərabərlik əsasında və tərəfdaşlıq ruhunda, iyerarxiya yaratmağa cəhd göstərilmədən və ya onların arasında daimi əmək bölgüsü aparmadan əməkdaşlığı məsələsi geniş ifadəsini tapmışdır. Burada dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsində onların həmrəyliyinə və tərəfdaşlığına böyük əhəmiyyət verilir. Xartiyada insan hüquqlarına və başlıca azadlıqlara, demokratiyaya, qanunun aliliyinə hörmət edilməsinə böyük diqqət yetirilmişdir. Eyni zamanda sənəddə deyilir ki, milli azlıqlara mənsub şəxslərin hüquqları da daxil olmaqla, insan hüquqlarına tam hörmət edilməsi ölkələrin ərazi bütövlüyünü və suverenliyini poza bilməz, onu yalnız möhkəmləndirməlidir. Xartiya etnik təmizləmə və ya kütləvi şəkildə zorla qovma siyasətini rədd edir.

İstanbul xartiyası təhlükəsizliyin hərbi-siyasi cəhətini ATƏT-in hərtərəfli təhlükəsizlik konsepsiyasının başlıca ünsürü kimi təsbit etmişdir. Sənəddə korrupsiyaya qarşı mübarizə məsələsinə də xüsusi yer ayrılıb və korrupsiya ATƏT-in ümumi dəyərləri üçün böyük təhlükə, sabitliyi pozan amil kimi qiymətləndirilir.

Regionda sülhün və sabitliyin qorunmasında ATƏT-in həlledici rolunun gücləndirilməsinə iştirakçı dövlətlərin sadiq qalmasına da böyük diqqət yetirilmişdir. Xartiyada belə bir ideya təsbit olunmuşdur ki, konsensus təqdirində, iştirakçı dövlətlər ATƏT-i bu məqsəd üçün ən səmərəli və münasib təşkilat hesab etdikdə, ATƏT sülhün qorunması işində, liderlik rolu da daxil olmaqla, öz rolu barədə qərar qəbul edə bilər.

Sənədin sonunda deyilir ki, xartiya təhlükəsizlik sahəsində yeganə panavropa təşkilatı, öz regionunda sülhün və sabitliyin qorunması üçün məsuliyyət daşıyan təşkilat kimi ATƏT-in rolunu möhkəmləndirəcəkdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbul xartiyasını çox əhəmiyyətli bir sənəd kimi qiymətləndirmiş, həmin sənəddə dövlətlərin ərazi bütövlüyünün və müstəqilliyinin qorunmasının çox ciddi müddəalarla öz əksini tapmasını xüsusi vurğulamışdır.

Sammitin digər mühüm sənədi İstanbul bəyannaməsidir. 48 bənddən ibarət olan bu sənəddə ATƏT-in elan etdiyi, o cümlədən İstanbul xartiyasında öz əksini tapmış başlıca prinsiplər bir daha nəzərə çarpdırılır, eyni zamanda Helsinki yekun aktının qəbul olunmasından, Lissabon sammitindən sonra ötən dövr ərzində təşkilatın fəaliyyətinin əsas istiqamətləri açıqlanır.

Bəyannamədə ATƏT-in daimi şurasına tapşırılır ki, İstanbul xartiyasında razılaşdırılmış yeni addımların dərhal reallaşdırılması üçün lazımi qərarlar qəbul etsin. Sənəddə Avropa regionunda hələ də qalmaqda olan münaqişə ocaqlarından

ətraflı bəhs edilir və bunlara son qoymaq üçün iştirakçı dövlətlərin bundan sonra da səy göstərmək əzmində olduqları vurğulanır.

Qafqazdakı digər münaqişələrlə yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi də bəyannamədə ayrıca bənd kimi öz əksini tapmışdır. Orada deyilir ki, ATƏT Azərbaycan və Ermənistan Prezidentləri arasında dialoqu bəyənir, onların müntəzəm əlaqələri problemin hərtərəfli həlli yollarını tapmaq prosesini sürətləndirmək üçün imkanlar yaradır. ATƏT bu dialoqu qəti şəkildə dəstəkləyir və onun davam etdirilməsini istəyir, Minsk qrupu çərçivəsində danışıqların yenidən başlanmasına ümid bəsləyir. Daha sonra deyilir ki, ATƏT və onun Minsk qrupu bu problemin həlli yollarını tapmaq üçün ən münasib formadır. Eyni zamanda bildirilir ki, gələcəkdə Bakıda ATƏT-in ofisinin açılması bu təşkilatın Azərbaycanla əməkdaşlığının möhkəmləndirilməsinə imkan yaradacaqdır.

Zirvə görüşü zamanı imzalanmış digər sənəd Avropada adi silahlı qüvvələr haqqında müqavilədir. Həmin müqavilə noyabrın 19-da İstanbulun "Lütfi Kırdar mərkəzi"ndə imzalandı. Vaxtilə Parisdə həmin müqaviləni 22 dövlət imzalamışdı, İstanbulda isə daha 30 ölkə, o cümlədən Azərbaycan Respublikası bu müqaviləyə qoşuldu.

Dövlətimizin başçısı Heydər Əliyevin dediyi kimi, 1992-ci ildə Azərbaycanda hakimiyyət uğrunda gedən çəkişmələr, ölkəmizin milli mənafeyinin qorunmaması ona gətirib çıxarmışdı ki, respublikamızın adi silahlar kvotasının müəyyənləşdirilməsi kimi dövlət əhəmiyyətli məsələyə fikir verən olmamış və nəticədə Azərbaycana böyük zərbə dəymişdir. Azərbaycanın indiki rəhbərliyi son illərdə vəziyyətin dəyişdirilməsi üçün çox səylər göstərsə də, hazırda heç bir dövlətin kvotası artırılmadığına görə respublikamız həmin müqaviləyə qoşulmuşdur. Çünki bu müqavilə imzalanmasa, regionumuz üçün daha böyük təhlükə yarana bilər.

ATƏT-in İstanbul Zirvə görüşü artıq tarixə qovuşmuşdur və həmin toplantıda görülmüş işlər, imzalanmış sənədlər, şübhəsiz ki, Avropada, ümumən yer üzündə sülhün və sabitliyin qorunmasına çox böyük töhfə olacaqdır. Dövlətimizin başçısı Heydər Əliyev İstanbul Zirvə görüşünü yüksək qiymətləndirərək demişdir ki, bu, ilk növbədə qəbul edilmiş sənədlərin həm məzmunu və həm də əhəmiyyətinə görə ATƏT-in bütün keçmiş sammitlərindən fərqlənir. Çünki bu sənədlər XXI əsrə yönəldilmişdir, Avropa və ATƏT çərçivəsində yaşamaq, yaratmaq, inkişaf etmək konstitusiyası kimi sənədlərdir.

Noyabrın 18-də İstanbulun "Çırağan sarayı"nda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında saziş"in, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında "İstanbul bəyannaməsi"nin, Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və

Türkmənistan arasında "Hökumətlərarası bəyannamə"nin, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında "Qarşılıqlı anlaşma memorandumu"nun imzalanması mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev imzalanma mərasimində çıxış edərək sazişin xalqlarımızın tarixində böyük bir hadisə olduğunu bəyan etdi və iştirakçıları təbrik etdi.

ABŞ Prezidenti Bill Klinton Qazaxıstan, Türkmənistan, Azərbaycan və Gürcüstan Prezidentlərinə xüsusi minnətdarlığını ifadə etdi, bu günün onlar üçün xüsusi mənası olduğunu, uzunmüddətli səylərin kulminasiyası və yeni başlanğıcın əvvəli olduğunu göstərdi.

Bildirdi ki, bu, Xəzər ətrafındakı yeni müstəqillik qazanmış ölkələrin istiqlaliyyətini bir daha möhkəmlədərək onlara ayaq üstə möhkəm durmaqda və öz tale-lərini müəyyən etməkdə yardım göstərəcəkdir. Həm də bu vasitə ilə Mərkəzi Asiya və Qərb arasında ticarət və siyasət körpüsü salınacaqdır.

Bu boru xətlərinin inşası sübut edəcəkdir ki, həmin ölkələr siyasi rəqabətdənsə, iqtisadi və kommersiya əlaqələrindən daha çox qazanc əldə edə bilərlər.

Sonra Xəzərin təbii sərvətləri bizim ümumi qlobal enerci təchizatımızı daha təhlükəsiz və daha rəngarəng edəcəkdir. Bütün dünya üçün təminat siyasəti demək olan bu boru kəmərləri enerci resurslarının bir nöqtədən deyil, müxtəlif boru kəmərləri vasitəsilə daşınmasına yardım göstərəcəkdir.

Nəhayət, müdrik planlaşdırma və müasir texnologiya nəticəsində enerci resurslarının inkişafı ətraf mühitə mənfi təsir etmədən həyata keçiriləcəkdir. Bu isə o deməkdir ki, burada, sahilində olduğumuz, böyük türk milləti üçün həyati məna daşıyan Bosforun gözəl suları həmin boru kəmərləri ilə axıdılacaq neftin ləkələri ilə çirklənməyəcəkdir.

Beləliklə, İstanbul Zirvə görüşü uğurla keçdi, qarşısına qoyduğu vəzifələri yüksək səviyyədə yerinə yetirdi. Orada qəbul olunmuş İstanbul xartiyası neçə-neçə münaqişə ocağının söndürülməsinə, qarşısının alınmasına, əmin-amanlığa, xalqların rifahına və gələcəyinə xidmət edəcəkdir. Müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin üçüncü dəfə ATƏT-in Zirvə görüşündə iştirakı ölkəmizin imicini daha da artırdı, dünya dövlətləri arasında mövqeyimizi gücləndirdi. Bakı-Ceyhan boru kəməri layihəsinin reallaşması tarixi hadisəyə çevrildi. Prezident Heydər Əliyevin müdrik siyasəti sayəsində ölkəmizin İstanbulda qazandığı uğurlar xalqımızın gələcəyə daha nikbin baxmasına böyük inam yaratdı və yaratmaqda davam edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 20-də İstanbuldan Bakıya qayıdarkən təyyarədə curnalistlərlə görüşmüş, onların suallarına cavab verərkən Zirvə toplantısının nəticəsi kimi İstanbul xartiyasının imzalandığını, Avropada təhlükəsizliyin, sülhün, əmin-amanlığın təmin edilməsi üçün bu xartiyada çox lazımlı maddələr - indiki reallığın, yəni Paris xartiyasından sonra baş vermiş hadisələr və onlara olan münasibətin əks olunduğunu, xartiyanın əsas məğzi olan məsələlərin - ölkələrin ərazi bütövlüyünün, müstəqilliyinin qorunması,

təhlükəsizliyinin təmin olunması, sülhün möhkəmləndirilməsi, insan haqlarının qorunması, demokratiyanın inkişaf etdirilməsi və başqa məsələlərin burada öz əksini tapdığını bəyan etmişdir.

Sammitdə siyasi bəyannamə də qəbul olunduğunu, sammitin gedişində müzakirə edilən məsələlərin bu sənəddə öz əksini tapdığını, burada Azərbaycan haqqında yazılmış maddədə - 20-ci maddədə bu günün reallıqlarının əks etdirildiyini və bundan məmnunluq duyduğunu bildirmişdir.

Sammitdə həm də Türkmənistandan başlanan qaz kəmərinin çəkilməsi haqqında sənədin Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə tərəfindən imzalandığını, eyni zamanda gələcəkdə Azərbaycanın nə qədər artıq qazı olsa, onu alacağı və Avropaya çıxaracağı barədə Türkiyənin öz üzərinə öhdəlik götürdüyü ayrıca bir memorandumun da imzalandığını xüsusi olaraq qeyd etmişdir. O göstərmişdir ki, birinci imzalanmış sənəddə deyilir ki, gələcəkdə Azərbaycanın qazı da bu kəmərdən keçəcəkdir. Əlavə memorandumun imzalanması çox böyük hadisədir və biz böyük qələbələrlə geriyə dönürük. Bizim millətimiz, xalqımız, ölkəmiz sevinməlidir ki, belə böyük nailiyyətlər əldə etmişik.

Azərbaycanın rəhbəri vurğulamışdır ki, bütün bu görüşlərdə Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycanın düşdüyü vəziyyət və bu məsələnin sülh yolu ilə həll edilməsi mövzusu birinci yer tuturdu. Bildirmişdir ki, sammitdə o həm çox sərt çıxış etmiş, amma eyni zamanda konstruktiv çıxış etmiş, Cənubi Qafqazda sülh və təhlükəsizliyin yaranması üçün paktın hazırlanmasını təklif etmiş və bu paktın hazırlanıb bağlanması üçün səylərini göstərmək üçün həm Amerika Birləşmiş Ştatlarını, həm Avropa Birliyini, həm Türkiyəni, həm Gürcüstanı, həm Ermənistanı, həm ATƏT-in bu işdə marağı olan başqa ölkələrini dəvət etmiş, amma şərtlər də qoymuşdur. Şərtlər də ondan ibarətdir ki, Cənubi Qafqazdan bütün silahlar çıxarılmalıdır, Cənubi Qafqaz silahsızlaşdırılmalıdır, ayırıcı xətlər olmamalıdır, təhlükəsizlik təmin edilməli, terrorizm, etnik təmizləmə, separatizm aradan qaldırılmalı, ikili standartlara, baş vermiş faktlar əsasında hərəkətlərə yol verilməməlidir.

Ölkəmizin başçısı sammitdə Dağlıq Qarabağ haqqında da öz kəskin mövqeyini bir daha bildirmiş, Minsk qrupunun işini tənqid etmişdir.

O göstərmişdir ki, sammitdə üç sənəd qəbul olunmuşdur. Birincisi - İstanbul xartiyasıdır. İkincisi - Avropada adi silahlar haqqında sənəddir. Üçüncüsü isə siyasi bəyannamədir. Bunlardan əlavə sammitdə Türkiyə və bölgə üçün daha böyük əhəmiyyət kəsb edən tarixi bir hadisə baş vermiş - Bakı-Ceyhan neft kəməri haqqında müqavilə imzalanmışdır. Ölkəmizin başçısı bu barədə öz çıxışında bildirmişdir ki, biz "Əsrin müqaviləsi"ni yaratmasaydıq, Bakı-Ceyhan olmayacaqdı. Amma Bakı-Ceyhanı da beş il müddətində həyata keçirmək üçün çox böyük maneələrin qarşısını aldıq, çox işlər gördük. Nəhayət, buna nail olduq. Bu, bizim üçün böyük bir hadisədir - həm Azərbaycan üçün, həm Türkiyə üçün. Eyni zamanda əgər Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı və bu barədə fəal iştirakı olmasaydı, bunu etmək mümkün deyildi. Çünki bunun əleyhinə

çox qüvvələr var idi.

***

1999-cu il noyabr ayının 27-28-də Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev Türkiyənin Ankara şəhərində işgüzar səfərdə olmuş, burada keçirilən "Təbiətin mühafizəsi və eroziyaya qarşı mübarizə" konfransında iştirak etmişdir. Sonra Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəllə birlikdə onun vətəni olan Sparta şəhərinə getmiş, burada yerləşən Şövkət Dəmirəl adına Kardioloci mərkəzin, "Ülkü" orta mək-təbinin, Süleyman Dəmirəl adına "Mədəniyyət və konqres mərkəzi"nin açılışında iştirak etmiş, Süleyman Dəmirəl adına Universitetin Araşdırma və tədqiqat xəstəxanasının təməlinin qoyulması mərasimində olmuş, S.Dəmirəl adına Universitet, klinik xəstəxana və bir sıra təhsil-tədris ocaqları ilə tanış olmuş, vilayətin ictimaiyyəti ilə geniş görüşlər keçirmişdir. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə S.Dəmirəl adına Sparta Universitetinin fəxri doktoru adı verilmişdir

Dövlət başçıları səfər zamanı Xəzərin Azərbaycan sektorunun enerci ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan Bakı-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair İstanbul sammiti gedişində imzalanmış sənədlərdən məmnunluqla söhbət açaraq, bu layihənin nəinki region dövlətlərinin, həm də Avropa və dünya ölkələrinin iqtisadi inkişafı üçün böyük rol oynadığını qeyd etmiş və onun gerçəkləşdirilməsi üçün qarşıda duran vəzifələri geniş müzakirə etmişlər.

Söhbət zamanı Prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması məsələsi üzərində dayanmışlar. Dövlət başçıları müstəqil Azərbaycanın qarşılaşdığı ən ağır problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun fəallığının artırılması zəruriliyini yekdilliklə vurğulamışlar.

Prezident Heydər Əliyev və Prezident Süleyman Dəmirəl ölkələrimiz arasındakı ikitərəfli münasibətlər və bir sıra beynəlxalq məsələlər barəsində də geniş fikir mübadiləsi aparmışlar.

Azərbaycan Prezidenti Heydər Əliyev səfər zamanı Şimali Kipr Türk Respublikasının Prezidenti Rauf Denktaşn, dünya şöhrətli alim İhsan Doğramacı ilə görüşlər keçirmişdir.

Ümumiyyətlə 1999-cu il, ölkə başçımızın səfərləri, Türkiyə rəhbərləri ilə keçirdiyi görüşlər ölkələrimiz arasındakı əlaqələrin inkişafı üçün olduqca səciyyəvidir. Bu il Azərbaycan Prezidenti təkcə noyabr ayında üç dəfə Türkiyədə olmuşdur. O, ilk səfərində, noyabrın 1-də Prezi-dent Süleyman Dəmirəllə birlikdə zəlzələ olmuş yerlərə getmiş, Kocaelidə, İzmitdə olmuş, insanlarla görüşlər keçirmişdir.

Sonra o, ikinci dəfə noyabrın 17-də yenidən Türkiyəyə gələrək ayın 20-dək İstanbulda ATƏT-in Zirvə görüşündə iştirak etmişdir. Bu zaman orada dünya ölkələri üçün çox mühüm qərarlar qəbul edilmişdir.

Nəhayət, üçüncü səfər noyabrın axırında baş vermişdir. Bütün bunlar ölkələrimiz arasındakı əlaqələrin intensivliyindən və sıxlığından, yaxınlığından xəbər verir. Strateci əməkdaşlıq müqaviləsinin intensiv və məhsuldar şəkildə işlədiyini göstərir. Ölkəmizin, onun rəhbərinin Türkiyəyə,

türk xalqına böyük sevgisindən xəbər verir. Elə Prezidentimizin səfər zamanı dediyi sözlər bunun ən bariz sübutudur: "Bəli, mən dedim, artıq üçüncü dəfədir ki, Türkiyədəyəm. Türkiyəni ziyarət etmək mənim üçün sevindiricidir. Amma eyni zamanda, **görün mən Türkiyəni nə qədər sevirəm ki, bir ay içərisində üç dəfə buraya gəlmişəm."**

Ölkəmiz Türkiyəyə həmişə böyük önəm vermişdir. Elə bu səfər zamanı Türkiyənin dünyada tutduğu mövqedən bəhs edən dövlət başçımız göstərmişdir ki, İstanbul Zirvə görüşü ərəfəsində **Amerika Prezidenti Bill Klintonun Türkiyəni ziyarət etməsi, Türkiyəyə çox böyük önəm verməsi və gözəl nitqlər söyləməsi, Türkiyənin dünyada tutduğu yer haqqında gözəl fikirlər deməsi məni türk xalqını sevindirən kimi sevindirir.** ATƏT-in Zirvə görüşünün bu qədər gözəl təşkil olunması - yəni hər bir toplantının uğuru onun təşkil edilməsindən asılıdır - şübhəsiz ki, Türkiyə Cümhuriyyətinin və bu işlə şəxsən məşğul olan hörmətli Süleyman Dəmirəlin böyük xidmətləridir. Onun bu xidmətləri hər bir dövlət başçısı tərəfindən yüksək qiymətləndirildi. Onun bu xidmətləri və Türkiyənin bu gün dünyadakı strateci yeri Amerika Prezidenti Bill Klinton tərəfindən bəyan edildi. Bir dost, qardaş kimi, bunlar hamısı məndə Türkiyə üçün böyük iftixar, qürur hissi doğurur.

Türkiyənin, türk dünyasının inkişafında da yeri böyükdür. Prezidentimiz Turk Dövlətləri Birliyinin yaranması məsələsində Türkiyənin və onun başçısı Süleyman Dəmirəlin rolunun böyük olduğunu vurğulayaraq bildirmişdir ki, hörmətli Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildə yenicə müstəqillik, istiqlaliyyət qazanmış türkdilli ölkələrin dövlət başçılarının İstanbulda toplantısı keçirilibdir. Burada bu təşkilatın əsası qoyulubdur. Bu təşkilat artıq 7 ildir ki, yaşayır. Biz ildə bir dəfə bu toplantıları türkdilli cümhuriyyətlərdə keçiririk. Mədəniyyət, iqtisadiyyat, başqa bütün sahələrdə əməkdaşlığımızı edirik və tarixi bir daha təhlil edirik. Müştərək tarixi abidələrimizi yada salır və onların yubileylərini keçiririk. Bu, çox böyük əhəmiyyətə malikdir və türk dünyasının inkişafının təməli kimi bir şeydir. Amma bu, heç də asan deyildir. Çünki onu da qısqananlar və onun əleyhinə olanlar vardır. Amma bu birliyin yaranmasında və bu birliyin 7 ildən bəri yaşamasında Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum və türk dünyasının lideri Süleyman Dəmirəlin xüsusi xidmətləri vardır.

Bəlkə də siz bunları bilmirsiniz, amma bilməlisiniz. Biz, türkdilli ölkələrin dövlət başçıları, Prezidentləri həmişə görüşürük, danışırıq. Bizim üçün Süleyman Dəmirəl - Azərbaycanda ağsaqqal deyirlər, siz baba deyirsiniz. O, babadan da babadır, mən ona babadan da yüksək ad arayıram. Ola bilər ki, həmin dövlətlər arasında hansısa bir məsələ bir-birinə xoş gəlməsin. Amma hörmətli Süleyman Dəmirəl olan yerdə türkdilli ölkələrin dövlət başçılarının hamısı onun ətrafındadır, onların hamısı onunla birdir. Əziz dostum Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin ağırlığını öz çiynində daşıyır və daşıyacaqdır.

Mən çox məmnunam ki, indi Türkiyə Cümhuriyyətinin Süleyman Dəmirəl kimi dünyada tanınmış lideri vardır. Hörmətli Süleyman Dəmirəl 50 ildən çoxdur ki,

dövlət, siyasət işi ilə məşğul olur və uğurla məşğul olur. ATƏT-in İstanbul Zirvə görüşündə bir fikir də qeyd edildi. Deyəsən, bunu Bill Klinton dedi. O dedi ki, 25 il bundan öncə Helsinkidə ATƏT-in əsası qoyulubdur, orada Helsinki yekun aktı qəbul edilibdir. 35 dövlət həmin sənədə imza atıbdır. Orada Türkiyədən Süleyman Dəmirəlin imzası vardır. O sənədə imza atanlardan - bəziləri bu gün həyatda, bəziləri də dünya siyasətində yoxdur - dünya siyasətində olan yeganə şəxs Süleyman Dəmirəldir. Mən bunu bilirdim. Amma mən bunu Bill Klintondan eşidəndə nə qədər sevindim.

***

9-10 yanvar 2000-ci ildə Azərbaycanın Prezidenti H.Əliyev Türkiyədə işgüzar səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Prezidenti S.Dəmirəl, Baş Naziri B.Ecevit, Baş Qərargah Rəisi H.Kıvrıkoğlu, Baş Nazirin müavini D.Bahçeli ilə görüşmüş və iki tərəfi maraqlandıran məsələlər ətrafında danışıqlar aparmışdır.

***

Azərbaycan Respublikası Milli Məclisinin sədrinin dəvəti ilə 2000-ci il fevral ayının 7-də Türkiyə Böyük Millət Məclisinin sədri Y.Akbulut ölkəmizə rəsmi səfərə gəlmişdir. Qonaq səfər zamanı Azərbaycanın Prezidenti H.Əliyev ilə görüşmüşdur. Y.Akbuluta BDU-nun fəxri doktoru adı verilmişdir.

***

24-26 mart 2000-ci ildə Türkiyənin Samsun şəhərində "Türk dövlət və topluluqlarının dostluq, qardaşlıq və əməkdaşlıq" qurultayının VIII forumu keçirilmişdir. Forumda Azərbaycanın tanınmış elm və mədəniyyət xadimləri iştirak etmişlər.

***

8-9 aprel 2000-ci ildə Türkiyənin Prezidenti S.Dəmirəl Türkdilli Dövlət Başçılarının VI Zirvə görüşündə və "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş yubiley təntənələrində iştirak etmək üçün Bakıya gəlmişdir. Səfər zamanı S.Dəmirəl "Koç" bankın, "Şəhidlər xiyabanı"nda türk əsgərlərinin xatirə abidəsinin, türk inşaat şirkətləri tərəfindən ucaldılan çoxmərtəbəli yaşayış binaları kompleksinin açılışında iştirak etmişdir. Prezident H.Əliyev tərəfindən S.Dəmirələ Azərbaycanın fəxri vətəndaşı adı verilmişdir.

***

Türkiyənin Xarici İşlər Naziri İ.Cem 2000-ci il mayın 28-29-da Bakıda rəsmi səfərdə olmuşdur. Səfər zamanı Prezident H. Əliyev İ.Cemi qəbul etmişdir. İ.Cem Milli Məclisin sədri, Baş Nazir, Xarici İşlər Naziri ilə də görüşmüşdür. Danışıqlar zamanı ölkələrimizin iqtisadiyyat, energetika sahəsində əməkdaşlıq məsələləri, siyasi sahədə münasibətlərin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, Qafqazda baş verən proseslər, Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası, Azərbaycanın Avropa Şurasına qəbulu və digər məsələlər diqqət mərkəzində olmuşdur. İ.Cemə BDU-nun fəxri doktoru adı verilmişdir.

***

2000-ci il 8-9 iyun tarixlərində Türkiyənin Daxili İşlər Naziri S.Tantan Bakıda səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Prezidenti H.Əliyev S.Tantanı və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

***

Türkiyənin Prezidenti A.N.Sezər

Azərbaycan Prezidenti H.Əliyevin dəvəti ilə 11-12 iyul 2000-ci il də Bakıda rəsmi səfərdə olmuşdur. Onu Xarici İşlər Naziri İ.Cem, Baş Nazirin müavini, Energetika və Təbii Ehtiyatlar Naziri C.Ersümer və digər rəsmi şəxslər müşayiət etmişlər.

Səfər zamanı Türkiyə Prezidenti A.Sezər və Azərbaycan Prezidenti H.Əliyev təkbətək görüş keçirmişlər. Sonra Azərbaycan və Türkiyə nümayəndə heyətləri arasında geniş tərkibdə görüş olmuş, daha sonra dövlət başçıları birgə bəyanat imzalamışlar.

Türkiyənin Prezidenti və onu müşayiət edən şəxslər "Şəhidlər xiyabanı"nı ziyarət etmiş, Bakıda müvəqqəti məskunlaşmış qaçqınlarla görüşmüşlər.

Türkiyənin Prezidenti A.N.Sezər Azərbaycanın dövlət başçısını Türkiyəyə rəsmi səfərə dəvət etmişdir. Dəvət məmnunluqla qəbul olunmuşdur.

***

2000-ci ilin sentyabr ayında Bakıda Dünya Türk Gənclər Birliyinin X qurultayı və Gənclik Günləri keçirilmişdir.

***

Həmin ayda Ankarada Azərbaycan kinosu günləri keçirilmişdir.

***

2000-ci ilin 20-22 sentyabrında Türkiyənin Müdafiə Naziri S.Çakmakoğlu Bakıda səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Respublikasının Milli Məclisinin sədri, Baş Naziri, Xarici İşlər Naziri və Müdafiə Naziri S.Çakmakoğlunu və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişlər. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası hökumətləri arasında müdafiə sənayesində əməkdaşlıq" müqaviləsi imzalanmışdır.

***

17 oktyabr 2000-ci ildə Prezident Sarayında "Azərbaycan Respublikası hökuməti ilə əsas ixrac boru kəməri iştirakçıları arasında saziş" və "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq sazişi"nin imzalanması mərasimi olmuşdur. Bu sazişlər 18 oktyabr da Gürcüstanın paytaxtı Tbilisidə, 19 oktyabr da isə Ankara şəhərində imzalanmışdır.

***

Türkiyənin Milli Təhsil Naziri M.Bostancıoğlunun başçılıq etdiyi nümayəndə heyəti 2000-ci ilin 30 noyabr-2 dekabr tarixlərində Bakıda rəsmi səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Təhsil Nazirliyi ilə Türkiyə Təhsil Nazirliyi arasında birgə əməkdaşlığa dair müqavilə imzalanmışdır. M.Bostancıoğlunu Azərbaycanın Prezidenti H.Əliyev və Baş Nazir qəbul etmişlər.

***

Türkiyənin Enerci və Təbii Ehtiyatlar Nazirinin müavini Y.Yigitgüdənin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycan Prezidenti H.Əliyev dekabrın 13-də qəbul etmişdir.

Y.Yigitgüdən Azərbaycanda baş vermiş zəlzələ ilə əlaqədar Türkiyənin Prezidenti A.N.Sezərin başsağlığını, habelə iki ölkə arasındakı mövcud əməkdaşlığın uğurla həyata keçirilməsinə dair məktubunu Azərbaycanın dövlət başçısına təqdim etmişdir. Söhbət zamanı Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişinin həyata keçirilməsi barədə fikir mübadiləsi olmuşdur.

***

22-23 dekabr 2000-ci ildə Türkiyənin Səhiyyə Naziri O.Durmuşun başçılıq etdiyi nümayəndə heyəti Mərkəzi Klinik Xəstəxananın açılışında iştirak etmək üçün Bakıda səfərdə olmuşdur. Nümayəndə heyətini Azərbaycanın Prezidenti H.Əliyev qəbul etmişdir.

***

Bakıda noyabr ayında baş vermiş təbii fəlakət ilə əlaqədar Türkiyənin Beynəlxalq Qırmızı Xaç Təşkilatı Azərbaycana humanitar yardım göstərmişdir. Həmin təşkilat tərəfindən Bərdə və Ağcabədi rayonlarında məskunlaşan qaçqınlara humanitar yardım göstərilir.

***

2000-ci il ərzində bir neçə dəfə mədəniyyət və incəsənət xadimlərinin Türkiyə və Azərbaycana qarşılıqlı səfərləri olmuşdur.

***

2000-ci il ərzində Türkiyə mal dövriyyəsinin həcminə görə Azərbaycanın ticarət tərəfdaşı kimi 3-cü yeri tutmuşdur (ticarət dövriyyəsi 150.7, idxal 89.4, ixrac 61.3 milyon ABŞ dolları).

Qeyd olunan il ərzində Türkiyədən idxal edilən mallar əsasən avtomobillər, metalkonstruksiya, ərzaq, rabitə avadanlığı, mebel, tikinti materialları və s. olmuşdur.

Azərbaycandan Türkiyəyə ixracın əsasını isə neft və neft məhsulları, kimya məhsulları, ilkin alüminium, pambıq mahlıcı, gön-dəri məhsulları və s. təşkil etmişdir.

Türk kapitalının iştirakı ilə Azərbaycanda istehsal, tikinti və digər sahələrdə cəmi 1141 müəssisə qeydə alınmışdır (598 birgə müəssisə, 467-i 100% türk kapitalı və 78 filial və ticarət nümayəndəlikləri).

Qeyd etmək lazımdır ki, Türkiyə şirkətlərinin Azərbaycana gətirdikləri sərmayə bütövlükdə təxminən 1.5 milyard ABŞ dollarına yaxındır.

***

Qeyd olunan il ərzində Bakı-Ceyhan layihəsi ilə əlaqədar yaranmış işçi qrupunun dörd müşavirəsi keçirilmişdir (fevral, may - Ankarada, sentyabr, oktyabr - Bakıda).

***

Hal-hazırda Türkiyədə təxminən 3 milyon soydaşımız yaşayır. Ölkədə Azərbaycan icmasını təmsil edən təşkilat və dərnəklərdən ən nüfuzlusu "Türkiyə-Azərbaycan dostluq, əməkdaşlıq və həmrəylik fondu"dur (sədri İ.Doğramacı). Bu fondun nəzdində "Azərbaycan Evi" fəaliyyət göstərir. Burada əsasən mədəniyyət tədbirləri və bədii gecələr keçirilir. Bu dərnəkdən başqa "İqdır Mədəniyyət Dərnəyi" (sədri T.Atasevər), "Qars-Ardahan-İqdır Dərnəyi" (sədri B.İşgür), "Türkiyə-Azərbaycan Dostluq Dərnəyi" (sədri M.Özdağ) və "İzmir Mədəniyyət Dərnəyi" (sədri Y.Bozer) kimi ictimai təşkilatlar fəaliyyət göstərirlər. Bunlardan bəzilərinin mətbuat orqanları da var (İ.Doğramacının fondu tərəfindən "Azərbaycan" adlı aylıq curnal nəşr olunur).

***

2000-ci il ərzində iki ölkə arasında 6 sənəd imzalanmışdır.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il yanvarın 16-da Prezident sarayında TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqlarla görüşdə çıxış etmişdir. O demişdir: "Bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir. Çünki 70 illik Sovet ha-

kimiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur, ya da olmayıbdır. Bəzən də Sovetlər İttifaqında yaşayan türkdilli xalqlar üçün qadağan olubdur. O vaxt Sovetlər İttifaqında belə bir anlayış mövcud idi ki, vahid sovet xalqı vardır. Bütün millətlər də var, ancaq vahid sovet xalqı da. Biz, məsələn, Mərkəzi Asiyada olan qardaşlarımızla daim əlaqədə idik. Biz həmişə bir-birimizlə rusca danışırdıq və tarixi keçmişimizi, mədəniyyətimizi, onların dərin köklərini heç vaxt araşdırmırdıq. Amma indi biz müstəqillik əldə edəndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çox dəyərli təşəbbüslərlə çıxış edəndən sonra Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Bu birliyin də, yenə də deyirəm, ən əsas özəklərindən biri TÜRKSOY təşkilatıdır.

Mən sizin gördüyünüz işləri yüksək qiymətləndirirəm. Arzu edirəm ki, bu işləri bundan sonra da davam etdirəsiniz. Çünki həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün hələ çox iş görmək lazımdır ki, bu itirilmiş dövrü, zamanı, onillikləri bərpa edək. Yəni onu bərpa etmək mümkün deyil, o dövrdə itirdiklərimizi indi qısa bir zamanda yaratmaq lazımdır.

Mən sizi təbrik edirəm və arzu edirəm ki, işlərinizi bu cür davam etdirəsiniz. Siz dövlət başçılarından daha zirəksiniz. Çünki biz, deyək ki, altı dəfə görüşmüşük. Amma siz on beş dəfə görüşmüsünüz. Ancaq bu da təbiidir. Çünki dövlət başçılarının bir çox problemləri vardır. Onların ildə bir dəfə görüşməsi bəzən bəs edir. Bu görüşlərdə biz, təbiidir ki, mədəniyyət, elm, tarixi keçmişimiz haqqında çox fikir mübadiləsi aparırıq. Amma eyni zamanda bu görüşlərin iqtisadi əməkdaşlıq tərəfi də vardır. Bu da çox əhəmiyyətlidir. Amma siz isə, bir də qeyd edirəm, bizim türkdilli xalqların ən incə və ən vacib işi ilə məşğulsunuz. Ticarət bu gün də, sabah da var. Bu, ola bilər ki, türkdilli, başqa dilli dövlətlə olsun - ticarət elə ticarətdir. Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin - bunların böyük tarixi və dərin kökləri vardır.

Bizim ədəbiyyatımız, musiqimiz, tarixi köklərimizi sübut edən əsərlərimiz - bunların hamısı təbiidir ki, çox böyük əhəmiyyətə malikdir. Məsələn, biz keçən il "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini keçirdik. Bütün türkdilli dövlətlərdən, təkcə türkdilli dövlətlərdən yox, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz "Kitabi-Dədə Qorqud" haqqında, demək olar ki, o bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi "Kitabi-Dədə Qorqud" hamı üçün ulu babadır. Birisi Dədəm Qorqud deyir, biri Ata Qorqud deyir, digəri Dədə Qorqud deyir.

Yaxud da ki, bir neçə il bundan öncə biz yenə də hamımıza mənsub olan Füzulinin yubileyini keçirdik. Çox dəyərli bir hadisə oldu. Toplaşdıq. Mən Azərbaycanda keçirilənləri deyirəm. Qazaxıstanda da, Özbəkistanda da çox gözəl tədbirlər keçirilibdir. Qırğızıstanda "Manas"ın 1000 illik yubileyini keçirdik. Türkmənistanda da belə tədbirlər olmuşdur. Ona görə də sizin gördüyünüz işlər xalqlarımız üçün ən dəyərli işlərdir. Bu münasibətlə sizə təşəkkür edirəm, sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu təşkilat yaşayacaq, inkişaf edəcək və gələcək nəsillər üçün də çox yeni şeylər yaradacaqdır."

***

19 yanvar 2001-ci ildə Türkiyə Xarici İşlər Nazirinin müavini F.Loğoğlu işgüzar səfərlə Bakıya gəlmişdir. Səfər zamanı o, Azərbaycanın Prezidenti H.Əliyevlə görüşmüşdür. Görüşdə iki ölkəni maraqlandıran bir sıra beynəlxalq və regional problemlərə toxunulmuşdur.

***

28 fevral 2001-ci ildə Azərbaycanın Müdafiə Naziri S.Əbiyev rəsmi səfərdə olan Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Müdafiə Planlaşdırması və Mənbələrin İstiqamətləndirilməsi İdarəsinin rəisi Ş.Telyazanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Səfər zamanı iki sənəd imzalanmışdır.

***

Azərbaycan Prezidenti H.Əliyev 2001-ci il 12-17 mart tarixlərində üçüncü dəfə Türkiyədə rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Prezidenti Ə.N.Sezər, Baş Naziri B.Ecevit, Böyük Millət Məclisinin sədri Ö.İzgi, Baş Nazirin müavinləri D.Bahçeli və M.Yılmaz, Baş Qərargah rəisi H.Kıvrıkoğlu ilə görüşüb danışıqlar aparmış, parlamentdə çıxış etmişdir. Dövlət başçımıza Ankara Universitetinin fəxri doktoru adı verilmişdir. İki ölkənin başçıları bir sıra beynəlxalq və regional məsələləri müzakirə etmiş, bölgəmizdə mövcud olan problemlər haqqında fikir mübadiləsi aparmışlar. Prezident H.Əliyev İstanbul Hərbi Akademiyasının kursantları qarşısında da çıxış etmişdir. Səfər zamanı 9 sənəd imzalanmışdır.

Dövlətimizin başçısına Ankara Universitetinin fəxri doktoru diplomu təqdim edilmişdir.

Onu da qeyd etmək yerinə düşərdi ki, Prezident Əhməd Necdət Sezər də bu Universitetin məzunu olmuşdur.

Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəl və Şimali Kipr Türk Respublikasının Prezidenti Rauf Denktaş isə Universitetin fəxri doktorlarıdır.

Azərbaycan Prezidenti Heydər Əliyevə Ankara Universitetinin fəxri doktoru diplomu təqdim edilməsi münasibətilə təntənəli mərasimdə Türkiyənin Prezidenti Əhməd Necdət Sezər, Dövlət Naziri Əbdülxalıq Çay, Təhsil Naziri Mətin Bostancıoğlu, millət vəkilləri, Universitetin professor-müəllim heyəti, ölkənin çoxsaylı kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Görüşdə Azərbaycan Prezidenti çıxış etmişdir. O, vurğulamışdır ki, mən Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Əhməd Necdət Sezərin dəvəti ilə mart ayının 12-də Türkiyə Cümhuriyyətinə üçüncü rəsmi səfərə gəlmişəm. Bu, mənim Türkiyəyə ilk səfərim deyildir. 1992-ci ildən etibarən mən dəfələrlə Türkiyəyə gəlmişəm. Rəsmi səfərlər də, işgüzar səfərlər də olmuşdur. Sadəcə, görüşmək arzusunda olduğuma görə də gəlmişəm. Bunların hamısı mənim üçün qiymətlidir. Sonra dövlətimizin başçısı Azərbaycan - Türkiyə əlaqələrinə nəzər salaraq göstərmişdir ki, həyat inkişaf etdiyi kimi, insanların dünyaya baxışı da inkişaf edir və hər yeni atılan addım, təbiidir ki, əvvəlkindən daha önəmli olur. Ona görə də mən bu səfəri çox yüksək qiymətləndirirəm. Birincisi, ona görə ki, burada biz hörmətli Prezident, əziz dostumla bərabər çox ətraflı, dərin məzmunlu görüşlər keçirdik, danışıqlar apardıq. Türkiyə-Azərbaycan əlaqələrinin bugünkü vəziyyəti və gələcəyi haqqında fikirlərimizi paylaşdıq və bir daha hər ikimiz eyni fikri ifadə etdik ki, Türkiyə-Azərbaycan əlaqələri gündən-gü-

nə inkişaf edir. Bunlar dostluq, qardaşlıq əlaqələridir. Bunlar dərin tarixi köklərimizlə, milli-mənəvi dəyərlərimizlə bağlı əlaqələrdir. Bunlar dilə, bir dinə, bir mədəniyyətə mənsub olmağımızla bağlı əlaqələrdir. **Bir millət, iki dövlət əlaqələridir.** Əgər beynəlxalq, uluslararası dildə danışsaq, strateci tərəfdaşlıq əlaqələridir. Bu həm Türkiyə, həm də Azərbaycan üçün çox önəmlidir. Çünki dünya ağır bir dövr yaşayır. Dünyada çox mürəkkəb proseslər gedir. Bu proseslərin bir qismi də, bəlkə də ən ağırı Türkiyə də daxil olmaqla, bizim bölgəmizdə - Qafqazda gedir. Burada həm savaş, həm münaqişələr, həm də çox həll ediləsi məsələlər vardır. Bütün bu proseslərdə, təbiidir ki, **Türkiyə və Azərbaycan həmişə yan-yana, bərabər olmuş, bir yolla getmişlər. Mən məmnuniyyətlə deyə bilərəm ki, bu gün biz bu yolumuzun nə qədər doğru, düzgün olduğunu bir daha təsdiq etdik.**

Türkiyənin Böyük Millət Məclisində, millət vəkilləri, yəni xalqın təmsilçiləri ilə də görüşə böyük əhəmiyyət verən dövlət başçımız danışıqların əsas mövzularının Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik yaratmaqdan ibarət olduğunu bildirmişdir.

Təəssüflənmişdir ki, Ermənistanla danışıqlarda hələ indiyə qədər müsbət nəticə əldə olunmamışdır. Göstərmişdir ki, belə nəticə yalnız Azərbaycanın ərazi bütövlüyü təmin edildikdən, yerindən-yurdundan zorla çıxarılmış insanlar öz yerlərinə qayıtdıqdan, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı beynəlxalq hüquq normaları əsasında təmin olunduqdan sonra baş tuta bilər.

Ermənilərin həmişə torpaq iddiası ilə yaşadıqlarını, Osmanlı imperatorluğu dövründə guya ermənilərə qarşı soyqırım edilməsi haqqında son vaxtlar bəzi ölkələrdə çıxarılan qərarların tamamilə əsassız, uydurma, yanlış olduğunu, əksinə, ermənilərin azərbaycanlılara, türklərə qarşı soyqırım etdiklərini bildirən respublikamızın rəhbəri bunların heç vaxt baş tutmayacağını bəyan etmişdir.

Göstərmişdir ki, ermənilər Xocalı şəhərinin əhalisini bir gecənin içərisində qırdılar. Budur soyqırım. Əgər onlar 85 il bundan əvvəlki "soyqırım" haqqında danışırlarsa, bu isə indi, XX əsrin sonunda ermənilər tərəfindən azərbaycanlılara, türklərə qarşı edilən soyqırımıdır. Ona görə də soyqırım haqqında danışmağa onların haqqı yoxdur. Soyqırım haqqında danışmağa bizim haqqımız var.

Ermənistanla Azərbaycan arasında sülh yaradılması mövzusunun danışıqların əsas hissəsini təşkil etdiyini söyləyən Prezident, bunun səbəbini bizim həmişə Türkiyə ilə bərabər olmağımızla izah etdi.

Hökumətimizin başçısı bəyan etdi ki, danışıqlarda Bakı-Ueyhan neft-boru xətti məsələsinə də toxunulmuş, artıq bu sahədə hər şeyin hazır olduğu müəyyənləşdirilmişdir. Proqram tərtib olunubdur. Həmin proqram üzrə iş gedir. Bakı-Ceyhan boru xətti çəkiləcək, başa çatacaqdır. Azərbaycan nefti Türkiyəyə gələcək və buradan Ağ dənizə - Aralıq dənizinə çatdırılacaqdır.

Ölkəmizin başçısı göstərmişdir ki, səfər zamanı Azərbaycanın təbii qazının Türkiyəyə satılması haqqında da anlaşmalar imzalanmışdır. Başqa çox əhəmiyyətli məsələlər də olmuşdur. Ona görə də dövlətimizin başçısı səfərin nəticələrindən məmnundur.

Sonra Azərbaycan Prezidenti Universitetin fəxri doktoru adına layiq görlməsinə görə öz minnətdərlığını bildirmiş və

xüsusi olaraq vurğulamışdır ki, Ankara Universiteti Türkiyənin ən hörmətli, ən böyük universitetlərindən biridir. Mənə fəxri doktor adı verilməsi barədə məlumat gələndə mən Ankara Universitetinin tarixi ilə bir də tanış oldum. Məlum oldu ki, Ankara Universiteti böyük Mustafa Kamal Atatürkün qəbul etdiyi qərarlarla Türkiyədə yaradılmış ilk universitetlərdən biridir.

Ölkəmizin başçısı göstərmişdir ki, Ankara Universiteti həm də böyük Atatürkün vəsiyyətlərini yerinə yetirir. Onun **"Həyatda ən həqiqi mürşid elmdir" devizini həyata keçirir. Mustafa Kamal Atatürkün bu sözləri Türkiyədəki bütün universitetlər, elm adamları, o cümlədən Ankara Universiteti üçün vəsiyyətdir. Yəni bu, o yoldur ki, həmin yolla getmək lazımdır. Ankara Universiteti də bu yolla gedir.**

Ankara Universiteti ilə Azərbaycan arasındakı əlaqələr də məni çox sevindirir. Çünki rektor artıq söylədi ki, Azərbaycandan burada 150 tələbə təhsil alır, 7 müəllim dərs deyir. Bu da çox önəmlidir.

Ankara Universiteti Azərbaycan Universitetləri ilə, o cümlədən Bakı Dövlət Universiteti, Naxçıvan Universiteti və Lənkəran Universiteti, Elmlər Akademiyası ilə elm və təhsil sahəsində əlaqələr yaradıbdır.

Azərbaycan Elmlər Akademiyası çox böyük bir elm mərkəzidir. ...Mən çox məmnunam ki, Ankara Universiteti Azərbaycanın Elmlər Akademiyası ilə bağlıdır. Çünki Azərbaycanda Elmlər Akademiyası təhsillə məşğul deyildir. Onlar elmi tədqiqatlarla məşğuldur. Buna görə də bu əlaqələr çox əhəmiyyətli və önəmlidir.

Azərbaycanda elm adamları, elm mərkəzləri, universitetlər Türkiyə ilə, türk dünyası ilə bağlı olan bir çox məsələlər barədə araşdırmalar, tədqiqatlar aparırlar. Bunlar öz yerində. **Mənim təşəbbüsümlə Azərbaycanda böyük Atatürkün irsinin öyrənilməsi, araşdırılması mərkəzi yaradılıbdır. Bu mərkəz müstəqil bir təşkilat olacaqdır. Həm Elmlər Akademiyasının, həm də ölkəmizin bütün universitetlərinin bu sahədə ən bilikli adamları buraya toplaşacaqdır. Mən də - Azərbaycan Prezidenti də, bu mərkəzin fəxri başqanıyam. Güman edirəm ki, bu mərkəz Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha elmi-nöqteyi nəzərdən araşdıracaq və meydana çıxaracaqdır. Bu, geniş işbirliyi yaratmaq üçün bir daha imkanlar verəcəkdir.**

Ölkəmizin başçısı vurğulamışdır ki, mən çox məmnunam ki, sizin universitet Azərbaycan Elmlər Akademiyası ilə birbaşa bağlıdır. Ona görə də mən arzu edirəm ki, Ankara Universiteti mənim başqanlıq etdiyim mərkəzlə Atatürk irsinin araşdırılması, türk xalqlarının tarixinin və tarixi birliyinin tədqiq olunması sahəsində də iş görsün.

Bilirsinizmi, əziz dostlar, mən həyatımda çox mükafatlar almışam. Burada həyatım haqqında qısa məlumatlar verildi, hər halda, həyatımda çox işlər də görmüşəm, çox problemlərlə də rastlaşmışam. Ancaq mükafatlar çox almışam, həm Sovetlər Birliyinin, həm də bir çox ölkələrin mükafatlarını almışam. Bu mükafatlar içərisində mənim üçün ən yüksək mükafat 1999-cu ildə Türkiyə tərəfindən verilmiş Atatürk Beynəlxalq Sülh mükafatıdır. Mən bunu özüm üçün böyük şərəf hesab edirəm və bu adı həyatımın sonuna qədər böyük fəxrlə daşıyacağam.

Universitetlər də mənə çoxlu belə

fəxri adlar veriblər. Məsələn, 250 illik tarixi olan Moskva Dövlət Universiteti üç ay bundan öncə, - heç mənim bundan xəbərim olmayıbdır, - mənə oranın fəxri doktoru adını veribdir. Məni Moskvaya dəvət ediblər ki, gedib onu alım. Əgər gedə bilməsəm, onlar özləri Azərbaycana gələcəklər.

Mən vaxtilə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən, bütün Sovetlər Birliyinin elm və təhsil işlərinə başçılıq edirdim. O vaxt Sovetlər Birliyində 800-dən artıq universitet, Elmlər Akademiyası və sair var idi. Mən onlarla çox yaxın təmaslarda olmuşam. Amma o vaxtlar onlar bu adı verməyiblər. Çünki Sovetlər Birliyi zamanı belə şeylər bir qədər qadağan idi. Amma neçə illərdir ki, mən oradan ayrılmışam, - indi mən Azərbaycan kimi bir dövlətin başçısıyam, - amma 250 illik tarixi olan Moskva Dövlət Universiteti mənə fəxri doktor adı veribdir.

Mən Türkiyədə də bəzi universitetlərdən bu adı almışam. Ancaq Ankara Universitetinin, böyük Atatürkün qərarı ilə yaradılmış universitetin və bu qədər inkişaf etmiş bir təhsil ocağının, bu qədər çoxlu kadrlar hazırlamış universitetin fəxri doktoru adı mənim üçün çox yüksəkdir. Bir də ona görə ki, Türkiyənin bir çox dövlət adamları sizin universitetin məzunudur, - millət vəkilləri, nazirlər. Amma Türkiyənin bugünkü 10-cu Uümhur Başqanı, mənim əziz dostum və qardaşım Əhməd Necdət Sezər də sizin universitetdə təhsil alıbdır. Buradan həyata atılıbdır və siz ona o qədər yaxşı bilik vermisiniz və burada o qədər yaxşı təhsil alıbdır ki, artıq bu gün gəlib Türkiyənin Cümhur Başqanı səviyyəsinə çatıbdır.

Ona görə də mən bu gün burada hörmətli Cümhur Başqanı ilə bir yerdə olmağımdan çox məmnunam. Əziz dostum, mən sizi də təbrik edirəm ki, sizin təhsil aldığınız bir universitet indi bu qədər yüksək səviyyədədir. Düşünürəm ki, cümhur başqanı kimi siz təhsil aldığınız bu universitetə daha çox yardım edəcəksiniz.

Təqdimetmə mərasiminin sonunda ölkəmizin başçısı öz təşəkkürünü bildirmiş, Ankara Universitetinin fəxri doktoru adını şərəflə daşıyacağını əmin etmiş, Türkiyə və Azərbaycan arasında elm, təhsil sahəsində əlaqələrin inkişaf etməsində daha çox işlər görəcəyini bildirmişdir.

Daha sonra Prezident Heydər Əliyev azərbaycanlı rəssamın Bakının mənzərəsi təsvir olunmuş tablosunu Ankara Universitetinə hədiyyə etmişdir.

***

Azərbaycan Prezidenti Heydər Əliyev martın 16-da öz iqamətgahında - Camlı köşkdə Türkiyə Böyük Millət məclisinin deputatları Əli Günər, Aslan Haydar və Osman Gəzəgərlə görüşmüşdür.

***

Azərbaycan Prezidenti Heydər Əliyev elə həmin gün öz iqamətgahında - Camlı köşkdə Türkiyənin "Sabah" qəzetinin siyasi şərhçisi Füsun Mutluya müsahibə vermişdir.

***

Martın 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri başa çatmışdır.

***

22 mart 2001-ci ildə Azərbaycanın Müdafiyə Naziri S.Əbiyevin dəvəti ilə Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Plan və Əməliyyat İdarəsinin rəisi E.Ərdaq Bakıya gəlmişdir. Səfər zamanı Azərbaycanın Müdafiə Nazirliyi və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahı arasında hərbi əməkdaşlığın inkişafına dair protokol imzalanmışdır.

***

29-30 mart 2001-ci ildə Bakıda Azərbaycan-Türkiyə müştərək iqtisadi komissiyasının 2-ci iclası keçirilmişdir. Türkiyənin nümayəndə heyətinə dövlət naziri A.Çay rəhbərlik etmişdir. Azərbaycanın Prezidenti H.Əliyev Türkiyədən gələn nümayəndə heyətinin başçısını qəbul etmişdir.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev türkdilli dövlətlərin başçılarının 26-27 aprel 2001-ci il tarixdə İstanbul şəhərində keçirilən VII Zirvə görüşündə iştirak etmişdir.

Dövlətimizin başçısı yola düşməzdən əvvəl Bakının Binə beynəlxalq hava limanında curnalistlərin suallarına cavab verərək demişdir ki, bu, türkdilli dövlətlərin başçılarının VII Zirvə görüşüdür. Hər bir Zirvə görüşündə biz çox məsələlərə baxırıq. İndi bəyannamə hazırlanıb, razılaşdırılıbdır. Türkdilli dövlətlərin elm, mədəniyyət sahəsindəki işbirliyi, bizim tarixi köklərimiz, ədəbiyyat, mədəniyyət sahəsindəki şəxsiyyətlərimiz və bunların əsasında indi bizim türkdilli dövlətlər arasında çox yaxşı işbirliyinin yaranması, iqtisadi əlaqələr,- təbiidir ki, bu, əsas yer tutur. Mən sizə bildirmək istəyirəm ki, əvvəlki Zirvə görüşlərində də Dağlıq Qarabağ məsələsi barədə müzakirə keçirilməyibdir. Çünki bəzi türkdilli dövlətlərin başçıları deyirlər ki, bu birlik siyasiləşdirilməməlidir. Ancaq biz həmişə bu imkandan istifadə edib Dağlıq Qarabağ, yəni Ermənistan-Azərbaycan münaqişəsi haqqında öz sözümüzü deyirik. Təbiidir ki, mən bu dəfə də deyəcəyəm. Yəqin ki, başqa bir etiraz olmasa, o, İstanbul bəyannaməsində öz əksini tapacaqdır.

Aprelin 26-da İstanbulun məşhur Çırağan sarayında türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşü öz işinə başlamışdır. Zirvə görüşünü Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər giriş sözü ilə açmış, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Zirvə görüşündə çıxış etmiş, belə görüşlərin ənənəvi xarakter almasını yüksək dəyərləndirmişdir.

Dövlətimizin başçısı əmin olduğunu bildirmişdir ki, hazırkı Zirvə görüşü türkdilli ölkələrin çoxtərəfli əməkdaşlığının inkişafında, regionumuzda sülhün, sabitliyin, təhlükəsizliyin və etimadın daha da möhkəmləndirilməsində mühüm rol oynayacaqdır.

Azərbaycan Prezidenti xüsusi olaraq vurğulamışdır ki, tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi ölkələrimizin strateci əməkdaşlığının etibarlı təməlidir və bütün bunlar gələcəyə nikbin baxmağa əsas verir.

Dövlətimizin başçısı bildirmişdir ki, XXI əsr ölkələrimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv siyasi dialoq, qarşılıqlı faydalı əməkdaşlıq, xalqlarımız üçün isə ictimai tərəqqi və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin - milli azadlığımızın, dövlət müstəqilliyimizin və müştərək işbirliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq.

Prezident Heydər Əliyev ölkəmizdə mövcud ictimai-siyasi vəziyyət, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə

işlənilməsi üçün imzalanmış müqavilələr, hasil edilən neftin və qazın dünya bazarlarına nəqli istiqamətində görülən işlər, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşdırılması, türkdilli dövlətlərin iqtisadiyyatının dirçəldilməsində mühüm rol oynayan TRASEKA proqramı və böyük "İpək yolu"nun bərpası layihələri barədə ətraflı söhbət açmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün bu ilin mart ayında Parisdə, apreldə Ki Uestdə keçirilmiş görüşlərdən, aparılmış danışıqlardan geniş bəhs edən dövlətimizin başçısı bildirmişdir ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü xalqımıza böyük zərbələr vurmuşdur. Dünya birliyi belə təhlükələri aradan qaldırmaq üçün qəti tədbirlər görməlidir. Separatizmin, terrorizmin qarşısını almaq üçün dünya birliyi, eləcə də türkdilli dövlətlər birliyi səmərəli birgə fəaliyyət göstərməlidirlər.

Dövlətimizin başçısının çıxışı böyük diqqətlə dinlənmiş və alqışlarla qarşılanmışdır.

Elə həmin gün Çırağan sarayında Azərbaycan Prezidenti Heydər Əliyev ilə Türkiyə Prezidenti Əhməd Necdət Sezər arasında görüş olmuşdur.

Ali qonağı salamlamaqdan çox məmnun olduğunu bildirən Prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edərək türkdilli ölkələrin dövlət başçılarının VII Zirvə görüşündə iştirak etmək üçün İstanbula gəldiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirmişdir.

Sammitdə Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışını və nitqini böyük diqqətlə dinlədiyini nəzərə çarpdıran cənab Sezər, dövlətimizin başçısının türkdilli ölkələrin birliyinin daha da möhkəmləndirilməsi üçün irəli sürdüyü təklifləri, verdiyi tövsiyələri yüksək dəyərləndirmişdir.

Böyük dövlətçilik təcrübəsinə malik Prezident Heydər Əliyevin rəhbərliyi sayəsində son illər Azərbaycanda yaranmış müsbət dəyişiklikləri maraqla qarşıladığını söyləyən Prezident Əhməd Necdət Sezər, dost və qardaş ölkələrimiz arasında qurulmuş əlaqələrin böyük sürətlə inkişaf etməsindən məmnun qaldığını bildirmişdir.

İstanbula səfərə dəvətə və dost ölkədə ona göstərilən yüksək qonaqpərvərliyə görə Türkiyə xalqına və Prezident Əhməd Necdət Sezərə dərin minnətdarlığını ifadə edən dövlətimizin başçısı Heydər Əliyev, Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşünün yüksək səviyyədə təşkil olunmasından razılıqla bəhs etmişdir.

Xalqlarımızın iradəsinə söykənən, strateci tərəfdaşlıq xarakteri daşıyan əlaqələrimizin ildən-ilə daha da inkişaf etməsinin çox vacib olduğunu vurğulayan respublikamızın rəhbəri, ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair ABŞ-ın Florida ştatının Ki Uest şəhərində ABŞ administrasiyasının vasitəçiliyi, ATƏT-in Minsk qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistan Prezidentlərinin iştirakı ilə keçirilən görüşlərdən danışmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində, Prezident Heydər Əliyevin səylərini yüksək dəyərləndirən cənab Əhməd Necdət Sezər demişdir ki, ATƏT-in Minsk qrupunun üzvü kimi Türkiyə bu münaqişənin aradan qaldırılmasında fəallığını daha da artıracaqdır və Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəkdir.

Görüşdə Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası məsələləri barədə müzakirələr aparılmışdır.

Mehribanlıq və səmimi dostluq şəraitində keçən görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi, beynəlxalq aləmdə, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Aprelin 26-da axşam "Çırağan sarayı"nda Azərbaycan Prezidenti Heydər Əliyev ilə Türkmənistan Prezidenti Saparmurad Niyazov arasında görüş keçirilmişdir.

Həmin gün gecə Türkiyə respublikasının Prezidenti Əhməd Necdət Sezərin adından türkdilli ölkələrin dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunmuş, qəbulda Türkiyə Prezidenti Əhməd Necdət Sezər çıxış edərək, ali qonaqları bir daha salamlamışdır. Türkdilli ölkələrin dövlət başçıları adından Azərbaycan Prezidenti Heydər Əliyev nitq söyləmişdir.

Aprelin 27-də səhər İstanbuldakı Çırağan sarayında Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşünün bağlanış mərasimi keçirilmişdir. Mərasimdə Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Əsgər Akayev, Türkmənistan Prezidenti Saparmurad Niyazov, Özbəkistan Parlamentinin sədri Erkin Xəlilov və TÜRKSOY-un sədri, Azərbaycanın Mədəniyyət Naziri Polad Bülbüloğlu çıxış etmişər.

Natiqlər xarici siyasət və beynəlxalq münasibətlər sahəsində qarşılıqlı fəaliyyət üçün geniş imkanlar olduğunu, türkdilli dövlətlər birliyinə daxil olan ölkələrin Birləşmiş Millətlər Təşkilatı və digər qurumlar çərçivəsində yaxından əməkdaşlıq etdiyini, Avropada və ümumən dünyada təhlükəsizlik və əməkdaşlıqla bağlı əsas məsələlərdə çox vaxt oxşar və ya yaxın mövqe tutduqlarını vurğulamışlar.

Dövlət başçıları ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsi məsələlərinə də geniş yer vermişlər. İkitərəfli və çoxtərəfli əməkdaşlıqdan söhbət açan natiqlər beynəlxalq layihələr çərçivəsində görülən işlərə və bunun daha da genişləndirilməsinə xüsusi diqqət yetirmişlər. Qeyd etmişlər ki, türkdilli ölkələrin malik olduqları zəngin təbii sərvətlər, onların mövcud iqtisadi, elmi-texniki potensialı bu sahədə daha səmərəli əməkdaşlıq üçün əlverişli şərait yaradır. Bütün bunlar, habelə ölkələrimizin mühüm coğrafi mövqeyi regionun iqtisadi tərəqqi zonasına çevrilməsi, dünya iqtisadi sistemində layiqli yer tutması üçün yaxşı zəmindir. Bu, türkdilli ölkələr üçün həm də böyük siyasi üstünlüklər açır.

Beynəxalq iqtisadi əməkdaşlığın nümunəsi kimi Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşdırılması sahəsində görülən işlərdən, TRASEKA, böyük "İpək yolu"nun bərpası layihələrinin həyata keçirilməsindən söhbət açılmışdır.

Qədim və zəngin mədəniyyətə malik olan, bəşəriyyətə görkəmli şəxsiyyətlər bəxş etmiş türk dünyası xalqlarının bu sahədə əməkdaşlığının daha da genişləndirilməsinin vacibliyindən söhbət açan natiqlər bildirmişlər ki, bu, tarixən yaranmış

bənzərsiz mədəni irsimizi indiki nəsillərə qaytarmaqla yanaşı, onu dünyaya daha da yaxından tanıtmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha nümayiş etdirmək baxımından son dərəcə önəmlidir. Bu sahədə TÜRKSOY təşkilatının gördüyü işlər və ümumən onun fəaliyyəti barədə də məlumat verilmişdir.

Dövlət başçıları bir sıra digər sahələrdə də qarşılıqlı əlaqələri möhkəmləndirməyin zəruriliyindən, o cümlədən ekoloci təhlükəsizlik və ətraf mühitin qorunması problemlərinə diqqətin artırılmasından danışmışlar.

Türkdilli dövlətlərin başçılarının Zirvə görüşlərinin Daimi Katibliyinin və onun iqamətgahının Türkiyədə yerləşdirilməsi barədə təklif də səslənmişdir.

Türkmənistan Prezidenti növbəti, VII Zirvə görüşünün 2002-ci ildə Aşqabadda keçirilməsini təklif etmişdir.

Dövlət başçıları Zirvə görüşü zamanı hazırlanmış İstanbul bəyannaməsinin müddəalarını bəyəndiklərini bildirmişlər.

Elə həmin gün türkdilli ölkələrin dövlət başçıları İstanbul bəyannaməsini imzalamışlar. Bəyannamədə göstərilir:

"Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Türkmənistan Prezidenti Saparmurad Niyazov və Özbəkistan Respublikası Ali Məclisinin sədri Erkin Xəlilov 2001-ci il aprelin 26-27-də İstanbulda türkdilli ölkələrin dövlət başçılarının VII Zirvə görüşünü keçirmişlər.

Dövlət başçıları,

- aralarındakı tarix, mədəniyyət və dil birliyinin əhəmiyyətini, dostluq, hüquq bərabərliyi və qarşılıqlı mənafelərə hörmət ruhunda bütün sahələrdə dövlətlərarası münasibətlərin və əməkdaşlığın mövcud yüksək səviyyəsini qeyd edərək;

- öz müstəqilliyinin 10-cu ildönümünü qeyd edən Azərbaycan ın, Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın və Özbəkistanın siyasət, iqtisadiyyat, sosial həyat, hüquq sahəsində və digər sahələrdə mühüm islahatlar apardıqlarını, demokratikləşdirmə, insan haqlarının təmin olunması və bazar iqtisadiyyatı infrastrukturunun yaradılması prosesində xeyli tərəqqi olduğunu və bunun onların dünya birliyinə inteqrasiyasına kömək etdiyini vurğulayaraq;

- dünya birliyi ilə mövcud hərtərəfli münasibətləri möhkəmləndirmək səylərinin müstəqillik, suverenlik, təhlükəsizlik, ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı, hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq, zor işlətməmək və zor işlətməklə hədələməmək, iqtisadi və digər təzyiq üsulları tətbiq etməmək prinsipləri əsasında davam etdiriləcəyini bildirərək;

- milli iqtisadiyyatların möhkəmləndirilməsi, o cümlədən təbii ehtiyatlardan səmərəli istifadə olunması yolu ilə öz xalqlarının rifahını yüksəltməyə çalışaraq və bu baxımdan regional əməkdaşlığın rolunu və əhəmiyyətini dərk edərək;

- türkdilli dövlətlərin başçılarının müntəzəm surətdə keçirilən görüşlərinin faydasını nəzərə çarpdıraraq və Ankara, İstanbul, Bişkek, Daşkənd, Astana və Bakıda keçirilmiş Zirvə toplantılarının bəyannamələrinin əhəmiyyətini vurğulayaraq;

- Birləşmiş Millətlər Təşkilatı nizamnaməsinin məqsəd və prinsiplərinə, Helsinki yekun aktının və ATƏT-in digər əsas sənədlərinin müddəalarına sadiq qaldıqlarını təsdiqləyərək;

- türkdilli ölkələrin potensialını nəzərə alaraq və dostluq, mehriban qonşuluq, qarşılıqlı fayda və hüquq bərabərliyi ruhunda əməkdaşlığa XXI əsrdə yeni təkan verilməsinin zəruriliyinə diqqəti cəlb edərək, perspektivləri qeyd edərək və maraq doğuran beynəlxalq və regional məsələlər barədə fikir mübadiləsi apararaq bəyan edirlər:

1. Dövlət başçıları türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin müsbət inkişafını məmnunluqla bildirərək və bu münasibətləri qarşılıqlı surətdə faydalı əsasda və hüquq bərabərliyi əsasında müxtəlif sahələrdə daha da genişləndirməyin və dərinləşdirməyin zəruriliyini qeyd edərək, İstanbul Zirvə görüşünün bu istiqamətdə əhəmiyyətini vurğulamışlar.

2. Dövlət başçıları demokratiyaya, insan haqlarına, sekulyarizmə, sosial ədalətə və bazar iqtisadiyyatına sadiq olduqlarını təsdiqləmişlər.

3. Dövlət başçıları tarixi, dil və mədəni əlaqələrin möhkəmləndirilməsinə və bu istiqamətdə işin gücləndirilməsinə tərəfdar olduqlarını, TÜRKSOY-un təhsil və mədəniyyət sahəsində fəaliyyətinin müsbət töhfə verdiyini bildirmiş və bu təşkilatın fəaliyyətini bundan sonra da təşviq edəcəklərini vurğulamışlar.

4. Dövlət başçıları böyük "İpək yolu"nun bərpasının, regionda turizmin və iqtisadiyyatın inkişafına kömək edəcək hərtərəfli regional və beynəlxalq əməkdaşlığın inkişafı sahəsində işləri sürətləndirməyin zəruriliyini vurğulamışlar.

Bununla əlaqədar olaraq, dövlət başçıları müasir nəqliyyat sistemlərinin rolunu qeyd etmiş, həmin sahədə saziş və layihələri həyata keçirmək məqsədi ilə fəal əməkdaşlığı davam etdirməyin zəruriliyini təsdiqləmişlər.

5. Dövlət başçıları türkdilli ölkələrin mədəni və tarixi irslərini qoruyub saxlamaq sahəsində səylərin davam etdirilməsinə tərəfdar çıxmış və türk dünyasının ümumi dəyərlərini ortaya çıxarmaq, habelə xalqları yaxınlaşdırmaq üçün kütləvi informasiya vasitələri və ictimai təşkilatlar arasında əməkdaşlığın zəruriliyini təsdiqləmişlər.

6. Dövlət başçıları türkdilli xalqlar arasında dostluğu möhkəmləndirmək məqsədi ilə təhsil sahəsində sıx əməkdaşlığı dərinləşdirməyin vacibliyini təsdiqləmişlər.

7. Dövlət başçıları təbii ehtiyatların, o cümlədən neft və qazın hasilatının və istifadəsinin vacibliyini təsdiqləmiş və bununla əlaqədar olaraq nəzərə çarpdırmışlar ki, onlar öz ölkələrinin karbohidrogen xammalının dünya bazarlarına göndərilməsi üçün "Şərq-Qərb" enerci daşıyıcıları dəhlizinin gerçəkləşdirilməsində və istismarında əməkdaşlığa böyük əhəmiyyət verirlər.

Dövlət başçıları bildirmişlər ki, regionun müştərək enerci layihələrinin həyata keçirilməsi işində beynəlxalq və özəl maliyyə təşkilatlarını bundan sonra da təşviq edəcəklər.

8. Dövlət başçıları ətraf mühitin mühafizəsinə çox böyük önəm verərək, regionda, xüsusən Aral dənizi bölgəsində ekoloci vəziyyətin yaxşılaşdırılması üçün təxirəsalınmaz tədbirlər görülməsinə çağırmışlar.

9. Dövlət başçıları türkdilli ölkələr arasında ticarət-iqtisadi əlaqələri genişləndirmək məqsədi ilə ikitərəfli və çoxtərəfli layihələrin, xüsusən sənaye, kənd

təsərrüfatı, nəqliyyat, kommunikasiya və turizm sahəsində layihələrin hazırlanmasının və həyata keçirilməsinin əhəmiyyətini vurğulamışlar.

10. Dövlət başçıları öz ölkələrinin və regionun iqtisadi inkişafında kiçik və orta müəssisələrin rolunu nəzərə çarpdıraraq, onlar üçün lazımi kadrlar hazırlamaqdan ötrü texniki əməkdaşlığın əhəmiyyətini qeyd etmiş və sahibkarlar və biznesmenlərlə əməkdaşlığa əlverişli şərait yaradılmasına tərəfdar olduqlarını bildirmişlər.

11. Dövlət başçıları ayrı-ayrı türkdilli ölkələr arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsini dəstəklədiklərini bildirmişlər.

12. Dövlət başçıları parlamentlər, mərkəzi və yerli hakimiyyət və idarəetmə, özünüidarə orqanları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə xüsusi əhəmiyyət vermişlər.

13. Dövlət başçıları qlobal və regional sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi sahəsində BMT-nin, ATƏT-in və digər beynəlxalq təşkilatların səylərini dəstəklədiklərini bildirərək, mübahisələrin sülh yolu ilə həlli prinsiplərinə sadiq qaldıqlarını və bu baxımdan geniş əməkdaşlığın zəruriliyini vurğulamışlar.

Dövlət başçıları Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə prosesini dərinləşdirməyin zəruriliyinə tərəfdar olduqlarını bildirmiş, qeyd etmişlər ki, bu forum regionda sülh və sabitliyin təmin edilməsinin mühüm vasitəsidir.

Dövlət başçıları beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə ATƏT və İslam Konfransı Təşkilatı arasında əlaqələrin faydalı olduğunu nəzərə çarpdırmışlar.

14. Dövlət başçıları BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi haqqında müvafiq qətnamələrini və ATƏT-in qərarlarını dəstəklədiklərini bildirmiş və onların yerinə yetirilməsinin vacibliyini vurğulamışlar.

15. Dövlət başçıları regional və qlobal sülhə, dövlətlərin ərazi bütövlüyünə, müstəqilliyinə, təhlükəsizliyinə, habelə sabitliyinə və konstitusiya quruluşuna qorxu törədən terrorizm və separatizmin hər cür formalarını və təzahürlərini pisləmişlər.

Dövlət başçıları beynəlxalq terrorizmlə, habelə radikal və separatçı cərəyanlarla və narkotik maddələr, silah qaçaqmalçılığı kimi sərhədaşırı cinayətlərlə birgə mübarizənin vacibliyini vurğulamış, bu mübarizədə ikitərəfli və çoxtərəfli səviyyələrdə, habelə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmək əzmində olduqlarını təsdiqləmişlər.

16. Dövlət başçıları narkotiklərin və prekursorların qanunsuz istehsalı və satışının artması meylini nəzərə çarpdıraraq, öz ölkələrinin ərazisindən həmin maddələrin qanunsuz tranziti üçün istifadə edilməsindən narahat olduqlarını bildirmiş və narkotik maddələr qaçaqmalçılığı ilə mübarizədə daha sıx əlaqələndirməni təmin etmək, müntəzəm informasiya mübadiləsi üçün məlumat bankı yaratmaq işlərinə başlamaq haqqında razılığa gəlmişlər.

Dövlət başçıları beynəlxalq terrorizm, narkotik maddələr və silah qaçaqmalçılığı, mütəşəkkil cinayətkarlıq və qanunsuz miqrasiya ilə mübarizədə əməkdaşlığın vacibliyini vurğulamışlar.

Dövlət başçıları BMT-nin narkotiklərə beynəlxalq nəzarət proqramı da daxil olmaqla, dünya birliyinin bütün təşəbbüslərinə kömək göstərmək əzmində olduqlarını bildirmişlər.

17. Dövlət başçıları Əfqanıstandakı vəziyyətdən dərin narahatlıq keçirdiklərini bildirmiş və münaqişənin sülh yolu ilə tezliklə həlli üçün beynəlxalq birliyin göstərdiyi səyləri dəstəklədiklərini bəyan etmişlər.

18. Dövlət başçıları İstanbul Zirvə görüşünün türkdilli ölkələr arasında mövcud münasibətləri və əməkdaşlığı möhkəmləndirəcəyinə, regional sülhün, sabitliyin, təhlükəsizliyin, iqtisadi inkişafın və iştirakçı ölkələrin xalqlarının rəfahının təmin edilməsi işinə sanballı töhfə verəcəyinə əmin olduqlarını bildirmiş və səmimi qəbula, qonaqpərvərliyə görə türk xalqına və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərə təşəkkür etmişlər.

19. Dövlət başçıları VIII Zirvə görüşünü 2002-ci ildə Aşqabad şəhərində keçirməyi qərara almışlar.

Bəyannamə 2001-ci il aprelin 27-də İstanbul şəhərində hər biri türk və rus dillərində olmaqla altı nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir."

Beləliklə, aprelin 27-də Azərbaycan Prezidenti Heydər Əliyevin qardaş ölkəyə bu işgüzar səfəri də müvəffəqiyyətlə başa çatmışdır.

***

2001-ci ilin aprel ayının 30-da Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının maddi-texniki təminat rəisi H.Tolon Azərbaycanın Müdafiə Naziri S.Əbiyevin dəvəti ilə Bakıya gəlmişdir. Səfər zamanı iki ölkənin müdafiə nazirlikləri arasında əməkdaşlığın inkişafına dair bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Qonağı Azərbaycan Prezidenti H.Əliyev qəbul etmişdir.

***

May ayının 1-də Türkiyə Candarma Qüvvələrinin Baş Komandanı A.Yalman Azərbaycanın Daxili İşlər Naziri R.Usubovun dəvəti ilə Bakıya rəsmi səfərə gəlmişdir. Səfər zamanı iki ölkənin müvafiq strukturları arasında danışıqlar keçirilmiş, əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur. A.Yalmanı Azərbaycanın Prezidenti H.Əliyev qəbul etmişdir.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin "SNN-Türk" televiziya kanalının müxbiri Gürkan Zənginə 13 sentyabr 2001-ci il tarixdə müsahibə vermişdir.

***

Beləliklə, bu illər ərzində ölkələrimiz və xalqlarımız arasındakı dostluq və qardaşlıq əlaqələri durmadan yüksələn bir xətlə inkişaf etməkdədir ki, bu da Azərbaycan Prezidentinin apardığı siyasi xəttin nəticəsidir. Bu illər ərzində ölkələrimiz arasında 87 saziş və müqavilə imzalanmışdır Azərbaycan heç bir dövlətlə bu qədər mühüm və kəmiyyətcə çox sənəd imzalamamışdır. Əlaqələrimiz o qədər sürətlə inkişaf etməkdədir ki, bir neçə il bundan öncə bağlanmasına baxmayaraq bu sazişlərin bəziləri artıq zamanın tələblərinə cavab vermir və köhnəlmiş sayılır. Buna görə də hər iki tərəfin razılığı ilə hazırda onların üzərində iş gedir və yeni variantları hazırlanır.

Əlaqələrimizin nəzərə çarpan cəhətlərindən biri də odur ki, Azərbaycan heç bir ölkə ilə strateji əməkdaşlıq haqqında müqavilə imzalamamışdır. Hazırda əlaqələrimiz o yüksəkliyə çatmışdır ki, hər iki dövlət bir-birini strateji müttəfiq hesab edir. Yaxınlarda Türkiyə, Azərbaycan və

Gürcüstan arasında bağlanacaq yeni saziş isə ölkələrimizi müdafiə, terrorçuluğa və narkobiznesə qarşı mübarizə sahəsində də müttəfiq edəcəkdir.

Beləliklə, əlaqələrimiz durmadan inkişafdadır. Prezident Heydər Əliyevin Türkiyə Respublikası ilə qarşılıqlı münasibətlərdə nail oduğu böyük uğurlar faktların dili ilə daha aydın nəzərə çarpır. Əgər ölkələrimiz arasındakı əlaqələrin inkişaf dinamikasına ardıcıl şəkildə nəzər salsaq, bu, aydın görünər:

1. 8 - 11 fevral 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev Türkiyə Respublikasına dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etmişdir. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalanmışdır.

2. 9 - 10 iyun 1994-cü ildə Azərbaycan Prezidenti Türkiyəyə qısamüddətli işgüzar səfər etmişdir. Qısa bir müddət ərzində Prezident Süleyman Dəmirəl, Baş Nazir Tansu Çillər, Baş Nazirin birinci müavini Murad Qarayalçın, Xarici İşlər Naziri Hikmət Çətinlə ölkələrimiz arasındakı əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi məqsədi ilə danışıqlar və məsləhətləşmələr aparmışdır. Bununla yanaşı dünyanın bir çox ölkələrinin xarici işlər nazirlərinin İstanbulda olmasından istifadə edərək iki gün ərzində Prezidentimiz ABŞ-ın Dövlət Katibi Uorren Kristoferlə, Böyük Britaniyanın Xarici İşlər Naziri Duqlas Herdlə, o dövrdə Minsk qrupuna rəhbərlik edən İsveçin Xarici İşlər Naziri xanım Marqaret af Uqlasla, Avropa İqtisadi Birliyinin sədri, Yunanıstanın Xarici İşlər Naziri Karolos Papuliasla mühüm görüşlər keçirmiş, regionda vəziyyət və Qarabağ probleminin həlli yollarını onlarla müzakirə etmişdir.

3. 18 - 19 oktyabr 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyənin İstanbul şəhərində keçirilən Türkdilli Dövlət Başçılarının II Zirvə toplantısında iştirak etmişdir. Burada türkdilli xalqların hərtərəfli inkişafı və xüsusi ilə də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən "İstanbul bəyannaməsi" qəbul edilmişdir.

4. 1 - 2 noyabr 1994-cü ildə Prezident Heydər Əliyev Türkiyədə keçirilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yubiley tədbirlərində iştirak etmişdir.

5. Türkiyə Respublikasının Baş Naziri xanım T.Çillər və onu müşayiət edən Türkiyə hökumət üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasının Prezildenti, cənab Heydər Əliyevin dəvəti ilə 12 aprel 1995-ci il tarixində Bakıda qısa müddətli işgüzar səfərdə olmuş və bu səfər əsnasında, Türkiyə Respublikasının Neft Konsorsiumundakı 1,75%-lik payının Azərbaycanın neft payının hesabına 6,75%-ə qədər artırılması haqqında müqavilə imzalanmışdır. Türkiyə Respublikasının payının 6,75%-ə qədər artırılması Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb etdi.

6. Türkiyə Respublikasının Baş Naziri xanım T.Çillərin başçılıq etdiyi nümayəndə heyəti 1995-ci il iyul ayının 10-dan 12-dək Azərbaycan Respublikasında rəsmi səfərdə oldu. Səfər əsnasında T.Çillər Prezident Heydər Əliyev, Baş Nazir, Milli Məclisin sədri, Xarici İşlər Naziri və digər rəsmi şəxslər ilə görüşdü. Dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşlərdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli əlaqələrin vəziyyəti hərtərəfli müzakirə edildi, qarşılıqlı maraq kəsb edən regional

və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi aparıldı. Nümayəndə heyəti Axısxa türklərinin və Azərbaycan ictimaiyyətinin nümayəndələri və həmçinin Bakıda məskunlaşmış qaçqınlarla görüşlər keçirdi. Bu görüşlər də hər iki ölkənin KİV-i vasitəsi ilə geniş işıqlandırıldı ki, bu da qardaş türk xalqının qaçqınlarımızın çətin vəziyyəti ilə tanış olmasına bir daha geniş imkan yaratdı.

7. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəlin 1995-ci il dekabr ayının 7-dən 9-dək Azərbaycan Respublikasına rəsmi səfəri olmuşdur. Səfər zamanı ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və genişləndirilməsi perspektivləri nəzərdən keçirilmişdir. S.Dəmirələ Azərbaycan EA-nın fəxri akademiki diplomu təqdim edilmişdir. Prezident H.Əliyev və S.Dəmirəl birgə bəyanat imzalamışlar. Bəyanatda beynəlxalq əlaqələrdə BMT-nin rolunun gücləndirilməsinin, bölgədəki ixtilafların aradan qaldırılmasının və qlobal problemlərin həlli yollarının araşdırılmasına daha aktiv təsir göstərilməsinin vacibliyinə yer verilmiş və bir daha Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbi əks etdirilmişdir. Səfər əsnasında həmçinin iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafı haqqında memorandum, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında televiziya yayımları haqqında əməkdaşlıq müqaviləsi imzalanmış və iki ölkə arasında avtomobil daşımaları haqqında sazişin təsdiq olunması və qüvvəyə minməsi barədə notalar mübadiləsi edilmişdir.

8. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Baş Naziri M.Yılmaz və onu müşaiyət edən nümayəndə heyəti 1996-cı il aprel ayının 14-dən 15-dək Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur. M.Yılmaz Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev tərəfindən qəbul edilmişdir. O, digər rəsmi şəxslərlə də görüşlər keçirmişdir. Səfərin yekunu olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Baş Naziri M.Yılmaz "Azərbaycan-Türkiyə Birgə Bəyanatı"-nı imzalamışlar.

9. Azərbaycan Respublikası Milli Məclisinin sədri M.Ələskərovun dəvəti ilə Türkiyə Parlamentinin sədri M.Kalemli 1997-ci ilin mart ayının 19-dan 20-dək Bakıda rəsmi səfərdə olmuşdur.

10. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 30 aprel 1997-ci il də İstanbulda keçirilmiş Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak etmişdir.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının dövlət başçıları, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Birləşmiş Millətlər Təşkilatının və bir sıra digər beynəlxalq təşkilatların nümayəndələri, Qərb ölkələrinin, o cümlədən ABŞ-ın iş adamları toplantıda iştirak etmişlər. Konfransda ölkəmiz üçün çox önəmli olan və strateji xarakter daşıyan kommunikasiya layihələri, elektrik enerjisi sistemlərinin, habelə Avropa və Asiya qitələrinin bu cür sistemlərinin birləşdirilməsi və Xəzər dənizindən enerji daşıyıcılarının nəqli məsələləri müzakirə olunmuş, fikir mübadiləsi aparılmışdır. Qara dəniz İqtisadi Əməkdaşlığı Təşkilati İşgüzar Şurasının Türkiyə Respublikası

Xarici İqtisadi Əlaqələr Şurası ilə birlikdə təşkil etdiyi "Qara dəniz regionunda yeni imkanlar" biznes konfransında çıxış edən Azərbaycan Prezidenti nəzərdə tutulan bütün regional layihələrin həyata keçirilməsi üçün Azərbaycanın əlindən gələni edəcəyini bildirmişdir.

11.Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəlin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 5-8 may 1997-ci il tarixlərində Türkiyə Respublikasına ikinci dəfə rəsmi səfər etmişdir. Səfər iki ölkə arasındakı münasibətləri daha yüksək səviyyəyə qaldırmış və müxtəlif sahələri əhatə edən 9 sənəd imzalanmışdır. Bunlardan xüsusi əhəmiyyət kəsb edən və iki qardaş ölkənin gələcək əlaqələrinə təsir göstərən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateci əməkdaşlığın dərinləşməsi haqqında bəyannamə" oldu.

12. 13-14 fevral 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə işgüzar səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevə Türkiyənin "Nərgiz TV" televiziyasının 1997-ci il üçün "İlin dövlət adamı" mükafatı təqdim edilmişdir

13. 26 aprel 1998-ci il də Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəlin dəvəti ilə, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Trabzon şəhəri yaxınlığında Dərinər su bəndinin inşasının təməlatma mərasimində iştirak etmək məqsədi ilə Türkiyə Respublikasında bir günlük işgüzar səfərdə olmuşdur. Təməlatma mərasimində iştirak edən Azərbaycanın, Türkiyənin və Gürcüstanın Prezidentləri ikitərəfli və üçtərəfli münasibətlərin inkişafına dair müzakirələr aparmış və birgə bəyanat qəbul etmişlər.

14. 10 may 1998-ci il də Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəl Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin anadan olmasının 75 illik yubileyi ilə əlaqədar Bakıya birgünlük işgüzar səfərə gəlmişdir. İkitərəfli görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

15. 8-9 sentyabr 1998-ci il tarixlərində Azərbaycan Respublikasında beynəlxalq səviyyədə keçirilmiş tarixi "İpək yolu"nun bərpasına həsr edilmiş və Prezident Heydər Əliyevin sədrlik etdiyi konfransda Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəlin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmiş və ölkələrimiz arasındakı iqtisadi münasibətlərin inkişafında konfransın rolu qeyd edilmişdir.

16. 28-31 oktyabr 1998-ci il tarixlərində Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Respublikasının 75 illiyi münasibəti ilə Türkiyədə keçirilən bayram mərasimlərində iştirak etmişdir. Səfər zamanı Azərbaycan, Qazaxıstan, Gürcüstan, Özbəkistan və Türkiyə dövlət başçıları, habelə ABŞ-ın Enerci Naziri tərəfindən Bakı-Ceyhan neft-boru kəmərinin həyata keçirilməsinin vacibliyini əks etdirən Birgə Bəyannamə imzalanmışdır.

17. 17-31 yanvar 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Ankara Gülhanə Hərbi Tibb Akademiyasında müalicə olunmuşdur.

18. May - iyun 1999-cu ildə Azərbaycan Prezidenti Klivlenddən sonra Türkiyədə istirahət etmişdir.

19. 31 oktyabr-2 noyabr 1999-cu il tarixlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə səfərə gəlmişdir. O, İstanbul şəhərində zəlzələdən zərər çəkmiş bölgə sakinlərinə Azərbaycandan gətirilmiş humanitar yardımı təqdim etmişdir. Səfər əsnasında Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə "Atatürk adına beynəlxalq sülh mükafatı" təqdim olunmuşdur. Çankayada keçirilmiş təntənəli mərasimdə Türkiyə hökumətinin üzvləri, Ankara ictimaiyyətinin, diplomatik korpusun və KİV nümayəndələri iştirak etmişlər.

20. 17 noyabr 1999-cu ildə İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) V Zirvə görüşü keçirilmiş, orada Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitq söyləmişdir.

21. 18 - 19 noyabr 1999-cu ildə ATƏT-in İstanbulda keçirilən Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir. Keçirilən toplantıda Dağlıq Qarabağ probleminə dair geniş şərhlə çıxış edən Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev ATƏT-in Qafqaz və Orta Asiyadakı gələcək fəaliyyətinə və Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Paktının yaradılmasına dair əhəmiyyətli təkliflər irəli sürmüşdür. Sammitin ən əlamətdar hadisəsi isə XX əsrin çox mühüm layihəsi sayılan və mübahisəli müzakirələrə səbəb olan Bakı-Ceyhan neft kəmərinin çəkilişinə dair sazişin imzalanması olmuşdur. Həmin sazişi Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev, Türkiyə Respublikasının Prezidenti cənab S.Dəmirəl, Gürcüstan Respublikasının Prezidenti, cənab E.Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti cənab N.Nazarbayev və ABŞ Prezidenti cənab B.Klinton imzalamışlar. Region və bir sıra dünya dövlətləri üçün böyük iqtisadi və geostrateci əhəmiyyətə malik olan bu müqavilənin imzalanmasında Prezident Heydər Əliyevin səyləri və rolu sammit iştirakçıları tərəfindən xüsusi qeyd edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbul Zirvə toplantısı zamanı Qazaxıstanın, Moldovanın, Ukraynanın, Ermənistanın, Türkiyənin, Fransanın, ABŞ-ın Prezidentləri, Almaniyanın Kansleri, İsrailin Baş Naziri ilə ikitərəfli görüşlər keçirmişdir.

22. 27-28 noyabr 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin Ankara şəhərində işgüzar səfərdə olmuş, burada keçirilən "Təbiətin mühafizəsi və eroziyaya qarşı mübarizə" konfransında iştirak etmişdir. Sonra Türkiyə Respublikasının Prezidenti S.Dəmirəllə birlikdə onun vətəni olan Sparta şəhərinə getmiş, burada yerləşən Şövkət Dəmirəl adına Kardioloci mərkəzin, "Ülkü" orta məktəbinin, Süleyman Dəmirəl adına "Mədəniyyət və konqres mərkəzi"nin açılışında iştirak etmiş, Süleyman Dəmirəl adına Universitetin Araşdırma və tədqiqat xəstəxanasının təməlinin qoyulması mərasimində olmuş, S.Dəmirəl adına Universitet, klinik xəstəxana və bir sıra təhsil-tədris ocaqları ilə tanış olmuş, vilayətin ictimaiyyəti ilə geniş görüşlər keçirmişdir. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə S.Dəmirəl adına Sparta Universitetinin fəxri doktoru adı verilmişdir.

23. 9-10 yanvar 2000-ci ildə Azərbaycanın Prezidenti H.Əliyev Türkiyədə

işgüzar səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Prezidenti S.Dəmirəl, Baş Naziri B.Ecevit, Baş Qərargah Rəisi H.Kıvrıkoğlu, Baş Nazirin müavini D.Bahçeli ilə görüşmüş və iki tərəfi maraqlandıran məsələlər ətrafında danışıqlar aparmışdır.

24. Azərbaycan Respublikası Milli Məclisinin sədri M.Ələskərovun dəvəti ilə 2000-ci il fevral ayının 7-də Türkiyə Böyük Millət Məclisinin sədri Y.Akbulut ölkəmizə rəsmi səfərə gəlmişdir. Qonaq səfər zamanı Azərbaycanın Prezidenti H.Əliyev ilə görüşmüşdur. Y.Akbuluta BDU-nun fəxri doktoru adı verilmişdir.

25. 8-9 aprel 2000-ci ildə Türkiyənin Prezidenti S.Dəmirəl Türkdilli Dövlət Başçılarının VI Zirvə görüşündə və "Kitabi-Dədə Qorqud" dastanının 1300 iliyinə həsr olunmuş yubiley təntənələrində iştirak etmək üçün Bakıya gəlmişdir. Səfər zamanı S.Dəmirəl "Koç" bankın, "Şəhidlər xiyabanı"nda türk əsgərlərinin xatirə abidəsinin, türk inşaat şirkətləri tərəfindən ucaldılan çoxmərtəbəli yaşayış binaları kompleksinin açılışında iştirak etmişdir. Prezident H.Əliyev tərəfindən S.Dəmirələ Azərbaycanın fəxri vətəndaşı adı verilmişdir.

26. Türkiyənin Prezidenti Ə.N.Sezər Azərbaycan Prezidenti H.Əliyevin dəvəti ilə 11-12 iyul 2000-ci ildə Bakıda rəsmi səfərdə olmuşdur. Onu Xarici İşlər Naziri İ.Cem, Baş Nazirin müavini, Energetika və Təbii Ehtiyatlar Naziri C.Ersümer və digər rəsmi şəxslər müşayiət etmişlər.

Səfər zamanı Türkiyə Prezidenti A.Sezər Azərbaycanın Prezidenti H.Əliyev ilə təkbətək görüş keçirmişdir. Sonra Azərbaycan və Türkiyə nümayəndə heyətləri arasında geniş tərkibdə görüş olmuş, daha sonra dövlət başçıları birgə bəyanat imzalamışlar.

Türkiyənin Prezidenti və onu müşayiət edən şəxslər "Şəhidlər xiyabanı"nı ziyarət etmiş, Bakıda müvəqqəti məskunlaşmış qaçqınlarla görüşmüşlər.

27. Azərbaycan Prezidenti H.Əliyev 12-17 mart 2001-ci ildə Türkiyədə rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Prezidenti Ə.Sezər, Baş Naziri B.Ecevit, Böyük Millət Məclisinin sədri Ö.İzgi, Baş Nazirin müavinləri D.Bahçeli və M.Yılmaz, Baş Qərargah rəisi H.Kıvrıkoğlu ilə görüşüb danışıqlar aparmış, parlamentdə çıxış etmişdir. Dövlət başçımıza Ankara Universitetinin fəxri doktoru adı verilmişdir. İki ölkənin başçıları bir sıra beynəlxalq və regional məsələləri müzakirə etmiş, bölgəmizdə mövcud olan problemlər haqqında fikir mübadiləsi aparmışlar. Prezident H.Əliyev İstanbul Hərbi Akademisiyanın kursantları qarşısında çıxış etmişdir. Səfər zamanı 9 sənəd imzalanmışdır.

Dövlətimizin başçısına Ankara Universitetinin fəxri doktoru diplomu təqdim edilmişdir.

28. 26-27 aprel 2001-ci il tarixlərində İstanbulda Türkdilli Dövlət Başçılarının VII Zirvə toplantısı keçirilmişdir. Zirvə iştirakçıları aprel ayının 27-də birgə bəyanat imzalamışlar. Zirvə toplantısı zamanı Prezident H.Əliyev Türkiyə Prezidenti Ə.Sezər, Baş Nazirin müavini D.Bahçeli və Xarici İşlər Naziri İ.Cem ilə görüşmüş və danışıqlar aparmışdır.



AZƏRBAYCAN - İORDANİYA ƏLAQƏLƏRİ



(İordaniya Azərbaycan ilə 13 fevral 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

İordaniya 28 dekabr 1991-ci il də Azərbaycanın müstəqilliyini tanımışdır.

Bu ölkə İKT-yə üzv olan dövlətlər arasında Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkədir.

Ölkələrimiz arasında əlaqələr hələ sovet dövründə də mövcud olmuşdur. Bu dövrdə Heydər Əliyev sovet nümayəndə heyətinin başında İordaniyaya ziyarət etmiş, mərhum kral Hüseyn ibn Tələl ilə görüş keçirmişdir.

1993-cü ilin fevral ayında İordaniya Haşimiyyə Krallığının Baş Seremonomeysteri Əmir Raad bin Zayedin başçılıq etdiyi və tərkibində keçmiş Baş Nazirin müavini, Nəqliyyat Naziri Əli Süheymət olan yüksək səviyyəli nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur.

Səfər zamanı, 1993-cü ilin 13 fevral tarixində Azərbaycan Respublikası ilə İordaniya Haşimiyyə Krallığı arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol, birgə bəyanat və Azərbaycan Respublikası hökuməti ilə İordaniya Haşimiyyə Krallığı hökuməti arasında texniki, iqtisadi və mədəni əməkdaşlıq haqqında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır.

Dövlət başçılarımızın 2-ci görüşü Kasablanka Zirvə toplantısında, 13 dekabr 1994-cü ildə keçirilmişdir. Görüşdə Ermənistan - Azərbaycan münaqişəsinin mahiyyəti, bu təcavüzə hüquqi-siyasi qiymət verilməməsinin nəticələri, ATƏT və İKT xətti ilə görülən diplomatik tədbirlər, mübahisəli beynəlxalq məsələlərin həllində kifayət qədər təcrübəsi olan İordaniya kralının Qarabağ probleminin həllində ən yaxından iştirakı və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər müzakirə edilmişdir.

1999-cu ilin fevral ayında Kral Hüseynin dəfn mərasimində Azərbaycanın Misir Ərəb Respublikasındakı səfiri İ.Vəkilov iştirak etmişdir.

2000-ci ilin 28-30 yanvarında Davos Ümumdünya iqtisadi forumunda Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev ilə İordaniya Kralı II Abdullah arasında ikitərəfli görüş keçirilmişdir.

İordaniya Kralı II Abdullah, 2000-ci ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə ünvanladığı məktubunda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Prezidentinin birinci müavini İ.Əliyevi iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədilə İordaniyaya səfərə dəvət etmişdir.

2000-ci il may ayının 12-də, İordaniyanın Türkiyədəki və eyni zamanda Azərbaycandakı səfiri cənab Musa Brayzat özünün etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə təqdim etmişdir.

2000-ci ilin 6-7 iyun tarixlərində İor-

daniya krallığının sabiq vəliəhdi, mərhum Kral Hüseynin qardaşı, şahzadə Həsən bin Talal Azərbaycana səfər etmiş və ölkə rəsmiləri ilə görüşərək, dövlətlərimiz arasında iqtisadiyyat, mədəniyyət və elm sahələrində əlaqələrin inkişafı perspektivlərini müzakirə etmişdir.

2001-ci ilin 17-20 avqust tarixlərində Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini X.Xələfov başda olmaqla AR XİN-inin nümayəndə heyəti İordaniyada səfərdə olmuşdur.

X. Xələfovun başçılıq etdiyi heyət Kral II Abdallah tərəfindən qəbul edilmiş, ölkənin Xarici İşlər Naziri Əbdül İləh Əl-Xatıb, Xarici İşlər Nazirliyinin Baş Katibi Şəhir Bek, Ali Təhsil Şurasının Baş Katibi Ömər Sadifət, Səyahət Naziri Talib Əl-Rifəi və Ticarət Palatasının Sədri Heydər Muradla görüşmüşdür.

Səfər zamanı ali təhsil və turizm sahələrinə aid müqavilə layihələri baxılması üçün İordaniya tərəfinə təqdim olunmuşdur.

Azərbaycan ilə İordaniya arasında Dövlət və Hökumət Başçıları, xarici işlər nazirləri səviyyəsində mütəmadi məktub mübadilələri aparılır.



AZƏRBAYCAN - SƏUDİYYƏ ƏRƏBİSTANI ƏLAQƏLƏRİ



(Səudiyyə Ərəbistanı Azərbaycan ilə 24 fevral 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Ölkəmizin təkcə İKT ilə bütövlükdə deyil, həm də bu təşkilatın və regionun aparıcı dövlətləri olan Səüdiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, Pakistan və s. dövlətlərlə də qardaşlıq, dostluq, müttəfiqlik əlaqələri yaratması sevindirici haldır.

Əlbəttə, bu siyahının önündə Səudiyyə Ərəbistanı durur. Türkiyə və İrandan sonra islam dövlətləri arasında özünün ilk səfərini də Prezidentimiz bu ölkəyə etmiş, ölkə rəhbərliyi ilə görüşlər keçirmiş, danışıqlar aparmış, islam dünyasının müqəddəs yerləri sayılan Məkkə, Mədinə və Ciddə şəhərlərini ziyarət etmişdir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu ziyarət Prezidentimizin Kasablanka Zirvə toplantısında iştirakından bir neçə ay öncə baş tutmuşdur.

9 İyul 1994-cü il də Səudiyyə Ərəbistanına rəsmi səfərə yola düşərkən Binə hava limanında müxbirlərin suallarına cavab verən Azərbaycan Prezidenti ilk səfərlərindən birini etməsini bu ölkəyə bu cür aydınlaşdırmışdı:

"Dünya dövlətləri birliyində Səudiyyə Ərəbistanının özünə layiq yeri var. O, ərəb dünyasının inkişaf etmiş zəngin bir ölkəsidir. Eyni zamanda bu dövlət dünya müsəlmanlarının müqəddəs yerlərinin mühafizidir. Ona görə də bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaradılmalıdır. İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm. Güman edirəm ki, bu səfər yaxşı nəticələr verəcəkdir. Ən böyük nəticə kimi onu gözləyirəm ki, bizim müntəzəm əməkdaşlığımız üçün imkanlar yaranacaqdır. Səudiyyə Ərəbistanında bizim səfirliyimiz fəaliyyət göstərir. Bu günlərdə Səudiyyə Ərəbistanının səfiri də Azərbaycana gələrək öz etimadnaməsini təqdim edəcəkdir. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri, turist mübadiləsi, mənəvi əlaqələr genişlənəcəkdir.

Hər il müsəlmanlar Səudiyyə Ərəbistanına ziyarətə gedirlər. Onların arasında Azərbaycandan gedənlər də olur. Ola bilər ki, bu barədə də danışıqlarımız olsun ki, Azərbaycandan ziyarətə gedənlərə orada necə kömək göstərə bilərlər.

Mən bu səfərə böyük məmnuniyyətlə gedirəm. Səudiyyə Ərəbistanı məni həm bir ölkə kimi maraqlandırır, həm də müsəlmanların müqəddəs yeri kimi oraya ziyarət edəcəyimi çox böyük həyəcanla gözləyirəm."

Azərbaycan Prezidentinin bu ölkəyə səfəri həm ölkə daxilində, həm də xaricində böyük maraq doğururdu. Səfər bir çox

Şərq ölkələrinin və MDB dövlətlərinin KİV-i ilə geniş şəkildə işıqlandırılır, addım-addım izlənilirdi. İslam dininə 70 illik biganəlikdən, onunla ayrılıqdan sonra bu səfər əslində MDB dövlətlərinin gələcək siyasətinin istiqamətlərini müəyyənləşdirir, bu ölkələri yenidən islam dünyası məhvərinə qaytarırdı. Ölkəmiz isə nəhayət öz siyasətində yalnız qonşu dövlətlərlə əlaqələr qurmaq çərçivəsindən kənara çıxaraq ilk növbədə hər cəhətdən bizə yaxın və doğma olan Şərqə yönəlir, bununla yanaşı "islama qayıdış" ruhunu yenidən dirçəldir, mənəvi dəyərlərimizin bərpası istiqamətində cəsarətli və lazımlı addımlar atırdı.

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev İki Müqəddəs Ocağın Xadimi Kral Fəhd, İslam Konfransı Təşkilatı, İslam İnkişaf Bankı, islam aləmi Liqasının rəhbərləri və b. rəsmi şəxslərlə danışıqlar aparmış, Kəbəyə ümrə ziyarəti etmişdir.

11 iyul 1994-cü il tarixdə Ciddə şəhərindəki mətbuat konfransında dövlət başçımızın səfərlə bağlı çıxışı olduqca səciyyəvidir. Səfərin müstəqil Azərbaycan dövləti üçün əhəmiyyətindən danışan Prezident öz çıxışında göstərmişdir ki, mən Səudiyyə Ərəbistanında iki müqəddəs şəhərin xadimi, əziz dostum və qardaşım, məlik Fəhd ibn Əbdül Əziz əl-Səudun dəvəti ilə rəsmi səfərdəyəm. Bu səfər müstəqil Azərbaycan Respublikası üçün çox mənalı və əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, biz müqəddəs torpağa - Səudiyyə Ərəbistanına gəlmişik və buradakı iki müqəddəs şəhəri ziyarət etməyimiz üçün imkan yaranmışdır. Səfərin əhəmiyyəti bir də ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi mən ərəb ölkələrindən ilk dəfə Səudiyyə Ərəbistanına gəlmişəm. Səudiyyə Ərəbistanı ərəb dünyasında, islam aləmində çox görkəmli yer tutur. Ona görə də mənim ilk səfərimin buraya olması təsadüfi deyildir. Səudiyyə Ərəbistanı məlikinin, iki müqəddəs şəhərin xadiminin məni buraya rəsmi səfərə dəvət etməsi mənim üçün çox əziz və qiymətlidir.

Biz bu müqəddəs torpağa qədəm qoyduğumuz andan buradakı qardaşlarımızın, dostlarımızın mehribanlığını hər dəqiqə hiss edirik. Səfərin lap başlanğıcından indiyədək dostluq, mehribanlıq və qardaşlıq şəraitində keçir. Mənim üçün və nümayəndə heyətimizin üzvləri üçün ən qiymətli cəhət ondan ibarətdir ki, biz bu ölkəyə gəlişimizin ilk günü müqəddəs Kəbəni ziyarət etdik və müsəlmanlıq borcumuzu yerinə yetirmək, nəhayət, bizə qismət oldu. Müqəddəs Məkkə şəhərində olmaq, müqəddəs Kəbə daşına toxunmaq və Kəbədə namaz qılmaq bizim üçün böyük şərəfdir. Bu şərəfə nail olduğuma görə, bu niyyət və arzularıma çatdığıma görə Allah-Təalaya minnətdarlığımı bildirirəm, taleyimə şükür edirəm və iki müqəddəs şəhərin xadiminə, əziz dostuma minnətdarlığımı bildirirəm. Biz bu ziyarətdən çox məmnunuq və bu ziyarət Səudiyyə Ərəbistanına səfərimizin ilk gününü tamamlamışdır.

Səudiyyə Ərəbistanına səfərin bir məqsədinin də bu ölkə ilə müstəqil Azərbaycan Respublikası arasında əlaqələr yaratmaq və bu əlaqələrin gələcək inkişaf yollarını müəyyənləşdirmək olduğunu bildirən dövlət başçımız İki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki Fəhd ibn Əbdül Əziz əl-Səudla görüşün və çoxsaatlıq danışıqların buna yaxşı zəmin yaratdığını söyləmişdir. O demişdir: "Danışıqlarımız dostluq və mehribanlıq şəraitində keçmiş, mənə ən yüksək səviyyədə qonaqpərvərlik göstərilmişdir. Ən başlıcası isə, danışıqlarımız çox məzmunlu və mənalı, müstəqil Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əlaqələrin yaranması üçün çox əhəmiyyətli olmuşdur. Biz bütün məsələlər barədə geniş fikir mübadiləsi etdik. Ölkələrimiz arasında əlaqələrin perspektivləri haqqında ümumi fikrə gəldik və hər ikimiz bu əlaqələrin yaranmasına, inkişafına xeyir-dua verdik. Biz həmçinin islam aləmində olan vəziyyət, beynəlxalq vəziyyət haqqında geniş fikir mübadiləsi etdik.

İki Müqəddəs Ocağın Xadimi, məlik Fəhd ibn Əbdül Əziz əl-Səud müstəqil Azərbaycan Respublikasının keçmişinə və bugünkü vəziyyətinə çox böyük maraq göstərdi. Biz keçmiş Sovetlər İttifaqına daxil olmuş indiki müstəqil respublikalardakı vəziyyət barədə də ətraflı söhbət etdik. Xüsusən Qafqaz regionundakı vəziyyət və Azərbaycan ilə Ermənistan arasında gedən müharibə, Ermənistanın Azərbaycana təcavüzü haqqında ətraflı məlumat verdim və biz bu barədə geniş müzakirə apardıq. İki müqəddəs şəhərin xadimi və Səudiyyə Ərəbistanının yüksək vəzifəli şəxsləri ilə görüşlər və danışıqlar Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında dostluq, qardaşlıq əlaqələrinin yaranması və inkişafı üçün çox əhəmiyyətli oldu.

Səfər zamanı mən Səudiyyə Ərəbistanının Sənaye-Ticarət Palatasında oldum, palatanın üzvləri, ölkənin iş adamları ilə görüşdüm. Guman edirəm ki, bu görüş və Səudiyyə Ərəbistanının iş adamlarını Azərbaycana dəvət etməyim, Azərbaycanda iş aparmaq üçün geniş imkanlar yaradılacağını bildirməyim onları Azərbaycanda işləməyə sövq edəcəkdir və bütün bunlar ölkələrimiz arasında iqtisadi əlaqələrin yaranmasına kömək göstərəcəkdir.

Uiddədə yerləşən və islam dünyasını təmsil edən beynəlxalq təşkilatların - İslam Konfransı Təşkilatının, İslam Birliyi Təşkilatının, Beynəlxalq İslam "Nicat" Təşkilatının, İslam İnkişaf Bankının, İslam Rabitə Təşkilatının rəhbərləri ilə də görüşlərim oldu. Danışıqlar zamanı həmin təşkilatların Azərbaycanla əlaqələri haqqında fikir mübadiləsi apardıq və onlara müraciət edərək Azərbaycana daha diqqətlə yanaşmağa çağırdım.

Səfər müddətində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Həsən Həsənov Səudiyyə Ərəbistanının Xarici İşlər Naziri ilə danışıqlar aparmışdı. Bu ölkənin qanunlarına uyğun olaraq, xarici işlər nazirləri Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Baş Saziş imzalamışlar. Həmin saziş ölkələrimiz arasında iqtisadi, elmi-texniki, mədəni, turizm və başqa sahələrdə əməkdaşlığın inkişafı ilə bağlı olan mühüm sənəddir. Mən burada rəsmi səfərdəyəm, ölkənin qanunlarına, adət-ənənələrinə hörmət edirəm və həmin sənədi dövlətlər arası mühüm bir saziş kimi qəbul edirəm.

Səfərimin yekunları ilə əlaqədar Səudiyyə Ərəbistanı məmləkətinin və Azərbaycan Respublikasının birgə bəyanatı olacaq və şübhəsiz, bu sənəddə ölkələrimiz arasındakı əlaqələr və həmin əlaqələrin perspektivləri öz əksini tapacaqdır.

Bir daha deyirəm ki, mənim Səudiyyə Ərəbistanına səfərim Azərbaycan Respublikası üçün həddən artıq əhəmiyyətlidir. Bu səfərlə biz Azərbaycan Respublikasının islam dünyasına aid olduğunu bir daha nümayiş etdiririk və mən çox məmnunam ki, islam aləmində görkəmli yer tutan Səudiyyə Ərəbistanı kimi bir dövlətlə bizim dostluq və qardaşlıq əlaqələrimiz yaranır.

Guman edirəm ki, həm Azərbaycanın, həm də Səudiyyə Ərəbistanının ictimaiyyəti danışıqlarımızın və mənim buraya səfərimin yekunlarını bəyənəcəklər. Qətiyyətlə deyə bilərəm ki, bu səfər və onun yekunla-

rı Azərbaycan Respublikasında böyük ehtiramla qəbul ediləcəkdir.

Buradakı danışıqlarımızın və görüşlərimizin ən böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, Səudiyyə Ərəbistanına müstəqil Azərbaycan Respublikası haqqında, onun bugünkü ağır vəziyyəti barədə geniş məlumat vermək imkanı qazandıq. Bilirsiniz ki, Azərbaycan iki il bundan əvvəl müstəqillik əldə etmiş və xalqımız milli azadlığa qovuşmuşdur. Ondan əvvəl Azərbaycan təxminən 200 il ərzində Rusiyanın, sonra isə Sovetlər İttifaqının tərkibində olmuşdur. İndi Azərbaycan xalqının istiqlaliyyət qazanması, milli azadlığa nail olması ölkəmiz üçün böyük tarixi hadisədir. Hazırda Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxildir. Beynəlxalq təşkilatların üzvüdür. Xalqımız özü öz taleyinin sahibidir.

Ancaq bu müstəqillik yolunda Azərbaycanın qarşısında çox mürəkkəb, çətin problemlər durur. Problemlərdən biri ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikası keçmiş ictimai-siyasi və iqtisadi quruluşdan dünyanın bütün ölkələrinin mənsub olduğu bir quruluşa keçid mərhələsindədir. Şübhəsiz ki, 70 il kommunist ideologiyası ilə, sosialist sistemində yaşamış Azərbaycan xalqı tamamilə yeni bir quruluşa keçərkən çətin problemlərlə rastlaşır. Bu isə Azərbaycan Respublikasını dərin sosial-iqtisadi böhran vəziyyətinə gətirib çıxarmışdır. Bu, təbii haldır, biz həmin mərhələni keçməliyik. Çünki bunsuz yeni sistemə keçmək mümkün deyildir. Bu, keçmiş Sovet İttifaqına daxil olan indiki müstəqil respublikaların hamısına aiddir.

Azərbaycanın vəziyyətini daha da ağırlaşdıran bir səbəb də qonşu Ermənistan respublikasının ölkəmizə qarşı altı ildən artıq davam edən hərbi təcavüzüdür. Bu təcavüz Azərbaycana çox böyük bəlalar gətirmişdir. Altı ildir ki, Azərbaycan öz torpaqlarını qorumaq, ərazisinin bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün qanlı döyüşlər aparır. Müstəqil Azərbaycan dövləti məhz belə bir şəraitdə yaranmışdır və istiqlaliyyət yolunda ilk addımlarını atır.

Mən burada səfərdə olarkən bir daha hiss etdim ki, Azərbaycanın indiki vəziyyəti, ümumiyyətlə, ölkəmiz haqqında və Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması haqqında Səudiyyə Ərəbistanında, Azərbaycandan uzaqda yerləşən bütün ölkələrdə çox az məlumat var, bəzi məlumatlar isə ayrı-ayrı dövlətlərin informasiya kanallarından alındığına görə obyektiv xarakter daşımır. Ona görə də Səudiyyə Ərəbistanının informasiya vasitələri üçün Azərbaycan haqqında qısaca məlumat vermək istəyirəm.

Bildiyiniz kimi, Azərbaycan Qafqazda yerləşir, əhalisi 7 milyon nəfərdir, müsəlman ölkəsidir. Sovetlər İttifaqının tərkibində olduğu 70 il ərzində müsəlman ölkəsi kimi onun dini qadağan edilmişdi. Ancaq buna baxmayaraq, azərbaycanlılar öz dinini qoruyaraq nəsildən-nəsilə qəlblərində saxlamışlar. Azərbaycan istiqlaliyyət qazandıqdan sonra milli adət-ənənələrimizi bərpa edərkən islam dini də öz yerini tutmuşdur.

Azərbaycanın böyük iqtisadi, elmi, mədəni potensialı var. Xalqımız öz tarixi keçmişi, kökləri ilə müsəlman ölkələri, o cümlədən Səudiyyə Ərəbistanı ilə çox möhkəm tellərlə bağlıdır. Bildiyiniz kimi, Azərbaycan islam dinini VII əsrdə qəbul etmişdir. Məni müşayiət edən Səudiyyə Ərəbistanının Həcc naziri belə məlumat verdi ki, onun tədqiqatları islam dininin yayıldığı ilk ölkələrdən birinin Azərbaycan olduğunu

göstərir. Bizim adət-ənənələrimiz bir-birinə çox oxşayır və ola bilər, eynidir. Bizə məlumdur ki, Səudiyyə Ərəbistanında - müqəddəs Məkkə və Mədinə şəhərlərində əsrlər boyu azərbaycanlılar da yaşamışlar və bu kökdən olan adamlar indi də yaşayırlar. Bütün bunlar bir daha sübut edir ki, bizim mədəniyyətimizin, mənəviyyatımızın mənbəyi eynidir.

Azərbaycan Respublikası yeraltı və yerüstü sərvətlərlə zəngindir. Başlıca sərvətimiz neftdir. Azərbaycanda neft sənayesinin 150 illik tarixi var. Buna baxmayaraq, onun gələcəyi böyükdür. Azərbaycanın inkişaf etmiş sənayesi, kənd təsərrüfatı məhsulları istehsalı üçün geniş imkanları, böyük elmi mərkəzləri, tanınmış alimləri var. Bizdə çoxlu universitet fəaliyyət göstərir. Ölkədə, demək olar, savadsız adam yoxdur. Belə bir potensialı olan respublika, təəssüf ki, Ermənistanın təcavüzü nəticəsində bu potensialdan istifadə edərək öz həyatını istədiyi kimi qurmaq imkanından məhrumdur.

Ermənistan Azərbaycanla qonşu olan kiçik dövlətdir. Bildiyiniz kimi, ermənilər başqa dinə mənsubdurlar. Onların Azərbaycana təcavüzünün məqsədi torpaqlarımızın bir qismini zəbt edərək öz ərazilərinə birləşdirməkdir. Ayrı-ayrı böyük dövlətlərin informasiya vasitələri bəzən qeyri-obyektiv məlumat verərək, Azərbaycana qarşı bu hərbi təcavüzü iki ölkə arasında sərhəd mübahisəsi kimi izah edirlər, yaxud da hər iki dövlətin eyni dərəcədə günahkar olduğunu göstərməyə çalışırlar. Belə məlumatları ayrı-ayrı böyük dövlətlər, əsasən Ermənistana kömək edən, bu təcavüzdə onu dəstəkləyən informasiya vasitələri Azərbaycan haqqında qeyri-obyektiv fikir yaratmaq üçün qəsdən yayırlar. Bu vəziyyətin yaranmasının bir səbəbi də Azərbaycan haqqında həqiqətin başqa ölkələrdə, o cümlədən müsəlman ölkələrində yayılması sahəsində imkanlarımızın zəif olmasıdır.

Əsl vəziyyət bundan ibarətdir ki, 29 min kvadrat kilometr ərazisi və 3,5-4 milyon əhalisi olan Ermənistan Respublikası kimi kiçik bir dövlət 86 min kvadrat kilometr ərazisi və bayaq dediyim kimi, 7 milyon əhalisi olan Azərbaycana hücum edərək onun ərazisinin bir qismini zəbt etmişdir.

Azərbaycan ərazisinin 20 faizi indi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, bir milyonadək azərbaycanlı, müsəlman yurd-yuvasını itirərək qaçqın vəziyyətində Azərbaycanın başqa bölgələrində yaşamağa məcbur olmuşdur. Ermənistan silahlı qüvvələri ilə Azərbaycan ordusu arasındakı döyüşlər respublikamızın ərazisində gedir. Ermənistan Azərbaycanın ərazisində mövcud olan, keçmişdə Dağlıq Qarabağ vilayəti adlanan əraziyə iddia edir və orada yaşayan əhalinin çox hissəsi erməni olduğuna görə həmin ərazini Ermənistana birləşdirmək istəyir. Həmin Dağlıq Qarabağda yaşayan 50 min azərbaycanlı da ermənilər tərəfindən oradan zorla çıxarılmışdır və indi qaçqın vəziyyətindədir. Azərbaycanın bir sıra başqa məntəqələri kimi, Dağlıq Qarabağ da erməni silahlı qüvvələrinin işğalı altındadır.

Azərbaycan xalqı öz torpağını müdafiə edərək çox şəhidlər vermişdir. Xalqımız bu gün də öz ərazisini müdafiə etmək əzmindədir. Hazırda yaranmış vəziyyət heç də Ermənistanın Azərbaycandan güclü olduğunu göstərmir. Dünyanın bir neçə güclü dövləti Ermənistana himayədarlıq edir, bu müharibədə ona kömək edir. Məhz buna görə də Ermənistan silahlı qüvvələri müharibədə müəyyən qədər üstünlük əldə edə bilmişlər. Lakin biz bunu müvəqqəti hal sayırıq. Müstəqil dövlət kimi Azərbaycan öz

sərhədləri daxilindəki ərazisinin sahibi olmalıdır. Beynəlxalq prinsiplərə, normalara riayət edən dünya birliyi gərək Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsi üçün lazımi və təsirli qərarlar çıxarsın.

Müharibəni Azərbaycan yox, Ermənistan başlamışdar. Biz yalnız öz torpaqlarımızı qoruyuruq və bu müharibəyə sülh yolu ilə son qoymaq istəyirik. Ona görə də beynəlxalq təşkilatların fəaliyyətinə, onların qərarlarına çox ümid bəsləyirik. Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Həmin qətnamələrdə erməni işğalçılarının Azərbaycan torpaqlarından qeydşərtsiz çıxması tələbi qəti şəkildə irəli sürülmüşdür. Ancaq Ermənistan bu qətnamələri yerinə yetirmək istəmir.

Məsələnin sülh yolu ilə həll olunması üçün ATƏM və onun tərkibində yaradılmış Minsk qrupu da böyük fəaliyyət göstərir. Biz ATƏM-lə yaxından əməkdaşlıq edir və ona böyük ümid bəsləyirik. Eyni zamanda böyük dövlətlər, o cümlədən Rusiya Ermənistan-Azərbaycan müharibəsinə son qoymaq üçün vasitəçilik səyləri göstərirlər.

İslam Konfransı Təşkilatının da bu məsələyə qarışması çox əhəmiyyətli olardı. Həmin təşkilatın rəhbərləri ilə görüşdə mən bu fikrimi onlara bildirdim. Zənnimcə, İslam Konfransı Təşkilatı bu sahədə ATƏM-lə birlikdə fəaliyyət göstərə bilər.

Regionda sülh yaranması, Azərbaycanın müharibədən xilas olması üçün biz ABŞ-ın fəaliyyətinə də çox ümid bəsləyirik. Mənim ABŞ Prezidenti cənab Bill Klintona məktublarımda və onun göndərdiyi cavablarda bu məsələ müzakirə olunur. Mən iyunun 9-da Birləşmiş Ştatların Dövlət Katibi cənab Kristoferlə İstanbulda görüşəndə də bu məsələni onunla geniş müzakirə etdim. Guman edirik ki, ABŞ, Avropanın böyük dövlətləri bizim vəziyyətimizə biganə qalmayacaqlar və regionda sülhün bərqərar olması, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlarımızdan çıxarılması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması üçün səylərini əsirgəməyəcəklər.

Dediyim kimi, müharibə ilə əlaqədar biz ağır sosial-iqtisadi vəziyyətdə yaşayırıq. Təsəvvür edin, ölkənin 7 milyonluq əhalisinin bir milyonu qaçqın vəziyyətindədir. Bununla əlaqədar dünyanın bir çox ölkəsi Azərbaycana humanitar yardım göstərir. Buraya səfərim ərəfəsində Səudiyyə Ərəbistanı rəhbərinin, iki müqəddəs şəhərin xadiminin göstərişinə əsasən Azərbaycan qaçqınlarına iki böyük təyyarə ilə humanitar yardım göndərilmişdir. Beynəlxalq İslam "Nicat" Təşkilatı Bərdə rayonunda yerləşdirilmiş 10 min nəfər, Sumqayıtda sığınacaq tapan 3 min nəfər qaçqını himayəyə götürmüşdür. İran İslam Cümhuriyyəti 100 min qaçqına himayədarlıq edir. Türkiyə Cümhuriyyətinin "Qızıl Ay" təşkilatı 15-20 min qaçqının təminatını öz üzərinə götürmüşdür. Bütün bunlar bizim vəziyyətimizi xeyli yüngülləşdirir və mən buna görə həmin ölkələrə, təşkilatlara minnətdarlığımı bildirirəm. Lakin bu yardımlar yaralarımızı tamamilə sağalda bilmir. Belə bir vəziyyətdə Azərbaycanın böyük dövlətlərin, xüsusən müsəlman ölkələrinin, o cümlədən Səudiyyə Ərəbistanı kimi zəngin ölkənin yardımına ehtiyacı var və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizə kömək göstəriləcəkdir.

Müstəqil Azərbaycan dövlətinin rəhbər tutduğu prinsipləri bir daha xatırlatmaq istəyirəm. Azərbaycan müstəqil dövlətdir, öz milli azadlığını daim qoruyacaq və bir

daha başqa dövlətin əsarəti altına düşməsinə yol verməyəcəkdir. Azərbaycan keçmiş kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və bir daha bu yola dönməyəcəkdir. Azərbaycan bir dövlət kimi müsəlman dünyasına mənsubdur və islam aləmində öz görkəmli yerini tutmağa çalışacaqdır. Ölkəmizdə demokratik prinsiplər - insan azadlığı, söz və xüsusən din, vicdan azadlığı təmin edilir və bundan sonra da təmin ediləcəkdir. İqtisadiyyatımız gələcəkdə də bazar münasibətləri yolu ilə gedəcək, sahibkarlığa, xüsusi mülkiyyətə, təşəbbüskarlığa geniş meydan açmaq prinsipləri əsas götürüləcəkdir. Beləliklə də Azərbaycanın iqtisadiyyatı inkişaf etmiş ölkələrin iqtisadiyyatı ilə yaxından təmasda olacaqdır.

Bütün bu prinsipləri həyata keçirmək, tutduğumuz yolla irəliləmək, məqsədlərimizə çatmaq üçün Azərbaycanın daxili imkanları var və bunlardan səmərəli istifadə etməyə çalışacağıq. Ancaq Azərbaycanın indi müharibə şəraitində olması, torpaqlarının bir hissəsinin işğal altında qalması, ölkənin sosial-iqtisadi böhran keçirməsi onun vəziyyətini çox ağırlaşdırmışdır. Bu vəziyyətdən çıxmaq üçün biz dost və qardaş ölkələrin köməyinə ümid bəsləyirik.

Azərbaycanın indiki vəziyyəti haqqında ərəb ölkələrində, xüsusən də Səudiyyə Ərəbistanında geniş məlumat yaymaq üçün biz burada Azərbaycanın informasiya mərkəzinin, mədəniyyət mərkəzinin yaradılmasını, eyni zamanda Səudiyyə Ərəbistanının Azərbaycanda mətbuat nümayəndəliyinin və ya bu ölkənin istədiyinə uyğun olaraq başqa təşkilatların yaranmasını alqışla və minnətdarlıq hissiylə qəbul edərdik.

Guman edirəm ki, mənim səfərim, buradakı görüşlər və bugünkü mətbuat konfransı ölkələrimiz arasında möhkəm körpü yaradır və hər iki tərəf bundan səmərəli istifadə etməyə çalışmalıdır.

Məni və nümayəndə heyətimizin üzvlərini daha bir müqəddəs ziyarət gözləyir. Sabah biz müqəddəs Mədinə şəhərini ziyarət edəcəyik. Guman edirəm ki, Azərbaycana qayıdandan sonra bu müqəddəs yerlər haqqında daha geniş məlumat verəcəyik və eyni zamanda müstəqil dövlətimizin inkişaf etməsi üçün yeni qüvvə ilə çalışacağıq.

Çıxışımı tamamlayarkən səfərimiz zamanı bizə yaradılan hər cür imkan üçün iki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki, əziz dostum və qardaşım Fəhd ibn Əbdül Əziz əl-Səuda bir daha minnətdarlığımı bildirirəm. Səudiyyə Ərəbistanının vətəndaşlarına, qardaşlarımıza səadət və xoşbəxtlik arzulayıram.

Biz bu gün iki böyük müəssisədə - neftayırma zavodunda və bitki yağları istehsalı zavodunda olduq. Həmin müəssisələrlə tanışlıq göstərdi ki, Səudiyyə Ərəbistanında əhalinin elmi və texniki səviyyəsi çox yüksəkdir. Əminəm ki, bütün bu imkanlar Səudiyyə Ərəbistanının daha sürətlə inkişafı üçün əsas yaradır."

Suallara cavab verərkən Azərbaycan Prezidenti göstərmişdir ki, Səudiyyə Ərəbistanının iş adamları üçün Azərbaycanda hər cür şərait yaradılacaqdır. Götürək neft yataqlarının istismarını. Bəzi yataqların birgə istismar olunması barədə Qərb şirkətləri ilə danışıqlar aparırıq. Lakin Azərbaycanda hələ istifadəyə verilməmiş neft yataqları da var. Onların birgə işlənilməsi üçün Səudiyyə Ərəbistanının şirkətlərini Azərbaycana dəvət edirəm. Bunu ona görə deyirəm ki, neft-qaz hasilatı, neft emalı sahəsində sizin ölkənin çox böyük təcrübəsi var. Sənayenin başqa sahələrində, kənd təsərrüfatında, ticarətdə də iş adamları üçün bütün şərait ya-

radılacaqdır. Bir halda ki, biz bazar iqtisadiyyatı yolu ilə gedirik, xüsusi mülkiyyəti geniş yaymaq, sahibkarlıq, səhmdarlıq prinsiplərini tətbiq etmək istəyirik, deməli, iş adamları Azərbaycana kapital qoysalar çox böyük mənfəət götürə bilərlər. Xahiş edirəm, bunu qəzetinizdə geniş təbliğ edəsiniz.

Dövlətimizin başçısı fəxrlə bildirmişdir ki, keçmiş Sovet İttifaqının indi müstəqillik qazanmış müsəlman respublikalarından Səudiyyə Ərəbistanında öz səfirliyini ilk dəfə Azərbaycan açmışdır. Azərbaycanın səfiri Elman Araslı indi burada əyləşmişdir və üç aydan çoxdur ki, ölkənizdə fəaliyyət göstərir. Səfirdən xahiş edirəm ki, ayağa qalxsın, onu görsünlər. Fəxr edirəm ki, keçmiş SSRİ-yə daxil olan ölkələrdən Səudiyyə Ərəbistanında səfirliyi ilk dəfə Azərbaycan açmışdır. Ümidvaram ki, müstəqillik qazanmış digər müsəlman respublikaları da burada öz səfirliklərini açacaqlar.

Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri də təyin olunmuşdur. Mən Bakıya qayıdan kimi o, öz etimadnaməsini təqdim edəcəkdir. Təəssüf ki, Səudiyyə Ərəbistanının Türkiyədəki səfiri eyni zamanda Azərbaycanda səfir vəzifəsini yerinə yetirəcəkdir. Mən isə istərdim ki, Azərbaycanda Səudiyyə Ərəbistanının müstəqil səfiri olsun. Səudiyyə Ərəbistanı səfirliyinin Azərbaycanda fəaliyyət göstərməsi üçün Prezident kimi mən hər cür şərait yaradacağam.

İslam dünyası ilə əlaqələrimizdən danışan dövlətimizin rəhbəri İslam dövlətlərinin keçirdikləri hər bir tədbirdə Azərbaycanın nümayəndələrinin iştirak edəcəyini vürğulayaraq, İslam dövlətlərini də Azərbaycanın təqdim elədiyi layihə və təklifləri, xüsusən Dağlıq Qarabağ probleminin həlli barədə verdiyi təklifləri həyata keçirmək üçün səy göstərməyə çağırmışdır.

Ölkəmizin başçısı Səudiyyə Ərəbistanında olarkən İslam dunyasının iki müqəddəs şəhərini - Məkkə və Mədinəni və oradakı müqəddəs yerləri ziyarət etmişdir. Mədinədəki Peyğəmbər məscidini ziyarət edərkən o, məscidin şərəf kitabına xalqımızın ürəyindən gələn, arzu və istəklərini bildirən aşağıdakı sözləri yazmışdır:

"Bismillahir-rəhmanir-rəhim!

Müqəddəs Mədinə şəhərini, İslamın müqəddəs abidələrini, Həzrət Məhəmməd peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm.

Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha İslam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim.

İslamın dünyada yayılması üçün, İslam abidələrinin bütün ziyarət edənlərdən ötrü paklıq şəraitində olması üçün Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsinin ətrafında yaradılmış məscid kompleksləri məni heyran etdi. Xüsusən son illərdə görülən işlər, yaradılmış möhtəşəm, əzəmətli məscid binaları böyük heyrət və ehtiram hissi doğurur. İki müqəddəs şəhərin xadimi cənab Fəhd ibn Əbdül Əziz əl-Səudun gördüyü işlər əvəzsizdir, böyük minnətdarlıq hissi doğurur. Bu müqəddəs şəhəri yaşadanlara, əsrlərdən-əsrlərə abadlaşdıranlara, xüsusən əziz dostum, qardaşım, iki müqəddəs şəhərin xadiminə hörmət və ehtiramımı bildirirəm.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti 12 iyul 1994".

Məscidlə yaxından tanışlıqdan sonra ölkəmizin başçısı böyük fəxr və qürurla jurnalistlərə bildirmişdi ki, müqəddəs İslam abidələrini ziyarət edərkən dinimizin elmi, fəlsəfi dərinliyini hiss edirsən və bu dini yaradanlara, əsrlər boyu belə abidələr yaradıb bugünkü nəsillərə çatdıranlara səcdə edirsən. Çox əzəmətlidir, hər bir müsəlmanda, o cümlədən məndə də iftixar hissi oyadır. Demək, bizim mənsub olduğumuz din qüdrətlidir, böyükdür, dünyada öz yerini tutub. Burada yaradılmış abidələr İslam dininin bütün digər vasitələri, yəni müqəddəs kitabımız Qurani-Şərif, Həzrəti Məhəmməd peyğəmbərin qoyduğu yol ilə bərabər dinimizi yaşadacaqdır. Bu müqəddəs yerləri - Məkkəni, Mədinəni, Kəbəni və Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsini ziyarət edərkən indiki nəslin və peyğəmbərin qoyduğu yolla gedən şəxslərin fəaliyyətinə yüksək qiymət verirəm.

Bu gün məscidlə tanışlıqdan sonra iki müqəddəs şəhərin xadiminin, Səudiyyə Ərəbistanının bugünkü rəhbərinin, bizim əziz dostumuz və qardaşımızın nə qədər böyük xidmətləri olduğunu bir daha görürəm, hiss edirəm və bir müsəlman kimi bunlara görə qəlbimdən gələn təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Beləliklə, bu mühüm səfər başa çatdı. Azərbaycan Prezidenti onu xarici siyasətimizin böyük nailiyyəti kimi qiymətləndirmişdir. Səfərə qədər Azərbaycanla heç bir əlaqəsi olmayan, həm islam dünyasında, həm də ümumdünya birliyində layiqli yeri olan, iqtisadi cəhətdən inkişaf etmiş belə bir ölkə ilə əlaqə yaratmaq və gələcəkdə əməkdaşlığı inkişaf etdirmək müstəqil Azərbaycan Respublikası üçün çox önəmli və gərəklidir deyən dövlət başçımız, ölkənin kralı və rəhbər şəxsləri ilə keçirdiyi görüşləri və apardığı danışıqları yüksək qiymətləndirmiş, bunların gələcək əlaqələrimizin inkişaf etməsi üçün yaxşı əsas olduğunu söyləmişdir.

Ziyarətin ən mühüm nəticələrindən biri də odur ki, səfər zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş imzalanmışdır. Səfərin yekunlarına dair birgə bəyanat qəbul edilmişdir.

Bu mühüm səfərdən sonra ölkələrimiz arasındakı əlaqələr dinamik şəkildə inkişaf etməyə başlamışdır.

Xatırladırıq ki, Səudiyyə Ərəbistanı Azərbaycan Respublikasının müstəqilliyini 30 dekabr 1991-ci ildə tanımış, 24 fevral 1992-ci ildə Azərbaycanla diplomatik əlaqələr yaratmış, 1994-cü ilin aprel ayından Azərbaycanın Səudiyyə Ərəbistanında səfirliyi fəaliyyət göstərməyə başlamışdır. 21 noyabr 1994-cü ildə isə Səudiyyə Ərəbistanının Türkiyədə, eyni zamanda Azərbaycanda akkreditə edilmiş səfiri Naci Sadıq Müfti öz etimadnamələrini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təqdim etmişdir.

Azərbaycan Prezidentinin bu səfərdən sonra da Səudiyyə Ərəbistanının dövlət rəhbərləri ilə görüşləri və məsləhətləşmələri davam etmişdir. Elə 1994-cü ilin sonunda, Kasablanka Zirvə toplantısında Prezidentimiz Səudiyyə Ərəbistanı kralının qardaşı Əbdül Əzizlə görüş keçirmiş, tərəfləri maraqlandıran məsələlər barəsində müzakirələr aparmışdır.

1997-ci ildə, İKT-nin Tehran Zirvə toplantısında da dövlətimizin başçısı Səudiyyə Ərəbistanının şahzadəsi Abdulla ibn Əbdül Əziz əl-Səud ilə görüş keçirmişdir.

Görüşdə Prezidentimiz gənc müstəqil

Azərbaycan Respublikası üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsindən bəhs etdi. Azərbaycanlı qaçqınlara göstərilən humanitar yardıma görə Səudiyyə Ərəbistanının rəhbərliyinə minnətdarlığını bildirdi, onun salamlarını və xoş arzularını kral Fəhd ibn Əbdül Əziz əl-Səuda çatdırmağı rica etdi.

Söhbət zamanı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təşkilatlarda qarşılıqlı əlaqələrin daha da canlandırılması barədə fikir mübadiləsi aparılmış, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Səudiyyə Ərəbistanının yaxından iştirakı və bu ölkənin respublikamızın bir sıra sahələrinə sərmayə qoymasının genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

Bu illər ərzində müxtəlif sahələrdə çoxsaylı qarşılıqlı səfərlər edilmişdir. Səudiyyə tərəfindən Xarici İşlər Nazirinin müavini, Krallığın İslam İşləri və Vəqflər Naziri, Tikinti nazirinin müavini, Ticarət Sənaye Palatasının sədri səviyyələrində, eyni zamanda iri şirkət rəhbərləri və iş adamlarından ibarət nümayəndə heyətləri Azərbaycanda səfərdə olmuşlar.

Azərbaycan tərəfindən Baş Nazirin müavini A.Şərifov, Təhsil Naziri L.Rəsulova, Ticarət Naziri M.Qəmbərov, Azərkimya Dövlət Şirkətinin sədri F.Sadıqov, Ticarət-Sənaye Palatasının sədri S.Tatlıyevin başçılığı ilə nümayəndə heyətləri Krallıqda səfərdə olmuş, o cümlədən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam A.Paşazadənin Səudiyyə Ərəbistanına səfərləri həyata keçirilmişdir.

Səudiyyə Ərəbistanı Ermənistanın təcavüzü ilə əlaqədar BMT, İKT və digər beynəlxalq və regional təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləyir, müvafiq qətnamələrin qəbul edilməsinə yardım göstərir.

Səudiyyə Ərəbistanı Azərbaycana fəal surətdə humanitar yardım göstərən dövlətlər sırasındadır. 1994-1999-cu illər ərzində qaçqın və köçkünlərimizə kral Fəhdin yardım proqramı çərçivəsində dəfələrlə ərzaq, dərman və s. ibarət humanitar yardımlar göstərilmişdir.

1993-cü ildən Azərbaycanda "Nicat" (İĞASA) Təşkilatı fəaliyyət göstərir. "Nicat" Bərdə rayonunda ümumi sayı 8.300 nəfərlik iki çadır şəhərciyi və Sumqayıt şəhərində 2.700 nəfərlik bir düşərgənin tam təminatını və tibbi yardımını öz üzərinə götürmüşdür.

Hər il Azərbaycanın dindarları Səudiyyə Ərəbistanında müqəddəs yerləri ziyarət edərək, həcc mərasimini həyata keçirirlər.

1998-99-cu illərdə həcc mövsümü zamanı kral Fəhdin qonağı kimi 250 nəfər azərbaycanlı zəvvar Məkkə və Mədinəni ziyarət etmişlər.

Qarabağ müharibəsinin 5 əlili 1999-cu ildə Səudiyyə Ərəbistanında müalicədə olmuşdur.

Hal-hazırda Krallıqda, Səudiyyənin Səhiyyə Nazirliyi ilə birgə hazırlanmış proqrama görə, 19 azərbaycanlı həkim fəaliyyət göstərir və 2000-ci ilin may ayında 42 nəfərlik həkim heyətinin təsdiq olunması barədə Səudiyyə tərəfinin razılığı barədə məlumat daxil olmuşdur.

1999-cu ilin may ayında Səudiyyə Ərəbistanı Krallığı Xarici İşlər Nazirliyi Protokol İdarəsinin müşaviri Züheyr Əbdülkərim Süleyhimin Krallığın Azərbaycandakı səfirliyinə Müvəqqəti İşlər Vəkili təyin edilməsi barədə qərar qəbul edilmişdir.

1999-cu ilin iyun ayından Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi fəaliyyətə başlamışdır.

Hal-hazırda SƏK-in Bakıdakı səfiri Əli Həsən Cəfərdir.

Azərbaycan Respublikası Prezidentinin 400 saylı 25 aprel 2000-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi təsdiq edilmişdir. Azərbaycan Respublikası Baş Nazirinin müavini, cənab Yaqub Eyyubov Azərbaycan tərəfindən komissiyanın həmsədri təyin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 400 saylı 25 aprel 2000-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclər sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi təsdiq edilmişdir.

Azərbaycan tərəfindən Komissiyanın həmsədri Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov, Səudiyyə Ərəbistanı tərəfindən sabiq Ticarət Naziri Usamə bin Cəfər bin İbrahim Fəqih təyin olunmuşdur.

Kral Fəhd bin Əbdüləziz Əl Səudun 30 aprel 2003-cü il tarixli fərmanı ilə Səudiyyə Ərəbistanı Krallığı hökümətində baş vermiş struktur və kadr dəyişiklikləri nəticəsində Müştərək Komissiyanın Səudiyyə Ərəbistanı tərəfindən həmsədrliyi yeni təyin edilmiş Ticarət və Sənaye Naziri d-r Haşim bin Abdulla Yəmaniyə həvalə olunmuşdur.

AR-SƏK Müştərək Komissiyanın birinci iclası 2001-ci ilin fevralında Bakı şəhərində keçirilmişdir. Müştərək Komissiyanın işinin sonunda iki ölkə arasında Protokol imzalanmışdır. Hal-hazırda Azərbaycanda Səudiyyə Ərəbistanının Səfirliyi və Ər-Riyadda Azərbaycan Səfirliyi üçün qarşılıqlı əsaslarda torpaq sahələrinin ayrılması mövzusunda məsləhətləşmələr aparılır.

2001-ci ilin fevral ayında AR İdman, Gənclər və Turizm Naziri Ə.Qarayev Səudiyyə tərəfinin dəvətilə Ər-Riyada səfərdə olmuş, AR Prezidenti cənab Heydər Əliyevin məktubunu SƏK Kralı Fəhd bin Əbdüləziz Əl Səuda təqdim etmişdir.Səfər zamanı Azərbaycanla Səudiyyə Ərəbistanı arasında İdman və Gənclər sahəsində Əməkdaşlıq barədə Saziş imzalanmışdır.

SƏK Hökuməti 2002-ci ilin 11 avqust tarixində qondarma Dağlıq Qarabağ respublikasında keçirilmiş "prezident seçkiləri"ni pisləmiş və Azərbaycanın ərazi bütövlüyünü bir daha dəstəkləmişdir. Qeyd etmək lazımdır ki, rəsmi Ər-Riyad dəfələrlə Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca Ermənistan Respublikası ilə heç bir siyasi, iqtisadi və mədəni əlaqələr qurmayacağını bildirmişdir.

2002-ci ilin sentyabr ayının 18-də Bakıda keçirilən Bakı-Tbilisi-Ceyhan boru kəmərinin təməl daşının qoyulma mərasimində SƏK Neft və Mineral Ehtiyatlar Nazirinin müavini d-r Züheyr Nəvvab iştirak etmişdir.

2002-ci ilin oktyabr ayının 21-25 tarixlərində Azərbaycan Respublikası Prezidentinin şəxsi nümayəndəsi N.Məmmədovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti SƏK-ə səfər etmiş, AR Prezidenti Zati-Aliləri Heydər Əliyevin

məktublarını SƏK Kralı Fəhd bin Əbdüləziz Əl Səuda və Vəliəhd Abdulla bin Əbdüləziz Əl Səuda təqdim etmişdir.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti Kral Fəhd, Vəliəhd Abdulla, Müdafiə və Aviasiya Naziri Sultan bin Əbdüləziz, Xarici İşlər Nazirinin birinci müavini Nəzər Mədəni və Ticarət Naziri Usamə Fəqihlə görüşlər keçirmişdir.

2002-ci ilin 28 dekabr tarixində Səudiyyə İnkişaf Fondu Bakı şəhərində orta məktəb binalarının tikintisi layihələrəni həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Hökumətinə 35.7 milyon rial (3.75 rial=1 ABŞ dolları) həcmində kredit ayrılması barədə qərar qəbul etmişdir.



AZƏRBAYCAN - İRAN ƏLAQƏLƏRİ



(İran Azərbaycan ilə 12 mart 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

İran İslam Cümhuriyyəti, İran xalqı Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün dost, qardaş, qonşu ölkə və xalqdır. Ona görə də biz belə hesab edirik ki, bu ölkə ilə Azərbaycan arasındakı münasibətlər daim səmimi və mehriban olmalıdır.

***

İranda hamı bilməlidir ki, Azərbaycan həmişə İranın dostu olub, bu gün də dostudur, gələcəkdə də dostu olacaqdır.

Heydər Əliyev

Qardaş Azərbaycan Respublikası ilə əlaqələrimizin genişləndirilməsi İranın xarici siyasətinin görüləcək işlərinin sərlövhəsini təşkil edir.

Əbdülvahid Musəvi-Lari,
İranın Daxili İşlər Naziri

İran Azərbaycana yalnız qonşu deyil, biz Azərbaycanla qardaş ölkəyik və inşallah, həmişə qardaş olaraq qalacağıq.

Əlirza Bikdeli,
İran İslam Respublikasının Azərbaycandakı Səfiri

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hərtərəfli münasibətlərin inkişafı dövlətimizin xarici siyasətinin əsas istiqamətlərindən biridir.

Azərbaycan Respublikası istiqlaliyyət əldə edəndən sonra onun müstəqilliyini rəsmi tanıyan ilk dövlətlərdən biri İran İslam Respublikası olmuşdur. 1992-ci il martın 12-si Azərbaycan-İran münasibətləri tarixində yeni və parlaq bir səhifədir. Azərbaycan Respublikası həmin gün İran İslam Respublikası ilə diplomatik əlaqələr yaratmışdır.

İlk dövrlərdə diplomatik əlaqələrimizdə həm yüksəliş, həm də ehtiyatlılıq, sərinlik hökm sürdüyü məqamlar da olub ki, bu da ilk növbədə o dövrdə hakimiyyətdə olan qüvvələrin apardığı birtərəfli, qeyripeşəkar siyasətlə bağlı idi.

Əgər 1991-ci ilin iyulunda Baş Nazirin başçılıq etdiyi Azərbaycan Respublikası hökumətinin nümayəndə heyəti İrana səfər edərək tərəflər arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında memorandum imzalanmışdısa və 1991-ci ilin dekabrında İİR Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin başçılıq etdiyi İran İslam Respublikasının rəsmi nümayəndə heyəti Bakıda işgüzar səfərdə olmuşdusa, sonradan belə təmaslar Xalq Cəbhəsi dövründə tamamilə zəifləmişdi.

Bu əlaqələr yalnız 1993-cü ilin ortalarından yenidən bərpa olunmağa başlandı. İranın Azərbaycan üçün əhəmiyyətini və rolunu, onunla mehriban qonşuluq əlaqələrinin yaradılmasının vacibliyini və zəruriliyini gözəl başa düşən Prezident Heydər Əliyev, hakimiyyətə gələr-gəlməz hərəkətə başladı və bütün qonşularla, o cümlədən İranla mehriban qonşuluq əlaqələri yaratmaq üçün öz gücünü və səylərini əsirgəmədi. Bütün bunlar tezliklə öz nəticəsini verdi.

Artıq 1993-cü ilin avqustunda İİR Xarici İşlər Naziri Ə.Ə.Vilayətinin başçılıq etdiyi rəsmi nümayəndə heyəti Bakıya işgüzar səfər etdi. Respublika rəhbərlərilə aparılan danışıqlardan sonra, səfərin nəticəsi olaraq, iqtisadi əməkdaşlıq haqqında saziş imzalandı.

Azərbaycan Prezidenti hələ özünün İrana ilk səfəri zamanı bəyan etmişdi: "Azərbaycanın xarici siyasəti azad və müstəqildir. Ölkəmiz bütün dünya dövlətləri üçün açıqdır. Biz Azərbaycanın müstəqilliyini tanıyan, onun mənafeyinə toxunmayan, ölkəmizə müsbət münasibət göstərən hər bir dövlətlə əlaqələr qurmağa hazırıq və belə əlaqələr qururuq.

Azərbaycan bütün ölkələrlə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurmaq yolu ilə gedir və bu yolu davam etdirəcəkdir. Azərbaycan öz xarici siyasətində qonşu dövlətlərlə əlaqələrin genişlənməsinə çox böyük fikir verir. Qonşu dövlətlərlə Azərbaycanın tarixi əlaqələri sıx olduğuna görə ölkəmiz həmin münasibətlərin bundan sonra da inkişaf etməsinə çalışır.

Azərbaycanla İran arasındakı münasibətlər dərin köklərə malikdir. Bizim xalqlarımız əsrlər boyu bərabər yaşamış, bir yerdə olmuşlar. Bizim tarixi, mənəvi dəyərlərimiz eynidir. Biz hamımız, yəni İran və Azərbaycan xalqları islam aləminə mənsub olan xalqlardır. İslam aləminin dəyərləri bizim üçün əzizdir, möhtərəmdir. Biz bu dəyərləri öz həyatımızda bundan sonra da bərqərar edəcəyik. Elmi, mənəvi, mədəni əlaqələrimiz bizi tarix boyu birləşdirib. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının çox böyük sərhədi var. Bunları nəzərə alaraq Azərbaycan İran İslam Respublikası ilə dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir."

Dövlətimizin başçısı hələ Naxçıvanda Ali Sovetə rəhbərlik etdiyi dövrlərdə belə bu qonşu ölkə ilə yaxın əlaqələr qurmağa, əməkdaşlıq etməyə can atmış, bu məqsədlə İran rəhbərliyi ilə mövcud olan şəxsi əlaqələrindən də istifadə edərək bir neçə dəfə İranda olmuş, Naxçıvanın blokadadan çıxarılaraq enerji və ərzaqla təmin edilməsi üçün konkret addımlar atmış, minlərlə insanı soyuqdan və ölümdən xilas etmişdir. Onu da demək yerinə düşərdi ki, Azərbaycanın o dövrkü rəhbərləri ilə heç bir əlaqə saxlamayan İran tərəfi bütün bunlara baxmayaraq Heydər Əliyevin səylərinə cavab verərək Naxçıvana lazımi yardım göstərmişlər.

O günləri Azərbaycan Prezidenti belə xatırlayır: "...Naxçıvan Azərbaycanın əsas torpağından Ermənistan ərazisi vasitəsilə ayrı düşdüyünə görə Azərbaycanın paytaxtı Bakı və başqa şəhərlər ilə Naxçıvanın əlaqələri tamamilə kəsilmişdi.

Burada bizim elektrik enerjimiz, qazımız yox idi. Su çox az olurdu. İnsanların yaşayışı çətin, ağır idi. O zaman İran İslam Cümhuriyyətinin hörmətli Prezidenti Haşimi Rəfsəncani və İranın Xarici İşlər Naziri hörmətli Əli Əkbər Vilayəti məni Tehrana dəvət etdilər. Biz Naxçıvana yardım məsələlərini orada müzakirə etdik. Bizim imzaladığımız protokollara əsasən ondan sonra Naxçıvana İrandan müəyyən qədər elektrik enerjisi verilməyə başlandı. Naxçıvana müəyyən ərzaq yardımı göstərildi. Naxçıvan ilə İran arasındakı körpüdən gediş-gəliş məsələləri müəyyən qədər yüngülləşdirildi. Naxçıvanlıların İrana getməsi və iranlıların Naxçıvana gəlməsi və beləliklə də insanların ticarət etməsi məsələləri yüngülləşdirildi. Bir çox başqa işlər də görüldü... Mən burada yenə də İranın Azərbaycana, Naxçıvana yardımını qeyd edirəm və təşəkkürümü bildirirəm. Yollar bağlananda İran hökuməti Naxçıvandan Bakıya avtomobillərin gedib-gəlməsi üçün yol verdi və biz həmin yoldan indiyə qədər istifadə edirik. Görürsünüz. Nə qədər faktlar, misallar vardır. Mən bundan da çoxunu deyə bilərəm." *(Azərbaycan qəzeti, N 234, 12 oktyabr, 1999)*

***

1993-cü il oktyabrın 26-28-də İİR Prezidenti Əli Əkbər Haşimi - Rəfsəncaninin başçılıq etdiyi İran İslam Respublikasının nümayəndə heyəti Bakıya rəsmi səfər etdi. Bu səfərin nəticəsi olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və İran İslam Respublikasının Prezidenti Haşimi - Rəfsəncani Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında memorandum imzalandılar.

Azərbaycan və İran Prezidentləri arasında danışıqların yekunlarına həsr olunmuş birgə mətbuat konfransında bəyanatla çıxış edən Azərbaycan Prezidenti bildirdi ki, İran İslam Cümhuriyyətinin Prezidenti, hörmətli ağayi Haşimi-Rəfsəncani və onu müşayiət edən yüksək vəzifəli dövlət nümayəndələri üç gündür ki, Azərbaycanda səfərdədirlər. Azərbaycan Respublikası özünü müstəqil dövlət elan etdikdən sonra bu, İran İslam Cümhuriyyətinin bizə gələn yüksək səviyyəli ilk nümayəndə heyətidir. Bu danışıqların nəticəsində Azərbaycan Respublikası ilə İran İslam Cümhuriyyəti arasında imzalanmış sənədlər də müstəqil Azərbaycan dövlətinin İran İslam Cümhuriyyəti ilə

yüksək səviyyədə imzaladığı ilk sənədlərdir. Biz bu səfərdən, görüşlərdən, aparılan danışıqlardan çox məmnunuq və guman edirəm ki, bu gün imzalanan sənədlər İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin yeni mərhələsinin başlanğıcıdır.

İran İslam Cümhuriyyəti Prezidentinin və onu müşayiət edən şəxslərin Azərbaycanda olduğu vaxt respublikamız yeni bir çətinliyə düçar olmuşdur. Həmin günlərdə erməni silahlı dəstələri Azərbaycan Respublikasının bir neçə yaşayış məntəqəsinə yeni hücumlar etmişlər. Zəngilan rayonu mühasirə şəraitində yaşayır. Biz Azərbaycanın müharibə şəraitində olması və Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə əlaqədar bu danışıqlarımızda çox geniş fikir mübadiləsi apardıq. Cənab Haşimi-Rəfsəncani bu sahədə də müəyyən səylər göstərdi və bölgədə dünəndən atəşin dayandırılması üçün Ermənistan tərəfi ilə bir neçə dəfə danışıqlar apardı. Güman edirik ki, İran İslam Cümhuriyyəti rəhbərliyinin və şəxsən cənab Haşimi-Rəfsəncaninin bu sahədə fəaliyyəti davam edəcək və o öz imkanlarından istifadə edib Azərbaycan Respublikasının təcavüzdən xilas olması üçün lazımi fəaliyyət göstərəcəkdir.

Cənab Haşimi-Rəfsəncani kimi mən də qeyd etmək istəyirəm ki, aparılan danışıqlardan, görüşlərdən və bu gün imzalanmış sənədlərdən biz çox razıyıq. Belə hesab edirik ki, bu səfər çox səmərəli oldu və güman edirəm ki, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra sürətlə inkişaf edəcəkdir. Cənab Haşimi-Rəfsəncaninin Azərbaycana təşrif gətirməsi münasibətilə bir daha təşəkkür edirəm və İran İslam Cümhuriyyətindən burada olan bütün qonaqlarımıza işlərində müvəffəqiyyətlər diləyirəm.

Curnalistlərin suallarına cavab verərkən İran Prezidenti Haşimi -Rəfsəncani bildirdi ki, buraya qədəm basdığım andan hörmətli Prezident, cənab Heydər Əliyev və Azərbaycan Respublikasının digər hökumət və dövlət xadimləri tərəfindən çox mehriban və xoş qarşılandım. Elə hiss edirəm ki, öz evimizə gəlmişəm. Olduğumuz bütün yerlər - istər mədəniyyət mərkəzləri, istərsə də müəssisələr bizim üçün çox maraqlı idi. Hərbi qospitalda müalicə olunan yaralı əsgərlərin yanında, istərsə də Şəhidlər xiyabanında olmaq mənim yaddaşımda silinməz izlər buraxmışdır. Mənim üçün ən əhəmiyyətlisi və ən əməli cəhət budur ki, bizim aramızda tam qarşılıqlı anlaşma və mehriban ünsiyyət hökm sürür ki, bu da gələcək əlaqələrimiz üçün ən böyük təminatdır. Ən əhəmiyyətli cəhət budur ki, burada adamlar, azərbaycanlılar bizi çox yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Bu isə gələcəkdə hər şeyin inkişaf edəcəyinə ümid verir.

Gələcəkdə Aralıq dənizinə qədər uzanan neft kəmərinin İran ərazisindən keçməsi məsələsinə də toxunan İran Prezidenti göstərdi ki, bu hələ protokollaşdırma və yaxud qarşılıqlı anlaşma sənədi səviyyəsinə gəlib çatmamışdır. Azərbaycandan çəkiləcək neft kəmərinin İran ərazisindən keçib-keçməyəcəyinə gəlincə, İran öz ərazimizdir, öz vətənimizdir və istənilən vaxt bu barədə danışa bilərik.

Eyni suala cavab verən Azərbaycan Prezidenti Heydər Əliyev qeyd etdi ki, mən də bu fikirdəyəm ki, bu neft kəmərlərinin hansının haradan keçməsi hələ heç də məlum deyil, bu məsələləri qabaqlamağa ehtiyac yoxdur. Bu məsələlər bir neçə dövlətin danışıqları və razılığı nəticəsində ola bilər.

Bu danışıqlar, bu sazişlər nə nəticə verəcəksə, elə də olacaqdır. Mən cənab Prezidentə təşəkkür edirəm ki, İran ərazisindən Azərbaycan üçün hər bir kəmərin, hər bir borunun keçməsinə elə indi razılıq verir.

...Müdafiə haqqında, yaxud hərbi müqavilənin imzalanmasının nəzərdə tutulmadığını qeyd edən Azərbaycan Prezidenti İran İslam Cümhuriyyətinin və şəxsən cənab Haşimi-Rəfsəncaninin bizim qaçqınlara köməyi bundan sonra da davam etdirəcəklərini bildirdi.

Türkiyə və İranın Azərbaycanla münasibətlərini genişləndirmək baxımından son dərəcə böyük bir rəqabət apardıqlarını iddia edən Qərb mətbuatına cavab olaraq Haşimi-Rəfsəncani bildirdi ki, hər iki dövlət Azərbaycanla əməkdaşlıq sahəsində öz aralarında əməkdaşlıq etməlidir. Əlbəttə, bəzi əlaqələr, məsələn, iqtisadi əlaqələr yaratmaq sahəsində rəqabət ola bilər. Hətta ölkənin özündə də bəzi sahələrdə müxtəlif təşkilatlar, birliklər bir-biri ilə rəqabətdə olurlar. Bu, təbii haldır. Əlbəttə, bizim Azərbaycanla iqtisadi əlaqələr yaratmağımız o demək deyildir ki, biz buraya nüfuz dalınca gəlirik. Yalnız əməkdaşlıq etmək istəyirik. Ümidvaram ki, Türkiyənin mövqeyi də belə olacaq.

***

1993-cü il dekabr ayının əvvəllərində Azərbaycan Parlamentinin sədri, ayın sonunda isə Xarici İşlər Nazirinin başçılıq etdiyi nümayəndə heyətlərinin Tehrana səfərləri iki qonşu ölkə arasında münasibətlərin inkişafına təkan verdi..

Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının IV sessiyasında AR Xarici İşlər Naziri başda olmaqla, Azərbaycan Respublikası nümayəndə heyətinin iştirakı da iki qonşu dövlət arasında hərtərəfli münasibətlərin inkişafına yardım etdi. Əlaqələrimizin hərtərəfli inkişafı üçün möhkəm bir əsas yarandı.

***

1994-cü il iyunun 29-dan - iyulun 2-dək Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin başçılıq etdiyi yüksək səviyyəli nümayəndə heyəti Tehrana səfər etdi. Səfər zamanı Heydər Əliyev İİR-in Ali Rəhbəri S.Ə.Xamneyi, Prezident Ə.Haşimi Rəfsəncani, İslam Şurası Məclisinin sədri Ə.Natiq Nuri və digər rəsmi şəxslər ilə görüşlər keçirdi, bir sıra sənədlər imzalandı və beləliklə də Azərbaycan-İran əməkdaşlığının genişlənməsi üçün zəruri addımlar atıldı.

Azərbaycan Prezidenti İranda rəsmi səfərdə olarkən bir neçə qeyri-rəsmi görüşlər də keçirdi, İran ictimaiyyəti qarşısında ölkəmizin mövqeyini ifadə edən çıxışlar etdi. Bunlardan ən yadda qalanlarından biri onun İran Xarici İşlər Nazirliyinin siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarında təhsilini başa çatdırmış müdavimlər qarşısında çıxışı oldu. Bu çıxışında Azərbaycan Prezidenti İranla qurulacaq gələcək əlaqələrin yollarını və perspektivlərini, Azərbaycanın bu məsələdə mövqeyini bəyan etdi. Öz çıxışında Prezident Heydər Əliyev məmnunluqla bildirdi ki, bu gün burada mühüm bir hadisə baş verir. Azərbaycanın xarici işlərlə məşğul olan bir qrup mütəxəssisi burada təhsili bitirdikləri haqqında müəyyən sənədlər alır. Mən bu hadisənin iştirakçısı olduğumdan çox məmnunam. Siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarını bitirən Azərbaycandan gəlmiş məzunları təbrik edir, İranın Xarici

İşlər Nazirliyinə respublikamıza göstərdiyi bu yardıma görə təşəkkürümü bildirirəm.

Səfərin nəticələrinə toxunan Azərbaycan Prezidenti aşağıdakıları demişdir:

"İran İslam Respublikasının Prezidenti, hörmətli Haşimi-Rəfsəncaninin dəvəti ilə mən dördüncü gündür ki, İranda rəsmi səfərdəyəm. Burada bizim çox faydalı görüşlərimiz olub və belə hesab edirəm ki, bu səfər İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gələcək inkişafı üçün mühüm mərhələdir.

Bildiyiniz kimi, Azərbaycan öz müstəqilliyini çox gec - yəni bir-iki il bundan əvvəl qazanıbdır. Respublikamız müstəqil bir dövlət kimi dünya birliyində öz yerini tutmaqdadır. Bu dövrdə Azərbaycan çox ağır çətinliklərlə rastlaşıb, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb. Altı ildir ki, Azərbaycan müharibə şəraitindədir. Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının ərazisinin yüzdə iyirmi hissəsini işğal edib. Azərbaycanın bu məntəqələrdə yaşayan vətəndaşları qaçqın düşüb. Bir milyondan artıq azərbaycanlı öz yerini-yurdunu, evini-eşiyini itirib qaçqın vəziyyətində yaşayır.

Respublikamızın müharibə şəraitində olması müstəqil Azərbaycanın həyatında böyük çətinliklər yaradıb. Bununla əlaqədar İran İslam Respublikasının Azərbaycana göstərdiyi yardıma görə, İranın Xarici İşlər Nazirliyinin bu sahədəki fəaliyyətinə görə mən öz təşəkkürümü bildirirəm. Burada, Xarici İşlər Nazirliyində olduğum üçün Azərbaycanın xarici siyasəti haqqında bir neçə kəlmə demək istəyirəm.

Azərbaycan müstəqil dövlətdir və öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Azərbaycan 70 ildən çox müddətdə kommunist recimi, sosializm şəraitində yaşamışdır. Azərbaycan xalqı, respublikamız indi bu recimdən, bu ideologiyadan imtina edərək öz həyatını, taleyini tarixi, mənəvi ənənələr əsasında, Allahın buyruğu ilə qurmaq, həll etmək istəyir. Azərbaycan müstəqillik yolu ilə gedir, demokratik hüquqi dövlət qurur, respublikada daxili siyasət Azərbaycanda demokratik prosesləri inkişaf etdirmək, siyasi plüralizmə yol açmaq, iqtisadiyyatı bazar münasibətləri yolu ilə aparmaq məqsədlərinə, yəni köhnə recimdən tamamilə imtina olunmasına xidmət edir. İndi biz keçid dövründəyik. Bu dövrün çətinlikləri çoxdur. Əminəm ki, biz bu keçid dövrünü ötüb keçəcəyik və Azərbaycan öz həyatını dünyanın sivilizasiyalı ölkələrində əldə olunmuş nailiyyətlərindən istifadə edərək quracaqdır".

Azərbaycan Prezidenti öz çıxışında göstərmişdir ki, ölkəmiz İran İslam Respublikası ilə dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirmək əzmindədir.

Ölkəmizin başçısı mövcud əlaqələrə geniş təhlil verərək demişdir: "Doğrudur, bu əlaqələrdə son vaxtlar müəyyən soyuqluq əmələ gəlib, ancaq biz bunları aradan qaldırmışıq və qaldırırıq. İran İslam Respublikasının Prezidenti Haşimi-Rəfsəncani keçən ilin oktyabr ayında Azərbaycanda rəsmi səfərdə olandan sonra bu əlaqələr müsbət istiqamətdə inkişaf edir və biz bunu davam etdirəcəyik. Məhz buna görə də mən İran İslam Respublikasının Prezidenti Haşimi-Rəfsəncaninin dəvətini qəbul edib buraya gəlmişəm və burada gördüyümüz işlər, aparılan danışıqlar onu göstərir ki, biz düz yoldayıq və bu yolla da gedəcəyik. **Tam əmin ola bilərsiniz ki, İranla Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin inkişaf etməsi üçün biz bütün səyləri göstərəcəyik. Mən bir Prezident kimi, bu siyasətin təminatçısı kimi çıxış edirəm.** Azərbaycan digər qonşu ölkələrlə də dostluq əlaqələrini davam etdirir. Bu baxımdan Gürcüstanla əlaqələrimiz dostluq xarakteri daşıyır. Rusiya ilə əlaqələrimizdə əvvəllər müəyyən çətinliklər olmuşdu, indi bunlar aradan qaldırılır və əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri inkişaf edir və inkişaf edəcəkdir. Azərbaycan Avropa və dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələri inkişaf etdirəcəkdir. Bu, bizim xarici siyasətimizin əsas prinsipləridir və biz bunun əsasında irəliyə gedəcəyik.

Bunların hamısını sizə çatdıraraq bir daha demək istəyirəm ki, Azərbaycanla İran arasındakı münasibətlər xüsusi xarakter daşıyır. Məni bu səfərdə Azərbaycanın görkəmli simaları - alimləri, yazıçıları, siyasətlə məşğul olan şəxsləri müşayiət edirlər. Onların əksəriyyəti bu salondadır. Onlar Azərbaycanın tarixi, qədim ədəbiyyatı ilə məşğul olan, böyük əsərlər yazmış adamlardır. Elmi işlə, yaradıcılıq işləri ilə məşğul olan şəxslər həmişə Azərbaycanla İran arasında, xalqlarımız arasında dostluq, qardaşlıq əlaqələrini və tarixi köklərimizin birliyini təhlil edərək öz əsərlərində əks etdirmişlər. Belə hesab edirəm ki, onlar həmin sahədəki fəaliyyətlərini bundan sonra da davam etdirəcəklər. Əgər keçmişdə onlar çox böyük maneələr keçərək elmi tədqiqat işləri aparmışlarsa, indi İranın qapıları Azərbaycan üçün, Azərbaycanın qapıları isə İranın alimləri, şairləri, yazıçıları, tədqiqatçıları, diplomatları üçün açıqdır. Hər iki tərəf bu imkanlardan istifadə edib xalqlarımızın bir-birinə yaxınlaşmasına səy göstərməlidir. Mən əminəm ki, Azərbaycan tərəfindən belə səylər göstəriləcəkdir.

Bizim ən böyük problemimiz Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzüdür. Bu təcavüz davam edir, Azərbaycan torpaqları işğal edilir. İşğal olunmuş ərazilərimizdə erməni silahlı qüvvələri Azərbaycanın milli, mənəvi sərvətlərini, islam aləminə aid olan tarixi abidələri vəhşicəsinə dağıdırlar. Bilirsiniz ki, yaradılan şeyi dağıtmaq həmişə etiraz, həyəcan doğurur. Ancaq mənəvi, dini sərvətlərin, İslamın müqəddəs sərvətlərinin, əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə çatdırılan abidələrin dağıdılması qəlbimizi sıxır, bizi dəhşətə gətirir, həyəcanlandırır və bir daha bizi torpaqlarımızın müdafiəsinə dəvət edir.

Şübhəsiz ki, biz Ermənistan kimi kiçik bir dövlətin öhdəsindən gəlməyə qadirik. Azərbaycanın iqtisadi potensialı, qüvvəsi Ermənistandan qat-qat çoxdur. Ancaq siz bilməlisiniz ki, Ermənistanın müharibədəki üstünlüyünün əsas səbəbi dünyanın böyük dövlətlərinin ona kömək göstərməsidir. Ermənistanın heç bir təbii sərvəti yoxdur, iqtisadi vəziyyəti ağırdır. Ancaq xarici ölkələrdəki - Amerikada, Avropada, Rusiyadakı erməni diasporunun böyük sərvətləri Ermənistana axır, ona kömək edir. Ermənistana dəstək verən, kömək göstərən ölkələr başqa sahələrdə də ona yardım edirlər, o cümlədən hərbi sahədə Ermənistan bu köməkdən istifadə edərək Azərbaycan torpaqlarını işğal etməyə nail olur. Ancaq bu o demək deyil ki, həmişə belə olacaq. Yox, heç vaxt olmayacaq.

Azərbaycan xalqı əsrlər boyu öz milli azadlığı, müstəqilliyi uğrunda vuruşub, döyüşüb, mübarizə aparıb, qurbanlar, şəhidlər verib. Doğrudur, belə də olub ki, Azərbaycan müvəqqəti olaraq məğlubiyyətlərə

uğrayıb. Ancaq bütün bunlar müvəqqəti olub. Bundan sonra Azərbaycan xalqı yenə də ayağa qalxıb, yüksəlib, öz qamətini düzəldib, yenə də öz müstəqilliyini, azadlığını əldə edibdir. Guman edirəm ki, bundan sonra da edəcəkdir.

Mən belə hesab edirəm ki, siz bizim dərdlərimizi daha yaxşı başa düşürsünüz. Çünki İran xalqı həmişə öz ərazisini qorumaq üçün müharibələr aparıb. Buna görə də bizim dərdimizi daha yaxşı, daha yaxından, qəlbdən hiss edə bilərsiniz. Siz çoxlu şəhidlər vermisiniz, ölkənizi müdafiə etmisiniz, İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumusunuz.

Azərbaycan da öz ərazisinin bütövlüyü, sərhədlərinin toxunulmazlığı uğrunda mübarizə aparır. Azərbaycanın başqa heç bir fikri yoxdur. Ölkəmiz heç bir dövlətin torpağına göz dikməyib, Azərbaycan ancaq öz ərazisini, özünə məxsus olan sərvətləri qorumağa çalışır, müharibə aparır. Ona görə də biz öz xarici siyasətimizdə beynəlxalq normaların əsası olan prinsipi - hər bir müstəqil dövlətin ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının qorunmasını müqəddəs prinsip kimi qəbul etmişik və edirik. Biz buna riayət edirik. İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını öz torpaqlarımızın, öz ərazimizin, öz sərhədlərimizin toxunulmazlığı kimi qəbul edirik, ona hörmət etmişik və hörmət edirik. Eyni zamanda biz bütün dövlətlərin, o cümlədən İran İslam Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı üçün öz səsini qaldırmasını arzu edirik və guman edirik ki, həmin səslər bundan sonra da gur olacaq.

Bu salonda çıxış edərkən mən həm İran İslam Respublikasının, həm də Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması naminə verilmiş şəhidlərin qəhrəmanlığını qeyd edirəm, onların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi sizdən rica edirəm. Allah onlara rəhmət eləsin.

Azərbaycan xalqı bütün bu bəlalardan çıxmağa qadirdir. Biz heç vaxt sınmayacağıq, bizim iradəmiz heç vaxt dönməyəcək. Yenə də deyirəm ki, biz başqa ölkənin, başqa dövlətin torpağına göz dikməmişik, ancaq öz ərazimizi, öz torpağımızı qorumağa çalışacağıq və buna nail olacağıq. Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyəcək. Xalqımız öz milli azadlığını qoruyacaqdır.

Bu fürsətdən istifadə edib İran İslam Respublikasına, onun rəhbərlərinə, İran xalqına öz hörmət və ehtiramımı bildirirəm. İran xalqına bundan sonra da xoşbəxtlik və səadət arzu edirəm."

Proqram xarakterli bu çıxış gələcək əlaqələrimizin təməlini qoydu. Onu da deməliyik ki, qarşıya çıxan maneələrə baxmayaraq bu proqram ölkə rəhbərliyi tərəfindən ardıcıl olaraq həyata keçirilməkdədir.

Azərbaycan Prezidenti Tehranda səfərin sonunda bəyanatla çıxış edərək ona bir növ yekun vurdu və göstərdi ki, dördüncü gündür ki, mən İran İslam Cümhuriyyətinin Prezidenti hörmətli ağayi Haşimi-Rəfsəncaninin dəvəti ilə bu ölkədəyəm. Bu səfər İran ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinin gələcək inkişafında yeni bir mərhələdir.

Səfər haqqında danışarkən onu qeyd etmək istəyirəm ki, İran İslam Cümhuriyyəti, İran xalqı Azərbaycan Respublikası üçün, Azərbaycan xalqı üçün dost, qardaş, qonşu ölkə və xalqdır. Ona görə də biz belə hesab edirik ki, bu ölkə ilə Azərbaycan arasındakı münasibətlər daim səmimi və mehriban olmalıdır. Elə olmalıdır ki, bütün sahələrdə əməkdaşlıq yüksək sürətlə inkişaf etsin. Mən bu məqsədlə buraya gəlmişəm və qeyd edə bilərəm ki, səfərdə olduğum günlərdə İran İslam Cümhuriyyətinin rəhbərləri - cənab Ayətüllah Seyid Əli Xamneyi, hörmətli Prezident, ağayi Haşimi-Rəfsəncani, İran Məclisinin başçısı, ağayi Natiq Nuri ilə, Xarici İşlər Naziri Əli Əkbər Vilayəti, Kooperasiya Naziri Qulam Rza Şafeyi ilə və başqa dövlət adamları ilə səmərəli görüşlərim olmuşdur. Bu görüşlərdə iki ölkə arasında, xalqlarımız arasında iqtisadiyyat, ticarət, mədəniyyət, elm, texnika sahəsində və başqa sahələrdə əməkdaşlığın inkişafı haqqında danışıqlar aparılmış və yaxşı nəticələr əldə edilmişdir. Həmin danışıqların nəticəsində razılaşdırılmış sənədlər bu gün imzalanacaqdır. Güman edirəm ki, məsələ təkcə bu sənədlərdə deyildir, münasibətlərimizin hüdudları həmin sənədlərdən xeyli genişdir.

Şübhəsiz ki, bütün danışıqlarda son illərdə Azərbaycanın ağır müharibə şəraitində yaşaması haqqında, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun nəticəsində ərazimizin 20 faizinin işğal edilməsi haqqında, zəbt olunmuş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlının didərgin düşməsi barədə və bununla bağlı bütün problemlər haqqında fikir mübadiləsi aparılmışdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticəsi olan müharibə dövründə, Azərbaycanın düşdüyü ağır sosial-iqtisadi böhran şəraitində biz İran İslam Cümhuriyyətinin yardımını daim hiss etmişik. İndiki danışıqlarımızda da bu barədə söhbət getmişdir. Bu yardıma görə, bizimlə həmrəy olduqlarına, bizi beynəlxalq aləmdə müdafiə etdiklərinə görə İranın rəhbərlərinə təşəkkürümü bildirmişəm.

Bir daha qeyd edirəm ki, bu görüşlərimiz Azərbaycan ilə İran arasında dostluq, qardaşlıq əlaqələrinin həm yeni bir mərhələsidir, həm də bu əlaqələrin sürətlə inkişaf etməsi üçün yaxşı şərait yaradır və Azərbaycan tərəfi gələcəkdə bu şəraitdən səmərəli istifadə etməyə çalışacaqdır. Vaxt az olduğuna görə mən çıxışımı bu qısa məlumatla tamamlayıram.

Suallara cavab verərkən Azərbaycan Prezidenti danışıqlarda Xəzər dənizinin statusu məsələsinin müzakirə edilmədiyini demiş, Azərbaycan Respublikası Tehran, Ankara və Moskva ilə öz əlaqələrini hansı prinsiplər əsasında qurur və hansı meyarları əsas götürür sualına isə biz qonşu dövlətlərlə dostluq əlaqələri yaratmaq istəyirik, İran da, Türkiyə də bizim üçün dost və qardaş ölkələrdir - demişdir.

***

İranla əlaqələrimiz və bu ölkənin başçıları ilə görüşlər təkcə Azərbaycan və İranda deyil, bu ölkələrin xaricində də keçirilir, hər bir kiçik fürsətdən istifadə edilərək məsləhətləşmələr aparılır, fikir mübadiləsi edilirdi. Belə görüşlərdən biri də Kasablankada oldu.

14 dekabr 1994-cü ildə dövlətimizin başçısı Kasablankada İKT-nin Zirvə toplantısında iştirak edərkən bir çox dövlətlərin rəhğərləri və nümayəndələri ilə yanaşı, İranın Xarici İşlər Naziri Əli Əkbər Vilayəti ilə də görüşdü. Söhbət zamanı o, İran tərəfinə Azərbaycanın mövqeyini fəal şəkildə dəstəklədiyinə görə təşəkkür etdi və bildirdi ki, "..Azərbaycan İslam Konfransı Təşki-

latının Zirvə toplantısında ilk dəfədir ki, iştirak edir. Bu isə müstəqil Azərbaycan Respublikasının islam aləmi tərkibində olmasına bəslənilən şübhələrin bir daha aradan qaldırılması deməkdir... Mən Kasablanka Zirvə toplantısının işinə çox böyük əhəmiyyət verirəm və ümidvar olduğumu bildirirəm ki, burada qəbul ediləcək qətnamələr Azərbaycanın haqq işinin müdafiə olunmasında mühüm rol oynayacaqdır. Bu qətnamələr hazırlanarkən Azərbaycanın mövqeyini müdafiə etmək sahəsində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin göstərdiyi səyləri yüksək qiymətləndirirəm."

***

Prezidentimiz İranla əlaqədar bütün tədbirlərdə həmişə şəxsən iştirak etməyi üstün tutmuş, bu tədbirlərdə çıxış edərək öz münasibətini bildirmişdir. Sonralar bu gözəl bir ənənə şəkli almışdır.

10 fevral 1995-ci il də İran İslam Respublikasının İslam inqilabının 16-cı ildönümü münasibətilə keçirdiyi tədbirdə də iştirak edən Prezidentimiz iştirakçılara öz ürək sözlərini çatdırmışdır. Göstərmişdir ki, İran İslam Respublikası Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. İran ilə Azərbaycan arasında yaranan əlaqələr indi artıq təkcə dövlətlərimiz arasındakı əlaqələr deyil, həm də o tayda, bu tayda yaşayan minlərlə insanın şəxsi əlaqələridir.

***

1995-ci il oktyabrın 5-7-də İİR Kooperasiya Naziri, Azərbaycan-İran iqtisadi-ticarət münasibətləri üzrə dövlətlərarası Müştərək Komissiyanın həmsədri Q.Şafei ölkəmizdə olmuş və respublika rəhbərliyi ilə bir sıra danışıqlar aparmışdır.

***

1995-ci il dekabrın 11-14-də İİR Xarici İşlər Nazirinin müavini M.Vaezi ölkəmizdə olmuş və respublika rəhbərliyi ilə bir sıra danışıqlar aparmışdır.

***

1996-cı ilin mart ayının 2-3-də Xarici İşlər Naziri Ə.Ə.Vilayəti, bir qədər sonra isə XİN-in müavini M.Morsəli, və mayın 3-5-də XİN müavini Abbas Məleki Azərbaycana rəsmi səfərə gəlmiş və respublika rəhbərliyi ilə bir sıra danışıqlar aparmışlar.

***

1996-cı ilin əvvəllərində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında Biləsuvar sərhəd-keçid məntəqəsinin açılması zərurəti meydana gəlmişdir. Belə ki, tranzit yüklərin həcminin xeyli dərəcədə artması səbəbi ilə Astara sərhəd-keçid məntəqəsinin işinin faydalı əmsalının aşağı düşməsi, Astara körpüsünün texniki vəziyyətinin nasaz olması baxımından Biləsuvarda yeni sərhəd-keçid məntəqəsinin yaranması günün tələbi idi.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Haşimi - Rəfsəncaninin dəvətilə 1996-cı il mayın 12-13-də Sərəxs-Tecən dəmiryolu xəttinin açılış mərasimində iştirak etmək üçün İrana səfər etmişdir. Səfər zamanı Azərbaycan Respublikası və İran İslam Respublikası dövlət başçıları iki ölkə arasındakı münasibətlərin inkişafına dair əməli addımlar atmışlar. Mayın 13-də Məşhəddə və 15-də Aşqabadda davam edən yüksək səviyyəli danışıqlar zamanı Azərbaycan və İran münasibətlərində öz həllini tapmamış məsələlər nəzərdən keçirilmişdir. Qeyd etmək lazımdır ki, toxunulmuş məsələlərin demək olar ki, əksəriyyəti müsbət həll olunmuşdur. Belə ki, yaxın zamanlarda Astara-Astara körpüsünün inşa-

sı və gələcəkdə Astara-Qəzvin dəmiryolu xəttinin birləşməsi, Naxçıvan Sement zavodunun tikilməsi, İrandan Naxçıvana boru kəmərinin çəkilməsi və bir sıra digər texniki layihələrin əməli surətdə həyata keçirilməsi nəzərdə tutulmuşdu.

***

Sərəxs-Tecən dəmiryolu xəttinin açılış mərasimində iştirak etmək üçün İrana səfər edən Prezident Heydər Əliyev KİV nümayəndələrinə bildirmişdir ki, səfərin çox böyük əhəmiyyəti var. İranın Məşhəd şəhərində Türkmənistan və İranın dəmir yollarının birləşməsi ilə əlaqədar təntənəli mərasim keçiriləcək və bu mərasimdə biz də iştirak edəcəyik. Şübhəsiz ki, orada müəyyən danışıqlar da aparılacaqdır. Aşqabadda isə İƏT-in Zirvə görüşü keçiriləcəkdir. Görüşə dövlət başçıları toplaşacaqlar. Burada bizim həm İƏT çərçivəsində əməkdaşlığımız, həm də ayrı-ayrı ölkələrlə ikitərəfli əməkdaşlığımız haqqında, zənnimizcə, çox söhbətlər gedəcəkdir.

Məşhəd hava limanında İran milli televiziyasının müxbirinin suallarına cavab verən Azərbaycan Prezidenti qədim "İpək yolu"nun yenidən bərpası demək olan bu yolu yüksək qiymətləndirərək, yenidən dirçəldilən "İpək yolu"nun hökmən Azərbaycandan da keçməli olduğunu, bizim "İpək yolu"na yeni əməkdaşlıq yolu kimi baxdığımızı, bu yolun ölkələrimiz arasında iqtisadi inteqrasiyanın daha da dərinləşməsinə xidmət edəcəyini söyləmiş, layihənin xalqlarımız, ölkələrimiz arasında ticarət, nəqliyyat əlaqələrini daha da gücləndirəcəyinə, Azərbaycanın, Qafqazın İranla, Orta Asiya ölkələri və başqa ölkələrlə əlaqələrini daha da genişləndirəcəyinə kömək edəcəyini demişdir.

İran-Azərbaycan münasibətlərinin hazırkı vəziyyətinə toxunan dövlət başçımız, İran ilə Azərbaycan arasındakı münasibətlərin indiki vəziyyətini çox müsbət qiymətləndirmiş və göstərmişdir ki, İran və Azərbaycan qonşu, dost dövlətlərdir, xalqlarımız da dost və qonşudurlar, qardaş xalqlardır. Eyni ənənələrə, eyni dinə mənsub olan xalqlardır. Bunlar hamısı bizim münasibətlərimizin daim müsbət olmasını tələb edir və Allaha şükürlər olsun ki, bu, belədir. Ancaq mənim arzum, istəyim ondan ibarətdir ki, bu əlaqələr daha da geniş, dərin və daha da yüksək səviyyədə olsun. Hesab edirəm ki, coğrafi mövqeyimizə, tarixi ənənələrimizə görə və başqa səbəblərə görə İran ilə Azərbaycan arasında əlaqələr bundan da yaxşı olmalıdır.

***

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən IV Zirvə toplantısında ölkəmizin Prezidenti də iştirak etmiş, başqa dövlət başçıları ilə yanaşı İran İslam Respublikasının Prezidenti ilə də görüş keçirmişdir.

Ölkəmizin başçısı burada geniş nitqlə çıxış etmiş, bu nitqdə Azərbaycan - İran əlaqələrinə də toxunmuşdur. O göstərmişdir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Məhz buna görə də tarixi köklərin, ənənələrin, mədəniyyətin eyniliyi ilə bağlı olduğumuz qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətidir.

Ölkəmizin başçısı vurğulamışdır ki, Aşqabad görüşü İƏT genişləndikdən sonra birgə fəaliyyətimizin üç ilinə yekun vurur. Bu, səmərəli və hadisələrlə zəngin dövr ər-

zində təşkilatımız əməkdaşlığın konkret sahələrində öz uzunmüddətli perspektivlərini və üstün istiqamətləri müəyyənləşdirmişdir.

Mühüm sənədlər qəbul edilmişdir: Kvetta fəaliyyəti planı, İstanbul bəyannaməsi, Alma-Ata əsas planı və s. Biz aviasiya və gəmiçilik şirkətlərinə, Ticarət və İnkişaf Bankına, Yenidən sığortalama şirkətinə dair razılaşdırılmış layihələrin, tranzit ticarət haqqında sazişin və viza qaydalarının sadələşdirilməsi haqqında sazişin həyata keçirilməsinə böyük əhəmiyyət veririk. İslamabadda III Zirvə toplantısında qəbul olunmuş bu sənədlər əməkdaşlığımızın dərinləşməsinə, şübhəsiz, kömək edəcəkdir.

Dövlətimizin rəhbəri Türkmənistan və İranın dəmiryol sistemlərinin birləşdirilməsini ölkələrimizin nəqliyyat sistemlərinin qovuşmasına doğru mühüm addım adlandırmış və bunun səmərəli əməkdaşlığa konkret misal olduğunu göstərmişdir.

Təşkilatın beynəlxalq nüfuzunun yüksəlməsinin, digər iri regional və beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlığın təşkilinin məmnunluq hissi doğurduğunu bildirən Azərbaycan Prezidenti BMT Baş Məclisinin 50-ci sessiyasında BMT ilə İƏT arasında əməkdaşlıq haqqında xüsusi qətnamə qəbul edilməsinin buna sübut olduğunu göstərmişdir. İƏT-in BMT müəssisələri ilə, İslam İnkişaf Bankı, İslam Konfransı Təşkilatı, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası ilə əməkdaşlığın genişlənməsinə yönəldilmiş səylərinin ölkəmiz tərəfindən alqışlandığını bildirmişdir.

Demişdir ki, bu təşkilatın inkişafının yeni mərhələsi əldə olunmuş müsbət nəticələr nəzərə alınmaqla, İƏT-in təşkilat strukturunda dəyişikliklər aparmağı, nizamnamə sənədlərinin bəzi müddəalarını bu günün reallıqları ilə uyğunlaşdırmağı tələb edir...

O, əmin olduğunu bildirmişdir ki, Xəzər dənizinin şelflərindəki enerji ehtiyatlarının hasilatı sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi bütün regionun, İƏTiştirakçısı olan dövlətlərin, - onlardan dördü Xəzər ətrafında yerləşir, - iqtisadi inkişafına ən əlverişli təsir göstərəcəkdir.

Prezidentimiz sonra Ermənistan Respublikası tərəfindən səkkiz ildən artıq davam edən silahlı təcavüzün nəticələrindən danışmış, danışıqların gedişindən söhbət açmış, sonda ölkəmizin ərazi bütövlüyünün təmin olunması və bir milyondan artıq Azərbaycanlı qaçqının öz ocaqlarına qayıtması üçün təşkilatı bütün imkanlardan istifadə etməyə çağırmışdır.

***

Azərbaycan-İran əlaqələri bu mühüm görüşdən sonra da inkişaf xətti ilə yüksəlməkdə davam etmişdir.

Bu dövrdə iki ölkə arasında münasibətlərin xeyli dərəcədə yaxşılaşmasına zəmin yaradan hadisələrdən biri 1996-cı il iyunun 4-də Bakıda Beynəlxalq Neft Konsorsiumu ilə İranın OIEC şirkəti tərəfindən "Şahdəniz" neft yatağının birgə işlədilməsi üzrə müqavilənin imzalanması olmuşdur. Burada Azərbaycan, Norveç, İngiltərə, Türkiyə, Fransa, Rusiya ilə birlikdə İran şirkətinin iştirakı qonşu ölkə üçün böyük əhəmiyyət kəsb edir.

***

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev İranın Baş Gömrük idarəsinin rəisi Əbdülhüseyn Vəhacini qəbul etmişdir. O, Prezident Haşimi - Rəfsəncaninin razılığı ilə Naxçıvan MR ilə İran arasında Poldəşt körpüsünün yaxın zamanlarda fəaliyyətə başlayacağı barədə dövlətimizin başçısına məlumat vermişdir.

***

1996-cı il iyunun 19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Azərbaycanda rəsmi səfərdə olan İran İslam Respublikasının Səhiyyə Naziri Əlirza Mərəndini qəbul etmişdir. Ölkələrimizin Səhiyyə Nazirləri səhiyyə sahəsinin müxtəlif sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etmişlər. Həmçinin həmsərhəd rayonlarda sərhəd tanımayan bir çox xəstəliklərin müalicəsi və malyariya xəstəliyinin yenidən baş qaldırmasının qarşısını almaq üçün birgə mübarizə aparılmasının təşkil olunması haqqında danışıqlar aparılmışdır.

***

İran İslam Respublikasının Daxili İşlər Naziri Əliəhməd Bəşarətinin dəvətilə 29 iyul -2 avqust 1996-cı il tarixdə İranda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Daxili İşlər Naziri Ramil Usubov keçirilmiş görüşlər zamanı mühüm sənədlər, "Narkotik maddələr qaçaqmalçılığı ilə birgə mübarizə" və "İki ölkənin sərhəd xidmətləri arasında əməkdaşlıq haqqında" müqavilələr imzalamışdır.

***

1996-cı il avqustun 26-28-də İran İslam Respublikasına rəsmi səfər etmiş Azərbaycan Respublikasının Xarici İşlər Naziri, İİR Prezidenti Haşimi - Rəfsəncani, Parlamentin sədri Natiq Nuri, Xarici İşlər Naziri Ə.Ə.Vilayəti və digər rəsmi şəxslərlə görüşmüş, iki ölkə arasında bir sıra məsələlərin həlli yolları araşdırılmışdır.

***

1996-cı il oktyabrın 3-7-də Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və hümanitar əlaqələr üzrə müştərək komissiyanın həmsədri Yaşar Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Tehranda olmuşdur. Səfər zamanı müştərək komissiyanın 2-ci iclası keçirilmiş və iki ölkə arasında əməkdaşlığı genişləndirmək məqsədilə memorandum imzalanmışdır.

***

1996-cı il oktyabrın 28-31-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş İranın birinci vitse-prezidenti Həsən Həbibi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev arasında keçirilən görüş zamanı ikitərəfli münasibətlərin, xüsusilə iqtisadi məsələlərin həlli yolları araşdırılmış, həmçinin bir sıra sənədlər imzalanmışdır. Həsən Həbibi Gəncə şəhərində, Naxçıvan Muxtar Respublikasında olmuş, həmin bölgələrin tarixi abidələri və iqtisadi potensialı ilə tanış olmuşdur. Prezident Heydər Əliyev Naxçıvana səfər edərkən (31 oktyabr) Həbibi ilə Bakı danışıqlarını davam etdirmiş, bilavasitə Naxçıvan MR ilə İran arasında əməkdaşlıq perspektivləri yollarını bir daha nəzərdən keçirmişdir.

***

İki ölkə Parlamentləri arasında da əlaqələr davam etmişdir. 1996-cı il noyabrın 26-28-də Bakıya işgüzar səfərə gəlmiş İslam Şurası Məclisi Rəyasət Heyətinin üzvü Seyid Rza Əkrəminin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevlə görüşmüşdür. Bundan əlavə Azərbaycan Respublikası Milli Məclisində keçirilmiş görüşlərdə parlamentlərarası qrupların fəaliyyətinin genişləndirilməsi zəruriliyi qeyd edilmişdir.

***

Dövlətlərimiz və xalqlarımız çətin anlarda bir-birinə kömək etməyə, yardım əlini uzatmağa həmişə hazır olmuş və bunu et-

mişlər. İran İslam Respublikasında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı olması ilə bağlı İran Prezidentinə və bütün İran xalqına 15 mart 1997-ci il tarixdə Azərbaycan Respublikasının Prezidentinin göndərdiyi başsağlığı yüzlərlə belə misallardan biridir.

***

1997-ci ilin aprel ayının 23-də İranın Xarici İşlər Naziri Ə. Vilayəti Bakıda olmuş və həmin ilin dekabr ayının 8-11-də İKT dövlətlərinin Tehranda keçiriləcək Zirvə toplantısına dəvət məktubunu şəxsən Prezident Heydər Əliyevə təqdim etmişdir.

***

Həmin il aprelin 28-30-da Tehranda İƏT təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirlərinin toplantısı keçirilmiş, bu toplantıda Azərbaycanın Xarici İşlər Naziri iştirak etmişdir.

***

11 may 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Əli Əkbər Haşimi-Rəfsəncani cənablarına İranda zəlzələ nəticəsində böyük dağıntılar və çoxsaylı insan tələfatı olması ilə əlaqədar olaraq həlak olanların qohum - əqrəbalarına və bütün İran xalqına dərin hüznlə başsağlığı vermişdir.

***

1997-ci il mayın 13-14-də Aşqabadda İƏT təşkilatı Zirvə toplantısının keçirildiyi günlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və İİR Prezidenti Haşimi-Rəfsəncani arasında görüş keçirilmişdir.

Növbədənkənar olan bu toplantı əsasən nəqliyyat, kommunikasiya məsələlərinə həsr olunmuşdu. Xüsusi bəyannamə - Aşqabad bəyannaməsi hazırlanmışdı. Bu bəyannamədə İƏT regionundan, ona daxil olan ölkələrdən həm Şərqə, Qərbə, həm də Şimala, Uənuba gedən bütün nəqliyyat, kommunikasiya vasitələrinin yaranması, tikilməsi və bununla da iqtisadi əlaqələrin inkişaf etdirilməsi məsələsi müzakirə olunmalı idi.

Toplantıda çıxış edən Prezidentimiz göstərmişdir ki, İƏT bölgəsinin nəqliyyat-kommunikasiya infrastrukturlarını onun iqtisadi inkişafının potensial imkanlarına və dünya standartlarına uyğunlaşdırmaq vaxtı gəlib çatmışdır.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yaradılması yolu ilə müasir Avroasiya tranzit nəqliyyat şəbəkəsinin təşkili əməkdaşlığın bu istiqamətində perspektivlidir....

Sərəxs sazişi və TRASEKA proqramları İƏT bölgəsində gəmiçilikdən və liman təsərrüfatından səmərəli istifadə üçün yaxşı zəmin yaradır, çünki yüklər dəniz bərəsi ilə Türkmənbaşı - Bakı istiqamətində daşınır.

Azərbaycan Prezidenti bildirmişdir ki, artıq bu gün Bakı limanı nəqliyyatın Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində bölüşdürülməsi qovşağının funksiyasını yerinə yetirmək iqtidarındadır və Xəzər hövzəsindəki bütün limanlar arasında ən güclü və yüksək texniki təchizata malik limandır. Onun imkanları İranın Ənzəli və Noşəhr limanlarına, habelə Türkmənbaşı, Mahaçqala, Həştərxan və Aktauya gedən yüklərin vurulması və boşaldılması işlərini tamamilə təmin etməyə şərait yaradır.

Bakı limanının və Xəzərdəki digər limanların inkişaf etdirilməsi işləri onlara ticarət-kommersiya mərkəzləri funksiyaları verilməsi yolu ilə həyata keçirilməlidir. Bununla əlaqədar iri proqramlara ehtiyac yaranır. Elə proqramlara ki, mövcud infrastrukturu beynəlxalq standartlara yaxınlaşdırmaq məqsədilə burada həm dəmiryolunun, avtomobil magistrallarının ayrı-ayrı qovşaqlarının, həm də liman təsərrüfatının yenidən qurulması, modernləşdirilməsi və inşası nəzərdə tutulsun.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ MƏHƏMMƏD XATƏMİ CƏNABLARINA

Hörmətli cənab Prezident, Sizi İran İslam Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə və bütün qardaş İran xalqına Allahdan sülh, əmin-amanlıq, tərəqqi və daim çiçəklənmə diləyirəm.

Biz İran İslam Respublikası ilə Azərbaycan Respublikasının əlaqələrinə böyük əhəmiyyət veririk. Xalqlarımızın birgə tarixi, mədəniyyəti, dini etiqadı, ənənələri və qardaşlığı ölkələrimizin yaxın dostluğu və əməkdaşlığı üçün gözəl bir zəmindir.

Umidvaram ki, Sizin bu yüksək vəzifəyə seçilməyiniz İran xalqının səadətinə, rifahının artmasına, İran - Azərbaycan əlaqələrinin daim inkişafına, bizim əməkdaşlığımızın yolunda olan bütün çətinliklərin aradan götürülməsinə xidmət edəcək. Biz öz tərəfimizdən qardaş İran İslam Respublikası ilə əlaqələrin inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik. Sizi bir daha ürəkdən təbrik edirəm, cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Bakı şəhəri, 26 may 1997-ci il

Dövlətimizin başçısı vurğulamışdır ki, göstərilənlər nəzərə alınaraq bütün əlaqədar tərəflərin iştirakı ilə Avroasiya dəhlizi ölkələri nəqliyyat nazirlərinin daimi konfransını təsis etmək məqsədəuyğun olardı. Bu isə Avroasiya nəqliyyat dəhlizinin lazımınca fəaliyyət göstərməsi məsələlərini operativ həll etməyə və həmin istiqamətdə əməkdaşlıq proqramlarının işlənib hazırlanmasına vahid mövqedən yanaşmağa imkan verərdi...

Biz Qazaxıstanın "Tengiz" yatağından enerji ehtiyatlarını Xəzər dənizi vasitəsilə və Azərbaycan ərazisi ilə Türkiyəyə nəql etmək təkliflərinə böyük əhəmiyyət verirk. Bu məsələ Qazaxıstan Prezidenti, hörmətli Nursultan Nazarbayevlə müzakirələrimizin mövzusu olmuşdur və mən onun işlənib təkmilləşdirilməsini və əməli qərarlar

qəbul edilməsini lazım bilirəm.

Bizim Zirvə toplantısının işi sübut edir ki, İƏT bölgəsində vahid kommunikasiya məkanı yaradılmasının yeni, mühüm mərhələsi başlanmışdır...

Bəyannamədə əksini tapan layihələrin həyata keçirilməsi İƏT ölkələrinin qarşılıqlı surətdə faydalı əməkdaşlığına və nəticə etibarı ilə sabit sülhün və ölkələrimizin, xalqlarımızın tərəqqisinin təmin olunmasına kömək edəcəkdir.

Görüşdə hər iki dövlət başçıları həm İƏT təşkilatı çərçivəsində, həm də ikitərəfli iqtisadi əlaqələrin genişlənməsi zəruriliyini vurğulamış, bir sıra layihələrin, o cümlədən Xudafərin, Qız qalası su bəndlərinin, Astara, Biləsuvar sərhədyanı bazarların işə salınması zəruriliyini qeyd etmişlər.

***

1997-ci ilin may ayında İranın yeni seçilmiş Prezidenti Məhəmməd Xatəmini təbrik etmək məqsədilə, Azərbaycan Prezidenti Heydər Əliyev Milli Məclis sədrinin müavini, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran dövlətlərarası müştərək komissiyasının həmsədri Yaşar Əliyevi özünün şəxsi nümayəndəsi kimi İrana göndərmişdir.

Yaşar Əliyev sentyabrın 20-də Heydər Əliyevin məktubunu M. Xatəmiyə təqdim etmişdir.

Təbrik məktubunda deyilir.

***

1997-ci il noyabrın 18-də Prezident Heydər Əliyev İİR-in Kooperasiya Naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının (DMK) həmsədri Morteza Hacını qəbul etmişdir. Qəbul zamanı İran Prezidenti M.Xatəminin cavab məktubu Azərbaycanın dövlət başçısına təqdim olunmuşdur.

***

1997-ci il noyabrın 17-20-də Bakıda keçirilmiş DMK-nın III iclasının yekun sənədi kimi, ikitərəfli münasibətləri inkişaf etdirmək məqsədilə tərəflər arasında memorandum imzalanmışdır. Bu sənəddə bir sıra yeni əməkdaşlıq yolları araşdırılıb müəyyənləşdirilmişdir. Məsələn, Bakı - Tehran telefon kanallarının sayının 60-dan 180-ə çatdırılması, Bakı-Biləsuvar-Culfa-Naxçıvan istiqamətində Naxçıvana yeni 60 telefon kanalı çəkilməsi nəzərdə tutulmuşdur. Noyabrın 20-22-də İİR-in nümayəndə heyəti Naxçıvan MR-da olmuşdur. İran Kooperasiya Naziri M.Hacı Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovla görüşüb, danışıqlar aparmışdır. Burada Naxçıvan bölgəsilə İran arasında əməkdaşlığın inkişaf yolları araşdırılmışdır. Bu məqsədlə, hər iki tərəfin məsul şəxsləri Şahtaxtı-Poldəşt sərhədyanı bazarında, Sədərək sərhəd-keçid məntəqəsində, Culfa sərhədyanı bazarında olmuş, Şahbuz rayonunda İİR-in vəsaiti, yerli dindarların köməyi və yardımı ilə tikilmiş məscidin açılışında iştirak etmişlər. Qeyd etmək lazımdır ki, 1997-ci il noyabrın 21-də Naxçıvanla İran arasında ayrıca əməkdaşlığın genişləndirilməsi haqqında memorandum imzalanmışdır.

***

1997-ci il dekabrın 8-11-də Prezident Heydər Əliyev Tehranda keçirilən İKT-nin VIII Zirvə görüşündə iştirak etmiş, bu zaman İranın Prezidenti S.M.Xatəmi, Ali Rəhbər Ayətullah Xamneyi, Məsləhət Şurasının sədri Haşimi - Rəfsəncani və digər yüksək səviyyəli dövlət xadimlərilə keçirdiyi görüşlər nəticəsində ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qaldırılmış, ölkələrimiz arasındakı münasibətlərin

gələcək inkişafı üçün geniş imkanlar açılmışdır.

Tehrana yola düşməzdən əvvəl səfərin hədəf və məqsədlərindən danışan dövlət başçımız, ölkəmizin İKT-nin üzvü olduğunu və təşkilatın Zirvə görüşündə Azərbaycanın dövlət başçısının da iştirak etməsinin zəruriliyini, 1994-cü ildə Mərakeşdə - Kasablankada İKT-nin Zirvə görüşündə bir çox məsələlərin müzakirə edildiyini, təşkilatın Ermənistanın Azərbaycana təcavüzünü pisləyən qətnamə qəbul etdiyini, keçən il Cakartada İslam Konfransı təşkilatı ölkələri xarici işlər nazirlərinin görüşündə də Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərin öz əksini tapdığını bildirmiş, ölkəmizin islam aləminin bir hissəsi kimi bu Zirvə görüşünün işində iştirak etmək və fikirlərini, təkliflərini bildirmək, islam ölkələrinin həmrəyliyi üçün səylərimizi qoymaq məqsədi ilə Tehrana getdiyini bəyan etmişdir.

İranla ikitərəfli danışıqlarda müzakirə ediləcək məsələlərə toxunan Prezident göstərmişdir ki, bu danışıqlarda konkret məsələlər nəzərdə tutulmayıbdır. İranın yeni Prezidenti ilə mənim xüsusi görüşüm olacaqdır. Bizim məqsədimiz həmişə belə olubdur ki, İran böyük qonşumuzdur və İranla əlaqələri daim yaxşılaşdırmalıyıq. Biz bu barədə üzərimizə düşən vəzifələri öz tərəfimizdən yerinə yetiririk. Mən bu dəfə də çalışacağam subut edəm ki, İran ilə Azərbaycan arasında hər bir dövlətin xüsusiyyətini nəzərə alaraq normal dostluq əlaqələri olmalıdır və İran hökuməti də bu barədə öz üzərinə düşən addımları atmalıdır.

Dekabrın 9-da Zirvə görüşünün açılışı olmuşdur. Toplantını təbrik sözü ilə İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətulla Xamneyi açmış, 53 müsəlman ölkəsindən və beynəlxalq təşkilatlardan gəlmiş nümayəndələri bu mühüm görüş münasibətilə təbrik edərək onlara uğurlar arzulamışdır.

Sonra ötən üç ildə İslam Konfransı Təşkilatına rəhbərlik etmiş Mərakeşin Baş Naziri, doktor Abdullətif Semlali çıxış edərək bu müddətdə İKT-nin gördüyü işlər barədə danışmışdır. Qeyd etmişdir ki, İKT-nin nüfuzu getdikcə artır və o, beynəlxalq təşkilatlar sırasında mühüm yerlərdən birini tutur.

Bundan sonra isə İslam Konfransı Təşkilatının yeni sədri kimi çıxış edən İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi İKT-nin rolundan və onun qarşısında duran vəzifələrdən danışmışdır.

Azərbaycan Prezidenti Tehranda olduğu zaman 25-dən çox ölkənin Dövlət və Hökumət Başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlər keçirmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliycv Zirvə görüşündə çıxış etmişdir.

Prezident Heydər Əliyev islam ölkələrinin Dövlət və Hökumət Başçılarını fəal əməkdaşlıq etməyə çağırmış, bir sıra ölkələrin qarşılaşdığı problemlərin həlli sahəsində İKT-nin başlıca vəzifələrindən söhbət açmış, Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmizə vurduğu yaralardan ətraflı bəhs edərək İKT-nin rəhbərliyini və üzv ölkələrin Dövlət və Hökumət Başçılarını Azərbaycanın haqq işinə dəstək verməyə çağırmış və ümidvar olduğunu bildirmişdir ki, Tehran Zirvə görüşü Ermənistanın Azərbaycana qarşı təcavüzü barəsində tutarlı qərarlar qəbul edəcək və bir milyon azərbaycanlı qaçqın müsəlmanlara fəal yardım proqramları təklif edəcəkdir. Dövlətimizin rəhbəri İKT üzvü olan ölkələr arasında əməkdaşlığı genişləndirmək lüzumunu

qeyd etmiş, müstəqil Azərbaycanın demokratik dövlət quruculuğu yolu ilə irəlilədiyini bildirmiş, toplantı iştirakçılarının diqqətini Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünə bir daha cəlb etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 9-da Tehranda İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

İslam Konfransı Təşkilatının Zirvə görüşündə iştirak etməsindən məmnun olduğunu bildirən Prezident Heydər Əliyev, bu görüşün yaxşı təşkil edildiyini nəzərə çarpdırmış, Zirvə görüşünün müsəlman ölkələrinin əməkdaşlığının daha da canlandırılmasında əhəmiyyətli rol oynayacağına və toplantıda Ermənistanın Azərbaycana təcavüzünü qətiyyətlə pisləyən mühüm sənədlər qəbul edəcəyinə ümid etdiyini bildirmişdir.

İran ilə Azərbaycan arasında dərin köklərə malik tarixi dostluq əlaqələrinin gündən-günə möhkəmləndirilməsinin vacib olduğunu nəzərə çarpdıran Prezident Heydər Əliyev demişdir ki, biz qonşu və dost ölkə olan İranla əməkdaşlığın genişləndirilməsinə daim diqqət yetiririk.

Qarşıdakı üç ildə İslam Konfransı Təşkilatına İranın sədrlik edəcəyini vurğulayan cənab Xatəmi isə bildirmişdir ki, biz bu nüfuzlu təşkilatın Azərbaycan dövlətinin problemlərinin həllinə yaxından kömək göstərməsinə xüsusi fikir verəcəyik.

Bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İKT çərçivəsində Azərbaycan-İran əlaqələrinin daha da yaxşılaşdırılmasının zəruri olduğunu qeyd edən dövlətimizin başçısı Heydər Əliyev göstərmişdir ki, Azərbaycan Respublikası öz müstəqilliyinin qorunub saxlanılması və əbədi olması üçün əlindən gələni edəcəkdir. Respublikamızın rəhbəri bildirmişdir ki, Azərbaycan xalqı bundan sonra heç bir ölkənin təsir dairəsində ola bilməz və olmayacaqdır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazisinin 20 faizini işğal etməsindən, 1 milyondan çox vətəndaşımızın qaçqın vəziyyətində, ağır şəraitdə yaşamasından bəhs edən Prezident Heydər Əliyev, bu münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan və həmsədrlərin sülh təkliflərindən də görüşdə söhbət açmışdır.

Cənab Xatəmi söyləmişdir ki, İran xalqı Azərbaycandakı bacı-qardaşlarının dərdinə şərikdir və bu münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.

Prezident Heydər Əliyev cənab Xatəmini Azərbaycana rəsmi səfərə dəvət etmiş, dəvət məmnunluqla qəbul olunmuşdur.

Görüşdə Azərbaycan-İran əməkdaşlığının perspektivləri, müştərək komissiyanın fəaliyyətinin daha da canlandırılması barədə geniş fikir mübadiləsi də aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Tehran Zirvə görüşünün ikinci günü - dekabrın 10-da İranın "Əhrar", "Əsr-e-azadi" və "İqtisadiyyat dünyası" qəzetlərinin müxbirlərinə müsahibələr vermişdir.

Müsahibələrdə İran ilə Azərbaycan arasındakı əlaqələrin dostluq, qardaşlıq xarakteri daşıdığını, bu əlaqələrin bundan sonra daha da yüksəklərə qalxacağını, genişlənəcəyini, daha da inkişaf edəcəyini göstərmişdir.

Bildirmişdir ki, bizim tarixi əlaqələrimiz, tarixi keçmişimiz, bir dinə mənsub olmağımız, adət-ənənələrimiz ölkələrimizin - Azərbaycan və İranın fəal əməkdaşlıq etməsi və dostluq münasibətləri saxlaması üçün çox sanballı bünövrə yaratmışdır. İndi belə əməkdaşlıq var, amma mən hesab edirəm ki, bu, kifayət deyildir. Biz bütün sahələrdə - iqtisadiyyatda, elm, texnika, mədəniyyət sahəsində əməkdaşlığımızı genişləndirməliyik. Ümidvaram ki, Prezident cənab Xatəmi və İranın digər rəhbərləri ilə görüşlərimiz zamanı bu məsələləri müzakirə edəcək və əməkdaşlığımızı daha da inkişaf etdirmək üçün tədbirləri müəyyənləşdirəcəyik.

Biz istəyirik ki, islam ölkələri daha da həmrəy, bir-biri ilə mehriban, dost olsunlar. İslam aləmi dünyada gedən proseslərdə islam mədəniyyətini, mənəviyyatını, dinini daha da qorusun, müsəlman xalqlarının, ölkələrinin hüquqlarının pozulmasının qarşısını alsın.

Mənim istəyim də, arzum da budur ki, İran ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri olsun, bizim ölkələrimizin böyük imkanlarından əməkdaşlığımızı, o cümlədən iqtisadi əməkdaşlığımızı inkişaf etdirmək üçün istifadə edilsin.

Prezident Heydər Əliyev, həmişə olduğu kimi, bu dəfə də müxtəlif informasiya agentlikləri müxbirlərinin suallarına ətraflı cavablar vermiş, Xəzərin sektorlara bölünməsi məsələsinə toxunaraq göstəmişdir ki, hər bir ölkənin özünün siyasəti, maraqları var. Ancaq mən ona inanıram ki, gələcəkdə Xəzər dənizinin mineral ehtiyatlarından istifadə etmək üçün onun sektorlara bölünməsinin alternativi yoxdur. Bütün Xəzəryanı ölkələr bu prinsipin üzərində dayanmalıdırlar. Ona görə ki, bu prinsip hər bir ölkə üçün Xəzər dənizinin mineral ehtiyatlarından səmərəli istifadə etməyə ən gözəl şərait yaradan prinsipdir.

Azərbaycan neftinin nəqli üçün kəmərin İrandan keçməsi imkanlarına toxunan dövlət başçımız bildirmişdir ki, bizim neft kəmərinin İrandan keçməsi haqqında hələ ki, danışıqlar aparmamışıq. Ancaq Xəzər dənizinin Azərbaycan sektoru üzrə artıq bir neçə müqavilə imzalanıb və gələcəkdə bunlar nəzərdə tutulduğundan da çox neft və qaz əldə etmək perspektivi açıbdır. Ona görə də bir yox, bir neçə kəmər ola bilər. Çünki Azərbaycan sektoru ilə yanaşı, Xəzər dənizinin digər sektorlarında - Qazaxıstan sektorunda da, Türkmənistan sektorunda da, başqa sektorlarda da neft hasil etmək imkanları var. Bir halda ki, Xəzər dənizində bu qədər neft hasil olunacaq, bunu dünya bazarlarına aparmaq lazımdır. Dünya bazarlarına aparmaq üçün də cürbəcür yollardan, ələlxüsus iqtisadi və təhlükəsizlik cəhətdən əlverişli yollardan istifadə olunacaqdır.

Azərbaycan Prezidenti Suriyanın TV-2, Ermənistanın milli radiosunun müxbirinə də müsahibələr vermişdir.

***

Azərbaycan Prezidenti Heydər Əliyev Təbriz şəhərinin valisi Yəhya Məhəmmədzadə ilə də görüş keçirmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşündən şərəf duyduğunu bildirən vali Azərbaycan ilə İran arasında əlaqələrin durmadan inkişaf etdirilməsinə göstərdiyi diqqət və qayğıya görə respublikamızın rəhbərinə minnətdarlığını bildirmişdir.

Səmimi sözlərə görə cənab Məhəmmədzadəyə təşəkkür edən Prezident Heydər Əliyev təbrizlilərin Azərbaycana, Naxçıvana göstərdiyi humanitar yardıma görə razılığını bildirərək demişdir: Güman edirəm ki, Azərbaycan ilə İran arasındakı əla-

qələrin inkişaf etdirilməsinə yaxından kömək göstərəcəksiniz.

Cənab Məhəmmədzadə humanitar yardımı bundan sonra da davam etdirəcəklərini söyləmiş, Təbrizin nümayəndə heyətinin Azərbaycana səfər edəcəyini bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 11-də ölkəmizin Tehrandakı səfirliyində olmuş, onun işi ilə tanış olmuşdur.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 11-də Tehranda İran İslam Respublikası Məsləhət Şurasının sədri Əli Əkbər Haşimi-Rəfsəncani ilə də görüşmüşdür.

Dövlətimizin başçısı İslam Konfransı Təşkilatının Zirvə görüşünün yüksək səviyyədə keçməsindən razılıq etmişdir. İranla əməkdaşlığın durmadan inkişaf etdirilməsinə Azərbaycanın da böyük diqqət yetirdiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev, ölkələrimiz arasında münasibətlərin gündən-günə yaxşılaşdırılmasının vacib olduğunu vurğulamışdır.

Azərbaycan ilə İran arasında münasibətlərin həmişə səmimi olmasının zəruriliyini nəzərə çarpdıran dövlətimizin başçısı Heydər Əliyev, ölkələrimizin iqtisadi əməkdaşlığının möhkəmləndirilməsi məqsədi ilə yaradılmış müştərək komissiyaların fəaliyyətini daha da canlandırmağın vacib olduğunu bildirmişdir.

Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin perspektivləri barəsində də fikir mübadiləsi aparılmışdır.

***

Azərbaycan Prezidenti Heydər Əliyev İranın Ali Dini Rəhbəri Ayətulla Seyid Əli Xamneyi ilə də Zirvə toplantısı zamanı görüşmüşdür. Dövlətimizin başçısı Heydər Əliyev Tehrana gəlməsindən, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə görüşündə iştirak etməsindən məmnun qaldığını bildirərək bu təşkilatın 1994-cü ildə Kasablankada (Mərakeş) keçirilmiş Zirvə görüşündə də iştirak etdiyini xatırlatmışdır.

İKT-nin VIII Zirvə görüşünün Tehranda keçirilməsini və İran İslam Respublikasının qarşıdakı üç ildə bu təşkilata sədrlik edəcəyini əlamətdar hadisə kimi yüksək qiymətləndirən Prezident Heydər Əliyev demişdir: Biz Zirvə görüşündə sizin nitqinizi böyük diqqətlə dinlədik. Bu nitqinizə və Zirvə görüşünün mütəşəkkil qaydada keçməsinə görə mən Sizi təbrik edirəm. Dünyəvi dövlət quran müstəqil Azərbaycan Respublikası öz dininə böyük hörmətlə yanaşır. Biz ötən uzun illərdə itirdiklərimizi - adət-ənənələrimizi bərpa edirik, canlandırırıq, onların durmadan inkişaf etdirilməsi üçün ölkəmizdə bütün imkanları yaradırıq. Xalqımızı 70 il ərzində islam dinindən ayırmağa çalışıblar. Bilirsiniz ki, biz Sovetlər İttifaqının tərkibində ateist tərbiyəsi, təbliğatı altında yaşamışıq. Ancaq buna baxmayaraq, xalqımız öz dinindən heç vaxt ayrılmayıbdır, onu qəlbində, ürəyində saxlayıb və imkan olan kimi hər şey açılıbdır. Bu da dinimizin - islam dininin nə qədər qüdrətə, gücə malik olduğunu bir daha göstərir. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcək və dinindən də ayrılmayacaqdır.

İran ilə əlaqələrə Azərbaycanın çox böyük əhəmiyyət verdiyini, Azərbaycan - İran münasibətlərinin daimi dostluq və qardaşlıq münasibətləri olduğunu nəzərə

çarpdıran respublikamızın rəhbəri demişdir: Bizim arzumuz, istəyimiz ondan ibarətdir ki, bu münasibətlər daha geniş, sıx, mehriban, səmimi olsun. Əməkdaşlığımızı genişləndirmək üçün insani, elmi, mədəni, ticarət əlaqələrinin durmadan möhkəmləndirilməsi çox vacibdir.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, həmsədrlərin irəli sürdüyü təkliflərdən söhbət açan Prezident Heydər Əliyev bildirmişdir ki, biz bu təklifləri əsas kimi qəbul etmişik. İstəyirik ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin, ölkəmizin ərazi bütövlüyü təmin olunsun, doğma yurdundan zorla qovulmuş, hazırda çadırlarda ağır şəraitdə yaşayan bir milyondan çox vətəndaşlarımız öz yerlərinə qayıtsınlar.

Azərbaycanlı qaçqınlara etdiyi humanitar yardıma görə İran İslam Respublikasının rəhbərliyinə minnətdarlığını bildirən dövlətimizin başçısı, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında qeyri-konstruktiv mövqeyindən əl çəkməyən Ermənistana bir çox dövlətlərin siyasi və iqtisadi dəstək verməsindən təəssüfləndiyini bildirmişdir.

Prezident Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Tehran Zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzünü pisləyən sənədlərin qəbulu üçün İranın öz nüfuzundan səmərəli istifadə edəcəyinə əmin olduğunu vurğulamışdır.

Söhbət zamanı Azərbaycan-İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Dövlətimizin başçısı Heydər Əliyev hava limanının fəxri qonaqlar kitabına öz ürək sözlərini yazmışdır:

"İslam Konfransı Təşkilatının Zirvə görüşü İran İslam Cümhuriyyətində gözəl keçirildi və tarixi əhəmiyyəti olan qərarlar qəbul edildi. Mən Tehran Zirvə görüşünü yüksək qiymətləndirirəm. İnanıram ki, Zirvə görüşü islam ölkələrinin birliyinə, həmrəyliyinə kömək edəcəkdir.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti

11 dekabr 1997-ci il".

Sonra dövlətimizin başçısı Heydər Əliyev hava limanında Tehrana səfərinin yekunu ilə əlaqədar qısa bəyanat vermişdir.

Bəyanatda deyilir:

"Mən İslam Konfransı Təşkilatının VIII Zirvə görüşünün nəticələrini çox yüksək qiymətləndirirəm. Birincisi, bu Zirvə görüşü çox gözəl təşkil olunmuşdur. İkincisi, Zirvə görüşünün iştirakçılarının əksəriyyəti öz ölkələrinin ən yüksək vəzifəli şəxsləri tərəfindən təmsil edilmişdir. Bu Zirvə görüşü üç gün müddətində çox işgüzar şəraitdə keçmişdir və çox dəyərli qərarlar, qətnamələr qəbul etmişdir. Mən xüsusən son qərarları yüksək qiymətləndirirəm. Hesab edirəm ki, Tehran bəyannaməsi, Zirvə görüşünün yekun sənədi, islam aləminə aid Tehrandakı görüşlər haqqında sənəd və şübhəsiz ki, qəbul olunmuş bütün başqa sənədlər də böyük əhəmiyyət kəsb edir.

Mən Azərbaycanın dostu və yaxın qonşusu, qardaşı olan İran İslam Cümhuriyyətində belə bir Zirvə görüşünün keçirilməsini İran İslam Cümhuriyyəti üçün böyük bir tarixi hadisə hesab edirəm. Bu Zirvə görüşü müvəffəqiyyətlə başa çatdığına gö-

rə mən İran İslam Cümhuriyyətini və onun bütün rəhbərlərini ürəkdən təbrik edirəm. Mən İslam Konfransı Təşkilatının üç il ərzində sədri olacağı münasibətilə də İran İslam Cümhuriyyətini təbrik edirəm.

Mən İranın Ali Dini Rəhbəri həzrəti Ayatulla Xamneyinin Zirvə görüşündəki nitqini çox yüksək qiymətləndirirəm. İran İslam Cümhuriyyətinin Prezidenti cənab Məhəmməd Xatəminin İslam Konfransı Təşkilatının Zirvə görüşünün keçirilməsi üçün qoyduğu səyləri və onun bu Zirvə görüşünə çox gözəl sədrlik etməsini də yüksək qiymətləndirirəm.

İslam ölkələrinə daha çox birlik, həmrəylik arzulayıram. Qardaş İran xalqına səadət, xoşbəxtlik və bütün işlərdə uğurlar arzulayıram. Təşəkkür edirəm."

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin Tehranda keçirilmiş Zirvə görüşündən vətənə qayıdarkən - dekabrın 11-də gecə, Binə hava limanında səfərin yekunları barədə curnalistlərin suallarına cavab verərək bildirmişdir ki, Zirvə görüşü özlüyündə beynəlxalq həyatda mühüm hadisədir. Üç il bundan əvvəl Zirvə görüşü Mərakeşdə olmuşdu. Bu dəfəki Zirvə görüşündə 55 ölkə iştirak edirdi, əksəriyyəti ən yüksək səviyyədə təmsil olunmuşdu. Bir çox məsələlər müzakirə edildi. Hesab edirəm ki, Zirvə görüşü uğurla keçmiş və islam ölkələri arasında daha çox birlik yaradılmasına yönəldilən sənədlər qəbul olunmuşdur. Bir sıra digər mühüm sənədlər, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı, Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən və Ermənistan silahlı birləşmələrinin çıxarılmasını tələb edən, münaqişənin aradan qaldırılması sahəsində Minsk konfransının, Minsk qrupunun səylərini dəstəkləyən, bu münaqişənin həlli barədə Lissabon Zirvə görüşünün qərarını təsdiqləyən sənəd qəbul olunmuşdur. Bir sözlə, mən razıyam.

İran-Azərbaycan münasibətlərinə toxunan dövlət başçımız qeyd etmişdir ki, biz İran-Azərbaycan münasibətlərinə çox vaxt sərf etdik. Həm İranın Prezidenti Məhəmməd Xatəmi ilə çox əhəmiyyətli görüşüm oldu, həm də İranın Ali Rəhbəri Ayətullah Xamneyi ilə görüşüm oldu. Hesab edirəm ki, biz ikitərəfli əlaqələrə aid məsələləri çox ətraflı müzakirə etdik.

Beləliklə, Azərbaycan diplomatiyası İslam Konfransı Təşkilatının Zirvə görüşündə yeni böyük uğur qazanmaqla yanaşı, İranla əlaqələrimizin möhkəmlənməsində də irəliyə doğru addımlar atmışdır.

***

Bundan sonra 1998-ci il martın 16-18-də İİR-in Xarici İşlər Nazirinin Amerika və Avropa ölkələri üzrə müavini M.Sərmədi Bakıda Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdir. İkitərəfli əlaqələrin inkişafı üçün konkret təkliflər irəli sürülmüşdür.

***

1998-ci il avqustun 7-8-də Bakıda keçirilən "Tarixi İpək yolunun Bərpası" konfransında (TRASEKA) iştirak etmək məqsədilə İİR Dəmir Yol Təşkilatının icraçı direktoru, doktor Rəhman Dadmanın başçılıq etdiyi, Dəmir Yol Təşkilatı Tədqiqat Mərkəzinin Baş direktoru Abbasəli Qurbanəlibəy və Xarici Sərmayə Qoyuluşları İdarəsinin Baş direktoru Məhəmməd İsmayıl Əlixanidən ibarət nümayəndə heyəti avqustun 7-dən 14-dək Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikasının bir

sıra yüksək vəzifəli məsul şəxslərilə müzakirələr aparmışlar.

***

1998-ci il avqustun 12-13-də İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmiş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslərlə görüşlər keçirmişdir. Görüşlər zamanı ikitərəfli münasibətlərin aktual məsələləri, o cümlədən Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, neft marşrutlarının optimal variantları, iqtisadi-ticarət əlaqələrinin perspektivləri və digər məsələlər haqqında fikir mübadiləsi aparılmışdır. Müzakirələr zamanı Qarabağ böhranının tezliklə dinc yolla aradan qaldırılmasının zəruriliyi qeyd edilmiş, İran tərəfi Ermənistanın Azərbaycana hərbi təcavüzünü pislədiyini bildirmiş, Azərbaycanla Ermənistan arasında ikitərəfli danışıqlar aparılmasının faydalı nəticələr verə biləcəyi qeyd edilmiş, böhranın aradan qaldırılması yolunda İranın hər cür səy göstərməyə hazır olduğu bəyan edilmişdir.

İki ölkə arasında iqtisadi əlaqələri inkişaf etdirmək məqsədilə iqtisadi, ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyası tərəfindən təklif olunan Astara-Astara körpüsünün inşası, Astara-Astara dəmir yolu xəttinin çəkilməsi, Naxçıvan Muxtar Respublikasının elektrik enercisi ilə təmin edilməsi, Xudafərin və Ordubad su qovşağı bəndlərinin tikintisi, Bakı neftinin İranın şimalında alınmasının mümkün variantları və s. məsələlər müzakirə olunmuşdur.

***

1998-ci il oktyabrın 9-12-də Əhəd Qəzainin başçılıq etdiyi İran Parlamentinin dörd nəfərdən ibarət nümayəndə heyəti 1998-ci il oktyabrın 11-də keçirilmiş Prezident seçkilərində müşahidəçi kimi iştirak etmək üçün Azərbaycan Respublikasında səfərdə olmuşdur.

Səfər zamanı nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Milli Məclisin sədri və bir sıra yuksək vəzifəli məsul şəxslərlə görüşlər keçirmiş, Bakının və o cümlədən, Azərbaycanın bir sıra başqa bölgələrinin seçki məntəqələrində olmuşlar.

***

1998-ci il oktyabrın 19-da Prezident Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Bakıya gələn İİR-in Kooperasiya Naziri, İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüş zamanı M.Haçı dövlət müstəqilliyi günü və Heydər Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə İran Prezidenti M.Xatəminin təbrik məktubunu Azərbaycanın dövlət başçısına təqdim etmişdir.

İran nümayəndə heyəti Azərbaycan Respublikasının Milli Məclis sədrinin müavini, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Yaşar Əliyevlə görüş keçirmiş, müzakirələr aparmışdır.

***

1998-ci il dekabrın 21-28-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi Azərbaycan Parlamentinin nümayəndə heyəti, İİR İslam Şurası Məclisinin sədri Natiq Nurinin dəvətilə İrana səfər etmişdir. Səfər za-

manı Milli Məclisin sədri M.Ələsgərov İİR Prezidenti M.Xatəmi, İslam Şurası Məclisinin sədri N.Nuri, Məsləhət Şurasının sədri Haşimi-Rəfsəncani, Tikinti və Şəhərsalma Naziri Ə.Əbdüləlizadə, Xorasan valisi Mehrəlizadə, Şərqi Azərbaycan valisi Y.Məhəmmədzadə, Ali Dini Rəhbərin Şərqi Azərbaycanda nümayəndəsi Təbriz imam cüməsi Ayətulla Ə.Şəbüstəri ilə görüşmüşdür. Görüşlər zamanı ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahələrdə olan əlaqələrin sürətlə inkişaf etdirilməsi zəruriliyi qeyd olunmuş, tərəflər bölgədə və beynəlxalq aləmdə baş verən münaqişələrin sülh yolu ilə həll edilməsi və dövlətlərin ərazi bütövlüyünün qorunması prinsiplərinə tərəfdar olduqlarını bildirmişlər. Azərbaycanla İran arasında iqtisadi və mədəni əlaqələri genişləndirmək, əməkdaşlığı yüksək səviyyəyə qaldırmaq və iki ölkə parlamentləri arasında əlaqələrin genişləndirilməsi haqqında fikir mübadiləsi aparılmışdır.

***

1999-cu il fevralın 8-də Azərbaycan Dövlət Akademik Dram Teatrında İran İslam İnqilabının 20-ci ildönümünə həsr olunmuş İran mədəniyyəti həftəsi çərçivəsində ədəbi-mədəni tədbir keçirilmişdir.

***

1999-cu il mart ayının 5-dən 8-dək Azərbaycan Respublikasının "Azəravtonəqliyyat" Dövlət Konserninin Prezidentinin başçılıq etdiyi nümayəndə heyəti İran həmkarları ilə məsləhətləşmələr aparmaq məqsədilə İİR-ə səfər etmişdir.

***

1999-cu il mart ayının 12-dən 15-dək Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin başçılıq etdiyi nümayəndə heyəti İİR-in Xarici İşlər Naziri K.Xərrazinin dəvəti ilə İrana rəsmi səfər etmişdir. Səfərini Təbrizdən başlayan Xarici İşlər Naziri martın 12-də Şərqi Azərbaycan valisi Y. Məhəmmədzadə və Təbriz imam cüməsi Ayətulla Şəbüstəri ilə görüşmüşdür. Mart ayının 13-də Xarici İşlər Naziri Tehranda İİR Prezidenti S.M. Xatəmi, İslam Şurası Məclisinin sədri Natiq Nuri və Xarici İşlər Naziri K. Xərrazi (iki mərhələdə), Kooperasiya Naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Komissiyanın həmsədri M. Hacı, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Ondər Ozər ilə danışıqlar aparmışdır. Səfər zamanı bir sıra məsələlər, o cümlədən Rusiyadan Ermənistana külli miqdarda silah göndərməsi, Xəzər dənizinin statusu problemi, Təbrizdə Azərbaycan Respublikasının konsulluğunun açılması və digər məsələlər müzakirə olunmuş, ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin daha sürətlə inkişaf etdirilməsinin zəruriliyi qeyd edilmişdir.

***

1999-cu il may ayının 10-14-də Azərbaycan Respublikası Prezident Aparatının siyasi-ictimai şöbəsinin müdiri Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti İİR-də keçirilən "Azərbaycan Respublikası və İran, mövcud vəziyyət: perspektiv və imkanlar" adlı konfransda iştirak etmişdir.

Konfrans zamanı iki ölkə arasında mövcud olan bir sıra problemlərin həlli yolları araşdırılmış, həmin problemlərin ətrafında yaradıcı fikir mübadiləsi aparılmışdır.

***

1999-cu il may ayının 21-də Azərbaycan Respublikası Xarici İşlər Naziri İƏT Nazirlər Şurasının Bakıda keçirilən toplantısında iştirak edən İranın Xarici İşlər Naziri K.Xərrazini qəbul etmişdir. Görüş zamanı

beynəlxalq, regional və ikitərəfli münasibətlər üzrə mühüm məsələlər müzakirə edilmiş, Xarici İşlər Naziri öz iranlı həmkarını Bakıya rəsmi səfərə dəvət etmişdir.

***

1999-cu il iyunun 15-17-də Milli Məclisin sədri Murtuz Ələskərov Tehranda keçirilən Müsəlman ölkələri Parlamentlərarası Assambleyasının təsis konfransında iştirak etmişdir.

***

1999-cu il iyunun 22-də Şərqi Azərbaycan valisi Yəhya Məhəmmədzadənin başçılıq etdiyi İİR-in nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Səfərin nəticəsi olaraq Naxçıvan MR Ali Məclisinin sədri V.Talıbov ilə birlikdə anlaşma protokolu imzalanmışdır. Həmin anlaşma protokolunda iki respublika arasında ticarəti inkişaf etdirmək, əkinçilik və maldarlıq sahəsində informasiya mübadiləsi aparmaq, yeni körpülər salmaq, Culfa-Naxçıvan yolunu təmir etdirmək və digər tədbirlər nəzərdə tutulmuşdur.

İki respublika arasında iqtisadi əlaqələri genişləndirmək üçün Culfa sərhəd məntəqəsinin gün ərzində işləməsi və Təbriz - Culfa - Naxçıvan dəmir yolu çəkilişinə başlanması qərarlaşdırılmışdır.

***

1999-cu il iyulun 29-dan avqustun 2-nə qədər Şərqi Azərbaycan valisi Yəhya Məhəmmədzadənin başçılıq etdiyi İİR-in nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı vali respublika Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, o cümlədən Milli Məclisin sədri, Baş Nazir, Milli Məclisin sədr müavini, Azərbaycan-İran Dövlətlərarası Müştərək İqtisadi Komissiyasının həmsədri, Ticarət Naziri, Şeyxülislam, Bakı şəhəri İcra Hakimiyyətinin başçısı ilə görüşlər keçirmişdir. Görüşlər zamanı ikitərəfli münasibətlərin daha da inkişafı haqqında fikir mübadiləsi aparılmışdır. Səfər zamanı İİR nümayəndə heyəti Sumqayıt şəhərində olmuş və bu şəhərin kimya-sənaye kompleksləri ilə tanış olmuşdur.

***

1999-cu il avqustun 5-dən 9-na qədər İranın Tikinti və Şəhərsalma naziri Ə.Əbdüləlizadənin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı Ə.Əbdüləlizadə Respublika Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, o cümlədən Milli Məclisin sədri, Baş Nazir, Milli Məclisin sədr müavini, Azərbaycan-İran Müştərək İqtisadi Komissiyasının həmsədri, Ticarət Naziri, Şeyxülislam, Bakı şəhəri İcra Hakimiyyətinin başçısı ilə görüşlər keçirmişdir.

Görüşlər zamanı iki ölkə arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi haqqında geniş fikir mübadiləsi aparılmışdır. Səfər zamanı İİR nümayəndə heyəti Şəki şəhərində olmuş və şəhərin tarixi-mədəni abidələri ilə yaxından tanış olmuşdur.

***

1999-cu il avqustun 15-dən 22-nə qədər Azərbaycan Respublikasının 29 curnalisti İİR-in Şərqi Azərbaycan əyalətində səfərdə olmuşlar. Səfər zamanı curnalistlər qonşu ölkədə onları maraqlandıran problemlərlə tanış olmuş və səfərin nəticəsi haqqında öz təəssüratlarını vətənə qayıtdıqdan sonra yerli mətbuatda dərc etmişlər.

***

1999-cu il sentyabrın 9-da Milli Məclisin sədr müavini Yaşar Əliyev Təbriz şəhərində "Zərrinerud çayından içməli su çəkilişi üzrə layihənin açılışı və istifadəyə verilməsi" münasibətilə keçirilən tədbirdə iştі-

rak etmişdir.

***

1999-cu il sentyabrın 30-da Nyu-Yorkda BMT Baş Assambleyasının 54-cü sessiyası keçirilən zaman Azərbaycan Respublikası Xarici İşlər Naziri İİR Xarici İşlər Naziri Kamal Xərrazi ilə görüşmüşdür. Görüş zamanı ikitərəfli məsələlərə toxunulmuş və Xəzər dənizinin statusuna dair fikir mübadiləsi aparılmışdır.

***

1999-cu il sentyabrın 30-dan oktyabrın 7-dək Tehranda iqtisadi-ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyanın 4-cü iclası keçirilmişdir. Müştərək Komissiya öz işlərini ticarət-iqtisadi, energetika, kənd təsərrüfatı məsələləri komitələri üzrə aparmışdır. Komitələrdə ikitərəfli hökumətlərarası sazişlərlə bağlı məsələlər, ticarət, sərhədyanı bazarlar, bank işi və sığorta, gömrük, dəmir yolu, hava və avtomobil daşımaları, ticarət gəmiçiliyi sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

***

1999-cu il oktyabrın 10-da Naxçıvan MR-in 75 illiyi münasibətilə təşkil olunmuş təntənəli tədbirlər zamanı, Prezident Heydər Əliyevin iştirakı ilə Naxçıvan şəhərində İran İslam Respublikasının inşa etdiyi dini kompleksin açılışı olmuşdur. Açılışda İİR tərəfindən Təbriz imam cüməsi Ayətulla Şəbüstəri, Tikinti və Şəhərsalma naziri Əbdüləlizadə, Şərqi Azərbaycan ostanının valisi Məhəmmədzadə, "Bonyad-e mostəzəfin və canbazan" fondunun sədri Rəfiqdust iştirak etmişdir.

Həzrəti Zəhra məscidinin təntənəli açılışında Azərbaycan Prezidenti çıxış edərək göstərmişdir ki, bu məscid böyük məna daşıyır. O, İran-Azərbaycan dostluğunun, qardaşlığının gözəl bir nümunəsidir. Biz Azərbaycanda müstəqil bir dövlət kimi, qonşumuz, dostumuz, qardaşımız İran İslam Cümhuriyyəti ilə əlaqələrimizi daim inkişaf etdirmək, genişləndirmək istəyirik. Bunun üçün böyük imkanlar vardır və biz onlardan istifadə etməliyik. Hər halda mən Naxçıvanda olarkən biz bu əməkdaşlıq sayəsində çox işlər görə bildik. Mən artıq söylədim ki, İrandan elektrik enercisi gəldi. İrandan 40 meqovat elektrik enercisi gəlir, buna görə çox sağ olun. Doğrudur, biz onun pulunu veririk, bu enerci müftə gəlmir. Ancaq elə onun özü də böyük şeydir. Sevindirici haldır ki, İran ilə Naxçıvan arasında yollar çox sərbəstləşdirilibdir və insanlar 24 saat ərzində gedib-gələ bilirlər, adamlar sərbəst ticarət edirlər. Bu bizim arzumuz olubdur.

İranla əlaqələrimizə toxunan dövlət başçımız bildirmişdir ki, biz istəyirik ki, müstəqil Azərbaycandan hər bir ölkəyə - əlbəttə, dost ölkəyə - gediş-gəlişimiz çox olsun. İran burada xüsusi yer tutur. Azərbaycan üçün başqa bir dövlət yoxdur ki, ölkəmizdə yaşayan Azərbaycanlıların, müsəlmanların orada - İrandakı qədər qohumları olsun. Elə İranın özündə, xüsusən onun Şimal hissəsində elə ailə tapmazsan ki, onun Azərbaycanda qohumu, qardaşı olmasın. Biz 70 ildə bundan məhrum idik. İnsanlar göstərməyi qorxurdular ki, bir yerdə bilsinlər ki, onun İranda qohumu var. Bu insanlara azadlıq verilməli idi. Bu azadlıq verilibdir. İndi Naxçıvan ilə İran arasında olan əlaqələr ən gözəl, nümunəvi əlaqələrdir. Arzumuz budur ki, bu əlaqələr bundan sonra daha da inkişaf etsin.

Beləliklə, bizim bugünkü günümüz İran-Azərbaycan dostluğunun bayramıdır, iftixarıdır.

Siyasi əlaqələrimizin əsas prinsiplərinə toxunan Prezidentimiz bildirmişdir: "İran İslam Cümhuriyyətidir. Biz bunu bir dövlət, ölkə, qonşu, dost kimi, necə varsa o cür qəbul edirik. Ümumiyyətlə, Azərbaycanın siyasəti ondan ibarətdir ki heç bir dövlət başqa bir dövlətin daxili işlərinə qarışmamalıdır. Hər bir müstəqil dövlət öz həyatını öz xalqının istədiyi kimi qurmalıdır, xaricdən müdaxilə olmamalıdır...

Hesab edirəm ki, hər bir ölkə başqa ölkənin dövlət quruluşuna, siyasətinə, daxili vəziyyətinə hörmətlə yanaşmalıdır. Biz İranın daxili quruluşuna və daxili siyasətinə böyük hörmətlə yanaşırıq. İran da Azərbaycanın daxili vəziyyətinə, dövlət quruluşu prosesinə, dünyəvi dövlət olmasına hörmətlə yanaşır. Bu bizim dostluğumuzun, qardaşlığımızın əsas prinsiplərindən biridir." *(Azərbaycan qəzeti, N 234, 12 oktyabr 1999-cu il).*

***

1999-cu il oktyabrın 14-18-də İİR Kənd Təsərrüfatı Naziri İsa Kəlantərinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul edilmişdir. Nümayəndə heyəti Gəncə, Xanlar, Beyləqan şəhərlərində kənd təsərrüfatı obyektləri və təhsil ocaqları ilə tanış olmuşudur. Səfərin nəticəsi olaraq "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında" saziş imzalanmışdır.

***

1999-cu il oktyabrın 25-28-də İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə Nazirinin müavini, Baş Kömrük İdarəsinin rəisi Mehdi Kərbasianın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Baş Naziri, Milli Məclisin sədr müavini, iqtisadi-ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyanın həmsədri, Dövlət Kömrük Komitəsinin sədri, Dövlət Baş Vergi Müfəttişliyinin sədri İran nümayəndə heyəti ilə görüşüb, müzakirələr aparmışlar. Səfərin nəticəsi olaraq "Azərbaycan Dövlət Kömrük Komitəsi ilə İran Baş Kömrük İdarəsi arasında kömrük sahəsində əməkdaşlığa dair memorandum" imzalanmışdır.

***

1999-cu il noyabrın 25-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilə" və "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında təslim etmə haqqında müqavilə"nin ratifikasiya fərmanlarının mübadiləsi haqqında protokolun imzalanma mərasimi keçirilmişdir. Azərbaycan Respublikası tərəfindən protokolu Xarici İşlər Naziri Vilayət Quliyev, İran tərəfindən isə İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli imzalamışdır.

***

1999-cu il dekabrın 1-2-də Azərbaycan Respublikası Mətbuat və İnformasiya naziri S.Təbrizli Tehranda İslam Ölkələri İnformasiya Nazirlərinin V toplantısında iştirak etmişdir.

***

2000-ci il yanvarın 19-da Azərbaycan Respublikasının Müdafiə Naziri Səfər Əbiyev İİR Müdafiə Nazirliyinin hərbi attaşelər şöbəsinin müdiri, general-mayor Hüseyn

Əlilu, general-mayor Cəlal Mehriban Xoşgün və İranın Bakıdakı hərbi attaşesi Musa Şəhabini qəbul etmişdir.

***

2000-cu il yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Davos Ümumdünya İqtisadi Forumunda iştirak etdiyi zaman İİR-in Xarici İşlər Naziri Kamal Xərrazini qəbul etmişdir. Görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər müzakirə olunmuşdur.

***

9 fevral 2001-ci il tarixdə İran İslam Respublikasının Bakıdakı səfirliyinin İslam İnqilabının 22-ci ildönümü münasibətilə təşkil etdiyi qəbulda çıxış edən Prezidentimiz, ölkələrimiz arasındakı münasibətlərin hansı əsaslar üzərində qurulmasının vacibliyindən söz açaraq qeyd etmişdir ki, bu yaxınlarda Azərbaycan üçün tarixi hadisə baş veribdir. Azərbaycan Avropa Şurasına daxil olubdur. Bu, Azərbaycanda demokratiyanın, insan haqlarının qorunmasının, Azərbaycanda siyasi, hüquqi, iqtisadi, sosial islahatların uğurla keçirilməsinə verilən böyük qiymətdir.

Hər dövlətin öz hüququ vardır. Azərbaycan bu yolla gedir və gedəcəkdir. Ancaq biz heç vaxt hesab etmirik ki, hansısa başqa dövlətə yol göstərməlidir. Yaxud da onun hansı yolla getməsinə öz məsləhətlərini verməlidir. Xalqın azadlığının və müstəqilliyinin ən əsas amillərindən biri odur ki, xalq və xalqın tərəfindən seçilmiş dövlət hansı yolla getməyi, hansı dövləti qurmağı özü müəyyən edir. Nəhayət, biz çox onilliklərdən, əsrlərdən sonra buna nail olmuşuq və öz yolumuzla da gedirik.

Biz eyni zamanda sülh tərəfdarıyıq. Bütün qonşu ölkələrlə xoş münasibət, mehribanlıq, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında əlaqələr saxlayırıq və bundan sonra da saxlayacağıq. Biz heç bir dövlətin daxili işinə qarışmırıq və ümumiyyətlə hansısa bir dövlətin digər dövlətin daxili işinə qarışmasını yolverilməz hesab edirik. Çünki, dediyim kimi, hər bir xalq, hər bir ölkə, hər bir millət öz aqibətini, gələcəyini, dövlət quruluşu formasını özü müəyyən edir. Ancaq eyni zamanda biz hər bir xalqın, hər bir millətin tutduğu yola və müəyyən etdiyi dövlət quruculuğu formasına böyük ehtiramla yanaşırıq. Bü, bizim daxili, həm də xarici siyasətimizdə əsas yer tutur.

Qarşıda tezliklə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfəri gözlənilir. Biz inanırıq ki, bu səfər iki qardaş xalqa yeni və daha geniş, daha sıx, daha intensiv əlaqələr qurmağa yardım edəcək, hər iki qardaş xalqın çiçəklənməsinə xidmət edəcəkdir. Azərbaycan Prezidenti keçən ilin sonunda "SNN Türk"ə verdiyi müsahibədə bu barədə belə demişdir: "Mənim İrana rəsmi səfərimə gəldikdə, İranın yeni Prezidenti cənab Xatəmi hələ dörd il bundan öncə məni İrana dəvət etmişdi. Mən də onu dəvət etmişdim. Çünki İran qonşu ölkədir. Bizim quruda 750 kilometr sərhədimiz vardır. Təkcə bu deyil. İranda çoxlu Azərbaycanlılar yaşayır. Keçmişdə bizim müştərək dəyərlərimiz olubdur. Ona görə də İran bizim üçün yaxın ölkədir.

Mən keçmişdə orada olmuşam. İranın keçmiş Cümhur Başqanı da burada olmuşdur. Ancaq yeni Cümhur Başqanı seçilməmişdən əvvəl mən o dəvəti almışdım, ancaq müəyyən səbəblərə görə həyata keçirə bilməmişdim. O da mənə söz verdi ki, öncə sən gəl, sonra da mən gəlim...

Mənim bu səfərim geniş xarakter daşıyacaqdır. Çünki biz orada bir neçə anlaşma

imzalayacağıq. Bizim İran-Azərbaycan müştərək iqtisadi komissiyamız vardır. Neçə ki, Türkiyə ilə var, İran ilə də var. Onlar daim işləyirlər. Biz onları dinləyəcəyik ki, nə iş görüblər, bundan sonra nə iş görə biləcəklər. Bir sözlə, məqsəd İran ilə Azərbaycan arasında olan əlaqələri həm iqtisadi sahədə, həm də digər sahələrdə daha da inkişaf etdirməkdən ibarətdir."

Sonra Prezident Azərbaycan və İran arasında bəzi gərginliklər və anlaşılmazlıqlar yaradan Xəzərin hüquqi statusu məsələsinə toxunaraq demişdir:

"O ki qaldı həmin hadisəyə, bu, gözlənilməz bir hadisədir. Çünki biz 1994-cü ildə ilk müqaviləni imzalayanda hələ heç bir Xəzəryanı ölkə Xəzərdə nə var, nə yox - bilmirdi. Onda heç kəs demirdi ki, Xəzərin statusu lazımdır, ya lazım deyildir. Biz müqaviləni imzalayandan 6-7 ay sonra bu problem qalxdı ki, Xəzərin hüquqi statusu olmalıdır. Yəni Xəzərdə hansı ölkə nə iş görə bilər. Amma biz də nəyə əsaslanırıq? Sovetlər vaxtı Xəzər iki ölkəyə mənsub olubdur. Biri Sovet İttifaqı, biri də İran. Sovet İttifaqının İran ilə sərhədi çox cənubda, yəni güneydə olubdur. Çünki yuxarıda Rusiya, Qazaxıstan, o tərəfdə Türkmənistan, burada Azərbaycan var, İran isə aşağıdadır, yəni Xəzərin lap güney tərəfindədir. O sərhədi də Sovetlər vaxtı SSRİ ilə, yəni Sovet İttifaqı ilə İranın sərhədi kimi tanımışdılar və qoruyurdular. İndi Sovetlər İttifaqı yoxdur.

Amma Sovet hökuməti o vaxt, 1970-ci ildə Xəzərin neft-qaz ehtiyatlarının istifadə edilməsi üçün onu sektorlara bölmüşdür. Biz öz bölməmizdə çalışırıq, başqa yerə keçməmişik. Ancaq indi İran deyir ki, yox, belə olanda İrana az pay düşür. Xəzər beş ölkəyə bərabər bölünməli, hərəsinə 20 faiz düşməlidir. Amma bu coğrafi nöqteyi-nəzərdən mümkün deyildir. Çünki Xəzərin sahilində hansı ölkənin sərhədi varsa, oradan - bir də Xəzərin orta xətti var, orta xəttə qədər bu ölkənin olur. O birisi tərəfdən orta xəttə qədər o ölkənin olur. Rusiya, Qazaxıstan ilə belə anlaşmalarımız var. Amma İran deyir yox, gəlin toplaşaq, Xəzəri beş yerə, hər bir ölkə üçün 20 faiz bölək, ondan sonra çalışaq. Amma bunu necə etmək olar, onlar bunu deyə bilmirlər. Orada bizim üç neft yatağımız var. 1998-ci ildə BP şirkəti və bir çox şirkətlər ilə anlaşma imzalamışıq ki, orada işləsinlər. Onlar üç ildir orada çalışırlar. Yəni onlar hələ oranı öyrənirdilər, qeofiziki işlər aparırdılar. Amma İran hesab edir, bir halda ki, Xəzərin statusu hələ müəyyən olunmayıb, İran özünə 20 faiz götürür. O, 20 faiz götürəndə də, gəlib Türkmənistanın və Azərbaycanın payının üzərinə çıxır."

Sonda Azərbaycan Prezidenti məsələnin çözülmə yollarına toxunaraq bildirmişdir ki, uzlaşma formulu odur ki, gərək biz, beş ölkə Xəzərin bölünməsi problemini çözək. Bunu çözmədən heç kəs heç bir şey deyə bilməz. İndi kimsə burada güc işlədirsə, bu, beynəlxalq hüquq normalarından kənardır.

***

14-17 fevral 2000-ci il də İranın Yol və Nəqliyyat nazirinin müavini Xansari Bakıya səfər etmiş və nəqliyyat sahəsində məsələlərlə bağlı müzakirələr aparmışdır. Səfər çərçivəsində ekspertlər səviyyəsində avtomobil daşımaları haqqında yeni saziş layihəsi razılaşdırılmışdır.

***

2000-ci il mart ayının 13-dən 16-dək Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin başçılıq etdiyi

nümayəndə heyəti İİR Xarici İşlər Naziri K. Xərrazinin dəvəti ilə İrana rəsmi səfər etmişdir. Mart ayının 13-14-də Xarici İşlər Naziri V.Quliyev Tehranda İİR Prezidenti S.M. Xatəmi, İslam Şurası Məclisinin sədri Natiq Nuri və Xarici İşlər Naziri K. Xərrazi (iki mərhələdə), Kooperasiya Naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Komissiyanın həmsədri M.Hacı, Sənaye Naziri Q.Şafeyi, Tikinti və Şəhərsalma Naziri Ə.Əbdüləlizadə, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Öndər Özər ilə danışıqlar aparmışdır. Martın 15-də Təbrizə gəlmiş Xarici İşlər Naziri Vilayət Quliyev Şərqi Azərbaycan valisi Y.Məhəmmədzadə ilə görüşmüşdür. Səfər zamanı bir sıra məsələlər, Xəzər dənizinin statusu məsələsi, Təbrizdə Azərbaycan Respublikasının Baş Konsulluğunun açılması və digər siyasi və iqtisadi məsələlər müzakirə olunmuş, ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi yolları araşdırılmışdır.

***

2000-ci il aprelin 25-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyev Nyu-Yorkda "Nüvə silahlarının yayılmaması haqqında" müqaviləyə üzv ölkələrin konfransında iştirak etdiyi zaman İİR-in Xarici İşlər Naziri Kamal Xərrazi ilə görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər müzakirə olunmuşdur.

***

2000-ci il 27 aprel-1 may tarixlərində də İran İslam Respublikasının Sənaye Naziri Qulamrza Şafeyinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Səfər İİR-in 29 aprelda Bakıda keçirilən 8-ci ixtisaslaşdırılmış sənaye sərgisinin açılışı ilə eyni vaxtda həyata keçirilmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa şəxslər tərəfindən qəbul edilmişdir. İİR nümayəndə heyəti Şamaxı rayonu ilə yaxından tanış olmaq məqsədilə bu rayona səfər etmişdir.

***

2000-ci il mayın 15-18-də İran İslam Respublikasının Xarici İşlər Nazirinin müavini Mortəza Sərmədinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul edilmişdir.

***

2000-ci il may ayının 15-22-də Azərbaycan Respublikasının müxtəlif qəzetlərini təmsil edən yeddi curnalist İİR-in Bakıdakı səfirliyinin təşəbbüsü ilə İrana səfər etmişlər. Səfər zamanı onlar İranın müxtəlif təşkilat, qəzet və vəzifəli şəxsləri ilə görüşlər keçirmişlər.

***

2000-ci il iyun ayının 8-də İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Xarici İşlər Nazirləri Şurasının Tehranda keçirilən X iclasında iştirak edən Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyev iyunun 10-da İİR-in Xarici İşlər Naziri K.Xərrazi ilə görüşmüşdür.

***

2000-ci il iyun ayının 9-da İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) üzvü olan ölkələrin Dövlət Başçılarının VI Zirvə görüşündə iştirak etmək üçün Azərbaycan Prezidenti Heydər Əliyev İİR-də işgüzar səfərdə olmuşdur. Səfər zamanı Prezident Heydər Əliyev İİR-in Ali Rəhbəri S.Ə.Xamneyi, Prezident S.M.Xatəmi, Dövlət Məsləhət Şurasının sədri Ə.H.Rəfsəncani, Kooperasiya Naziri M.Hacı, Şəhərsalma və Tikinti Naziri Ə.Əbdüləlizadə, Kənd Təsərrüfatı Naziri İ.Kəlantəri ilə görüşlər keçirmişdir.

Məlumdur ki, 1985-ci ildə Türkiyə, İran və Pakistan tərəfindən yaradılmış İƏT 1964-1979-cu illərdə fəaliyyət göstərmiş inkişaf üçün regional əməkdaşlıq təşkilatının varisi sayılır. 1992-ci ilin noyabrında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Əfqanıstan, Özbəkistan, Tacikistan və Türkmənistan İƏT-ə qəbul edilmişlər. Elə buna görə də hər il noyabrın 28-i İƏT günü kimi qeyd olunur.

Hazırda 10 ölkəni birləşdirən İƏT-in başlıca məqsədləri üzv ölkələr arasında iqtisadi-ticarət əlaqələrini inkişaf etdirmək, onların sənaye və kənd təsərrüfatı sahəsindəki mövcud potensialından isifadə etmək, dünya ticarətində İƏT-in iştirakını genişləndirmək, üzv ölkələrlə dünyanın digər dövlətləri arasında nəqliyyat şəbəkəsini inkişaf etdirmək, narkotiklərin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə sahəsində birgə fəaliyyət göstərmək və sair məsələlərdir.

İƏT-in nizamnaməsinə görə üzv dövlətlərdən hərəsi bir il müddətinə təşkilatın Daimi Nümayəndələr Şurasına sədrlik edir. 1999-cu ilin may ayından şuraya Azərbaycan sədrlik etmişdir. Son bir ildə Nümayəndələr Şurasının respublikamızın İrandakı səfiri Abbasəli Həsənovun sədrliyi ilə keçirilmiş iclaslarında nəzərdə tutulan məsələlərin öz həllini tapması üçün müzakirələr aparılmış və bir sıra konkret tədbirlər görülmüşdür.

Üzv ölkələrin Dövlət və Hökumət Başçılarının iclası - Zirvə görüşü İƏT-in ən mötəbər toplantısıdır. İki ildə bir dəfədən gec olmayaraq keçirilən Zirvə görüşlərində İƏT-in proqram və layihələri, regional iqtisadi əməkdaşlıq sahəsində nazirlər şurasının fəaliyyətinin əsas istiqamətləri müzakirə olunur və strateci direktivlər hazırlanır, regional və qlobal problemlər barədə fikir mübadiləsi aparılır.

İndiyədək İƏT-in beş Zirvə görüşü və dövlət başçılarının bir fövqəladə iclası keçirilmişdir: Tehran (1992-ci il, fevral), İstanbul (1993-cü il, fevral), İslamabad (1995-ci il, mart), Aşqabad (1996-cı il, may), Aşqabad (1997-ci il, may, fövqəladə iclas), Almatı /1998-ci il, may/.

***

Xarici işlər nazirlərinin daxil olduqları Nazirlər Şurası İƏT-in ali orqanıdır. /Nazirlər Şurasının IX iclası 1999-cu ilin mayında Bakıda keçirilmişdir./ İƏT-in katibliyi Tehranda yerləşir. Ona görə üzv ölkələrin İrandakı səfirlərindən ibarət Nümayəndələr Şurası da burada fəaliyyət göstərir.

İƏT İslam İnkişaf Bankı, BMT-nin inkişaf proqramı, BMT-nin narkotiklərə nəzarət üzrə beynəlxalq proqramı və s. qurumlarla əməkdaşlıq edir.

***

Dövlətimizin başçısı Heydər Əliyev İƏT-in sammitinə yola düşməzdən əvvəl Binə hava limanında curnalistlərin suallarına cavab vermişdir.

Hava limanının şərəf salonunda Azərbaycan Prezidenti Heydər Əliyev ilə cənab Morteza Hacı arasında qısa görüş keçirilmişdir. Cənab Hacı dövlətimizin başçısının İrana səfərinin böyük əhəmiyyət daşıdığını bildirmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev hava limanında İran televiziyasına da qısa müsahibə vermişidir.

Dövlətimizin başçısı Heydər Əliyev həmin gün axşam İranın Kooperasiya Nazi-

ri, İqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacını, sonra isə Kənd Təsərrüfatı Naziri İsa Kəlantərini və Tikinti və Şəhərsalma Naziri Əli Əbdüləlizadəni qəbul etmişdir.

Səmimilik və dostluq şəraitində keçən qəbullarda ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyətinin gücləndirilməsi və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

Əfqanıstan Prezidenti Bürhanəddin Rəbbani, Qazaxıstanın Baş Naziri Qasımcomərd Tokayev, Qırğızıstan Prezidenti Əsgər Akayev, Pakistanın İcra Hakimiyyətinin başçısı Pərviz Müşərrəf, Tacikistan Prezidenti İmaməli Rəhmonov, Türkiyənin Dövlət Naziri Mehmet Keçecilər, Türkmənistan Prezidenti Saparmurad Niyazov, Özbəkistan Prezidenti İslam Kərimov, BMT-nin nümayəndəsi Pino Arlaki Zirvə görüşündə çıxış etmişlər.

Sonra işini qapalı davam etdirən iclasda İƏT-in Nazirlər Şurasının və Baş katibinin hesabatları dinlənilmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitq söyləmişdir. Dövlətimizin başçısı nitqində Zirvə görüşünün bütün iştirakçılarını, eləcə də görüşdə iştirak edən bir sıra nüfuzlu təşkilatların nümayəndələrini salamlayaraq səmimi qəbula və qonaqpərvərliyə, sammitin işinin konstruktiv və səmərəli olması üçün yaradılmış şəraitə görə İran İslam Respublikasının Prezidenti, zati-aliləri, cənab Seyid Məhəmməd Xatəmiyə və İran İslam Respublikasının hökumətinə təşəkkür etmişdir. Göstərmişdir ki, bu gün bütün fəaliyyət sahələrinə qloballaşma prosesinin müdaxilə etdiyi bir vaxtda, ayrı-ayrı ölkələrin qarşılıqlı əlaqələr qurmadan inkişafını təsəvvür etmək çətindir. Ona görə də, qloballaşma və qarşılıqlı əlaqə şəraitində İqtisadi Əməkdaşlıq Təşkilatının inkişafında iki mühüm amil böyük əhəmiyyət kəsb edə bilər: birincisi, hər bir ölkənin inkişafı üçün İƏT-in rolunun gücləndirilməsi; ikincisi, İƏT ilə digər beynəlxalq və regional təşkilatlar arasında daha sıx və qarşılıqlı faydalı əlaqələrin qurulması zərurətdir.

Bunları nəzərə alaraq, ölkələrimiz həm İƏT çərçivəsində qurulan münasibətlərin səmərəliliyinin artırılmasına, həm də müxtəlif beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın dərinləşməsinə çalışmalıdırlar.

Prezidentimiz göstərmişdir ki, İƏT-in bir sıra beynəlxalıq qurumlarla, o cümlədən maliyyə təşkilatları ilə getdikcə inkişaf edən əlaqələrini yalnız alqışlamaq olar. Xüsusilə də onun Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial komissiyası, Ümumdünya Ticarət Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Narkotik vasitələrə nəzarət üzrə proqramı və s. Bu kimi qurumlarla əməkdaşlığı bizim regionun iqtisadi və geosiyasi əhəmiyyətinin artmasını təsdiq edir. Bu həm də İƏT tərəfindən geniş miqyaslı işlərin həyata keçirildiyini göstərir.

Dövlət başçımız iştirakçıların nəzərinə çatdırmışdır ki, İƏT-in digər beynəlxalq təşkilatlarla əlaqələrinin inkişafı məsələsi ilə bağlı Azərbaycan bu işə öz töhfəsini verməyə hazırdır. Xüsusilə də üzv dövlət kimi İqtisadi Əməkdaşlıq Təşkilatı ilə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında qarşılıqlı əlaqələrin qurulması sahəsində öz köməyimizi göstərə bilərik. Bu məqsədlə hər iki təşkilatın Baş katiblərinin Bakıda görüşünün keçirilməsini təklif edirik. Belə bir görüş hər iki təşkilatın gələcək əməkdaşlığı üçün ilkin zəmin yarada bilər. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlər arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsində və bu təşkilat çərçivəsində həyata keçirilən mühüm iqtisadi layihələrdə, o cümlədən nəqliyyat, ticarət, energetika və telekommunikasiya sahələri üzrə layihələrdə iştirak etməyə hazırdır.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrlə ticarət və investisiya sahəsində sıx əməkdaşlıq edir. Belə ki, təşkilatın üzvləri olan İran və Türkiyə Azərbaycanın ticarət sahəsində əsas partnyorlarıdır. Bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsini nəzərə alaraq, biz İƏT-in üzvü olan ölkələr arasında ticarət maneələrinin tədricən aradan qaldırılmasını, iqtisadiyyatın daha geniş miqyasda liberallaşdırılmasını istəyirik. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələr arasında qarşılıqlı investisiya qoyuluşlarının həvəsləndirilməsini zəruri hesab edirik. Azərbaycan Respublikası adından deyə bilərəm ki, ölkəmizdə xarici investorların fəaliyyəti üçün zəruri olan bütün addımlar atılıbdır. İqtisadi islahatların qanunvericilik bazasının formalaşdırılması, iqtisadiyyatın liberallaşdırılması və özəlləşdirmənin həyata keçirilməsi xarici kapitalın ölkəmizə cəlb edilməsi üçün əlverişli şərait yaradır. Biz İƏT regionundan olan bütün investorları Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə layihələrin maliyyələşdirilməsində fəal iştirak etməyə dəvət edirik. Eyni zamanda İƏT çərçivəsində dövlətlərarası regional iqtisadi proqramların işlənib hazırlanmasını məqsədəuyğun hesab edirik. Bu, regionda iqtisadi əlaqələri daha da genişləndirməyə və qarşılıqlı faydalı əməkdaşlığı möhkəmləndirməyə xidmət edə bilər.

Azərbaycan Prezidenti qeyd etmişdir ki, Azərbaycan üçün Xəzər dənizinin neft yataqlarının işlənilməsi böyük əhəmiyyət kəsb edir. Bu gün inamla söyləmək olar ki, regionda enerci ehtiyatlarının işlənilməsi prosesi dönməz xarakter almışdır. Eyni zamanda, Azərbaycanın enerci sektorunun timsalında kapitalın və istehsalın beynəlmiləlləşməsi prosesi baş verir. Enerci ehtiyatlarının işlənilməsi və dünya bazarlarına nəql edilməsi üzrə geniş miqyaslı layihələrdə bir çox ölkələrin tanınmış şirkətlərinin iştirakı deyilənlərə əyani sübutdur. Bizim ölkəmiz və regionun bütün ölkələri üçün 1997-ci ildə Şimal marşrutu üzrə Bakı-Novorossiysk və 1999-cu ildə Qərb marşrutu üzrə Bakı-Supsa neft kəmərinin işə düşməsi mühüm əhəmiyyətə malikdir. Bakı-Ceyhan əsas ixrac neft kəməri layihəsinin tezliklə gerçəkləşməsi bizim ölkələrin iqtisadi inkişafında və onların dünya iqtisadi sisteminə inteqrasiyasında əvəzolunmaz rol oynayacaqdır. Eyni zamanda hesab edirəm ki, Xəzər dənizi regionundakı zəngin neft və qaz ehtiyatlarının işlənilməsi və bu məhsulların dünya bazarlarına çıxarılması üçün alternativ yolların yaradılmasına ehtiyac vardır. Bu gün Xəzər dənizi hövzəsində neft və qaz ehtiyatlarının işlənilməsi sahəsində Xəzəryanı dövlətlər (Rusiya, Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran) böyük işlər aparırlar. Lakin biz hesab edirik ki, bu regionun enerci

ehtiyatlarından daha səmərəli istifadə etmək üçün Xəzəryanı dövlətlər Xəzər Dənizinin hüquqi statusunu müəyyən etməlidirlər. Azərbaycan bunun üçün lazım olan müzakirələrin aparılmasına və nəhayət, bu məsələnin həlli üçün zəruri addımların atılmasına hazırdır. Bu, region ölkələri arasında iqtisadi inteqrasiyanı daha da gücləndirə bilər.

Real və potensial imkanları nəzərə alaraq, İƏT-in üzvü olan ölkələr bir tərəfdən öz məhsullarını ixrac etmək, digər tərəfdən isə tranzit ölkə rolunda çıxış etməklə regionda geniş nəqliyyat şəbəkələrinin inkişafına böyük diqqət yetirməlidirlər. Bu sahədə İƏT regionu üçün böyük "İpək yolu"nun bərpası və Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı tarixi əhəmiyyət kəsb edir.

Böyük "İpək yolu"nun bərpası üzrə 1998-ci ilin sentyabrında Bakıda 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə beynəlxalq konfrans keçirilmişdir. Bu konfransda 12 dövlət tərəfindən "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş" imzalanmışdır. Onlardan altısı iqtisadi əməkdaşlıq təşkilatının üzvüdür. Beynəlxalq konfransda qəbul edilmiş hüquqi sənədlər qüvvəyə minmiş, Bakıda TRASEKA layihəsi üzrə katiblik yaradılır və yaxın günlərdə fəaliyyətə başlayacaqdır.

Avropa ilə Asiyanı birləşdirən tarixi "İpək yolu"nun bərpası üzrə proqramda regionun iri dövlətlərindən biri olan İranun fəal iştirak etməsi çox vacibdir. Biz bu məsələdə qonşu dövlətə hər cür dəstək verməyə hazırıq.

Bu geniş miqyaslı layihənin həyata keçirilməsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi üzərində yerləşən ölkələrin təbii ehtiyatlarından və iqtisadi potensialından daha səmərəli istifadə olunması, ticarət və iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün zəruri baza yaradır, eyni zamanda həmin ölkələrin dünya təsərrüfat sisteminə inteqrasiya olunması prosesini gücləndirir.

Azərbaycan Prezidenti qeyd etmişdir ki, əsrlər boyu iqtisadiyyatın, mədəniyyətin, elmin və sivilizasiyaların qarşılıqlı zənginləşməsinə kömək etmiş böyük "İpək yolu" bu gün də onun üzərinə qoyulan ümdləri doğruldacaqdır. Bu layihənin gerçəkləşməsi ticarət-iqtisadi, mədəni əlaqələrin inkişafına səbəb olacaq və inteqrasiya proseslərində katalizator rolunu oynayacaqdır. Nəzərdə tutulan proqramın həyata keçirilməsində bütün maraqlı ölkələr fəal iştirak etməlidirlər. Belə ki, nəqliyyat sahəsinin ahəngdar işindən bizim ölkələrin sosial-iqtisadi inkişafı əhəmiyyətli dərəcədə asılıdır.

Yeni minilliyin başlanğıcında bəzi dövlətlər arasında münasibətlər və bir sıra dövlətlərdə daxili vəziyyət çox mürəkkəb dövrünü yaşayır. Bu yeni şəraitdə biz həm qlobal, həm də regional miqyasda sülhün, inamın, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə real addımlar atmalıyıq.

Bu baxımdan, Cənubi Qafqazda sülhün və əmin-amanlığın təmin edilməsi məqsədi ilə xüsusi pakt imzalanması təşəbbüsünü irəli sürmüşük. Belə bir paktın imzalanması regionda münaqişələrin həllinə, sülhün və sabitliyin möhkəmlənməsinə güclü təkan verə bilər. Bu məsələdə regionda mühüm rol oynayan İranın iştirakını zəruri hesab edirik. Azərbaycan üçün bu məsələ böyük əhəmiyyət kəsb edir. Sizə məlum olduğu kimi, öz müstəqilliyinin ilkin dövrlərində Azərbaycan ciddi siyasi və

iqtisadi sarsıntılar keçirmişdir. Bu, hər şeydən əvvəl qonşu Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı olmuşdur. Nəticədə, ölkə ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bir milyon azərbaycanlı doğma yaşayış yerlərindən zorla çıxarılmış və öz ölkəsində qaçqın vəziyyətinə düşmüşdür. Bütün bunlar ölkədə həyata keçirilən hüquqi, iqtisadi islahatların sürətinə mənfi təsir göstərmişdir.

Azərbaycan Ermənistanla sülhə nail olmaq və əməkdaşlıq etmək niyyətindədir. Lakin bu əməkdaşlıq Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən, qaçqınlar öz daimi yaşayış yerlərinə qayıtdıqdan sonra ola bilər. Azərbaycan Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində ən yüksək özünüidarəetmə statusu verməyə hazırdır. Bizim bu mövqeyimiz Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin başçılarının 1996-cı ildə Lissabonda keçirilmiş sammitində münaqişənin sülh yolu ilə həlli üçün əsas olan üç məlum prinsipdə öz əksini tapmışdır. Dünya ölkələrinin birgə səyləri Ermənistana sübut etməlidir ki, münaqişənin Ermənistan və Azərbaycanın ərazi bütövlüyünü qarşılıqlı surətdə tanımaq əsasında sülh yolu ilə həll edilməsinə alternativ yoxdur. Onu da nəzərə almaq lazımdır ki, möhkəm sülh əldə edildikdən sonra geniş əməkdaşlıq üçün imkanlar yaranacaqdır. Bununla bağlı, İƏT-in üzvü olan dövlətlərin başçılarının köməyinə biz ümid bəsləyirik.

Son olaraq H.Əliyev qeyd etdi ki, bu görüş yaxın gələcəkdə regionun inkişafı üçün dəqiq hədəflər müəyyən edəcək və İƏT-in bütün istiqamətlər üzrə ardıcıl inkişafı üçün şərait yaradacaqdır.

***

Həmin gün Hafiziyyə kompleksində İƏT-in təsis etdiyi mükafatların təqdimetmə mərasimi olmuşdur.

Azərbaycan Prezidenti Heydər Əliyev və digər iştirakçı ölkələrin Dövlət və Hökumət Başçıları, beynəlxalq təşkilatların nümayəndələri mərasimdə iştirak etmişlər.

Bu ali mükafatlara İƏT-in üzvü olan ölkələrdən Azərbaycanın, Pakistanın, Qazaxıstanın, Türkmənistanın, Qırğızıstanın və Tacikistanın görkəmli elm, təhsil və mədəniyyət xadimləri layiq görülmüşlər.

İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi bu ilin fevral ayında keçirilmiş müsabiqənin qalibi, Bakı Dövlət Universitetinin rektoru, professor Abel Məhərrəmova elm, təhsil və mədəniyyət sahəsində səmərəli fəaliyyətinə görə İƏT-in fəxri diplomunu təqdim etdi.

Dövlət və Hökumət Başçıları mükafata layiq görülmüş şəxsləri təbrik etmiş, onlara yaradıcılıq uğurları arzulamışlar.

***

İran İslam Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 10-da İranın Ali Dini Rəhbəri Seyid Məhəmməd Xamneyi ilə görüşmüşdür.

Ali qonağı ehtiramla salamlayan Xamneyi ölkələrimizin və xalqlarımızın tarixən bir-biri ilə qırılmaz tellərlə bağlı olduğundan məmnunluqla söhbət açmışdır.

İranın Ali Dini Rəhbəri ilə əvvəlki görüşlərini razılıqla xatırlayan Prezident Heydər Əliyev, belə yüksək səviyyəli görüşlərin ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmləndirilməsində mühüm rol oynadığını nəzərə çarpdırmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq

Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması sahəsində görülmüş işlərdən bəhs edən dövlətimizin başçısı Heydər Əliyev, bu münaqişənin indiyə qədər aradan qaldırılmamasının bölgədəki digər ölkələr üçün də daim təhlükə mənbəyi olduğunu vurğulamışdır.

Ermənistanın haqsız ərazi iddiaları və təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal edildiyini, bu torpaqlardan bir milyondan çox vətəndaşımızın öz doğma yerindən-yurdundan silah gücünə zorla çıxarıldığını və yeddi ildən bəri çadırlarda ağır vəziyyətdə yaşadığını nəzərə çarpdıran dövlətimizin başçısı, dünya ictimaiyyətinin gözü qarşısında baş verən bu haqsızlıqlara dost və qonşu İranın həssaslıqla yanaşmasının, regional təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməsinin vacib olduğunu bildirmişdir.

Azərbaycanın qarşılaşdığı problemlərin həllinə İranın bundan sonra xüsusi diqqət yetirəcəyini söyləyən ölkənin Ali Dini Rəhbəri müstəqil Azərbaycan Respublikası ilə bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin İİR üçün böyük əhəmiyyət daşıdığını vurğulamışdır. O, Xəzərin hüquqi statusunun Xəzəryanı dövlətlərin iştirakı ilə tezliklə tənzimlənəcəyinə əmin olduğunu söyləmişdir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə bir daha vurğulanmışdır ki, Azərbaycan-İran münasibətlərində danışıqlar vasitəsilə həll edilməsi mümkün olmayan heç bir problem yoxdur.

Tərəflər Azərbaycan Prezidenti Heydər Əliyevin İrana rəsmi səfəri zamanı bir sıra məsələlər haqqında müzakirələri davam etdirmək barədə razılığa gəlmişlər.

***

Azərbaycan Prezidenti Heydər Əliyev iyunun 10-da Tehranda, İran İslam Respublikası Prezidentinin sarayında dost ölkənin dövlət başçısı Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

Prezident Xatəmi respublikamızın rəhbərini sarayın qarşısında dostcasına, səmimiyyətlə qarşıladı.

Səmimi qəbula və ona göstərilən qonaqpərvərliyə görə İranın dövlət başçısına dərin minnətdarlığını bildirən Azərbaycan Prezidenti Heydər Əliyev bildirmişdir ki, indi İƏT təşkilatının toplantısına gəlmək, İranı görmək, bu təşkilatın Zirvə toplantısında iştirak etmək və sizinlə görüşmək mənim üçün çox əhəmiyyətlidir.

Mən istəyirəm, İƏT təşkilatının Zirvə görüşünün çox müvəffəqiyyətlə, uğurla, yüksək səviyyədə keçməsinə görə sizi bir daha təbrik edim. Mən bu görüşü indiyə qədər olan sammitlərlə müqayisə etmək istəmirəm. Ancaq bu görüş, bu sammit çox gözəl keçdi. Sizin rəhbərliyiniz, liderliyiniz və sizin ətrafınızda olan dövlət adamlarının çalışması bu sammitin uğurla keçməsini təmin edibdir.

Görüşdə ölkələrimiz arasındakı tarixi qonşuluq münasibətləri yüksək qiymətləndirildi, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının işinin daha da canlandırılması məsələləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan, bir milyondan çox azərbaycanlı qaçqının və məcburi köçkünün yeddi ildən bəri çadırlarda ağır vəziyyətdə yaşamasından söhbət açdı.

Prezident Xatəmi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə İranın da tərəfdar olduğunu, Azərbaycanın ərazi bütövlüyünü və haqq işini dəstəklədiyini vurğulamışdı, Qafqazda sülhün və əmin-amanlığın bərqərar olmasının mühüm əhəmiyyət daşıdığını bildirmişdir. O, Xəzər dənizinin statusu barədə öz ölkəsinin mövqeyini açıqlayaraq demişdir ki, bu status tarixi keçmiş nəzərə alınmaqla, mehriban qonşuluq prinsipləri əsasında, sahilyanı dövlətlərin iqtisadi mənafeləri və təhlükəsizliyi gözlənilməklə müəyyənləşdirilməlidir.

Cənab Xatəmi Prezident Heydər Əliyevin İrana qarşıdakı rəsmi səfərinin ölkələrimiz arasındakı münasibətlərin inkişafında xüsusi rol oynayacağını vurğulamışdı.

Görüşdə Azərbaycan-İran əlaqələrinin perspektivləri, regional əməkdaşlıq, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

***

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasında işgüzar səfərdə olarkən iyunun 10-da İran Məsləhət Şurasının sədri Haşimi - Rəfsəncani ilə görüşmüşdür. Dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamlayan Rəfsəncani Prezident Heydər Əliyevin İrana gəlişindən son dərəcə məmnun qaldığını bildirmişdir. İƏT-in VIII Zirvə görüşündə respublikamızın rəhbərinin nitqini böyük diqqətlə dinlədiyini vurğulayan İran Məsləhət Şurasının sədri əmin olduğunu bildirmişdir ki, VIII Zirvə görüşü iştirakçı ölkələr arasında bütün sahələrdə əlaqələrin daha da möhkəmlənməsində mühüm rol oynayacaqdır.

Azərbaycan-İran əməkdaşlığının inkişaf etdirilməsində dövlətimizin başçısının göstərdiyi səylərdən məmnunluqla danışan Rəfsəncani, Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən işləri İƏT-də böyük maraqla izlədiklərini vurğulamışdır. Göstərilən qonaqpərvərlikdən və İƏT-in VIII Zirvə görüşünün təşkilindən razılıqla söhbət açan Respublikamızın Prezidenti İƏT-in fəaliyyətini və onun beynəlxalq təşkilatlarla, maliyyə qurumları ilə yaratdığı əlaqələri yüksək dəyərləndirmişdir. Müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasında islahatların uğurla həyata keçirilməsindən, hüquqi dövlət quruculuğu, cəmiyyətin demokratikləşdirilməsi sahəsində görülən işlərdən bəhs edən Prezident Heydər Əliyev, ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan münaqişəsindən də ətraflı söhbət açmışdır. Bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasında ATƏT-in səylərinə Azərbaycanın böyük ümdlər bəslədiyini nəzərə çarpdıran dövlətimizin başçısı əmin olduğunu bildirmişdir ki, dost və qonşu İran bölgədə təhlükəsizliyin təmin edilməsinə daha da həssaslıqla yanaşacaqdır. Yeddi ildən bəri çadırlarda ağır şəraitdə yaşayan qaçqınlara İranın bundan sonra da kömək göstərəcəyini söyləyən cənab Rəfsəncani, Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həll ediləcəyinə əmin olduğunu bildirdi. Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin daha da genişləndirilməsi, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

***

Azərbaycan Respublikasının Prezi-

denti Heydər Əliyev İran İslam Respublikasında işgüzar səfərdə olarkən Türkmənistan Prezidenti Saparmurad Niyazovla, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov, Pakistan İslam Respublikası İcra Hakimiyyətinin Başçısı Pərviz Müşərrəf, BMT Baş katibinin müavini, bu təşkilatın Vyana şöbəsinin Baş direktoru Pino Arlaki, İranın Kooperasiya Naziri, İqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Müştərək Komissiyasının həmsədri Morteza Hacı ilə görüşmüşdür.

Respublikamızın Prezidentini mehribanlıqla salamlayan, onunla hər bir görüşdən şərəf duyduğunu vurğulayan cənab Morteza Hacı, İƏT-in Zirvə görüşündə iştirak etmək üçün Tehrana gəldiyinə görə dövlətimizin başçısı Heydər Əliyevə minnətdarlığını bildirmişdir.

Azərbaycan-İran əlaqələrinin durmadan inkişaf etməsində və möhkəmlənməsində Prezident Heydər Əliyevin böyük xidmətləri olduğunu söyləyən nazir, Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyətinə və bu ilin aprelində Bakıda İran islam Respublikasının üş sənaye sərgisinin keçirilməsinə göstərdiyi qayğı və diqqətə görə ölkəmizin başçısına bir daha təşəkkür etmişdir.

İƏT çərçivəsində əlaqələrin daha da genişləndirilməsinə müstəqil Azərbaycan Respublikasının xüsusi əhəmiyyət verdiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev, əmin olduğunu bildirmişdir ki, İƏT-in Zirvə görüşü bu təşkilatın yaxın gələcəkdə bütün istiqamətlər üzrə ardıcıl inkişafına lazımi şərait yaradacaqdır.

Ümumi mənəvi dəyərlərə, eyni dinə, müştərək tarixi keçmişə malik olan ölkələrimiz arasında bütün sahələrdə, xüsusən iqtisadiyyat, ticarət və mədəniyyət sahəsində əlaqələrin sıxlaşdırılmasının böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident Heydər Əliyev, Dövlətlərarası Müştərək Komissiyanın işinin daha da canlandırılmasına ehtiyac duyulduğunu bildirmiş, özəl sektorun, iş adamlarının bir-biri ilə daha sıx əlaqələr qurmasının hər iki tərəf üçün çox faydalı olduğunu xatırlatmışdır.

Söhbət zamanı hər iki ölkəni maraqlandıran bir sıra başqa məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

***

Qeyd edildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasına işgüzar səfəri zamanı iyunun 9-da İranın Kənd Təsərrüfatı Naziri İsa Kələntəri və Tikinti və Şəhərsalma Naziri Əli Əbdüləlizadə ilə də görüşmüşdür.

Prezident Heydər Əliyevi səmimiyyətlə, mehribanlıqla salamlayan, onunla görüşdən böyük şərəf duyduqlarını bildirən nazirlər İran Prezident Xatəminin dəvətini qəbul edərək İƏT-in Zirvə görüşündə iştirak etmək üçün Tehrana gəldiyinə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirmişlər.

Cənab Kələntəri və cənab Əbdüləlizadə ötən il Bakıya səfərləri zamanı onlara göstərilən qonaqpərvərlikdən məmnunluqla söhbət açmış, görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən işləri heyranlıqla izlədiklərini söyləmişlər.

Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycanda torpaqların əsl sahiblərinə verildiyini, iqtisadi islahatların ardıcıl surətdə həyata keçirilməsində uğurlar qazanıldığını, Bakıda və Respublikanın digər şəhərlərində tikinti və abadlıq işlərinin böyük vüsət aldığını vurğulayan nazirlər, son illər ölkəmizdə toplanmış

təcrübəni öyrənməyə ehtiyac duyduqlarını bildirmişlər.

Dost və qonşu ölkələr olan Azərbaycan ilə İran arasında əlaqələrin daim inkişaf etdirilməsinə həmişə xüsusi əhəmiyyət verdiyini nəzərə çarpdıran dövlətimizin başçısı Heydər Əliyev, sənaye, kənd təsərrüfatı, ticarət, mədəniyyət və digər sahələrdə əməkdaşlığın daha da sıxlaşdırılmasının vacibliyindən ətraflı söhbət açmışdı.

Həm kənd təsərrüfatı, həm də tikinti, şəhərsalma sahələrində qarşılıqlı surətdə faydalı əməkdaşlıq qurmağa böyük imkanlar olduğunu vurğulayan Prezident Heydər Əliyev, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə Dövlətlərarası Müştərək Komissiyanın bu sahədə öz fəaliyyətini durmadan genişləndirməsinə ehtiyac duyulduğunu bildirmişdir. Görüşdə bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

Beləliklə də Azərbaycan Prezidentinin İrana daha bir işgüzar səfəri uğurla başa çatmış və əlaqələrimizin gələcək inkişafına təkan vermişdir.

***

2000-ci il iyulun 31-də İİR və Azərbaycan Respublikası arasında geologiya-mədən sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə Tehranda əməkdaşlıq memorandumu imzalanmışdır.

Keçirilən görüşlər zamanı ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi yolları araşdırılmışdır.

***

2000-ci il avqustun 31-i sentyabrın 6-da İİR-in iş adamlarından ibarət nümayəndə heyəti Bakı, Gəncə, Mingəçevir və Əli-Bayramlı şəhərlərində sənaye müəssisələri və təşkilatları ilə yaxından tanış olmuşlar. Bakıda olarkən nümayəndə heyəti Milli Məclisin sədr müavini, iqtisadi-ticarət və mədəni əlaqələr üzrə Azərbaycan-İran Dövlətlərarası Müştərək Komissiyanın həmsədri, Ticarət-Sənaye Palatasının sədri və Dövlət Əmlak Naziri ilə görüş keçirmişdir.

***

2000-ci il sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin millenium Zirvə toplantısında iştirak etdiyi zaman İran İslam Respublikasının Prezidenti S.M.Xatəmi ilə görüş keçirmişdir. Azərbaycan rəhbərinin İrana səfərini səbirsizliklə gözlədiklərini vurğulayan S.M.Xatəmiyə, səmimi sözlərə görə təşəkkürünü bildirən Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, qarşıdakı səfər qonşu və dost ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrinin sıxlaşdırılmasına yeni təkan verəcəkdir.

Səmimilik şəraitində keçən görüşdə Azərbaycan-İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra məsələlər haqqında fikir mübadiləsi aparılmışdır.

***

2000-ci il oktyabrın 30-da Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında hüquqi yardım haqqında müqavilə"nin ratifikasiya fərmanlarının mübadiləsi haqqında protokolun imzalanma mərasimi keçirilmişdir. Azərbaycan Respublikası tərəfindən protokolu Xarici İşlər Naziri Vilayət Quliyev, İran tərəfindən isə İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli imzalamışdır.

***

2000-ci il oktyabrın 30-da İran İslam Respublikasının Bakıdakı səfiri Əlirza Beqdeli ezamiyyət müddətinin bitməsi ilə əla-

qədar Tehrana qayıtmış, elə həmin gün İİR-in Bakıdakı yeni səfiri Əhəd Qəzayi Bakıya gəlmişdir.

2000-ci il oktyabrın 31-də İran İslam Respublikasının Bakıdakı səfiri Əhəd Qəzayi etimadnaməsini Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevə təqdim etmişdir.

***

2000-ci il noyabrın 12-13-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyev Qatarın paytaxtı Dohada keçirilən İKT-nin IX Zirvə görüşündə iştirakı zamanı noyabrın 12-də İranın Xarici İşlər Naziri K. Xərrazi ilə görüş keçirmişdir. Görüş zamanı ikitərəfli və regional problemlər müzakirə edilmişdir.

***

2000-ci il noyabrın 14-19-da İİR-in Qərbi Azərbaycan vilayətinin istehsalat-ticarət şirkətinin nümayəndələrindən ibarət nümayəndə heyəti, Azərbaycan Respublikasında iqtisadi vəziyyət və fəaliyyət sahələri ilə tanış olmaq məqsədilə Bakıda olmuşdur.

***

2000-ci il noyabr ayının 21-23-də İran İslam Respublikasının Xarici İşlər Nazirinin müavini Əli Ahəninin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında rəsmi səfərdə olarkən, öz səfərini Naxçıvan MR-dən başlamışdır.

Azərbaycan Respublikasında səfərdə olarkən İİR nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul olunmuşdur.

***

2000-ci il dekabrın 6-da İran İslam Respublikasının Bakıdakı səfiri Əhəd Qəzayi etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti H.Əliyevə təqdim etmişdir.

***

2001-ci il yanvar ayının 15-18-də Azərbaycan Respublikası Dövlət Kömrük Komitəsinin sədri İİR-ə rəsmi səfər etmişdir. Səfər zamanı nümayəndə heyəti İsfahan vilayətinə getmiş, İİR Baş Kömrük İdarəsinin rəisi M.Kərbasian, Kooperasiya Naziri M.Hacı, İİR İqtisadiyyat və Maliyyə Naziri H.Nəmazi və digər yüksək vəzifəli şəxslər ilə görüşlər keçirmişdir. Səfərin nəticəsi olaraq iki ölkə arasında kömrük sahəsində əməkdaşlıq haqqında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır.

***

2001-ci il yanvar ayında Beynəlxalq "Əhli-Beyt" cəmiyyətinin dəvətilə Tehrana gəlmiş Qafqaz Müsəlmanları Ali Ruhani İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə İİR-in Ali Rəhbəri S.Ə.Xamneyi ilə görüşmüşdür. Görüşdə Azərbaycan-İran münasibətlərinin və iki ölkənin müsəlman xalqları arasında əlaqələrin daha da inkişaf etdirilməsi haqqında fikir mübadiləsi aparılmışdır.

***

2001-ci il fevral ayının 5-8-də Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini X.Xələfovun başçılıq etdiyi nümayəndə heyəti İİR-də rəsmi səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan nümayəndə heyəti İran İslam Respublikasının Xarici İşlər Naziri K.Xərrazi, Kooperasiya Naziri, İran-Azərbaycan Müştərək İqtisadi Komissiyasının həmsədri M.Hacı tərəfindən qəbul olunmuş, Xarici İşlər Nazirinin müavini Ə.Ahəni ilə görüş keçirmiş və İƏT təşkilatına üzv ölkələrin yüksək vəzifəli şəxslərindən ibarət İşçi Qrupunun toplantısında iştirak etmişdi. Danışıqlar zamanı ikitərəfli

münasibətlərin inkişaf istiqamətləri və Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması barədə məsləhətləşmələr aparılmışdır.

***

2001-ci il fevralın 7-10-da İranın Ərdəbil əyalətinin valisi Seyid Həmid Təhayinın başçılıq etdiyi 40 nəfər iş adamından ibarət nümayəndə heyəti Azərbycan Respublikasında səfərdə olmuşdur. İİR nümayəndə heyəti Bakıda bir sıra rəsmi şəxslərlə ikitərəfli ticarət-iqtisadi əlaqələrə dair müzakirələr aparmışdır.

***

2001-ci il fevral ayının 19-24-də İİR İmam Xomeyni adına İmdad Komitəsinin sədri Seyyid Rza Nəyyirinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur. Səfər zamanı nümayəndə heyəti Milli Məclisin sədri M.Ələskərov, Baş Nazir A.Rəsizadə, Baş Nazirin müavini Ə.Həsənov, Səhiyyə Naziri Ə.İnsanov, Əmək və Əhalinin Sosial Müdafiəsi Naziri Ə.Nağıyev ilə görüşmüş, Gəncə şəhəri, Biləsuvar və Göyçay rayonlarında qaçqınlarla görüş keçirmişdir. Qeyd etmək lazımdır ki, 1995-2000-ci illərdə bu təşkilatın xətti ilə Azərbaycan Respublikasına göstərilən humanitar yardımın dəyəri 9 milyon ABŞ dolları məbləğində olmuşdur.

***

2001-ci il fevral ayının 20-21-də Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini X.Xələfovun başçılıq etdiyi nümayəndə heyəti Tehranda keçirilən "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın hazırlanması üzrə Xəzəryanı Dövlətlərin Xarici İşlər Nazir müavinləri səviyyəsində Xususi İşçi Qrupunun III iclasında iştirak etmişdir.

***

2001-ci il mart ayının 27-29-da İran İslam Respublikasının Energetika Naziri Həbibulla Bitərəfin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur.

Nümayəndə heyəti Azərbaycan Respublikası və İİR arasında elektrik enercisinin paralel işlənməsinə dair imzalanmış dövlətlərarası müqaviləyə əsasən, 230 kv-lıq İmişli-Parsabad elektrik xəttinin açılış mərasimində iştirak etmişdi. Xəttin ümumi uzunluğu 51 km-dir. Bu xətt vasitəsilə 50 meqavatt elektrik enercisinin tranzitlə ötürülməsi nəzərdə tutulub. Azərbaycan Respublikasında səfərdə olarkən İran İslam Respublikasının nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul olunmuş, Milli Məclis sədri Murtuz Ələskərov, Baş Nazir Artur Rasizadə ilə keçirilmiş görüşlərdə iki ölkə arasında energetika sahəsində əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır.

***

2001-ci il aprel ayının 18-də Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi nümayəndə heyəti İİR-in Ali Dini Rəhbərinin Ərdəbil əyalətindəki nümayəndəsi Ayətullah Mürəvvecin dəfn mərasimində iştirak etmək üçün Ərdəbilə səfər etmişdir.

***

2001-ci il aprel ayının 24-25-də Tehranda İran İslam Şurası Məclisinin təşəbbüsü ilə Fələstin xalqının qiyamını dəstəkləyən Beynəlxalq Konfrans keçirilmişdir. 36 ölkədən 300 nümayəndənin iştirak etdiyi konfransda Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti iştirak

etmişdir.

***

Göstərdiyimiz kimi, İranla siyasi əlaqələrimizin təməli, cənab Heydər Əliyev dövlət rəhbərliyinə gəldikdən sonra qoyulduğu kimi, iqtisadi əlaqələrimizin də inkişafı bu vaxta təsadüf edir. Elə bu vaxtdan sonra "Xudafərin" və "Qız qalası" su qovşaqlarının tikintisi başlamış, "Xudafərin" su qovşağının tikinti zonasının qurulması sona çatmış, tikinti sənayesi obyektlərinin inşaatı, Araz çayı üzərində metaldan olan iki körpünün və yaşayış obyektlərin tikintisi genişlənmişdir (hal-hazırda bu obyektlərdə iş erməni təcavüzü nəticəsində dayandırılıb - red).

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında birbaşa telefon rabitəsi qurulmuşdur.

***

Kürü və başqa balıq məhsullarının istehsal texnologiyasının təkmilləşdirilməsi, kilkə balığından konserv istehsalı üzrə birgə müəssisələrin yaradılması, Xəzər dənizi hövzəsində kilkə balığı ovlamaq üçün birgə Azərbaycan-İran ekipacı ilə balıqçı gəmilərinin kirayə edilməsi, dəniz məhsullarının əldə edilməsi və emalı sahəsində qarşılıqlı mənfəətli əməkdaşlığın yaradılması məsələləri öyrənilməkdə və həyata keçirilməlidir.

***

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında çoxəsrlik tarixi ənənələri olan mədəni əlaqələr də genişlənir. Bakıda İran İslam Respublikasının Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Gilan əyalətlərinin şair, sənətşünas, din xadimləri və musiqiçiləri ilə görüşlər təşkil olunmuşdur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İran İslam Respublikasının müvafiq nazirliyi arasında birbaşa əlaqə yaranmış, Xudafərin körpülərinin bərpa olunması, tarixi ənənələr əsasında minalı kaşının düzəldilməsi üzrə bizim mütəxəssislərin təcrübə keçməsinin təşkili, İran ustalarının Şəkidə Xan Sarayının bərpasında iştirakı və s. üzrə razılıq əldə edilmişdir. Tehranda keçirilən Kukla Teatrlarının festivalında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı iştirak etmişdir. Öz növbəsində Bakıda Xorasan əyaləti Mimika Teatrı kollektivinin çıxışları olmuşdur. İslam Mədəniyyəti Təbliğatı Mərkəzinin dəvətilə Azərbaycan Respublikasının təsviri sənət və kino xadimlərinin bir qrupu Tehranda olmuşlar.

***

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin nümayəndələri Təbriz şəhərində Nizami Gəncəvinin heykəlinin ucaldılması və Xəqani Şirvaninin qəbrüstü abidəsinin qurulması tədbirlərində iştirak etmişlər.

Respublika Dövlət Nəşriyyat Komitəsi, İran İslam İrşad Nazirliyi və Keyhan nəşriyyatı tərəfindən kitabların qarşılıqlı nəşri və onların satışı haqqında imzalanmış müqaviləyə uyğun olaraq, Bakı və Tehran şəhərlərində ixtisaslaşdırılmış kitab mağazaları açılmışdır. Bu mağazalarda satılan bədii əsərlər və çap məhsulları Azərbaycan və İran xalqlarının həyat və mədəniyyətilə daha yaxından tanış olmağa imkan yaradır. Hər iki ölkədə hər il kitab sərgiləri keçirilir.

***

Azərbaycan Respublikasının Dövlət İdman Komitəsi, Təhsil Nazirliyi və İran İslam Respublikası Şərqi Azərbaycan əyalətinin idman idarəsi arasında imzalanmış müqavilələrdə əməkdaşlığın genişlənməsi, idmançı mütəxəssislərin qarşılıqlı mübadiləsi nəzərdə tutulur.

***

Bakıda bir neçə dəfə İran malları sərgisi keçirilmişdir. Həmin sərgilərdə İranın Şərqi Azərbaycan, Qərbi Azərbaycan və Gilan əyalətləri şirkətlərinin istehsal etdikləri xalq tələbatı malları, maşın, avadanlıq, təchizat və yeyinti məhsulları və s. nümayiş etdirilmişdir. Həmin sərgilərdə beş yüz şirkətin yeddi yüz nümayəndəsi iştirak etmişdir. Sərgilər zamanı respublikamızın müəssisə, təşkilatları ilə İran şirkətləri arasında əlaqələr yaranmış qarşılıqlı mənfəətli əməkdaşlıq məsələləri haqqında müzakirələr aparılmış, müqavilə və protokollar imzalanmışdır. Bütün bunlar Azərbaycan Respublikası və İran İslam Respublikası arasında ticarət-iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaratmışdır. Azərturizm şurası "İran gərdi" və "Uəhangərdi" şirkətlərilə ayda 1-2 qrup olmaqla turistlərin Bakı-Təbriz-Tehran-Bakı marşrutu üzrə 7-10 günlük səfərlərinin valyutasız mübadiləsi haqqında müqavilə imzalamışlar.

***

Ukrayna Respublikası, Azərbaycan Respublikası və İran İslam Respublikası hökumətləri arasında neft və qaz sənayesi sahəsində əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Müqavilə Azərbaycan Respublikası və Ukraynanın neftə və qaza olan tələbatının ödənilməsini və onların başqa ölkələrə nəql edilməsi imkanlarının təmin olunmasını nəzərdə tutur.

***

İki ölkə arasında əlaqələrin genişləndirilməsi sahəsində aparılan əməkdaşlıq dövlətlərarası münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına xidmət göstərir. Bu xususilə də iqtisadi sahədəki əməkdaşlığımıza aiddir. Onun nəticələrinə qısa bir nəzər salsaq, görərik ki, 1993-1997-ci illər ərzində İran Azərbaycanın ticarət tərəfdaşları arasında ticarət dövriyyəsinə görə davamlı olaraq 1-ci və 2-ci yerləri tutmuşdur. İranla bərabər, siyahının əvvəlində Rusiya, Türkiyə, Ukrayna, Gürcüstan və Türkmənistan kimi dövlətlər yer alırdı. 1998-ci ilin göstəricilərinə əsasən İran Azərbaycanla ticarət dövriyyəsinə görə 5-ci yeri, 1999-cu ildə isə 7-ci yeri tutmuşdur. Bu geriləmə Azərbaycandan İrana elektrik enercisinin qarşılığında neft məhsulları verilməsinin dayanması ilə əlaqədardır.

1997-ci ildə ticarət dövriyyəsi 238.5 mln. ABŞ dolları olmuşdur ki, bunun 48.8 mln. dolları - idxalın, 189.7 mln. dolları isə ixracın payına düşür.

1998-ci ildə ticarət dövriyyəsi 86.9 mln. ABŞ dolları təşkil etmiş, bunun 42.5 mln dolları - idxal, 44.4 mln. dolları isə ixrac olmuşdur.

1999-cu ildə ticarət dövriyyəsi 70.0 mln. ABŞ dolları həcmində olmuş, bunun 47.4 milyon dollar idxalın, 22.6 milyon dollar isə ixracın payına düşmüşdür.

1993-1999-cu illər ərzində idxalın maksimal göstəricisi 1995-ci ildə ən yüksək olaraq 80.3 mln. ABŞ dollarına çatmışdır. 1994-cü ildə həyata keçirilmiş ixrac göstərilən dövr üçün ən yüksək olmuş və 242.1 mln. ABŞ dollarına çatmışdır.

1993-1999-cu illər ərzində İrandan idxal edilən mallar əsasən ərzaq, təsərrüfat malları, avtomobillər, elektrik enercisi və s. olmuşdur.

Azərbaycandan İrana ixracda isə xam neft və neft məhsulları, kimyəvi məhsullar, tullantılar, qara metal və s. üstünlük təşkil etmişdir.

İran sərmayəsinin iştirakı ilə Azərbaycanda istehsal, tikinti, və s. sahələrdə 200-dək müəssisə qeydiyyata alınmışdır.

Bu müəssisələr (şirkətlər) əsasən xalq

üçün malların istehsalı, kənd təsərrüfatı məhsullarının emalı, trikotac məmulatların istehsalı, tikinti materiallarının istehsalı və s. bu kimi sahələrdə məşğuldurlar.

İran Neft Şirkəti iki beynəlxalq konsorsiumda iştirak edir:

- Şahdəniz perspektiv sahəsi (3-cü konsorsium, 10% paya malikdir), kontrakt 4 iyun 1996-cı il tarixdə imzalanmışdır.

- Lənkəran-dəniz və Talış-dəniz perspektiv strukturları (5-ci konsorsium, 10% paya malikdir), kontrakt 13 yanvar 1997-ci il tarixdə imzalanmışdır.

Bundan əlavə, Xəzərin milli sektorlarında neft ehtiyatlarının axtarışı üzrə ARDNŞ ilə İran Milli Neft Şirkəti arasında birbaşa əməkdaşlıq həyata keçirilir.

***

1992-ci və 1996-cı illərdə, uyğun olaraq, Bakıda və Tehranda İran-Azərbaycan Dövlətlərarası İqtisadi, ticarət və mədəni əlaqələr üzrə Komissiyanın I və II iclasları keçirilmişdir.

Komissiyanın III iclası 18-20 noyabr 1997-ci il də Bakıda, IV iclası 1-7 oktyabr 1999-cu ildə Tehranda keçirilmişdir.

İclaslar zamanı energetika, kənd təsərrüfatı, nəqliyyat, kömrük, iqtisadi-ticari sahələrdə, mədəniyyət, elm, təhsil və səhiyyə sahələrində ikitərəfli əməkdaşlığa dair çoxsaylı məsələlər müzakirə edilmiş və yekun memorandumlar imzalanmışdır.

***

Azərbaycan Prezidenti İranla həm siyasi, həm də iqtisadi əlaqələrimizin yüksək səviyyədə inkişaf etməsinə böyük diqqət verir. Heç də təsadüfi deyildir ki, Prezident Heydər Əliyev 11 fevral 2000-ci ildə İslam inqilabının 21-ci ildönümünə həsr olunmuş mərasimdə çıxış edərkən göstərmişdir ki, bizim iqtisadi əlaqələrimiz inkişaf edir. Ticarət əlaqələri yüksək səviyyədədir. Hesab edirəm ki, Azərbaycanla ticarət əlaqələrində İran birinci yerdədir... Dövlətimizin başçısı əlavə edərək demişdir ki, mədəni əlaqələrimiz, insani əlaqələrimiz də genişdir. Ancaq bunlar da azdır. Mən hesab edirəm ki, bizim əlaqələrimizin bütün sahələrdə genişlənməsinə imkanlar var və bu imkanlardan istifadə etmək lazımdır... Doğrudur, son zamanlar bizim ölkələrimiz arasında hökumət və dövlət səviyyəsində gediş-gəliş artıb. Ancaq bu, nə İran tərəfini, nə də Azərbaycan tərəfini qane edə bilməz. Biz bunları daha yüksək səviyyəyə qaldırmalıyıq və qaldırmaq istəyirik.

Bütün bunlarla yanaşı hələ bir çox məsələlər öz həllini gözləməkdədir. O cümlədən Azərbaycan Respublikası və İİR arasında ikitərəfli iqtisadi xarakterli məsələlərə dair bir çox sənədlər hələ də ya imzalanmamış, ya da hazır deyildir.

Onlardan İnvestisiya sazişini, İkiqat vergiqoymanın aradan qaldırılmasına dair Konvensiyanı, Hava daşımaları haqqında sazişi, Avtomobil daşımaları haqqında yeni sazişi, Ticarət gəmiçiliyi haqqında sazişi, Bitki karantini haqqında sazişi, Sərhədyanı ticarət sahəsində əməkdaşlığa dair memorandumu, Standartlaşdırma, Sertifikasiya və Metrologiya sahəsində əməkdaşlığa dair memorandumu, gömrük sahəsində əməkdaşlığa dair sazişi, Ticari-iqtisadi əməkdaşlıq haqqında sazişi, Vergi qanunvericiliyinə əməl edilməsi üzrə qarşılıqlı yardım haqqında hökumətlərarası sazişi, Baytarlıq xidmətləri arasında əməkdaşlığa dair sazişi göstərmək olar.

***

29 aprel 2000-ci ildə Bakıda İİR-in 8-ci sərgisi açılmışdır. Sərgini gəzən və açılışında çıxış edən Prezidentimiz İranla olan iqtisadi əlaqələrimiz barədə iştirakçılarla öz qiymətli mülahizələrini bölüşdürmüşdür. O

göstərmişdir ki, iqtisadi əlaqələrin genişləndirilməsi, inkişaf etdirilməsi bizim münasibətlərimizi həm İranın, həm də Azərbaycanın bütün başqa ölkələrlə əlaqələrindən daha da yüksək səviyyələrə qaldırır... Mən hesab edirəm ki, gərək Azərbaycanın ticarət əlaqələri birinci növbədə onun qonşu ölkələri ilə, o cümlədən xüsusən İranla aparılsın... oradan mal alıb gətirmək bizim üçün əlverişlidir. Azərbaycan mallarının İrana ixrac edilməsi də çox mühüm məsələdir.

İran Azərbaycana investisiyalar qoyür. Məsələn, mənim şəxsən cəlb etdiyim İranın OİEK şirkətinin Şahdəniz yatağında 10% payı vardır...

Dövlətimizin başçısı xüsusi olaraq vurğulamışdır ki, adətən belə sərgiləri açmaqda nazirlər, başqa dövlət məmurları gəlirlər. Ancaq İran-Azərbaycan iqtisadi əlaqələrinə xüsusi diqqət yetirərək, ona xüsusi əhəmiyyət verərək mən buraya gəldim ki, sərginin açılışında iştirak edim... qonaqlarla görüşüm... bəzi fikirlərimi deyim.

Bu fikirlərdən biri də ondan ibarətdir ki, İran ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirərək, biz bütün sahələrdə əməkdaşlığımızı genişləndirməliyik. Azərbaycan bu mövqedə durubdur. Mən İKT-nin son dəfə Tehranda keçirilən Zirvə toplantısında Prezident cənab Xatəmi ilə görüşərkən biz bu barədə ətraflı danışdıq. Mən bundan sonra Azərbaycana gəlmiş İran nümayəndələrinə də öz fikrimi demişəm və bu gün də deyirəm ki, gərək biz bütün sahələrdə əlaqələri, əməkdaşlığımızı genişləndirək. Çünki, İran Azərbaycan üçün, birincisi yaxın qonşudur, ikincisi də dost, qardaş ölkədir. Bizim xalqlarımızı birləşdirən, doğma edən böyük tariximiz vardır. Bunları heç vaxt unutmaq lazım deyildir.

O göstərmişdir ki, Azərbaycan 70 il məcburən Sovet sistemi şəraitində yaşamasına baxmayaraq, öz milli ənənələrini qoruyub saxlaya bildirmişdir... Dost və qardaş ölkə olan İrandan 70 il ayrı düşməyimizə baxmayaraq, xırda bir imkan yaranan kimi, sərhədlər açılan kimi insanlar bir-birinə qovuşdu. Arazın o tayından, bu tayından insanlar bir-birini görmək üçün özlərini qışın soyuğunda belə suya atdılar... Biz indi müstəqil dövlətik. Müstəqil xalqıq, sərbəstik, lakin çətinliklərimiz də çoxdur... Görülən tədbirlər nəticəsində bu çətinliklərin çoxu artıq arxada qalmışdır...

Nitqinin sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, Azərbaycan bu ağır dövrü yaşayır və bu ağır dövrü uğurla keçəcəkdir. Bunu etmək üçün biz gərək bütün ölkələrlə iqtisadi əlaqələrimizi inkişaf etdirək və bu istiqamətdə birinci növbədə İran İslam Respublikası ilə iqtisadi əməkdaşlığımızı genişləndirək. Biz İranla iqtisadi əlaqələrimizi genişləndirməklə bərabər, mədəni, elmi, siyasi əlaqələrimizi və bütün əlaqələrimizi genişləndirməliyik.

Mən hiss edirəm ki, İran hökuməti də mənim bu fikirlərim mövqeyindədir. Yenə də deyirəm, mən bunu hörmətli Prezident Xatəmi ilə Tehranda görüşüm zamanı onun sözlərindən bildim. Güman edirəm ki, bu yaxın vaxtlarda bizim görüşlərimiz də olacaqdır və bu məsələlərdə yeni uğurlar əldə etmək üçün müəyyən tədbirlər də görə biləcəyik. Beləliklə də bizim ölkələrimiz arasındakı dostluğu, əməkdaşlığı və qardaşlığı möhkəmləndirəcəyik.

***

23-yanvar 2002-ci ildə Azərbaycan respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının Daxili İşlər Naziri Əbdülvahid Musəvi Larini qəbul edərkən bildirmişdir ki, bu, İranın Daxili İşlər Nazirinin Azərbaycana ilk səfəridir və bu-

nun özü yaxşı işarədir. Bu onu göstərir ki. bizim əlaqələrimiz inkişaf edir və o dərəcəyə çatıb ki, hətta Daxili İşlər Naziri də ölkəmizə gəlir... Mən çox məmnunam ki, siz ölkələrimizi maraqlandıran məsələlər barəsində geniş fikir mübadiləsi aparmısınız və əməkdaşlığımızın inkişaf etməsi üçün lazımi işlər görmüsünüz. Bizim ölkələrimiz arasında bu sahələrdə çox böyük işlər görülməlidir. Təbii, sizin təcrübəniz böyükdür. Siz böyük ölkəsiniz. Bizdə də müəyyən təcrübə var. Bunları paylaşmaq, bölüşmək lazımdır və bunlardan istifadə etmək, müştərək işlər görmək lazımdır.

Əbdülvahid Musəvi Lari bildirmişdir ki, sözsüz ki, Sizin Tehrana səfəriniz münasibətlərimizdə yeni səhifə açacaq, dönüş mərhələsi olacaqdır. İnşallah, yaxın gələcəkdə Sizin səfəriniz həyata keçirilər.

Gözlənilən rəsmi səfərə toxunaraq Azərbaycan Prezidenti vurğulamışdır ki, mənim İrana səfərim barəsində məsələlər artıq həll olunubdur. İmzalanacaq sənədlər artıq hazırlanıb, razılaşdırılıbdır. Mən çox böyük məmnuniyyətlə gözləyirəm ki, nə vaxt Tehranda olacağam.

Mən də hesab edirəm ki, bizim Tehrandakı görüşlərimiz, danışıqlarımız İran-Azərbaycan əlaqələrinin daha da sürətlə inkişaf etməsi üçün çox səmərəli olacaqdır. Beləliklə, hesab edirəm ki, indi bizim əlaqələrimiz artıq əvvəlkindən xeyli yaxşıdır. Amma ondan da yaxşı olmalıdır. Bizim sizinlə vəzifəmiz bunu etməkdir. Güman edirəm ki, indi bunun üçün böyük imkanlar vardır. Biz birgə işləməliyik.

Bu, Azərbaıycan Prezidentinin mövqeyi, xalqımızın mövqeyidir. Tarixən təşəkkül tapmış ənənəvi mehriban qonşuluq münasibətləri, ikitərəfli əlaqələr bütün sahələrdə genişləndirilməlidir. Bunun özü isə son nəticədə regional əlaqələrin və əməkdaşlığın inkişafına gətirib çıxaracaqdar ki, bu da iki qardaş və qonşu xalqın yalnız xeyrinə olardı.



AZƏRBAYCAN - LİVİYA ƏLAQƏLƏRİ



(Liviya Azərbaycan ilə 16 mart 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra dünyanın bütün dövlətləri ilə beynəlxalq hüquq normaları əsasında bərabərhüquqlu münasibətlər yaratmağa səy göstərir. Azərbaycan Respublikasının xarici siyasətində min illik tarixi, mədəni və dini köklərlə bağlı olduğu ərəb ölkələri, xüsusilə də Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi ilə münasibətlərin yaradılması və genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi Azərbaycan Respublikasının müstəqilliyini 30 dekabr 1991-ci ildə tanıyan ilk dövlətlərdən biri olmuşdur.

1992-ci ilin mart ayında Liviya ilə Azərbaycan arasında diplomatik əlaqələr yaradılmışdır.

1992-ci ilin mart ayında Liviyanın Maliyyə Naziri Məhəmməd əl-Buxarinin başçılıq etdiyi nümayəndə heyəti Bakıya gəlmişdir. Səfər zamanı iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasına dair, iki ölkə arasında birgə komissiyanın yaradılması, elm və mədəniyyət sahəsində əməkdaşlıq, iki ölkənin hökumətləri arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinə dair müqavilə, mədəni əməkdaşlıq sahəsinə dair saziş, iki ölkə arasında hava yollarının açılmasına dair niyyət protokolu paraflanmışdır.

1995-ci ilin aprel ayında Bakıda Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsinin səfirliyinin təsis edilməsi məqsədilə Liviyadan Azərbaycana bir qrup nümayəndə heyəti gəlmiş və həmin tarixdən etibarən Liviyanın Bakıda səfirliyi fəaliyyət göstərir.

1996-cı ilin mart ayında Liviyanın Beynəlxalq İslam Xalq Rəhbərliyi təşkilatı (Təşkilatın sədri polkovnik Müəmmər Qəddafidir) və Qafqaz Müsəlmanları Ruhani İdarəsinin birgə təşəbbüsü ilə Bakıda müsəlman dövlətlərinin islam məsələləri ilə bağlı konfransı keçirilmişdir.

1996-cı ilin payızında Liviyanın "İslama çağırış" cəmiyyəti, Azərbaycan tərəfindən İslam Tədqiqatlar mərkəzi ilə birgə Bakıda "İslamda insan hüquqları və azadlıq" mövzusunda elmi simpozium keçirmişlər.

1996-cı ildə Liviyanın Təhsil Nazirinin müavini Məhəmməd əl-Əsvadın rəhbərliyi ilə Bakıya nümayəndə heyəti gəlmişdir. Səfər zamanı iki ölkə arasında tələbə mübadiləsi və Azərbaycan mütəxəssislərinin Liviyada işləmək üçün göndərilməsi haqqında saziş imzalanmışdır.

1997-ci ilin əvvəllərində Liviya tərəfinin dəvəti ilə Azərbaycan Respublikası Təhsil Nazirinin müavininin başçılığı altında nümayəndə heyəti Liviyada olmuşdur.

1997-ci ilin dekabr ayında Liviyanın

"İslama çağırış" cəmiyyətinin köməkliyi ilə Azərbaycan qaçqınlarına ərzaq, dava-dərman, tibbi ləvazimat və s. ibarət humanitar yardım göstərilmişdir.

1998-ci il mart ayının 20-də Liviyanın Azərbaycana yeni təyin edilmiş səfiri Məhəmməd Abdu Səmi Bakıya gəlmişdir.

Azərbaycan-Liviya əlaqələrinin inkişaf etdirilməsi və iki ölkə XİN-ləri arasında məsləhətləşmələrin aparılması məqsədilə, 2000-ci ilin 6-10 may tarixlərində Azərbaycan Respublikasının XİN-in nümayəndə heyəti Liviyada səfərdə olmuşdur.

Liviya Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar istər BMT və İKT, istərsə də digər beynəlxalq və regional təşkilatlarda Azərbaycan Respublikasının mövqeyini birmənalı olaraq dəstəkləmişdir.

Liviyaya qarşı 1992-ci ilin aprelindən tətbiq edilən beynəlxalq sanksiyalar nəticəsində, ölkənin bu müddət ərzində sosial-iqtisadi inkişaf layihələrindən geri qaldığı müşahidə olunur. Eyni zamanda, BMT TŞ tərəfindən Liviya üzərinə qoyulmuş beynəlxalq sanksiyaların 1999-cu ilin aprelində dayandırılması ölkənin iqtisadi və ictimai-siyasi həyatında canlanmaya səbəb olmuşdur.

Liviyanın hal-hazırda İtaliya, Türkiyə, Çin və Cənubi Koreya ilə çox fəal iqtisadi və ticarət əlaqələri mövcuddur. Bununla bərabər, bir sıra Avropa dövlətləri ilə əlaqələrin tənzimlənməsi prosesi inkişaf etməkdədir. Ölkədə hətta ABŞ şirkətlərinin fəaliyyət göstərməsi barədə məlumatlarla da rastlaşmaq olar. 2000-ci ilin 14-17 may tarixlərində Tripolidə Böyük Britaniyanın təşkil etdiyi və 200-ə qədər iri şirkətlərinin iştirak etdiyi neft-qaz, neft və kimya, energetika, tikinti, aviasiya, kənd təsərrüfatı, səhiyyə, telekommunikasiya, turizm, təhsil və başqa mühüm sahələri əhatə edən "Tərəqqi naminə tərəfdaşlıq" Britaniya-Liviya birgə sərgisi keçirilmişdir. İngiltərə ilə Liviya arasında diplomatik əlaqələr bərpa edildikdən sonra belə bir tədbirin keçirilməsi Qərbin, xüsusilə də Londonun bölgədə Liviyaya verdiyi önəmin göstəricisi kimi qiymətləndirilə bilər.

Liviyada beynəlxalq sanksiyaların tətbiq edilməsindən sonra Azərbaycan nümayəndə heyətinin 2000-ci ilin 6 may tarixində Tripoliyə səfəri siyasi dairələr, yerli KİV və ümumən ictimaiyyətin diqqətindən yayınmamış, ölkəmiz və xalqımız haqqında müsbət rəyin formalaşmasına və rəğbətə səbəb olmuşdur.

Göstərilən səfər Afrika qitəsinin aparıcı dövlətlərindən və ərəb aləmində nüfuz sahibi olan Liviyada Azərbaycan Respublikasının mövqeyinin bu bölgənin siyasi-ictimai dairələrinə çatdırılması üçün əhəmiyyət kəsb etmişdir. Liviya XİN-i səviyyəsində Azərbaycanın mövqeyinin bu dövlət tərəfindən beynəlxalq təşkilatlar, BMT və İKT çərçivəsində dəstəkləndiyi və bundan sonra da dəstəklənəcəyi təsdiq edilmiş, beynəlxalq təşkilatlarda qarşılıqlı-faydalı əməkdaşlığın davam etdirilməsi qərara alınmışdır.

Liviya Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq üzrə Ümumxalq Komitəsinin siyasi işlər üzrə köməkçi katibi (Xarici İşlər Nazirinin birinci müavini) Səad Mustafa Mucbirin başçılıq etdiyi nümayəndə heyəti 2000-ci ilin 16-20 noyabr tarixlərində Azərbaycanda işgüzar səfərdə olmuşdur. Səfər zamanı S.N.Mucbir Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, nümayəndə heyətinin Milli Məclisin Sədri M.Ələsgərov, Baş Nazir A.Rasizadə, Xarici İşlər Naziri V.Quliyev, İqtisadiyyat Naziri N.Nəsrullayev, Təhsil Naziri M.Mərdanov, Xarici İşlər Nazirinin müavini X.Xələfov, Dövlət Neft Şirkəti Prezidentinin müavini X.Yusif-zadə və Qafqaz Müsəlmanları İdarəsinin Sədri Şeyxülislam A.Paşazadə ilə görüşləri keçirilmişdir. Görüşlər zamanı müxtəlif sahələrdə Azərbaycan-Liviya əməkdaşlığı məsələləri müzakirə olunmuşdur.

Siyasət, iqtisadiyyat, ticarət, elm, texnika və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi məqsədilə Azərbaycan ilə Liviya arasında 16 mart 1992-ci il tarixində Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın təşkil olunması haqqında Saziş imzalanmışdır. Azərbaycan Prezidentinin 27 sentyabr 2003-cü il tarixli, 1342 saylı Sərəncamına əsasən Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiya təsis olunmuşdur. Liviya tərəfindən bir neçə dəfə Müştərək Komissiyaya həmsədr təyin olunmuş və 2000-ci ilin yanvar ayından bu səlahiyyətlər Liviya Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq üzrə Ümumxalq Komitəsinin mədəniyyət, informasiya və əməkdaşlıq üzrə köməkçi katibi (Xarici İşlər Nazirinin müavini) Həssuna əş-Şəvuşa həvalə edilmişdir. Komissiyanın Azərbaycan tərəfindən həmsədri Xarici İşlər Nazirinin müavini X.Xələfov təyin edilmişdir.

Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın təşkil olunması haqqında Saziş ilə yanaşı Azərbaycan ilə Liviya arasında 1992-ci ildə mədəni əməkdaşlıq sahəsində saziş və ticarət müqaviləsi imzalanmışdır.

Hazırda Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın birinci iclasının keçirilməsi ilə əlaqədar hazırlıq işləri aparılır ki, bu da Azərbaycan-Liviya əlaqələrinin inkişafda olduğunu göstərir.



AZƏRBAYCAN - MİSİR ƏLAQƏLƏRİ



(Misir Azərbaycan ilə 27 mart 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Misir Ərəb Respublikası ilə də əlaqələrimiz əslində Prezident Heydər Əliyevin 1994-cü ilin sentyabr ayında bu ölkəyə etdiyi səfərlə başlamışdır.

Xatırladırıq ki, MƏR 26 dekabr 1991-ci ildə AR-in müstəqilliyini tanımışdır.

1992-ci ilin noyabr ayında AR Xarici İşlər Nazirinin başçılıq etdiyi nümayəndə heyəti Misirdə səfərdə olmuş, ikitərəfli əlaqələrin inkişafına dair bir sıra sənədlər imzalanmışdır.

1993-cü ilin aprel ayından MƏR-in Bakıda və 1994-cü ilin yanvar ayından AR-in Qahirədə səfirlikləri fəaliyyət göstərməyə başlamışlar.

1992-ci ilin yanvarında MƏR Baş Nazirinin müavini Kamal Cənzurinin rəhbərlik etdiyi Misir nümayəndə heyəti Bakıda səfərdə olmuşdur.

1993-cü ilin dekabr ayında MƏR-in Təhsil Naziri X. Bəhaəddin Bakıda səfərdə olmuşdur.

1994-cü ilin aprel ayında AR Xarici İşlər Naziri Misirdə rəsmi səfərdə olmuş, Prezident H. Mübarək, Xarici İşlər Naziri Ə. Musa, Neft Naziri, Milli Məclisin sədri ilə görüşlər keçirmiş, Ərəb Dövlətləri Liqasının sessiyasında çıxış etmişdir.

1994-cü ilin aprel ayında BMT-nin Cenevrədəki İnsan Hüquqları Komissiyasının 52-ci sessiyasında Misir Azərbaycanın mövqeyini dəstəkləmişdir.

1994-cü ilin sentyabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olmuş, səfər zamanı dövlətimizin başçısı MƏR Prezidenti H. Mübarəklə görüşü, Azərbaycan-Misir münasibətlərinin möhkəmləndirilməsində və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb etmişdir. Azərbaycan Prezidenti səfər zamanı Pakistanın Baş Naziri, xanım Benəzir Bhutto, ABŞ-ın vitse-prezidenti cənab Albert Qor, BMT-nin Baş katibi Butros Qali, ƏƏC-nin Baş katibi İsmət Əbdül Məcid, MƏR-in Xarici İşlər Naziri Əmir Musa, Misir-Azərbaycan Dostluq Cəmiyyətinin və ABŞ-ın Misirdəki Ticarət Palatasının nümayəndələri ilə görüşlər keçirmiş, Azərbaycanın ağrılı problemlərini və tərəfləri maraqlandıran məsələləri müzakirə etmiş, Dostluq Cəmiyyətinin və Ticarət Palatasının nümayəndələri qarşısında isə çıxış etmişdir.

Misir-Azərbaycan dostluq cəmiyyətinin nümayəndələri ilə görüşdə bildirilmişdir ki, "Misirlə Azərbaycan arasında əlaqələrin tarixi çox böyükdür. Bizim xalqlarımız uzun əsrlər boyu bir-biri ilə əlaqə saxlayıb, bir-birinə kömək ediblər. Bizim milli, dini, tarixi ənənələrimizdə çox oxşarlıq, eynilik vardır.

Bunlar hamısı Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası, bizim xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirmək, inkişaf etdirmək üçün hər bir sahədə əlaqələrimizi daha səmərəli etmək üçün çox böyük əsasdır...

Misir Ərəb Respublikası ilə Azərbaycan arasında əlaqələrin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar vardır və ümüdvaram ki, həmin imkanlardan istifadə edib bu əlaqələri inkişaf etdirəcəyik.

Azərbaycan gənc müstəqil bir dövlətdir. Üç ilə yaxındır ki, respublikamız müstəqillik əldə edib. Respublikamızın ən böyük problemlərindən biri Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təcavüz etməsidir. Azərbaycan xalqının bu təcavüzə qarşı apardığı mübarizədə, beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən tədbirlərdə Misir Ərəb Respublikası, onun dövləti və xüsusən dostumuz, qardaşımız Hüsnü Mübarək obyektiv, prinsipial mövqe tutur, Azərbaycanı daim müdafiə edir. Ona görə də mən sizə, xalqınıza və xüsusən Misir Ərəb Respublikasının Prezidenti, bizim dostumuz, qardaşımız, Məhəmməd Hüsnü Mübarəkə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Mən əminəm ki, xalqlarımız, ölkələrimiz arasında dostluq, qardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcəkdir. Sizi əmin edirəm ki, biz, Azərbaycan xalqı və Azərbaycan Prezidenti kimi mən bu dostluğa, qardaşlığa daim sadiq olacağıq. Misir Ərəb Respublikasına, sizin xalqınıza, şəxsən sizə öz hörmət və ehtiramımı bildirirəm və hamınıza, sizin xalqınıza gələcək işlərinizdə uğurlar diləyirəm".

ABŞ-ın Misirdəki Ticarət palatasının nümayəndələri ilə görüşdə Azərbaycan Prezidentimiz onlara ölkəmiz haqqında ətraflı məlumat vermiş, investisiyalar qoymağa və Azərbaycanla iqtisadi əməkdaşlığa daha fəal cəlb etməyə dəvət etmişdir.

Konfransın sonuncu günü - 6 sentyabr 1994-cü il tarixdə dövlətimizin başçısı mətbuat konfransı keçirmiş və orada görüşlərinin nəticələri barədə bəyanatla çıxış etmişdir. Bəyanatda Azərbaycan Prezidenti MƏR rəhbərliyi ilə keçirilən görüşlərin məzmununa toxunaraq bildirmişdir ki, Misirin Prezidenti Hüsnü Mübarək cənabları ilə konfrans vaxtı, konfransdan sonra onun axşam verdiyi qəbulda və bu gün xüsusi görüş keçirmişdir. Onunla ölkələrimiz arasındakı əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məsələlərini müzakirə etmiş, bir sıra beynəlxalq məsələlərə də toxunmuşlar. Bu sahədə bir neçə məsələ barədə artıq razılığa da gəlinmişdir. Hər iki tərəfin rəsmi səfərləri barədə də razılığa gəlinmişdir. Rəsmi səfərlər zamanı əlaqələrimizin genişləndirilməsi və inkişafı üçün müəyyən dövlətlərarası sənədlərin imzalanacağı da gözlənilir.

Ölkəmizin başçısının bu böyük ərəb ölkəsi ilə yaxın əlaqələr yaratmaq istəyi, bu yolda atdığı addımlar öz səmərələrini verməkdədir. Bütün beynəlxalq forum və təşkilatlarda, o cümlədən İKT çərçivəsində keçirilən tədbirlərdə MƏR-in ölkəmizə göstərdiyi dəstək böyük əhəmiyyət kəsb edir.

14 dekabr 1994-cü ildə Kasablanka Zirvə toplantısında Azərbaycan Prezidenti Misirin rəhbəri Prezident Hüsnü Mübarəklə yenidən görüşmüş, ona Zirvə toplantısındakı çıxışındakı səmimi sözlərə, öz nitqində ölkəmizi narahat edən məsələlərə geniş yer ayırdığı üçün dərin təşəkkürünü bildirmişdir.

21 iyul 1995-ci ildə Misir inqilabının

43-cü ildönümü münasibətilə MƏR səfirliyinin keçirdiyi qəbulda ölkəmizin başçısı ölkələrimiz arasındakı əlaqələrə toxunaraq göstərmişdir ki, Azərbaycan Respublikası müstəqillik əldə edəndən sonra Misir Ərəb Respublikası ilə ölkəmiz arasında əlaqələr yüksək səviyyəyə qalxmışdır. Artıq ölkəmizdə Misir Ərəb Respublikasının, eləcə də Misir Ərəb Respublikasında müstəqil Azərbaycanın səfirlikləri fəaliyyət göstərir.

Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü ilə əlaqədar baş vermiş hadisələrin BMT-də, İslam Konfransı Təşkilatında və digər beynəlxalq təşkilatlarda müzakirəsində Misir Ərəb Respublikası daim ədalətli, çox prinsipial mövqe tutmuş, Azərbaycanın ərazi bütövlüyünü, ölkəmizin ədalətli mövqeyini müdafiə etmişdir. Ona görə də biz Misir Ərəb Respublikasına və onun dövlət başçılarına hörmət və ehtiramımızı, minnətdarlığımızı həmişə bildirmişik və bu gün də bildiririk.

Azərbaycan Prezidenti vurğulamışdır ki, bu məsələlər keçən il Qahirədə və ondan sonra Mərakeşdə, Kasablankada İslam Konfransı Təşkilatının toplantısı zamanı Misir Ərəb Respublikasının Prezidenti, hörmətli dostumuz, cənab Hüsnü Mübarəklə keçirdiyimiz görüşlərdə ətraflı müzakirə olunmuşdur və çox yaxşı nəticələr vermişdir. Kasablankada İslam Konfransı Təşkilatının toplantısında Azərbaycanın vəziyyəti haqqında, Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə əlaqədar xüsusi qərar qəbul edilmişdir. Həmin təşkilatın üzvü olan digər ölkələrlə yanaşı, Misir Ərəb Respublikasının Prezidenti Hüsnü Mübarək və bu dövlətin nümayəndə heyəti də prinsipial mövqedən çıxış edərək həmin qərarın qəbul olunmasına səs verdilər.

Ölkəmizin başçısı göstərmişdir ki, son illər Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında bütün sahələrdə əlaqələr çox müvəffəqiyyətlə inkişaf edir və həmin əlaqələr hər iki tərəfin istəyi ilə bundan sonra daha da sürətlə inkişaf edəcəkdir.

Əlaqələrimizin tarixçəsinə nəzər salarkən Prezidentimizin sözlərinin həyata keçdiyinin şahidi oluruq.

Məsələn, 1995-ci ilin noyabrında Misir Dövlət Neft Şirkəti İdarə Heyətinin sədri F. Abduləzizin başçılığı ilə MƏR nümayəndə heyəti Bakıda səfərdə olmuş və Misirə Azərbaycanın neftçıxarma avadanlıqlarının göndərilməsi haqqında müqavilə imzalanmışdır.

1996-cı ilin mart ayında AR Ticarət-Sənaye Palatası, Xarici İqtisadi Əlaqələr Nazirliyi, Dövlət neft şirkətinin nümayəndələrindən ibarət Azərbaycan nümayəndə heyəti Qahirədə Beynəlxalq sərgidə iştirak etmişdir.

1996-ci ilin may ayında AR Milli Təhlükəsizlik Naziri N.Abbasov misirli həmkarının dəvətilə MƏR-də səfərdə olmuşdur. Səfər zamanı AR ilə MƏR arasında təhlükəsizlik üzrə əməkdaşlıq sazişi imzalanmışdır.

1997-ci ilin fevral ayında MƏR Xarici İşlər Nazirinin müavini F.Şazlinin rəhbərlik etdiyi Misir nümayəndə heyəti Bakıda səfərdə olmuşdur. Nümayəndə heyəti Azərbaycan Prezidenti cənab H. Əliyev tərəfindən qəbul edilmişdir.

1997-ci ilin sentyabrında Azərbaycan Respublikası Milli Məclisinin sədri M. Ələskərovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti Beynəlxalq Parlamentlərarası Sessiyanın konfransında iştirak etmək məqsədilə Qahirədə səfərdə olmuşdur. Səfər zamanı M. Ələskərov MƏR Prezidenti H. Mübarək və Parlamentin sədri F. Sururla görüşmüşdür.

1998-ci ilin noyabr ayında Daxili İşlər Naziri R. Usubov misirli həmkarının dəvətilə MƏR-də səfərdə olmuş və Misir Prezidenti H. Mübarək tərəfindən qəbul edilmişdir.

1999-cu ilin 17-19 sentyabrında Misir Xarici İşlər Nazirliyinin MDB ölkələri ilə Texniki Əməkdaşlıq Fondunun Baş katibi Əşrəf Zaza Azərbaycanda səfərdə olmuş, Baş Nazirin müavinləri A. Şərifov və Ə. Həsənov, Xarici İşlər Naziri, Daxili İşlər Naziri R. Usubov və Xarici İşlər Nazirinin müavini ilə görüşlər keçirmişdir.

Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin dəvəti ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi AR XİN nümayəndə heyəti 2000-ci ilin 28 yanvar-5 fevral tarixlərində Misirdə işgüzar səfərdə olmuşdur. Səfər zamanı X.Xələfov MƏR Prezidentinin siyasi məsələlər üzrə müşaviri Osama əl-Baz, Misir Ərəb Respublikasının Xarici İşlər Naziri Əmir Musa və digər rəsmi şəxslərlə görüşmüşdür.

2000-ci ilin 13 oktyabrında MƏR-in yeni təyin olunmuş səfiri xanım Cihan Əmin Məhəmməd Əli Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə öz etimadnamələrini təqdim etmişdir.

2000-ci ilin 25-27 noyabr tarixlərində Azərbaycan Respublikasının Dövlət Əmlakı Naziri Fərhad Əliyev (hazırki İqtisadi İnkişaf Naziri) Misir Ərəb Respublikasının Dövlət Müəssisələrinin İdarə Olunması və Özəlləşdirmə Naziri Muxtar Xattabın dəvəti ilə Misirdə işgüzar səfərdə olmuşdur. Səfər zamanı F. Əliyev MƏR Baş Naziri Atıf Ubeyd, Baş Nazirin müavini, Kənd Təsərrüfatı Naziri Yusif Vali, Sənaye və Texnologiya Naziri Mustafa Əl-Rifai, Planlaşdırma və Beynəlxalq Əməkdaşlıq Naziri Əhməd Əl-Dırş və İqtisadiyyat Naziri Yusif Butros Ğali (hazırki İqtisadiyyat və Xarici Ticarət Naziri) ilə görüşlər keçirmişdir.

2000-ci ilin 19 dekabr tarixində BMT Baş Assambleyasının 55-ci Sessiyasının iclasında §BMT ilə ATƏT arasında əməkdaşlıq§ haqqında Qətnamə layihəsinə Azərbaycan Respublikasının təqdim etdiyi düzəlişə dair səsvermə zamanı, keçən illərdən fərqli olaraq, Misir Azərbaycanın mövqeyini dəstəkləməyərək bitərəf mövqe tutmuş, səsvermədən sonra MƏR-in BMT-dəki nümayəndəsi qeyd olunan məsələ ilə əlaqədar Azərbaycanın maraqları ilə qətiyyən səsləşməyən və daha çox Ermənistanın mövqeyinə yaxın olan bəyanatla çıxış etmişdir.

2001-ci ilin 22-24 mart tarixlərində MƏR Xarici İşlər Nazirinin müavini Mehdi Fəthalla Bakıda səfərdə olmuşdur. Səfər zamanı M. Fəthalla Azərbaycan Respublikasının Prezidenti cənab H. Əliyev, Baş Nazir cənab A. Rəsizadə, Milli Məclisin Sədri cənab M.Ələsgərov, Xarici İşlər Naziri cənab V. Quliyev tərəfindən qəbul edilmişdir.

2001-ci ilin 21 dekabr tarixində BMT Baş Assambleyasının 56-cı Sessiyasında da Misir nümayəndə heyəti Azərbaycan tərəfinin düzəlişi ilə əlaqədar səsvermə zamanı bitərəf mövqe tutmuşdur.

2002-ci ilin 03 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti H. Əliyev 1994-cü il 07 aprel tarixində Qahirə şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş§ in icrasını təmin etmək

üçün Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Sərəncam imzalamışdır.

Müştərək Komisyanın I sessiyasının keçirilməsi ilə əlaqədar Komisyanın Misir tərəfindən olan həmsədri Misirin Xarici İşlər üzrə Dövlət Naziri x-m Fəizə Əbu Əl-Nəqə 23-25 oktyabr 2002-ci tarixlərində Bakıda səfərdə olmuşdur. Səfər zamanı x-m Fəizə Əbu Əl-Nəqə Azərbaycan Respublikasının Prezidenti H. Əliyev, Baş Nazir A. Rəsi-Zadə, Milli Məclisin Sədri M. Ələsgərov, Xarici İşlər Nazirinin müavini X. Xələfovla görüşmüşdür.

Komisyanın işi nəticəsində bir sıra sənəd - Müştərək Komisyanın protokolu, Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında investisiyaların qarşılıqlı qorunması və təşviqi haqqında Saziş, Ticarət-Sənaye Palataları arasında razılaşma imzalanmışdır.

Azərbaycan Respublikası Prezidenti aparatının ictimayi-siyasi şöbəsinin müdiri Əli Həsənov 2003-cü ilin 10-11 mart tarixlərində Qahirədə keçirilmiş İKT üzv ölkələrinin İnformasiya Nazirlərinin növbəti 6-cı toplantısında iştirak etmişdir.

Azərbaycan Respublikasının Yanacaq və Energetika Naziri Məcid Kərimov 2004-cü ilin 10-12 fevral tarixlərində Qahirədə keçirilmiş İnterqaz Beynəlxalq konfransının işində iştirak etmişdir.

Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı yeni, say etibarilə dördüncü Səfiri Əhməd Yusif Əl-Şargavi 04 okytabr 2004-cü il tarixində Etimadnamələrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 05 oktyabr 2004-cü il tarixli sərəncamı ilə Faiq Nüsrət oğlu Bağırov Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı yeni, say etibarilə ikinci Səfiri təyin olunmuşdur.

Azərbaycan ilə Misir arasında Dövlət və Hökumət Başçıları, Xarici İşlər Nazirləri səviyyəsində mütəmadi məktub mübadiləsi aparılır.



AZƏRBAYCAN - SURİYA ƏLAQƏLƏRİ



(Suriya Azərbaycan ilə 28 mart 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Suriya Ərəb Respublikası ilə diplomatik əlaqələr 28 mart 1992-ci ildə yaradılmışdır. Ölkələrimiz arasında əməkdaşlıq BMT və İKT çərçivəsində həyata keçirilir.

Azərbaycan Respublikasının xarici siyasətində Yaxın Şərq regionu ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, SƏR ilə siyasi, iqtisadi sahələrdə ikitərəfli əlaqələri möhkəmləndirmək məqsədilə, 11 aprel 1997-ci il də Azərbaycan Respublikası Prezidenti Dəməşqdə Azərbaycan Respublikasının Səfirliyinin təsis edilməsi haqqında qərar qəbul etmişdir.

Ölkələrimiz arasında münasibətlər Azərbaycanın Qahirədəki, Ankaradakı və Moskvadakı səfirlikləri ilə həyata keçirilir.

1994-cü ildə Suriya Prezidenti Hafiz əl-Əsəd Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Suriyaya rəsmi səfərə dəvət etmişdir. Azərbaycan tərəfinin xahişilə səfərin tarixi təxirə salınmışdır.

1972-ci ilin aprel ayında keçmiş Sovet İttifaqı KP-nın nümayəndə heyətinin rəhbəri kimi Azərbaycan KP MK-nın I katibi Heydər Əliyev Ərəb Sosialist Dirçəliş Partiyasının 25 illiyinə həsr edilmiş tədbirlərdə iştirak etmək üçün Suriyaya rəsmi səfər etmişdir.

Suriyanın neft-qaz yataqlarının kəşfində Azərbaycan geoloqlarının böyük əməyi olmuşdur. SSRİ-nin dağılmasından əvvəlki son dövrlərə qədər respublikamızın müəssisələri Suriyaya müxtəlif adda elektrik mühərrikləri, neft məhsulları, polad armaturlar, kondisionerlər, neft avadanlığı üçün ehtiyat hissələri, elmi-texniki ədəbiyyat və s. ixrac etmiş, Suriyadan Azərbaycana ipək, iplik parçalar, xalçalar, ətriyyat və s. idxal edilirdi.

Suriyanının milli kadrlarının yetişdirilməsində Azərbaycanın ali məktəbləri böyük rol oynamışlar. Təkcə 1985-86-cı illərdə ölkəmizin ali və orta ixtisas məktəblərində Suriyanın 130 nəfər aspirant və tələbələri təhsil almışdır.

1975-ci ildə Beynəlxalq Dəməşq sərgisində Azərbaycanın təmsil etdiyi 400 eksponat qızıl medala layiq görülmüşdür.

Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illik yubileyinə həsr edilmiş Bakıda keçirilmiş tədbirlərdə (1973) Suriyadan gəlmiş nümayəndə heyəti iştirak etmişdir. Nəsiminin yubiley tədbirləri Suriyada da keçirilmişdir.

1975-ci ilin dekabrında Bakıda iqtisadi və texniki əməkdaşlığa dair Sovet-Suriya Daimi komissiyasının neft sənayesinə dair iclası keçirilmişdir.

1977-ci ilin aprelində Ərəb Sosialist Dirçəliş Partiyasının regional rəhbərliyinin üzvü, Suriya-Sovet Dostluq Cəmiyyətinin sədri M.Şənnanın başçılıq etdiyi nümayəndə heyəti respublikamıza gəlmişdir. 1978-ci ilin sentyabrında Suriya Qırmızı Aypara

Cəmiyyəti Prezidentinin başçılığı ilə həmin cəmiyyətin nümayəndə heyəti Azərbaycanda olmuşdur. 1979-cu ilin avqust ayında keçmiş Sov. İKP MK-nın dəvəti ilə Suriya Ərəb Sosialist Dirçəliş Partiyasının regional rəhbərliyinin üzvü Nəbih Hassun respublikamıza 4 günlük səfər etmiş, Azərbaycan KP MK-da qəbul edilmişdir. 1979-cu ilin sentyabrında keçmiş Sov. İKP MK-nın dəvəti ilə BƏƏS Baş katibinin müavini Abdulla Əhməd iki gün Bakıda olmuş və qonaq Azərbaycan KP MK-sı tərəfindən qəbul edilmişdir. 1981-ci ilin martında Azərbaycan Respublikasının Səhiyyə Naziri Tələt Qasımovun rəhbərlik etdiyi Sovet tibb işçilərinin nümayəndə heyəti Suriyada olmuşdur. 1982-ci ilin iyununda Suriyanın Vəqf İşləri üzrə naziri Məhəmməd əl-Xatib respublikamıza səfər etmişdir. 1983-cü ilin yanvarında Asiya və Afrika ölkələri ilə həmrəylik komitəsinin sədri Mirzə İbrahimovun başçılıq etdiyi nümayəndə heyəti Suriyada olmuşdur. Nümayəndə heyətinin dövlətilə Suriyanın Səhiyyə Naziri Qəssub Rifainin başçılıq etdiyi Suriyanın Səhiyyə Nazirliyinin nümayəndə heyəti isə Azərbaycanda olmuşdur. 1983-cü ilin avqustunda keçmiş Sov. İKP MK-nın dəvəti ilə SSRİ-də olan Suriya KP MK Baş katibinin müavini Yusif Feysəl Bakıda səfərdə olmuşdur. 1983-cü ilin noyabrında Suriyanın paytaxtı Dəməşq şəhərində Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgi nümayiş etdirilmişdir. 1983-cü ilin dekabrında Suriyada Bakının "Neftçi" komandası ilə yerli klub komandaları arasında bir sıra yoldaşlıq oyunları keçirilmişdir. 1984-cü ilin mayında Suriyanın Vəqf İşləri üzrə naziri Məhəmməd əl-Xatibin başçılıq etdiyi Suriya musəlman xadimlərinin nümayəndə heyəti Azərbaycanda olmuşdur. 1984-cü ilin noyabrında M.Abdulla əl-Alinin başçılıq etdiyi Ümumsuriya Kəndli Birliyinin fəallarından ibarət nümayəndə heyəti respublikamıza səfər etmişdir. 1984-cü ilin noyabr ayında Der"a əyalətinin Partiya komitəsinin birinci katibinin başçılıq etdiyi Ərəb Sosialist Dirçəliş Partiyasının nümayəndə heyəti Bakıda olmuşdur. 1985-ci ildə Suriyanın İrriqasiya nazirinin başçılıq etdiyi nümayəndə heyəti Bakıda olmuşdur. 1986-cı ilin oktyabrında Bakıda keçirilmiş "Müsəlmanlar sülh uğrunda" Beynəlxalq İslam Konfransının işində Suriyanın Vəqflər nazirinin başçılığı ilə Suriyanın din xadimləri iştirak etmişlər.

1997-ci ilin noyabr ayında AR Prezidenti cənab Heydər Əliyevin xüsusi tapşırığı ilə Xarici İşlər Naziri Suriyaya rəsmi səfər etmişdir. Səfər zamanı Suriya Prezidenti H.Əsəd, vitse-prezident Ə. Xaddam, Baş Nazir M. Zuabi, Parlamentin sədri Əbdülqədir Qaddura, Xarici İşlər Naziri F. əş-Şaraa ilə görüşmüşdür. H. Həsənov Suriya Prezidentinə Azərbaycan Prezidentinin şəxsi məktubunu təqdim etmişdir. H.Əsəd, Azərbaycan Prezidentini Suriyaya rəsmi səfərə dəvət etmiş, tezliklə Dəməşqdə Azərbaycan Səfirliyinin açılması arzusunu bildirmişdir. Səfər zamanı keçirilmiş görüşlərdə regoinal və beynəlxalq problemlər, Ermənistanın Azərbaycana qarşı yönəlmiş işğalçılıq siyasətinin ağır nəticələri, Yaxın Şərq problemi və qarşılıqlı maraq doğuran bir sıra siyasi-iqtisadi məsələlər müzakirə olunmuşdur. Səfər zamanı Azərbaycan Respublikası və Suriya Ərəb Respublikasının xarici işlər nazirlikləri arasında məsləhətləşmələr haqqında protokol imzalanmışdır.

Prezident Heydər Əliyev və Hafiz əl-Əsəd VIII Zirvə toplantısında - 1997-ci ilin dekabrında Tehranda görüşmüşlər. Görüş ölkələrimiz arasındakı əlaqələrin inkişafına

yeni təkan vermiş, Azərbaycanın Qahirədəki səfiri İ.Vəiklov Suriyada da Azərbaycanın səfiri təyin edilmişdir.

2000-ci ilin 12 iyul tarixində Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin başçılıq etdiyi rəsmi heyət Suriyanın sabiq Prezidenti Hafiz Əl-Əsədin dəfnində iştirak etmişdir.

2001-ci ilin 20-22 avqust tarixlərində Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini X.Xələfov başda olmaqla AR XİN-inin nümayəndə heyəti Suriyada səfərdə olmuşdur.

X. Xələfov Azərbaycan Respublikasının Prezidenti H. Əliyevin Suriyanın Prezidenti Bəşşar Əl-Əsədə göndərdiyi məktubu sonuncunun həmin zaman Küveytdə səfərdə olması səbəbindən Suriyanın Baş Naziri Mustafa Miroya təqdim etmişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Naziri V. Quliyevin suriyalı həmkarı Fəruq Əş-Şaraya ünvanladığı məktubu Nazir F. Şaranın ölkə başçısı ilə Küveytdə səfərdə olduğu üçün X. Xələfov Suriya XİN-i Şərqi Avropa İdarəsinin rəisi səfir Ğəssan Ğəssana təqdim etmişdir.

Səfər zamanı X. Xələfov Suriyanın Ali Təhsil Naziri Həssən Rişa, Turizm Naziri Qasım Miqdad, Neft və Mineral Ehtiyatlar Naziri Məhəmməd Mahir camal ilə görüşmüşdür.

Səfər zamanı ali təhsil və turizm sahələrinə aid müqavilə layihələri baxılması üçün Suriya tərəfinə təqdim olunmuşdur.



AZƏRBAYCAN - İRAQ ƏLAQƏLƏRİ



(İraq Azərbaycan ilə 30 mart 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

İraqla Azərbaycan lap qədim zamanlardan çox yaxın olub. Vaxtilə Səfəvilər dövlətinin bir hissəsi olan bu ölkənin şimalında - neftlə zəngin olan Mosul rayonunda etnik cəhətdən bizə çox yaxın olan 2 milyona qədər türkmən yaşayır ki, bu da xarici siyasətimizdə mütləq nəzərə alınmalı faktorlardan biridir. Ölkə əhalisinin 64%-i şiə məzhəbinə məxsusdur ki, bu da bizim dövlətlərin maraqlarının təmasda olduğu nöqtələri artırır. Mədəni-ticari əlaqələrimizin hələ lap qədimdən mövcudluğu da bu qəbildən olan faktorlardandır. Məşhur şairimiz Füzulinin qəbrinin bu ölkədə olması, hələ Sovet İttifaqı dövründə belə bu ölkə ilə əlaqələrə böyük əhəmiyyət verilməsi və bu əlaqələrin inkişafında Azərbaycanın mühüm rol oynaması, ölkəmizdə İraq iqtisadiyyatı üçün mütəxəssislərin və hərbi kadrların hazırlanması, neft istehsalı və emalı sahələrində birgə əməkdaşlıq, hələ 1970-ci ildən Bakıda İraqın Baş Konsulluğunun fəaliyyət göstərməyə başlaması kimi faktorlar ölkələrimizi bir-birlərinə yaxınlaşdıran amillərdəndir. Hazırda İraq rəhbərliyində məsul vəzifələri tutan şəxslərdən bir çoxu məhz Azərbaycanda təhsil alan kadrlardandır ki, bu da ölkəmizə olan münasibəti daha da isindirməyə yardım edir. Heç təsadüfi deyildir ki, vəziyyətinin ağırlığına baxmayaraq, bu ölkə Bakıda öz səfirliyini açmış və bizə dəfələrlə Bağdadda səfirliyimizi açmaq və bu sahədə hər bir yardım göstərmək barədə təkliflər etmişdir.

Bütün bunlardan əlavə bu ölkənin Ərəb körfəzində və ərəb dünyasında strateji mövqe tutması, coğrafi cəhətdən yaxınlığı, onların bizə bir çox sahələrdə yardım etmək imkanlarının mövcudluğu, bir çox məsələlərdə bizim strateji maraqlarımızın üstüstə düşməsi əlaqələrimizin böyük perspektivlərindən xəbər verir. Əlbəttə, 1991-ci ildəki "Səhrada tufan" əməliyyatından və ölkəyə embarqo qoyulmasından sonra İraqın daxili və beynəlxalq vəziyyəti pisləşmiş, dünya siyasətindəki rolu xeyli zəifləmişdir. Lakin son zamanlar Rusiya, Fransa, Hindistan, Banqladeş və Yuqoslaviya kimi ölkələrlə İraqın iqtisadi və siyasi əlaqələrinin güclənməsi, başda ABŞ olmaqla Qərb dövlətləri tərəfindən ona qarşı göstərilən təzyiqlər bu dövləti ərəb və islam dövlətlərinin ictimaiyyətiinin gözlərində ümumərəb müstəqilliyinin və özünütəsdiqinin qalasına çevirmişdir. Lakin Rusiya və Fransanın bu ölkəni dəstəkləməsi, Türkiyənin isə dəfələrlə buna meyilli olduğunu göstərməsi gec-tez bu dövlətin embarqonu yaracağından, əvvəl-axır beynəlxalq aləmdə öz layiqli yerini tutacağından xəbər verir ki, bu da bizim bu ölkə ilə vaxtında yaxın əlaqələr

qurmağımızı zəruri edir. Əgər İraqın regionda İranın təzyiqlərinə qarşı davam gətirməkdə bizə yardım edəcək əsas dövlətlərdən biri olduğunu nəzərə alsaq, onda əlaqələrimizin qurulmasını daha da fəallaşdırmaq gündəmimizdə duran məsələlərdən olmalıdır. Bütün bu göstərilənlər vaxtında nəzərə alınmalı və İraqa qarşı siyasətimizdə vaxtında müəyyən düzəlişlər edilməli, ərəb dünyasına qapı olan bu ölkə ilə çoxtərəfli əlaqələrimiz bərpa edilməli idi. Bütün bunlar Azərbaycanın ərəb dünyası ölkələrinin hər biri ilə onun siyasi oriyentasiyasından asılı olmayaraq yaxınlıq etməsi imicini təsdiq etmək və beynəlxalq aləmdə bu ölkələrin stabil dəstəyini qazanmaq, Ermənistan tərəfindən İraqın ölkəmizə qarşı yönəldilmiş təxribat məqsədli fəaliyyətlər üçün bir plasdarm kimi istifadə edilməsinə yol verməmək, böyük gələcək və qarşılıqlı fayda vəd edən əməkdaşlığın təməl daşını qoymaq üçün lazım idı. Bütün bunlar son vaxtlar xarici siyasətimizdə nəzərə alınmışdır və artıq bu istiqamətdə iş getməkdədir.

Xatırladırıq ki, İraq Azərbaycanın müstəqilliyini 02.01.1992 ildə tanımış, 30.03.1992-ci il də ölkələrimiz arasında diplomatik münasibətlər qurulmuşdur.

İraqın Azərbaycanda diplomatik nümayəndəliyi Baş Konsulluq səviyyəsində uzun illər fəaliyyət göstərmiş və 1992-ci ildən səfirlik statusuna qaldırılmışdır.

İraq Respublikasının Azərbaycandakı səfiri Ğaleb Əbdülhüseyn ət-Təmimi 2000-ci ilin 7 yanvar tarixində öz etimadnaməsini Azərbaycan Prezidentinə təqdim etmişdir.

Azərbaycanın İraqla əlaqələri elm, təhsil, mədəniyyət sahələrini əhatə etmiş, siyasi münasibətlər Bakıdakı İraq Səfirliyi, BMT, İKT çərçivəsində həyata keçirilmişdir və keçirilməkdədir.

İraqın Küveyti işğalı ilə əlaqədar 1991-ci ildə İraq üzərinə BMT TŞ tərəfindən qoyulmuş sanksiyaları Azərbaycan Respublikası dəstəkləyir və onların yerinə yetirilməsinə tərəfdardır.

Hazırkı dövrdə Azərbaycan-İraq münasibətləri BMT-nin sanksiyaları ilə məhdudlaşır. Qeyd etmək lazımdır ki, hər iki tərəf iqtisadi, mədəniyyət və humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsində maraqlıdır. İraq tərəfi əlaqələrin daha geniş surətdə inkişaf etdirilməsi və siyasi əlaqələrin genişləndirilməsinə səylər göstərir. İraq ətrafında yaranmış siyasi böhran böyük çətinliklər və qeyri-müəyyənliklərlə xarakterizə olunur və eyni zamanda İraqın Qərb aləmi ilə qarşıdurmasını Azərbaycan İraqla münasibətlərində nəzərə almalı olur. Eyni zamanda həmin vəziyyətin uzun müddət davam etməsi böyük tarixi və mədəni bağlılığı olan Azərbaycan-İraq münasibətlərinə mənfi təsir göstərir. 1996-ci ildən BMT-nin "Neft əvəzinə ərzaq" proqramı fəaliyyət göstərir. Bu proqram İraqa ərzaq, dərman, neft avadanlığı və ehtiyat hissələrinin ixrac edilməsini nəzərdə tutur.

Azərbaycan-İraq əlaqələrinin genişləndirilməsi sahəsində böyük imkanlar potensialı vardır. İraq yaxın gələcəkdə Azərbaycanın apardığı xarici siyasət xəttində prioritet istiqamətlərdən biri ola bilər. Yuxarıda göstərilən amil nəinki iqtisadi potensiala, eləcə də ortaq dəyərlərə əsaslanır. Eyni zamanda, İraqın beynəlxalq təşkilatlar, xüsusilə də İKT çərçivəsində Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün aradan qaldırılması, işğal olunmuş ərazilərin azad edilməsi və qaçqınların öz doğma torpaqla-

rına qayıtmasını tələb edən qətnamələrin qəbul edilməsində Azərbaycanın mövqeyini dəstəkləməsi beynəlxalq siyasətdə əhəmiyyət kəsb edən amillərdəndir və islam aləmində, o cümlədən ərəb dövlətlərində ictimai rəyin formalaşmasına güclü təsir göstərir. Bundan əlavə, İraq regionda tarixən İranın rəqibi rolunu oynayır. Bu vəziyyətin davam etməsi Azərbaycan tərəfindən xarici siyasət məsələlərinin müəyyənləşdirilməsində istifadə oluna bilər.

Qeyd olunmalıdır ki, Ermənistan Respublikası ərəb dövlətləri ilə münasibətlərini nizamlamaq, İraq və Fars körfəzinin ərəb ölkələri ilə diplomatik əlaqələr qurmaq sahəsində müntəzəm və fəal cəhdlər göstərir. Ərəb ölkələrindəki erməni icmaları, xüsusilə də Livan, Suriya, Misir və İrandakı erməni diasporaları ərəb ölkələrinin kütləvi informasiya vasitələri və işgüzar dairələri ilə uzun müddət ərzində formalaşmış əlaqələrindən məharətlə istifadə edərək, bu dövlətlərin Azərbaycana münasibətdə tutduğu mövqeyinə təsir göstərməyə səy edirlər. Bir sıra ərəb media və tele-video vasitələrində çıxan erməni materiallarında erməni xalqının tarixi, onun ərəb aləmi ilə bağlılığı, islam mədəniyyətinin inkişafında müstəsna rolu barədə fikirlər təbliğ olunur. Erməni təbliğatı Azərbaycanla münaqişə probleminə geniş yer ayırır. Bununla əlaqədar, erməni diplomatiyası Azərbaycanın mənafelərinə İKT vasitəsilə də təsir göstərməyə və bu təşkilat çərçivəsində fəaliyyətimizi zəiflətməyə cəhdlər edir, bəzi hallarda buna nail olmağa yaxınlaşır (İKT çərçivəsində Ermənistanın təcavüzünə dair qətnamələrin qəbul edilməsində bəzi dövlətlərin fərqli mövqeyi). Ermənistan tərəfi dəfələrlə üzv dövlətlərə və İKT Baş Katibyinə müraciət edərək, Emənistan-Azərbaycan konfliktinə dair "birtərəfli" mövqe tutmamağa, qəbul edilən qətnamələrdə "anti-erməni" tonunu azaltmağa çağırmışdır. Eyni zamanda, İraq tərəfi, dəfələrlə Ermənistanın İraqda aktiv təbliğat fəaliyyəti aparması və rəsmi Bağdad ilə sıx münasibətlər yaratmağa cəhdlər göstərməsi barədə məlumatları diqqətimizə çatdırmışdır. Ermənistan İraq ilə diplomatik əlaqələr qurmağa müntəzəm cəhdlər göstərmiş, lakin Yerevanın bu istiqamətdə fəaliyyəti Bağdadın hazırkı dövrdə Yerevanla diplomatik əlaqələrin yaradılmasını mümkün hesab etməməsi səbəbindən müsbət nəticə verməmişdir.

Hələ 1979-cu ildə Bakının və Bəsrənin qardaşlaşmasına dair sənəd imzalanmışdır.

1994-cü ilin 21 oktyabr tarixində, Bağdadda, Azərbaycan və İraq Respublikalarının Mədəniyyət və İnformasiya Nazirlikləri arasında saziş imzalanmışdır.

Azərbaycanın mədəniyyət və incəsənət xadimləri İraqda keçirilən Babil festivalında iştirak edirlər. Eyni zamanda, azərbaycanlı zəvvarlar İraqda yerləşən müqəddəs islam məbədlərini ziyarət edir, bu sahədə Qafqaz Müsəlmanları İdarəsi səviyyəsində münasibətlər mövcuddur.

İraq tərəfi sabiq dövlət başçısı S.Hüseynin Azərbaycan Respublikasının sabiq Prezidenti H.Əliyevə olan dərin ehtiramını vurğulayaraq, İraq səfirliyinin 1994-cü ildə bağlanmaq təhlükəsi qarşısında olduğu anlarda Azərbaycan xalqının və dövlətinin xüsusi qayğısının İraqda hərarətlə qarşılandığını bildirir.

2003-cü ildə İraq səfirliyinin bağlanması məsələsi yenidən meydana çıxmış, lakin ölkələrimizin XİN müavinlərinin səyləri nəticəsində səfirliyin yalnız fəaliyyətinin dayandırılması barədə razılıq əldə edilmişdir.

İraq tərəfi həmçinin, Azərbaycanla kənd təsərrüfatı, neft sənayesi, təhsil və din sahələrində əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu bildirmişdir.

İraqda neft sənayesi sahəsində çalışan mütəxəssislərin əksəriyyəti Azərbaycanda təhsil almış və bu sahədə mütəxəssislərin və təcrübə mübadilərinin aparılması üçün imkanlar vardır.

Sabiq hakimiyyət müntəzəm olaraq Bağdadda Azərbaycan Səfirliyinin açılması təklifi ilə çıxış etmiş, səfirliyi bina ilə təmin edilməsinə hazırlığını bildirmişdir.

İraqın Azərbaycandakı Səfirliyi İraq Xarici İşlər Nazirinin birinci müavini Nuri İsmail Əl-Veyyisin Azərbaycana səfərinin həyata keçirilməsi təklifilə çıxış etmiş və təklif qəbul edildikdən sonra nazir müavini Azərbaycana səfər etmişdir. Səfər zamanı o, Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyev, İqtisadiyyat Naziri N.Nəsrullayev, Təhsil Naziri M.Mərdanov, Dövlət Neft Şirkətinin Prezidenti N.Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin Sədri Şeyxülislam A.Paşazadə, Xarici işlər nazirinin müavini X.Xələfov, Mədəniyyət nazirinin müavini Ş.Axundov və Bakı şəhər İcra hakimiyyəti başçısının müavini E.Lahıcov ilə görüşmüşdür.

İraq məmuru ilə XİN-də keçirilmiş müzakirələr zamanı Azərbaycan ilə İraq arasında ənənəvi tarixi, dini dostluq və qardaşlıq telərinin mövcudluğu qeyd edilmiş, eyni zamanda, əlaqələrin hazırkı səviyyəsinin qənaətbəxş olmadığı, münasibətlərin inkişafı üçün mövcud imkanlardan daha səmərəli şəkildə istifadə edilməsinin vacibliyi vurğulanmışdır. İraqdakı humanitar vəziyyət və İraq xalqının üzləşdiyi çıtinliklərlə əlaqədar Azərbaycan tərəfinin narahatlıq keçirdiyi qonağın diqqətinə çatdırılmışdır.

İraq XİN-in müavini N.İ.Əl-Veyyisin Azərbaycana səfərindən dərhal sonra İraq XİN-i ölkənin xarici ölkələrdəki bütün diplomatik nümayəndəliklərinə aşağıdakı mövzuda göstəriş vermişdir.

2001-ci ilin 12-16 fevral tarixlərində AR XİN təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin Sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi 35 nəfərdən Azərbaycan nümayəndə heyəti humanitar yardımla yüklənmiş "TuranAir" Aviaşirkətinə məxsus təyyarə ilə İraqa səfər etmişdir.

Azərbaycan ilə İraq arasında Dövlət və Hökumət Başçıları, Xarici İşlər Nazirləri səviyyəsində mütəmadi məktub mübadiləsi aparılmışdır.

2002-ci ilin 19 dekabr tarixində Azərbaycan tərəfi ölkələr arasında imzalanması nəzərdə tutulmuş iqtisadiyyat, ticarət, elm və texniki əməkdaşlıq haqqında Saziş layihəsini İraq Respublikasının Bakıdakı Səfirliyinə təqdim etmişdir.

2002-ci ilin dekabr ayında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Sədri Şeyxülislam Allahşükür Paşazadə İraqın Dini məsələlər nazirliyinin dəvəti ilə ölkəyə səfər etmişdir. Səfər zamanı idarə sədri ilə ölkənin dini məsələlər naziri Əhməd Münim Saleh arasında görüş keçirilmişdir. Görüş zamanı tərəflərin dini ida-

rələri arasında əməkdaşlığı daha da inkişaf etdirilməsi məsələri müzakirə edilmiş, orada QMİ-nin səlahiyyətli nümayəndəliyin açılması məsələsində razılıq əldə edilmişdir.

Ş.A.Paşazadə həmçinin, Bağdad universitetində dini elmlər üzrə təhsil alan azərbaycanlı tələbələri ilə görüşmüşdür.



AZƏRBAYCAN - PAKİSTAN ƏLAQƏLƏRİ



(Pakistan Azərbaycan ilə 9 iyun 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Pakistan İslam Respublikası Azərbaycana ən yaxın və dost olan dövlətlərdən biridir.

Pakistanın ABŞ, Türkiyə, ÇXR ilə stabil və çoxtərəfli münasibətləri vardır. Bu ölkənin 1993-94-ci illər ərzində BMT Təhlükəsizlik Şurasının üzvü olması da vacib amillərdən biridir.

Bundan əlavə, Pakistanın islam dünyasında böyük nüfuzu vardır və o, İslam Konfransı Təşkilatının aparıcı dövlətlərindən biridir.

Pakistanla Hindistan arasında mövcud mübahisə olan Kəşmir problemi iki ölkə arasında mürəkkəb məsələ kimi qalmaqda davam edir.

Pakistanın Kəşmir probleminə dair mövqeyi ondan ibarətdir ki, məsələ BMT-nin qətnamə kimi bəyan etdiyi öhdəliklərə uyğun şəkildə həll edilməsini tələb edir. Pakistan BMT tərəfindən problemin həllində tərəf kimi tanındığını bəyan edir və Hindistanı kəşmirlilərin BMT TŞ qətnamələrinə əsasən öz müqəddəratını təyinetmə hüquqlarını tanımağa çağırır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Pakistana səfəri zamanı, 10 aprel 1996-ci il tarixində Pakistanın Baş Naziri xanım B.Bhutto ilə görüşün nəticəsi olaraq ikitərəfli münasibətlərin inkişafı barədə birgə bəyanat qəbul edilmişdir. Bu bəyanatda Azərbaycan Prezidentinin Kəşmir probleminin BMT TŞ qətnamələrinə uyğun olaraq sülh yolu ilə həlli barədə mövqeyi əks edilmişdir və Azərbaycan Prezidenti Kəşmir probleminin sülh yolu ilə həlli üçün Pakistanın beynəlxalq aləmdə atdığı addımları dəstəklədiyini bir daha təsdiq etmiş, hər iki tərəf Kəşmir ərazisində insan haqlarının pozulması hallarına son qoyulmasına çağırmışlar.

Pakistan ilə Azərbaycan arasında dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələri gündən-günə inkişaf etməkdədir. Azərbaycan Respublikası dövlət müstəqilliyini elan edərkən onun müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Pakistan olmuşdur. *(12 dekabr 1991-ci il).*

1991-ci ilin dekabrında Pakistan nümayəndə heyəti Bakıya gəlmiş və bu dövlətin razılığına əsasən, Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) daxil olmaq məsələsi müzakirə edilmişdir.

Pakistanla diplomatik əlaqələr 1992-ci il iyun ayının 9-da yaradılmışdır.

1993-cü il martın 12-də Bakıda Pakistan İslam Respublikasının səfirliyi açılmışdır.

1993-cü il noyabrın 30-dan dekabr ayının 2-dək İslamabadda İƏT-in üzvü olan ölkələrin elm və mədəniyyət sahəsində əməkdaşlıq üzrə III müşavirəsində Baş Nazirin müavini E.Əfəndiyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir.

Xatırladırıq ki, 1993-cü il aprel ayının 30-u BMT-də Pakistanın sədrliyi ilə

Azərbaycana aid 822 nömrəli qətnamə qəbul edilmişdir.

İndiyə qədər Pakistan İslam Respublikası Azərbaycan qaçqınlarına və məcburi köçkünlərə kömək məqsədi ilə, pal-paltar və dərmandan ibarət 25 tondan artıq humanitar yardım göstərmişdir.

1994-cü ildən başlayaraq Azərbaycanla Pakistan arasında ikitərəfli münasibətlər daha yüksək səviyyəyə çatmışdır. Belə ki, Azərbaycanın və Pakistanın Xarici İşlər Nazirliklərinin rəsmi yazışmalar mübadiləsi nəticəsində, bir sıra saziş və müqavilələrin imzalanması və paraflanması məqsədilə Pakistan İslam Respublikasının Xarici İşlər Naziri Sərdar Asif Əhməd 1994-cü il yanvarın 24-ündə Bakıya rəsmi səfər etmişdir. 1995-ci il martın 14-15-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xüsusi nümayəndəsi, Xarici İşlər Naziri H.Həsənovun başçılıq etdiyi nümayəndə heyəti İƏT-in III Zirvə toplantısında iştirak etmək məqsədi ilə İslamabada getmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə 1995-ci ilin oktyabrın 9-11-də Pakistan İslam Respublikasının Prezidenti Sərdar Faruq Əhməd Xan Leqari Bakıya rəsmi səfər etmişdir.

Azərbaycan Prezidentinin Pakistanla dövlətlərarası sənədlərin imzalanma mərasimində bildirmişdir ki, Azərbaycan ilə Pakistan arasında dostluq əlaqələri mövcuddur və ardıcıl surətdə inkişaf edir. Hər iki tərəfdən - Pakistan və Azərbaycan tərəfindən bu əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylər göstərilmiş, bunlar öz nəticəsini vermişdir. Əldə olunan əsas nailiyyət bundan ibarətdir ki, iki ölkə arasında - Pakistan və Azərbaycan arasında dostluq əlaqələri artıq çox möhkəm təməl əsasında qurulmuşdur və bu əlaqələrin inkişaf etməsi üçün yaxşı şərait yaranmışdır.

Beynəlxalq aləmdə, təşkilatlarda Pakistan ilə Azərbaycan arasındakı əməkdaşlıq həmişə hər iki ölkənin mənafeyinə uyğun olub, eyni zamanda beynəlxalq aləmdə hər iki ölkənin mövqeyinin müdafiə olunmasına, qorunmasına yönəldilibdir. Dövlət başçımız qeyd etmişdir ki, ölkələrimiz beynəlxalq aləmdə, təşkilatlarda gələcəkdə də bu mövqelərdən çıxış edəcək və sıx əməkdaşlıq edəcəklər.

Pakistan Prezidentinin Milli Məclisdə görüşündə nitq söyləyən dövlət başçımız göstərmişdir ki, Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi Pakistan onun səsinə səs vermişdir, Azərbaycanın müstəqilliyini tanımışdır və sonrakı dövrdə Azərbaycanla dostluq, əməkdaşlıq əlaqələri qurmağa, yaratmağa, Azərbaycanın mənafeyini beynəlxalq təşkilatlarda daim müdafiə etməyə çalışmışdır. Biz çox məmnunuq ki, Pakistan məsafə etibarilə bizdən uzaqda olsa da, Azərbaycan üçün çox yaxındır, Azərbaycanın həm daxili vəziyyətini, burada gedən prosesləri izləyir, həm də ölkəmizin beynəlxalq aləmdə olan vəziyyətinə diqqət yetirir...

Ermənistan - Azərbaycan münaqişəsi məsələsi, Ermənistanın Azərbaycana qarşı təcavüz etməsi məsələsi beynəlxalq təşkilatlarda dəfələrlə müzakirə olunmuş, Pakistan daim Azərbaycan Respublikasının mövqeyini müdafiə etmiş, Azərbaycana qarşı olan hərbi təcavüzü pisləmişdir.

Azərbaycan Pakistan üçün çox mühüm əhəmiyyəti olan Kəşmir məsələsinin də sülh yolu ilə həll olunmasının tərəfdarıdır. Bu məsələnin beynəlxalq təşkilatlarda müzakirəsi zamanı Azərbaycan daim Pakistanın mövqeyini, onun hüquqlarını müdafiə edib və bundan sonra da müdafiə edəcəkdir...

Azərbaycan xalqı Pakistan və onun xalqını özü üçün dost ölkə, dost xalq kimi qəbul edibdir və bizim bu görüşlərimiz bu dostluğun daha da möhkəmlənməsinə, daha da inkişafına xidmət edəcəkdir.

Görüşlərin sonunda aparılan danışıqlara yekun vuran Azərbaycan Prezidenti bildirmişdir ki, iki gün müddətində aparılan danışıqlar ölkələrimiz arasında səmimi dostluq əlaqələrinin mövcud olduğunu və bu əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu sübut etdi. Dostluq əlaqələrinin genişləndirilməsi barədə fikirlərimiz eynidir və buna görə də Pakistan Respublikasının Prezidenti və mən dostluq və əməkdaşlıq haqqında böyük bir müqaviləni imzaladıq. Eyni zamanda, əlaqələrimizi, xüsusən iqtisadi, ticarət əlaqələrimizi inkişaf etdirmək üçün bir neçə saziş də imzalanıbdır. Bu sənədlər bizim gələcək fəliyyətimiz üçün yaxşı əsas yaradır. Ancaq bu günlər əldə olunan ən əsas nəticə ondan ibarətdir ki, Pakistan və Azərbaycan dost ölkələr kimi bir-biri ilə əlaqələrini daha da genişləndirəcək, inkişaf etdirəcək və bir-birinə daha yaxından yardım edəcəkdir.

Eyni zamanda, bizim qonaqlarımız da bu iki gün müddətində Azərbaycanın ağır və çətin problemləri ilə tanış oldular. Həmin problemlərdən ən böyüyü, ən çətini Ermənistan tərəfindən Azərbaycana edilən hərbi təcavüz, bu təcavüz nəticəsində Azərbaycan Respublikası ərazisinin bir qisminin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması və işğal edilmiş torpaqlardan bir milyondan çox vətəndaşımızın zorla qovulmasıdır. Mən bir daha məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Pakistan Azərbaycan Respublikasına qarşı Ermənistanın etdiyi hərbi təcavüzü daim pisləmişdir və bu gün də pisləyir. Eyni zamanda Azərbaycanın ağır vəziyyətdən ləyaqətlə çıxması və bu məsələlərin sülh yolu ilə həll olunması üçün lazımi səylər göstərir. Azərbaycan xalqının bu ağır dövründə Pakistan xalqının, Pakistan dövlətinin onunla həmrəy olması bizim üçün çox qiymətlidir.

Biz bilirik ki, Pakistanın yerləşdiyi regionda onu narahat edən bəzi problemlər var. Kəşmir probleminin həll olunmasında biz Pakistanı daim dəstəkləmişik və bu gün də mən bu barədə dövlətimiz adından bəyanat verirəm. Pakistanı narahat edən məsələlərdən biri də Əfqanıstanda yaranmış vəziyyətdir. Biz Əfqanıstanda bütün məsələlərin sülh, danışıqlar yolu ilə, dincliklə həll olunmasının tərəfdarıyıq.

Biz hər yerdə sülh olmasını istəyirik, dünyada zorakılığın əleyhinəyik. İşğalçılığın, bir dövlətin zor işlədərək başqa dövlətin ərazisini ələ keçirməsinin əleyhinəyik. Biz bütün beynəlxalq hüquq normalarına hər bir dövlət tərəfindən əməl olunmasının tərəfdarıyıq və bunu tələb edirik. Dünən və bu gün aparılan söhbətlərimizdən bizə bir daha məlum oldu ki, Pakistan xalqı və Pakistan dövləti özünün qarşısında duran məsələləri öz iradəsi ilə, ədalətlə həll etmək istəyir. Azərbaycanın qarşısında duran problemləri də Azərbaycan xalqı öz iradəsi ilə, müstəqil surətdə, ədalətlə həll etmək istəyir. Bu məsələlərdə həmfikir olmağımız gələcək əməkdaşlığımız üçün daha yaxşı şərait yaradır.

Bu danışıqlar Pakistan ilə Azərbaycan arasındakı dostluq, əməkdaşlıq əlaqələrinin inkişafı üçün yaxşı zəmin yaradıbdır və biz Azərbaycanda bu imkanlardan səmərəli istifadə etməyə çalışacağıq. Ümüdvaram ki, yüksək səviyyədə dövlətlərarası əlaqələrimiz bundan sonra mütəmadi olaraq davam edəcəkdir. Mən hörmətli Prezidentin dəvətindən istifadə edib Pakistanı ziyarət etmək fikrindəyəm. Pakistanın Baş Naziri, hör-

mətli xanım Benəzir Bhuttonu Azərbaycana dəvət etmişəm və biz onun ölkəmizə gəlməsini səbirsizliklə gözləyəcəyik. Bu əlaqələr, danışıqlar dövlətlərimizin, hökumətlərimizin bütün səviyyələrində də davam edəcəkdir. Biz - həm Pakistan, həm də Azərbaycan istər dövlət quruculuğunda qarşımızda duran məsələləri həll etmək, müstəqilliyimizi möhkəmləndirmək üçün, istərsə də beynəlxalq aləmdə öz mövqelərimizi möhkəmləndirmək üçün, Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etməsi üçün birgə səylər göstərəcəyik.

Bu səfər yüksək səviyyəli qarşılıqlı anlaşma şəraitində keçmişdir.

Pakistan İslam Respublikası Prezidentinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti H.Əliyev 1996-ci il aprelin 9-11-də Pakistanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, Pakistan İslam Respublikasının o zamankı Prezidenti Faruq Əhməd Xan Leqari, Pakistan İslam Respublikasının həmin dövrdə Baş Naziri Benəzir Bhutto ilə görüşmüş və danışıqlar aparmışdır. Bu səfər də böyük müvəffəqiyyətlə başa çatmışdır Bir neçə müqavilə imzalanmışdır.

23 mart 1997-ci il tarixdə Pakistan səfirliyi Pakistan İslam Respublikasının 50 illik yubileyi münasibətilə qəbul təşkil etmişdir. Prezidentimiz qəbulda iştirak edərək geniş nitq söyləmiş, orada bildirmişdir ki, "Pakistan ilə Azərbaycan arasında dövlətlərarası əlaqələrin inkişaf etdirilməsində 1995-ci ilin sonunda Pakistan Prezidenti cənab Faruq Əhməd Xan Leqarinin Azərbaycana səfəri və keçən il mənim Pakistana səfərim zamanı imzalanmış sənədlər və aparılmış danışıqlar çox mühüm rol oynamışdır.

Biz Pakistan ilə Azərbaycan arasındakı əlaqələrə xüsusi qiymət veririk, bu əlaqələrin bütün sahələrdə inkişaf etməsinə, genişlənməsinə çalışırıq və bundan sonra da çalışacağıq.

Pakistan islam ölkəsi, müsəlman ölkəsi olaraq eyni zamanda demokratik prinsiplər əsasında yaşayır, inkişaf edir. Pakistanda demokratik prinsiplərin bərqərar olması və tətbiqi islam aləmində, islam ölkələri arasında ona xüsusi hörmət və ehtiram qazandırmışdır.

Pakistanın böyük təbii sərvətləri, geniş iqtisadi imkanları var və şübhə yoxdur ki, müstəqil dövlət kimi Pakistan öz ölkəsində demokratik prinsipləri inkişaf etdirərək bundan sonra daha böyük nailiyyətlər əldə edəcəkdir.

Dost, qardaş ölkə kimi Pakistanın həyatında gedən proseslərə biz çox böyük maraq və diqqət göstərir, bu prosesləri dostluq, qardaşlıq münasibətləri baxımından izləyirik və Pakistanın qarşısında duran bütün problemlərin müvəffəqiyyətlə həll olunmasını arzu edirik. Şübhə yoxdur ki, 50 illik müstəqillik yolu keçən, eyni zamanda çox qədim, zəngin tarixə, çox dəyərli milli, mənəvi ənənələrə malik olan Pakistan xalqı bundan sonra da yüksəklərə qalxacaq və yeni-yeni nailiyyətlər əldə edəcəkdir. Pakistan ilə Azərbaycan arasında yaranmış və daim inkişaf edən əməkdaşlıq, dostluq, qardaşlıq əlaqələri bundan sonra da bizim ölkələrə fayda gətirəcək və bölgədə sülhün, əmin-amanlığın bərqərar olmasına kömək edəcəkdir.

Biz böyük dostluq, məmnuniyyət hissi ilə qeyd edirik ki, Pakistan xalqı 50 illik müstəqillik dövründə çox yüksək səviyyələrə çatmış və böyük nailiyyətlər əldə etmişdir".

Qarşılıqlı ziyarətlərdən sonra da ölkələrimiz arasında intensiv əlaqələr davam etmişdir.

1998-ci il oktyabrın 10-12-də Azərbaycan Respublikasında keçirilmiş Prezident seçkilərində Pakistan tərəfindən 6 senator müşahidəçi kimi iştirak etmişdir.

1999-cu il aprelin 28-i Pakistan İslam Respublikasının Baş Naziri cənab Nəvaz Şərif Albaniya və İtaliyaya səfəri zamanı Bakının Binə hava limanında qısamüddətli texniki dayanacaq etmişdir. Hava limanında Pakistan hökümətinin başçısını Azərbaycan Respublikasının Baş Naziri A.Rasizadə qarşılamışdır.

1999-cu il mayın 8-21-i Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının IX iclasında Pakistanın Xarici İşlər üzrə Dövlət Naziri Məhəmməd Siddiq Xan Kancu Pakistan nümayəndə heyətinə başçılıq ediridi. Səfər zamanı Kancu Azərbaycan Respublikasının Xarici İşlər Naziri ilə görüşmüşdür.

1999-cu il aprelin 28-29-unda Bakıda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Ali Audit Qurumları Təşkilatının IV toplantısında PİR-in Baş Auditoru Mənzur Hüseyn iştirak etmişdir.

1999-cu il mayın 26-31-i və iyunun 1-2-ci İslamabadın Milli Müdafiə Kolleci və Pakistan Silahlı Qüvvələrinin yüksək rütbəli zabitlərindən ibarət 2 nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

2000-ci il yanvarın 7-si PİR-in Bakıdakı səfiri xanım Asma Anisa Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə öz etimadnaməsini təqdim etmişdir.

2000-ci il mayın 6-11-i İslamabadda yerləşən Pakistan Milli Müdafiə Kollecinin yüksək rütbəli zabitlərindən təşkil edilmiş 10 nəfərlik nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 416 saylı 2000-ci il 17 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının tərkibi təsdiq edilmişdir.

2001-ci il mayın 16-21-i Pakistan İslam Respublikasının İİR-dəki hərbi attaşesi, general M.İftixar Azərbaycan Respublikasına səfər etmişdir. Səfər zamanı general M.İftixar Müdafiə Naziri S.Əbiyev və başqa yüksək rütbəli hərbi mütəxəssislərlə görüşmüşdür.

2001-ci il mayın 23-25-ində Azərbaycan Respublikasının Müdafiə Naziri S.Əbiyev Pakistan İslam Respublikasına səfər etmişdir. Səfər zamanı o, Pakistanın İcra Hakimiyyəti Başçısı Pərviz Müşərrəf, Xarici İşlər Naziri Əbdül Səttar, Müdafiə Naziri Həmid Nəvaz Xan, Neft və Təbii Ehtiyatlar Naziri Usman Əminuddin və Daxili İşlər Naziri Mouniddin Heydər ilə görüşlər keçirmiş, ikitərəfli münasibətlər ətrafında müzakirələr aparmışdır. Səfərin nəticəsi olaraq birgə bəyanat imzalanmışdır.

2001-ci il iyulun 30-da Pakistan İslam Respublikasının Azərbaycana yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli Səfiri Faiz Məhəmməd Xoso AR Xarici İşlər Naziri V.Quliyevlə görüşmüş və ona öz etimadnaməsinin surətini təqdim etmişdir.

2001-ci il avqustun 23-də Pakistan İslam Respublikasının Azərbaycana yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli Səfiri Faiz Məhəmməd Xoso AR Prezidenti H.Əliyevə öz etimadnaməsini təqdim etmişdir

Yuxarıda göstərilən fakt və rəqəmlərdən də göründüyü kimi, əlaqələrimiz daim inkişaf etməkdədir.



AZƏRBAYCAN - MƏRAKEŞ ƏLAQƏLƏRİ



(Mərakeş Azərbaycan ilə 25 avqust 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Mərakeş Krallığı 26 dekabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanımış, 25 avqust 1992-ci il də iki ölkə arasında diplomatik əlaqələr yaradılmışdır.

Mərakeş Krallığı beynəlxalq təşkilatlar, BMT, xususi ilə də İKT çərçivəsində Azərbaycanın mövqeyini dəstəkləyir.

1994-cü ilin 12 dekabr tarixində AR Xarici İşlər Naziriliyi və Mərakeş Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında protokol imzalanmışdır. Protokolun 4-cü maddəsində qeyd olunur ki, " Tərəflərin Xarici İşlər Nazirləri və ya onların nümayəndələri, müntəzəm olaraq beynəlxalq məsələlər və ikitərəfli münasibətlər barədə məşvərətlər keçirirlər."

1994-cü ilin 13-15 dekabrında Kasablankada keçirilən İKT-nin Dövlət və Hökumət Başçılarının VII Zirvə görüşü zamanı Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev ilə Mərakeş Kralı II Həsən arasında keçirilmiş ikitərəfli görüşdə Azərbaycan-Mərakeş əlaqələrinin inkişafı və əməkdaşlığın gələcək perspektivləri müzakirə edilmişdir.

Mərakeş Krallığının Dövlət Naziri, Xarici Əlaqələr və Əməkdaşlıq Naziri Əbdüllətif Filali 2000-ci ilin mart ayında Azərbaycan Respublikasının Xarici İşlər Nazirinə Mərakeşə rəsmi səfərə dəvət haqqında müvafiq məktub göndərmişdir. Azərbaycan tərəfi, cavab məktubunda Mərakeş Nazirinin dəvətini minnətdarlıqla qəbul etmişdir.

2000-ci ilin 12-14 noyabr tarixlərində Qatarın paytaxtı Doha şəhərində keçirilən İKT-yə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının IX Zirvə görüşü zamanı Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyev ilə Mərakeş Krallığının Xarici İşlər Naziri cənab M.Benaissa arasında görüş keçirilmişdir. Görüşdə V.Quliyev daha öncə göndərilmiş Mərakeşə rəsmi səfərə dəvətə görə öz həmkarına minnətdarlığını bildirmiş və həmin səfərin 2001-ci ilin əvvəllərində həyata keçirilməsi barədə razılıq əldə edilmişdir. Səmimiyyət şəraitində keçən görüşdə hər iki tərəf Azərbaycan-Mərakeş əlaqələrinin inkişaf etdirilməsinin, qarşılıqlı səfər mübadilələrinin həyata keçirilməsinin vacibliyini qeyd etmişdir.

Mərkəşelə müntəzəm olaraq Dövlət və Hökumət Başçıları, XİN rəhbərləri səviyyəsində məktub mübadiləsi aparılır.



AZƏRBAYCAN - BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ ƏLAQƏLƏRİ



(BƏƏ Azərbaycan ilə 1 sentyabr 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Azərbaycan Respublikası ilə BƏƏ arasında diplomatik əlaqələr 01.09.1992-ci ildə qurulmuş, 1994-ci ilin iyun ayında isə BƏƏ-nin Türkiyədəki Fövqəladə və Səlahiyyətli Səfiri Yusif Xalid Məhəmməd əl-Ənsari eyni zamanda Azərbaycanda akkreditə olunmuşdur.

Azərbaycanla BƏƏ arasında istər BMT, istərsə də İslam Konfransı Təşkilatı kimi nüfuzlu beynəlxalq təşkilatlarda həmişə yaxın əməkdaşlıq əlaqələri mövcud olmuşdur və bu əlaqələr bu gün də davam edir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BƏƏ-nin Azərbaycanın haqq işini dəstəkləyən mövqeyi bütün beynəlxalq təşkilatlarda birmənalı olmuşdur.

İlk dövrlərdə ölkələrimiz arasındakı münasibətlər Azərbaycanın Böyük Britaniya, Misir və Səudiyyə Ərəbistanındakı səfirlikləri vasitəsi ilə həyata keçirilmişdir.

Azərbaycanın Böyük Britaniyadakı Səfiri M. Məmmədquliyev 1994-ci ilin iyulunda Londonda BƏƏ Prezidentinə yaxın adamlardan sayılan Şeyx Yusif Abbasla görüşmüşdür. Görüş zamanı Şeyx Yusif qeyd etmişdir ki, ərəb dünyasının inkişaf etmiş müstəqil dövlətlərindən olan BƏƏ-də Azərbaycan səfirliyinin açılması çox vacibdir. Səfirliyin açılması ilə bağlı bir sıra məsələləri, o cümlədən onun üçün bina alınması və avtomobillə təmin edilməsi ilə bağlı bütün xərcləri şəxsən öz üzərinə götürməyə hazır olduğunu bildirmişdir.

1994-cü ilin oktyabrında Azərbaycan Respublikası Milli Məclisi sədrinin başçılıq etdiyi nümayəndə heyəti Əmirliklərə rəsmi səfər etmiş, Azərbaycan Respublikasının Prezidenti cənab H.Əliyevin məktubunu BƏƏ Prezidenti Şeyx Zaid bin Sultan əl-Nəhyana təqdim etmişdir.

Bundan əlavə, Azərbaycanın Qahirədəki səfiri BƏƏ-nin Xarici məsələlər üzrə dövlət naziri, BƏƏ-nin Prezidenti Şeyx Zaid əl-Nəhyanın oğlu Həmdan bin Zaidlə görüşmüş və görüş zamanı BƏƏ-nin xidmət sahələrində azərbaycanlı mütəxəssislərin, xüsusilə də 10 minə qədər qaçqının işləyə bilməsi imkanları müzakirə edilmiş və H. Zaid ölkəsinin bu sahədə Azərbaycanla əməkdaşlıq etməyə hazır olduğunu söyləmişdir.

13 dekabr 1994-cü ildə İKT-nin VII Zirvə toplantısında ölkəmizin başçısı BƏƏ-nin Prezidenti Şeyx Zaid bin Sultanla görüş keçirmişdir. Görüşdə ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi, Azərbaycana siyasi dəstək, qaçqınlara yardım və bir sıra başqa məsələlər müzakirə olunmuş, hər iki Prezident arasında bu görüşdə səmimi dostluq əlaqələri yaranmışdır.

İslamabadda keçirilən İKT Zirvə toplantısında BƏƏ Prezidentinin oğlu Şahzadə

Abdulla bin Zaidlə Qahirədəki səfirimizin görüşü olmuşdur.

Son illər bir sıra ərəb dövlətləri kimi BƏƏ də Azərbaycanın qaçqın və məcburi köçkünlərinin taleyinə biganə qalmamış və 1996-cı ilin avqustunda BƏƏ Azərbaycan qaçqınlarına humanitar yardım kimi 300 tona yaxın ərzaq göndərmişdir.

1997-ci il aprel ayının 11-də Milli Məclisin "Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyinin təsis edilməsi" haqqında qərarının Prezident Heydər Əliyev tərəfindən təsdiq edilməsini iki dövlət arasındakı münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirmək olar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT-nin Tehranda çağırılan VIII Zirvə toplantısında (1997-ci il) Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Naziri Rəşid Abdulla əl-Nəimi ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi, xüsusən ticarət əlaqələrinin genişlənməsindən məmnun qaldığını bildirən respublikamızın rəhbəri, bu əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacib olduğunu qeyd etmişdir. Prezident Heydər Əliyev Birləşmiş Ərəb Əmirliklərinin azərbaycanlı qaçqınlara göstərdiyi humanitar yardıma görə də minnətdarlıq etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev Prezident Şeyx Zaidi Azərbaycana rəsmi səfərə dəvət etmiş və cənab əl-Nəiminin də respublikamıza ziyarətə gəlməsini arzuladığını bildirmişdir.

Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı səfiri E.Araslı 2000-ci ilin 20-21 avqust tarixlərində Abu Dabidə Birləşmiş Ərəb Əmirliklərinin rəsmi və işgüzar dairələrinin nümayəndələri ilə bir sıra görüşlər keçirmişdir.

Səfir E.Araslının Abu Dabi Ticarət-Sənaye Palatasının sədri Səid Seyf Uəbr əl-Sueydi ilə görüşü əsnasında ikitərəfli iqtisadi əlaqələrin inkişafı məsələləri barədə fikir mübadiləsi aparılmış və Palatanın nümayəndə heyətinin Azərbaycana səfər etməsi barədə razılıq əldə edilmişdir.

Azərbaycan səfirinin Abu Dabi İnkişaf Fondunun Baş direktoru Səəd Həlfan əl-Rumeysi ilə görüşü zamanı Baş direktor yaxınlarda Fondun Direktorlar Şurası tərəfindən Bakı ətrafı dairəvi yolun çəkilişi üçün Azərbaycana 10 milyon ABŞ dolları məbləğində kreditin ayrılması barədə qərar qəbul edildiyini bildirmişdir. O, həmçinin Azərbaycan tərəfindən təqdim ediləcək digər təklifləri müzakirə etməyə hazır olduğunu qeyd etmişdir.

E.Araslının Zaid bin Sultan əl-Nəhyan Xeyriyyə fondu sədrinin müavini Səlim Ubeyd əl-Zəhiri və İslam həmrəyliyi fondunun direktoru Nasir Həmdanla görüşlərində Azərbaycanın qaçqın və köçkünlərinə humanitar yardımın artırılması məsələsi müzakirə edilmişdir. S.U.əl-Zahiri Azərbaycan səfirinin qaçqın düşərgələrindən birinə Xeyriyyə fondu tərəfindən hərtərəfli yardım göstərilməsi təklifi barədə ölkə rəhbərliyinə məlumat verəcəyini və bununla əlaqədar digər tədbirlərin keçirilməsinə səy göstərəcəyini vəd etmişdir.

9-11 iyun 1997-ci il də BƏƏ Dövlət Mülki Aviasiya Departamentinin (DMAD) Prezidenti Əhməd bin Sayyed əl-Məktum Azərbaycana işgüzar səfər etmişdir. Səfərin məqsədi DMAD təşkil etdiyi Dubay-Bakı hava xəttinin açılışı olmuşdur.

Hal-hazırda Bakı-Dubay marşurutunda Azərbaycan Hava Yolları Dövlət Konsernin təyyarələri fəaliyyət göstərirlər.

1997-ci ildə Azərbaycanla BƏƏ arasında mal dövriyyəsi 42.9 mln. ABŞ dolları olmuşdur, o cümlədən idxal 41.9 mln. dollar, ixrac isə 1.0 mln. dollar olmuşdur.

1998-ci ildə mal dövriyyəsi 48.6 mln. ABŞ dolları olmuşdur. Bunlardan idxal 45.6 mln. dollar, ixrac isə 3.0 mln. ABŞ dolları təşkil etmişdir.

1999-cu ildə mal dövriyyəsi 21.3 mln. ABŞ dolları, idxal 12.3 mln. dollar, ixrac 9.0 mln. ABŞ dolları təşkil etmişdir.

1993-1999-cu illər ərzində illik idxalın ən yüksək göstəricisi 1996-cı ildə olmuş və 108.6 mln. dollar təşkil etmişdir, ixracın cöstəricisi isə bu dövr ərzində 1999-cu ildə ən yüksək olmuş və 9.0 mln. dollara çatmışdır.

1993-1999-cu illər ərzində BƏƏ-dən idxal olunan malların siyahısına əsasən qida məhsulları, tikinti materialları, avtomobillər, hesablama maşınları və s. daxildir.

Həmin dövr ərzində Azərbaycandan BƏƏ-yə əsasən məişət texnikası, mis tullantıları, aliminium, maşın avadanlıqları və onların ehtiyat hissələri, maqnit lentləri, və s. ixrac edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Respublikasının BƏƏ-də səfirliyi fəaliyyətə başlayıb.

Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkünlərin olduğunu nəzəra alaraq BƏƏ-nin Qırmızı Aypara Cəmiyyəti, "Dar əl-Bir" xeyriyyə cəmiyyəti, Zəyid bin Sultan Əl-Nəhəyan xeyriyyə təşkilatı və digər humanitar təşkilatlarla sıx əlaqələr qurulması istiqamətində müvafiq işlər görülür.

Görülən işlərin nəticəsi olaraq BƏƏ-nin humanitar təşkilatları tərəfindən Azərbaycandakı qaçqın və köçkünlərə müntəzəm olaraq humanitar yardımlar göndərilir. Qeyd edilməlidir ki, BƏƏ-nin "Dar əl-Bir" xeyriyyə cəmiyyətinin Bakıdakı nümayəndəliyi 1996-cı ildən fəaliyyət göstərir.

AR tərəfi BƏƏ-nin müxtəlif maliyyə qurumları ilə Azərbaycanda sosial-iqtisadi layihələrinin maliyyələşdirilməsi sahəsində əməkdaşlıq etmək məqsədilə lazımi işlər görür. Bu mənada Əbu Dabi İnkişaf Fondu ilə əməkdaşlıq öz bəhrəsini vermişdir. Belə ki, hələ 1996-cı ildə Fond Azərbaycan tərəfinə "Bakı Dairəvi avtomobil yolunun yenidən qurulması layihəsinin" həyata keçirilməsi üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırmışdır. Yaxın vaxtlarda Azərbaycan tərəfi ilə Fond arasında kredit müqaviləsi imzalanacaqdır.

2000-ci ilin aprel və 2003-cü ilin may aylarında Bakıda keçirilmiş Azərbaycan Hökuməti ilə ərəb İnkişaf fondları arasında Dəyirmi Masa görüşlərinin hər ikisində Əbu Dabi İnkişaf Fondunun nümayəndəsi iştirak etmişdir.

2001-ci ilin 29-31 dekabr tarixlərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin müavini X.Xələfov Birləşmiş Ərəb Əmirliklərində işgüzar səfərdə olmuşdur. Səfər zamanı X.Xələfov BƏƏ Xarici İşlər Nazirinin müavini Seyf Səid bin Səidlə görüş keçirmiş, müxtəlif sahələrdə Azərbaycan-BƏƏ əməkdaşlığı məsələlərini müzakirə etmişdir.

Səfər çərçivəsində X.Xələfov Əbu Dabidə yerləşən Şeyx Zəyid adına Koordinasiya Mərkəzində "Azərbaycan beynəlxalq münasibətlər sistemində" mövzusunda mühazirə ilə çıxış etmişdir. Mühazirə BƏƏ ictimaiyyətində Azərbaycan gerçəkliyi və Ermənistan Respublikasının ölkəmizə qarşı təcavüzü haqqında

düzgün rəyin formalaşmasına əməli təsir göstərmiş və böyük maraq doğurmuşdur.

2002-ci ilin aprel ayında AR Səhiyyə Nazirinin müavini E.Ağayev BƏƏ-nin "Culphar-2" əczaçılıq kompleksinin açılış mərasimində iştirak etmiş, Ras əl-Xayma Əmirliyinin hakim ailəsinin üzvləri ilə görüşmüşdür.

2002-ci ilin dekabr ayında Şarcada keçirilmiş IX İslam Ticarət Sərgisində AR Ticarət və Sənaye Palatasının sədri S.Tatlıyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir.

Səfər zamanı AR nümayəndə heyəti Şarca Əmirliyinin Hökmdarı Şeyx Sultan bin Məhəmməd Əl-Qasimi ilə, Şarca TSP-nin Sədri Əhməd Əl-Midfa ilə və Baş Direktoru Səid Əl-Carvanla görüşlər keçirmişdir. Səfərin sonunda AR TSP ilə Şarca TSP arasında Anlaşma Memorandumu imzalanmışdır.

2003-cü ilin mart ayında "İDEX-2003" VI Beynəlxalq Müdafiə Sərgi və Konfransında AR Müdafiə Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir.

2003-cü ilin 29 mart tarixində Azərbaycanın görkəmli incəsənət xadimləri Fərhad Bədəlbəyli, Fidan və Xuraman Qasımovalar Əbu Dabi şəhərində konsert proqramı ilə çıxış etmişlər.

2003-cü ilin 08-10 iyul tarixlərində BƏƏ Kommunikasiya Nazirinin başçılıq etdiyi nümayəndə heyəti Bakıda rəsmi səfərdə olmuşdur. Səfər zamanı Naziri BƏƏ rəsmilərindən ibarət nümayəndə heyəti müşayiət etmişdir. Heyətin üzvləri Respublikamızın əlaqədar idarə və təşkilatlarında öz tərəfdaşları ilə görüşmüş, bir sıra konkret məsələlər ətrafında müzakirələr aparmışlar.

Səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında onların müvafiq əraziləri arasında və bu ərazilərin hüdudlarından kənarda hava əlaqəsinin yaradılması haqqında" saziş imzalanmışdır.

2004-cü ilin 25-31 yanvar tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirinin müavini Ə.Vəliyev BƏƏ İnformasiya və Mədəniyyət Nazirliyinin dəvətilə BƏƏ-də işgüzar səfərdə olmuşdur.

Səfər zamanı Ə.Vəliyev BƏƏ-nin İnformasiya və Mədəniyyət Nazirinin müavini Saqr Qobaş, Dubay Əmirliyinin Mədəniyyət, gənclər Şarca Əmirliyinin Mədəniyyət Departamentinin rəhbəri Şeyx İsam Əl Qasimi və digər BƏƏ rəsmiləri ilə görüşlər keçirmişdir.

AR Mədəniyyət Nazirinin müavini ilə BƏƏ-nin İnformasiya və Mədəniyyət Nazirinin müavini arasında 25 yanvar tarixində keçirilmiş görüş zamanı Azərbaycanla BƏƏ arasında mədəniyyət sahəsində əlaqələrin bugünkü vəziyyəti və perspektivləri haqqında ətraflı söhbət aparılmış və mədəniyyət sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində hər iki tərəfin təklifləri nəzərdən keçirilmişdir.

Danışıqlar nəticəsində tərəflər 2004-cü ilin aprel ayında BƏƏ-də Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi barədə razılığa gəlmişlər. Azərbaycan Respublikasının Mədəniyyət Naziri P.Bülbüloğlunun BƏƏ-nin İnformasiya və Mədəniyyət Naziri Şeyx Abdulla bin Zayed Əl Nəhyana ünvanladığı dəvət məktubu BƏƏ tərəfinə təqdim olunmuşdur.

26 yanvar tarixində Ə.Vəliyev "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Saziş" layihəsi üzrə danışıqlar aparmaq üçün yenidən Saqr Qobaşla görüş keçirmişdir. Görüşün yekunu olaraq Saziş layihəsi tərəflər arasında tam razılaşdırılmış və onun yaxın zamanlarda imzalanmaq üçün hazırlanması barədə razılığa gəlinmişdir.

2004-cü ilin 02-10 mart tarixlərində Azərbaycanın məşhur rəssamı mərhum Hüseyn Əliyevin BƏƏ-də şəxsi sərgisi keçirilmişdir. Sərgidə Mədəniyyət Nazirliyinin bədii fondundan və rəssamın ailəsinin şəxsi kolleksiyasından 68 əsər nümayiş etdirilmişdir.

Sərginin açılışı mərasimində AR Mədəniyyət Nazirinin müavini Ə.Vəliyev, Rəssamlar İttifaqının Sədri F.Xəlilov, H.Əliyevin nəvəsi Ə.Əliyev, AR BƏƏ-dəki Səfiri E.Səlimov və s., BƏƏ tərəfindən Əbu Dabi Mədəniyyət Fondunun Sədr müavini Xalfan Əl Mehairi, BƏƏ İnformasiya və Mədəniyyət Nazirliyinin idarə rəisi Valid Əl Zaabi, Mədəniyyət Fondunun idarə rəisi Sultan Əl Xatib iştirak etmişlər.

Rəsmi hissədən əvvəl Azərbaycan nümayəndə heyəti ilə BƏƏ tərəfi arasında keçirilmiş söhbət zamanı ölkəmizin qədim irs, iki ölkə arasında mədəni əlaqələrin genişləndirilməsi kimi məsələlər müzakirə edilmişdir.

Sərgidə nümayiş etdirilən əsərlər baxıldıqdan sonra Mədəniyyət Fondunun Sədr müavini H.Əliyevin yaradıcılığını yüksək qiymətləndirmişdir. O, həmin sərginin AR ilə BƏƏ arasında olan mədəni əlaqələrə yeni təkan verəcəyini bildirərək, onun Azərbaycanın digər rəssamlarının əl işlərinin sərgisinin keçirilməsi istiqamətində gözəl başlanğıc olduğunu vurğulamışdır.

Tədbirdə Əbu Dabidə akkreditə olunmuş diplomatik korpusun başçıları və nümayəndələri, BƏƏ-də yaşayan azərbaycanlılar, Əbu Dabi ictimaiyyətinin nümayəndələri və KİV nümayəndələri iştirak etmişlər.

2004-cü ilin 22 mart tarixində Əbu Dabi şəhərində Azərbaycan Respublikası Hökuməti ilə Əbu Dabi İnkişaf Fondu arasında "Bakı dairəvi avtomobil yolu" layihəsinin maliyyələşdirilməsinə dair Borc Sazişi imzalanmışdır.

2004-cü ilin 22-29 aprel tarixlərində Azərbaycan Respublikasının Mədəniyyət Naziri P.Bülbüloğlu BƏƏ-də rəsmi səfərdə olmuşdur. Həmin vaxtda BƏƏ-də Azərbaycan Mədəniyyəti Günləri keçirilmişdir. Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi ilə əlaqədar 62 nəfərdən ibarət nümayəndə heyəti Əbu Dabiyə gəlmişdir.

24 aprel tarixində Azərbaycan Mədəniyyət Nazirinin müavini Ə.Vəliyev BƏƏ İnformasiya və Mədəniyyət Nazirliyinin binasında yerli və xarici curnalistlər üçün mətbuat konfransı keçirmişdir. Mətbuat konfransında BƏƏ-də keçiriləcək Azərbaycan Mədəniyyəti Günlərinin ərəb dünyasında ilk dəfə olaraq keçirildiyi qeyd edilmiş, Azərbaycan, onun mədəniyyəti və keçiriləcək tədbir haqqında mətbuat nümayəndələrinə ətraflı məlumat çatdırılmış, çoxsaylı suallara cavab verilmişdir.

25 aprel tarixində Əbu Dabi Mədəniyyət Fondunun əsas zalında Azərbaycanın Mədəniyyət Naziri P.Bülbüloğlu və BƏƏ-nin İnformasiya və Mədəniyyət

Naziri Şeyx Abdulla bin Zəyid Əl-Nəhəyanın iştirakı ilə Azərbaycan Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Açılış mərasimindən sonra Mədəniyyət Fondunun qonaq zalında Azərbaycanın Mədəniyyət Naziri və BƏƏ-nin İnformasiya və Mədəniyyət Naziri "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında" Saziş imzalamışlar.

Tədbirin davamı olaraq, Mədəniyyət Fondunun "Grand Theatre" zalında Azərbaycan incəsənət xadimlərinin iştirakı ilə qala-konsert keçirilmişdir.

Qala-konsertin giriş hissəsində Azərbaycanın Mədəniyyət Naziri P.Bülbüloğlu çıxış edərək, Mədəniyyət Nazirliyinin fəaliyyəti, xarici ölkələrdə Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi istiqamətində aparılan iş, Azərbaycanın zəngin mədəni irsi haqqında ətraflı məlumat vermişdir. Bundan əlavə P.Bülbüloğlu çıxışında Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü, Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində ölkəmizdə bir milyona yaxın qaçqın və məcburi köçkünün olması, Azərbaycan xalqının çoxəsirlik tarixini, şərəfli keçmişini əks etdirən dünya əhəmiyyətli tarixi və mədəniyyət abidələrinin işğal altında qalması barədə geniş auditoriyaya məlumat çatdırmışdır.

BƏƏ-nin İnformasiya və Mədəniyyət Nazirinin müavini Saqr Qobaş, BƏƏ-də akkreditə olunmuş diplomatik korpusun başçıları və nümayəndələri, yerli hökumət və özəl təşkilatların nümayəndələri, BƏƏ-də yaşayan xarici və Azərbaycan vətəndaşları tamaşaçılar arasında olmuşlar.

Mədəniyyət Günləri zamanı 4 gün ərzində Mədəniyyət Fondunun əsas salonunda Azərbaycanın qədim xalçaları, musiqi alətləri, paltarları və müasir rəssamlarının sərgisi daim fəaliyyət göstərmişdi.

26 aprel tarixində Azərbaycan Mədəniyyət Nazirinin müavini Ə.Vəliyev BƏƏ İnformasiya və Mədəniyyət Nazirinin müavini S.Qobaşla görüş keçirmişdir. Görüşdə Azərbaycanla BƏƏ arasında mədəniyyət sahəsində əlaqələrin bugünkü vəziyyəti haqqında ətraflı söhbət aparılmışdır. Həmsöhbətlər 25 aprel tarixində iki ölkə arasında mədəniyyət sahəsinə dair imzalanmış Sazişin ikitərəfli mədəni əməkdaşlığın genişlənməsinə təkan verəcəyini qeyd etmiş, əlaqələrin inkişafı perspektivlərini nəzərdən keçirmişlər.

Həmin gün Azərbaycan dövlət rəqs ansamblı və muğam ustaları Mədəniyyət Fondunun zalında konsert proqramı ilə çıxış etmişlər.

27 aprel tarixində Azərbaycanın Mədəniyyət Naziri P.Bülbüloğlu Şarca Əmirliyinin Mədəniyyət Departamentinin rəhbəri Şeyx İsam Əl-Qasımi ilə Şarcada görüşmüşdür.

Görüşdə Azərbaycanla Şarca Əmirliyi arasında mədəniyyət sahəsində əlaqələr barədə ətraflı söhbət aparılmış, mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilmişdir.

P.Bülbüloğlu Azərbaycan Mədəniyyəti Günlərinin Əbu Dabidə keçirilməsi barədə həmsöhbətinə məlumat vermiş, YUNESKO tərəfindən Şarcanın Yaxın




























































AYCAN















AKISTAN



Şərqin mədəniyyət paytaxtı elan edilməsi və orada mədəniyyət sahəsində görülən mühüm işləri nəzərə alaraq, Azərbaycan Mədəniyyəti Günlərinin Şarcada da keçirilməsi arzusunu Şeyx İsam Əl-Qasımiyə bildirmişdir.

Şarca Mədəniyyət Departamentinin rəhbəri Azərbaycan Mədəniyyəti Günlərinin Şarcada keçirilməsi fikrini alqışlayaraq, Azərbaycanın Mədəniyyət Naziri P.Bülbüloğlunu həmin vaxt Şarcaya dəvət edib Şarca Əmirliyinin Hökmdarı ilə birgə Azərbaycan Mədəniyyəti Günlərinin rəsmi açılışında iştirak etməsi təklifini irəli sürmüşdür.

Görüşdən sonra P.Bülbüloğlu Şarcanın tarixi müzeyini və incəsənət muzeyini ziyarət etmişdir.

Həmin gün Əbu Dabi şəhərində yeni açılmış "Əl Raha" teatrında Qara Qarayev adına Dövlət simfonik orkestri konsert proqramı ilə çıxış etmişdir. BƏƏ-nin İnformasiya və Mədəniyyət Nazirinin müavini Ş.Qobaş, Azərbaycanın Mədəniyyət Nazirinin müavini Ə.Vəliyev, xarici qonaqlar və həmvətənlərimiz tamaşaçılar arasında olmuşlar.

28 aprel tarixində Azərbaycanın Mədəniyyət Naziri P.Bülbüloğlu BƏƏ-nin İnformasiya və Mədəniyyət Naziri Şeyx Abdulla bin Zəyid Əl-Nəhəyanla görüş keçirmişdir.

Görüşdə P.Bülbüloğlu Azərbaycanın BƏƏ ilə münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verdiyini və onunla əlaqələrini inkişaf etdirmək əzmində olduğunu, habelə istər BMT, istərsə də İKT çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə qərarların qəbul edilməsində BƏƏ-nin mövqeyini qiymətləndirdiyini bildirmişdir.

Həmsöhbətlər ikitərəfli əlaqələrin genişləndirilməsi, iki ölkə arasında bütün sahələrdə hüquqi bazanın yaradılması, 2005-ci ildə BƏƏ Mədəniyyəti Günlərinin Azərbaycanda keçirilməsi kimi məsələləri müzakirə etmişlər.

Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən BƏƏ Prezidenti cənab Şeyx Zəyid bin Sultan Əl-Nəhəyana ünvanlanmış dəvət məktubu BƏƏ tərəfinə təqdim edilmişdir.

Həmin gün Əbu Dabi Mədəniyyət Fondunun əsas zalında Azərbaycan incəsənət xadimlərinin iştirakı ilə yekun qala-konserti keçirilmişdir.

Tədbirin sonunda Azərbaycanın Mədəniyyət Naziri P.Bülbüloğlu çıxış edərək, BƏƏ-nin Prezidenti, İnformasiya və Mədəniyyət Naziri və ümumiyyətlə BƏƏ hökumətinə BƏƏ-də Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsində göstərilən yardıma görə təşəkkürünü bildirmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Mədəniyyət Nazirinin BƏƏ-yə rəsmi səfəri və keçirilən Mədəniyyət Günləri BƏƏ-də böyük rezonans doğurmuş, Azərbaycanın BƏƏ-də tanıdılması istiqamətində yüksək nəticələr vermişdir. Yerli mətbuat orqanlarında yuxarıda göstərilən tədbirlərə geniş yer ayrılmış (qəzet surətləri əlavə olunur), BƏƏ ictimaiyyəti və orada yaşayan xarici vətəndaşlar tərəfindən çox böyük maraqla qarşılanmışdır

Hazırda "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hava daşınmaları haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmir-

likləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirlikləri Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Protokol" və "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında ikiqat vergiqoymanın aradan qaldırılması haqqında Konvensiya" layihələri müzakirədədir.



AZƏRBAYCAN - LİVAN ƏLAQƏLƏRİ



(Livan Azərbaycan ilə 18 sentyabr 1992-ci ildə diplomatik əlaqələr yaratmışdır)

Azərbaycan Respublikası dünyanın siyasi sistemində tutacağı mövqe baxımından tarixi, mədəni, ənənəvi və dini köklərlə bağlı olduğu ərəb ölkələri ilə, xüsusən də, böyük maliyyə imkanlarına malik olan Livanla hərtərəfli münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Ölkəmiz həmçinin öz siyasətində nəzərə alır ki, ABŞ və Fransadan sonra 3-cü ən böyük erməni diasporu burada yerləşir.

Azərbaycan Respublikasının müstəqilliyi Livan Respublikası tərəfindən 30 dekabr 1991-ci ildə tanınmışdır.

1992-ci il sentyabrın 18-də isə ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol imzalanmışdır. Ölkələrimiz arasındakı əməkdaşlıq İKT çərçivəsində həmişə mövcud olmuşdur. Livan, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İKT tərəfindən qəbul edilmiş bütün qərarları birmənalı şəkildə dəstəkləmişdir.

Ölkələrimiz arasındakı münasibətlər Azərbaycan Respublikasının Qahirədəki Səfirliyi vasitəsi ilə həyata keçirilmişdir. İKT-nin İslamabadda keçirilən Zirvə toplantısında Azərbaycan Respublikasının Xarici İşlər Nazirinin göstərişi ilə orada iştirak edən Qahirədəki səfirimiz İ. Vəkilovun Livanın Baş Naziri Rafiq əl-Həriri ilə görüşünü iki ölkə arasındakı əlaqələrin inkişafı üçün ilk addım hesab etmək olar.

Livanın Baş Naziri R. əl-Həriri onun ölkəsinin İKT-nin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qəbul etdiyi bütün qərarları birmənalı şəkildə dəstəklədiyini bildirmiş və Azərbaycanda mövcud siyasi və iqtisadi vəziyyətlə, həmçinin Azərbaycanın Qafqaz regionundakı mövqeyi ilə yaxından tanış olmaq üçün azərbaycanlı diplomatı ölkəsinə şəxsi qonaq kimi dəvət etmişdir.

31 mart 1997-ci il də Baş Nazirin dəvəti ilə Livanda səfərdə olan Qahirədəki səfirimiz İ. Vəkilov Beyrut və erməni diasporunun əsas hissəsinin yaşadığı Tripoli şəhərlərində kütləvi informasiya vasitələri və ictimaiyyətin nümayəndələri ilə çoxsaylı görüşlər keçirmişdir. Görüşlər zamanı livanlılara, Azərbaycana qarşı erməni təcavüzü haqqında olan həqiqətlər, işğal olunmuş ərazilərimizdə dinc əhaliyə münasibətdə ermənilər tərəfindən həyata keçirilmiş genosid siyasəti və Ermənistana Rusiyadan qanunsuz olaraq silah göndərilməsi və bu silahların təkcə Azərbaycan üçün deyil, həm də regionun digər xalqları üçün böyük təhlükə yaratdığı ilə bağlı son hadisələr barədə məlumat verilmişdir.

Baş Nazirlə olan görüşlərində səfirimizin Livandakı erməni diasporunun təkcə Azərbaycana qarşı deyil, Qafqaz regionundakı digər xalqlara qarşı da düşmənçilik əməllərində iştirakı Livan haqqında heç də əlverişli olmayan təsəvvür yaradır deməsi,

Livanda böyük narahatlığa səbəb olmuşdur. Yaranmış vəziyyətlə əlaqədar Baş Nazir bildirmişdir ki, Rusiyaya gözlənilən səfərindən sonra Azərbaycana yaxın vaxtlarda getməsi ilə bağlı hazırlıq işlərinə başlayacaqdır.

1997-ci ildə Azərbaycanın Xarici İşlər Naziri H. Həsənov Livanda rəsmi səfərdə olmuş, ölkələrimizi maraqlandıran məsələlər üzrə danışıqlar aparmışdır.

Livan Respublikasından onlarla gənc respublikamızın Bakı Dövlət Univesiteti, Azərbaycan Tibb Universiteti və Neft-Kimya Akademiyası kimi yüksək ixtisaslı kadrlar hazırlayan ali təhsil ocaqlarında təhsil almışlar.

9 - 11 dekabr 1997-ci il də İKT-nin Tehranda çağırılan Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Livan Prezidenti İlyas Hərəvi ilə görüş keçirmişdir. Görüşdə bütün sahələrdə əlaqələrimizin inkişaf etməsi perspektivləri müzakirə olunmuş, Qarabağdakı erməni separatçılarının Ermənistan - Azərbaycan münaqişəsi zamanı Livan vasitəsi ilə silah əldə etdikləri də Livan Prezidentinin diqqətinə çatdırılmışdır.

Prezident Heydər Əliyev bu toplantıda Livanın Baş Naziri Rəfiq əl-Həriri ilə də görüş keçirmişdir. Görüşdə Azərbaycan-Livan əlaqələrinin daha da sıxlaşdırılmasının zəruriliyi qeyd edilmiş, Azərbaycan və Livanın qarşılaşdığı problemlər haqqında müzakirələr aparılmış, Livan vasitəsi ilə erməni separatçılarının silahla təmin edilməsi yollarının qarşısının alınması məsələsi də gündəmdə olmuşdur.

Ölkəmizin başçısı Rəfiq əl-Həririni Azərbaycana dəvət etmişdir

1998-ci ildə Livanın Baş Naziri ölkəmizdə rəsmi səfərdə olmuşdur. Livandan gələn bir neçə nümayəndə heyəti də ölkəmizi ziyarət etmişdir.



AZƏRBAYCAN - ƏLCƏZAİR ƏLAQƏLƏRİ



(Əlcəzair Azərbaycan ilə 22 aprel 1994-cü ildə diplomatik əlaqələr yaratmışdır)

Azərbaycan Respublikasının müstəqilliyini Əlcəzair 26 dekabr 1991-ci ildə tanımışdır və 22 aprel 1994-cü ildə iki ölkə arasında diplomatik əlaqələr yaradılmışdır.

Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasındakı əlaqələr BMT və İKT çərçivəsində inkişaf etdirilmiş, Əlcəzair Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT və İKT tərəfindən qəbul edilmiş qərar və qətnamələri dəstəkləmişdir. Əgər Fransada bir milyona yaxın əlcəzairlinin yaşadığı və onların Fransanın siyasi və ictimai həyatında müəyyən təsirə malik olması nəzərə alınarsa, onda Əlcəzairlə əlaqələrin yüksək səviyyədə qurulduğu təqdirdə, Azərbaycan xarici siyasətinin təkcə Yaxın Şərqdə deyil, eyni zamanda Avropada da müəyyən siyasi dividendlər qazanmasına ümüd etmək olar.

Ölkələrimiz arasındakı əlaqələr Əlcəzairin və Azərbaycan Respublikasının Ankaradakı səfirlikləri tərəfindən həyata keçirilir.

Əlcəzairin Ankaradakı səfirliyi 1993-cü ilin avqust ayından eyni zamanda Azərbaycanda akkreditə olunmuşdur. Əlcəzairin Türkiyədəki və eyni zamanda Azərbaycanda akkreditə olunmuş səfiri Rabah Hədid 27 may 1999- cu ildə Azərbaycan Respublikasının Milli bayram təntənələrində iştirak etmək üçün Bakıda səfərdə olmuşdur.

1998-ci ilin 22-26 iyun tarixlərində iki ölkə arasında diplomatik məsləhətləşmələrin aparılması məqsədi ilə Əlcəzair Xarici İşlər Nazirliyinin Baş katibi Amar Bencamın Bakıya səfəri nəzərdə tutulurdu. Lakin vaxtın münasib olmamağı ilə əlaqədar bu səfər təxirə salınmışdır.

2004-cü ilin 08 aprel tarixində Əlcəzairdə keçirilmiş prezident seçkilərinin nəticələrinə görə yenidən prezident seçilmiş Əbdüləziz Buteflikaya Azərbaycan Prezidenti tərəfindən təbrik məktubu göndərilmişdir.

İKT üzv dövlətlərinin Xarici İşlər Nazirlərinin cari ilin 14-16 iyun tarixlərində İstanbulda keçirilmiş XXXI Konfransı zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri Xarici İşlər Nazirinin müavini V.Sadıqov Əlcəzair Xalq Demokratik Respublikasının Xarici İşlər Naziri Ə.Bəlxadəm ilə görüş keçirmişdir. Görüşdə Azərbaycan-Əlcəzair əlaqələrinin inkişafı, beynəlxalq təşkilatlarda əməkdaşlıq müzakirə edilmiş və Əlcəzairin Xarici İşlər Naziri Azərbaycan Respublikasının Xarici İşlər Naziri E.Məmmədyarovu bu ölkəyə rəsmi səfər etməyə dəvət etmişdir.

Hələ keçmiş SSRİ dövründə zəngin təbii ehtiyatlara, xüsusilə neft və qaz ehtiyatlarına malik olan Azərbaycan ilə Əlcəzair arasında neft və neft-kimya sənayesi sahələrində əməkdaşlıq mövcud olduğunu nəzərə alsaq, bu istiqamətdə əməkdaşlıq üçün geniş imkanlar olduğunu qeyd etmək olar.

Azərbaycan ilə Əlcəzair arasında dövlət və hökumət başçıları və xarici işlər nazirləri səviyyəsində mütəmadi olaraq məktub mübadiləsi aparılır.



AZƏRBAYCAN - QATAR ƏLAQƏLƏRİ



(Qatar Azərbaycan ilə 14 sentyabr 1994-cü ildə diplomatik əlaqələr yaratmışdır)

Azərbaycan Respublikasının və Qatar Dövlətinin 1994-cü ilin 14 sentyabrında Böyük Britaniyadakı Səfirlikləri arasında əldə olunmuş razılaşmaya əsasən bu tarix iki ölkə arasında diplomatik əlaqələrin yaradılması tarixi hesab edilir.

Ölkələrimiz arasında BMT və İKT çərçivəsində əməkdaşlıq aparılmışdır.

1999-cu il 8 fevral tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Qatar Dövlətinin Əmiri tərəfindən həmin ölkəyə rəsmi səfərə dəvət olunmuşdur.

15-19 mart 1998-ci il tarixlərində Qatar dövlətinin paytaxtı Dohada İKT xarici işlər nazirlərinin XXV Konfransı keçirilmişdir. Konfrans zamanı Azərbaycan nümayəndə heyəti tərəfindən Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Qatar Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə ət-Təniyə ünvanlanmış məktubu Qatarın Baş Naziri Şeyx Abdullah bin Xəlifə ət-Təniyə təqdim edilmişdir.

İslam Konfransı Təşkilatı Dövlət və Hökumət Başçılarının IX Zirvə görüşünün 2000-ci ildə Qatarda keçirilməsi təklifini Azərbaycan dəstəkləmiş, bu təşəbbüsün respublikamız tərəfindən dəstəkləndiyinə görə, Qatar Dövlətinin Əmiri Şeyx Həməd bin Xəlifə ət-Təni Azərbaycan Prezidenti Heydər Əliyevə minnətdarlıq məktubu göndərmişdir.

Qatarın Türkiyədəki Səfirliyi eyni zamanda Azərbaycanda akkreditə olunmuşdur.

Qatar, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar BMT və İKT çərçivəsində Azərbaycanın mövqeyini birmənalı şəkildə dəstəkləyir.

Ölkələrimiz arasında ikitərəfli əlaqələr Azərbaycan Respublikasının London, Ər-Riyad və Qahirədəki səfirlikləri, həmçinin Qatarın Ankaradakı səfirliyi tərəfindən həyata keçirilmiş və Qatarın qeyd edilən şəhərlərdəki səfirlikləri ilə bir sıra danışıqlar və diplomatik yazışmalar aparılmışdır.

Qatarın Xeyriyyə Uəmiyyəti Azərbaycanda fəaliyyət göstərərək, Ermənistan Respublikasının təcavüzü nəticəsində doğma ocaqlarından didərgin düşmüş qaçqın və köçkünlərimizə humanitar yardım etmişdir. Cəmiyyət 1995-ci ildə 141,430 ABŞ dolları, 1996-ci ildə 277,760 ABŞ dolları, 1997-ci ilin birinci yarısında isə təxminən 100 min ABŞ dolları məbləğində Azərbaycan qaçqınlarına humanitar yardım göstərmişdir.

Körfəz Əməkdaşlıq Şurası Baş katibinin təşəbbüsü ilə 1994 və 1995-ci illərdə Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirinin bir sıra körfəz ölkələri, o cümlədən Qatara səfərləri həyata keçirilmiş, səfər zamanı yüksək səviyyəli dövlət və hö-

kumət nümayəndələri ilə görüşlər keçirilmişdir.

Qatar Dövlətinin Yollar və Nəqliyyat Naziri Şeyx Əhməd bin Fəlih ət- Təninin başçılığı ilə numayəndə heyəti Qatar Dövlətinin Əmiri Əlahəzrət Şeyx Həməd bin Xəlifə əl-Təninin 2000-ci il 12-13 noyabr tarixlərində Dohada İKT-yə üzv olan ölkələrin Dövlət və Hökumət Başçılarının IX Zirvə görüşünə dəvət məktubunu Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə təqdim etmək məqsədilə 16 may 2000-ci ildə Azərbaycanda səfərdə olmuşdur.

2000-ci 12-13 noyabr tarixində Qatarda keçirilən İKT-nin IX Zirvə toplantısında Xarici İşlər Naziri Vilayət Quliyevin başçılıq etdiyi Azərbaycanın nümayəndə heyəti də iştirak etmişdir.

Azərbaycan ilə Qatar arasında Dövlət və Hökumət Başçıları, xarici işlər nazirləri səviyyəsində mütəmadi məktub mübadiləsi aparılır.

Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2002-ci il tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı Səfiri E.Araslı Qətər Dövlətində Fövqəladə və Səlahiyyətli Səfir təyin edilmişdir.

2002-ci il 28-30 oktyabr tarixlərində AR Milli Təhlükəsizlik Naziri N.Abbasov Qətərin Daxili İşlər üzrə Dövlət Naziri (eyni zamanda dövlət təhlükəsizliyi məsələləri də ona həvalə olunmuşdur) Həməd bin Nasir bin Cəsim Ət-Təninin dəvətilə ölkədə səfərdə olmuşdur.

Həməd bin Nasir bin Cəsim Ət-Təni ilə görüşdə cənab Nazir ölkəmizin iqtisadi imkanlarından, 1993-2002-ci illər ərzində baş vermiş ictimai-siyasi dəyişikliklərdən, ölkə rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə yönəlmiş səyləri barədə məlumat vermişdir.

Dövlət Naziri öz növbəsində ölkəsinin Azərbaycanla hərtərəfli əlaqələrin, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığın yaradılmasında maraqlı olduğunu vurğulamış, bu əlaqələri rəsmiləşdirmək məqsədilə ölkəmizə səfər etmək niyyətində olduğunu bildirmişdir.



AZƏRBAYCAN - KÜVEYT ƏLAQƏLƏRİ



(Küveyt Azərbaycan ilə 7 oktyabr 1994-cü ildə diplomatik əlaqələr yaratmışdır)

Ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılması haqqında 1994-cü il oktyabrın 7-də protokol imzalanmışdır. Ölkələrimiz arasında əməkdaşlıq BMT və İKT çərçivəsində mövcud olmuş, Küveyt Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT və İKT çərçivəsində qəbul edilmiş bütün qərarları birmənalı şəkildə dəstəkləmişdir.

Azərbaycan Respublikasının Rusiya, İngiltərə, Səudiyyə Ərəbistanı və Misir Ərəb Respublikasındakı səfirlikləri Küveytin həmin ölkələrdəki diplomatik nümayəndəlikləri ilə münasibətlər yaratmış, Azərbaycan-Küveyt əlaqələrinin inkişafı prosesində iştirak etmişlər.

13 dekabr 1994-cü il tarixdə Prezident Heydər Əliyev ilk dəfə olaraq İKT-nin Kasablanka Zirvə toplantısında Küveyt əmiri Şeyx Cabir Əhməd Sabah ilə görüş keçirmiş, bununla da dostluq və qardaşlıq əlaqələrimizin əsası qoyulmuşdur.

28 may 1995-ci ildə Küveyt Milli Məclisi Azərbaycan-Küveyt Parlamentləri arasında sədr başda olmaqla, 4 nəfərdən ibarət Dostluq Qrupunun yaradılması haqqında qərar qəbul etmişdir.

20-22 sentyabr 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin sədrinin dəvəti ilə Küveyt Milli Məclisinin sədr müavini Saleh Yusif əl-Fadallahın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur. Nümayəndə heyəti respublika rəhbərliyi ilə bir sıra görüşlər keçirmiş, hər iki tərəfi maraqlandıran məsələlər ətrafında müzakirələr aparılmışdır.

1996-cı ilin may ayında Azərbaycan Respublikası Milli Məclisinin sədrinin başçılıq etdiyi nümayəndə heyəti Küveytdə rəsmi səfərdə olmuş, Küveyt Dövlətinin Əmiri Şeyx Cabir əl-Əhməd əl-Jabir əs-Sabah, Küveyt Milli Məjlisinin sədri Abdullah əs-Səlim əs-Sabah və Küveyt Baş Nazirinin birinji müavini, Xariji İşlər Naziri Şeyx Sabah əl-Əhməd əl-Jabir əs-Sabah ilə görüşüb danışıqlar aparmışdır.

1996-cı ilin dekabr ayında Məhəmməd əl-Matadinin başçılığı altında Küveyt Dövlətinin Əmək və Sosial İşlər Nazirliyinin nümayəndə heyəti Azərbayjanda rəsmi səfərdə olmuşdur.

6 may 1997-ci ildə Küveyt Milli Məclisinin sədri Şaridah əl-Müşərci Azərbaycan Respublikasının Milli Məjlisinin sədrinə məktub göndərərək, Əhməd Məhəmməd Nassarın sədrliyi ilə 6 nəfərdən ibarət yeni Azərbaycan-Küveyt Parlamentlərarası Dostluq Qrupunun yaradılması haqqında qərarın qəbul edilməsi barədə məlumat vermişdir.

Azərbaycan Respublikasında məskunlaşmış qaçqın və məjburi köçkünlərə humanitar yardımların göstərilməsi sahəsində Küveytin Asiya Müsəlmanları Komitəsi mühüm yer tutur.

1989-cu ildə Küveytdə Beynəlxalq İs-

lam Xeyriyyə Cəmiyyətinin nəzdində təşkil edilmiş Küveytin Asiya Müsəlmanları Komitəsi 1995-ji ilin axırlarında Azərbaycanda rəsmi qeydiyyatdan keçmişdir. Təşkilat qaçqınlara, yetim uşaqlara, kasıb ailələrə əsaslı maddi köməklik göstərir, Bakıdakı psixonevroloji uşaq evini öz himayəsinə götürmüş, Ağdaş rayonu internat məktəbinin fəaliyyətini maliyyələşdirmiş, bir sıra rayonlarda artezian su quyuları qazdırmışdır.

Bundan əlavə, Təşkilat respublikamızda maarif, elm və mədəniyyət sahələrində də müəyyən xeyriyyəçilik tədbirləri həyata keçirmişdir. Komitənin xətti ilə azərbaycanlı şagird və tələbələr təhsillərini davam etdirmək üçün Təşkilatın hesabına Küveytə və digər ərəb ölkələrinə göndərilmişlər. Təşkilatın təşəbbüsü ilə Küveytin təhsil üzrə Əl-Babteyn" fondu Misirin Əl-Əzhər Universitetində təhsil alan bir neçə azərbaycanlı tələbənin təhsil xərclərini maliyyələşdirir.

Azərbaycan Respublikası Prezidentinin himayəsi ilə, 1996-cı il oktyabr ayının 16-17-də, Bakı şəhərində, Küveytin Asiya Müsəlmanları Komitəsi və Səudiyyə Ərəbistanının Beynəlxalq İslam Nicat Təşkilatının təşəbbüsünə əsasən, bir sıra müsəlman ölkəsinin xeyriyyə cəmiyyətlərinin və nüfuzlu şəxsiyyətlərinin iştirakı ilə "Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemlərinə dair" beynəlxalq konfrans keçirilmişdir. Konfransda bütün ərəb və islam dövlətlərinə Azərbaycan qaçqınlarına humanitar yardım edilməsi ilə əlaqədar müraciət qəbul edilmişdir.

1996-cı il 28-31 dekabr tarixlərində Azərbaycan Respublikasının Qahirədəki səfiri Azərbaycan qaçqınlarına humanitar yardımın göstərilməsi ilə əlaqədar Küveytin Asiya Müsəlmanları Komitəsi və digər nüfuzlu xeyriyyə və xilasetmə təşkilatlarının birgə başladığı kompaniyada iştirak etmək üçün Küveytə səfər etmişdir.

1998-ci ilin 27 yanvar tarixində Küveyt Dövlətinin Ankaradakı səfiri eyni zamanda Azərbaycanda akkreditə olunmuşdur.

2000-ci ilin 7 iyun tarixində Küveyt Dövlətinin İslam Dini İşləri üzrə nazirinin müavini Adil Abdullah Fələh Həməd əl-Fələh və əl-Babteyn Fondunun təsisçisi və sədri Əbdül Əziz Saud əl-Babteyn Azərbaycanda olmuş, səfər zamanı Bakı Şəriət Kollecinin bünövrə daşının qoyulması mərasimində iştirak etmişlər.

2001-ci ilin 24-28 sentyabr tarixlərində Küveyt-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu Azərbaycanda səfərdə olmuş, Respublika rəhbərliyi ilə bir sıra görüş keçirmiş, hər iki tərəfi maraqlandıran məsələlər ətrafında müzakirələr aparmışdır.

2002-ci ilin 01 oktyabr tarixində AR Prezidenti cənab Heydər Əliyev Azərbaycan Respublikasının Küveyt Dövlətində (Küveyt şəhərində) Səfirliyinin təsis edilməsi haqqında (No.367-IIQ, 01.10.2002-ci il) Qanun imzalamışdır.

2003-cü ilin 3 iyun tarixində İraqda koalisiya qüvvələrinin tərkibində iştirak etmək məqsədilə Küveyt ilə Azərbaycan arasında "Azərbaycan silahlı Qüvvələrinin Küveytdə Statusuna" dair Saziş imzalanmış, 14 avqust tarixində isə AR-ın 150 nəfərdən ibarət sülhməramlı qüvvələri Küveyt Dövlətinə yola düşmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 01 sentyabr 2004-cü il tarixli, 371 saylı Sərəncamı ilə Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir.

Azərbaycan ilə Küveyt arasında Dövlət və hökumət başçıları, Xarici işlər nazirləri səviyyəsində mütəmadi məktublar mübadiləsi aparılır.

Hazırda "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında hava daşınmaları haqqında Saziş", "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Küveyt Dövləti Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında Protokol" və "Azərbaycan Respublikası Hökuməti ilə Küveyt Dövləti Hökuməti arasında ikiqat vergiqoymanın aradan qaldırılması, gəlir və əmlaka görə vergiləri ödəməkdən yayınmanın qarşısının alınması haqqında Konvensiya" layihələri müzakirədədir.

Azərbayjan ilə Küveyt arasında Dövlət və Hökumət Başçıları, xariji işlər nazirləri səviyyəsində mütəmadi məktub mübadiləsi aparılır.

ƏLAVƏLƏR

İSLAM KONFRANSI TƏŞKİLATI HAQQINDA ÜMUMİ MƏLUMAT

İslam Konfransı Təşkilatı (İKT) 1969-cu ildə Rabatda (Mərakeş) müsəlman ölkələrinin dövlət və hökumət başçılarının konfransında təsis edilmişdir.

İlk öncə 1969-cu ilin avqust ayında, Qüdsdəki Əl-Əqsa məscidinin yandırılmasından bir neçə gün sonra 14 müsəlman ölkəsinin xarici işlər naziri Qahirədə görüşərək,Yaxın Şərqdəki vəziyyətin müzakirəsi ilə əlaqədar İslam dövlətlərinin yüksək səviyyədə Zirvə konfransının keçirilməsi haqqında Səudiyyə Ərəbistanının irəli sürdüyü təklifi qəbul etmişlər.

Müsəlman dövlətlərinin 1969-cu ilin sentiyabr ayında Mərakeş Krallığının paytaxtı Rabatda yüksək səviyyədə keçirilən bu görüşü islam həmrəyliyi çərçivəsində beynəlxalq təşkilat yaratmaq ideyasının həyata keçirilməsinin başlanğıcı olmuşdur.

1969-cu il sentyabrın 24-də qəbul edilmiş bəyanat görüşdə iştirak edən dövlətlər arasında iqtisadiyyat, elm, mədəniyyət və başqa sahələrdə əməkdaşlıq və qarşılıqlı yardım üzrə məşvərətlər keçirilməsi, öz aralarında yaranacaq problemlərin BMT-nin məqsəd və prinsipləri əsasında həll edilməsi barəsində öhdəlikləri əks etdirmişdir.

Bu tarixi hadisədən altı ay sonra, 1970-ci ilin mart ayında Səudiyyə Ərəbistanının ciddə şəhərində keçirilmiş İKT xarici işlər nazirlərinin I konfransında İKT Baş katibliyi təsis edildi.

İKT-nın Nizamnaməsi isə Rabat görüşündən üç il sonra - 1972-ci ilin mart ayında Səudiyyə Ərəbistanının ciddə şəhərində keçirilmiş xarici işlər nazirlərinin konfransında qəbul olundu. Nizamnaməyə əsasən, Rabatda Dövlət və Hökumət başçılarının Zirvə toplantısında, xarici işlər nazirlərinin Kəraçi (1970-ci il) və ciddə (1972-ci il) konfranslarında iştirak etmiş və həmin sənədi imzalamış hər bir dövlət bu təşkilatın üzvü hesab olunur.

Hazırda 58 dövlət İKT-yə üzvdür. Bəzi dövlətlərin müsəlman icmaları, habelə bir sıra beynəlxalq və reğional təşkilat İKT yanında müşahidəçi statusuna malikdir. Hər bir islam dövləti İKT Baş katibliyinə xarici işlər nazirlərinin növbəti konfransında baxılması məqsədi ilə İKT Nizamnaməsinə əməl etmək arzusunu əks etdirən ərizə ilə müraciət etməklə Təşkilata qoşulmaq hüququna malikdir. Qoşulma Təşkilat üzvlərinin 2/3 hissəsinin razılığına əsasən həyata keçirilir.

İKT Birləşmiş Millətlər Təşkilatı ilə sıx əməkdaşlıq edir. Baş Məclisin

36-cı sessiyasında "BMT ilə İKT arasında əməkdaşlıq haqqında" qətnamə qəbul edilmiş və o, 1975-ci ildən etibarən BMT yanında müşahidəçi statusu almışdır.

İKT-nin məqsəd və vəzifələri aşağıdakılardır:

-Üzv dövlətlər arasında islam həmrəyliyinin möhkəmləndirilməsi;

-Onlar arasında elm, mədəniyyət, sosial, iqtisadi və başqa sahələrdəki əməkdaşlığın dəstəklənməsi və digər beynəlxalq təşkilatlarda məşvərətlərin həyata keçirilməsi;

-İrqi ayrı-seçkiliyin və hər hansı formada müstəmləkəçiliyin ləğvinin dəstsklənməsi;

-Ədalət əsasında beynəlxalq sülhün və təhlükəsizliyinin təmin edilməsi;

-İşğal edilmiş müqəddəs yerlərin azad edilməsi və toxunulmazlığının təmin edilməsi, Fələstin xalqının hüquqlarının bərpa edilməsi və ərazisinin azad edilməsi yolundakı mübarizəsinin dəstsklənməsi;

-Üzv dövlətlərin digər ölkələrlə əməkdaşlığına və qarşılıqlı anlaşmasına şərait yaradılması.

Üzv dövlətlər İKT-nin Nizamnaməsinin məqsədlərinin həyata keçirilməsi üçün aşağıdakı prinsipləri rəhbər tutur:

-Üzv dövlətlər arasında tam bərabərlik;

-Müqəddaratını təyin etmə hüququna ehtiram və üzv dövlətlərin daxili işlərinə qarışmamaq;

-Hər bir dövlətin suverenliyinə və ərazi bütövlüyünə ehtiram;

-Üzv dövlətlər arasındakı mübahisələrin dinc vasitələr - danışıqlar, vasitəçilik, barışıq və arbitraj yolu ilə həlli, üzv dövlətlər arasında münasibətlərdə dövlətlərin ərazi bütövlüyünə, toxunulmazlığına və yaxud siyasi müstəqilliyinə qarşı zor işlətmək və ya zor işlətmə təhdidindən qaçınmaq.

İKT-nin Ali orqanı 1972-ci ildə qəbul edilmiş Nizamnaməyə əsasən Krallar, Dövlət və Hökumət başçılarının Zirvə konfransıdır. Konfrans müntəzəm surətdə zirvə səviyyisində 3 ildən bir, "İslam Ümmətinin marağı tələb edən hallarda islam aləminin birinci dərəcəli problemlərini həlli və Təşkilatın siyasətinin uzlaşdırılması məqsədi ilə toplanır". 1969-cu ildə Rabatda, 1974-cü ildə Lahorda (Pakistan), 1981-ci ildə Məkkə və Tayifdə (Səudiyyə Ərəbistanı), 1984-cü ildə Kasablankada, 1987-ci ildə Küveytdə, 1991-ci ildə Dakarda (Seneqal), 1994-cü ildə Kasablankada və 1997-ci ildə Tehranda, son IX Zirvə toplantısı 2000-ci ildə Qətər Dövlətinin paytaxtı Dohada keçirilmişdir. Sonuncu X Zirvə toplantısı 2003-cü ildə Malayziyada keçirilmişdir.

İKT-nin siyasi orqanı Xarici işlər nazirləri konfransıdır. Nizamnaməyə əsasan ildə bir dəfə, eləcə də ehtiyac olan hallarda xarici işlər nazirləri və ya akkreditə olunmuş səfirlər səviyyəsində hər hansı bir üzv dövlətdə keçirilir. Hər hansı bir üzv dövlətin və Baş katibin tələbi ilə və üzv dövlətlərin 2/3 hissəsinin razılığına əsasən, xarici işlər nazirlərinin növbədənkənar konfransı keçirilir. Xarici işlər nazirləri konfransı Zirvə konfransının çağırılması təklifini verə bilər. Bu təklifin bütün üzv döv-

lətlərin nəzərinə çatdırmaqla konfransın keçirilməsi haqqında razılıq əldə edilir.

İKT-nin Xarici işlər nazirləri konfransı aşağıdakı məsələlərlə əlaqədar çağırılır: Təşkilatın ümumi siyasətinin həyata keçirilməsi mexanizminin müzakirəsi; qəbul edilmiş qərarların icrasına nəzarət; İKT-nin Nizamnaməsinin məqsəd və vəzifələrinə uyğun və qarşılıqlı maraq kəsb edən məsələlər üzrə qərarların qəbul edilməsi; Maliyyə komissiyasının hesabatının müzakirəsi və Baş katibliyin büdcəsinin təsdiqi; növbəti konfransın keçirilmə vaxtının və yerinin müəyyənləşdirilməsi; lazımı hallarda hər hansı bir dövlətin və ya dövlətlər qrupunun mənafeyinə uyğun problemlərin araşdırılması.

Xarici işlər nazirləri konfransı İKT Baş katibini təyin edir və Baş katibin təqdimatına əsasən, onun üç müavinini və Qüdsi-Şərif üzrə dördüncü müavini təyin edir.

Üzv dövlətlərin 2/3 hissəsinin iştirakı konfrans üçün yetərsay hesab edilir. Xarici işlər nazirləri konfransının qətnamə və təklifləri iştirakçıların 2/3 hissəsinin razılığına əsasən qəbul edilir.

Xarici işlər nazirləri konfransı özünün əməli işi üçün və eləcə də zirvə konfransının istifadə edə biləcəyi prosedura qaydaları qəbul edir. Bu qaydalar Zirvə və ya xarici işlər nazirləri konfranslarının təsis etdiyi yardımçı təşkilatlarda da istifadə edilir. Keçirilən hər bir konfrans üçün sədr seçilir.

Xarici işlər nazirləri Konfransı indiyədək 27 dəfə (sonuncusu 27-30 iyun 2000-ci il tarixində Malayziyanın paytaxtı Kuala-Lumpurda) keçirilmişdir.

Əlavə olaraq, İKT-yə üzv ölkələrin xarici işlər nazirləri hər il BMT Baş Məclisinin toplantısı zamanı məşvərətlər aparmaq və fəaliyyətlərini əlaqələndirmək məqsədi ilə koordinasiya görüşü keçirir.

İKT-nin rəsmi dili - ərəb, ingilis və fransız dilləridir.

İKT-nin icraedici orqanı - İKT Baş Katibliyidir. İKT Baş katibliyi üzv dövlətlər arasında əlaqəni həyata keçirir. Bu dövlətlər arasında ümumi maraq kəsb edən məşvərətlər, fikir mübadiləsi və məlumatların yayılması üçün şərait yaradır. Konfransın qəbul etdiyi qətnamə və qərarlarların yerinə yetirilməsinə nəzarət edir və bu haqda Konfransa məruzə təqdim edir. Baş katiblik Konfransın qərar və qətnamələri çərçivəsində üzv dövlətləri işçi sənədlərlə təmin edir. Baş katiblik qəbul edən dövlətlə təşkilat və idarə sahələrində əməkdaşlıqda İKT konfranslarını hazırlayır.

İKT-nin Nizamnaməsində yazıldığı kimi, "Qüds işğaldan azad edilənədək Baş katiblik müvəqqəti ciddə şəhərində yerləşəcək".

Üzv dövlətlər Baş katibliyin funksiyasının həyata keçirilməsi üçün lazım olan bütün xərcləri öz milli gəlirinə müvafiq olaraq ödəyir.

İKT Baş katibliyi xarici işlər nazirləri konfransının təyin etdiyi Baş katib tərəfindən 4 il müddətinə idarə edilir. Bu müddət yalnız bir dəfə uzadıla bilər. İKT Baş katibi vəzifəsini 1971/74-cü illərdə Tunku Əbdürrəhman (Malaziya), 1974/76-cı illərdə Həsən Əl-Tuhami (Misir), 1976/79-cu illərdə Əhməd Kərim Hey (Seneqal), 1980/85-ci illərdə Həbib Şətti (Tunis), 1986/88-ci illərdə Səid Şərəfəddin Pirzadə (Pakistan), 1989/96-cı illərdə Hamid Əlqabid (Nigeriya) icra etmişdir. 1 yanvar 1997-ci ildən etibarən İKT-nin Baş katibi doktor İzzəddin İraqidir (Mərakeş). 27-30 iyun 2000-ci il tarixlərində Kuala-Lumpurda keçirilən İKT-yə üzv olan Xarici işlər nazirlərini 27-ci Konfransında Abdulvahid Bilqazizi Baş katib vəzifəsinə seçilmişdir. 14-16 iyul 2004-cü il tarixində XXXI Konfransda türk-əsilli İkmaləddin İhsanoğlu İKT-nin Baş katibi vəzifəsinə seçilmişdir. O, öz vəzifəsinin icrasına 2005-ci ilin yanvar ayının 1-dən başlayacaqdır.

Baş katib qabiliyyətini, təmannasızlığını və eləcə də ədalətli coğrafi təmsil olunma prinsipini nəzərə alaraq, katibliyin əməkdaşlarını İKT-yə üzv ölkə vətəndaşlarından təyin edir. Nə Baş katibin, nə onun müavinlərinin, nə də Baş katibliyin əməkdaşlarının öz vəzifələrinin icrası üçün Konfrans xaricində heç bir hakimiyyətdən heç bir təlimat tələb etməyə və təlimat almağa ixtiyarı yoxdur. Onlar yalnız Konfrans qarşısında məsuliyyət daşıyaraq, bir beynəlxalq məmur kimi, mənsəblərinə xələl gətirəcək hər cür davranışdan imtina etməlidir.

İKT xarici işlər nazirlərinin 1980-cı ilin may ayında keçirilmiş XI konfransında 11 üzv dövlətin nazirlərindən və İKT Baş katibindən ibarət daimi fəaliyyət göstərən Nazirlər komitəsi yaradılmışdır. Komitə çərçivəsində üzv dövlətlərin təhlükəsizliyi üzrə Türkiyə, Səudiyyə Ərəbistanı, Zambiya, Küveyt və Pakistandan ibarət "Beşlər qrupu" fəaliyyət göstərir. İKT-yə üzv dövlətlər arasında hər bir fövqaladə və ya böhran vəziyyətənin araşdırılması, eləcə də müsəlman dövlətləri arasındakı mübahisə və münaqişələrin həlli komitənin vəzifəsinə daxildir. Komitə xarici işlər nazirlərinin hər il keçirilən konfranslarının tapşırıqlarını yerinə yetirir. Bu komitənin işi müəyyən dərəcədə BMT-nin Təhlükəsizlik Şurasının fəaliyyətini xatırladır. Lakin daimi fəaliyyətdə olan belə bir orqanın yaradılması faktı özü-özlüyündə islam ölkələrinin beynəlxalq münasibətlər sahəsində əməkdaşlığı üçün təşkilat strukturunun yaradılması yolunda bir addım kimi qiymətləndirilə bilər.

İKT-nin nəzdində aşağıdakı xüsusi komissiya və qurumlar fəaliyyət göstərir:

1. Qüds komissiyası.

İKT xarici işlər nazirlərinin 1970-ci ilin iyun ayında ciddədə keçirilmiş VI konfransının qətnaməsinə əsasən təsis edilmişdir. Qüds komissiyası Qüdsi-şərifdə vəziyyətin inkişafını öyrənir; bu məsələ ilə əlaqədar qəbul edilmiş İKT qətnamələrinin yerinə yetirilməsinə nəzarət edir; problemlə bağlı beynəlxalq qurumların qəbul etdiyi qətnamələrə əməl olunmasını izləyir; Qüdsü himayə etmiş beynəlxalq qurumlarla əlaqə saxlayır; qətnamələrin yerinə yetirilməsinin təmin edilməsi və problem üzrə gözlənilməz halların qarşısının alın-

Heydər Əliyev və Şərq

masi məqsədi ilə lazımi addımlar atılması üçün üzv dövlətlərə və aidiyyatlı təşkilatlara təkliflər verir. Komissiya İKT xarici işlər nazirləri konfransına illik hesabat təqdim edir.

Komissiyanın sədri 1999-cu ilin iyul ayınadək Mərakeş Kralı II Həsən idi. Komissiyanın İKT xarici işlər nazirləri konfransı tərəfindən seçilmiş 15 üzvü var. Hazırda komissiya aşağıdakı İKT-yə üzv dövlətlərdən ibarətdir: Mərakeş, İraq, İordaniya, Livan, Mavritaniya, Qvineya Respublikası, Fələstin, Suriya, Banqladeş, İran, İndoneziya, Niger, Pakistan, Seneqal, Səudiyyə Ərəbistanı və Misir.

Komissiya Sədrin və ya İKT Baş katibinin dəvətinə əsasən iclas keçirir.

2. İnformasiya və mədəni işlər üzrə daimi komissiya Məkkə və Tayifdə 1981-ci ilin yanvar ayında keçirilmiş İKT dövlət və hökumət başçılarının III zirvə konfransının qərarına əsasən təsis edilmişdir. İslam ölkələrinin infolrmasiya və mədəniyyət nazirləri konfranslarının qətnamələrinin yerinə yetirilməsinə nəzarət etmək komissiyanın əsas vəzifəsidir. Komissiya eləcə də islam dövlətləri arasında əməkdaşlığın dəstəklənməsi vasitələrini araşdırır, bu sahədə islam ölkələrinin imkanlarının artırılması üçün təkliflər və proqlamlar hazırlayır.Komissiyanın sədri Seneqal prezidentidir. Komisiyaya üzvlük bütün dövlətlər üçün açıqdır.

3. İqtisadi və ticarət əməkdaşlığı üzrə daimi komissiya 1981-ci ilin yanvar ayında Məkkə və Tayifdə keçirilmiş İKT dövlət və hökumət başçılarının III zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Komissiya konfransların iqtisadiyyat və ticarət sahəsində qəbul etdiyi qətnamələrin həyata keçirilməsinə nəzarət edir. İKT-yə üzv dövlətlər arasında əməkdaşlığın dəstəklənməsini təmin edən vasitələr axtarır, bu sahədə təklif və proqlamlar təqdim edir.

Komissiya hər il İstambulda nazirlər (iqtisadiyyat, maliyyə və ya ticarət nazirləri) səviyyəsində sessiya keçirir.

Komissiyaya ən ənəvi olaraq Türkiyə Respublikasının prezidenti sədrlik edir. Komissiyaya üzvlük bütün islam ölkələri üçün açıqdır.

4. Elmi və texniki əməkdaşlıq üzrə daimi komissiyası 1981-ci ilin yanvar ayında Məkkə və Taifdə keçirilmiş İKT dövlət və hökumət başçılarının III zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Komissiyanın əsas vəzifəsi İKT konfranslarının elm və texnika üzrə qəbul etdiyi qətnamələrin həyata keçirilməsinə nəzarətdir. Komissiya eyni zamanda bu sahədə İKT dövlətləri arasında əməkdaşlığı təşviq etmək məqsədi ilə təklif və proqlamlar təqdim edir.

Komissiya Pakistan prezidentinin sədrliyi ilə fəaliyyət göstərir. Komissiyaya üzvlük bütün İKT-yə üzv dövlətlər üçün açıqdır.

5. İslam sülh komissiyası 1981-ci ilin yanvar ayında Məkkə və Tayifdə keçirilmiş İKT dövlət və hökumət başçılarının III zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Komissiyanın yaradılmasında məqsəd münaqişənin dinc vasitələrlə və ədalət əsasında aradan qaldırılması üçün İran və İraq rəhbərliyi arasında dialoq qurulması olmuşdu.

Komissiyanın sədri öncə Qana Respublikasının mərhum prezidenti Əhməd Seku Turi və 1984-cü ildən etibarən Qambiya prezidenti Davud Kirba olmuşdur. Komissiya üzvləri Qana Respublikası, Qambiya, Banqladeş, Pakistan, Fələstin, Türkiyə, Seneqal, Malaziya və İKT Baş katibindən ibarət olmuşdur.

Komissiya təsis olunduğu müddət ərzində 8 dəfə iclas keçirmişdir.

6. İqtisadiyyat, mədəniyyət və sosial məsələlər üzrə islam komissiyası 1976-cı ilin may ayında İstambulda keçirilmiş İKT xarici işlər nazirlərinin VII konfransının qərarına əsasən təsis edilmişdir. Komissiya İKT-nin xüsusi bir qurumu kimi fəaliyyət göstərir, iqtisadiyyat, mədəniyyət və sosial məsələlər üzrə İKT Baş katibliyi və onun müxtəlif qurumları üçün proqramlar hazırlayır. Eləcə də İKT xarici işlər nazirləri konfransına təklif və tövsiyyələr təqdim edir. Komissiya bu vəzifələrlə yanaşı, İKT konfranslarının mədəniyyət, iqtisadiyyat və sosial məsələlər üzrə qəbul etdiyi qətnamələrin icrasına nəzarət edir.

Komissiya İKT-yə üzv bütün dövlətlərin nümayəndələrini əhatə edir. Komissiya İKT Baş katibinin dəvətinə əsasən iclaslarını keçirir.

7. Maliyyə məsələləri üzrə daimi komissiya İKT nizamnaməsinin VII maddəsinin 3-cü bəndinə əsasən təsis edilmişdir. Bütün İKT-yə üzv dövlətlərin nümayəndələrini əhatə edir.

İKT xarici işlər nazirləri konfranslarının təsdiq etdiyi qaydalar əsasında büdcənin hazırlanmasında İKT Baş katibinə yardım edir və büdcənin xərclənməsinə yardım edir. Komissiya İKT Baş katibliyində yerləşir.

Komissiya İKT Baş katibinin dəvətinə əsasən ildə bir dəfə iclas keçirir.

8. Maliyə təftiş heyəti İKT-nin Maliyyə haqqında Qanunun VIII maddəsinin (a) bəndinə əsasən yaradılmışdır. Heyətin 8 nəfərlik üzvü İKT xarici işlər nazirləri konfransında gizli səsvermə vasitəsi ilə 2 il müddətinə təyin edilir.

Heyət İKT Baş katibinin tələbinə əsasən yekun hesabatı hazırlayır və azı ildə bir dəfə iclas keçirir.

9. Əfqanıstan üzrə komissiya 1980-ci ilin may ayında İslamabadda keçirilmiş İKT xarici işlər nazirlərinin XI konfransının qərarına əsasən təsis edilmişdir. Komissiyanın yaradılmasında məqsəd hüquqlarının geri qaytarılması uğrunda mübarizə aparan əfqan xalqının əzablarının yüngülləşdirilməsi üçün dəstək və yardımın koordinasiya edilməsi, eləcə də BMT Baş katibi və ya onun xüsusi nümayəndəsi ilə əməkdaşlıqda Əfqanıstan probleminin sülh yolu ilə ədalətlə, daimi və hərtərəfli həll edilmə-

si yollarının axtarılması olmuşdur.

Qvineya Respublikası, İran, Pakistan, Tunis və İKT Baş katibliyindən ibarət komissiyanın sədri İKT-nin Baş katibidir. Komissiya tez-tez və o cümlədən BMT Baş məclisinin sessiyası çərçivəsində iclaslar keçirir.

10. cənubi Afrika və Namibiya komissiyası 1987-ci ilin yanvar ayında Küveytdə keçirilmiş İKT dövlət və hökumət başçılarının V zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Komissiyanın yaradılmasında məqsəd İKT-yə üzv dövlətlərin zülmə məruz qalmış cənubi Afrika və Namibiya xalqına və eləcə də bu ölkələrdə etiraf edilmiş milli azadlıq hərəkatlarına təqdim etdiyi hər cür yardım və dəstəyin koordinasiya edilməsi olmuşdur.

Pakistan, Kamerun, Mali, Yəmən, İndoneziya, Əlcəzair və İKT Baş katibindən ibarət komissiyaya İKT Baş katibi sədrlik etmişdir.

Namibiya və cənubi Afrika müstəqillik əldə etdiyinə görə, 3 oktyabr 1994-cü il tarixində BMT Baş Məclisi çərçivəsində koordinasiya konfransına toplanmış İKT xarici işlər nazirləri göstərilən komissiyanın buraxılması haqqında qərar qəbul etdilər.

11. Afrikanın Sahil ölkələri xalqları ilə həmrəylik komissiyası 1981-ci ilin yanvar ayında Məkkə və Tayifdə İKT dövlət və hökumət başçılarının III zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Komissiya istər təcili ərzaq yardımı, istərsə də inkişaf layihələrinin dəstəklənməsi üzrə Sahil ölkələrinə yardım proqramı çərçivəsində qərara alınmış tədbirlərin həyata keçirilməsinə nəzarət edir. Həmçinin, quraqlıq və qumsallaşma ilə mübarizə üçün müvafiq tədbirlər hazırlayır. Bu sahədə təklif və təşəbbüslər İKT xarici işlər nazirləri konfranslarına təqdim edilir.

Komissiyaya İraqın vitse-prezidenti sədrlik edirdi. Dakarda keçirilmiş İKT dövlət və hökumət başçılarının VI konfransından (dekabr 1991-ci il) etibarən komissiyaya Küveytin Xarici işlər naziri sədrlik etməyə başladı. Komissiyanın üzvləri Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İraq, Mərakeş, Fələstin, Malayziya, Küveyt və İKT Baş katibliyindən ibarətdir.

Komissiya İKT xarici işlər nazirləri konfransı çərçivəsində ildə bir dəfə iclas keçirir.

12. Filippin müsəlmanları uzrə altılıq nazirlər komissiyası 1973-cü ilin mart ayında Liviyanın Benqazi şəhərində keçirilmiş İKT xarici işlər nazirlərinin IV konfransının qərarına əsasən təsis edilmişdir.

Komissiyanın vəzifəsi Filippinin cənubundakı müsəlmanların vəziyyəti ilə əlaqədar Filippinin hökuməti ilə danışıqlar aparmaqdır.

Komissiya İKT Baş katibinin sədrliyi ilə fəaliyyət göstərir. Komissiyanın üzvləri Səudiyyə Ərəbistanı, Seneqal, Liviya, Somali, Banqladeş, İndoneziyadan ibarətdir. Komissiya çoxsaylı iclaslar keçirmişdir.

13. Fələstin üzrə altılıq komissi-

ya 1981-ci ilin iyun ayında Bağdadda keçirilmiş İKT xarici işlər nazirlərinin XII konfransının qərarına əsasən təsis edilmişdir. Komissiya İKT-nin qərara aldığı sanksiyalara və eləcə də BMT Nizamnaməsinin sionist qurumuna qarşı nəzərdə tutulmuş VII maddəsinə əməl edilməməsinə, onun BMT qətnamələrinə əməl etməkdən imtina etməsi, BMT Nizamnaməsini və Ümumdünya İnsan Hüququ Bəyamnaməsini pozmasına nəzarət məqsədi ilə yaradılmışdır.

Komissiya İKT Baş katiblinin sədrliyi ilə fəaliyyət göstərir. Komissiyanın üzvləri Pakistan, Seneqal, Qvineya Respublikası, Malaziya Fələstindən ibarətdir.

Komissiya çoxsaylı, o cümlədən BMT Baş Məclisi çərçivəsində görüşlər keçirir.

14. Bosniya və Hersoqovina üzrə kontakt qrupu İKT-yə üzv dövlətlərin Bosniya və Hersoqovina üzrə mövqeyi haqqında BMT-də 1993-cü ilin may ayında qəbul etdikləri bəyannaməyə əsasən yaradılmışdır. Məqsəd İKT-yə üzv dövlətlərin Bosniya və Hersoqovina üzrə fəaliyyətinin uzlaşdırılması olmuşdur. Komissiyanın üzvləri İran, Pakistan, Türkiyə, Tunis, Səudiyyə Ərəbistanı, Seneqal, Misir, Malaziya və İKT Baş katibindən ibarətdir. Sədrlik funksiyasını komissiya uzvləri növbə ilə daşıyır.

Komissiya üzvlərindən birinin tələbinə əsasən iclas keçirir.

15. cammu və Kəşmir üzrə kontakt qrupu 1994-cü ilin sentyabr ayında İslamabadda keçirilmiş İKT xarici işlər nazirlərinin VII növbədənkənar konfransının qərarına əsasən təsis edilmişdir. Məqsəd BMT-nin qərarlarına əsasən cammu və Kəşmir xalqının müqəddaratını təyin etmə hüququnun dəstəklənməsində İKT üzvlərinin səylərinin uzlaşdırılması və eləcə də bu xalqın əsas insan hüquqlarının qorunması olmuşdur.

Komissiya Pakistan, Türkiyə, Səudiyyə Ərəbistanı, Nigeriya və İKT Baş katibindən idarətdir. Vaxtaşarı olaraq, Nyu-Yorkda BMT-nin iqamətgahında iclas keçirir.

İKT-yə üzv dövlətləri cari siyasi problemlərə yanaşmaq və onların həlli baxımından şərti olaraq, əsas aşağıdakı qruplara bölmək mümkündür:

1. Mülayim cinah - mühüm beynəlxalq problemlərə müvazinətli yanaşan və əsasən Qərb təmayüllü dövlətlər tərəfindən təşkil edilmişdir. İran körfəzi ərəb ölkələri, Türkiyə, Pakistan, Misr, İndoneziya və islam aləmindəki radikal təməlçilik meyillərini neytrallaşdırmaq məqsədi ilə İKT-dən istifadə edən bir sıra dövlət bu qrupa daxildir.

2. Radikal cinah - radikal ideologiya daşıyıcısı olan azsaylı lakin fəal dövlətlər qrupundan ibarətdir. Bu qrupun lideri bir sıra müsəlman ölkəsində tərafdarı olan İran İslam Respublikasıdır. Məhəmməd Xatəmi prezident seçildikdən və İran İslam Respublikası İKT dövlət və hökumət başçılarının VIII zirvə konfransının sədri olduqdan sonra, bu qrupun mövqeyində müvazinətli siyasət meyilləri diqqəti cəlb edir. Belə ki, son zamanlar İKT-də "Sivilizasiyalar

arasında dialoq" və İKT dövlətlərinin məclis və parlamentlər arası görüşü təşəbbüsü İran Prezidenti tərəfindən irəli sürülmüşdür. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, İran İKT-də Azərbaycanın əleyhinə səs vermir. Eyni zamanda Respublikamızı aktiv surətdə dəstəkləmir. Misal kimi, İKT-nin son zirvə konfransının sədri kimi Ermənistan-Azərbaycan münaqişəsi üzrə İKT-yə üzv dövlətlərin mövqeyinin ATƏT-in icraçı sədrinə çatdırılması haqqında Azərbaycan tərəfin müraciətinə İran XİN-inin müxtəlif bəhanələr gətirərək, cavab verməkdən boyun qaçırmasını göstərmək olar.

3. Ucqar ölkələr qrupu - əsasən Afrika ölkələrindən ibarətdir. Bu qrupun siyasi mövqeyi məruz qaldıqları siyasi-iqtisadi problemlərlə səciyyələnir və bilavasitə donor ölkələrin siyasətindən asılıdır.

4. Yeni müstəqil dövlətlər qrupu - keçmiş Sovetlər qrupuna daxil olan 6 müsəlman ölkəsini əhatə edir. Onların İKT çərçivəsindəki siyasəti müstəqillik kursunun qorunması və möhkəmləndirilməsi və MDB üzrə təəhhüd öhdəliklərinə əməl etməyə çalışmaq kimi təzadla xarakterizə olunur. Azərbaycanı və Tacikistanı çıxmaqla, bütün ölkələr İKT vasitəsi ilə yalnız özünün sosial-iqtisadi və humanitar problemlərini həll etmək əzmindədir.

İKT-yə daxil olan ölkələrin mənafeyi fərqli olan hallarda Təşkilat islam aləminin aktual problemlərinə heç də bir mənalı yanaşmır. Buna misal kimi Çeçen Respublikasındakı böhran vəziyyətini göstərmək olar. Rusiyanın Çeçenistandakı hərəkətlərinin müzakirəsi məqsədi ilə Liviya lideri M.Qəzzafinin xarici işlər nazirlərinin növbədənkənar konfransının çağırılması təklifi İKT üzvlərinin əksəriyyəti tərəfindən dəstəklənməmişdir.

İKT-də onun təsis edilməsinin əsas təşəbbüskarı olan Səudiyyə Ərəbistanı Krallığı böyuk nüfuza malikdir. Krallığın İKT-nin büdcəsindəki payı 10 faiz, İslam İnkişaf Bankının (İİB) kapitalındakı payı 25 faizdir. İKT və İİB-in iqamətgahı Səudiyyə Ərəbistanının ciddə şəhərində Krallıq hökumətinin təmannasız olaraq təqdim etdiyi binalarda yerləşir. Səudiyyə Ərəbistanı əlavə olaraq, İKT və onun ixtisaslaşmış təsisatlarına öz fəaliyyətini həyata keçirməsi üçün müntəzəm maliyyə yardımı göstərir.

Səudiyyə Ərəbistanının İKT-dəki nufuzu ölkənin islam dinin tarixi vətəni və islam aləminin iki müqəddəs ocağının yerləşdiyi bir torpaq kimi islam aləmindəki mövqeyi ilə də izah olunur. Səudiyyə Ərəbistanının bu və digər problemlər üzrə İKT-dəki mövqeyi adətən digər ölkələr və ilk növbədə ərəb ölkələri tərəfindən dəstəklənir. Şübhəsiz, Səudiyyə Ərəbistanının maliyə dəstəyi olmasaydı, İKT fəaliyyət göstərə bilməzdi.

İKT-də Misir, İran, Türkiyə və Pakistan da müəyyən nüfuza malikdir.

İKT-nin çoxşaxəli fəaliyyəti üç tip qurumlar vasitəsi ilə həyata keçirilir:

I. Tabeçilikdə olan qurumlar. Bu tip qurumlar İKT dövlət və hökumət başçılarının zirvə, eləcə də İKT

xarici işlər nazirləri konfranslarının qərarına əsasən yaradılmışdır. İKT-yə üzv dövlətlər avtomatik surətdə bu qurumlara da üzv olur. Bu qurumların büdcəsi İKT xarici işlər nazirləri konfransı tərəfindən təsdiq edilir.

İKT-nin nəzdində indiyədək bu tip 11 qurum yaradılmışdır. Bu qurumlar islam dünyasının müxtəlif yerlərində fəaliyyət göstərir:

1. İslam dövlətlərinin statistik, iqtisadi və sosial tədqiqatlar mərkəzi (Ankara mərkəzi)1977-ci ilin may ayında Liviyanın Tripoli şəhərində keçirilmiş İKT xarici işlər nazirlərinin VIII konfransının qərarına əsasən təsis edilmişdir. Mərkəz aşağıdakı vəzifələri həyata keçirir:

-İKT-yə üzv ölkələrdə əsas iqtisadiyyat sahələrinin aşkar edilməsi və bu sahələrdəki nöqsan və qüsurların qiymətləndirilməsi;

-Üzv dövlətlər arasında ticarət əlaqələrinin möhkəmləndirilməsi üçün tədqiqatlar aparılması və bu məqsədlə müxtəlif iqtisadiyyat sahələri üzrə lazımi məlumatın toplanması;

-Üzv ölkələrdə əsas istehsal sahələrinin araşdırılması, onların təkmilləşdirilmə və əməkdaşlıq imkanlarının öyrənilməsi;

-Üzv dövlətlər arasında imzalanmış ictimai xarakterli saziş və müqavilələrin öyrənilməsi;

-Üzv dövlətlərin nümayəndələri üçün müntəzəm olaraq, statistika üzrə kursların keçirilməsi;

-Üzv dövlətlərdəki ehtiyatlardan maksimal istifadə olunması imkanlarının araşdırılması.

Mərkəzin ali orqanı - Şuradır. Şura üzv ölkələrin nümayəndələrinin, mərkəzin direktorunun və İKT Baş katibliyinin nümayəndəsinin iştirakı ilə iki ildə bir dəfə keçirilir. Mərkəzin idarə heyəti Baş direktor, İKT Baş katibinin nümayəndəsi və ümumi iclas tərəfindən 3 il müddətinə seçilmiş 10 nəfərdən ibarətdir. Heyət il ərzində ən azı iki iclas keçirir.

İKT Baş katibi idarə heyəti ilə məşvərət keçirərək, mərkəzin Baş direktorunu 4 il müddətinə təyin edir. Bu müddət bir dəfə uzadıla bilər.

Mərkəzin büdcəsi üzv dövlətlərin üzvülük haqqı və təqdim etdiyi xidmətin ödənci hesabına formalaşır.

Mərkəzin iqamətgahı Ankarada yerləşir.

2. İKT-nin tarix, mədəniyyət və incəsənət araşdırmaları mərkəzi (İstambul mərkəzi) 1976-cı ilin may ayında İstambulda keçirilmiş İKT xarici işlər nazirlərinin VII konfransının qərarına əsasən təsis edilmişdir. Mərkəz aşağıdakı vəzifələri həyata keçirir:

-İslamın və islam mədəniyyətinin daha yaxşı dərk edilməsi məqsədi ilə dünyada və üzv dövlətlərdəki islam mədəniyyəti sahəsində ixtisaslaşmış alim, tədqiqatçı, tarixçi, mütəfəkkir və incəsənət xadimlərini öz ətrafında toplamaq;

-İslam aləminin tarixi, mədəniyyəti və incəsənəti haqqında yaranmış streotiplərə son qoymaq məqsədilə üzv dövlətlərdəki tədqiqatçılar və tədqiqat müəssisələri arasında sıx əməkdaşlıq üçün lazımi şərait yaratmaq;

-Dünyanın hər yerindəki islam mədəniyyəti haqqında məlumatın ya-

yılması məqsədilə tədqiqatları kitab və broşura halında çap etmək;

-Mərkəzin işi və dünyada islam mədəniyyəti üzrə fəaliyyət haqqında elmi və məlumat xarakterli dövri məcmuələrin nəşri;

-Mərkəzdə və üzv dövlətlərdə islam mədəniyyəti və irsinin müxtəlif sahələri üzrə konfransların, simpoziumların, sərgilərin və başqa tədbirlərin təşkil edilməsi;

-İslam mədəniyyəti üzrə informasiya mərkəzinin yaradılması;

-İslam mədəniyyəti və incəsənəti üzrə ixtisas artırma kurslarının təşkili;

-İKT-yə üzv dövlətlərə və Baş Katibə islam mədəniyyətinin bütün sahələri üzrə tövsiyələr təqdim etmək;

-İKT xarici işlər nazirləri konfransının və ya Baş katibin tələbinə əsasən lazımi tədqiqatların həyata keçirilməsi və sairə.

Mərkəzin ali orqanı İqtisadiyyat və mədəniyyət məsələləri üzrə İslam komissiyasıdır. İldə bir dəfə sessiya keçirilir.

Mərkəzin idarə heyəti, İKT Baş katibinin təklifinə əsaəsn xarici işlər nazirləri konfransı tərəfindən 3 il müddətinə təyin edilmiş 10 nəfər islam aləminin tanınmış tarixçi, alim, ziyalı və ədəbiyyatçısından, Baş direktordan və İKT Baş katibinin nümayəndəsindən ibarətdir. Mərkəzin Baş direktorunu İKT Baş katibi, idarə heyəti ilə məşvərət keçirərək, 4 il müddətinə təyin edir. Bu müddət bir dəfə uzadıla bilər.

Mərkəzin maliyyələşdirilməsi İKT-yə üzv dövlətlərin üzvülük haqqı və İslam həmrəylik fondunun yardımı ilə həyata keçirilir.

Mərkəz İstambulda yerləşir.

3. Texniki peşə təhsili və tədqiqatlar üzrə islam mərkəzi 1978-ci ilin aprel ayında Dakarda (Seneqal) keçirilmiş İKT xarici işlər nazirlərinin IX konfransının qərarına əsasən, islam aləminin dünya səviyyəsinə uyğun mütəxəssis kadrlarla təmin etmək məqsədi ilə təsis edilmişdir.

Ali orqanı İqtisadi, mədəniyyət və ictimai məsələlər üzrə islam komissiyasının üzvlərindən ibarət Şuradır. Şura ildə bir dəfə iclas keçirir.

Mərkəzin idarə heyəti Şura tərəfindən 3 il müddətinə seçilmiş 9 nəfərdən, İKT Baş katibinin nümayəndəsindən və Baş direktordan ibarətdir.

Şuranın icraiyyə heyəti 5 nəfərdən ibarətdir. Banqladeşin əmək və işçi qüvvəsi naziri, ölkədə akkreditə olunmuş İKT-yə üzv üç dövlətin diplomatik missiyasının rəhbəri (onları idarə heyəti seçir) və Mərkəzin Baş direktoru.

Akademik heyət 10 nəfərdən-Mərkəzin direktorundan, Dəkkədə yaşayan 5 nəfər İKT ölkəsi vətəndaşlarından (onları səfirliklər və ya komissiyalar seçir), Banqladeş Hökumətini seçdiyi 5 nəfərdən və Banqladeş Mühəndislik və texnologiya universitetinin rektorundan ibarətdir.

Mərkəzin Baş direktorunu İKT Baş katibi, mərkəzin idarə heyəti ilə məşvərətlə 4 il müddətinə təyin edir. Bu müddət bir dəfə uzadıla bilər.

Mərkəz üzvlük haqqı və könüllü

yardım hesabına maliyyələşdirilir. İqamətgahı Banqladeşin paytaxtı Dəkkə şəhərində yerləşir.

4. Ticarətin inkişafı üzrə islam mərkəzi 1981-ci iln yanvar ayında Məkkə və Taifdə keçirilmiş İKT dövlət və hökumət başçılarının III konfransının qərarına əsasən təsis edilmişdir.

Mərkəzin Ali orqanı İqtisadi, mədəniyyət və ictimai məsələlər üzrə islam komissiyasının üzvlərindən ibarət Şuradır.

Mərkəzin idarə heyəti Şura tərəfindən 3 il müddətinə seçilir. Heyət azı ildə bir dəfə iclas keçirir.

Mərkəzin Baş direktorunu İKT Baş katibi idarə heyəti ilə məşvərət keçirərək 4 il müddətinə təyin edir. Bu müddət bir dəfə uzadıla bilər.

Mərkəz üzv dövlətlərin illik üzvlük haqqı, mərkəzin öz ixtisası üzrə təqdim etdiyi xidmətlərin müqabilində əldə etdiyi ödənclər, könüllü yardım və başqa mədaxillər vasitəsilə maliyyələşdirilir.

Mərkəzin əsas iqamətgahı Kasablankada yerləşir.

5. İslam elm, texnologiya və inkişaf qurumu 1975-ci ilin iyun ayında ciddədə keçirilmiş İKT xarici işlər nazirlərinin VI konfransında təsis edilmişdir.

İqamətgahı ciddədə yerləşir.

6. İslam fiqh (hüquq) akademiyası 1981-ci ilin yanvar ayında Məkkə və Taifdə keçirilmiş İKT dövlət və hökumət başçılarının III konfransının qərarına əsasən təsis edilmişdir. İqamətgahı ciddədə yerləşir.

7. İslam həmrəylik fondu və vəqfinin icraiyyə bürosu. İslam həmrəylik fondu 1974-cü ilin fevral ayında Pakistanın Lahor şəhərində keçirilmiş İKT dövlət və hökumət başçılarının II zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Fondun vəzifəsi bütün dünyadakı müsəlmanların mənəvi və zehni səviyyəsinin yüksəldilməsi, müsəlman dövlətlərinin məruz qaldığı böhran, fəlakət və ağır ictimai vəziyyətin yüngülləşdirilməsidir. Bu vəzifə lazımı maddi yardım göstərilməsi hesabına həyata keçirilir.

Fond dünya ölkələrindəki müsəlman azlıqlarına və icmalarına da dini, mədəni və ictimai səviyyələrin qaldırılması üçün yardım edir və onların ehtiyacının ödənilməsi məqsədi ilə məscidlər və xəstəxanalar tikir.

İslam Həmrəylik fondunun daimi şurası İKT xarici işlər nazirləri konfransı qarşısında fondun fəaliyyəti üzrə məsuliyyət daşıyan orqandır. Şura fondun məqsədlərinin həyata keçirilməsi üçün təsis etdiyi və İKT Baş katibliyi vasitəsi ilə idarə olunan icraiyyə mexanizmi vasitəsi ilə proqramlar hazırlayır və onları yerinə yetirir. Yardım haqqında xahişləri nəzərdən keçirir, yardımın həcmini müəyyənləşdirir və fondun illikm büdcəsini nəzərdən keçirərək təsdiq edir.

Daimi şura ona daimi üzv hesab edilən İKT Baş katibindən, üzv dövlətlərin 13 nümayəndəsindən ibarətdir. Şura üzvlərindən seçkilər vasitəsi ilə sədr və onun müavini seçilir. Daimi şura vaxtaşırı iclaslarını keçirir. Ehtiyac olan hallarda İKT Baş

katibinin, daimi şura sədrinin və ya şura üzvlərinin üçdə birinin tələbinə əsasən iclas keçirilə bilər. Şura fondun fəaliyyəti haqqında hər il İKT xarici işlər nazirləri konfransına hesabat təqdim edir.

Təftiş komisiyyası 5 üzvdən - daimi şura sədrindən və ya onun müavinindən, İKT Baş katibindən və ya onun nümayəndəsindən və daimi şura tərəfindən seçilmiş 3 nəfərdən ibarətdir və icraiyyə aparatına nəzarət edir.

İcraiyyə aparatına daimi şura ilə məşvərətlə, İKT Baş katibi tərəfindən, təyin edilimiş Baş direktor 4 il müddətinə rəhbərlik edir. Bu müddət bir dəfə uzadıla bilər.

Nizamnaməsinin VI maddəsinə əsasən fond üzv dövlətlərin könüllü yardımı; ictimai, özəl müəssisələrin və eləcə də ayrı-ayrı şəxslərin zəkat formasında təqdim etdiyi vəsait; fondun vəqf formasındakı əmlakından gələn gəlir hesabına maliyyələşdirilir. İKT-yə üzv dövlətlər, ictimai və özəl müəssisələr və ayrı-ayrı şəxslər fonda öz təcrübələrini və texniki yardımını təqdim edirlər.

8. Qüds fondu və vəqfi 1976-cı ilin may ayında İstanbulda keçirilmiş İKT xarici işlər nazirlərinin VII konfransının qərarına əsasən təsis edilmişdir.

9. Beynəlxalq islam mədəni irsinin mühafizəsi komissiyası İKT xarici işlər nazirlərinin IX və X konfranslarının qərarına əsasən təsis edilmişdir. İKT xarici işlər nazirlərinin 1980-ci ilin may ayında İslamabadda keçirilmiş XI konfransı komissiyanın Nizamnaməsini təsdiq etmişdir.

Komissiya İKT ölkələrinin müxtəlif regionlarını əhatə edən və mədəni irslə əlaqəsi olan 17 nəfər üzvdən ibarətdir. Onların 5 nəfərini İKT Baş katibinin təklifi ilə İKT xarici işlər nazirləri konfransı təyin edir. Komissiyanın qalan üzvləri IRSICA-nın şura üzvlərindən ibarətdir. Komissiya İstanbulda IRSICA-nın iqamətgahında yerləşir. Komissiyanın rəyasət heyəti Ər-Riyadda yerləşir.

10. Nigeriyadakı islam universiteti 1974-cü ilin fevral ayında Lahorda (Pakistan) keçirilmiş İKT dövlət və hökumət başçılarının II zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Universitetin nizamnaməsi 1984-cü ilin dekabr ayında Səndə keçirilmiş İKT xarici işlər nazirlərinin XV konfransında təsdiq edilmişdir. Açılışı 1986-cı ilin noyabrında olmuşdur.

11. Uqandadakı islam universiteti 1984-cü ildə Lahorda keçirilmiş İKT dövlət və hökumət başçılarının III zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Universitet 1988-gi ildən etibarən fəaliyyət göstərir.

II. İKT nəzdindəki müstəqil universitetlər İKT konfranslarının qərarına əsasən təsis edilmişdir.

1. Banqladeş islam universitetinin təsis olunması təklifi 1984-cü ilin dekabr ayında Dəkkədə keçirilmiş İKT xarici işlər nazirlərinin XIV konfransında irəli sürülmüşdür. Universitet İslam İnkişaf Bankının, İslam həmrəylik fondunun daimi şurası, üzv dövlətlərin və islam qurumlarının təqdim etdiyi yardım vasitəsi ilə maliyyələşdirilir.

2. Malayziyadakı ümumdünya islam universitetinin təsis edilməsi təklifi 1982-ci ildə verilmiş və Malayziya hökuməti 1983-cü ildə müvəqqəti olaraq Malay müsəlmanları universitetinin köhnə kompleksində açılışını həyata keçirmişdir. Hökumət Kuala-Lumpurun 50 km-də 650 milyon Malayziya dolları dəyərində (330 milyon ABŞ dollarına bərabərdir) yeni kompleksin tikintisi üçün 400 milyon Malayziya dolları ayırmışdır. 14 min tələbəsi olacaq bu layihənin maliyyələşdirilməsi üçün Malayziya hökuməti İKT-yə üzv digər dövlətlərlə və islam qurumları ilə təmaslar aparır.

III. İKT çərçivəsindəki mütəxəssis qurumlar İKT-nin zirvə və xarici işlər nazirləri konfranslarının qərarlarına əsasən təsis olunmuşdur. Bu tip qurumlara üzvülük açıqdır belə ki, İKT-yə üzv dövlətlər istədiyi halda onlara üzv ola bilərlər. Bu qurumların büdcəsinin İKT Baş katibliyi və onun tabeçiliyində olan qurumların büdcəsi ilə heç bir əlaqəsi yoxdur.

1. İslam İnkişaf Bankı təsis edilməsi ideyası 1970-ci ildə Karaçidə (Pakistan) keçirilmiş İKT xarici işlər nazirlərinin II konfransında irəli sürülmüşdür. 1973-cü ilin dekabr ayında ciddədə keçirilmiş islam ölkələri maliyyə nazirlərinin I konfransının Bankın təsis edilməsi haqqındakı bəyanatını 23 üzv dövlət imzaladı.

1975-ci ildə Bankın rəsmi açılışı oldu.

Bankın məqsədi Şəriət prinsiplərı əsasında, istər tək və istərsədə qrup halında olan üzv dövlətlərin və müsəlman icmalarının iqtisadi inkişafının ictimai tərəqqisinin dəstəklənməsidir.

Bankın vəzifələri aşağıdakılardır:

- Üzv dövlətlərdə olan istehsal layihələrinin maliyyələşdirilməsi;
- İqtisadi və ictimai inkişaf məqsədi ilə bu dövlətlərə maliyyə yardımının təqdim edilməsi;
- Üzv dövlətlərdə xarici ticarətin inkişafına yardım.

Yalnız İKT-yə üzv dövlətlərin İslam İnkişaf Bankına üzv ola bilməsi üzvlük üçün əsas şərtdir.

Bankın administrativ struktru aşağıdakı kimidir:

a) İdarə şurasına üzv dövlətlər bir nəfər təmsilçisini və onun müavinini təyin edir. Hər ikisinin fəaliyyət müddəti onları təyin edən dövlətlərin arzusuna əsasən başa çatır. Şura ildə bir dəfə sessiyasını keçirir.

b) İcraçı direktorlar şurası 10 nəfər üzvdən ibarətdir. Onlar 3 il müddətinə seçilir və eyni zamanda idarə şurasına üzv ola bilməzlər.

v) Prezident İdarə Şurası tərəfindən 5 il müddətinə seçilir və bu müddət yeniləşdirilə bilər. Bankın hüquqi təmsilçisinin və admnistrativ aparatın müdirinin təyinatı bu yolla həyata keçirilir.

Bankın iqamətgahı ciddədə yerləşir.

Bankın elan edilimş kapitalı 600000 səhmə bölünmüş 6 milyard islam dinarıdır (1 islam dinarı 1,3 dollara bərabərdir).

2. Tədris, elm və mədəniyyət üzrə islam təşkilatı (İSESKO) İKT çərçivəsində fəaliyyət göstərən beynəlxalq təşkilatdır. İSESKO-nun tə-

sis edilməsi haqqında qərar 1979-cu ilin may ayında Fəsdə (Mrakeş Krallığı) keçirilmiqş İKT xarici işlər nazirlərinin X kofransında qəbul edilmişdir. Təşkilatın nizamnaməsi 1980-ci ilin may ayında İslamabadda keçirilmiş İKT xarici işlər nazirlərinin XI konfransının qərarı ilə təsdiq edilmişdir.

Təşkilatın məqsədi aşağıdakılardır:

-İKT-yə üzv dövlətlər arasında tədris, elm və mədəniyyət sahələrində əməkdaşlığın dəstəklənməsi, tətbiqi elm sahələrinin inkişaf etdirilməsi, islam dəyərləri çərçivəsində mütərəqqi texnologiyadan istifadə, islam mədəniyyətinin və onun fərqləndirici xüsusiyyətlərinin qorunması;

-Sırf islam mədəniyyətinin dəstəklənməsi, islam təfəkkürünün mədəni ekspansiyadan, hər cür eybəcərləşdirmə və təhrifdən himayə edilməsi;

-Qeyri-müsəlman ölkələrdəki müsəlman dininə mənsub şəxsiyyətlərin himayə edilməsi;

-Xalqlar arasında anlaşmanın dəstəklənməsi, dünyada sülhün və təhlükəsizliyin müxtəlif vasitələrlə, o cümlədən təlim, elm və mədəniyyət vasitəsi ilə bərqərar olunmasına yardım;

-Üzv dövlətlər arasında təlim, elm və mədəniyyət sahəsində əməkdaşlığın möhkəmləndirilməsi.

Təşkilatın ali orqanı - konfransdır. Konfrans üzv dövlətlərin təmsilçilərindən ibarətdir və 3 ildən bir keçirilir. İKT baş katibi və ya onun təmsilçisi konfransda iştirak edir.

İcraiyyə Şurası Təşkilata üzv dövlətlərin nümayəndələrindən təşkil edilir. İcraiyyə Şurası hər il toplantı keçirir. İKT baş katibi və ya onun təmsilçisi Şuranın toplantılarında iştirak edir.

Administrasiyaya konfrans tərəfindən 3 il müddətinə seçilmiş Baş direktor rəhbərlik edir. Bu müddət yeniləşə bilər.

Təşkilatın maliyyələşdirilməsi üzv dövlətlərin verdiyi üzvlük haqqı, üzv və qeyri-üzv dövlətlərin, ayrı-ayrı şəxslərin və özəl heyətlərin təqdim etdiyi könüllü yardım hesabına həyata keçirilir.

Təşkilatın əsas iqamətgahı Rabatda (Mərakeş) yerləşir.

3. Beynəlxalq İslam xəbərlər agentliyi 1970-ci ilin dekabr ayında Kəraçidə keçirilmiş İKT xarici işlər nazirlərinin qərarına əsasən təsis edilmişdir.

Agentlik aşağıdakı məqsədlərə xidmət edir:

- Üzv dövlətlər arasında münasibətlərin yaxşılışdırılması və informasiya sahəsində bu münasibətlərin inkişafı;

- Üzv ölkələrin informasiya agentlikləri arasında texniki əməkdaşlığın inkişafı;

- İslam ölkələrinin problemlərinin Beynəlxalq ictimaiyyət tərəfindən düzgün dərk edilməsi üzrə iş;

Agentliyin aparatı aşağıdakılardan ibarətdir:

- Üzv dövlətlərin informasiya agentliklərinin təmsilçilərindən ibarət Ümumi Şura. İki ildən bir iclas keçirir.

- İcraiyyə Şurası 11 üzvdən ibarətdir. Onların 9 nəfəri Ümumi Şura

tərəfindən seçilir. Agentliyin iqamətgahı yerləşən ölkənin təmsilçisi və İKT Baş katibliyinin nümayəndəsi İcraiyyə Şurasının daimi üzvləri hesab edilir.

- Agentliyin Baş direktorunu Ümumi Şura 4 il müddətinə təyin edir. Bu müddət uzadıla bilər.

Agentliyin maliyyələşdirilməsi Ümumi Şuranın müəyyənləşdirdiyi miqdarda üzv dövlətlərin ödədiyi üzvlük haqqı və könüllü yardım hesabına həyata keçirilir.

Agentliyin iqamətgahı ciddədə yerləşir.

4. İslam dövlətlərinin radio və televiziya verilişləri təşkilatı 1975-ci ilin iyul ayında ciddədə keçirilmiş İKT xarici işlər nazirlərinin VI konfransının qərarına əsasən təsis edilmişdir. Təşkilatın məqsəd və vəzifələri aşağıdakılardır:

- İslamın prinsiplərinin yayılması, islam problemlərinin çatdırılması, onların müdafiə edilməsi və ərəb dilinin öyrədilməsi;

- Müsəlman xalqları arasında qardaşlıq ruhunun dərinləşdirilməsi;

- Müsəlman xalqlarını bir-birinə tanıtmaq;

- İslam həmrəyliyinin istinad etdiyi siyasi, ictimai və iqtisadi əsasların şərhi;

- Üzv dövlətlərdə radio və televiziya verilişləri sahəsində çalışan orqanlar və texniki heyətlərlə islam və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın inkişafı;

- Təşkilatın məqsəd və vəzifələrinə xidmət edən radio və televiziya proqramlarının istehsalı və mübadiləsi.

Təşkilatın ali orqanı olan Ümumi Şura bütün üzv dövlətlərin təmsilçilərindən təşkil olunur. İki ildən bir iclas keçirir.

İcraiyyə Şurası 15 üzvdən ibarətdir. Onların 12 nəfəri Ümumi Şura tərəfindən iki il müddətinə seçilir. İqamətgah yerləşən ölkə, Fələstin və İKT Baş katibliyi İcraiyyə Şurasının daim üzvləri hesab edilir. Şura azı ildə bir dəfə iclas keçirir. İqamətgah yerləşən ölkənin təmsilçisi ona rəhbərlik edir.

Ümumi Şura İcraiyyə Şurasının təqdimatına əsasən üzv dövlətlərin nümayəndələrindən birini 4 il müddətinə Baş katib vəzifəsinə təyin edir. Bu müddət uzadıla bilər.

Təşkilatın Proqram-xəbərlər və Maliyyə-inzibati daimi komissiyaları var.

Maliyyələşdirmə üzv dövlətlərin üzvlük haqqı ödəncləri, könüllü yardım və təşkilatların göstərdiyi xidmətlərin müqabilində gələn gəlirin hesabına həyata keçirilir.

Təşkilatın iqamətgahı ciddədə yerləşir.

IV İKT-nin əlaqədar qurumları. Bu kimi qurumlar İKT zirvə və xarici işlər nazirləri konfranslarının qərarına əsasən yaradılmışdır. Onlara üzvlük İKT-yə üzv dövlətlərin müəssisə və orqanları üçün açıqdır. Bu qurumların büdcəsi İKT Baş katibliyinin və digər qurumların büdcəsindən ayrıdır. Bu qurumlar İKT xarici işlər nazirləri konfransının qərarına əsasən müşahidəçi statusu əldə edə bilər. Onlar İKT-nin tabeçiliyində olan orqanlardan, mütəxəssis qurum-

lardan və üzv dövlətlərdən könüllü yardım ala bilər.

Bu qəbildən olan qurumlar aşağıdakılardır:

1. İslam ticarət və sənaye palatası 1979-cu ilin may ayında Fəsdə (Mərakeş) keçirilmitş İKT xarici işlər nazirlərinin X konfransının tövsiyyəsinə əsasən təsis edilmişdir.

Palatanın məqsəd və vəzifələri aşağıdakılardır.

- Üzv dövlətlər arasında sənaye, ticarət və ən ənəvi sənətkarlığın inkişaf etdirilməsi və dəstəklənməsi;
- İslam aləminin iqtisadi mənafeyinin qorunması və ticarət məsələləri üzrə tövsiyələrin təqdim edilməsi;
- İslam ölkələrinin ticarət palataları ilə ticarət, sənaye və kənd təsərrüfatı profilli beynəlxalq təşkilatlar arasında əməkdaşlığın təşviq edilməsi;
- Ticarət üzrə nümayəndə heyətlərinin mübadiləsi, ticarət yarmarkalarının, kursların və satış kompaniyalarının təşkili;
- Üzv dövlətlətlər arasında investisiya qoymanın və müştərək layihələrin həyata keçirilməsinin təşviq edilməsi;
- Ticarət-sənaye xarakterli münaqişələrin həlli üzrə arbitirlik funksiyasının icrası;
- Üzv dövlətlər arsında ticarət, texniki, sənaye, administrativ, elmi xarakterli məlumat mübadiləsinin və eləcə də texniki maarif məsələlərinin təşviq edilməsi.

Üzvlük. İslam ticarət və sənaye palatası İKT-yə üzv dövlətlərin milli ticarət-sənaye palatalarından, milli palatalar federasiyasından və ya həmin ölkələrdəki buna bənzər müəssisələrdən təşkil edilmişdir. Hər ölkədən bir təşkilat İslam ticarət və sənaye palatasına üzv ola bilər.

Palatanın aparatı aşağıdakı kimidir:

Ümumi Şura üzv dövlətlərin təmsilçilərindən ibarətdtr. İldə bir dəfə iclas keçirir.

İcraiyyə komitəsi Ümumi Şura tərəfindən 3 il müddətinə seçilir. Bu müddət uzadıla bilər. İcraiyyə komitəsi Prezidentdən, regionların əhatəsi üzrə 6 müavindən, Baş katibdən, İKT Baş katibliyinin nümayəndəisndən və 12 nəfər üzvdən ibarətdir.

Baş katiblik İcraiyyə komitəsinin təqdimatına əsasən, Ümumi Şuranın təyin etdiyi Baş katib tərəfindən 3 il müddətinə idarə edilir.

Maliyyələşdirmə üzv dövlətlərin sənaye-ticarət palatalarının ödədiyi üzvlük haqqı hesabına həyata keçirilir.

İqamətgahı Kəraçidə (Pakistan) yerləşir.

2. İslam paytaxtları və şəhərləri təşkilatı 1978-ci ilin aprel ayında Dakarda (Seneqal) keçirilmiş İKT xarici işlər nazirlərinin IX konfransının qərarına əsasən təsis edilmişdir. 1979-cu ilin may ayında Fəsdə (Mərakeş Krallığı) keçirilmiş İKT xarici işlər nazirlərinin X konfransı təşkilatın nizamnamə layihəsini təsdiq etdi. Təşkilatın rəsmi açılışı 30 yanvar 1980-ci ildə Məkkə şəhərində oldu. O vaxt təşkilatın nizamnaməsi təşkil edildi, İdarə Şurası və Baş katibi seçildi.

Təşkilatın məqsəd və vəzifələri aşağıdakılardır:

- İslam paytaxtları və şəhərləri

arasında qardaşlıq və dostluq əlaqələrinin möhkəmləndirilməsi;
- İslam paytaxtları və şəhərləri arasında əməkdaşlıq sahələrinin inkişafı və genişləndirilməsi;
- İslam paytaxtları və şəhərləri irsinin özünəməxsusluğunun mühafizə edilməsi;
- İslam paytaxtları və şəhərlərinin iqtisadi, ictimai, mədəni və ətraf mühit baxımından dirçəlişi üçün müəyyən mexanizmlərin, əsaslı təmir planlarının həyata keçirilməsi üzrə iş;
- İslam paytaxtları və şəhərlərində xidmiət və ictimai sahələrin səviyyəsinin qaldırılması üzrə iş;

Üzvlük İKT-yə üzv bütün dövlətlərin paytaxtı üçün açıqdır. Müqəddəsliyi nəzərə alınaraq, Məkkə, Mədinə və Qüds şəhərləri bu təşkilatın daimi üzvüdür. Hər bir müsəlman dövlətinə maksimum özünün 8 şəhərinə əlavə olaraq, paytaxtını bu təşkilata üzv etməsinə icazə verilir.

Təşkilat heç bir siyasi fəaliyyətlə məşğul olmur və üzv dövlətlərin heç bir siyasi işinə müdaxilə etmir. Hazırda 57 şəhəri əhatə edir.

Təşkilatın Ali orqanı - Ümumi Şuradır. Şura təşkilatın siyasətini, məqsəd və istiqamətlərini müəyyənləşdirir. Ümumi Şura üzv şəhərlərinin rəhbərlərindən ibarətdir.

İdarə Şurası Ümumi Şuranın qəbul etdiyi Qərarların icra edilməsinə nəzarət edir, təşkilatın məqsədlərinin həyata keçirilməsi üçün plan və proqramlar tərtib edir. İdarə Şurası daimi üzvlər kimi Məkkə, Mədinə və Qüds, Ümumi Şura tərəfindən 4 il müddətinə seçilmiş 18 üzvdən, təşkilatın Baş katibindən və əgər idarə heyətinə üzv deyilsə, Şura keçirilmiş şəhər və paytaxtın rəhbərliyindən ibarətdir.

Təşkilatın icra aparatı **Baş katiblik** hesab edilir. Baş katib Ümumi Şura tərəfindən 4 il müddətinə seçiilir. Bu müddət uzadıla bilər. Baş katib təşkilatın texniki vəs admnistrativ fəaliyyətinə nəzarət edir, təşkilatın fəaliyyəti haqqında Ümumi Şuraya və İdarə Şurasına hesabat təqdim edir. Baş katib digər təşkilatlar qarşısında və Beynəlxalq miqyaslı tədbirlərdə təşkilatı təmsil edir.

İslam paytaxtlarının və şəhərlərinin əməkdaşlıq fondu islam aləminin bələdiyyə idarələrinin xidmət, təmir, mühafizə, elmi-tədqiqat və tədris proyektlərinin maliyyələşdirilməsində iştirak edir və eləcə də fondun nizamnaməsinə əsasən, çox ehtiyacı olan bələdiyyə idarələrinə yardım təqdim edir.

İslam paytaxtlarının və şəhərlərinin tədris və inkişaf mərkəzi Qahirədə yerləşir və bələdiyyə idarəsi işçilərinin ixtisasının yüksəldilməsinə xidmət edir.

Ymumi şura iki ildən bir, İdarə Şurası 6 aydan bir iclas keçirir.

Təşkilatın maliyyələşdirilməsi üzv paytaxtların və şəhərlərin üzvlük haqqı könüllü yardımlar hesabına həyata keçirilir.

Təşkilatın rəsmi iqamətgahı Məkkə şəhərindədir. Baş katiblik hazırda ciddədə yerləşir.

3. İslam Həmrəylik oyunları üzrə idman federasiyası 1980-ci ildə İslamabadda keçirilmiş İKT xarici işlər nazirlərinin XI konfransının və 1981-ci ildə Məkkə və Taifdə keçiril-

miş III zirvə uonfransının qərarına əsasən təsis edilmişdir.

Ali orqanı - Federasiyaya üzv dövlətlərin milli olimpiada komitələrinin təmsilçilərindən ibarət **Ümumi Şuradır.** İki ildən bir iclas keçirir.

İcraiyyə Şurası Ümumi Şura tərəfindən 4 il müddətinə seçilmiş 14 üzvdən ibarətdir.

Təşkilatın maliyyə qaynaqları aşağıdakılırdır:

- Mülkiyyətdən gələn gəlir;
- Üzvlük haqqı;
- Təşkil etdiyi idman yarışlarının gəlirinin faizi;
- Televiziya proqramlarından, ticarət reklamı və elanlardan gələn gəlir;
- İKT-yə üzv dövlətlərin hökumətlərinin təqdim etdiyi könüllü yardım;
- İKT-nin və islam həmrəylik fondunun təyin etdiyi illik dotasiya;
- Ayrı-ayrı şəxslərin və müəssisələrin İcraiyyə Şurasının razılığına əsasən verdiyi könüllü yardım.

İcraiyyə Şurası, vaxtaşırı olaraq, ildə bir dəfə iclas keçirir. Sədrin və ya üzvlərdən birinin və 6 nəfər digər üzv tərəfindən təsdiq edilimş yazılı xahişinə əsaəsən İcraiyyə Şurası özünün növbədənkənar iclasını keçirə bilər.

İslam həmrəylik oyunlarının idman federasiyasının iqamətgahı Ər-Riyad şəhərində yerləşir.

4. Beynəlxalq qırmızı aypara təşkilatının islam komitəsi 1979-cu ilin may ayında Fəsdə(Mərakeş Krallığı) keçirilmiş İKT xarici işlər nazirlərinin X konfransının qərarına əsasən təsis edilmişdir.

Təşkilatın məqsəd və vəzifələri aşağıdakılardır:

- Təbii fəlakətlərə və çətinliklərə məruz qalmış müsəlman dövlətlərinə tibbi və humanitar yardımın təqdim edilməsi;
- Humanitar xidmət profilli hər bir beynəlxalq və regional təşkilatın imkanı daxilində olan hər hansı yardımın təqdim edilməsi.

Komitənin işini İcraiyyə Şurası aparır. İcraiyyə Şurasına komitənin sədri rəhbərlik edir.

Komitənin maliyyələşdirilməsi İKT-yə üzv dövlətlərin üzvlük haqqı, könüllü yardım və komitənin əldə etdiyi mədaxil hesabına həyata keçirilir.

Komitənin iqamətgahı Benqazi (Liviya) şəhərində yerləşir.

5. Gəmi sahiblərinin islam birliyi 1981-ci ilin yanvar ayında Məkkə və Taifdə keçirilmiş İKT dövlət və hökumət başçılarının III zirvə konfransının qərarına əsasən təsis edilmişdir. Həmin konfrans birliyin nizamnaməsini də təsdiq etmişdir.

Birliyin məqsəd və vəzifələri aşağıdakılılardır:

- Üzv dövlətlərdə dəniz nəqliyyatının inkişafı və oradakı şirkətlərin donanmalarının gücündən maksimal istifadə edilməsi məqsədi ilə gəmiçilik şirkətləri arasında əməkdaşlığın həyata keçirilməsi üçün üzv dövlətlərin səylərinin birləşdirilməsi və koordinasiya edilməsi;
- Üzv döbvlətlər müştərək gəmiçilik şirkətləri və bu dövlətlər arasında gəmiçilik marşurutlarının yaradılması üçün təşviqat işlərinin aparılması;
- Dəniz nəqliyyatının müxtəlif sahələri üzrə tədqiqat işlərinin aparılması;
- İslam aləminin və digər dövlətlərin mükəmməl dəniz nəqliyyatı şəbəkəsi ilə əlaqələndirilməsi;
- Üzv dövlətlərin, müsəlman dövlətlərinin və xarici dövlətlərin limanları arasında müntəzəm və vaxtaşırı yükdaşıma və sərnişindaşıma reyslərinin təmin edilməsi;
- İslam ölkələrinin dəniz nəqliyyaptçılarının müştərək siyasətinin formalaşdırılmasına yardım.

Birliyə üzvlük üzv dövlətlərdən birində qeydiyyatdan keçmiş beynəlxalq ticarət sahəsində çalışan gəmiçilik şirkətləri və bu tip müəssisələr üçün açıqdır. Üzv dövlətlərdən birinin vətəndaşlığına və dənizçilik şirkətinin kapitalının azı 51 faizinə malik olan şirkət nümayəndəsi (müsəlman olduğu halda) birliyə üzv ola bilər.

Ümumi şura birlikdə çalışan bütün üzvlərdən ibarətdir və ildə bir dəfə iclas keçirir.

İcraiyyə Şurası Ümumi Şura tərəfindən coğrafi prinsip əsasında seçilir. Baş katib , İKT Baş katibliyinin və İslam sənaye-ticarət palatasının nümayəndələri, səsvermə hüququna malik olmadan, İcraiyyə Şurasının üzvləri hesab edilirlər.

Birlik Ümumi Şuranın təyin etdiyi Baş katib tərəfindən idarə edilir.

Maliyyələşdirmə üzvlük haqqı, könüllü yardım, ianə və Birliyin təqdim etdiyi xidmətlərdən gələn gəlir hesabına həyata keçirilir.

Birliyin iqamətgahı ciddədə yerləşir.

6. Beynəlxalq ərəb-islam məktəbləri birliyi 1976-cı ilin mart ayında Ər-Ryadda keçirilmiş təsis konfransında yaradılmışdır. Birliyin yaradılması haqqında qərar layihəsi 1976-cı ilin may ayında İstanbulda keçirilmiş İKT xarici işlər nazirlərinin VII konfransı tərəfindən təsdiq edilmişdir.

Birlik dünyanın hər yerində ərəb-islam məktəblərini təmsil edir və onlara yardım etməyə çalışır. Birlik məktəbləri və mədəniyyət mərkəzlərini dəstəkləməklə islam mədəniyyətinin yayılması, Qurani kərimin dili kimi ərəb dilinin tədris edilməsi, dünyada ərəb dili və islam mədəniyyətinin yayılması sahəsində fəaliyyət göstərən müəssisələr arasında əməkdaşlığın inkişaf etdirilməsi və kadrların təkmilləşdirilməsi və ərəb-islam məktəblərinin yaradılması, onların qayğı və diqqətlə əhatə edilməsi məsələləri üzərində də işləyir.

Birlik Şurası məktəbləri təmsil edən milli regional birliklərin nümayəndələrindən və onlara nəzarət edən müəssisələrin müdirlərindən və yaxud onların təmsilçilərindən təşkil edilmişdir. İki ildən bir iclas keçirir.

Birliyin Bürosu Şura tərəfindən seçilmiş 5 nəfər üzvdən ibarətdir.

Sədr birliyə nəzarət edir. Sədr və onun müavini 3 il müddətinə seçilir. Bu müddət uzadıla bilər. **Baş katib** Sədrin təklifinə əsasən seçilir.

Birliyin maliyyələşdirilməsi üzvlük haqqı, rəsmi, qeyri-hökumət təşkilatlarının və ayrı-ayrı şəxslərin təqdim etdiyi yardım və ianə hesabına həyata keçirilir.

Birliyin rəsmi iqamətgahı Ər-Riyadda və mərkəzi idarəsinin iqamətgahı isə ciddədə yerləşir. Birliyin Qahirədə də tədqiqat mərkəzi və bü-

rosu mövcuddur.

7. İslam Bankların beynəlxalq birliyi İKT-nin nəzarəti altında 1977-ci ilin avqust ayında təsis edilmişdir. Birliyin əsas vəzifəsi islam maliyyə müəssisələri arasında əlaqələrin genişləndirilməsi və bu müəssisələr arasında əməkdaşlığın və koordinasiyanın inkişafı və eləcə də həmin müəssisələrin müştərək məqsədlərin həyata keçirilməsi yolunda şəriətə və islam əqidəsinə əməl etməsinə nəzarətdir.

Birliyin məqsədləri aşağıdakılardır:

- İslam bank əməliyyatları ideyasının və metodlarının həyata keçiirilməsi;
- Əməliyyatların funifikasiyası və islam şəriətinin tətbiq edilməsi kimi nəzəri və praktik məsələlərin həlli məqsədi ilə islam bankları ilə koordinasiya aparılması;
- İslam iqtisadiyyatı tədqiqatlarının aparılması;
- İşçi qüvvəsinin inkişafına yardım edilməsi;
- Bütün islam müəssisələri haqqında məlumat bankının yaradılması;
- İslam bank əməliyyatları üzrə texniki yardımın təqdimi;
- İslam bankları arasındakı hesablaşmalarda arbitirlik, vasitəçilik və təmsilçilik funksiyasının həyata keçirilməsi;
- İslam Banklarının ümumi mənafeyinin milli və beynəlxalq səviyyədə təmsil edilməsi.

İslam bankların beynəlxalq birliyi məqsədlərinin həyata keçirilməsi üçün aşağıdakı orqanlardan istifadə edir:

- Üzv dövlətlərin təmsilçilərindən ibarət Ümumi Şura İdarə Şurasını seçir. Baş katib tutduğu vəzifəsinə görə Şuranın üzvü hesab edilir.
- Baş katiblik icraiyyə orqanı hesab olunur.
- Ali Şəriət Şurası islam maliyyə-şəriət orqanlarının rəhbərlərindən ibarət olur. Birilk ehtiyac olan hallarda islam şəriəti üzrə məşhur alimləri bu Şuraya üzv edə bilər.

Birliyin əsas maliyyə qaynağı onun tabeliyində olan müəssisələrin təqdim etdiyi üzvlük haqqından ibarətdir. Bir sıra müəssisələr də Birliyin məşğul olduğu problemləri, onun məqsəd və vəzifələrini dəstəkləyərək, fəaliyyətini təşviq edirlər.

35 bank və maliyyə müəssisəsi birliyin üzvüdür.

Birliyin iqamətgahı ciddədə yerləşir.

İSLAM KONFRANSI TƏŞKİLATININ NİZAMNAMƏSİ

Ciddə şəhərində, 1392-ci il Məhərrəm ayının 14-dən 18-dək (1972-ci il fevralın 29-dan martın 3-dək) toplanmış Əfqanıstan Krallığı, Əlcəzair Xalq Demokratik Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn Dövləti, Çad Respublikası, Misir Ərəb Respublikası, Qvineya Respublikası, İndoneziya Respublikası, İran, İordaniya Haşimiyyə Krallığı, Küveyt Dövləti, Livan Respublikası, Liviya Ərəb Respublikası, Malayziya, Mali Respublikası, Mavritaniya İslam Respublikası, Mərakeş Krallığı, Niger Respublikası, Oman Sultanlığı, Pakistan İslam Respublikası, Qətər Dövləti, Səudiyyə Ərəbistanı Krallığı, Seneqal Respublikası, Syerra-Leone Respublikası, Somali Respublikası, Sudan Demokratik Respublikası, Suriya Ərəb Respublikası, Tunis Respublikası, Türkiyə Respublikası, Yəmən Ərəb Respublikasının nümayəndələri;

Rabatda, 1389-cu il Rəcəb ayının 9-dan 12-dək (1969-cu il sentyabrın 22-dən 25-dək) keçirilmiş Krallar, Dövlət və Hökumət başçılarının Konfransının qətnaməsinə əsaslanaraq;

Ciddədə, 1390-cı il Məhərrəm ayının 15-dən 17-dək (1970-ci il martın 23-dən 25-dək) keçirilmiş Xarici İşlər Nazirlərinin I Konfransı və Kəraçidə 1390-cı il Şəvvəl ayının 27-dən 29-dək (1970-ci il dekabrın 26-dan 29-dək) keçirilmiş Xarici İşlər Nazirlərinin II Konfransına əsasən;

Ümumi əqidələrinin müsəlman xalqları arasında yaxınlıq və həmrəylik işi üçün güclü amil olduğuna əmin olaraq;

Bəşəriyyətin tərəqqisi üçün vacib amillərdən biri olmaqda davam edən İslamın iqtisadi, ictimai, əxlaqi və mənəvi dəyərlərini mühafizə etməyi qərara alaraq;

Əsas insan hüquqlarına, məqsəd və prinsipləri bütün xalqlar arasında məhsuldar əməkdaşlığın əsasını təşkil edən BMT Nizamnaməsinə sadiq olduqlarını bir daha təsdiq edərək;

Öz xalqları arasında qardaşlıq və mənəvi dostluq tellərini möhkəmləndirməyə, ədalət, dözümlülük və ayrıseçkilik prinsipinə əsaslanan öz ümumi mədəni irsini mühafizə etməyə səy edərək;

Bəşəriyyətin səadətinin möhkəmləndirilməsi, onun azadlığı və bütün sahələrdə tərəqqisi naminə davranaraq;

Öz xalqları, dünyanın bütün xalqları üçün təhlükəsizlik, azadlıq və ədalət təmin edən, bütün dünyada sülhü bərqərar etmək üçün səylərini birləşdirməyə çalışaraq, bu Nizamnaməni qəbul etdilər.

Maddə I

Üzv dövlətlər İslam Konfransı Təşkilatını təsis edirlər.

Maddə II

Məqsəd və prinsiplər

A. Məqsədlər

İKT-nin məqsədləri aşağıda-

kılardır:

1.Təşkilatın üzvü olan dövlətlər arasında islami həmrəyliyin möhkəmləndirilməsi;

2.Təşkilatın üzvü olan dövlətlər arasında elm, mədəniyyət, sosial, iqtisadi və başqa vacib həyati sahələrdəki əməkdaşlığın dəstəklənməsi, eləcə də, digər beynəlxalq təşkilatlarda üzv dövlətlər arasında məşvərətlərin həyata keçirilməsi;

3.İrqi ayrı-seçkiliyin və müstəmləkəçiliyin bütün formalarının ləğv edilməsinə yardım göstərilməsi;

4.Ədalət əsasında beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsinə yardım etmək;

5.İşğal edilmiş müqəddəs yerlərin azad edilməsi və toxunulmazlığını təmin etmək uğrunda mübarizəni əlaqələndirmək, Fələstin xalqının öz hüquqlarının qaytarılması və ərazisinin azad edilməsi yolundakı mübarizəsinin dəstəklənməsi;

6.Bütün islam xalqlarının öz ləyaqət, istiqlaliyyət və milli hüquqlarını qorumaq uğrundakı mübarizəsinin dəstəklənməsi;

7.Üzv dövlətlərin digər dövlətlərlə əməkdaşlıq və qarşılıqlı anlaşması üçün şərait yaradılması;

B. Prinsiplər

Üzv dövlətlər Nizamnamənin məqsədlərini həyata keçirmək naminə qəbul etdiyi qətnamə və öhdəliklərdə aşağıdakı prinsipləri rəhbər tuturlar:

1.Üzv dövlətlər arasında tam bərabərlik;

2.Müqəddəratını təyin etmə hüququna ehtiram və üzv dövlətlərin daxili işlərinə qarışmamaq;

3.Hər bir dövlətin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə ehtiram;

4.Üzv dövlətlər arasında baş verə biləcək mübahisələrin dinc vasitələr-danışıqlar, vasitəçilik, barışıq, ya da arbitraj vasitəsilə həll edilməsi;

5. Təşkilata üzv dövlətlər öz aralarındakı münasibətlərdə hər hansı bir üzv dövlətin ərazi bütövlüyünə, toxunulmazlığına və yaxud siyasi müstəqilliyinə qarşı zor işlətməkdən və zor işlətmək təhlükəsindən çəkinməsi.

Maddə III

İslam Konfransı Təşkilatının orqanları:

1. Krallar, Dövlət və Hökumət Başçılarının konfransı.

2. Xarici İşlər Nazirlərinin Konfransı.

3. Baş Katiblik və onun tabeliyində olan təşkilatlar.

Maddə IV

Krallar, Dövlət və Hökumət başçıları konfransı

Krallar, Dövlət və Hökumət Başçılarının Konfransı Təşkilatın ali orqanıdır. İslam aləminin birinci dərəcəli problemlərinin həlli və taşkilatın siyasətini uzlaşdırmaq məqsədi ilə toplanır.

Maddə IV

(Yeni)

(Üçüncü zirvə konfransı)

Krallar, Dövlət və Hökumət Başçılarının Konfransı Təşkilatın ali orqanıdır.

Krallar, Dövlət və Hökumət Başçılarının Konfransı müntəzəm surətdə zirvə səviyyəsində 3 ildən bir, eləcə də islam ümmətinin marağı tələb edən hallarda İslam aləminin birinci dərəcəli problemlərinin həlli və təşkilatın siyasətini uzlaşdırmaq məqsədi ilə keçirilir.

Maddə V

Xarici İşlər Nazirlərinin Konfransı

1.a) İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirləri və ya akkreditə olunmuş səfirlər səviyyəsində ildə bir dəfə, eləcə də buna ehtiyac olan hallarda hər hansı bir üzv dövlətdə keçirilir.

b) Hər hansı bir üzv dövlətin və ya Baş Katibin tələbi ilə və üzv dövlətlərin 2/3 hissəsinin razılığına əsasən növbədən kənar konfrans keçirilir. Həmin razılıq bütün üzv dövlətlərə bu tələbin çatdırılması ilə alına bilər.

v) Xarici İşlər Nazirlərinin Konfransı Krallar, Dövlət və Hökumət başçıları Konfransının çağırılması təklifini verə bilər. Konfransın keçirilməsi üçün razılıq bu təklifi bütün üzv dövlətlərə çatdırmaqla əldə edilir.

2.Xarici İşlər Nazirlərinin Konfransı aşağıdakı məsələlərlə əlaqədar çağrıla bilər:

a) təşkilatın ümumi siyasətini həyata keçirmək üçün lazımi vasitələr məsələsinə baxış;

b) əvvəlki sessiyalarda qəbul edilmiş qərarların yerinə yetirilməsinə nəzarət;

v) İKT Nizamnaməsinin məqsəd və vəzifələrinə uyğun, qarşılıqlı marağa əsaslanan məsələlər üzrə qərarların qəbul edilməsi;

v) İKT Nizamnaməsinin məqsəd və vəzifələrinə uyğun, qarşılıqlı marağa əsaslanan məsələlər üzrə qərarların qəbul edilməsi;

q) Maliyyə komissiyasının hesabatının müzakirəsi və Baş Katibliyin büdcəsinin təsdiqi;

d) 1. Konfrans Baş Katibi təyin edir.

2. Konfrans Baş Katibin təqdimatına əsasən onun üç müavinini təyin edir.

2.(Yeni)

(III İslam Zirvə Konfransı)

Konfrans Baş Katibin təqdimatına əsasən onun üç müavinini təyin edir. Baş katibin Qüdsi-şərif və Fələstin üzrə dördüncü müavinini təyin edir.

3.Baş Katib öz müavinlərinin namizədliyini təqdim edərkən onların qabiliyyətini, təmənnasızlığını, Nizamnamənin məqsədlərinə inamını və eləcə də ədalətli coğrafi bölgü prinsipinə riayət edir.

d) Xarici İşlər Nazirlərinin növbəti konfransının keçiriləcəyi yeri və vaxtın təyin edilməsi;

e) Hər hansı dövlətin və ya dövlətlər qrupunun mənafeyinə dəlalət edən hər bir problemin araşdırılması və tədbirlər görülməsi lazım gələrsə;

4.Xarici İşlər Nazirləri Konfransının qətnamə və təklifləri toplaşanların 2/3 hissəsinin razılığına əsasən

qəbul edilir.

5.Üzv dövlətlərin 2/3 hissəsinin iştirakı konfransın keçirilməsi üçün yetərsay hesab edilir.

6.Xarici İşlər Nazirləri Konfransı özü əməl edəcəyi, Krallar, Dövlət və Hökumət Başçıları Konfransının istifadə edə biləcəyi prosedura qaydaları qəbul edir. Hər bir toplantı üçün sədr seçir. Qəbul edilmiş qaydalar Krallar, Dövlət və Hökumət Başçıları Konfransının və ya Xarici İşlər Nazirləri Konfransının təsis etdiyi köməkçi təşkilatlarda istifadə edilir.

Maddə VI
(redaktə edilmiş)

1.Baş Katiblik Baş Katib tərəfindən Konfrans təyin etdiyi gündən etibarən 2 il müddətinə idarə edilir. Onun təyinatı daha 2 il müddətinə yalnız bir dəfə uzadıla bilər.

1./Yeni/
III İslam Zirvə Konfransı:

Baş Katiblik Konfransın təyin etdiyi Baş Katib tərəfindən 4 il müddətinə idarə edilir. Göstərilən müddət bir daha uzadıla bilməz.

2.Baş Katib üzv ölkə vətəndaşlarından onların qabiliyyətini, təmənnasızlığını və eləcə də ədalətli coğrafi bölgü prinsipini nəzərə alaraq katibliyin əməkdaşlarını təyin edir.

3.Nə Baş Katibin, nə onun müavinlərinin, nə də Baş Katibliyin əməkdaşlarının öz vəzifələrinin icrası üçün Konfrans xaricində heç bir hökumət və heç bir hakimiyyətdən heç bir təlimat tələb etməyə və təlimat almağa ixtiyarı yoxdur.

Onlar, yalnız Konfrans qarşısında məsul olan bir beynəlxalq əməkdaş kimi, öz mənsəblərinə ziyan vura biləcək hər cür davranışdan imtina etməlidirlər.

Üzv dövlətlər onların bu statusuna və məsuliyyətlərinə hörmət etməyə və eləcə də öz vəzifələrini yerinə yetirərkən onlara hər hansı bir vasitə ilə təsir göstərməkdən imtina edəcəklərinə söz verirlər.

4.Baş Katiblik üzv dövlətlər arasında əlaqəni həyata keçirir və bu dövlətlər arasında ümumi maraq kəsb edən məşvərətlər, fikir mübadiləsi və məlumatların yayılmasına şərait yaradır.

5. Qüds azad edilənədək Baş Katiblik müvəqqəti ciddə şəhərində yerləşəcək.

6.Baş Katiblik Konfransın qəbul etdiyi qətnamə və qərarların yerinə yetirilməsinə nəzarət edir və bu haqda Konfransa məruzə təqdim edir. Katiblik Konfransın qərar və qətnamələri çərçivəsində üzv dövlətləri bilavasitə işçi sənədlərlə təmin edir.

7.Baş Katiblik Konfransın iclaslarını təşkilati və idari sahədə qəbul edən dövlətlə əməkdaşlıqda hazırlayır.

8.İKT qəbul etmiş olduğu imtiyazlar və səlahiyyətlər haqqındakı Sazişin əsasında:

a) Konfrans öz funksiyalarını yerinə yetirmək və öz məqsədlərini həyata keçirmək üçün üzv dövlətlərdə qanuni səlahiyyətlərdən, toxunulmazlıqdan və imtiyazlardan istifadə edir.

b) Üzv dövlətlərin nümayəndələri Konfransla bağlı vəzifələrini yerinə yetirmək üçün lazımi toxunulmazlıq və imtiyazlardan istifadə edirlər.

v) Konfransın əməkdaşları öz vəzifələrini yerinə yetirmək üçün Konfransın qərarlarına müvafiq olaraq toxunulmazlıq və imtiyazlardan istifadə edirlər.

Maddə VII
Maliyyə

1.Üzv dövlətlər öz milli gəlirlərinə müvafiq olaraq Katibliyin fəaliyyətinin idarə edilməsi ilə bağlı olan bütün xərcləri ödəyirlər.

2.Katiblik öz maliyyə fəaliyyətini Xarici İşlər Nazirləri Konfransının qəbul etdiyi təlimatlara və müddəalara uyğun olaraq həyata keçirir.

3.Daimi maliyyə komissiyası Konfrans tərəfindən təşkil edilir və iştirak edən dövlətlərin akkreditə olunmuş nümayəndələrindən ibarət olur.

Komissiya öz iclaslarına Baş Katibliyin qərargahında toplanır və Xarici İşlər Nazirləri Konfransının təsdiq etdiyi müddəalar əsasında Baş Katibliyin büdcəsinə nəzarəti həyata keçirmək üçün Baş Katibə köməklik göstərir.

Maddə VIII
Üzvlük

İslam Konfransı Təşkilatı Rabatda Krallar, Dövlət və hökumət Başçılarının İslam Konfransında iştirak edən (dövlətlər), ciddədə və Kəraçidəki İslam dövlətləri Xarici İşlər Nazirləri Konfranslarında iştirak edən dövlətlər və hazırkı Nizamnaməni imzalayan dövlətlərdən ibarətdir.

Hər bir islam dövləti Baş Katibliyə Xarici İşlər Nazirlərinin növbəti Konfransında baxılmaq məqsədi ilə, bu Nizamnaməyə əməl etmək arzusunu və hazırlığını əks etdirən ərizə ilə müraciət etməklə İslam Konfransı Təşkilatına qoşulmaq hüququna malikdir.

Qoşulma Konfrans üzvlərinin 2/3 hissəsinin razılığı yolu ilə həyata keçirilir.

Maddə IX

Baş Katiblik İKT-nın ümumdünya əhəmiyyətli digər müsəlman təşkilatları ilə əlaqələrinin möhkəmlənməsi məqsədi ilə, Konfransın razılığı əsasında hazırkı Nizamnamə çərçivəsində fəaliyyət göstərir və eləcə də hazırkı Nizamnamə tərəfindən müəyyən edilmiş islam məqsədlərinin rifahı naminə əməkdaşlığı həyata keçirir.

Maddə X

1.Üzv dövlətlər sırasından olan hər bir dövlət Baş Katibi yazılı surətdə xəbərdarlıq etmə və bütün üzv dövlətlərə də bu haqda məlumat vermə yolu ilə İKT üzvlüyündən çıxa bilər.

2.Təşkilatdan çıxan Dövlət çıxmaq haqqında ərizə verdiyi maliyyə ilinin sonuna qədər öz maliyyə öhdəliklərini və eləcə də Konfrans barəsində digər ola bilən maliyyə öhdəliklərini yerinə yetirir.

Maddə XI

Hazırkı Nizamnamədə üzv dövlətlərin 2/3-nin razılığı və təsdiqi ilə

dəyişikliklər edilir.

Maddə XII

Hazırkı Nizamnamənin oxunuşunda, tətbiqində və ya yerinə yetirilməsində meydana gələ bilən hər bir ziddiyyət məsləhətləşmə, danışıqlar, razılığa gəlmə və ya arbitraj yolu ilə bir halda dostluq əhval-ruhiyyəsində həll edilir.

Maddə XIII

Ərəb, ingilis və fransız dilləri Konfransın rəsmi dilləridir.

Maddə XIV

Hazırkı Nizamnamənin bəyənilməsi və təsdiq edilməsi İKT üzvü olan dövlətlər tərəfindən xüsusi müddəalara uyğun olaraq həyata keçirilir.

Hazırki Nizamnamə Baş Katibliyə 1392-ci il Məhərrəmin 14-dən 18-dək, müvafiq 1972-ci il fevralın 29-dan martın 3-dək ciddə şəhərində keçirilmiş Xarici İşlər Nazirlərinin III Konfransının iştirakçıları dövlətlərinin sadəcə çoxluğu tərəfindən təsdiq fərmanlarının Baş Katibliyə verilməsindən sonra qüvvəyə minir.

Nizamnamə 1 fevral 1974-cü ildə BMT Nizamnaməsinin 102 maddəsinə uyğun olaraq BMT-da qeydə alınmışdır.

İSLAM KONFRANSI TƏŞKİLATI VƏ AZƏRBAYCAN RESPUBLİKASI

İslam Konfransı Təşkilatı hazırda 55 müsəlman dövlətini özündə birləşdirir.

Azərbaycanın İKT-yə daxil olmasını ölkənin xarici siyasətindəki mövqeyini möhkəmləndirən amillərdən biri kimi səciyyələndirmək olar. Öz tarixi keçmişi, mədəni və mə'nəvi dəyərləri ilə islam aləminin ayrılmaz hissəsi olan Azərbaycan Respublikası 1991-ci ilin dekabrında İKT-yə üzv qəbul olunmuşdur. Respublikamız İKT-yə üzv olan dövrdən e'tibarən Təşkilatın və onun üzv dövlətlərinin ardıcıl dəstəyinə nail olmuşdur. Belə ki, bundan təqribən 3 ay sonra Azərbaycan Respublikası Hökumətinin müraciətinə cavab olaraq, İKT-nin Baş Katibi doktor Həmid əl-Qabid öz müavini Məhəmməd Möhsinin rəhbərlik etdiyi nümayəndə hey'ətini Azərbaycana göndərmişdir.

Səfərdən məqsəd Azərbaycandakı ictimai-siyasi vəziyyətlə və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün mövcud imkanlarla tanış olmaq olmuşdur. Nümayəndə hey'əti Respublika rəhbərliyi ilə görüşüb danışıqlar aparmış, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistanda, İranda, Türkiyədə, Rusiyada olmuş, bu ölkələrin xarici işlər nazirliklərinin vəzifəli şəxsləri ilə, eləcə də BMT-nin xüsusi nümayəndəsi Sayrus Venslə məsləhət xarakterli görüşlər keçirmişdir. Hey'ət geri döndükdən sonra 31 mart 1992-ci ildə İKT Baş Katibi, Dağlıq Qarabağda vəziyyətlə əlaqədar bəyanatla çıxış etmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki münaqişə ilə əlaqədar dərin narahatlıq keçirdiyini ifadə etmiş və üzv dövlətlərə, humanitar təşkilatlara Dağlıq Qarabağa yardım göstərilməsi ilə bağlı müraciət etmişdir. Bəyanatda Baş Katib tərəfləri atəşi dayandırmağa və ziddiyyətləri aradan qaldırmaq üçün sülh yolunu seçməyə çağırmışdır. Bu bəyanat 1992-ci il aprelin 1-də dünya mətbuatı ilə yayılmışdır.

1992-ci il sentyabr ayında Nyu-Yorkda BMT Baş Məclisinin sessiyası çərçivəsində İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin koordinasiya toplantısı keçirilmişdir. Toplantının Yekun Sənədinə Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar bir maddə salınmışdır. Həmin maddədə Dağlıq Qarabağ məsələsi ilə bağlı Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar dərin narahatlıq hiss qeyd olunmuş və beynəlxalq qəbul edilmiş sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipləri öz əksinin tapmışdır.

1993-cü ilin aprel ayında Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilmiş İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin XXI Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü pislənmiş, erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilə-

rindən tə'cili çıxarılması və Ermənistandan Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət etməsi tələb edilmişdir.

23 noyabr 1993-cü ildə BMT iqamətgahında keçirilmiş İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı son təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək bəyanat qəbul etmişdir. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdir. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faizdən çox ərazisinin işğalı nəticəsində ölkədəki yaranmış vəziyyət, bir milyondan artıq qaçqının meydana çıxması öz əksini tapmışdır. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hissələrini ifadə etmiş və Ermənistanın son təcavüzünü sülhə və əmin-əmanlığa təhlükə yaratdığını qeyd etmişlər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin Azərbaycan qaçqınlarına tə'cili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər.

1994-cü ilin sentyabr ayında İKT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı aramsız hücumu və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənilmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırılmışdır.

Prezident Heydər Əliyevin və Xarici İşlər Naziri Həsən Həsənovun İKT Baş Katibi doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar Respublikamızla İKT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi nəzərdən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İKT Baş Katibi səfərdən qayıtdıqdan sonra Respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir.

Azərbaycan Respublikasının İKT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi olmuşdur. Azərbaycan Prezidentinin Kə'bəyə ümrə ziyarəti, İslamın İki Müqəddəs Ocağının xadimi, Səudiyyə Ərəbistanı Kralı Fəhd bin Abduləziz əl-Saudla məhsuldar danışıqları və İKT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırmışdır.

1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT-yə üzv ölkələrin dövlət və hökumət

başçılarının Zirvə Toplantısında iştirak etmişdir.

İKT katibliyinin və bir sıra dövlətlərin xahişi ilə Azərbaycan Respublikasının Prezidenti Konfransın açılış mərasimində Asiya dövlətləri adından təbrik nitqi söyləmişdir.

Zirvə Konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar çox ciddi və müfəssəl bir qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın təcavüzü hərtərəfli əks etdirilmiş və Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması, qaçqınların öz yurd-yuvalarına qayıtması, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həlli məsələsi qoyulmuş, Şuşa və Laçın rayonlarının azad edilməsi problemi konkret surətdə öz əksini tapmışdır.

Konfransın qəbul etdiyi ikinci qətnamə Ermənistan təcavüzü nəticəsində bir milyondan artıq qaçqının olması ilə əlaqədar Azərbaycan Respublikasına iqtisadi və humanitar yardım göstərməsi bərdə olmuşdur. Qətnamə erməni qüvvələrinin Azərbaycan torpaqlarının işğalına son qoymaq və Azərbaycanın ərazi bötövlüyünü bərpa etmək üçün beynəlxalq birliyi ciddi və tə'cili addımlar atmağa çağırmış, üzv dövlətlərə, islam institutlarına və beynəlxaq təşkilatlara Azərbaycana iqtisadi və humanitar yardım göstərməyə çağırmışdır.

VII Zirvə Toplantısı Yekun sənədi qəbul etmiş və bu sənəddə də bir çox məsələlərlə bərabər Ermənistanın Azərbaycana qarşı təcavüzü də öz əksini tapmışdır.

Səfər zamanı Azərbaycan Prezidenti İKT rəhbərliyi ilə keçirdiyi səmərəli görüşlərlə bərabər, Azərbaycanla İKT-yə üzv ölkələr arasında olan əlaqələri genişləndirmək və inkişaf etdirmək məqsədilə bir sıra ölkələrin dövlət və hökumət başçıları ilə ikitərəfli görüşlər keçirmişdir. Bunlardan Küveyt Dövlətinin Əmiri Şeyx cabir əl-Əhməd Əs-Sabah, BƏƏ-nin Prezidenti Şeyx Zaid bin Sultan ən-Nəhyan, İordaniya Kralı Hüseyn ibn Tələl, Bruney Sultanı Muda Həssən əl-Bolkiah Muizəddin Vaddaulla, Türkiyə Prezidenti Süleyman Dəmirəl, Misir Prezidenti Hüsni Mübarək, Malayziyanın Baş Naziri Mahadi Məhəmməd, Fələstin Dövlətinin Başçısı Yasir Ərəfat, Maldiv adalarının Prezidenti Mə'mun Abdul Qəyyum, Pakistanın Baş Naziri Binəzir Bhutto, Səudiyyə Ərəbistanı Kralının qardaşı, Vəliəhd Abdulla ibn Əbdüləziz, İran İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayəti və s. ilə keçirilmiş görüşləri göstərmək olar. Keçirilmiş bu səmərəli görüşlər Azərbaycanla müsəlman ölkələri arasındakı münasibətlərin inkişafına və genişləndirilməsinə böyük təkan vermişdir. Ermənistan-Azərbaycan münaqişəsinin ilk dəfə 1994-cü ildə İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salınması mühüm əhəmiyyət kəsb edir. Bu kimi siyahılar İKT tərəfindən hər il BMT-yə təqdim edilir.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 1996-cı ilin dekabr ayında İndoneziyanın paytaxtı cakarta

şəhərində keçirilmiş XXIV Konfransında iştirak etmiş Azərbaycan nümayəndə hey'ətinin sə'yləri nəticəsində Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünə dair yeni qətnamə qəbul edilmişdir. Qətnamə Ermənistanı, Azərbaycanı və Minsk qrupuna daxil olan bütün üzv dövlətləri ATƏT-in sülh prosesində prinsipial surətdə iştirak etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür əməldən çəkinməyə çağırmışdır.

Qətnamənin 7-ci və 8-ci bəndlərində bildirilir ki, "bütün üzv dövlətləri, Ermənistanı-təcavüzkarı münaqişəni şiddətləndirməyə və Azərbaycan ərazisinin işğalını davam etdirməyə təşviq edən, silah və hərbi sursat təqdim etməkdən imtina etməyə çağırır və İKT- yə üzv dövlətlərin əraziləri bu kimi tranzitdən istifadə edilməməlidir. Ermənistanın təcavüzə və Azərbaycan torpaqlarının işğalına son qoyması üçün bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə müraciət edərək, Ermənistana qarşı hər cür tə'sirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır".

Konfrans eyni zamanda Azərbaycan Respublikasına humanitar yardım göstərilməsi haqqında qətnamə qəbul etmişdir. Konfransın qəbul etdiyi Yekun sənədinin Azərbaycana dair hissəsində Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bərabər, münaqişənin sülh yolu ilə həllinə dair Lissabon sammitinin prinsipləri tam şəkildə öz əksini tapmışdır.

İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 1994-cü ilin sentyabrında İslamabadda keçirilmiş VII növbədənkənar konfransı, 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş VII Zirvə Toplantısı və XXII konfransı, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII konfransı, 1996-cı ilin dekabr ayında cakartada keçirilmiş XXIV konfransı İKT Baş Katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə mə'ruzəsini müzakirə edərək, Ermənistanın Azərbaycana qarşı təcavüzünü kəskin şəkildə pisləmiş, erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tə'cili surətdə çıxarılmasını, Ermənistandan Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməsini ciddi surətdə tələb etmişdir.

23 mart 1997-ci il tarixində Azərbaycan Respublikası Milli Məclisinin Sədri Murtuz Ələsgərovun başçılıq etdiyi nümayəndə hey'əti İKT-yə üzv ölkələrin dövlət və hökumət başçılarının İslamabadda keçirilmiş Fövqəl'adə Zirvə Toplantısında iştirak etmiş, Azərbaycan Respublikası adından nitq söyləmişdir. Zirvə Toplantısında qəbul edilmiş İslamabad Bəyannaməsinə Azərbaycanla bağlı bir bənd əlavə edilmişdir. Həmin bənddə Azərbaycana qarşı yönəldilmiş təcavüz qətiyyətlə pislənmiş və Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsinə çağırılmışdır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin adı çəkilən bəyannamənin layihəsinə qabaqcadan əlavə etdiyi düzəliş və əlavələr də qəbul edilmiş İslamabad Bəyannaməsində öz əksini tapmışdır.

4 oktyabr 1997-ci il tarixində BMT Baş Məclisinin 52-ci Sessiyası çərçivəsində BMT iqamətgahında keçirilmiş İKT xarici işlər nazirlərinin Koordinasiya Toplantısının Yekun Bəyanatında islam dünyasının digər problemləri ilə yanaşı Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü də öz əksini tapmışdır.

Toplantı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü pisləmiş və erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb etmiş, ərazilərin güc tətbiq etməklə işğalının yolverilməzliyini bir daha təsdiq etmişdir. Münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırmışdır.

9-11 dekabr 1997-ci il tarixlərində İKT VIII Zirvə Toplantısında iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin başçılıq etdiyi nümayəndə hey'əti dekabrın 8-də Tehrana gəlmişdir. Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Süleyman Dəmirəl, Misir Xarici İşlər Naziri Amr Musa, İndoneziya Xarici İşlər Naziri Əli Alatas, BMT nəzdində Ərzaq və Kənd təsərrüfatı Təşkilatı kimi fəaliyyət göstərən FAO-nun Baş Direktoru Jak Diof, İKT Baş Katibi İzzəddin Laraki və Fələstin Dövlətinin Başçısı Yasir Ərəfatla məhsuldar görüşləri olmuşdur.

Dekabrın 9-da Konfrans öz işinə başlamışdır. Konfransı İran İslam Respublikasının dini rəhbəri Ayətulla Xomneyi açmışdır. Konfransa İran Prezidenti Məhəmməd Xatəmi Sədrlik etmişdir.

Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə hey'ətinin başçısı Xarici İşlər Naziri Rəşid Abdulla, Suriya Prezidenti Hafiz əl-Əsəd və İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəmi ilə görüşmüşdür.

Konfransın ikinci günü dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Zirvə Toplantısında toplantı iştirakçılarını salamlayaraq, nitq söyləmişdir. Ölkə başçımız öz çıxışında İKT-nin beynəlxalq aləmdəki rolundan danışmış, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar, münaqişənin sülh yolu ilə həllinə dair Azərbaycanın rəsmi mövqeyini bir daha açıqlamış və İKT rəhbəliyinə və üzv dövlətlərin başçılarına İKT toplantılarında Ermənistanın təcavüzkar siyasətini pisləyərək, ədalətli qərarlar qəbul etdiklərinə görə təşəkkürünü bildirmişdir.

Azərbaycan Prezidenti həmin gün Livan Prezidenti İlyas Həravi, Tacikstan Prezidenti İmaməli Rahmonov, Ərəb Dövlətlər cəmiyyətinin Baş Katibi İsmət Abdul Məcid, Pakistan İslam Respublikasının Baş Naziri Nəvaz Şərif, İran İslam Respublikasının dini rəhbəri Ayətulla Xamneyi, Livanın Baş Naziri Rafik əl-Həriri, Səudiyyə Ərəbistanı nümayəndə hey'ətinin başçısı Vəliəhd Əmir Abdulla və s. şəxslərlə bir sıra

ikitərəfli görüşlər keçirmiş və kütləvi informasiya vasitələrinə müsahibələr vermişdir.

Konfransda İKT xarici işlər nazirlərinin 1996-cı ilin dekabr ayında cakartada keçirilmiş XXIV konfransında "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü" nə dair qətnamə üzv dövlətlərin başçıları tərəfindən qəbul edilmişdir. Konfransda eyni zamanda erməni təcavüzü nəticəsində eveşiklərindən didərgin düşmüş Azərbaycan qaçqınlarının vəziyyətinin yüngülləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasına iqtisadi yardım haqqında" qətnamə qəbul edilmişdir. Zirvə Toplantısında qəbul edilmiş Tehran Bəyannaməsinin 8-ci bəndi, toplantı iştirakçılarının "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü onların qəbul etməmələrini ifadə edir və Ermənistan qoşunlarının işğal edilmiş bütün ərazilərdən bütünlükle çıxarılmasına və Ermənistan-Azərbaycan münaqişəsinin tezlikle və sülh yolu ilə həll edilməsinə çağırır". Konfransın Yekun Bəyanatının 56-cı bəndi Ermənistanın Azərbaycana qarşı təcavüzünə aid edilmişdir. Adı çəkilən bənddə qeyd edilir ki, "Konfrans ATƏT-in Hazırkı Sədrinin 1996-cı ildə Lissabon Sammitindəki bəyanatında ifadə olunmuş Ermənistan və Azərbaycan arasında münaqişənin nizama salınmasının üç prinsipinə tərəfdar olduğunu bir daha təsdiq etdi və həmçinin Ermənistan-Azərbaycan silahlı münaqişəsinin nizama salınmasının mərhələlərlə həyata keçirilməsini ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar üçün əsas kimi hesab edən ATƏT-in Minsk konfransı həmsədrlərinin son təkliflərini dəstəklədiyini bildirdi və bu addımı Azərbaycan Respublikasına qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının tə'minatçısı hesab etdi".

Konfransın mədəniyyət sahəsinə dair İslam Tarixi, İncəsənəti və Mədəniyyəti araşdırmalar Mərkəzinə (IRCICA, İstambul) dair qəbul etdiyi qətnaməsinin 7-ci bəndində qeyd edilir ki, Konfrans, "Mərkəzin, 1998-ci ilin payızında Bakı şəhərində Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin himayəsi altında və Azərbaycan Respublikasının Xarici işlər nazirliyi və Azərbaycan Elmlər Akademiyası ilə birlikdə Qafqazda İslam sivilizasiyasına dair beynəlxalq simpoziumunun keçirməsini alqışlayır".

İKT xarici işlər nazirlərinin 15-17 mart 1998-ci il tarixlərində Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçiriləcək XXV konfransına hazırlıq məqsədilə Xarici İşlər Nazirliyi "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü"nə dair Tehran Zirvə Toplantısında qəbul edilmiş qətnaməyə yeni düzəliş və əlavələr edərək xarici işlər nazirlərinin XXV konfransında dəstəklənməsi üçün Respublikamızın xarici ölkələrdəki səfirliklərinə göndərmişdir. Görülən tədbirlər nəticəsində Konfransda "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair qətnamə" yekdillikle qəbul edilmiş və azərbaycan tərəfinin qətnamə layihəsinə etdiyi düzəliş və əlavələr, (11 və 12-ci bəndlər əlavə edilmiş və 10 və 18-ci bəndlərə düzəlişlər edilmişdir) qəbul edilmiş Qətnamədə tam şəkildə öz əksini tapmışdır. Konfrans bir daha Ermənistanın təcavüzkar siyasətini pisləmiş və Azərbaycan Respublikasının ərazi bütövüyünə, suverenliyinə hörmət etməyə çağırmışdır.

Konfransda "Azərbaycan Respublikasına maliyyə və iqtisadi yardım haqqında" qəbul edilmiş qətnamədə bütün üzv dövlətlərə, islam institutlarına və beynəlxalq təşkilatlara Azərbaycana iqtisadi və humanitar yardım göstərmək üçün müraciət edilmişdir.

Konfransın Yekun Bəyanatında Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair bənd öz əksini tapmışdır.

Konfransın İslam Tarixi, İncəsənəti və Mədəniyyəti araşdırmalar Mərkəzinə dair qəbul etdiyi Qətnamənin 7-ci bəndində bir daha adı çəkilən Mərkəzin, 1998-ci ilin payızında Bakı şəhərində Zati-alilərinizin himayəsi altında Azərbaycan Respublikası Elmlər Akademiyasının Xarici işlər nazirliyi ilə birlikdə Qafqazda İslam sivilizasiyasına dair beynəlxalq simpoziumun keçirməsini bir daha alqışladığı qeyd edilmişdir.

Bu dövr ərzində Azərbaycan Xarici işlər Nazirliyi ilə İKT Baş Katibliyi arasında sıx işgüzar əlaqələr və diplomatik yazışmalar mövcud olmuşdur. Məhz bu işgüzar əlaqələrin nəticəsi olaraq, İKT rəhbərliyi 1994-cü ilin sonunda Rusiya Hökumətinin Azərbaycanı Rusiya Federasiyası ilə birləşdirən bütün yolları bağlamaq haqqında qərarının ləğv edilməsini tələb etmiş, 1995-ci il noyabrın 27-də İKT Baş Katibi doktor Həmid əl-Qabid Dağlıq Qarabağ bölgəsindəki qeyri-qanuni prezident seçkiləri ilə əlaqədar bəyanat vermiş və İKT Baş Katibiliyi Dağlıq Qarabağda 1 sentyabr 1997-ci il tarixində keçirilmiş qeyri-qanuni prezident seçkiləri ilə bağlı Bəyanat qəbul etmişdir. Həmin bəyanatlarda İKT Baş Katibliyi regionda sabitliyin pozulmasına xidmət edən bu qeyri-qanuni seçkiləri pisləmiş, onların heç bir hüquqi əsasa malik olmadığını bir daha təsdiq etmişdir.

Qeyd etmək lazımdır ki, İKT erməni-azərbaycan münaqişəsi ilə əlaqədar istər Respublikamızın rəhbərliyi, istərsə də BMT və ATƏT-lə koordinasiyalı şəkildə iş aparır. Buna misal olaraq, İKT Baş Katibi İzzəddin Larakinin Ermənistanın Azərbaycan Respublikasına təcavüzü ilə bağlı ATƏT-in Hazırkı Sədri, Danimarka Xarici İşlər Naziri Naylz Helveq Petersenə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə, Xarici İşlər Naziri Həsən Həsənova ünvanladığı məktubları göstərmək olar.

İKT Baş Katibinin ATƏT-in Həmsədrinə göndərdiyi məktubda qeyd edilir ki, "İKT-nin fikrincə, münaqişənin sülh yolu ilə ədalətli həlli dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanmalıdır. Biz, ATƏT-in Minsk qrupunun münaqişənin siyasi yolla həllinə təşviq edən cəhdlərini alqışlayırıq. İKT-nin cakartada keçirilmiş Konf-

ransı, ATƏT-in 1996-cı il 2-3 dekabr tarixlərində Lissabonda keçirilmiş Zirvə Toplantısının Yekun sənədinə - Deklorasiyaya əlavə edilmiş ATƏT-in İcraçı Sədrinin münaqişənin 3 prinsipi əsasında tam həlli barədə 3 dekabr tarixli Bəyanatını dəstəklədiyini bildirmişdir". Məktubun sonunda bildirilir ki, "İKT, Minsk qrupunun üzvlərindən Ermənistanın təcavüzünə son qoyulması və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması yolunda fəaliyyətlərini sür'ətləndirməyi tə'kidlə xahiş edir".

Azərbaycan xarici siyasətinin islam aləmindəki aktivliyi və İKT daxilindəki fəaliyyəti Ermənistanın diqqətindən yayınmamış və belə təmasları zəiflətmək məqsədilə Ermənistan bir sıra islam dövlətləri ilə, o cümlədən Səudiyyə Ərəbistanı və Körfəz ərəb ölkələri ilə əlaqə yaratmağa təşəbbüs göstərmişdir. Buna rədd cavabı aldıqdan sonra ermənilər səfirlik açdıqları və erməni icmalarının fəal olduğu ölkələr (Livan, Suriya, Misir, İran) vasitəsi ilə öz fəaliyyətlərini davam etdirirlər. Onlar bu məqsədlə bir sıra müsəlman ölkəsində, xüsusilə Suriya, Livan, İran və Misirdə olan erməni icmasının əlaqələrindən geniş surətdə istifadə edirlər.

Ermənistan-Azərbaycan münaqişəsi üzrə qəbul edilmiş İKT-nin Kasablanka zirvəsinin və xarici işlər nazirləri konfranslarının qətnamələri Ermənistan rəhbərliyinin ciddi narahatlığına səbəb olmuş və bə'zi islam dövlətlərindəki Ermənistan diplomatları bu ölkələrin siyasətinə tə'sir etməyə təşəbbüs göstərmiş və onların vasitəsi ilə İKT-yə münaqişəyə "birtərəfli yanaşmamaq" və sənədlərin kəsərliliyini zəiflətmək haqqında dəfələrlə müraciət etmişlər.

Ermənistan tərəfi Ermənistan - Azərbaycan münaqişəsi üzrə İKT-nin mövqeyinə tə'sir etmək üçün bir sıra müsəlman ölkələrindən erməni lobbisinin fəaliyyətindən istifadə etməklə bərabər Rusiyanın və İKT-nin üzvü olan bə'zi Orta Asiya respublikalarının da imkanlarından istifadə etməyə sə'y göstərir.

Lakin bütün bunlara baxmayaraq İKT Baş Katibliyinin Nazirliklə sıx əlaqədə olaraq Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair qətnamə layihələri hazırlayıb İKT xarici işlər nazirlərinin konfranslarına hazırlıq məqsədi ilə keçirilən yüksək rütbəli mə'murlar toplantılarının müzakirəsinə təqdim edilməsi bir adət şəklini almışdır.

İKT ölkələri Xarici işlər nazirlərinin 1993-cü ilin aprel ayında Karaçidə keçirilmiş XXI Konfransı, 1994-cü ilin sentyabr ayında İslamabadda keçirilmiş VII növbədənkənar Konfransı, 1994-cü ilin dekabr ayında Kasablankada keçirilmiş XXII, 1995-ci ilin dekabrında Konakridə keçirilmiş XXIII, 1996-cı ilin dekabrında cakartada keçirilmiş XXIV, 1998-ci ilin mart ayında Dohada keçirilmiş XXV və 1999-cu ilin iyun ayında Uaqaduquda keçirilmiş XXVI Konfransları İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəsini müzakirə etmiş, onu Ermənistanın Azərbaycana qarşı təcavüzü kimi qiymətləndirərək, kəskin surətdə pisləmiş, erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyi Ermənistandan ciddi surətdə tələb etmişdir.

1996-cı ilin 9-13 dekabr tarixlərində İKT Xarici işlər nazirlərinin cakartada keçirilmiş XXIV Konfransında ilk dəfə olaraq, İKT-nin Ermənistan-Azərbaycan münaqişəsinə dair 1993-cü ildən qəbul etdiyi qətnamələrin adı dəyişdirilərək, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" Qətnamə adlandırılmışdır.

XXIV cakarta konfransında qəbul edilmiş "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü" haqqında Qətnamənin 16-cı maddəsinə əsasən, İKT-nin Ermənistanın təcavüzünə dair mövqeyi barəsində Baş katibin məktubunun hazırlanması ilə əlaqədar, Azərbaycan tərəfi Baş katiblik ilə müvafiq məşvərətlər keçirmişdir.

İKT Xarici işlər nazirlərinin XXIV Konfransı Ermənistan təcavüzü ilə əlaqədar siyasi və iqtisadi qətnamələr qəbul etməklə yanaşı, özünün Yekun bəyanatında ATƏT-in dövlət və hökumət başçılarının Lissabon Zirvə görüşünün sənədlərinə daxil edilmiş ATƏT-in İcraçı Sədrinin Dağlıq Qarabağ probleminin həlli üzrə 3 dekabr 1996-cı il tarixli Bəyanatını dəstəklədiyini bildirmişdir.

XXIV Konfrans Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından çıxarılması, qaçqınların öz yurdlarına qayıtması, Şuşa və Laçın rayonlarının azad edilməsi və s. problemləri əks etdirən siyasi və Ermənistan təcavüzü nəticəsində bir milyondan artıq qaçqının olması ilə əlaqədar islam dövlətlərinin Azərbaycana təcili humanitar və iqtisadi yardım göstərməsi haqqında iqtisadi Qətnamələr qəbul edilmişdir. 1997-ci ildə İKT-nin fəaliyyəti tarixində çox nadir və müstəsna bir hadisə baş vermişdir - bu il ərzində həm İKT dövlət və hökumət başçılarının növbədənkənar Zirvə Konfransı, həm də dövlət və hökumət başçılarının növbəti VIII Konfransı keçirilmişdir. Göstərilən tədbirlərdə Respublikamızın ən yüksək səviyyələrdə təmsil edilməsi islam aləmində rəğbətlə qarşılanmışdır.

1997-ci ilin mart ayının 23-də Pakistanın paytaxtı İslamabadda ölkənin müstəqilliyinin 50-ci ildönümünə həsr edilmiş İKT Dövlət və Hökumət başçılarının növbədənkənar Zirvə Konfransı keçirilmişdir. Bu Konfransının qəbul etdiyi İslamabad Bəyannaməsində, Azərbaycan tərəfinin təklifləri öz əksini tapmışdır:

Bəyannamənin əsas mətninə əlavə olunmuş 10-cu bənd bütövlüklə Azərbaycana aiddir: "Azərbaycana qarşı edilmiş təcavüz ciddi şəkildə pislənilir. Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə çağrılır".

12-ci bənd bütünlüklə əlavə edilmişdir: "Üzv dövlətlərin hər birinin milli suverenliyini, təhlükəsizliyini, və ərazi bütövlüyünü qorumaq hüququnu qeyd edir".

17-ci bəndə "hərbi münaqişələr

nəticəsində qaçqın və köçkünə çevrilmiş" düzəlişi əlavə edilmişdir.

Ermənistanın ən müasir zirehli döyüş texnikası ilə silahlanması haqqında Azərbaycan Xarici işlər nazirliyinin və Rusiya İnformasiya Agentliyinin bəyanatlarının, Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisində yaydığı təftişdənkənar silah və döyüş sursatı haqqında məlumatın, Azərbaycan Milli Məclisinin 14 mart 1997-ci il tarixində Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinə müraciətinin, İKT-nin rəsmi sənədi kimi üzv dövlətlər arasında yayılması və daha sonra bu haqda İKT-nin bəyanat verməsi haqqındakı Azərbaycan tərəfinin müraciətləri İKt Baş katibliyi tərəfindən müsbət qarşılanmışdır.

Azərbaycanın Dağlıq Qarabaq bölgəsindəki üzdəniraq "prezident seçkiləri" ilə əlaqədar, Respublikamızın Milli Məclisinin və Dağlıq Qarabağın azərbaycanlı əhalisi tərəfindən verilən bəyanatlar İKT Baş katibliyinə təqdim edilmişdir.

İKT Baş katibliyinin verdiyi 15 sentyabr 1997-ci il tarixli mətbuat bəyanatında bu addım "beynəlxalq hüquq prinsiplərinə zidd bir provakasiya aktı" kimi qiymətləndirilmişdir.

BMT BA 52-ci sessiyası çərçivəsində 4 oktyabr 1997-ci il tarixində BMT-nin Qərargahında keçirilmiş İKT Xarici işlər nazirlərinin koordinasiya toplantısının Yekun bəyanatında islam aləminin digər problemləri ilə yanaşı Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü məsələsi də öz əksini tapmışdır.

1997-ci il 1-4 noyabr tarixlərində İstambulda keçirilmiş İKT-yə üzv ölkələrin İqtisadi və Ticarət Əməkdaşlıq üzrə Daimi Komitəsi (KOMSEK) Ermənistanın Azərbaycan Respublikasına təcavüzü ilə əlaqədar Respublikamıza tə'cili maliyyə və humanitar yardım göstərilməsi barədə qətnamə qəbul etmişdir (Bu kimi qətnamələr 1993-cü ildən e'tibarən adı çəkilən təşkilatın toplantılarında qəbul edilir).

9-11 dekabr 1997-ci il tarixində Tehranda keçirilmiş VIII Zirvə Konfransı, İKT dövlət və hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII Zirvə Konfransının qəbul etdiyi qətnamə ilə müqayisədə, mahiyyət etibarı ilə daha geniş və təsirli qətnamə qəbul etmişdir. Qətnamənin adı dəyişdirilərək, "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında Qətnamə" əvəzinə, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında Qətnamə" adlandırdılmışdır.

İKT Dövlət və Hökumət başçılarının VIII Zirvə Konfransı eyni zamanda "ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda", Ermənistan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı və bir milyonadək əhalisinin zorla qovulması ilə müşayiət olunan əməllərini pisləyərək, Azərbaycan Hökuməti və xalqı ilə tam həmrəylik ifadə edərək, İslam Konfransı Təşkilatına üzv dövlətlərə, islam qurumlarına və eləcə də beynəlxalq təşkilatlara müraciət edərək, Azərbaycana lazimi iqtisadi,

maliyyə və humanitar yardım göstərilməsi haqqında da qərar qəbul etmişdir.

1998-ci ilin 10-12 fevral tarixində ciddədə İKT Xarici işlər nazirlərinin XXV konfransına hazırlıq məqsədi ilə keçirilmiş Yüksək rütbəli məmurlar toplantısında Azərbaycan tərəfi Baş katibliyin İKT Xarici işlər nazirləri konfransının müzakirəsinə təqdim edəcəyi Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə layihəsinə mühüm əlavə və düzəlişlər etməyə nail olmuşdur.

Azərbaycan tərəfinin xahişinə əsasən, 30 dekabr 1998-ci il tarixində İKT Baş katibi İ.İraqi Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü ilə əlaqədar İKT-yə üzv dövlətlərin mövqeyi haqqında ATƏT-in sabiq icraçı sədri, Polşanın Xarici işlər naziri B.Qeremikə məlumat vermişdir.

1999-cu ilin 28 iyun-1 iyul tarixində Burkina-Faso Respublikasının paytaxtı Uaqaduquda keçirilmiş İKT xarici işlər nazirlərinin XXVI konfransı həmin sənədi müzakirə edərək, yekdillikle qəbul etmişdir.

Konfransın açılış mərasimində BMT Baş katibinin məktubu oxunmuşdur. Məktubda Kofi Anan BMT ilə İKT arasında əməkdaşlıq məsələlərindən bəhs edərkən Dağlıq Qarabağ problemini də qeyd etmişdir.

İKT Xarici işlər nazirlərinin XXVI konfransı Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü ilə bağlı üç mühüm qətnamə qəbul etmişdir:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında Qətnamə;

2. Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında Qətnamə;

3. Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğaq olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında Qətnamə.

İKT-yə üzv dövlətlərin Xarici İşlər Nazirlərinin XXVI Konfransında qəbul edilən siyasi və iqtisadi Qətnamələrlə yanaşı ilk dəfə qəbul edilən "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" Qətnamədə İslam dövlətlərinin BMT-nin Təhlükəsizlik Şurasının Laçın və Şuşa rayonları daxil olmaqla, Azərbaycanın işğal olunmuş bütün ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılması, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi tələbi təsdiqlənərək, Ermənistan tərəfindən etnik təmizləmə siyasəti nəticəsində islam abidələrinin, mədəni dəyərlərinin dağıdılması, talan edilməsi və s. vandalizm aktları qəti surətdə pislənir, üzv-dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsi İKT Baş Katibliyindən xahiş edilir.

İKT Dövlət və hökumət başçılarının 9-cu Zirvə toplantısı (11-13 noyabr, 2000-ci il) Ermənistan Respub-

lıkasının Azərbaycana qarşı təcavüzü ilə bağlı üç mühüm qətnamə qəbul etmişdir. Azərbaycanın maraqlarına tam şəkildə uyğun olan həmin qətnamələr İKT-yə üzv dövlətlərin rəhbərləri tərəfindən yekdillikle qəbul olunmuşdur.

Həmin qətnamələr aşağıdakılardır:

-"Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında Qətnamə";

-"Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında Qətnamə";

-"Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycan Respublikasının İşğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında Qətnamə".

Fərəhli haldır ki, İslam Konfransı Təşkilatının Zirvə görüşündə ilk dəfə olaraq Ermənistanın təcavüzü nəticəsində ölkəmizin tarix və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması ilə əlaqədar çox mühüm qətnamə qəbul edilmişdir.

İKT Dövlət və hökumət başçılarının 9-cu Zirvə toplantısının qəbul etdiyi "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında Qətnamə"də Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü kəskin şəkildə pislənir, cənubi Qafqazın bu iki dövləti arasında Dağlıq Qarabağ ətrafındakı münaqişəsinin sülh yolu ilə nizama salınması haqqında ATƏT-in 1996-cı ilin dekabrında Lissabon Zirvə görüşündə qəbul edilmiş əsas prinsiplər - Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması və onun toxunulmazlığının təmin edilməsi, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək status verilməsi və Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi və s. bu kimi məsələlər öz əksini tapmışdır.

Qətnamə "bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır;

Eyni zamanda, İKT-yə üzv dövlətlərin ərazisinin hərbi təchizatın tranziti üçün istifadə edilməməsi vurğulanır;

İKT-yə üzv dövlətlər və dünya birliyinin digər ölkələri Ermənistanın təcavüzünə və Azərbaycan ərazisinin işğalına son qoyulması üçün bütün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadə etməyə çağırır;

Zirvə konfransı bu siyasi qətnamə ilə yanaşı, "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında Qətnamə" qəbul etmişdir. Qətnamədə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək azərbaycanlı əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan zorakılıq aksiyaları pislənir, ölkənin tarixi üçün belə çətin vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə edilir, Azərbaycan xalqının ağrılarını yüngülləşdirmək məqsədi ilə İKT-yə üzv dövlətlərə, islam qurumlarına və eləcə də beynəlxalq təşkilatlara müraciət edilir və Respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardımların göstərilməsi tövsiyə edilir.

İKT Dövlət və hökumət başçılarının 9-cu Zirvə toplantısının Respublikamızla bağlı qəbul etdiyi "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında Qətnamə" adlı üçüncü qətnamə geniş və əhatəli preambuladan və 7 bənddən ibarətdir. Qətnamədə "erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olnmuş ərazilərində islam sivilzasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətləri" ciddi surətdə pislənir, "aldığı zərərlərə görə Azərbaycanın təzminat almaq hüququnun olduğu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığı" vurğulanır, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məscidlərin, təhsil ocaqlarının, kitabxanaların, muzeylərin İKT-yə üzv dövlətlərin köməyi ilə bərpası üçün İKT-nin bölmələri və ixtisaslaşdırılmış qurumları yardım proqramlarının təşkili imkanlarını araşdırmağa çağrılır, problemə dair İslam Konfransı Təşkilatına üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsi İKT Baş Katibdən xahiş edilir.

Zirvə toplantısı İKT Baş katibinin Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair müvafiq hesabatını dinləyərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində islam sivilizasiyasının tam məhv edilməsinə yönəlmiş vəhşi hərəkətlərini kəskin pisləmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeydşərtsiz və mütləq yerinə yetirilməsini tələb etmiş, münaqişə ilə bağlı İKT-yə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsini İKT Baş katibindən xahiş etmişdir.

Zirvə toplantısında nümayəndə heyətləri başçılarının çıxışları dinlənilmişdir. Azərbaycan Respublikasının Xarici işlər naziri V.Quliyev Konfransda çıxış edərək, Qatar Dövlətinin Əmiri Şeyx Hamad bin Xəlifə Əl-Təniyə və toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin salamlarını və Zirvə görüşünün uğurla keçirilməsi barədə arzularını çatdırmışdır.

Çıxışda Emənistan Respublikasının Azərbaycana qarşı təcavüzü və Respublika rəhbərliyinin bu təcavüzün ağır nəticələrinin aradan qaldırılması istiqamətində fəaliyyəti açıqlanmaqla yanaşı, İKT-yə üzv dövlətlərin, ümumiyyətlə islam aləminin bir sıra problemlərinə dair Respublikamızın mövqeyi də şərh edilmişdir.

Səudiyyə Ərəbistanı, Türkiyə və Banqladeş nümayəndə heyəti başçılarının çıxışında, habelə İKT-nin VIII Zirvə görüşünün sədri, İİR Prezidenti M.Xatəminin çıxışında və İKT Baş katibinin məruzəsində Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü məsələsinə geniş

yer ayrılmış və Azərbaycan Respublikasının mövqeyinin dəstəkləndiyi bildirilmişdir.

Toplantı zamanı Xarici işlər naziri V.Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Qatar Dövlətinin Əmiri Şeyx Hamad bin Xəlifə Əl-Təniyə ünvanlanmış məktubunu Qatarın xarici əlaqələr üzrə Dövlət Naziri Ə.Abdallah Mahmuda təqdim etmişdir.

Toplantı zamanı həmçinin Azərbaycan nümayəndə heyətinin Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Əmir Abdallah bin Əbdüləziz və Xarici işlər naziri Əmir Səud Əl-Feysəl, Küveyt Dövlətinin Baş Nazirinin birinci müavini, Xarici işlər naziri Şeyx Sabah Əl-Əhməd Əl-cabir Əs-Sabah, İordaniya Haşimiyyə Krallığının Xarici işlər naziri Abdullah Əl-Xətib, Türkiyə Respublikasının Xarici işlər naziri İ.cem, İran Xarici işlər naziri K.Xərrazi, Tunis Xarici işlər naziri Həbib bin Yahya, Mərakeş Xarici işlər və əməkdaşlıq naziri Məhəmməd Benaissa, Suriya xarici işlər nazirinin müavini V.Əl-Muallim, İKT Baş katibi İzzəddin İraqi və başqaları ilə görüşləri keçirilmişdir.

2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X Zirvə toplantısında da Azərbaycan haqqında eyni adlı qətnamələr qəbul etmişdir.

Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, yeni bəndlər əlavə edilmişdir: "Bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sürsatı təchizatından imtina etməyə çağırır; İKT-yə üzv dövlətin ərazisi hərbi təchizatın tranziti üçün istifadə edilməməlidir; İKT-yə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistan təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyəti Ermənistanın üzərinə qoyur; bu məsələ üzrə İKT-yə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırkı sədrinə məlumat verməsini İKT Baş katibindən tələb edir" və s.

İKT Dövlət və Hökumət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İKT münasibətlərinin hazırkı vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayət olunan əməlləri pislənilir, ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan xalqının əzab-əziyyətini yüngülləşdirmək məqsədi ilə İKT-yə üzv dövlətlərə, islam qurumlarına və eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Konfrans ölkəmizlə bağlı üçüncü sənəd - "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" qətnaməni qəbul etmişdir. Geniş və əhatəli preambula və 7 bənddən ibarət bu qətnamə işğal edilmiş torpaqlarımızdakı mədəniyyət və tarixi abidələrimizin müdafiəsinə yönəlmişdir.

Konfrans İKT Baş katibinin bu haqda müvafiq hesabatını nəzərdən keçirərək, erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhvinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləmiş, BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və mütləq yerinə yetirilməsini tələb etmiş, problemlə bağlı İKT-yə üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verməsini İKT Baş katibindən xahiş etmişdir.

Respublikamızla bağlı bütün qətnamə layihələrinin təqdim etdiyimiz şəkildə, mübahisəsiz, heç bir düzəliş və təftişə məruz qalmadan qəbul olunması bir daha təsdiq edir ki, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dönmədən dəstəkləyir. Bu da öz növbəsində düzgün qurulmuş xarici siyasətimizin nəticəsidir. Prezident Heydər Əliyevin İKT dövlət və hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII və 1997-ci ildə Tehranda keçirilmiş VIII zirvə konfranslarında şəxsi iştirakı, oradakı nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzzəddin İraqi dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sora curnalistin sualına verdiyi aşağıdakı cavab fikrimizə əyani sübutdur: "Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik... Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir".

İKT-yə daxil olan ölkələrin və İslam İnkişaf Bankının göstərdiyi yardım Respublikamız üçün böyük əhəmiyyət kəsb edir. Son illər Azərbaycanın İİB ilə əməkdaşlığı sahəsində də köklü dəyişikliklər əmələ gəlmişdir.

1992-ci ildə İslam İnkişaf Bankının Direktorlar Şurası Azərbaycana 1,96 mln. ABŞ dolları məbləğində təmənnasız yardım ayırmışdır. Yardım aşağıdakı kimi bölünmüşdür:

-Qaçqınlara humanitar yardım göstərilməsinə - 500 min dollar (ərzaq məhsulları göndərilmişdir);

-Qaçqınların iş yerləri ilə tə'min edilməsi məqsədilə 1 milyon ABŞ dolları (6 iyul 1996-cı ildə Azərbaycan Milli Bankında bu məbləğə depozit açılmışdır);

-Bakıda institut və məktəblərin tikintisinə - 335 min ABŞ dolları (məbləğ keçirilmişdir);

-5 məktəbin tikintisinə- 125 min dollar;

İslam İnkişaf Bankı Azərbaycan qaçqınları üçün 1994-cü ildən e'tibarən hər il təqribən 40 tona yaxın ət göndərir.

1994-cü ilin iyun ayında İslam İnkişaf Bankının Direktorlar Şurası Mil-Muğan kanalının tikilişinin maliyyələşdirilməsi üçün ölkəmizə 9,8 mln. ABŞ dolları məbləğində imtiyazlı kredit ayırmışdır. 1994-cü ilin sentyabr ayında bu məsələ ilə əlaqədar Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı arasında Saziş imzalanmışdır. Bu Saziş 1996-cı ilin aprel ayından qüvvədədir. 1995-ci ilin may ayında həmin Bankın Direktorlar Şurası "Azərbalıq" Dövlət Kompaniyası tərəfindən 5 balıq tutan gəmi alınması üçün 5 mln. ABŞ dolları ayrılması haqqında qərar qəbul etmişdir.

İİB Azərbaycan Respublikası Hökumətinə təmənnasız olaraq 1,225 mln. ABŞ dolları ayırmışdır. Həmin məbləğ ölkəmizin sosial-iqtisadi inkişafına dair aşağıdakı layihələrin texniki-iqtisadi hazırlığı üçün nəzərdə tutulmuşdur:

-Ələt - Hacıqabul avtomobil yolunun tikilişi (245 min ABŞ dolları);

-Samur - Apşeron kanalının tikintisi (280 min ABŞ dolları);

-Binə-Bakı Hava limanında yeni anqarın tikilişi (280 min ABŞ dolları);

-Xırdalanda uşaq qida məhsulları istehsalı zavodunun tikilişi (230 min ABŞ dolları);

-Lənkəranda tomat pastası istehsal edən zavodun tikilişi.

1997-ci ilin yanvar ayında Direktorlar Şurası Ələt-Hacıqabul avtomobil yolunun tikilişi layihəsinin həyata keçirilməsi üçün 13, 144 mln. ABŞ dolları ayrılması haqqında qərar qəbul etmişdir. Həmin layihə koordinasiya qrupunun üzvü olan Küveyt Ərəb İnkişaf Fondu ilə birlikdə həyata keçirilir.

İİB-in təşəbbüsü ilə 1996-cı ilin sentyabr ayında Bakıda Biznes Konfransı keçirilmişdir ki, həmin konfransda Bankın Prezidenti və Direktorlar Şurasının üzvləri ilə yanaşı müxtəlif müsəlman ölkələrindən olan 180 iş adamı iştirak etmişdir. İİB-nın rəhbərliyi adı çəkilən tədbirin nəticələrini, xüsusilə Respublika rəhbərliyi və şəxsən Prezident Heydər Əliyevlə keçirilmiş görüşləri yüksək qiymətləndirmişdir.

Hal-hazırda İİB Konfrans zamanı əldə edilmiş proqram və razılaşmaların həyata keçirilməsinə istiqamətləndirilmiş fəaliyyətlə məşğuldur. Həmçinin Azərbaycan tərəfindən irəli sürülmüş, qəbul edilmiş və yeni layihələrin həyata keçirilməsi ilə əlaqədar olan məsələlər də öyrənilir.

İİB-nin Prezidentinin də'vəti ilə Azərbaycan Respublikası Baş Nazirinin müavini Abid Şərifovun başçılıq etdiyi nümayəndə hey'əti 5-8 iyul 1997-ci il tarixində Səudiyyə Ərəbistanına rəsmi səfər etmişdir. Səfər zamanı Ələt-Hacıqabul yolunun tikintisi üçün İİB tərəfindən 13,144 mln. ABŞ dolları məbləğində imtiyazlı kredit ayrılması üçün saziş imzalanmış və İİB rəhbərliyi ilə bir sıra müzakirələr aparılmışdır.

Respublikamızın sosial-inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İİB təmənnasız olaraq 1.424 milyon dollar ayırmışdır. İİB-in respublikamıza təqdim etdiyi güzəştli kreditin ümumi məbləği 74 milyon dollardan artıqdır.

Səudiyyə Ərəbistanının humanitar müəssisələri, Kral Fəhd adına yardım proqramı, Körfəz ölkələrinin bir sıra humanitar təşkilatlarının və fondlarının yardımı qeyd olunan sənədlər əsasında həyata keçirilir.

Əlavə № 1

17/27-P

ERMƏNİSTAN RESPUBLİKASININ AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI TƏCAVÜZÜ HAQQINDA QƏTNAMƏ

İslam Konfransı Təşkilatı (İKT) xarici işlər nazirlərinin Malayziyanın paytaxtı Kuala-Lumpurda 24-27 Rəbiul Əvvəl 1421-ci Hicri il (27-30 iyun 2000-ci il) tarixində keçirilən XXVII Konfransı,

İKT Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində 20 faizdən artıq Azərbaycan ərazisinin işğalından dərin narahat olaraq.

Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqının aqibəti və humanitar problemlərin böyük həcmindən təsirlənərək;

Ötən konfransların bu problemlə bağlı müvafiq bütün qətnamələrini, xüsusilə, İran İslam Respublikasının Tehran şəhərində 9-11 Şaban 1418-ci Hicri il (9-11 dekabr 1997-ci il) tarixində keçirilmiş İKT Dövlət və Hökumət Başçılarının VIII Zirvə konfransının 12/8-P(IS) saylı qətnaməsini bir daha təsdiq edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhlükə yaratdığını dərk edərək;

BMT Nizamnaməsi və Təhlükəsizlik Şurasının qətnamələrinin tam şəkildə icrasına ciddi surətdə əməl edilməsinə çağıraraq;

Münaqişənin həlli üzrə edilən bütün diplomatik və digər səyləri alqışlayaraq;

Bütün dövlətlərin Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə ehtiramını bir daha təsdiq edərək;

Ərazilərin güc tətbiq etmə yolu ilə alınmasının qəbul edilməzliyini bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkar siyasətin ATƏT çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsirini dərk edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında İKT Baş katibinin məruzəsini (ICFM/27-2000/PIL/D.7 saylı sənədi) nəzərə alaraq:

1.Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir.

2.Təcavüz nəticəsində işğal edilmiş Azərbaycan ərazisində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirir.

3.İşğal edilmiş Azərbaycan ərazisində arxeoloji, mədəni və islam abidələrinin talan və məhv edilməsini qətiyyətlə pisləyir.

4.BMT Təhlükəsilik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılmasını qəti surətdə

tələb edir. Ermənistanı ciddi surətdə Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə dəvət edir.

5.Təhlükəsizlik Şurasının qətnamələrinin müddəalarının Ermənistan tərəfindən yerinə yetirilməməsindən narahat olduğunu bildirir.

6.Azərbaycana qarşı edilən təcavüzün Təhlükəsizlik Şurası tərəfindən etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci bəndinə uyğun olaraq, öz qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımların atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək, təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT-də koordinasiyalı fəaliyyətdə olmağı qərara alır.

7.Bütün üzv dövlətləri Ermənistanı - təcavüzkarı münaqişəni şiddətləndirməyə və Azərbaycan ərazisinin işğalını davam etdirməyə təşviq edən, silah və hərbi sursat təqdim etməkdən imtina etməyə çağırır. İKT-yə üzv dövlətin ərazisi bu kimi yüklərin tranziti üçün istifadə edilməməlidir.

8.Ermənistanın təcavüzə və Azərbaycan torpaqlarının işğalına son qoyması üçün bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə müraciət edərək, hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır.

9.Ermənistan və Azərbaycan arasındakı münaqişəni dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə ehtiram əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır.

10.Ermənistanı, Azərbaycanı və Minsk qrupuna daxil olan bütün üzv dövlətləri, BMT-nin Təhlükəsizlik Şurasının bu haqda müvafiq qətnamələrinə və ATƏT-in 24 mart 1992-ci il tarixli Şuranın Birinci Əlavə Görüşünün, ATƏT-in 5-6 dekabr 1994-cü il Zirvəsinin, ATƏT-in 2-3 dekabr 1996-cı il tarixli Zirvəsinin, ATƏT-in 18-19 dekabr 1997-ci il tarixli Nazirlər Şurasının görüşünün qətnamə və sənədlərinə əsasən ATƏT-i davam edən sülh prosesində konstruktiv surətdə iştirak etməyə dəvət edir və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür əməldən çəkinməyə çağırır.

11.ATƏT-in 1996-cı ildə Lissabonda keçirilmiş Zirvə görüşünün İcraçı sədrinin Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin həlli üzrə üç prinsipi - Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağın yüksək idarəetmə hüququnu, Dağlıq Qarabağın və onun bütün sakinlərinin təmin edilmiş təhlükəsizliyini əhatə edən bəyanatını tamamilə dəstəklədiyini bildirir.

12.Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin mərhələlərlə həlli istiqamətində Minsk Qrupu Həmsədrlərinin təkliflərini ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar üçün əsas hesab edir və dərk edir ki, bu şəkildə yanaşma Azərbaycan Respublikasına qarşı təcavüzün ciddi nəticələrinin aradan qaldırılmasını dərhal təmin etməlidir.

13.Azərbaycan hökuməti və xalqının, ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir.

14.Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaratmağa çağırır.

15.Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir və digər dövlətləri

onlara yardım göstərməyə çağırır.

16. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün qarşılaşdığı kəskin humanitar vəziyyətlə əlaqədar narahat olduğunu bildirir və üzv dövlətlər, İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardımı göstərmələrini xahiş edir.

17.Hesab edir ki, Azərbaycan ona dəymiş ziyanın müqabilini almaq hüququna malikdir və Ermənistan bu ziyanın müqabilini ödəmək üzrə tam məsuliyyət daşıyır.

18.Baş katibdən bu qətnamənin yerinə yetirilməsinə nəzarət və bu haqda İKT Xarici İşlər Nazirlərinin XXVIII konfransına məruzə etməsini xahiş edir.

Əlavə № 2

20/27-E

AZƏRBAYCAN RESPUBLİKASINA İQTİSADİ YARDIM HAQQINDA QƏTNAMƏ

İKT xarici işlər nazirlərinin (İslam Ümməti xalqlarının xoş gələcəyi naminə Konfrans) Dohada, Qatar Dövlətində, 1418-ci il zülqədə ayının 17-21-də (miladi tarixi ilə 15-19 mart 1998-ci il) keçirilmiş XXV Toplantısı,

İKT Dövlət və Hökumət Başçılarının Tehranda keçirilmiş VIII Zirvə Konfransının qəbul etdiyi 18/8-E saylı qətnaməsini xatırlayaraq;

Eləcə də İKT xarici işlər nazirlərinin XXVI Konfransının 18/26-E saylı qətnaməsini xatırlayaraq;

Ölkənin tarixindəki təhlükəli dövr və böhran vəziyyətində İKT-yə üzv dövlətlərin Azərbaycan hökuməti və xalqı ilə tamamilə həmrəyliyini təsdiq edərək;

BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə əlaqədar müvafiq qətnamələrinə istinad edərək;

Ermənistanın Azərbaycanın Yuxarı Qarabağ bölgəsində apardığı hərbi əməliyyatlar nəticəsində, Azərbaycanın təqribən 20 faizədək ərazisinin işğalı, həmçinin qəddarlıqla həyata keçirilən hücumlar nəticəsində, 1 milyonadək azərbaycanlının öz doğma yurdlarından zorla qovulmağa məcbur edilməsi, eləcə də insan hüquqlarının kobud şəkildə pozulması ilə müşayiət olunan bu təcavüz əməllərini pisləyərək;

İKT-yə üzv dövlətlərin Azərbaycan hökuməti və xalqı ilə həmrəy olduğunu daha konkret ifadə etməyin zəruriliyini etiraf edərək;

Bir sıra İKT-yə üzv dövlətlərin və müvafiq qurumların, BMT təsisatlarının və beynəlxalq təşkilatların təqdim etdiyi yardımı alqışlayaraq və qiymətləndirərək;

İqtisadi, mədəni və sosial məsələlər üzrə XXI İslam komissiyasının tövsiyələrini nəzərdən keçirərək;

Eləcə də, Baş katibin məruzəsini nəzərə alaraq;

1.Üzv dövlətləri və İslam qurumlarını Azərbaycan xalqının əzablarını yüngülləşdirmək məqsədi ilə Azərbaycan hökumətinə lazımi iqtisadi və humanitar yardım göstərməyə çağırır.

2.Beynəlxalq təşkilatları Azərbaycanı təcili maliyyə və humanitar yardım ilə təmin etməyi davam etdirməyə dəvət edir.

3.İKT xarici işlər nazirlərinin XXVII Konfransına bu haqda məruzə təqdim etməsini Baş katibdən xahiş edir.

Əlavə № 3

25/27-C

ERMƏNİSTAN RESPUBLİKASININ TƏCAVÜZÜ NƏTİCƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İSLAM TARİXİ VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MƏHV EDİLMƏSİ VƏ DAĞIDILMASI HAQQINDA QƏTNAMƏ

İslam Konfransı Təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirlərinin 27-30 iyun 2000-ci ildə Malayziyada, Kuala-Lumpurda keçirilmiş XXVII Konfransı:

İslam irsinin qorunması və müdafiəsinə dair İslam Konfransı Təşkilatının (İKT) Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Azərbaycan tarixinin, mədəniyyətinin, arxeologiyasının, etnoqrafiyasının və arxitekturasının, Azərbaycanın və onun xalqının tarixinin ayrılmaz hissəsi kimi İslam irsinin mənbələrindən biri olduğunu dərk edərək;

BMT-nin Təhlükəsizlik Şurasının Laçın və Şuşa rayonları daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını, Ermənistan tərəfindən Azərbaycan Respublikasının suverenliyi və ərazi bürövlüyünə hörmət edilməsini israrla tələbi barədə 822, 853, 874 və 884 saylı qətnamələrini təsdiq edərək;

Habelə, Ermənistan ilə Azərbaycan arasında münaqişəyə dair Kasablankada (Mərakeş Krallığı, 13-14 dekabr 1994-cü il) İslam Konfransı Təşkilatı Dövlət və Hökumət Başçılarının VII Konfransının P-22 saylı qətnaməsini, eyni zamanda Tehranda keçirilən İslam Konfransı Təşkilatı Dövlət və hökumət başçılarının VIII Konfransının Ermənistanın Azərbaycan Respublikasına təcavüzü barədə 12/ 8-P (İS) qətnaməsini (İİR 9-11dekabr 1997-ci il) və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının İcraiyyə şurasının XIV sessiyasının erməni təcavüzü nəticəsində Azərbaycanın işğal edilmiş ərazisində məscidlərin, təhsil və mədəniyyət müəssisələrinin dağıdılması haqqında qətnaməsini təsdiqləyərək;

Ermənistan tərəfindən etnik təmizləmə məqsədi ilə Azərbaycanda məscidlərin və digər islam məbədlərinin tam və vəhşiliklə dağıdılmasının vandalizm aktı olduğunu bəyan edərək;

Ümumi İslam mədəni irsinin qorunması istiqamətində birgə razılaşdırılmış fəaliyyəti nəzərdə tutan siyasətin aparılmasının vacibliyini dərk edərək;

Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində erməni təcavüzkarları tərəfindən İslam irsinə vurulmuş böyük zərərlərin, İslam mədəniyyətinə aid misilsiz abidələrin, habelə məscidlərin, məbədlərin, məzarlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya bir qisminin dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və tarixi əlyazmaların çıxarılması və məhv edilməsi faktlarını nəzərə alaraq;

Bu məsələyə dair İslam Konfransı Təşkilatı Baş katibinin hesabatını nəzərdən keçirərək;

1.Erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olnmuş ərazilərində islam sivilzasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləyir.

2.Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və mütləq yerinə yetirilməsini tələb edir.

3.Bununla bağlı Azərbaycan hökuməti və xalqının narahatlıq və həyəcanını tam bölüşdürür, onun hərbi təcavüzün dayandırılması və nəticələrinin aradan qaldırılmasına yönəlmiş səylərini dəstəkləyir, həmçinin, hərbi münaqişələr baş verdiyi zaman dövlətlərin işğal olunmuş ərazilərdən mədəni dəyərlərin çıxarılmasının qarşısını almaq barədə öz üzərinə götürdükləri öhdəliklərini nəzərdə tutan "Hərbi münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının müddəalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar çərçivəsində səylərini dəstəklədiyini ifadə edir.

Dövlətlər habelə mədəni dəyərlərin hər hansı şəkildə oğurlanması, talan edilməsi və ya onların qanunsuz mənimsənilməsini, eyni zamanda həmin dəyərlərə qarşı hər hansı vandalizm aktlarını qadağan etmək və belə hərəkətlərin qarşısını almaq, lazım gəldikdə isə aradan qaldırmağı öz üzərinə götürmüşlər. Onlar digər dövlətlərin ərazisində yerləşən səyyar mədəni dəyərlərin müsadirəsini qadağan edirlər.

4.Aldığı zərərlərə görə Azərbaycanın təminat almaq hüququnun olduğunu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığını hesab edir.

5.Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məscidlərin, təhsil ocaqlarının, kitabxanaların, muzeylərin İKT-yə üzv dövlətlərin yardımı ilə bərpası üçün İKT-nin bölmələrini və ixtisaslaşdırılmış qurumlarını yardım proqramının təşkili imkanlarını araşdırmağa çağırır.

6.Bu problemə dair İslam Konfransı Təşkilatına üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsini İKT Baş Katibyindən xahiş edir.

7.İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirlərinin XXVIII Konfransına bu haqda məruzə təqdim etməsini Baş katibdən xahiş edir.

Əlavə № 4

İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN DÖVLƏTLƏR VƏ ONLARIN TƏŞKİLATA DAXİL OLMA İLİ

1. Albaniya	1992	30. Livan	1976
2. Azərbaycan Respublikası	1991	31. Liviya	1969
3. Banqladeş	1974	32. Mavritaniya	1969
4. Benin	1982	33. Malayziya	1969
5. Bəhreyn	1970	34. Mali	1969
6. BƏƏ	1970	35. Maldiv Respublikası	1976
7. Bosniya və Hersoqovina	1997	36. Mərakeş	1969
8. Bruney	1984	37. Mərkəzi Afrika Respublikası	1997
9. Burkina - Faso	1975	38. Misir	1969
10. Cibuti	1997	39. Mozambik	1994
11. Çad	1969	40. Niger	1969
12. Əfqanıstan	1969	41. Nigeriya	1986
13. Əlcəzair	1969	42. Oman	1970
14. Fələstin	1969	43. Özbəkistan	1996
15. İndoneziya	1969	44. Pakistan	1969
16. İordaniya	1969	45. Səudiyyə Ərəbistanı	1969
17. İraq	1976	46. Seneqal	1976
18. İran	1969	47. Sudan	1969
19. Kamerun	1975	48. Suriya	1970
20. Komor adaları İslam Federativ Respublikası	1976	49. Surinam	1996
21. Küveyt	1969	50. Somali	1969
22. Qabon	1974	51. Syerra-Leone	1972
23. Qayana	1997	52. Tacikistan	1992
24. Qambiya	1974	53. Toqo	1997
25. Qvineya-Bisau	1969	54. Tunis	1969
26. Qvineya Respublikası	1974	55. Türkiyə	1969
27. Qatar	1970	56. Türkmənistan	1994
28. Qazaxıstan	1995	57. Uqanda	1974
29. Qırğızıstan	1992	58. Yəmən	1969

Əlavə № 5

İKT-YƏ ÜZV OLAN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTILARI

MƏRAKEŞ

I Zirvə toplantısı, Rabat 22-25 sentyabr 1969

PAKİSTAN

II Zirvə toplantısı, Lahor, 22-24 fevral 1974

SƏUDİYYƏ ƏRƏBİSTANI

III Zirvə toplantısı, Məkkə və Taif, 25-28 yanvar 1981

MƏRAKEŞ

IV Zirvə toplantısı, Kasablanka, 16-19 yanvar 1984

KÜVEYT

V Zirvə toplantısı, Küveyt, 26-29 yanvar 1987

SENEQAL

VI Zirvə toplantısı, Dakar, 9-11 dekabr 1991

MƏRAKEŞ

VII Zirvə toplantısı, Kasablanka, 13-15 dekabr 1994

İRAN

VIII Zirvə toplantısı, Tehran, 9-11 dekabr 1997

PAKİSTAN

Birinci növbədənkənar Zirvə toplantısı, İslamabad, 23 mart 1998 (Pakistanın 50 illiyinə həsr olunmuşdur).

QATAR

IX Zirvə toplantısı, Doha, 12-13 noyabr 2000

KUALA LUMPUR

X Zirvə toplantısı, noyabr 2003-cü il

Əlavə № 6

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ ÖLKƏLƏRLƏ DİPLOMATİK ƏLAQƏLƏRİNİN YARADILMASI TARİXLƏRİ

(xronoloji sıra ilə)

1992

1. Türkiyə 14 yanvar
2. İsveçrə 21 yanvar
3. Lixtenşteyn 21 yanvar
4. KXDR 30 yanvar
5. Ukrayna 6 fevral
6. Meksika 10 fevral
7. İspaniya 11 fevral
8. İordaniya 13 fevral
9. Almaniya 20 fevral
10. Avstraliya 20 fevral
11. Fransa 21 fevral
12. Polşa 21 fevral
13. Səudiyyə Ərəbistanı 24 fevral
14. Yəmən 25 fevral
15. Banqladeş 26 fevral
16. ABŞ 28 fevral
17. Hindistan 28 fevral
18. Çin 2 mart
19. Böyük Britaniya 11 mart
20. Qvineya 11 mart
21. İran 12 mart
22. Liviya 16 mart
23. Koreya Respublikası 23 mart
24. Finlandiya 27 mart
25. Misir 27 mart
26. Filippin 27 mart
27. Kuba 27 mart
28. Suriya 28 mart
29. İraq 30 mart
30. Niderland 1 aprel
31. Danimarka 2 aprel
32. Yunanıstan 2 aprel
33. Rusiya 4 aprel
34. İsrail 7 aprel
35. Fələstin 15 aprel
36. Monqolustan 16 aprel
37. Estoniya 20 aprel
38. CAR 29 aprel
39. Tayland 7 may
40. İsveç 8 may
41. İtaliya 8 may
42. Moldova 18 may
43. Tacikistan 29 may
44. Lüksemburq 1 iyun
45. Norveç 5 iyun
46. Bolqarıstan 5 iyun
47. Pakistan 9 iyun
48. Turkmənistan 9 iyun
49. Belçika 17 iyun
50. Avstraliya 19 iyun
51. Rumıniya 21 iyun
52. Oman 13 iyul
53. Sudan 25 iyul
54. Portuqaliya 4 avqust
55. Kanada 10 avqust
56. Mərakeş 25 avqust
57. Qvineya-Bisau 27 avqust
58. Qazaxıstan 30 avqust
59. BƏƏ 1 sentyabr
60. Yaponiya 7 sentyabr

61. Yeni Zelandiya 10 sentyabr
62. Qana 11 sentyabr
63. Livan 18 sentyabr
64. Vyetnam 23 sentyabr
65. İndoneziya 24 sentyabr
66. Efiopiya 2 noyabr
67. Gürcüstan 18 noyabr
68. Macarıstan 27 noyabr

1993

69. Qırğızıstan 19 yanvar
70. Çexiya 29 yanvar
71. Malayziya 5 aprel
72. Madaqaskar 26 may
73. Belarus 11 iyun
74. Albaniya 23 sentyabr
75. Braziliya 21 sentyabr
76. Argentina 8 noyabr
77. Zambiya 18 noyabr
78. Slovakiya 23 noyabr

1994

79. Vatikan 9 yanvar
80. Latviya 11 yanvar
81. Əlcəzair 22 aprel
82. Şri-Lanka 4 avqust
83. Sinqapur 15 avqust
84. Komor adaları 6 sentyabr
85. Qatar 14 sentyabr
86. Küveyt 7 oktyabr
87. Mavritaniya 29 oktyabr
88. Qvatemala 1 noyabr
89. Seyşel adaları 2 noyabr
90. Çili 3 noyabr
91. Qambiya 11 noyabr
92. Əfqanıstan 16 noyabr
93. Nikaraqua 23 noyabr
94. Anqola 1 dekabr
95. Kolumbiya 13 dekabr
96. Maldiv adaları 20 dekabr
97. Honduras 22 dekabr
98. Kamboca 28 dekabr

1995

99. Qayana 9 yanvar
100. Malta 9 yanvar
101 Uruqvay 12 yanvar
102. Xorvatiya 26 yanvar
103. Bosniya və Herseqovina 9 fevral
104. Laos 22 fevral
105. Kamerun 24 fevral
106. Nepal 28 fevral
107. Burundi 2 mart
108. Syerra-Leone 13 mart
109. Sent-Kits və Nevis 22 mart
110. Panama 6 aprel
111. Venesuela 12 may
112. Mozambik 20 iyun
113. Makedoniya 28 iyun
114. Antiqua Barbuda 5 iyul
115. Uqanda 19 avqust
116. Özbəkistan 2 oktyabr
117. Nigeriya 10 noyabr
118. Litva 20 noyabr
119. Yamayka 22 noyabr
120. Bruney 24 noyabr

1996

121. Slovakiya 20 fevral
122. Seneqal 14 mart
123. Andorra 30 aprel
124. Liberiya 22 may
125. Peru 25 iyun
126. İrlandiya 1 iyul
127. Boliviya 8 iyul
128. Mavrikiya 19 iyul
129. Qabon 1 oktyabr

130. Cibuti	22 oktyabr
131. Bəhreyn	6 noyabr
132. Kot-D-Vuar	19 noyabr
133. Mali	26 noyabr

1997

134. Kosta-Rika	15 yanvar
135. Yuqoslaviya	21 avqust

1998


136. İslandiya	27 fevral
137. Tunis	1 iyul

1999

138. Salvador	23 mart
139. Benin	14 oktyabr

2000 il

140. Surinam	11 fevral



SON SÖZ ƏVƏZİ

Möhtərəm Prezidentimizin Şərq dünyası ilə bağlı çalışmalarını, etdiyi səfərləri, keçirdiyi görüşləri, verdiyi müsahibələri, apardığı danışıqları, bağladığı müqavilə və sazişləri, gördüyü möhtəşəm işləri nəzərdən keçirdikdən və ucu-bucağı olmayan bu ümmanı qismən də olsa dərk etdikdən sonra anladıq ki, dərinliyi görünməyən bir okeana, sonu bilinməyən bir kainata, yalnız indi bəzilərimizin gördüyü və azacıq da olsa hiss etdiyi, ancaq gələcək nəsillərimiz üçün, onların xoşbəxt gələcəyi üçün yaradılan bir möhtəşəm əsasa, bünövrəyə azacıq da olsa toxuna bilmişik. Bu xəzinəni açıqlamaq üçün isə yəqin ki, nə bizim, nə də sonradan bu mövzu üzərində işləyənlərin ömrü kifayət edəcəkdir. Gəldiyimiz ən başlıca qənaət ondan ibarətdir ki, bu kitabla biz böyük bir aysberqin yuxarı tərəfinin kiçik bir hissəsini aşkarlaya bilmişik, o da əgər bilmişiksə də... Bir də məsələ ondan ibarətdir ki, Prezidentimizin bu titanik zəhmətinin əsas nəticələri və gözə görünəcək, hiss ediləcək xeyirləri yalnız gələcəkdə tam aydınlığı ilə aşkarlanacaq, başa düşüləcəkdir. Onda gələcək nəsillər bu kitabdan siyasət və diplomatiya tarixindən bəhs edən faktoloji bir material kimi istifadə edə biləcəklər.

Kitab qələmə alınmağa başlayarkən biz gördük ki, əgər yalnız keçirilən görüşlərin və görülən işlərin adlarını sadalasaq belə, bu özü böyük bir kitabdır. Axı Azərbaycan Prezidenti ölkəmizin müstəqilliyini qorumaq və möhkəmləndirmək, iqtisadiyyatımızı inkişaf etdirmək, Azərbaycanı dünya miqyasına çıxartmaq üçün olduqca böyük və möhtəşəm işlər görmüşdür. Onun nitqlərini və çıxışlarını, dediyi müdrük kəlamları nəzərdən keçirərkən bir daha qəti fikrə gəldik ki, Azərbaycan Prezidenti Heydər Əliyevin bütün çıxışları, oradakı bütün müddəalar çox mühümdür, yerində və vaxtında deyilmişdir, və biz nə qədər də onu şərh etməyə, açıqlamağa çalışsaq onun özündən yaxşı deyə bilməyəcəyik. Buna görə də çox vaxt onun nitqlərindən parçaları bütövlükle vermiş, bu mümkün

olmadıqda isə verilən şərhlərdə belə onun çıxışlarının stilini saxlamağa çalışmışıq.

Bu kitabı başa çatdırdıqdan sonra əldə etdiyimiz və hələ tam şəkildə istifadə edə bilmədiyimiz materialları nəzərdən keçirdikdən sonra belə bir qənaətə gəldik ki, bu hələ yalnız kiçik bir başlanğıcdır. Prezidentimizin gördüyü möhtəşəm işlər tam və sistemləşdirilmiş şəkildə xalqa çatdırılmalıdır ki, siyasətçilərimiz və diplomatlarımız, iş adamlarımız, alimlərimiz və hər bir Azərbaycan vətəndaşı onlarla sistemli şəkildə tanış ola bilsin. Ona görə də silsilə kitablar hazırlamaq qərarına gəldik və bu iş davam etməkdədir. Öndə bizi Prezidentimizin Türkiyə, İran, ərəb dünyası, İKT-yə üzv olan dövlətlər, türk dünyası ilə bağlı apardığı işlərə həsr olunmuş yeni-yeni tədqiqatlar gözləyir.

Müəlliflər

MÜNDƏRİCAT

Tariximizin və siyasətimizin bayraqdarı 5
Şərq siyasətimizə bir nəzər 17
Azərbaycan - İslam Konfransı Təşkilatı əlaqələri 40
Azərbaycan - Türkiyə əlaqələri 86
Azərbaycan - İordaniya əlaqələri 201
Azərbaycan - Səudiyyə Ərəbistanı əlaqələri 203
Azərbaycan - İran əlaqələri 215
Azərbaycan - Liviya əlaqələri 261
Azərbaycan - Misir əlaqələri 264
Azərbaycan - Suriya əlaqələri 269
Azərbaycan - İraq əlaqələri 272
Azərbaycan - Pakistan əlaqələri 277
Azərbaycan - Mərakeş əlaqələri 282
Azərbaycan - Birləşmiş Ərəb Əmirlikləri əlaqələri 283
Azərbaycan - Livan əlaqələri 291
Azərbaycan - Əlcəzair əlaqələri 293
Azərbaycan - Qatar əlaqələri 295
Azərbaycan - Küveyt əlaqələri 297
Əlavələr 300
Son söz əvəzi 355

Kitabda "AzərTAC"-ın , "Qayıdış. 1990-1993", "Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev" I cild və N.Cəfərovun "Heydər Əliyev" kitablarındakı materiallardan istifadə olunmuşdur.

"Şərq Araşdırmalar Mərkəzi"nin nəşri
№ 10

"HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ" İKT DÖVLƏTLƏRİ

(şəkilli)

Naşiri	Hikmət HÜSEYNOV
Nəşriyyatın direktoru	Eldar ƏLİYEV
Mətbəənin direktoru	Səhraf MUSTAFAYEV
Fotoqraf	Rafiq BAĞIROV
Rəssamı	Firuzə SULTANZADƏ
Texniki redaktor	Fərid KƏRİMOV

Yığılmağa verilib 15.10.2004. Çapa imzalanıb 03.01.2005.
Formatı 70x100 1/16. Ş.ç.v. 22,5. Sifariş № 205.
Sayı 500 nüsxə. Qiyməti müqavilə ilə.

"Çaşıoğlu" mətbəəsi
Bakı, M.Müşfiq küç., 2a